NİSBƏT MEHDİYEVA

# TÜRK XALQLARININ TARİXİ






XIX ƏSRİN ORTALARINDA M




**ƏRKƏZİ ASİYA XANLIQLARI**

T3(2)4/5
M-34

NİSBƏT MEHDİYEVA

# TÜRK XALQLARININ TARİXİ

## YENİ DÖVR

## / XIX – XX ƏSRİN ƏVVƏLLƏRİ /

*Ali məktəblər üçün dərslik*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30 oktyabr 2000-ci il tarixli 994 saylı əmrinə əsasən çapa məsləhət görülmüşdür (Dərslik təkmilləşmiş və əlavələrlə yenidən nəşr edilmişdir)*

34270
AZƏRBAYCAN MİLLİ ... NAXÇIVAN ... KİTAB... AKA...

Bakı-2010

Elmi redaktor: **Tofiq Vəliyev**
*tarix elmləri doktoru, professor*

Rəyçilər: **Yaqub Mahmudov**
*AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor*

**Rəfael Süleymanov**
*tarix elmləri doktoru, professor*

**Tahir Baxşəliyev**
*tarix elmləri doktoru, professor*

**Altay Göyüşov**
*tarix elmləri namizədi*

**N.C.Mehdiyeva** - tarix elmləri doktoru, professor
Türk xalqlarının tarixi. Yeni dövr /XIX –XX əsrin əvvəlləri/
Dərslik. Bakı, 2010, 352 səh.

*Dərslik Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu, Sibir və Krım türklərinin yeni dövr tarixinə həsr olunmuşdur. Burada türk xalqlarının ərazisi, əhalisi və sosial tərkibi, iqtisadi, siyasi və mədəni həyatı verilmişdir. Eyni zamanda Rusiyanın Mərkəzi Asiya və Qazaxıstanı işğal etməsi, işğaldan sonra Türküstanın vahid idarəetmə sisteminə qatılması və kapitalizmin inkişafından bəhs olunmuşdur. Kitabda Birinci dünya müharibəsi illərində türk xalqlarının vəziyyəti də öz əksini tapmışdır. Bununla bərabər fevral inqilabından sonrakı dövrdə türk ölkələrinin regionlarında mövcud ictimai-siyasi vəziyyətə də toxunulmuşdur.*

4722110018 / 121 - 2010 qrifli nəşr

© N.Mehdiyeva, 2010

# MÜNDƏRİCAT

REDAKTORDAN ........ 5

MÜƏLLİFDƏN ........ 7

I FƏSİL. XIX ƏSRİN BİRİNCİ YARISINDA MƏRKƏZİ ASİYA, QAZAXISTAN, VOLQABOYU, SİBİR VƏ KRIM

§ 1. Mərkəzi Asiya və Qazaxıstan ........ 12

§ 2. Volqaboyu, Sibir və Krım ........ 34

II FƏSİL. RUSİYANIN MƏRKƏZİ ASİYA VƏ QAZAXISTANI İŞĞAL ETMƏSİ

§ 1. İqtisadi və siyasi əlaqələr ........ 49

§ 2. İşğalın başlanması, gedişi və nəticəsi ........ 60

III FƏSİL. MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN XIX ƏSRİN İKİNCİ YARISINDA

§ 1. İnzibati idarəetmə sistemində dəyişikliklər ........ 70

§ 2. Çarizmin iqtisadi siyasəti ........ 79

IV FƏSİL. VOLQABOYU, SİBİR VƏ KRIMDA 60-70-Cİ İLLƏRİN BURJUA İSLAHATLARI. KAPİTALİZMİN İNKİŞAFI

§ 1. Sosial-iqtisadi vəziyyət ........ 91

§ 2. Burjua islahatlarının həyata keçirilməsinin xüsusiyyətləri ........ 94

§ 3. Kapitalizmin inkişafı və onun nəticələri ........ 98

V FƏSİL. XIX ƏSRDƏ MƏRKƏZİ ASİYA, QAZAXISTAN, VOLQABOYU, SİBİR VƏ KRIM XALQLARININ MƏDƏNİYYƏTİ

§ 1. Mərkəzi Asiya və Qazaxıstan xalqlarının mədəniyyəti ........ 120

§ 2. Volqaboyu, Sibir və Krım xalqlarının mədəniyyəti ........ 145

VI FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKÜSTAN, VOLQABOYU, SİBİR VƏ KRIM
§ I. Sosial-iqtisadi vəziyyət ........ 168
§ 2. Türk xalqları 1905-1907-ci illər inqilabı dövründə ........ 178
§ 3. Rusiya Dumalarında türk deputatlarının fəaliyyəti ........ 185
§ 4. Türküstan,Volqaboyu, Sibir və Krımda Stolıpin aqrar islahatının həyata keçirilməsi ........ 196

VII FƏSİL. TÜRK XALQLARI BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ. FEVRAL İNQİLABINDAN SONRAKI DÖVR
§ 1. Türk xalqları Birinci dünya müharibəsi dövründə ........ 205
§ 2. Mərkəzi Asiya və Qazaxıstan fevral inqilabından sonra ........ 224
§ 3. Volqaboyu, Sibir və Krımda ictimai-siyasi vəziyyət ........ 233

VIII FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKÜSTAN, VOLQABOYU, SİBİR VƏ KRIM XALQLARININ MƏDƏNİYYƏTİ
§ 1. Türküstan xalqlarının mədəniyyəti ........ 241
§ 2. Volqaboyu, Sibir və Krım xalqlarının mədəniyyəti ........ 269

NƏTİCƏ ........ 279
XRONOLOGİYA ........ 281
ƏDƏBİYYAT ........ 301
XƏRİTƏLƏR VƏ İLLÜSTRASİYALAR ........ 319

## REDAKTORDAN

Sovet dövründə SSRİ-nin tərkibində olan türk ölkələrinin tarixi bütövlükdə müttəfiq respublikalarda tədris olunmurdu. Ali və orta məktəb dərsliklərində türk xalqları haqqında gedən məlumatlar qənaətbəxş deyildi. SSRİ dağıldıqdan sonra müstəqillik əldə etmiş Azərbaycanda türk xalqlarının tarixini öyrənən ayrıca kafedranın yaradılması və bu fənnin tədrisi təqdirəlayiqdir. Bu baxımdan prof. N.C.Mehdiyevanın yazdığı dərslik ilk uğurlu addım kimi bəyənilməlidir. İşin yazılmasında əsas çətinliklərdən biri, bəlkə də əsası, türk xalqlarının tarixin müxtəlif ictimai-iqtisadi inkişaf mərhələlərində olmasıdır. Başqa sözlə desək, yakutlar, xakaslar və s. türk xalqları özbəklərlə müqayisədə çox geridə qalırdılar. Digər çətinlik isə, bu xalqların tarixinə aid ədəbiyyatın Azərbaycanda azlığıdır. Xoşbəxtlikdən müəllif bütün çətinliklərin öhdəsindən gələ bilmiş və ali məktəblər üçün dəyərli bir dərslik yazmışdır. Onu da qeyd etmək lazımdır ki, bu əsər orta məktəb müəllimləri üçün də lazımi dərs vəsaiti rolunu oynayacaqdır.

Dərsliyin yazılmasına qədərki illərdə prof. N.C.Mehdiyeva bu sahədə xeyli iş görmüşdür. Onun türk ölkələrinin tarixinə dair xeyli adda məqaləsi, yeni dövr tarixi üzrə proqramları və metodik tövsiyəsi nəşr edilmişdir. Prof. N.C.Mehdiyeva həm də orta məktəbin IX-X sinifləri üçün çap olunmuş «Yeni tarix» dərsliklərinin müəlliflərindən biridir. Belə bir hazırlıqdan sonra dərsliyin yazılışına başlanılmışdır. Onu da unutmaq olmaz ki, türk ölkələri tarixi bir fənn kimi ali məktəblərdə tədris edilir və prof. N.C.Mehdiyeva Bakı Dövlət Universitetinin Tarix fakültəsində bu fəndən mühazirələr oxuyur. Deməli, belə bir dərsliyin olmasına böyük ehtiyac vardır.

Dərslik müxtəlif tarixi hadisələrlə zəngin olan böyük bir dövrü əhatə edir. Burada haqqında bəhs olunan ölkələrin ictimai-iqtisadi həyatından, Qazaxıstan və Mərkəzi Asiyanın Rusiya tərəfindən işğalından, işğaldan sonrakı dövrdə nəhəng bir regionda kapitalizmin inkişafa başlamasından, Volqaboyu və Krımın bu cəhətdən xeyli fərqli olmasından, bunlarla yanaşı Sibir türklərinin hələ də feodal

münasibətlərinin hökm sürdüyü bir şəraitdə yaşamalarından, eləcə də digər mühüm məsələlərdən ətraflı bəhs olunmuşdur.

Dərslikdə mədəniyyət - maarif, elm, ədəbiyyat və s. məsələlərin tarixinə xüsusi diqqət yetirilmişdir. Müəllif doğru olaraq göstərir ki, bəhs olunan ölkələrdə çar hökumətinin yeritdiyi iqtisadi, xüsusən torpaq siyasəti əsasən yerli əhalinin mənafei nəzərə alınmadan həyata keçirilirdi. Milli-müstəmləkə siyasəti isə ən çox mədəniyyət sahəsində özünü büruzə verirdi. Hələ də ana dilində məktəblərin, mətbu orqanların və başqa vacib təsisatların fəaliyyətinə bir növ qadağa qoyulmuşdu. Köçürmə və ruslaşdırma siyasəti tüğyan edirdi və prof. N.C. Mehdiyeva çar hökumətinin bu siyasətini haqlı olaraq əsaslı şəkildə tənqid etmişdir.

Qısa bir yazıda əsərin məziyyətlərinin hamısından bəhs etmək qeyri-mümkündür. Əslində buna heç ehtiyac da yoxdur. İşin elmi redaktoru kimi ümidvaram ki, prof. N.C.Mehdiyevanın bu dərsliyi ali məktəb tələbələri, magistrlər, aspirantlar, eləcə də müəllimlər tərəfindən rəğbətlə qarşılanacaqdır.

**Tofiq Vəliyev**
*tarix elmləri doktoru, professor*

# MÜƏLLİFDƏN

SSRİ dağıldıqdan sonra Mərkəzi Asiya və Qazaxıstanda yaranmış müstəqil dövlətlər, həmçinin Rusiya Federasiyası ilə öz əlaqələrini mövcud Konstitusiya prinsipləri əsasında quran muxtar türk respublikaları tarixinin tədrisinə diqqət artmışdır. Bakı Dövlət Universiteti və respublikanın digər tədris müəssisələrində «Türk xalqlarının tarixi» fənni öyrənilir. Türk xalqlarının yeni dövr tarixinə aid ümumiləşdirici əsərin olmamasını nəzərə alaraq müəllif «Türk xalqlarının tarixi. Yeni dövr /XIX–XX əsrin əvvəlləri/» dərsliyini yazmışdır. Biz tədris olunan bu fənn üzrə proqramlar /1993, 2002/ və metodik göstəriş /1994/ hazırlayıb nəşr etdirmişik. Eyni zamanda 2000-ci ildə ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün nəşr olunmuş tarix proqramlarında türk xalqlarının yeni dövr tarixi ilə əlaqədar hissələri biz tərtib etmişik. Ümumtəhsil məktəblərinin IX-X sinifləri üçün yazılmış və nəşr olunmuş «Yeni tarix» kitablarında türk xalqlarının tarixini də mən işləmişəm. Müəllifin türk xalqları tarixinin müxtəlif problemlərinə dair xeyli sayda elmi məqalələri nəşr olunmuş və bununla bərabər müəllif Bakı Dövlət Universiteti Tarix fakültəsinin yuxarı kurslarında, həmçinin magistraturada türk xalqlarının yeni dövr tarixini tədris edir.

Bəzi türk xalqlarının tarixi Şərqi Avropa, Qafqaz xalqları, Şərq tarixi və Azərbaycan tarixi fənlərində tədris edildiyinə görə dərslikdə buna yer ayrılmamışdır.

Türk dünyası qərbdə Aralıq dənizi sahillərindən, şərqdə Edzin – Qoy çayına /Çin səddinə/ kimi, şimalda Buzlu okean sahillərindən, cənubda Kunlun dağlarına qədər /Bəndi-Türküstan, Hindiquş/ geniş bir ərazini tutur. Sahəsi 10,5 milyon kvadrat kilometrdən çoxdur ki, bu da Avrasiya materikinin $^1/_5$ deməkdir. Müasir dövrdə türk xalqlarının ümumi sayı 200 milyon nəfərdən çoxdur. Türk xalqlarının tarixin müxtəlif dövrlərində 115-ə qədər dövləti olmuşdur. Müxtəlif zamanlarda mövcud olmuş türk dövlətləri və qurumları parçalanıb dağılmışdır. Bunun bir sıra iqtisadi və siyasi səbəbləri vardır. İlk növbədə patriarxal-qəbilə quruluşu qalıqlarının möv-

cudluğu, tayfa-feodal münasibətlərinin hökm sürməsi, iqtisadi və siyasi cəhətdən qabaqcıl ölkələrdən geridə qalmaları, əlverişli coğrafi şəraitdə yerləşmələri, zəngin təbii sərvətlərə malik olmaları, milli müstəqillik uğrunda mübarizədə siyasi və sosial qüvvələrin zəifliyi və s. idi. Məhz buna görə də bu kimi dövlətlər Rusiya, Çin, İran və b. təsiri altına düşmüşdülər.

Orta əsrlərdə, eləcə də XIX əsr və XX əsrin əvvəllərində Rusiya tərəfindən işğal edilmiş ərazilərdə yaşayan türk xalqlarından azərbaycanlılar, altaylılar, balkarlar, başqırdlar, qaqauzlar, qazaxlar, qaraqalpaqlar, qaraimlər, qaraçaylılar, qumuqlar, qırğızlar, dolqanlar, yakutlar, noqaylar, özbəklər, tatarlar, tofalar, tuvalılar, türkmənlər, xakaslar, çuvaşlar və b. göstərmək olar. Çar Rusiyası hələ XVI-XVII əsrlərdə Kazan, Həştərxan, Qərbi və Şərqi Sibiri, XVIII əsrdə Krımı zəbt etmiş, XIX əsrin ikinci yarısında isə Mərkəzi Asiya və Qazaxıstanın işğalını başa çatdırmışdı. Bu xalqların iqtisadi, ictimai-siyasi və mədəni həyatı Rusiyanın təsir dairəsində və onun yürütdüyü siyasətlə bağlı olmuşdu. Rusiyada baş verən proseslər milli ucqarlarda, o cümlədən türk xalqlarının ərazilərində də özünü göstərmişdi. Lakin bununla yanaşı yerli, spesifik xüsusiyyətlərə malik olan türk xalqları özünəməxsus tərzdə inkişaf etmişdi.

Öz milli koloritliyini qoruyub saxlamağa çalışan türk xalqları tarixi inkişafın müəyyən problemləri ilə bağlı olaraq bir sıra çətinliklərlə də rastlaşmışdılar.

XIX əsrin əvvəllərində türk xalqları ərazi, əhali, sosial tərkib və inkişaf səviyyəsinə görə nəinki Rusiya ilə müqayisədə, hətta özləri də bir-birindən xeyli fərqlənirdilər. Əgər XIX əsrin ikinci yarısında Volqaboyu, Sibir və Krımda burjua islahatları həyata keçirilmişdisə, Mərkəzi Asiya və Qazaxıstanda kapitalist münasibətləri hələ yenicə yaranmaqda idi. Kazan Universiteti /1804/ türk xalqlarının ilk ali təhsil müəssisəsi olmuşdu. Mərkəzi Asiya və Qazaxıstanda Oktyabr çevrilişindən sonra – Sovet hakimiyyəti illərində çoxsaylı təhsil ocaqları, həmçinin ali məktəblər yaradılmışdı.

XVIII əsrin axırı-XIX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanda feodalizm quruluşu dövrünə xas olan məhdudiyyətlərə baxmayaraq iqtisadi həyatda irəliləyiş özünü göstərirdi. Kokand və Xivə xanlıqlarında, Buxara əmirliyində dövlət hakimiyyə-

tinin mərkəzləşdirilməsinə daha çox üstünlük verilirdi. Əhalinin sayı artırdı. Feodal münasibətləri patriarxal-qəbilə münasibətləri ilə çulğalaşmışdı. Kəndlilər rəsmi olaraq torpağa təhkim edilməmişdilər. Sənətkarlıq və ticarət genişlənirdi.

Mərkəzi Asiya Rusiya ilə İngiltərə arasında rəqabət meydanına çevrilmişdi. Qazaxıstanda müstəmləkəçilik əleyhinə çıxışlar baş verirdi.

XIX əsrin birinci yarısında Mərkəzi Asiya və Qazaxıstan iqtisadi cəhətdən Rusiyanın təsir dairəsinə düşmüşdü. Diplomatik və siyasi əlaqələrin genişlənməsi çarizmə yeni ərazilər işğal etmək imkanı vermişdi. Daxili və xarici şərait Rusiyanı regionda daha inamlı addımlar atmağa sövq edirdi. 1862-1895-ci illərdə Rusiya Mərkəzi Asiyanın işğalını başa çatdırmışdı. Bunun real nəticələri Rusiyanın sonrakı dövrdə həyata keçirdiyi tədbirlərdə özünü daha açıq şəkildə göstərmiş oldu. Rusiya Mərkəzi Asiya və Qazaxıstanı çarizmin vahid idarəetmə sisteminə uyğunlaşdırmaq üçün bir çox islahatlar həyata keçirməyə məcbur olmuşdu. Türküstan vilayəti, Türküstan general–qubernatorluğu, Buxara və Xivədə çar protektoratlığı, Türküstan diyarı, Türküstan komitəsi yaradılmışdı. Çarizm işğal etdiyi bölgələrdə hökumətin aqrar siyasətini həyata keçirmək üçün bir sıra qanunlar vermişdi. «Köçkünlər fondu» yaradılmışdı. Çar Rusiyası müxtəlif vasitələrlə özünə sosial dayaq yaratmağa çalışırdı. Ona görə də dəmiryolu nəqliyyatının genişləndirilməsi, yeni müəssisələrin açılması, sənətkarlığın inkişafı və ticarətin genişləndirilməsinə xüsusi əhəmiyyət verilirdi. Getdikcə Türküstan diyarı satış bazarı və xammal mənbəyinə çevrilirdi.

Volqaboyu, Sibir və Krım türkləri öz əzəli torpaqlarında yaşayaraq sayca artmış, əhalinin sosial tərkibində müəyyən dəyişikliklər baş vermiş, inzibati idarə sistemi yeniləşdirilmişdi. Volqaboyunda kapitalist münasibətlərinin yaranması və inkişafı kənddə ictimai təbəqələşməyə səbəb olmuşdu. Krımda kənd təsərrüfatı Rusiyanın bir çox mərkəzi rayonlarına nisbətən kapitalist inkişafı yoluna daha tez keçməsilə xarakterizə olunurdu. Yeni şəhərlər salınır və ticarət genişlənirdi. Kazan şəhəri Rusiyanın Avropa hissəsi ilə Qərbi Sibir və Mərkəzi Asiya arasında iri tranzit mərkəzinə çevrilirdi. Başqırdıstanda istehsal olunan dəmir Türkiyə, İran və Asiyanın başqa

ölkələrinə satılırdı. Volqa gəmiçiliyi Çuvaşiyanın iqtisadiyyatını Ümumrusiya bazarı ilə əlaqələndirirdi. Altay Dağlıq mahalı dağmədən və metallurgiya sənayesində fəhlələrin sayına görə Uraldan sonra ikinci yerdə gedirdi.

Ümumiyyətlə, Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra Volqaboyu, Sibir və Krımda burjua islahatlarının həyata keçirilməsinin yerli, özünəməxsus xüsusiyyətləri olmuşdu.

XX əsrin əvvəllərində Türküstan, Volqaboyu, Sibir və Krımın təsərrüfat həyatında ciddi dəyişikliklər baş vermişdi. Rusiyada xeyli gecikmiş 1905-1907-ci illərin burjua inqilabı türk xalqlarının da ictimai-siyasi vəziyyətinə təsir göstərmişdi. I,II,III və IV Dövlət dumalarında Müsəlman fraksiyası fəaliyyət göstərirdi. Fraksiyaya daxil olan müsəlman deputatlar Duma tribunasından çarizmin həyata keçirdiyi müstəmləkə siyasətini tənqid edir, türk xalqlarının ağır vəziyyəti haqqında məlumatları geniş ictimaiyyətə çatdırırdılar.

Stolıpinin aqrar islahatı Türküstan, Volqaboyu, Sibir və Krımda da tətbiq edilmişdi. Bu islahatın həyata keçirilməsi mühafizəkar kənd icmalarına böyük zərbə endirmiş və kapitalist münasibətlərinin genişlənməsinə səbəb olmuşdu. Bank-kredit sistemi güclənmişdi. Lakin bütövlükdə icmanın dağıdılması baş tutmamış, aqrar böhran aradan qaldırılmamışdı. Başqırdıstan, Çuvaşiyanın bəzi kəndlərində torpaqların xüsusi mülkiyyətə çevrilməsinə qarşı çıxışlar baş vermişdi. Yakutiyada isə kəndlilər vergi verməkdən boyun qaçırırdılar. Bütövlükdə Stolıpinin torpaq islahatının qarşıya qoyulmuş problemi tamamilə həll edə bilməməsinə baxmayaraq kənddə ictimai təbəqələşməyə təkan vermişdi.

Türk xalqları Birinci dünya müharibəsi illərində cəbhənin ərzaq məhsulları, geyim və hərbi ləvazimatla təmin olunmasında yaxından iştirak etmişdilər.

1917-ci ilin fevralında baş vermiş inqilab türk xalqlarının ictimai-siyasi həyatına öz təsirini göstərdi. Milli ucqarların zəhmətkeşləri çarizmin devrilməsini özlərinin siyasi azadlıq və milli dirçəlişi kimi qarşıladılar. Lakin Müvəqqəti hökumət öz üzərinə götürdüyü təəhhüdləri həyata keçirmədi.

Qədim və zəngin mədəniyyətə malik olan türk xalqları maarif, ali təhsil, elm, ədəbiyyat və incəsənətin inkişafı sahəsində müəyyən

nailiyyətlər əldə etmişdi. Əlbəttə, bu sahədə bəzi çətinliklər də mövcud idi. Buna baxmayaraq, türk xalqları özünəməxsusluğunu və milli mədəniyyətini əsasən qoruyub saxlaya bilmişdi. Cəmiyyət inkişaf etdikcə ictimai-iqtisadi quruluş dəyişilmiş, xalqın yaratdığı maddi və mənəvi sərvətlər mədəni irsə çevrilmişdi. Türk xalqlarının elm və mədəniyyət xadimləri, maarifçiləri, ziyalıları bu mədəni irsi inkişaf etdirməklə onu daha da zənginləşdirmişdilər. Rusiyanın mütərəqqi görüşlü alimləri, səyyahları türk xalqlarının ictimai-iqtisadi, mədəni həyatını, ilk növbədə dil, ədəbiyyat, tarix, ümumiyyətlə mədəniyyətin digər sahələrinin öyrənilməsinə xüsusi diqqət yetirmiş və sanballı əsərlər yazmışdılar. Görkəmli rus şərqşünasları bu işdə mühüm rol oynamışdılar. Lakin bununla yanaşı türk xalqları yaşayan regionlarda mədəniyyətin inkişafı Rusiyanın maraqları istiqamətində davam etdirilirdi.

Müəllif tələbələrin, magistrlərin, aspirantların, bütövlükdə geniş oxucu kütləsinin istifadəsinə təqdim etdiyi bu dərslikdə yuxarıda göstərilmiş çoxsaylı məsələləri sayca çox olmayan ilk mənbələr və tarixi ədəbiyyat əsasında oxunaqlı şəkildə şərh etməyə çalışmışdır.

Dərsliyin qüsurları, eləcə də arzu və təkliflərini bildirən şəxslərə müəllif əvvəlcədən öz minnətdarlığını bildirir, onların növbəti nəşrdə nəzərə alınacağını vəd edir.

# I FƏSİL

# XIX ƏSRİN BİRİNCİ YARISINDA MƏRKƏZİ ASİYA, QAZAXISTAN, VOLQABOYU, SİBİR VƏ KRIM

## § 1. MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN

**İnzibati quruluş. Əhali.** Mərkəzi Asiya və Qazaxıstan öz ictimai-iqtisadi quruluşuna görə hələ feodalizm dövründə idi. XVIII əsrin axırı-XIX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanda feodalizm quruluşu dövrünə xas olan məhdudiyyətlərə baxmayaraq, təsərrüfatda müəyyən irəliləyiş hiss olunurdu. Bu da özünü suvarma sisteminin genişlənməsi, köçərilərin bir hissəsinin oturaq həyata keçməsi, torpaq mülkiyyətinin xarakterinin dəyişməsi, əmtəə-pul münasibətlərinin inkişafa başlaması və qonşu ölkələrlə iqtisadi əlaqələrin güclənməsində göstərirdi.

Buxara, Xivə və Kokand xanlıqlarında siyasi birlik uğrunda mübarizədə ticarət və sənətkarlıqla məşğul olan əhalinin rolunun artması qismən də olsa feodal pərakəndəliyinin qarşısını almışdı. Ancaq hər üç xanlığın vahid dövlət halında birləşməsində hakimiyyət uğrunda gedən daxili çəkişmələr və feodal müharibələri əhalini var-yoxdan çıxarır, iqtisadi və mədəni inkişafı ləngidirdi. Xocənt, Ura-Tuba, Mərv, Cizak kimi varlı vilayətlər hərbi döyüş meydanına çevrilmişdi.

Buxara xanlığının (XVI-XX əsrin əvvəlləri) ilk hakimi Məhəmməd Şeybani olmuşdu. 1533-cü ildə paytaxt Səmərqənddən Buxaraya köçürüldükdən sonra Buxara xanlığı adlandırılmışdı. II Abdulla xanın dövrü (1557-1598) xanlığın ən güclü vaxtı idi. 1740-cı ildə Nadir şah Buxara xanlığını işğal etmişdir. Onun ölümündən sonra Manqıtlar sülaləsi hakimiyyətə gəlmiş (1753-1920) və xanlıq əmirlik adlandırılmışdı.

Feodal monarxiyası kimi Buxara mürəkkəb idarəetmə aparatına malik idi. Onun başında əmir dururdu. Bütün ölkə vilayətlərə

ayrılmışdı. Onlara hakim və bəylər rəhbərlik edirdilər. Ali inzibati hakimiyyət birinci əyan kuşbeqiyə məxsus idi. İkinci maliyyə məsələlərinə baxan aşağı kuşbeqi adlanırdı. Əmirin sarayında müxtəlif vəzifələrdə işləyən məmurlar aparatı mövcud idi. Buxara xanlığında iri torpaq sahibləri olan müsəlman ruhaniləri ölkədə böyük nüfuza malik idilər. Baş ruhani şeyxülislam idi. Məhkəmə hakimiyyəti də onların əlində cəmləşmişdi. Şəhərlərdə fəaliyyət göstərən bütün hakimlər (qazılar) paytaxtın baş hakiminə (qazı-kalyana) tabe idi.

XIX əsrin əvvəlində Zərəfşan və Qaşqadərya vadisi ilə bərabər Surxandərya, Hissarla birlikdə taciklərin daha çox məskunlaşdıqları vilayətlər, Xocənt, Ura-Tuba, Pəncikənd və Zərəfşanın şimalındakı torpaqlar, Mürğab daxil olmaqla Türkmənistanın böyük bir hissəsi, şimalda isə Türküstan şəhərinə qədər olan bütün ərazilər Buxara xanlığına daxil idi. XIX əsrin 20-ci illərində Ura-Tuba Buxara xanlığından ayrılmış, Xocənt isə Kokand xanlığı tərəfindən işğal olunmuşdu. Sonralar bu rayonlar gah Buxaranın, gah da Kokandın hakimiyyəti altına düşmüşdülər. Bəlx, Əndxoy, Meymənə, Şaburqan və Cənubi Türküstanın bəzi vilayətlərinin müxtəlif vaxtlarda Buxara xanlığından vassal asılılığında olmalarına baxmayaraq, XIX əsrin 50-ci illərinin axırlarında bu ərazilər İngiltərənin köməyi ilə əfqan əmirləri tərəfindən tutulmuşdu.

Xivə xanlığı 1512-1920-ci illərdə fəaliyyət göstərmişdir. Onun banisi özbək xanı İlbars olmuşdu. Qədim Xarəzmi, Manqışlaq və Dehistanı, Xorasanın şimal hissəsini və s. əraziləri əhatə etmişdi. Paytaxtı Vəzir, Ürgənc və Xivə olmuşdu. XVI və XVII əsrin birinci yarısında Xivə xanlığında daxili çəkişmələr getmiş, Buxara xanlığı, Səfəvilər dövləti və köçəri türkmənlərlə aramsız müharibələr aparılmışdı. Kunqrat tayfasından olan Məhəmməd Rahimin dövründə (1806-1825) Xivə xanlığının birləşdirilməsi başa çatmışdı.

XIX əsrin birinci yarısında bilavasitə xan tərəfindən sərəncam almış Xivənin baş əyanı kuşbeqi olmuşdu. O, xanlığın bütün cənub hissəsinin oturaq əhalisini idarə edirdi. Onun bilavasitə davamçısı olan şəxsə xanlığın şimal hissəsi tabe idi. Ümumiyyətlə, Xivə xanlarının türkmən, qazax, Xorasan hökmdarlarına qarşı müvəffəqiyyətli yürüşləri və qaraqalpaqları özlərinə tabe etmələri xan hakimiyyətini gücləndirmişdi.

Türkmənlərin bir hissəsinin məskunlaşdığı Üstyurd və Manqışlaqda qazaxlar da yaşayırdılar. Türkmənlərin ərazisi qərbdə Xəzər dənizi, cənubda Qurgen çayı, Kopetdağ və Paropamiz sıra dağları, şərqdə Amudəryanın sağ sahilində səhra və çöl, Xarəzm vahəsinin özbək rayonları, şimalda isə Üstyurd platosunun şimal hissəsi ilə məhdudlaşırdı.

Qaraqalpaq xalqının formalaşdığı əsas ərazi Sırdəryanın aşağı hövzəsidir. Onlar Ural və Emba çaylarının aşağı axarında da yaşayırdılar. XIX əsrin əvvəllərində Xivə xanları qaraqalpaqları xanlığa tabe etdikdən sonra onları Amudəryanın deltasına köçürmüşdü.

Xivə xanlığı bütün Xarəzm vahəsinə sahib idi. 1811-ci ildə Aral torpaqlarının xanlığa qatılması, Xarəzmdə üstünlük təşkil etmək üçün aparılan uzunmüddətli mübarizə ölkənin siyasi birliyində mühüm rol oynamışdı. Lakin Xivə xanlığının birləşdirilməsi tam olmamışdı, çünki türkmən qəbilələri, özbək-arallılar heç də xanlığa həmişə tabe olmur və əlverişli şərait yaranan kimi üsyan qaldırırdılar.

Kokand xanlığı (1710-1876) Fərqanə vadisində yerləşirdi. Əsasını Şahrux bəy qoymuşdu. Xanlardan Alim (1800-1809), Ömər (1809-1822) və Məhəmmədəlinin (1822-1842) dövründə Kokand xanlığı daha güclü olmuşdu. Alim 1808-ci ildə xan titulunu qəbul etmişdi. Həmin vaxtdan Fərqanə vadisi rəsmi olaraq Kokand xanlığı adlandırılmışdı.

Kokand xanlığında öz əhəmiyyətinə görə baş əyan olan minbaşı Buxara xanlığındakı kuşbeqiyə uyğun gəlirdi. Daşkəndin inzibati-siyasi cəhətdən idarə edilməsində mühüm rol oynayan və xan tərəfindən təyin edilən başçı bəylərbəyi titulunu daşıyırdı. XIX əsrin birinci rübündə Kokand xanı Daşkənd və Türküstanı işğal etmiş, Semireçyenin (qazaxlar özləri Jetısu deyirlər- red.) bir hissəsini və Sırdərya boyunca köçəri qazaxları öz hakimiyyətinə tabe etmişdi. İşğal olunmuş ərazilərdə qala və şəhərlər tikilir, Fərqanədən buraya tacir, sənətkar və əkinçilər köçürülürdü.

Nəticədə bir müddətdən sonra özbəklərdən ibarət kəndlər yaranmışdı. XIX əsrin ortalarında Bişkekdə-1000-ə yaxın, Kurtkada-400-ə, Tokmakda-200-ə, Toquz-Toro, Cumqal və Qara-Baltada 100-ə qədər özbəklərdən ibarət ev var idi.

Qırğızıstanı işğal etdikdən sonra Kokand xanları burada həm də inzibati-ticarət məntəqəsi kimi fəaliyyət göstərən bir sıra hərbi istehkam tikmişlər. Qırğızıstanın cənubunda Qızılkurqan, Çinaz, Turekurqan, Darutkurqan, Sufikurqan və Taşkurqan, Çu vadisində Merke, Çaldıvar, Şiş-Tuba, Aksu, Bişkek, Tokmak və İssıkkul çökəkliyində Qaraqol, Barskaun, Konur-Ulen və s. istehkamlar var idi. Hərbi istehkamlar Cənubi Tyanşanda Koçkor, Cumqal, Toquz-Toro, Kətmən-Tuba, Kurtkada da inşa edilmişdir. Auliye-Ata qalasında olan qarnizonun köməyi ilə Kokand xanı Böyük juz və Talas qırğızları üzərində öz hakimiyyətini qoruyub saxlayırdı.

XIX əsrin 40-cı illərindən başlayaraq Kokand xanlığının süqutuna kimi minbaşı və xan qoşununun baş komandanını köçəri qıpçaq və qırğız əhalisindən olan feodal dairələrin nümayəndələri təşkil edirdi. Onlar qırğız və özbəklərin narazılığından istifadə edərək dəfələrlə Kokandda hakimiyyətə gəlmişdilər.

Kokand bəyləri tərəfindən idarə olunan Qırğızıstanın ərazisi bir neçə vergi dairəsinə bölünmüşdü. Fərqanə vadisindəki köçəri qırğızlar yaxın şəhərlərin hakimiyyətinə tabe olmaqla onlara vergi verir və hərbi xidmətə gedirdilər.

Alay vadisindəki qırğızlar inzibati cəhətdən Əndican canişinliyinə aid olub Qızılkurqan istehkamı tərəfindən bilavasitə idarə olunurdu.

Tyanşan dağı, Narın çayı boyu və Sırt yaylasına köç edən qırğızlar Əndican dairəsinə tabe edilmişdi. Onlar Kurtka, Toquz-Toro, Cumqal və Atbaşi istehkamları tərəfindən idarə olunurdu.

Auliye-Ata, Merke, Aksu, Bişkek və Tokmak tərəfindən idarə olunan Çu və Talas vadisi, İssıkkul çökəkliyi Daşkənd canişinliyinə tabe edilmişdi. Çatkal vadisi və Susamır qırğızları da bu canişinliyə aid idi.

Kokand xanlığı Qırğızıstanı işğal etdikdən sonra burada möhkəm inzibati idarəetmə sistemi yarada bilməmişdi. Qırğızların köç etmələri ilə əlaqədar olaraq inzibati-siyasi bölgü dəyişir və müəyyən səhvlərə yol verilirdi. Bununla bərabər ayrı-ayrı Kokand dairələrində tez-tez zəkat yığanlarla toqquşmalar olurdu. Bütün bunlara baxmayaraq Mərkəzi Asiyada Kokand xanlığı ən iri xanlığa çevrilmişdi.

Ümumiyyətlə, hər üç xanlığın siyasi həyatına müsəlman ruhaniləri xeyli təsir göstərirdilər. Ali ruhani şəxslər xoca-kalyan və şeyxülislam idi. Bunlar ruhanilərin fəaliyyətinə nəzarət edirdilər. Məhkəmə hakimiyyəti də müsəlman ruhaniləri tərəfindən idarə olunurdu.

XVIII-XIX əsrlərdə Mərkəzi Asiya xanlıqlarında qoşun əsasən süvarilərdən ibarət olmuşdu. Eyni zamanda piyada qoşun hissələri də var idi. Müharibə dövründə kəndlilərdən təşkil edilmiş köməkçi qeyri-nizami qoşun müdafiə tədbirləri və başqa işləri həyata keçirirdi. Buxara xanlığında qoşunun bir hissəsini peşəkar hərbçilər, sərrast atıcılar və silah istehsalı ustaları təşkil edirdi. Qoşun hissələri Buxara şəhərində və xanlığın ayrı-ayrı vilayətlərində yerləşdirilmişdi. Kokand xanlığında çox da böyük olmayan qoşun dəstəsinə rus dənizçisi Nikolay Arşinov və yeddi ingilis zabiti hərbi təlim keçirdi. Xivə xanlığında piyadalara nisbətən süvari qoşun daha çox idi.

Qazax əhalisinin məskunlaşdığı region əsasən indiki Qazaxıstan Respublikasının ərazisinə müvafiqdir. Qazaxıstanın ərazisi qərbdə Xəzər dənizinin şimal-şərq sahilləri və Volqaboyu ovalığından şərqdə Tyanşan dağlarının ətəklərinədək 3000 km-dən çox məsafədə uzanıb gedirdi. Qazaxıstanın şimal sərhədləri Sibir və Altay düzənliyinə söykənirdi. Cənubda isə bu sərhədlər Qızılqumun cənub hüdudlarına çatırdı.

Qazaxıstanın ərazisinin bir hissəsi – Kiçik juz hələ 1731-ci ildə, Orta juz isə 1740-cı ildə Rusiyanın təbəəliyini qəbul etmişdi. XVIII əsrdə salınmış rus şəhərlərində qazaxların sayı çox az idi. XIX əsrin əvvəllərində isə Qazaxıstanın Sırdərya boyunca əkinçiliklə məşğul olan əhalisi və Talas (Türküstan, Auliye-Ata və b.) Kokand bəyləri tərəfindən işğal olunmuşdu.

Mərkəzi Asiya və Qazaxıstanın əsas vilayətlərində müəyyən dərəcədə dövlət hakimiyyətinin mərkəzləşdirilməsinə nail olunmuşdu. Buxara əmirliyi, Xivə və Kokand xanlıqları bu və ya digər əraziləri ələ keçirmək uğrunda aramsız müharibələr edirdilər. Xanlıqlarda mövcud olan çoxsaylı bürokratik idarəetmə aparatı isə özbaşınalıqlara səbəb olurdu. Bu da əhalinin sosial-iqtisadi və ictimai-siyasi həyat tərzinə öz təsirini göstərirdi.

XVIII əsrin ortalarından-XIX əsrin ikinci yarısına kimi Mərkəzi Asiya xanlıqları əhalisinin bir qədər artması müşahidə olu-

nurdu. XIX əsrin əvvəlində Buxara xanlığında 2 milyona yaxın, Xivə xanlığında 300 mindən çox, Kokandda isə (Daşkənd və Türküstan daxil olmaqla) 1 milyona yaxın əhali yaşayırdı. Aral dənizi sahili və Zərəfşanda təxminən 100 min qaraqalpaq məskunlaşmışdı. Mərkəzi Asiya və Qazaxıstanın əhalisi özbəklər, taciklər, qazaxlar, qırğızlar, türkmənlər, qaraqalpaqlar, az sayda iranlı, ərəb, yəhudi, hindli və qaraçılardan ibarət idi. Hər üç xanlıqda özbəklər üstünlük təşkil edirdilər. Bir çox şəhər və ayrı-ayrı kəndlərdə taciklər, Xivə və Buxaranın cənub və qərb rayonlarında türkmənlər, şimalda isə qazax və qırğızlar yaşayırdılar.

Özbəkistanda oturaq əhali köçəri və yarımköçərilərdən çox idi. Kənd yerlərinin çoxunda oturaq əkinçilər, köçəri və yarımköçəri əhali özbək dilində danışırdı. Daşkənd, Fərqanə və Xarəzm şəhərlərinin əhalisi üçün də rəsmi dil özbək dili idi. Səmərqənd və Buxarada əhalinin çox hissəsi ailədə tacik dilindən istifadə edirdi. Bütün xanlıqlarda xan sülaləsi, tanınmış feodallar və qoşun özbəklərdən ibarət idi. Dəftərxana işləri isə əsasən tacik dilində aparılırdı.

XIX əsrin ortalarında Buxara xanlığının əhalisi ayrı-ayrılıqda özünəməxsus həyat tərzində yaşayan müxtəlif qrup, tayfa və xalqların birliyindən ibarət idi. Özbək xalqının xeyli hissəsini təşkil edən köçəri əhali XIX əsrin əvvəlində tədricən oturaq həyata və əkinçiliyə keçmişdi. Özbəklərin xeyli hissəsi Qaşqadərya, Surxandərya, Zərəfşan, həmçinin Fərqanə vadisi və Xarəzmdə yerləşmişdi.

XIX əsrin 50-ci illərində Amudəryanın cənubunda yaşayan köçəri qazaxlar öz vətənləri Qazaxıstana getmişdilər. Az miqdarda olan ərəblər bütün xanlıqlara səpələnmişdilər.

Başqa xalqlara qarışmayan köçəri və yarımköçəri türkmənlər özbəklərlə yanaşı, təxminən müasir inzibati bölgüyə uyğun olan ərazilərdə, İran və Əfqanıstanın bəzi rayonlarında yaşayırdılar. Onlar öz mədəniyyət və məişətinə görə fərqlənən bir çox tayfalardan ibarət idilər.

**Sosial-iqtisadi münasibətlər.** Mərkəzi Asiya və Qazaxıstanda əkinçilik və maldarlıq əsas təsərrüfat sahələri olaraq qalırdı. Xanlıqların təsərrüfatının əsasını suvarma və dəmyə əkinçilik təşkil edirdi. Daxili və xarici feodal müharibələrinə baxmayaraq xanlıqlarda xalq kütlələri süni suvarma sistemlərini təmir etmiş və yeni

34270
AZƏRBAYCAN MİLLİ ELMLƏR NAXÇIVAN BÖLMƏSİ ELMİ KİTABXANA

kanallar çəkmişdilər. Suvarma sisteminin bərpasına hələ XVIII əsrin 50-ci illərində Zərəfşanda başlanılmışdı. XVIII əsrin ikinci yarısı XIX əsrin əvvəllərindən yeni suvarma kanallarının tikilməsi və suvarılan əkin sahələrinin genişlənməsinə diqqət artırıldı. İlk olaraq Darqom bəndi bərpa olunmuşdu. Xivə xanlığında da bu sahədə bir sıra işlər görülmüşdü. Hələ XVIII əsrin 60-cı illərində Amudəryadan Keneqes kəndinə kanal çəkilmişdi. XIX əsrin əvvəllərində Namanqan rayonunda Yengiarık, Daşkənd rayonunda Xanarık kanalları tikilmişdi. 1815-ci ildə Klıç-Niyazbəy kanalı, XIX əsrin 50-ci illərində Turtkul ərazisində isə başqa bir kanal çəkilib başa çatdırılmışdı. 1868-1871-ci illərdə Fərqanədə tikilən Uluqnar kanalının inşasında 4000 adam iştirak etmişdi. Bunlar əkinçiliyin inkişafına böyük təkan vermış və köçərilərin oturaq həyata keçməsinə köməklik göstərmişdi.

Buxara xanlığında əhali oturaq və köçərilərə ayrılırdı. Torpaq üç kateqoriyaya: dövlət-əmlak, xüsusi mülkiyyət-mülk və ruhanilərin-vəqf torpaqlarına bölünürdü. Bu torpaqlarda işləyən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan kəndli dövlətə və torpaq sahibinə torpaqdan istifadə etdiyinə görə vergi verməli idi. Başqa növ vergilər də var idi. Tanaban-bağ və üzümlüklərə, zəkat-mal-qara və başqa cür əmlak növlərinə görə alınırdı. Eyni zamanda başqa məhsulların istehsalına görə də vergi verirdilər. Buxara xanlığında torpaqlardan alınan vergi xərac adlanırdı. XIX əsrdə iri şəhərlərin ətraflarında və s. yerlərdə xərac vergisi pul ilə yığılırdı. Müharibə başlandıqda bir qayda olaraq əhalidən fövqəladə vergi (cul) toplanırdı. Xivə xanlığında dövlət torpağında yaşayan kəndlilər $^{1}/_{10}$ vergisi verirdilər. Bu xanlığın Ürgənc, Xanka, Xivə, Qurlen və başqa şəhərlərində ticarət mərkəzlərinin tacirləri xana hər il bəy-pulu vergisi ödəyirdi. Kokand xanlığının vergi sistemi Buxara xanlığının vergi sisteminə oxşar idi.

Ümumiyyətlə, Mərkəzi Asiya xanlıqlarında torpaq mülkiyyəti formaları və vergi növləri müxtəlif idi. Vergilərin toplanılmasında nizamsızlıq özünü göstərirdi. Bu isə xanlıqların iqtisadiyyatına mənfi təsir edir, maddi marağı zəiflədir və əhalinin narazılığını artırırdı. Xanlıqlarda vergilər getdikcə artırdı. XIX əsrin 30-40-cı illərində qırğızlar üç adda vergi ödəyirdisə, 50-60-cı illərdə onların

sayı 20-yə çatmışdı. Vergi və töycüdən əlavə yerli əhali Kokand qarnizonunu ərzaqla təmin etməyə, xan hakimiyyəti nümayəndələrinə mal-qara və taxıl göndərməyə, vergi toplayanları saxlamağa borclu idi.

Xanlıqlarda əkinçi və sənətkarlar nəinki öz aralarında mal mübadiləsi aparır, həm də köçəri maldarları taxıl və parça ilə təchiz edirdilər. Belə əmək bölgüsü Özbəkistanın ərazisində bütün təsərrüfat sahələrinin intensivləşdirilməsinə, əmtəə-pul münasibətlərinin inkişafına və şəhərlərin yaranmasına imkan verirdi.

Əsrlər boyu kənd təsərrüfatı istehsalı prosesi və əkinçilik alətləri az dəyişilmişdi. Kənd təsərrüfatı alətlərində əsas yenilik çuqun və dəmir gavahının (kotanın və ya xışın ağzı) tətbiqi olmuşdu. Taxıl əkilməsi, biçilməsi və döyülməsi əl əməyinə əsaslanırdı. Əmək vərdişi, torpaqdan istifadə etmək bacarığı, bağçılıq və bostançılıqdan yüksək məhsul götürülməsi, başqa sözlə, əkinçilik mədəniyyətinin yüksək olması Mərkəzi Asiya əhalisinə bəhs edilən dövrdə kənd təsərrüfatını inkişaf etdirməyə imkan vermişdi. 1820-ci ildə N.N.Muravyov yazırdı ki, Xivədə torpağın becərilməsinə belə qayğını mən heç Almaniyada da görməmişəm. XIX əsrin 50-ci illərində kənd təsərrüfatının inkişafı sahəsində Fərqanə başqa vilayətlərə nisbətən daha irəlidə idi.

XIX əsrin ortalarında Buxara, Fərqanə, Şəhrisəbz, Yeni Ürgənc və Kattakurqan əsas pambıqçılıq rayonları idi. Düyü istehsalı Səmərqənd vilayəti, tütün Karşi və Kattakurqan, qırmızı boya (marena) Xivə xanlığında, ipəkçilik Xəzərəsp, Buxara, Margilan və Kattakurqanda geniş yayılmışdı. Qaraqalpaqlar iribuynuzlu mal-qara, türkmənlər isə qoyunçuluq, dəvə və atçılıqla məşğul olurdular. Hələ XVIII əsrin ikinci yarısından qaragül dəriləri İran, Rusiya və Qərbi Avropaya ixrac edilirdi. Amudəryanın aşağı və orta hissələrində yerləşən rayonlarda, Mürğabda qoyunçuluq əsas sahələrdən biri idi.

Türkmənistandakı atçılıq (xüsusilə axaltəkin cinsindən olan) təsərrüfatı dünyanın müxtəlif bölgələrində, o cümlədən ərəb, ingilis, Orlov və Qarabağ atçılıq təsərrüfatına öz təsirini göstərmişdi. Professor V.O. Vitt göstərirdi ki, çoxəsrlik mədəni atçılığın inkişafında türkmən atçılığı öz cinsinə və sərfəliliyinə görə seçilirdi.

Türkmən atları ingilislər tərəfindən Hindistana gətirilirdi. Ayrı-ayrı illərdə 200-dən çox at aparılmışdı.

XIX əsrin birinci yarısında Türkmənistanda sənətkarlıq kənd təsərrüfatından hələ də tam ayrılmamışdı. Özünəməxsus toxunuş tərzinə malik olan türkmən xalçaları dünya şöhrəti qazanmışdı. Bu xalçaların xeyli hissəsi əvvəlcə Rusiyaya aparılır, oradan isə bütün dünyaya yayılırdı. 1821-ci ildə Xorasanda olan İngiltərə səyahətçisi Frezer yazmışdı ki, Türkmənistanın sənayesi əsas etibarilə xalçaçılıqdan ibarətdir. Bu xalçalar çox gözəl materialdan toxunduğuna görə yüksək qiymətləndirilir və böyük gəlir gətirirdi. Türkmənlərin məişətində eyni zamanda çox geniş işlədilən müxtəlif toxuculuq məhsulları istehsal edilirdi. Xalçalarla yanaşı sənətkarların istehsal etdikləri çuval, xurcun, müxtəlif növ xırda xalılar – namazlıq, əl çantaları və s. göstərmək olar. Buna baxmayaraq, XVIII əsrdən ticarətdə işlədilən «Buxara xalçaları» termini düzgün deyildir. Bu xalçalar Oktyabr çevrilişinə kimi Buxara xanlığının tərkibinə daxil olan türkmənlərin yaşadığı yerlərdə toxunurdu. Buxara tacirləri isə ondan məharətlə istifadə edərək həmin xalçaları öz adlarına çıxırdılar.

Kokand xanlığının tərkibində olan qırğız və qazaxların bir hissəsi əsasən maldarlıqla məşğul olurdu. Qırğızların həyatında maldarlıq əsas yer tuturdu. Əkinçilik isə yardımçı təsərrüfat rolunu oynayırdı. Maldarlığın üstünlük təşkil etdiyi ərazilərdə torpaqlardan icmalıqla istifadə olunurdu. İri mal-qara sahibləri həm də geniş torpaq sahələrinə malik idilər. Torpaq alğı-satqı obyekti deyildi. Bu, natural təsərrüfatın hökmranlığı və yaylaq-qışlaq maldarlığının mövcudluğu ilə əlaqədar idi. İşləyib ödəmə rentası ilə yanaşı Qırğızıstanda ərzaq vergisi, əkinçilik rayonlarında paydarlıq geniş yayılmışdı. Kokand xanlığında soyğunçu vergi siyasəti nəticəsində əhali var-yoxdan çıxırdı. Qırğızlar xərac, zəkat və s. adda müxtəlif vergilər ödəyirdilər.

XIX əsrin birinci yarısından Mərkəzi Asiya və Qazaxıstanda köçmə maldarlıq tədricən tənəzzülə uğrayırdı. Bu da ilk növbədə otlaq sahələrinin məhdudlaşması və daxili siyasi çəkişmələr nəticəsində baş verirdi. Eyni zamanda Mərkəzi Asiya və Qazaxıstana xarici iqtisadi təsir getdikcə güclənirdi. Nəticədə tədricən istehsal alətlərinin təkmilləşdirilməsi yeni istehsal vərdişlərinin yaranması

prosesinə müsbət təsir göstərir, əkinçilik və sənətkarlıq sahələrində müəyyən irəliləyişlərə səbəb olurdu.

Qazaxıstanın cənub rayonlarında taxılçılığa üstünlük verilmişdi. XIX əsrin birinci yarısına aid məlumata əsasən Kiçik juzda istehsal olunan taxıl heç də yoxsul təsərrüfat sahibləri hesabına deyil, ortabab və bəy təsərrüfatları tərəfindən istehsal olunurdu. Bu təsərrüfatlardan əldə olunan taxıl məhsulları təkcə öz tələbatlarını ödəmək və ya dəyişmək üçün deyil, həm də yarmarkalarda və bazarlarda satışa çıxarılırdı. Bu da natural xarakter daşıyan maldarlığın taxılçılıqdan ayrılması və oturaq həyata keçilməsinə şərait yaradırdı.

Hər üç xanlıqda torpaqların çox hissəsi dövlətə məxsus idi. XIX əsrin ilk mənbələrinə əsasən belə bir qənaətə gəlmək olar ki, xanlıqlarda feodal-asılı münasibətlər və biyar mövcud olmuşdur. 1800-ci ildə Daşkənddə olmuş dağ-mədən texniki Pospelov və Burnaşev göstərirdilər ki, Daşkənd feodalları onlardan asılı olan kəndliləri öz torpaq və bağlarında işləməyə məcbur edirdilər. Biyardan azad olan günlərdə isə həmin kəndlilər öz torpaqlarında işləyirdilər. Xüsusi olaraq Fərqanədə kəndlilərin vəziyyətini öyrənən A.Middendorf göstərirdi ki, ta qədim zamanlardan xanlıqlarda biyar tətbiq edilmiş, vəqf torpaqlarında işləyən kəndlilər torpaq sahiblərindən asılı vəziyyətdə olmuşlar. O, 1882-ci ildə Sankt-Peterburqda çap olunmuş "Fərqanə vadisinin oçerkləri" əsərində Mərkəzi Asiya xalqlarının torpağa bağlılığını, ondan bacarıqla istifadə etdiklərini göstərmişdir.

Köçəri və yarımköçəri özbək qəbilələrinin başçıları hələ əvvəllərdə icma-qəbiləyə məxsus torpaqları özləri üçün mənimsəmişdilər. Torpaqlar həmçinin satınalınma yolu ilə də əldə edilirdi.

XIX əsrin ortalarında hələ də torpaqların bəxşiş verilməsi və satılması qalırdı. Feodallar torpaqları öz övladlarına verməklə əslində onları bilavasitə nəsli torpaqların sahiblərinə çevirirdilər.

Əkin sahəsi və əhali yaşayan torpaqların xeyli hissəsi vəqf şəklində /Xivə xanlığında 40 faiz, Zərəfşan vadisində üçdə biri/ müsəlman ruhanilərin sərəncamında idi ki, onun da gəliri dini idarələrə çatırdı.

Düzdür, Mərkəzi Asiyada kəndlilərin torpağa təhkim olunmaları hüquqi cəhətdən rəsmiləşdirilməmişdi, amma faktiki olaraq

kəndlilər iri feodallar tərəfindən kölə halına salınmışdılar. Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda saxlanılan rəsmi sənədlərdən birində göstərilir ki, kəndlilərin istifadə etdiyi torpaqlar və suvarma üçün müəyyən olunmuş su mənbəyi bəzən bütün kənd əhalisi ilə birgə satılırdı. Belə ki, torpaq və sudan istifadəni feodallar təşkil edir, kəndlilər isə onlardan tam asılı vəziyyətə düşürdülər. Köçərilər arasında feodal-asılı münasibətlər qəbilə quruluşunun qalıqları ilə çulğalaşırdı. Köçəriliklə məşğul olan bölgələrdə işləyib ödəmə rentası üstünlük təşkil edirdi.

Mərkəzi Asiya xanlıqlarını Rusiya işğal edənə kimi yadelli qullardan ev işlərində istifadə edilir və onlar alınıb-satılırdılar. Xivə xanlığında daha çox qul var idi. Qul əməyindən ən çox Fərqanədə istifadə olunurdu. Mənbələrə və tədqiqatçılardan N.N.Muravyov, Q.İ.Danilevsk, Q.A.Vamber və V.Pşeniçnikovun məlumatlarına əsasən Buxara və Xivədə qullardan təkcə ev işlərində deyil, əkinçilikdə də istifadə olunduğu göstərilir. Mərkəzi Asiya xanlıqlarında qul əməyindən istifadə ibtidai icma cəmiyyətinin qalığı idi. Əlbəttə, bu, daha mütərəqqi təsərrüfat formasına keçilməsinə mane olurdu. Bəzən onlar pul ilə öz azadlıqlarını satın alırdılar. Səmərqənd vilayətində belə azadlıq əldə etmiş bütöv bir kənd mövcud idi. Eyni zamanda köçərilikdən oturaq həyata keçən kəndliləri təhkimli etmək nisbətən çətin idi.

Buxara, Xivə və Kokand xanlıqlarının ictimai-iqtisadi həyatında özünəməxsusluq olsa da, bunları bir-birinə bağlayan oxşar əlamətlər /maldarlığın əsas sahələrdən biri olması, aqrar münasibətlərin mürəkkəbliyi, patriarxal quruluşun qalıqlarının mövcudluğu/ əsasən feodal istehsal üsulunun hökmranlığı idi.

Xanlıqlarda sənətkarlıq və xırda kustar peşə sahələri əsas idi. Pambıqçılıq, ipəkçilik, xalçaçılıq, atçılıq, qaragül dəriləri istehsalı və satışı sahəsində əldə edilmiş nailiyyətlər dünya bazarlarına çıxmağa imkan vermişdi.

Mərkəzi Asiya sənətkarları tərəfindən hazırlanmış parçalara nəinki xanlıqların daxilində, həmçinin Rusiya və Asiyanın bir çox ölkələrində böyük tələbat var idi. İxtisaslaşdırılmış sənətkarlıq uzun tarixi inkişaf yolu keçmişdi. Bu da toxuculuq sənətinin inkişafına və şəhərlərin artmasına kömək edirdi. Lakin toxuculuq əl əməyinə

əsaslanırdı. XIX əsrin ortalarında Rusiyadan fabriklərdə istehsal olunan məhsulların xanlıqlara gətirilməsi yerlərdə bəzi sənətkarlıq sahələrini çıxılmaz vəziyyətə salmışdı.

Mərkəzi Asiyada dağ-mədən istehsalı zəif inkişaf etmişdi. Xırda kustar şəkildə çuqun və mis əridilir, qızıl, gümüş və s. sahələrdə filiz çıxarılırdı. Qızıl Qaratəkin və Fərqanədə, qurğuşun və gümüş Ura-Tuba, Əndican, Şeyxceli dağında (Xarəzm) və Kuqiytanqdərya çayının vadisində çıxarılırdı. Dəmir kustar üsulla Çirçik çayının vadisində, Fərqanədə Lyalkan yaxınlığında və Baysunda istehsal edilirdi. Az miqdarda mis çıxarılırdı. Texniki gerilik nəticəsində metal emalı baha başa gəldiyi üçün Rusiyadan – Uralın metallurgiya zavodlarından hazır məhsul alıb gətirmək daha ucuz və sərfəli idi. Ona görə də XIX əsrdə Mərkəzi Asiyada dağ-mədən sənayesi inkişaf etməmişdi.

Mərkəzi Asiyada qədim zamanlardan şəhərlər mövcud olmuşdur. Bəzi şəhərlərin yer üzündən silinməsi və yenidən bərpasına səbəb iqtisadiyyatın zəif inkişaf etməsi və tez-tez baş verən ara müharibələri idi. Daşkənd, Buxara, Kokand, Xivə, Səmərqənd, Əndican, Namanqan, Margilan və s. bu kimi inzibati mərkəzlər həm də ölkənin sənətkarlıq və ticarət mərkəzləri kimi mühüm əhəmiyyət kəsb edirdi. Dəqiq statistik məlumatlar olmadığına görə şəhərlərin əhalisi, onun tərkibi və bu sahədəki dəyişikliklər haqqında tam müfəssəl faktlar vermək olduqca çətindir. Bu dövrdə Daşkəndin əhalisi və şəhərin iqtisadi əhəmiyyəti olduqca artmışdı. Rusiya işğalı dövründə Daşkəndin 80 min əhalisi var idı. Yetmiş min əhalisi olan Buxara şəhərində təxminən 15 min ev olması göstərilirdi. Şəhərdə 38 karvansara və 45 bazar olmuşdu. Kokand xanlığında təkcə Kokand və Daşkənddən başqa əhalisi ticarət və sənətkarlıqla məşğul olan 10-dan çox şəhər - Əndican, Namanqan, Margilan, Xocənt, Çimkənd, Xavas, Ura-Tuba və b. var idı. 1820-ci ilin məlumatına əsasən 10 min əhalisi olan Xivə xanlığının paytaxtı Xivə şəhəri həm də xanlığın ən böyük ticarət mərkəzi idi. XIX əsrdə ən böyük bazarlardan biri Kattakurqanda idi. V.V.Radlovun qeydlərinə əsasən, bazar günü buraya minlərlə alıcı və satıcı gəlirdi. Şəhrisəbz, Karşi, Buxara, Ura-Tuba, Kokand, Kabil, Məşhəd, Səmərqənd və Türkmənistandan gətirilən müxtəlif adda məhsullar burada satışa çıxarılırdı.

Mərkəzi Asiya xanlıqlarında daxili ticarət köçəri maldarlar, oturaq əkinçilər, şəhər və kənd sənətkarları arasında olan əmək bölgüsünə əsaslanmışdı. Hər üç qrup əhalidə əsas tələbat öz daxili təsərrüfatı hesabına ödənilirdi. Bununla yanaşı metaldan düzəldilmiş məmulat, hər bir əşya, bayram geyimləri və s. bir qayda olaraq satın alınırdı. Böyük şəhərlərdə ərzaq və yaşayış üçün zəruri şeylərin ticarəti təşkil olunurdu. Daşkənd şəhərində 5 bazar mövcud idi. Şəhərlərdə, xüsusən xanlıqların paytaxtlarında ticarət pul ilə aparılırdı. Əhalidən toplanan verginin çoxu natura ilə alınırdı. Rusiya işğalından sonra natural vergi pul vergisi ilə əvəz edilmişdi.

Xarici ticarət əsasən yaxın qonşu dövlətlərlə - Rusiya, Hindistan, İran, Əfqanıstan və s. aparılırdı. Qazaxıstanda Kiçik və Orta juz Rusiya tərəfindən zəbt edildikdən sonra bu ölkə ilə iqtisadi-ticarət əlaqələri genişlənməyə başlamışdı. Yerli sənətkarlıq məhsulları Rusiyadan gətirilmiş fabrikdə istehsal edilən ucuz mallarla rəqabət apara bilmirdi. Bu da yerli məhsulların qiymətlərinin aşağı düşməsinə, sənətkarların müflisləşməsinə və satış bazarının məhdudlaşmasına gətirib çıxarırdı. XIX əsrin ortalarında Mərkəzi Asiyadan Rusiyaya 4 milyon manatlıq mal aparıldığı halda, oradan gətirilən məhsulların ümumi dəyəri 3 milyon manat olmuşdu. Buxaradan Rusiyaya aparılan məhsulların 75 faizini pambıq və pambıq parça məhsulları təşkil edirdi. Rusiyadan Mərkəzi Asiyaya əsasən dəmir, mis, polad, çuqun və s. metaldan düzəldilmiş məmulatlar gətirilirdi.

Mərkəzi Asiya isə Rusiya üçün xammal mənbəyinə çevrilməkdə idi.

**Siyasi vəziyyət.** XIX əsrin birinci yarısında xan üsul-idarəsinin mövcud olduğu Xivə, Buxara və Kokandda siyasi cəhətdən qeyri-sabitlik mövcud idi.

Bu xanlıqlar arasında vaxtaşırı ərazi uğrunda gedən müharibələr, daxili ziddiyyətlər, ayrı-ayrı bölgələrdə xalq üsyanları, bəzi qonşu dövlətlərlə münaqişələr də xanlıqları zəif salırdı. Eyni zamanda mövcud vəziyyət bəzi dövlətlərin Mərkəzi Asiya və Qazaxıstana marağını artırır, həm də bölgədə həmin dövlətlərin mənafeyi toqquşurdu.

XIX əsrdə bu regionlar Rusiya tərəfindən zəbt ediləna qədər türkmənlərin yaşadıqları ərazi Xivə, Buxara və İran feodalları arasında müharibə meydanına çevrilmişdi. Türkmənistanın böyük bir hissəsi Xivə xanlığı tərəfindən tutulmuşdu. İltuzar xanın (1804-1806) dövründə türkmənlərlə ilk növbədə iomutlarla Xivə xanlığı arasında mal-qara və torpaq vergisi vermədiklərinə görə münasibətlər kəskinləşmişdi. Buxaralı tarixçi Abdulkərimin yazdığına görə, İltuzar xan onlara bildirmişdi ki, başqa vətəndaşlar kimi ya vergini verin, ya da Xivə xanlığının hüdudlarını tərk edin. Xivə xanı Məhəmməd Rahim (1806-1825) yarımmüstəqil feodal sahibliyi olan Aralla iki dəfə 1808 və 1809-cu illərdə müharibə apararkən digər türkmən tayfası olan çovdurlara qarşı da çıxmışdı. Türkmənlərin (iomut, yəmrəli və çovdur) məğlub olmasının və Xivə xanlığına tabe edilməsinin səbəbi Manqışlaq və Xəzər dənizinin şərq sahili boyunda yaranmış siyasi vəziyyətlə xeyli dərəcədə bağlı idi. Qazax feodalları Manqışlaq və Xivə xanlığının şimal-qərb sərhədlərinə hücum edirdilər. Türkmənlər qazax feodalları və Xivə xanlığı tərəfindən sıxışdırılırdı. Belə bir vəziyyətdə Məhəmməd Rahim xan başqa bir xətt götürmüşdü. İlk növbədə türkmənlərdən çox sayda hərbi dəstələr yaradılmış, tayfaların qabaqcıl şəxsləri idarəetməyə cəlb olunmuş, onlar məsləhətçi və köməkçi təyin edilmişdilər. Beləliklə də, türkmənlər Xivə xanlığında möhkəmlənmişdilər. Məhəmməd Rahim xan Manqışlaq türkmənləri-çovdur və abdallar ilə dostluq əlaqələri yaratmışdı. Onların ərzaqla təmin olunmasında güzəştlərə gedilmiş, ticarət karvanlarının Manqışlaqdan maneəsiz keçməsinə nail olunmuşdu. Türkmən hərbçiləri yaxşı ad-san qazanmış və onlar vergilərdən azad edilmişdilər. Məhəmməd Rahim xanın qazaxlara, Buxara xanlığına, Mərv, Seraxs və Axala türkmənlərinə qarşı yürüşlərində iomutlar fəal iştirak etmişdilər.

Xəzərsahili bölgələrdə türkmən tayfaları arasındakı pərakəndəlik, İngiltərənin dəstəyi ilə Xivə xanlığı və İranın türkmənlərin üzərinə hücumları, həmçinin Rusiyanın Cənubi Qafqazda və Xəzər dənizinin şərq sahillərində fəallaşması türkmənləri öz azadlıq və müstəqillikləri uğrunda mübarizəyə sövq edirdi. XIX əsrin əvvəllərində Xəzər sahilində yaşayan türkmənlər Qacar hakimiyyətinə qarşı üsyan qaldırdılar. Ən böyük üsyanlardan biri 1813-cü ilin mayında

Yusif Xocanın başçılığı altında olmuşdu. Sentyabrda yatırılan bu üsyan türkmən əhalisinin xeyli hissəsini əhatə etmişdi. Bu dövrdə İranın Rusiya ilə apardığı müharibələr şah hakimiyyətini zəiflətmişdi. 1812-1813-cü illərdə Şimali Xorasan və Astrabadda yerli feodalların üsyanı qalxmışdı. İranla əlaqələrini kəsməyə çalışan yerli feodallar Xivə xanlığında özlərinə dayaq axtarırdılar. Amma 1828-ci ildə Rusiya ilə imzalanmış Türkmənçay müqaviləsindən sonra İran öz hakimiyyətini Xorasanda möhkəmləndirməyə başladı.

Ümumiyyətlə, Türkmənistanın ərazisinin əsas hissəsi Xivə xanlığı və İran dövlətinin tərkibində idi. Onun cənub əraziləri İran şahlığının Xorasan və Astrabad canişinləri tərəfindən idarə olunurdu. Lakin türkmən tayfaları dəfələrlə birləşərək Xivə və İran hökmdarlarının qoşunlarını darmadağın etmişdilər.

1843-1855-ci illərdə qısa fasilələrlə Mərv uğrunda Xivə ilə Buxara arasında mübarizə getmişdi. Buxara xanlığında mərkəzləşmə uğrunda mübarizədə heç bir yenilik əldə edilməmişdi. Hakimiyyətə gələn əmir Haydar (1800-1826) baş vermiş üsyanlar və feodal çəkişmələri ilə rastlaşmalı olmuşdu. 1800-cü ildə türkmənlər Buxara əmirliyinin zəkat toplayanlarının əhaliyə zülm etməsinə qarşı Mərvdə üsyan etdilər. 1804-cü ildə Xivə xanı İltuzarın Buxaranın hüdudlarına hücumu müvəffəqiyyətsizliklə nəticələndi. 1825-ci ildə Mərv Xivə xanlığı tərəfindən zəbt olundu. Buxara xanlığının şimalında Daşkənd şəhərini kokandlılar zəbt etdilər. 1815-ci ildə kokandlı Ömər xan Türküstan şəhərini aldı. Bununla da Buxara xanlığı ilə Kokand xanlığı arasında bir-birinə qarşı aramsız hücum və basqınlar başladı. Əmir Haydarın apardığı aramsız müharibələr onun dövlətinin iqtisadiyyatını zəiflətmişdi. Buxara xanlığında əhalinin ağır vəziyyətə düşməsi feodallara qarşı üsyana səbəb olmuşdu. 1821-1825-ci illərdə Miankal özbək tayfaları üsyan qaldırdılar. Miankal tayfalarının çoxu yarımköçəri həyat tərzi keçirirdilər. Onların içərisində ən mütəşəkkili çin-qıpçaq tayfa qrupu idi. Üsyana səbəb Mərvə göndərmək üçün orduya səfərbərlik keçirilməsi, zorla əhalidən vaxtından əvvəl vergi toplanılması olmuşdu. Əmir Haydara Miankal tayfalarının üsyanını yatırmaq üçün xeyli qüvvə və vəsait lazım gəlmişdi. 1821-1825-ci illərdə baş vermiş Miankal hərəkatı Buxara xanlığının siyasi həyatına böyük təsir etmişdi. Xanlığın ən

varlı bölgələrindən biri olan Miankalda vergi toplanmasının dayandırılması əmirin xəzinəsinin boşalmasına təsir göstərmişdi.

XVIII əsrin axırlarında Qazaxıstanın ərazisinin böyük bir hissəsi siyasi müstəqilliyini qoruyub saxlaya bilmişdi. XVIII əsrin ortalarında olduğu kimi Rusiya imperiyasının sərhədi Ural, Uy (Tobolun qolu) və İrtış çayları boyu keçirdi. Qazaxıstanın sərhədyanı rayonlarından uzaq olan ərazilərdə Rusiyanın təsiri hələ hiss olunmurdu. Cənubda isə qazaxlar Xivə və türkmənlərlə həmsərhəd idi. Qazax mülklərinin sərhədləri cənub-şərqdə Sırdəryanın cənubu, cənubda isə Zailiysk Alatausuna qədər uzanırdı.

Çinin hakimiyyəti Böyük juzun şərq rayonlarında hələ qalırdı. Onun qərb rayonları faktiki olaraq müstəqil idi.

XVIII əsrin sonunda bu vəziyyət tamamilə dəyişdi. Qazax juzlarının xarici vəziyyətinin mürəkkəbliyi, həmçinin daxili çətinlik qonşuların onların torpaqlarını zəbt etməsini asanlaşdırdı.

XIX əsrin əvvəlində Qazaxıstan ərazisinə cənub və cənubi-qərbdən Mərkəzi Asiya xanlıqları - Kokand və Xivə hücum edirdi. Şərqdən Çinin hücumlarına məruz qalmalarına baxmayaraq, qazaxların adlı-sanlı adamları Çinə meyl edirdilər. Onlar Çinin rusların irəliləməsi əleyhinə olacağını bilirdilər.

Qazaxların ərazilərinə hər tərəfdən hücuma keçən qonşu ölkələrdən Rusiya daha təhlükəli idi. Çar hökuməti Qazaxıstana doğru irəliləmək üçün möhkəm sərhəd xətti yaratmışdı. XIX əsrin əvvəlində yeni Novoiletsk xətti təşkil olunmuşdu. O, 29 hərbi istehkamdan ibarət idi. Bu tikintidən istifadə edən çar hökuməti Qazaxıstandan 750 min desyatin əlverişli torpaq sahəsi əldə etmişdi.

Kokand xanlığı da vaxtaşırı Qazaxıstana hücum edirdi. 1808-ci ildə Alim xan Daşkəndi aldıqdan sonra qazax çölündə hərbi əməliyyatlar aparmaq üçün mühüm strateji bazalara sahib oldu. 1808-1809-cu ilin qışında Alim xan Çimkənd və Sayrama bölgələrinə böyük qoşun göndərdi. Lakin qazaxların müqavimətinə baxmayaraq, Alim xanın ardıcılları dövründə kokandlılar Cənubi Qazaxıstanda bir sıra qalalar tikməyə nail oldular, geniş otlaqlar əldə etdilər və bununla da qazaxları özlərindən tam asılı vəziyyətə saldılar.

Qazaxlar Xivə xanlığı tərəfindən də təhlükəyə məruz qalmışdılar. Xivə feodalları əlverişli otlaqları və münbit torpaq sahələri

olan Sırdəryanın aşağı hissəsini özlərinə birləşdirməyə çalışırdılar. Qazaxlar Xivə xanlığı ilə münasibətləri gərgin olan buxaralıların onlara kömək edəcəklərinə ümid bağlayırdılar.

Lakin Buxara xanı güclü Kokandın Xivəyə kömək göstərəcəyindən ehtiyat etdiyinə görə bu işdən daşındı. Eyni zamanda Rusiya hökuməti öz münasibətlərini Xivə xanlığı ilə pisləşdirməmək üçün qazaxların müraciətini dəstəkləmədi. Beləliklə, qazaxlar heç bir müttəfiqi olmadan müstəqilliklərini qorumaq üçün mübarizə aparmalı oldular.

Juzların siyasi müstəqilliklərini itirmək təhlükəsi getdikcə artırdı. Buna səbəb yerli əyanların hakimiyyət uğrunda mübarizəsi və daxili zəiflik idi. Eyni zamanda münbit və əlverişli torpaq sahələrinin sultanlar tərəfindən tutulması nəticəsində icma üzvləri yararsız torpaq sahələrinə sıxışdırılmışdılar.

Xanlıqlarda daxili hərbi-siyasi çəkişmə və toqquşmalar sakitləşmək bilmir və bu da xalqın xarici təhlükə qarşısında müdafiə qabiliyyətini sarsıdırdı. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Ura-Tuba uğrunda XVIII-XIX əsrin birinci yarısında Kokand xanı Buxara hakimi ilə dəfələrlə müharibə etmişdi.

XIX əsrin birinci yarısında Qırğızıstan Mərkəzi Asiyanın iqtisadi və strateji cəhətdən əlverişli rayonu idi. Bu dövrdə Qırğızıstan uğrunda üç dövlət - Kokand xanlığı, Çin və Rusiya bir-biri ilə mübarizə aparırdı. Kokand xanlığı Qırğızıstanın ərazisindən keçib Şərqi Türküstana gedən ticarət yolunu nəzarətdə saxlamaq istəyirdi. Qırğız feodalları arasında gedən mübarizə və tayfalararası ziddiyyətlər onların xarici qüvvələrə qarşı müqavimət göstərməsinə imkan vermirdi.

XIX əsrin 20-40-ci illərində Qırğızıstan Kokand xanlığı tərəfindən işğal olunmuşdu. Qırğızlar qazaxlarla birlikdə Kokand işğalına qarşı fəal mübarizə aparırdılar. Belə birgə çıxışlardan biri 1821-ci ildə Talas vadisində olmuşdu. Üsyan amansızcasına yatırılmışdı. Kokand ağalığına qarşı XIX əsrin 30-cu illərinin axırlarında Bişkek qalası yaxınlığında, 1842-ci ildə İssıkkul və 1845-ci ildə alay qırğızlarının Oş ətrafında üsyanları baş vermişdi.

Beləliklə, Mərkəzi Asiya və Qazaxıstanın siyasi durumunda rəngarənglik mövcud idi. Burada qismən möhkəm, mərkəzləşdiril-

miş, daxili quruluşa malik müstəqil siyasi qurumlar və hakimiyyətin ancaq zahiri əlamətlərini saxlayan dövlətlərdən tutmuş tam müstəmləkə əsarətində olan ərazilərə rast gəlmək mümkün idi. Lakin hadisələrin ümumi gedişi bölgədə fəal müstəmləkə siyasəti yürüdən çar Rusiyası tərəfindən müstəqil qurumların öz müstəqilliklərini itirəcəyinə doğru gedirdi.

XIX əsrdə Mərkəzi Asiya Rusiya ilə İngiltərə arasında rəqabət meydanına çevrilmişdi. Zəngin yeraltı və yerüstü sərvətləri və əlverişli strateji mövqeyi olan Mərkəzi Asiya və Qazaxıstanın alınmasını başa çatdırmaq Rusiyanın qarşısında duran əsas vəzifələrdən biri idi. Lakin İngiltərə bu bölgəni zəbt edib öz müstəmləkəsinə çevirmək cəhdində heç də Rusiyadan az fəal deyildi. Hələ XVIII əsrin ikinci yarısında İngiltərə öz avropalı rəqiblərini Hindistandan sıxışdırıb çıxararaq ölkənin çox hissəsini tutub orada möhkəmlənmişdi. Daha sonra isə zəbt etdiyi ərazini qoruyub saxlamaq üçün qonşu ölkələri - Əfqanıstan, İran, Çinin qərb vilayətlərini, həmçinin Mərkəzi Asiya xanlıqlarını tutmağa çalışırdı.

İngiltərə bu zəif inkişaf etmiş ölkələrə nəinki əlverişli istismar obyekti, həm də Britaniya imperiyasının Asiyada ciddi və təhlükəli rəqibi olan Rusiyaya qarşı mübarizə etmək üçün münasib əməliyyat meydanı kimi baxırdı. İngiltərənin hakim dairələri guya Rusiyanın Hindistana hücum etmək təhlükəsinə qarşı ancaq müdafiə siyasəti yürütdükləri və Mərkəzi Asiya xalqlarına qarşı heç bir qorxu törətmədikləri haqqında şayiə yayırdılar. Həm də çar Rusiyasının Şərqdə istilaçılıq siyasəti yürütməsi bildirilirdi. İngiltərənin hakim dairələri «Hindistana rus təhlükəsi haqqında» rəsmi şayiələr yaymaqla dünya ictimaiyyətinin diqqətini özlərinin xüsusi ekspansiyasından yayındırmaq məqsədi güdürdülər. Rusiya isə Asiyada özünün dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək, İngiltərənin gözlənilən hücumundan onu qorumaq marağını güdürdü.

XIX əsrin 20-ci illərindən başlayaraq Ost-Hind kompaniyasının casusları «alim-səyahətçilər» və ticarət pərdəsi altında, daha sonra isə açıq şəkildə Mərkəzi Asiya xanlıqlarına gəlirdilər. Onların vəzifəsi Mərkəzi Asiya və Qazaxıstanın imkan və qüvvələrini, iqtisadiyyatını, siyasi həyatını öyrənmək, buranı işğal etmək üçün feodal başçıların İngiltərəyə meylini gücləndirmək idi. 1825-ci ildə

ingilis casusu Murkroft və Trebek Buxaraya gəlmiş, 1833-cü ildə isə Vest-Hind kompaniyasının casusu leytenant Berns Mərkəzi Asiyanın ticarət və ticarət yolları haqqında dəqiq məlumat toplamışdı. 1836-cı ildə ingilis casusları Berns, Vud, Liç Amudərya istiqamətinə, 1840-1842-ci illərdə isə Abbot, Şekspir və Konnoli Xivəyə göndərilmişdilər. Konnoli və Stoddart burada öldürülmüşdü.

İngiltərənin Kabil və Heratda olan diplomatik nümayəndəsinin Mərkəzi Asiyadakı casus qrupu ilə əlaqəsi var idi. Belə ki, Buxaradakı adlı-sanlı adamları ələ almaq üçün ingilis casusu kimi xidmət göstərən kəşmirli Nizaməddinə hər il 40 min manat pul verilirdi. Nizaməddin hər həftə Kabilə İngiltərənin diplomatik nümayəndəsi Masson ilə görüşə gedirdi. İngiltərə Rusiyaya qarşı mübarizə aparmaq üçün öz casusları vasitəsilə Mərkəzi Asiya xanlarını silah, döyüş sursatı və pul ilə təmin edirdi. 1830-cu ildə Orenburqda ingilis casuslarının təşkilatı aşkar edilmişdi. Hindistan və İrandan gələn gizli casuslar da tutulmuşdu.

İngilislər ruslarla düşmənçilik yaratmaq üçün dini motivlərdən də istifadə edirdilər.

Hələ xeyli əvvəl Mərkəzi Asiya və Qazaxıstanla Rusiya arasında iqtisadi və diplomatik əlaqələr yaradılmışdı. I Pyotr qazax çölünü Şərq bazarına və Mərkəzi Asiyanın ticarət mərkəzinə qapı adlandırırdı. 1716-cı ildə Bekoviç-Çerkasskinin dəstəsi Xıvə xanlığının təbəəliyi qəbul etməsini razılaşdırmaq üçün Mərkəzi Asiyaya göndərilmişdi. Xivəlilərin hücumu nəticəsində Bekoviç-Çerkasski və onun dəstəsinin üzvləri öldürülmüşdü. Qazaxıstanın ərazisinin bir hissəsi olan Kiçik və Orta juzun Rusiyanın təbəəliyini qəbul etməsi çar hökumətinin bölgəyə olan marağını daha da artırmışdı.

XIX əsrin birinci yarısında Mərkəzi Asiya və Qazaxıstan tədricən inkişaf edən rus sənayesi üçün xammal bazasına çevrilirdi. Moskvalı tacir-kapitalist P.V.Qolubkov sahibkarların və tacirlərin mənafeləri naminə Rusiyanın Mərkəzi Asiyada iqtisadi və siyasi ekspansiya proqramını irəli sürmüşdü. Burada ingilislərin də regiondan sıxışdırılıb çıxarılması nəzərdə tutulmuşdu. Rusiya həm də Mərkəzi Asiya və Qazaxıstanın bazarında öz mövqeyini möhkəmləndirməyə çalışırdı. 1826-cı ilin fevralında general Veriginin I Nikolaya məktubunda göstərilirdi ki, Rusiyanın Mərkəzi Asiya ilə ticarət əlaqələri-

ni genişləndirmək və təhlükəsizliyini təmin etmək üçün yeganə vasitə Xivənin alınmasıdır.

Rusiyanın Buxara xanlığı ilə diplomatik münasibətləri Xivəyə nisbətən daha yaxşı idi. Xanlıqlar arasındakı hərbi toqquşmalar nəticəsində xivəlilər rus karvanlarını Buxaraya buraxmamağa çalışırdılar. Onlar 1825-ci ildə Tsiolkovskinin başçılıq etdiyi karvanı qarət etmişdilər. Xivəlilər rus balıqçıları və sərhəd zonasının əhalisini tutub qul kimi satırdılar. 1830-cu ildə Buxara xanı Rusiya ilə Buxara arasında ticarətə mane olan xivəlilərə təsir göstərməyi Rusiyadan xahiş etdi. 1834-cü ildə Buxaraya göndərilən şərqşünas Demezon Rusiya ilə Xivə arasında hərbi toqquşma baş verərsə Buxaranın bitərəf qalacağı vədinə nail olmuşdu. Rusiyada olan bütün xivəli tacirlər 1836-cı ildə qəflətən həbs edilmişdilər.

1839-1840-cı illərdə çar I Nikolayın icazəsi ilə Orenburq hərbi qubernatoru general V.A.Perovski Xivəyə yürüş etdi. Düşünülmədən və pis hazırlanmış bu yürüş nəticəsində V.A.Perovski 2 ay yarım ərzində bütün canlı qüvvələrinin beşdə bir hissəsini itirərək geri qayıtmağa məcbur olmuşdu. Rusiya ilə Xivə arasında sülh müqaviləsinin bağlanması haqqında Nikiforovun danışıqlarını isə 1842-ci ildən Danilevski davam etdirmişdi. Nəticədə sazişə əsasən Xivə xanı Rusiyaya qarşı düşmənçilik hərəkəti etməmək, ticarət karvanlarının qarət olunmaması və rus mallarına qoyulan gömrüyün 5 faizə qədər azaldılması təəhhüdünü öz üzərinə götürmüşdü.

XIX əsrin əvvəllərində Orta və Kiçik juzun siyasi müstəqilliyini itirmək təhlükəsi artmışdı. Xanlıqların müharibələri qazaxların təsərrüfatına böyük ziyan vururdu. Sultanlar və yüzbaşılar icma torpaqlarını mənimsəyirdilər. Kiçik juzun bir çox icmasının köçəriləri yeni torpaq sahələrinə köçməyə çalışırdılar. Hələ 1801-ci ildə sultan Bukey Nuraliyev Rusiya imperatoruna müraciətində onun rus vətəndaşlığını qəbul etməsinə icazə verilməsini xahiş edirdi. Bukey ona tabe olan icma üzvləri ilə birlikdə Ural və Volqa çaylarının aşağı axarı arasındakı Xəzəryanı çöllərdə xüsusi qazax xanlığı yaradacağını vəd edirdi. Kiçik juzun parçalanması və zəifləməsinə yönəldilən bu tədbirə çar hökuməti məmnuniyyətlə razı oldu. 1803-cü ildə Bukeylə birlikdə 5 minə yaxın ailə yeni ərazilərə köçdü. Nəticədə burada yeni «dövlət qurumu»-Bukey və ya Daxili

Orda yaradıldı. 1812-ci ildə Bukey Ordası Kiçik juzdan ayrıldı və Bukey Nuraliyev oraya xan təyin edildi.

Qazaxıstandakı mövcud siyasi pərakəndəlik xarici işğalçılara qarşı lazımi müqavimət göstərməyə imkan vermirdi. XIX əsrin 20-ci illərindən çar hökuməti Kiçik və Orta juzun müstəqilliyini qəti olaraq ləğv etməyi qərara aldı. 1822-ci ildə M.M.Speranskinin rəhbərliyi altında hazırlanmış «Sibir qırğızları haqqında nizamnamə»-yə əsasən Orta juzda xanlıq hakimiyyəti ləğv edildi. Onun əvəzində ağa-sultan və ya böyük sultan institutu[1] yaradıldı. Juzun ərazisi Omsk vilayətinin xarici dairələri hesab edilən inzibati vahidlərə ayrılırdı. Dairə nahiyəyə, nahiyə isə aullara bölünürdü. Nahiyələrdə bölgünün əsasını ərazi deyil, soy prinsipləri təşkil edirdi.

Aulların başında qazax olan kəndxuda, nahiyələrin başında isə sultanlar dururdu. Dairədə polis və məhkəmə hakimiyyəti orqanları kimi dairə prikazlarının başında sultanlar tərəfindən üçillik müddətə seçilən böyük sultan dayanırdı.

Çar hökuməti adlı-sanlı qazax feodallarının köməyinə əsaslanmağa çalışaraq yeni qanuna görə inzibati hakimiyyətdə sultanları saxlamaqla, nahiyə və dairələrin başında hökmən sultanların durmasını tələb edirdi.

«Sibir qırğızları haqqında nizamnamə»yə görə qazax məhkəməsi ən mühüm məhkəmə işlərinin aparılmasından kənar edilmişdi. Rusiya Qazaxıstanda vətənə xəyanət, ölüm hadisəsi, soyğunçuluq və mövcud hakimiyyətə tabe olmamağı daha təhlükəli cinayət hesab edirdi.

1824-cü ildə Kiçik juzda xanlıq hakimiyyəti ləğv olundu. Juzun ərazisi üç hissəyə-qərb, mərkəz və şərqə bölündü. Hər bir hissənin başında çar hökuməti tərəfindən təyin olunan hakim-sultan dururdu.

XIX əsrin əvvəlində Bukey Nuraliyev ordasında yaxşı torpaq sahələri rus mülkədarları-knyazları, qazax xan, sultan və bəylərinə məxsus idi. Daxili Ordanın əhalisi daha çox yerli qazax feodal və xanlarının istismarına məruz qalırdı. Köçəri qazaxların çoxu torpaqdan məhrum olmalarına baxmayaraq, xeyli adda vergi də verirdilər. Bukey Ordasını tərk edib Kiçik juza qayıtmaq istəyənlərin

---

[1] İnzibati idarəçilik sistemi nəzərdə tutulur.

isə qarşısı alınırdı. Daxili Ordanın birinci xanı Bukey Nuraliyev və ələlxüsus onun oğlu Jangir Ordanın bütün ərazisinə öz ata mülkü kimi baxırdı.

İsatay Taymanovun Jangir xana, hərbi qubernator Perovskiyə və başqa rus məmurlarına qazax xalqının narazılığının əsas səbəblərini şərh edən dəfələrlə yazdığı ərizələri nəticəsiz qalmışdı. 1836-cı ildə batır İ.Taymanov və M.Utemisovun başçılığı altında baş vermiş üsyan zamanı xanın olduğu yer mühasirəyə alınmış, sultanların əmlakları yandırılmış və köç yerləri ən yoxsul qazaxlara verilmişdi. 1836-1838-ci illərdə Bukey Ordasında İ.Taymanovun rəhbərliyi altında davam edən xalq üsyanı məğlub olmuşdu. İ.Taymanov döyüş vaxtı öldürülmüş, onun yaxın silahdaşı şair-inqilabçı Mahambet Utemisov isə muzdla tutulmuş qatillər tərəfindən qətlə yetirilmişdi /1846/.

Qazax juzlarında xalqın mövcud dözülməz şəraitə qarşı etirazları getdikcə geniş miqyas alırdı. Sultanlar arasında gedən mübarizədən istifadə edən çar hökuməti isə juzlara təsirini gücləndirirdi. 1846-cı ildə Rusiyanın hərbi hissələri Böyük juzu da işğal etdilər. Qazaxıstanda əhali ikiqat istismara məruz qalmışdı.

1837-ci ildən 1847-ci ilə qədər olan müddətdə Böyük, Orta və Kiçik juzun əhalisinin çoxu Kenesar Kasımovun rəhbərliyi altında rus müstəmləkəçiləri və yerli sultan-hakimlərə qarşı mübarizə aparmışdı. Rus ordusu tərəfindən Mərkəzi Qazaxıstandan sıxışdırılan Kenesar Kasımov Qırğızıstanın şimal hissəsini öz hakimiyyətinə tabe edib Rusiya və Kokand xanlığına qarşı mübarizəni davam etdirmək istəyirdi. 1847-ci ildə Qırğızıstanda əsl milli-azadlıq hərəkatı ilə qarşılaşan Kenesar və onun atası sultan Kasım rus hərbi istehkamlarının onun vətənində tikilməsinin əleyhinə çıxmışdılar. K.Kasımovun üsyanı məğlubiyyətlə nəticələndi. O, son döyüş zamanı əsir alındı və qəddarlıqla öldürüldü. Görkəmli qazax şair və maarifçisi Abay Kunanbayev yazırdı ki, Kenesar Kasımov qazax xalqının qəhrəman oğlu idi.

Beləliklə, XVIII-XIX əsrlərdə qazax xalqının müstəqillik və siyasi birləşmə uğrunda apardığı mübarizə uğursuzluqla nəticələndi. Bir-birinin ardınca Srım Datov, İsatay Taymanov, Kenesar Kasımov və b. üsyanları yatırıldı.

Qazax xalqı Rusiya imperiyasının yaxşı silahlanmış güclü ordusuna qalib gələ bilmədi. Uzun və çətin olan azadlıq mübarizəsində məğlubiyyətin əsas səbəbi Qazaxıstanın Rusiyaya nisbətən iqtisadi və siyasi cəhətdən geridə qalması idi. Daxili qeyri-sabitlik və pərakəndəlik, juzlar arasında əlaqələrin zəif olması qazaxların məğlub olmasını şərtləndirən amillərdən biri idi.

Ümumiyyətlə, Mərkəzi Asiya xanlıqları arasında ərazi və hakimiyyət uğrunda gedən müharibə və çəkişmələr təsərrüfatı dağıdır, iqtisadiyyatı zəiflədir, insanları yurdundan-yuvasından didərgin salır, xalqlar arasında düşmənçiliyə səbəb olurdu. Belə bir şəraitdə kənar təzyiqlər və təhlükələr dəf edilə bilmirdi. Bu isə Mərkəzi Asiya və Qazaxıstanın zəbt edilməsinə şərait yaradır və bəzi dövlətlərin öz işğalçılıq siyasətini gerçəkləşdirməsinə yardımçı olurdu. XIX əsrin ikinci yarısında Mərkəzi Asiyada baş verən hadisələr əsrin əvvəllərində buraxılmış səhvlərin məntiqi nəticəsi idi.

## § 2. VOLQABOYU, SİBİR VƏ KRIM

**Ərazi. Əhalinin sayı və sosial tərkibi.** Volqaboyu, Sibir və Krım türkləri XIX əsrin birinci yarısında da demək olar ki, hazırda yaşadıqları ərazilərdə yaşamışdılar. Onlardan tatarlar, çuvaşlar, başqırdlar, yakutlar, tuvalılar, altaylılar, qaqauzlar /indi onlar Moldovada yaşayırlar/ və başqalarını göstərmək olar. Hələ IV İvan dövründə Kazan xanlığı işğal edildikdən sonra Orta Volqaboyu xalqları Rusiya dövlətinin tərkibinə daxil edilmişdi. Bir qədər sonra isə Həştərxan xanlığı istila edilmişdi. Beləliklə, bütün Volqaboyu Rusiya dövlətinin tərkibinə qatılmışdı.

İlk gündən diyarın idarə olunması Rusiyanın idarəetmə sisteminə uyğunlaşdırılmış və xanlığın inzibati idarə sistemi ləğv olunmuşdu. Əvvəlki xanlığın ərazi və əhalisinin idarə olunması Moskvada yaradılmış Kazan prikazına tapşırılmışdı. Kazan və Sviyajskda çarın yerlərdə canişini olan «böyük voyevoda»ları təyin edilmişdi. Diyarın mərkəzi şəhəri olan Kazan ətrafında 1556-cı ildə ağ daşdan Kreml tikilmişdi. 1775-ci ildə Rusiyada ölkənin inzibati-ərazi bölgü sistemində dəyişiklik edilməsilə əlaqədar olaraq ölkə

quberniya və qəzalara bölündü. Əyalətlər ləğv edildi, şəhərlər bilavasitə quberniyalara tabe olmaqla xüsusi inzibati vahidlərə ayrıldı.

1780-1781-ci illərdə Orta Volqaboyu ərazilərdə inzibati-ərazi dəyişiklikləri keçirildi. 1780-ci ildə Simbirsk quberniyası yaradıldı. 1781-ci ildə Kazan quberniyasında böyük dəyişiklik edildi. Yeni qəzalar yaradıldı.

XIX əsrin birinci yarısında Tatarıstanda yaşayan xalqların sayı və sosial tərkibi müxtəlif olmuşdu. 1858-ci il məlumatına əsasən Tatarıstanda 1500 min adam yaşayırdı. Əhalinin say tərkibi - 40,7 faiz ruslar, 29,3 faiz tatarlar, 26 faiz çuvaşlar və digər xalqlardan ibarət idi.

Çuvaş xalqının tarixi rus, tatar, mari, mordva xalqlarının tarixi ilə sıx bağlı olmuşdu. Hələ orta əsrlərdə Çuvaşiya Rusiyanın tərkibinə qatılmışdı. İnzibati-ərazi islahatına /1780-1781/ görə Çuvaşiyanın ərazisi Simbirsk və Kazan quberniyalarının tərkibinə daxil edilmişdi. Əvvəlki qəzaların sərhədləri dəyişdirilmiş, yeni qəzalar yaradılmışdı. Kokşaysk qəzası ləğv olunmuş, Çuvaşiyanın ərazisinə Kazan quberniyasının Çeboksarı, Tsivil, Yadrin, həmçinin Tetyuşsk qəzasının bir hissəsi, Simbirsk quberniyasının Kurmış, Alatır və Buinsk qəzaları daxil edilmişdi. Quberniyaları qubernatorlar idarə edirdilər. Qəzalarda inzibati-polis funksiyasını aşağı zemstvo məhkəmələri, şəhərlərdə isə şəhər rəisi həyata keçirirdi. Maliyyə işlərinə quberniya vergi idarəsi, quberniya və qəza xəzinəsi baxırdı.

Çuvaşiyada /hazırkı respublikanın sərhədləri hüdudunda /vergi verən kənd əhalisinin sayı 1859-cu ilin məlumatına görə, 436 min nəfərdən çox olmuşdu. Üç-dörd min nəfər zadəgan, məmur və din xadimləri buraya daxil deyildilər. Çuvaşiyanın şəhər və qəsəbələrində 19 540 nəfər əhali var idi. 1859-cu il məlumatına əsasən, çuvaşlar-77,3 faiz, ruslar-18,8 faiz, tatarlar-2,7 faiz və mordvalar-1,2 faiz təşkil edirdilər.

Başqırdıstan XVI əsrin ortalarında Rusiya tərəfindən işğal edilmişdi. XVIII əsrin sonu-XIX əsrin birinci yarısında başqırdlar yaşayan ərazinin əsas hissəsi Orenburq quberniyasının[1] tərkibinə daxil idi. 1804-1805-ci illərdə Orenburq quberniyası 12 qəzadan – Orenburq, Ufa, Sterlitamak, Belebey, Birsk, Mənzəli, Yuxarı Ural,

[1] İndi bu torpaqların böyük bir hissəsi başqırdlara yox, ruslara məxsusdur.

Troitsk, Çelyabinsk, Buqulma, Buquruslan və Buzulukdan ibarət idi. Quberniyanın ümumi sahəsi 282 min kv.verst[1] idi. 1851-ci ildə Buqulma, Buquruslan, Buzuluk yeni təşkil olunmuş Samara quberniyasına verilmişdi. Quberniyaların başında general-qubernator /hərbi qubernator/ dururdu. Mülki qubernator mülki idarələrin işinə rəhbərlik edirdi. Orenburq quberniyasına sonradan Ural kazak qoşunlarının torpaqları, Bukey Ordası, Ural çölü, Perm, Vyatsk və Saratov quberniyalarındakı başqırd torpaqları da birləşdirilmişdi. Orenburq diyarının ümumi sahəsi 444 min kv.verst idi. XIX əsrin birinci yarısında yerli əhalinin artması və Mərkəzi Rusiya kəndlilərinin buraya köçürülməsi nəticəsində Orenburq quberniyasının əhalisinin sayı demək olar iki dəfə yarım artaraq 1811-ci ildəki 787 min nəfərdən, 1851-ci ildə 1,7 milyon nəfərə çatmışdı. Bu dövrdə Orenburq quberniyasının əhalisinin yarısını ruslar, 497 min nəfərini başqırdlar, 346 min nəfərini tatar, çuvaş, mari, udmurt və mordvalar, 94 min nəfərini mişarlar, 70-80 min nəfərini isə qazaxlar təşkil edirdilər.

Başqırdıstan ərazisinə əhali axını başlıca olaraq üç yolla baş verirdi. İlk növbədə dövlət tərəfindən hərbçilər ailə üzvləri ilə birlikdə buraya göndərilirdilər. Eyni zamanda Ryazan, Tambov, Tula və Mərkəzi Rusiyanın digər quberniyalarından dövlət və xanədan kəndliləri köçürülmüşdü. 1824-cü ildə Maliyyə Nazirliyi aztorpaqlı dövlət kəndlilərinə Orenburq diyarına köçməyə icazə verdikdən sonra köçkünlərin axını xüsusilə güclənmişdi. Köçürülən təhkimli kəndlilər ən çox Simbirsk, Kazan, Saratov, Penza və Tambov quberniyalarından olanlar idilər. Təhkimli kəndlilərin öz mülkədarlarının yanından qaçaraq gəlməsi halları da olmuşdu.

Beləliklə, çar hökuməti XIX əsrin birinci yarısında Orenburq quberniyasında bir sıra hərbi, siyasi və təsərrüfat məsələlərini imperiyanın şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək, Mərkəzi Asiyanın işğal olunması üçün əməliyyat meydanı yaratmaq, yerli əhalinin kəndli müharibəsi və antifeodal çıxışlarına yol verməmək, diyarın təbii sərvətlərini təsərrüfat dövriyyəsinə qoşmaq, Rusiyanın aztorpaqlı Mərkəzi rayonlarından kəndliləri köçürmək üçün

---

[1] Verst 1,06 kilometrə bərabər uzunluq ölçüsüdür.

Orenburq quberniyasını ehtiyat bölgəyə çevirmək məsələsini həll etməyə çalışırdı.

Bu məsələləri həyata keçirmək üçün kanton idarəetmə sistemi tətbiq olunmalı, başqırd torpaqları rus mülkədarlarına, zavod sahiblərinə, eləcə də kazaklara, dövlət və xanədan kəndlilərinə verilməli, hökumətin köçürmə siyasəti əsas götürülməli idi.

Başqırdıstanda kanton idarəetmə sistemi[1] 1798-ci il aprelin 10-dan həyata keçirilmiş və çox da böyük olmayan dəyişikliklə 1865-ci ilə kimi davam etmişdi. Çar hökumətinin tətbiq etdiyi yeni idarəetmə sistemi hərbi-siyasi məqsəd daşıyırdı. Rusiya imperiyasının şərq sərhəddini qorumaqda bütün ağırlıq ilk növbədə yerli əhalidən ibarət olan hərbi-gözətçi xidmətçilərinin üzərinə düşürdü. Lazım gəldikdə bu qüvvələrdən ölkənin qərbində də istifadə etmək nəzərdə tutulurdu. Kanton sisteminin tətbiqi cəmiyyətin feodal quruluşu ilə başqırdların hərbi təşkilatlarının sonuncu əlaqəsini də qırmışdı.

Kanton idarəetmə sistemi Başqırdıstanda yaşayan bütün əhaliyə deyil, yalnız başqırd, mişar və rus kazaklarına aid edilmişdi. Əhalinin bu üç qrupu XVIII əsrdə tikilmiş Orenburq sərhəd xəttini qorumalı idi. Yerdə qalan əhali isə hakimiyyət orqanlarının tabeliyində idi. Başqırdıstanda 21 kanton yaradılmışdı. Onlardan 5 kanton Orenburq kazakları, 5 kanton mişarlar və 11 kanton başqırdlar üçün təşkil edilmişdi.

Kanton idarə üsulunda vəzifə dəyişiklikləri yuxarıdan təyin etmək yolu ilə həyata keçirilirdi. Alaçıq starşinası kanton müdiri, sonuncu isə Orenburq hərbi qubernatoru tərəfindən təyin olunurdu. Kanton idarəçiliyində rəhbər şəxslər başqırd və tatar feodallarının yuxarı dairələrinin nümayəndələrindən seçilirdi. Çar hökuməti hərbi rütbələri nadir hallarda, əsasən hərbi xidmətə və uzunmüddətli qulluğa görə verirdi. Hərbi rütbə alan başqırd və mişar feodalları əhalinin digər təbəqələrinə nisbətən bir sıra imtiyazlara malik idilər. Onlar xüsusi forma geyinir, heç bir vergi vermir və həm də cismani cəzadan azad idilər.

---

[1] Kanton sistemi dedikdə burada yerli əhali, xüsusilə başqırdlardan təşkil edilmiş qeyri-nizami hərbi hissələrin yaradılması nəzərdə tutulur. Bu yolla çarizm şərqdə hərbi-gözətçi xidmətinin bütün ağırlığını yerli əhalinin üzərinə qoymaq məqsədi güdürdü- red.

XIX əsrin 30-cu illərində kanton idarəetmə sistemində bəzi dəyişikliklər edildi. Başqırd və mişarlar arasında hərbi-feodal qaydalar gücləndirildi və onların üzərinə ağır hərbi-polis hamiliyi qoyuldu. 1834-cü ildə polkovnik T.S.Tsiolkovskinin komandanlığı altında başqırd-mişar qoşunu yaradıldı. On yeddi kanton başqırd-mişar qoşun hissələri 6 dairəyə bölündü.

XIX əsrin 40-50-ci illərində kanton üsul-idarəsi öz əvvəlki əhəmiyyətini itirməyə başlamışdı. Qazax torpaqları Rusiyaya qatıldıqdan sonra cənub sərhəddinin Aral dənizi, Sırdərya və Amudərya olması ilə Başqırdıstan imperiyanın daxili vilayətlərindən birinə çevrildi.

Hələ XVI əsrdə Sibir xanı Kuçum məğlubiyyətə uğradıldıqdan sonra Qərbi Sibir Rusiyanın tərkibinə qatılmışdı. Geniş ərazisi və zəngin təbii sərvətləri olan Sibirin o zaman cəmi 200-240 min əhalisi var idi. Sonrakı dövrlərdə isə bütün Şərqi Sibir və Primoryedən ibarət olan nəhəng bir region da Rusiyanın işğalına məruz qaldı. Rusların Sibirdə və Uzaq Şərqdə məskunlaşması prosesi bir çox illər davam etmişdi.

XIX əsrin əvvəlində I Aleksandr Sibirin idarə edilməsini mərkəzləşdirmək üçün bir sıra tədbirlər gördü. 1801-ci ildə general Selifontov inzibati cəhətdən Sibiri bölmək üçün oraya ezam olundu. 1803-cü ildə mərkəzi İrkutsk olmaqla Sibir general-qubernatorluğu yaradıldı. Selifontov general-qubernator təyin edildi. Xüsusi qərarla ona Sibirin iri qəzalara bölünməsi tapşırılmışdı. Qəzalarda komissarlıqlar yaradılmışdı.

İnzibati cəhətdən yenidənqurma işləri Yakutiyada da həyata keçirilirdi. 1805-ci ildə İrkutsk quberniyasının tərkibinə daxil olan Yakut mahalı Yakut vilayətinə çevrilmişdi. Vilayətin səksən minə yaxın əhalisi var idi. XIX əsrin ortalarında yakutlar xristianlaşdırılmışdılar. Faktiki olaraq şəhər ancaq Yakutsk idi ki, onun da bir neçə yüz yaşayış evi, yeddi kilsəsi, monastırı, ticarət köşkləri var idi. Vilayətin polis, məhkəmə və dövlət idarələri Yakutskda yerləşmişdi.

Vilayətin başında vilayət müdiri dururdu. Yeddi mahal /komissarlıq/ var idi.

Yerli əhali inzibati nahiyələrdə birləşdirilmişdi. Qonşu nahiyələrin birləşməsi nəticəsində iri inzibati birlik-ulus yaradılmışdı.

Coğrafi nöqteyi-nəzərdən hazırkı Monqolustanın şimal və qərb hissələrinə yaxın yerlərdə tuva qəbilələri yaşamışdılar. Tuva müxtəlif dövrlərdə uyğur, qırğız, monqol, cunqar, çin sülalələri və dövlətlərinin işğalı altında olmuşdu. 1914-cü ildə Rusiyanın təbəəliyini qəbul etmişdi. /İlk dəfə 1921-ci ildə Tuva xalqının milli dövləti-Tuva Xalq Respublikası yaradılmışdı/. Mənbələrdən əldə edilmiş materiallar bu xalqın tam artımı haqqında müfəssəl məlumat vermir. XVIII əsrin axırlarında Tuvada 40-50 min əhalisi olan 9800 yurt var idisə, 1916-cı il məlumatına əsasən tuvalıların sayı 72 min nəfər olmuşdu.

XVIII əsrin sonu-XIX əsrdə altaylıların və onların tərkibindəki etnosların taleyi heç də eyni olmamışdı. Hələ XVII əsrdə bəzi etnoslar /teleutların bir hissəsi, şimali altaylılar-kumandints, çerkand, tubalar/ tədricən Rusiyanın təbəəliyi altına keçmişdilər. Digərləri /teleut, teles, telenqit, «altay-kiji» etnik qrupunda cəmləşənlər/ 1755-1758-ci illərdəki cunqar-çin müharibəsindən sonra Rusiya dövlətinin tərkibinə daxil edilmişdilər. Üçüncü qrup /teles və telenqitlərin bir hissəsi/ 1865-ci ildə sonuncu olaraq Rusiyanın tərkibinə qatılmışdılar. XIX əsrin əvvəlində şimali altaylıların ictimai quruluşuna rusların güclü təsiri olmuşdu. Bunun əsas amillərindən biri xristianlığın qəbul olunması idi. Dağlıq Altay geniş bir ərazini əhatə edirdi. Onun əhalisi köçəri və yarımköçəri həyat sürürdü. Ərazisi 5,7 milyon desyatin idi. V.İ.Verbitskinin məlumatına əsasən XIX əsrin ortalarında altaylıların sayı 11827 nəfər olmuşdu. Çarizmin xristianlaşdırma və ruslaşdırma siyasətinə baxmayaraq, altaylılar öz etnik varlıqlarını və dini inanclarını /şamanlığı/ qoruyub saxlaya bilmişdilər.

1783-cü ildə Rusiya Krım xanlığını işğal etdikdən sonra, yəni 1784-cü il 2 fevral tarixli əmrlə Krım xanlığının əvəzinə yeni Tavriya vilayəti yaradılmışdı. 1802-ci ildən Tavriya vilayəti quberniya adlandırılmışdı. Yeddi qəza yaradılmışdı. 1837-ci ildə Simferopol qəzasından Yalta qəzası ayrılmışdı. Bundan sonra XX əsrin 20-ci illərinə qədər bölgədə inzibati cəhətdən dəyişiklik olmamışdır. Krım Rusiyaya qatıldığı zaman orada 1400 yaşayış məntəqəsi var idi.

Krımın əhalisinin sayı bu dövrdə təxminən 130 min nəfər idi. Onlardan 15 min nəfərə qədəri şəhərlərdə yaşayırdı.

1812-ci ildə Bessarabiya Rusiyaya birləşdirilən zaman burada ancaq 240 min əhali var idi. Moldovanlarla yanaşı bölgədə ukraynalılar, ruslar, yəhudilər, yunanlar, bolqarlar, qaqauzlar, qaraçılar və başqaları yaşayırdılar. Sayca az olan qaqauzlar Bessarabiyaya Bolqarıstandan köçürülmüşdülər. Onların buraya gəlişi XVIII əsrdə rus-türk müharibələri zamanı baş vermişdi. Bu proses XIX əsrin əvvəllərində 1806-1812-ci illərin rus-türk müharibəsi dövründə daha da güclənmişdi. 1819-cu ildə çar hökuməti köçkünlərin yerləşdirilməsi və hər ailəyə əlverişli sahədə 60 desyatin torpaq sahəsi verilməsi haqqında qərar qəbul etmişdi. Köçkünlər 50 il müddətinə hərbi mükəlləfiyyətdən, 10 il müddətinə isə bir sıra vergilərdən azad olunmuş və hər hansı bir dini qəbul etmək hüququ əldə etmişdi. Bununla əlaqədar olaraq köçkünlərin sayı da artmağa başlamışdı. Əgər 1816-cı ildə Bessarabiyada 11 minə yaxın bolqar və qaqauz var idisə, 1841-ci ildə 73 koloniyada 64 min köçkün yaşayırdı. 1853-cü ildə Bender, Akkerman və İzmail qəzalarında 527,6 min desyatin torpaq sahəsi bolqar və qaqauzların sərəncamında idi.

**Sosial-iqtisadi həyat. Kənd təsərrüfatı.** XIX əsrin birinci yarısında türk xalqlarının məskunlaşdığı ərazilərdə sosial-iqtisadi inkişaf eyni vəziyyətdə olmamışdı. Volqaboyunun kənd təsərrüfatında çox zəif olsa da məhsuldar qüvvələr və kapitalist münasibətləri inkişaf edirdi. Kazan quberniyasında kənd təsərrüfatında taxılçılıq əsas yer tuturdu. Bu quberniyada əhalinin 95,7 faizini kəndlilər təşkil edirdi. Taxıl satan və sənaye malları alan mülkədar və kəndlilər əmtəə-pul münasibətlərinə daha geniş cəlb olunurdular. Onların təsərrüfatı natural xarakterini itirirdi. 40-cı illərdə bir qrup qabaqcıl mülkədar öz təsərrüfatlarının məhsuldarlığını artırmaq üçün texnikanı yaxşılaşdırmış, yeni növ toxumlardan istifadə etmiş, maldarlığı inkişaf etdirməyə başlamışdı. Onlardan Qerken, Çertov, Dadyani, Lebedev, Tille, Molostov və başqalarını göstərmək olar. 1839-cu ildə iqtisadiyyatdakı geriliyi aradan qaldırmaq üçün Kazanda alimlərdən N.İ.Lobaçevski və M.Y.Kitarın köməyi ilə Kazan İqtisadi Cəmiyyəti yaradılmışdı. 1854-cü ildən bu cəmiyyət özünün «Kazan İqtisadi Cəmiyyətinin Qeydləri» jurnalını çap etdirməyə başlamışdı. Lakin əsrin əvvəllərindən başlayaraq inkişaf edən yeni məhsuldar qüvvələr və kapitalist münasibətləri müəyyən maneələrə rast gəlirdi.

Volqaboyunun kənd təsərrüfatı ləng inkişaf etsə də, kənddə ictimai təbəqələşmə getdikcə artırdı. Kəndlilərin müəyyən hissəsi uzun illər yığdıqları «kapital»la torpaq, dəyirman, sənaye müəssisələri satın alır və işçi qüvvəsi tutaraq feodal asılılığından azad olmaqla tacir, sənətkar və aşağı qulluqçulara çevrilirdilər. Yoxsul kəndlilərin vəziyyəti getdikcə ağırlaşırdı. Təkcə 1835-1838-ci illərdə dövlət kəndlilərindən 227 nəfər tacir və sənətkar aşağı qulluqçu olmuşdu. Dövlət kəndlilərinə verilən torpaqlar ildən ilə azalırdı. XVIII əsrlə XIX əsrin ayrıcında bu, 15 desyatin idisə, XIX əsrin birinci yarısında 8 desyatin və bəzən də daha az olmuşdu. Həmin torpaqlar dövlət tərəfindən mülkədarlara verilirdi. XIX əsrin əvvəlində Tatarıstanda kiçik malikanəsi olan 844 mülkədar var idi. İri mülk sahibləri əhalinin 3,5 faizini təşkil edirdilər. Onlara iri torpaq sahibi olan Narışkinlər, Zubovlar, Saxarovlar, Balaxovski, Molostovlar və başqaları daxil idilər. Kazan mülkədarları biyara üstünlük verirdilər. Diyarın kəndlilərinin 86 faizi biyarla bağlı idi. Biyarı həftədə 6 günə çatdırırdılar. Bir çox mülkədarlar kəndliləri aylıq azuqəyə keçirir, yəni kəndlilərin pay torpaqlarını əllərindən alır və onları daim cüzi aylıq pay müqabilində ağa torpağında işləməyə məcbur edirdilər /aylıq-azuqə/.

Kəndlilər həm də düzəltdikləri kənd təsərrüfatı alətlərini təkmilləşdirməyə çalışırdılar. Digər bir tərəfdən istehsal etdikləri kənd təsərrüfatı məhsullarını bazarda satırdılar.

Çuvaşiyada əhalinin 97 faizə yaxını kənd təsərrüfatı ilə məşğul olurdu. Kənd təsərrüfatı sahəsi, eləcə də əkinçilik alətləri əsasən əvvəlki dövrdə olduğu kimi təkmil deyildi. Lakin müəyyən dəyişikliklər də olmuşdu. Əsas yeniliklərdən biri kənd təsərrüfatında yeni alətlərin-dəmir kotan və s. tətbiq olunması idi. Kəndlilərin qismən ictimai təbəqələşməsi, əmək bölgüsü və kənddə sənətkarlığın inkişafı, bazarla əlaqənin genişlənməsi də özünü göstərirdi.

XIX əsrin ortalarında Çeboksarı və Tsivilskdə əvvəllər xırda sənətkar olmuş, yeni yaranan burjuaziya isə Yefrem Yefimov və tacir Kurbatovun şəxsində toxuculuq emalatxanası yaratmışdılar. Sahibkarlar meşə sənayesində hər il 4-5 min muzdlu fəhlə tutaraq taxta-şalban istehsalını genişləndirir və ixrac edirdilər. Çuvaşiyada mülkədarların əksəriyyəti kiçik malikanəsi olanlar idi. XIX əsrin

ikinci rübündə Çuvaşiyada 122 mülkədar malikanəsinin 47-də istismarın biyar sistemi mövcud idi. İri mülkədar təsərrüfatlarında mahud fabriki, kərpic və meşə emalı zavodları yaradılırdı. Lakin feodal-patriarxal münasibətlərin qalıqları hələ də mövcud idi. Rus və tatar kəndlilərində ictimai təbəqələşmə prosesi nisbətən sürətlə gedirdi.

Əsrlərdən bəri maldarlıqla məşğul olan başqırdların xeyli hissəsi oturaq həyata və əkinçiliyə keçirdi. Bu proses 1832-ci il 7 aprel qanunu verildikdən sonra yerli şərait nəzərə alınmadan daha da güclənmişdi. Rus mülkədar və zavod sahiblərinin Yuxarı Ural və Orenburq qəzasında torpaq sahələri tutması ilə əlaqədar olaraq maldarlıqla məşğul olan yerli əhali dağlıq və meşəlik rayonlara sıxışdırılırdılar. Bu da onları əkinçiliklə məşğul olmağa və ya pay torpaqlarını icarəyə verməyə məcbur edirdi. Eyni zamanda maldarlıq zəifləyir, yerli əhali isə müflisləşirdi. Bölgəyə rus kəndlilərinin köçürülməsi həm də müstəmləkəçilik siyasətini gücləndirirdi. Dövlət kəndlilərinə verilən torpaq sahələrinin ildən-ilə azalması isə böhranı daha da dərinləşdirirdi. Onlara adambaşına verilən torpaq payı 15 desyatindən 8 desyatinə enmişdi.

XIX əsrin 30-cu illərinin axırı və 40-cı illərdə dövlət kəndlilərinin idarə olunması ilə bağlı keçirilən Kiselyov islahatı kənd icmalarının işlərinə inzibati cəhətdən qarışmağa imkan yaratmış, polis nəzarətini genişləndirmiş, vergiləri artırmışdı. Dövlət torpaqlarında kəndlilərin kartof əkməyə məcbur edilməsi isə böyük narazılığa səbəb olmuşdu. Bütün bunlar 1834-1835-ci illərdəki hərəkatın bir növ davamı olan 1839-cu ildə Ural ətrafında baş verən «kartof» üsyanları və 1842-ci ildə Kazan quberniyasında çuvaş və marı kəndlilərinin çıxışları ilə nəticələnmişdi. 1842-ci ildə Akramovsk kəndində hökumət qoşunları ilə üsyançılar arasında baş verən döyüşdə 120 min nəfər adam iştirak etmişdi. Xalqın yaddaşında bu üsyan «Akramovsk müharibəsi» /«Şurça varsi»/ kimi qalmışdı.

Feodal-təhkimçilik quruluşunun dağılması və kapitalist münasibətlərinin inkişafı ölkənin ucqar bölgəsi olan Sibirdə də özünü göstərirdi. Sibir kəndliləri əkinçilik, maldarlıq, balıqçılıq, bostançılıq və s. ilə məşğul olurdular. Əvvəllər olduğu kimi, XIX əsrin birinci yarısında da Sibirə Rusiyanın mərkəzi quberniyalarından əhalinin köçürülməsi davam etmişdi. Bunun nəticəsində əhalinin sayı

1820-ci ildəki 1,6 milyon nəfərdən 1852-ci ildə 2,7 milyon nəfərə çatmışdı. Əhalinin çox hissəsi Qərbi Sibirin kənd təsərrüfatı ilə məşğul olan rayonlarında yaşayırdı. Lakin yeni torpaqlardan istifadə etmək üçün kəndlilərin əsas hissəsinin vəsaitləri yox idi. Bununla yanaşı Sibir xalqları əkinçiliyi öyrənib oturaq həyat tərzinə keçir, iqtisadi əlaqələr möhkəmlənib inkişaf edirdi. Köləlik isə qadağan olunmuşdu.

Sibirdə təhkimçilik hüququ Rusiyanın mərkəzi quberniyalarında olduğu kimi geniş miqyasda yayılmamışdı. Yakutiyada isə təhkimçilik hüququ olmamışdı. Bütün Sibirdə cəmi 36 mülkədar, 70 mülksüz zadəgan, 3700 təhkimli kişi var idi. Çar hökumətinin Sibirdə feodal-təhkimçilik qaydalarını yaymamasının səbəbləri isə kəndli iğtişaşlarından ehtiyat etməsi, mərkəzi quberniyalardan fərqli olaraq, burada hərbi və polis qüvvələrinə malik olmaması, əhalinin qismən seyrək yerləşdirilməsi, xeyli maddi vəsaitin vacibliyi, daxili bazarın məhdudluğu və nəhayət, təhkimçilik quruluşunun dağılması prosesinin baş verməsi ilə əlaqədar idi. Sibirdə kənd icmaları kəndlilərin mülkədar deyil, dövlətdən feodal asılılığı və boş torpaqlar ehtiyatının mövcud olduğu şəraitdə fəaliyyət göstərirdi. Bu iki cəhət onun əsas xüsusiyyəti idi. Mülkədar torpaq sahibliyinin olmaması, boş torpaqların mövcudluğu və torpaqların zəbt edilməsi kəndlilərin ictimai təbəqələşməsinə səbəb olurdu.

XIX əsrin birinci yarısında Sibirdə əkinçiliyin qeyri-bərabər inkişaf etməsinə baxmayaraq taxıl toplanması 2 dəfə yarımdan çox artmışdı. Bu artım kənd təsərrüfatının intensivləşdirilməsi, yeni texnikanın tətbiqi deyil, yerli və gəlmə kəndlilərin əkin sahələrinin və taxıl əkininin genişləndirilməsi hesabına baş vermişdi. Kənd təsərrüfatının inkişafını ləngidən əsas səbəblərdən biri də vergilərin ilbəil artırılması idi. Sibir kəndlilərinin feodal istismarı və inzibati idarə orqanlarının özbaşınalığına qarşı ən geniş yayılmış etiraz formalarından biri çar və ali hakimiyyət orqanlarının «ədalət» prinsipinə inanaraq kütləvi şəkildə göndərdikləri şikayət ərizələri olmuşdu. Özbaşına köçürülmə də kəndlilərin narazılığına səbəb olurdu. Eyni zamanda dövləti hər şeydən çox narahat edən Sibirdə dövlət gəlirinin aşağı düşməsi və vergilərin ödənilməməsi idi. Bununla əlaqədar olaraq Sibirin inzibati quruculuğu və idarə

olunmasına aid islahatın keçirilməsi qərarı qəbul edilmişdi. Sibirə göndərilən M.M.Speranski 2 ilə yaxın inzibati aparatı yoxladıqdan sonra o, 1819-cu ildə Sibirin general-qubernatoru təyin olunmuşdu. 1821-ci ildə Peterburqda yaranmış xüsusi Sibir komitəsi Speranskinin hazırladığı hesabat və layihəni müzakirə etməli idi. 1822-ci ildə elan edilmiş Speranski islahatına əsasən inzibati mərkəzi Tobolsk və İrkutsk olmaqla Qərbi və Şərqi Sibir general-qubernatorluğu yaradıldı. 1822-ci il iyunun 22-də nizamnamə ilə birgə Sibir quberniyalarının idarə olunmasını təşkil etmək üçün sənəd dərc edildi. Qərbi Sibir general-qubernatorluğunun tərkibinə Tobolsk quberniyası və Omsk vilayəti, Şərqi Sibirə isə İrkutsk, Yenisey quberniyaları, Yakutsk vilayəti və üç xüsusi idarə olunan Oxotsk, Kamçatsk-Primorsk və Troitsk-Savsk daxil idi. Quberniyalar mahallara, mahallar qəzalara, qəzalar isə kəndlərə bölünürdü. 1822-ci ildə qəbul olunmuş özgə xalqdan olanları idarə etmək haqqında nizamnamə bütün Sibir xalqlarının həyatında müəyyən rol oynamışdı. Burada torpaqdan istifadə qaydası, azad ticarətə yol verilməsi, vergi toplanılmasının nizama salınması, hüquqi məsələlər və s. qeyd edilmişdi. Lakin 1828-ci ildə Yakutiyada ikinci yasaq komissiyası əhalinin sayı və rayonları yenidən müəyyənləşdirdikdən sonra vergilərin miqdarı 3 dəfə artırıldı. Bölgədən toplanan vergi imperator kabinetinə göndərilirdi. Bəzi mahallarda vergi xəz ilə alınırdı. Aşağı keyfiyyətli xəzlər İrkutsk yarmarkalarında, daha qiymətliləri isə Peterburq və Londonun auksionlarında satılırdı.

XIX əsrin ortalarında Yakutiyada taxılçılıqla məşğul olmağa çalışırdılar. Lakin ikinci yasaq komissiyasının məlumatına əsasən torpaq əhali arasında düzgün bölünməmişdi. Varlılara daha yaxşı torpaq sahələri verilmişdi.

Krım Rusiya tərəfindən işğal olunduqdan sonra ölkəni tərk edib Türkiyəyə pənah gətirən xan, sultan və başqalarının torpaqları Dövlət torpaq fondunun hesabına keçmişdi. Lakin sahibsiz torpaqların paylanılmasında çox böyük sui-istifadəyə yol verilmişdi. Bu sahədə olan mübahisələri araşdırmaq üçün Krımda 10 ildən çox dövlət komissiyası işləmişdi. 1816-cı il mayın 4-də ucuz qiymətə torpaqların satılmasının dayandırılması haqqında qərar qəbul edilmişdi. Krımda yerləşdirilmiş Mərkəzi Rusiya, Belorusiya, Ukraynadan gələn mülkədar və kəndlilərin çox hissəsi dövlətdən müftə,

ya da satın almaq yolu ilə torpaq əldə etmişdilər. General-mayor Popov 32 min desyatin, qraf Bezborodko 13 min desyatin torpaq almışdı. Mülkədarlara böyük torpaq sahələri verildiyinə görə iri mülkədar torpaq sahibləri meydana gəlmişdi. Krımın kənd təsərrüfatında maldarlıq, üzümçülük, şərabçılıq, bağçılıq, bostançılıq əsas yer tuturdu. Kənd əhalisinin xeyli hissəsinin xüsusi pay torpaqları olmadığına görə torpaq icarəyə götürürdülər. Yerli və köçürülmüş kəndlilərin əsas hissəsinin vəziyyəti isə çətin idi. Kənd təsərrüfatının bütün sahələrində muzdlu əməkdən istifadə olunurdu.

Bu da kənddə əmtəə–pul münasibətlərinin inkişafını sürətləndirirdi. Krımda kənd təsərrüfatının inkişafının yerli xüsusiyyəti ölkənin mərkəzi rayonlarına nisbətən kapitalist inkişafı yoluna daha tez keçməsi ilə xarakterizə olunurdu.

**Sənaye.** Krımın kənd təsərrüfatındakı xarakterik xüsusiyyət sənaye sahəsinə də öz təsirini göstərmişdi. Belə ki, bölgədə yeni şəhərlər salınır, əhali artır və ticarət genişlənirdi. XIX əsrin 40-cı illərində Krımda o qədər də böyük olmayan 15-ə qədər kərpic-kirəmit zavodu var idi. Duz istehsalı və balıq ovlanması, həmçinin onun emalı, şərabçılıq sənayenin əsas sahələri idi. 30-cu illərdə Simferopol-Aluşta-Yalta-Sevastopol şose yolu inşa edilmişdi. Sevastopol, Simferopol, Kerç, Yalta kimi şəhərlər getdikcə böyüyürdü. 1850-ci ilə yaxın şəhər əhalisinin sayı 6 dəfə artmışdı.

Kazan diyarında feodal özülünün böhranı və kapitalist münasibətlərinin inkişafı özünü bütün sahələrdə göstərirdi. 1851-ci ildə ilk iri kapitalist müəssisələri-Uşakovun Kokşansk kimya zavodu, Sveşnikovun mexaniki müəssisəsi meydana gəlmişdi. Volqa və Kama ilə ilk gəmilər hərəkətə başlamışdı. Onlara kənd təsərrüfatı və sənaye məhsullarını Orta Volqaboyu və Urala daşımaq üçün geniş imkanlar açılmışdı. Kazan tacirləri Mərkəzi və Volqaboyu şəhərləri, Mərkəzi Asiya və Cənubi Qafqazla ticarət əlaqələrini artırmışdılar. Kazan Rusiyanın Avropa hissəsi ilə Ural, Sibir və Mərkəzi Asiya arasında iri tranzit mərkəzinə çevrilmişdi. Kazan, Çistopol, Laişev, Yelabuq şəhərlərinin əhalisi artmışdı.

XIX əsrin 30-40-cı illərində Başqırdıstanın metallurgiya sənayesində irəliləyiş hiss olunurdu. 1806-1851-ci illərdə mis əridilməsi təxminən 22 faiz, dəmir istehsalı isə 37 faiz artmışdı. 1850-ci ildə

Orenburq quberniyasındakı 69 qızıl mədəninin (o cümlədən 30 xüsusi) payına illik qızıl istehsalının yarısından çoxu düşürdü. Lakin bununla yanaşı bir sıra sənaye müəssisələri: 30 kərpic, 1 şüşə istehsalı, 3 sabunbişirən zavod və 1 pambıq fabriki öz fəaliyyətini dayandırmışdı. Meşə materialları istehsalı sənayesi də zəifləmişdi. Sənaye və kənd təsərrüfatı məhsullarının satışı üçün yarmarkalar təşkil edilirdi. 1842-1850-ci illərdə yarmarkaların sayı artaraq 61-dən 149-a çatmışdı. Orenburq diyarı Rusiya imperiyasının xarici ticarətində xüsusi yer tuturdu. İstehsal olunan dəmir Türkiyə, İran və Asiyanın başqa ölkələrinə satılırdı. Orenburq quberniyasında 14 şəhər var idi. 1850-ci ildə şəhər əhalisinin sayı 58 min nəfərə çatmışdı. Əsas şəhərlərdən Ufa, Orenburq, Buquruslan, Buzuluk, Buqulma, Çelyabinsk və b. göstərmək olar. Şəhərlərin xarakterik cəhəti demək olar ki, onlarda sənətkarlar və yüksək ixtisaslı fəhlələrin olmaması idi.

Əsrin əvvəllərində Çuvaşiyada bitki, mineral maddə və kənd təsərrüfatı məhsullarının emalı üzrə onlarla kiçik müəssisə və manufaktura fəaliyyət göstərirdi. XIX əsrin 50-ci illərində isə Çuvaşiyada kərpic, şüşə, mistökmə, dəri zavodları və mahud, xalçaçılıq fabrikləri fəaliyyət göstərirdi. Dörd yüzə qədər su və külək dəyirmanı mövcud idi. Volqa ilə gəmilərin hərəkəti Çuvaşiyanın iqtisadiyyatını Ümumrusiya bazarı ilə əlaqələndirir və onun inkişafına daha çox köməklik göstərirdi. Daxili ticarət dövriyyəsinin genişlənməsi nəticəsində şəhərlərin əhəmiyyəti və rolu getdikcə artırdı. Çuvaşiyada 50 yarmarka fəaliyyət göstərirdi. Ticarətin inkişafı, onun getdikcə mövsümilikdən çıxması feodalizmin dağılması və kapitalist münasibətlərinin genişlənməsinə təsir edirdi.

Zəngin təbii sərvətlərə malik olan Sibirdə əsas sahə dağ-mədən sənayesi idi. Dekabrist A.A.Bestujev yazırdı ki, Sibir «fabrik və zavodlar ölkəsi» olmalıdır. Feodal münasibətlərinin mövcudluğu dağ-mədən sənayesinin inkişafına mane olurdu. Texniki gerilik daha çox özünü göstərirdi. 1840-1841-ci illərdə Lenada ilk qızıl filizi çıxarılmağa başlanmışdı.

XIX əsrin 50-ci illərində Altay dağlıq mahalında çuqun, polad, dəmir, qızıl, gümüş və s. əridilməsi və məhsul istehsalı xeyli artmışdı. Uraldan Sakit okeana qədər böyük bir ərazidə qızıl mədən

sənayesi genişlənməkdə idi. 1830-cu ildə Sibirdə 45 pud qızıl istehsal edilirdisə, 1850-ci ildə bu, 1035 puda çatmışdı. Sibirdə eyni zamanda kərpic, sabunbişirmə, yağ və duz emalı və s. zavodlar fəaliyyət göstərirdi. XIX əsrin birinci yarısında Altay Dağlıq Mahalı mədən və metallurgiya sənayesində fəhlələrin sayına görə Rusiyada Uraldan sonra ikinci yerdə gedirdi. Təkcə Tobolsk quberniyasında 81 yarmarka fəaliyyət göstərirdi. Rusiya Sibir vasitəsilə Mərkəzi Asiya, Çin və Monqolustan ilə ticarət edirdi. Rusiyadan toxuculuq məhsulları, dəmir, mis, metal məmulatları, rəng və s. ixrac olunur, çay, ipək, çit parça, çini qablar isə idxal edilirdi.

Sibirin əhalisi 1825-ci ildəki 112,5 min nəfərdən 1858-ci ildə 201,8 min nəfərə çatmışdı. Omsk, Tobolsk, Tomsk, Barnaul, Tümen, İrkutsk, Krasnoyarsk, Yakutsk və s. bu kimi şəhərlər mövcud idi.

Hələ 1717-1912-ci illərdə tuvalılar mancur-çin feodallarının hakimiyyəti altında olarkən Rusiya ilə ticarət aparırdılar. Hər iki tərəf üçün əlverişli olan ərzaq və təsərrüfat mallarının mübadiləsində tofalar və altaylılar da iştirak edirdilər. Tuvalılar dəri, bir çox çin məhsulları ipək və çay, ruslar isə əsasən dəmir məmulatları, manufaktura istehsalı olan məhsullar və s. ilə mübadilə edirdilər. Tuvada qızıl sənayesinin yaranması Rusiya və Tuva arasında iqtisadi əlaqələrin möhkəmlənməsi və inkişafına səbəb oldu. 1838-1839-cu illərdə Tuvada Spassk və Nikitin mədənləri yaradıldı. Mancur hakimiyyəti və Tuvanın yerli məmurları bunu qısqanclıqla qarşıladılar.

Rusiya hökuməti də həmçinin xəzinəyə gəlir gətirməyən gömrüksüz ticarəti genişləndirməyə çox da maraq göstərmirdi. Bu dövrdə Rusiyada feodal münasibətlərinin ağalığı, sənaye və ticarətin zəif inkişafı mübadilənin artmasına manea olurdu.

**İctimai-siyasi vəziyyət.** Ağır maddi və sosial-hüquqi vəziyyət zavod və mədənlərdə fəhlələrin iş yerini tərk etmələri və çıxışlarına səbəb olurdu. XIX əsrin 40-cı illərinin əvvəlləri mədən fəhlələrinin bir sıra çıxışları ilə əlamətdardır. Fəhlələrlə qızıl mədənlərinin sahibləri arasında baş verən narazılıq əsasında 1842-ci il Yenisey mahalında 4 mindən çox fəhlə çıxış etmişdi. Kazak dəstələrinin azlığı üzündən fəhlələrə qarşı hərbi qüvvə göndərilmişdi. Polis terroruna baxmayaraq fəhlələrin mübarizəsi dayanmırdı. 1843 və 1846-cı illərdə Yenisey mahalında yenidən iğtişaşlar baş vermişdi.

1847-ci ildə tacirlərdən Ryazanov, Balandin və Kazantsevin mədənlərində hadisələr daha geniş vüsət almışdı. Fəhlələrin çıxışları silahlı kazak dəstələri tərəfindən yatırılmışdı. 1850-ci ildə isə Lena qızıl mədənlərində tətil baş vermişdi. İqtisadi vəziyyətin yaxşılaşdırılması uğrunda mübarizədə Sibirin yerli xalqlarının çıxışları mühüm yer tuturdu. Bu hərəkatda heç də həmişə konkret müsbət nəticələr əldə olunmurdu. Amma onların mübarizəsi ölkədə hökmran olan təhkimçilik qaydalarına qarşı ümumxalq hərəkatına təsir edirdi.

XIX əsrin birinci yarısında Sibirin tarixi dekabristlərlə bağlıdır. Dekabristlər isə feodal-təhkimçilik quruluşuna qarşı ilk açıq inqilabi mübarizə aparmışdılar. Sibirə sürgün edilmiş dekabristlər xalqın məişətini, tarixini öyrənir, əhaliyə tibbi yardım göstərir, maarif və mədəniyyəti yüksəltmək üçün tələblər irəli sürməklə bu sahədə müəyyən işlər görürdülər. Bundan əlavə, Sibirə hər il minlərlə yeni sürgün olunanlar gəlirdilər.

Rusiyada baş verən ictimai-siyasi proseslər onun ucqarlarında da özünü göstərirdi. XIX əsrin əvvəlində Orenburq diyarında təşkil olunmuş qoşun Rusiyanın qərb sərhədlərindəki döyüş əməliyyatlarında iştirak etmişdi. 1806-1807-ci illərdə Fransa ilə müharibə zamanı beş yüz nəfərlik başqırd polku yaradılmışdı. 1814-cü ildə rus qoşunları ilə bərabər başqırd polkları da Parisə daxil olmuşdu. Mirqolit Mullakayev, Abdulnasır Urmakayev, Nazarbay Tulupov, Alkay Tambulatov hərbi fərqlənmə ordeni ilə təltif olunmuşdular. Başqırd polk və dəstələri 1828-1829-cu illərdə rus-türk müharibəsində, 1839-cu ildə Xivə ekspedisiyasında, 1853-cü ildə V.A.Perovskinin Ağ məscidi almasında və Krım müharibəsində iştirak etmişdilər. 1813-cü ildə Drezdenin alınmasında başqa ordu hissələrilə bərabər Kazan könüllüləri də iştirak etmişdilər. Kazan könüllülərinin polklarında çuvaşlar da olmuşdu. Fransaya qarşı müharibədə Sibirdən 7 polk və 2 artilleriya rotası iştirak edirdi. Müharibəyə kömək üçün pul və əşya ianəsi toplanılmışdı.

# II FƏSİL

# RUSİYANIN MƏRKƏZİ ASİYA VƏ QAZAXISTANI İŞĞAL ETMƏSİ

## § 1. İQTİSADİ VƏ SİYASİ ƏLAQƏLƏR

Mərkəzi Asiya və Qazaxıstanın Rusiyaya qatılması prosesi bu dövlətlər arasında həm də iqtisadi və siyasi əlaqələr nəticəsində hazırlanmışdı. Ticarət əlaqələri ildən-ilə genişlənmişdi. Rusiyanın Qazaxıstanla diplomatik əlaqələrinin öz tarixi vardır. Hələ 1573-cü ildə qazax xanlıqları ilə ticarət əlaqələri yaratmaq üçün T.Çebukov oraya səfir göndərilmişdi. Buxaralılar və qazaxlarla gömrüksüz ticarət etmək üçün 1574-cü ildə çar IV İvan tərəfindən imtiyaz vərəqəsi verilmişdi.

Qərbi Sibir Rusiyaya qatıldıqdan sonra qazax çölündən Taru, Tümen və Tobolska gedən ticarət yolu yaradılmışdı.

1694-cü ildə qazax xanlıqları ilə Rusiya dövlətinin qarşılıqlı əlaqələrini nizamlamaq üçün Tauk xanın yanına səfirlər F.Skibin və M.Troşin göndərilmişdilər.

XVIII əsrdə Mərkəzi Asiya və Qazaxıstanla Rusiya arasında mövcud olan iqtisadi və diplomatik əlaqələr daha da genişlənmişdi.Volqa, Xəzər, Manqışlaq, Xivə, Buxara və Kokanda gedən ticarət yolundan əlavə ikinci yol – Orenburq, Daşkənd, Kokand, Buxara yolu da açılmışdı. Üçüncü Sibir yolu idi ki, bu da Semipalatinsk, Petropavlovsk və qazax səhrasını keçib, Sarısu çayı boyunca Daşkəndə gedirdi.

I Pyotr Avropaya pəncərə açdıqdan sonra Şərqə Rusiyanın təsirini gücləndirmək üçün onun Asiya və Avropa arasında ticarət əlaqələrinin vasitəçisi olmasını vacib hesab edirdi. O, həm də rus sənayesi üçün xammal bazası axtarırdı. Bununla əlaqədar olaraq I Pyotr Mərkəzi Asiya, Ural və Sibirdə faydalı qazıntı sahələri əldə etmək üçün axtarış aparılmasını qərara almışdı.

1714-cü ildə podpolkovnik Buxqoltsun rəhbərliyi altında İrtışa göndərilən hərbi ekspedisiya buradan Hindistana getməyin mümkünlüyünü öyrənməli və qızıl axtarmalı idi. İrtışın yuxarı hissəsində isə Buxqoltsun ekspedisiyası kalmıkların hücumu ilə qarşılaşmışdı. Amma buna baxmayaraq, müəyyən nəticə əldə edilmişdi. Buxqolts Omun İrtışa töküldüyü yerdə Omsk qalasının təməlini qoymuşdu /1716/. 1718-ci ildə Semipalatinsk, 1720-ci ildə isə Ust-Kamenoqorskun özülü yaradılmışdı. Bununla da Sibir sərhəd xətti İrtış çayına qədər çatdırılmışdı.

I Pyotr Rusiyanın Qazaxıstanda siyasi və iqtisadi təsirini genişləndirməyə çalışırdı. O, İran səfərindən qayıtdıqdan sonra tərcüməçi M.Tevkelevi qazaxları rus təbəəliyini qəbul etməyə inandırmaq üçün Kiçik juza göndərməyi nəzərdə tuturdu. I Pyotrdan sonrakı rus çarları bu xətti davam etdirirdilər. Anna İvanovnanın dövründə Mərkəzi Asiyaya gedən karvan yollarının təhlükəsizliyinin təmin edilməsinə nail olunmuşdu.

Beləliklə də, XVIII əsrin 30-cu illərinin əvvəllərində Qazaxıstanın Rusiyaya qatılmasında Rusiya dövlətinin iqtisadi və siyasi marağı aydın surətdə müəyyənləşmişdi. Məhz bu dövrdə Qazaxıstan ərazisinin bir hissəsi-Kiçik və Orta juz Rusiyanın təbəəliyini qəbul etmişdi. Rusiyanın Şərq ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün qazax çölünü tranzit yolu kimi istifadə etmək çar hökumətini maraqlandırırdı. Bununla əlaqədar olaraq 1802-ci ildə Ticarət naziri N.P.Rumyantsev Dövlət Şurasına xüsusi məlumat vermişdi. Həmin sənəddə göstərilirdi ki, Rusiya Asiya dövlətləri ilə ticarət əlaqələrini inkişaf etdirməlidir. Bunun üçün Şimali Hindistan və İranın qapısı sayılan Kabil və Lahora yaxın olan Buxara ilə ticarət əlaqələrinin genişləndirilməsi vacib sayılırdı. Buxara ilə əlaqələr Qazaxıstan vasitəsilə həyata keçirilməli idi. N.P.Rumyantsev Hindistana gedən bu tranzit yolunu ən əlverişli əlaqə vasitəsi hesab edirdi.

Fransa-Rusiya müharibəsi dövründə qazax çölündən keçən tranzit yolunun əhəmiyyəti daha da artmışdı. Napoleon İngiltərəni sarsıdıcı hərbi məğlubiyyətə uğrada bilmədiyinə görə iqtisadi qüdrətinə zərbə endirməklə onu kontinentdən tamamilə ayırmaq istəyirdi. Məhz buna görə də Napoleon bütün Avropa dövlətlərinə İngiltərə ilə ticarət aparmağı qadağan etmiş, yəni kontinent mühasirəsi yaratmış-

dı. Avropanın başqa ölkələri kimi Rusiya da İngiltərə ilə bütün ticarət əlaqələrini kəsməyə məcbur idi. Lakin rus bazarında ingilis mallarına tələbat artırdı. Buxara tacirləri bundan istifadə edirdilər. Onlar Hindistanda ingilis mallarını alıb Orenburqa göndərirdilər. Bu zaman isə qazax çölündən keçməli olurdular.

Qazaxıstan maldarlıq və sənətkarlıq məhsullarının mənbəyi kimi rus tacirlərini özünə cəlb edirdi. Hərbi hücum, torpaq işğalı ilə bərabər ticarət əlaqələri də Rusiyanın Qazaxıstana olan təsirini gücləndirirdi.

XIX əsrin birinci yarısında Mərkəzi Asiya və Qazaxıstan iqtisadi cəhətdən Rusiyanın təsiri altına düşmüşdü. Bununla əlaqədar olaraq, ticarətin inkişafı və əmtəə-pul münasibətlərinə keçilməsi təsərrüfatın natural qapalılığını dağıtmağa başlamışdı. Bu region ilə ticarət əlaqələrinin inkişaf etdirilməsində marağı olan çar hökuməti rus tacir və sahibkarlarına himayəçilik edirdi.

Diyarın müxtəlif rayonları ilə Rusiyanın ticarət əlaqələri eyni, bərabər səviyyədə deyildi. Rusiyanın sərhəddinə yaxın olan rayonlarla ticarət əlaqələri daha ardıcıl və intensiv həyata keçirilirdi. Rusiya ilə sərhəd bölgələrində illik dövriyyəsi 2 milyon manatdan çox olan yarmarkalar fəaliyyət göstərirdi. Məhsulların bir hissəsi pul ilə alınır, digəri isə mübadilə yolu ilə dəyişdirilirdi.

Rusiya dövləti Mərkəzi Asiya və Qazaxıstanla iqtisadi əlaqələri möhkəmləndirmək və genişləndirmək üçün bir sıra tədbirlər görmüşdü. Belə ki, ticarət yolları mühafizə olunur, tacirlərə müəyyən imtiyaz və üstünlüklər verilir, gömrük haqqının minimuma endirilməsi ticarət əlaqələrinə müsbət təsir göstərirdi.

XIX əsrin 20-ci illərinin ortalarında əsrin əvvəlinə nisbətən Mərkəzi Asiyaya gətirilən rus mallarının dəyəri 1 milyon manatdan 4 milyon manata qalxmışdı. Həmin dövrdə isə Rusiyaya daşınan Mərkəzi Asiya mallarının dəyəri 2 milyon manatdan demək olar ki, 6 milyon manata çatmışdı. 50-60-cı illərdə bu özünü daha qabarıq bir şəkildə göstərirdi. Əgər 1840-1850-ci illərdə Rusiyanın Mərkəzi Asiya ilə illik əmtəə dövriyyəsi 1,4 milyon manat idisə, 1867-ci ildə 30 milyon manatdan çox olmuşdu.

Ümumiyyətlə, 1758-1858-ci illərdə Rusiyanın Mərkəzi Asiyaya ixracatı 12 dəfədən çox artmışdı. 1861-ci il islahatından sonra

isə Mərkəzi Asiya satış bazarı kimi mühüm əhəmiyyət kəsb etmişdi. Region həm də xammal mənbəyi olmaqla böyük maraq doğururdu. 1864-cü ildə rus sənayesi Mərkəzi Asiyadan 2 milyon puda qədər mahlıc almışdı. Göründüyü kimi, bu iqtisadi əlaqələrdə əsas rolu pambıq və pambıq parça məhsulları ilə ticarət oynayırdı. Rusiyada pambıq parça sənayesi yüksək templə inkişaf edirdi. Belə ki, 1812-ci ildən 1860-cı ilə qədər olan dövrdə pambıq parça istehsalı 50 dəfə artmışdı.

Rusiya Mərkəzi Asiya ilə ticarət əlaqələrini genişləndirmək üçün dəmir, polad, mis, çuqun və onlardan hazırlanan məhsulların da xanlıqlara gətirilməsinə icazə vermişdi. İnkişaf etməkdə olan rus kapitalizmi üçün Mərkəzi Asiyanın nəinki oturaq, həmçinin köçəriliklə məşğul olan bölgələri də xüsusi əhəmiyyət kəsb edirdi. Rus tacirləri köçəriləri zəruri olan müxtəlif metal məmulatları, çit və sair ilə təmin edir, əvəzində isə maldarlıq məhsulları alırdılar. Bu da onu göstərirdi ki, XIX əsrin birinci yarısında Rusiya Mərkəzi Asiya və Qazaxıstanın bazarında öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Buxara, Xivə və Kokand ilə Rusiya arasında yerli məhsullarla mal dövriyyəsi getdikcə artırdı.

XIX əsrin 50-ci illərinin əvvəllərində Çinin Avropa ölkələri ilə ticarət etmək üçün açdığı bir sıra limanlarının kəskin surətdə azaldılması ilə əlaqədar olaraq Rusiyanın da Kyaxti vasitəsilə Çinlə ticarəti aşağı düşmüşdü. Bu da rus sənayesi üçün Mərkəzi Asiya bazarının rolunu daha da artırmışdı. Eyni zamanda xanlıqlarla rus tacirlərinin azad ticarət etmək haqqında qanuni hüquqlarının olmaması Rusiya ilə Mərkəzi Asiya arasında iqtisadi əlaqələrə zərər yetirsə də, çar Rusiyası bu regionda öz mövqeyini möhkəmləndirməyə xüsusi diqqət yetirirdi. Rus tacir və müəssisə sahibləri müsəlman tacirlərinin – tatar, başqırd və digərlərinin vasitəçilik səylərini aradan qaldıraraq Mərkəzi Asiya bazarı ilə birbaşa əlaqə yaratmağa çalışırdılar. Məhz buna görə də XIX əsrin 40-cı illərindən etibarən çar hökuməti Mərkəzi Asiya xanlıqları ilə ticarət əlaqələrini yüngülləşdirən bir sıra tədbirlər görmüşdü. Mərkəzi Asiyadan gətirilən malların üzərinə bir faizli vahid gömrük haqqı qoyulmuşdu. 1848-ci ildə Manqışlaqdakı rus malları gömrükdən azad olunmuş və rus məhsullarını azad dəyişdirmək hüququ verilmişdi.

Bu dövrdə İngiltərə Mərkəzi Asiya bazarlarında rus məhsullarını sıxışdırmağa başlamışdı. Lakin ingilislərin rəqabətinə baxmayaraq, Rusiyanın ticarət əlaqələri kəskin şəkildə aşağı düşməmişdi. XIX əsrin 50-ci illərinin axırlarında bundan narahat olan Rusiya sənayeçi və tacirləri Xarici İşlər Nazirliyinə göndərdikləri məktubda Mərkəzi Asiyada Rusiyanın iqtisadi mövqeyinin möhkəmləndirilməsinin zəruriliyini bildirirdilər.

Eyni zamanda Rusiyanın Mərkəzi Asiyada marağını artıran başqa səbəblər də var idi. Belə ki, Rusiyanın Avropa hissəsindən kəndliləri gələcəkdə bu regiona köçürmək həm də dövlətin yeni gəlir mənbəyi ola bilərdi. Digər tərəfdən isə təhkimçilik hüququ ləğv olunduqdan sonra bir qrup zadəgan öz keçmiş gəlir və imtiyazlarının müəyyən hissəsini itirdiklərinə və müəssisə sahibləri tərəfindən sıxışdırıldıqlarına görə belə hesab edirdilər ki, Mərkəzi Asiya Rusiyaya qatıldıqdan sonra orada iri torpaq sahəsi və yüksək vəzifələr ala biləcəklər.

Mərkəzi Asiya Rusiyanın İran, Əfqanıstan, Hindistan və Çinlə ticarət aparmasına imkan yaradırdı. Rusiya üçün regionun plasdarm kimi də əhəmiyyəti var idi. Eyni zamanda bu ərazidən Yaxın və Orta Şərqdə İngiltərənin yürütdüyü siyasətə qarşı mübarizə aparmaq olardı. Digər tərəfdən, rus tacirləri Mərkəzi Asiya tacirlərinin vasitəçiliyi olmadan Qərbi Çinlə ticarət etmək istəyirdilər. Rusiyadan gələn və Qırğızıstandan keçən ticarət yolu Mərkəzi Asiya xanlıqları, Qaşqar və Qərbi Çinin bəzi əyalətlərinə gedirdi.

Orenburq general-qubernatoru Katenin Kokandın işğal olunması və Qaşqardan keçərək Çinlə ticarət əlaqələrini inkişaf etdirmək planını işləyib hazırlamışdı. 1858-ci ildə o, Xarici İşlər nazirinə yazmışdı ki, biz geriyə çəkilə bilmərik. Mərkəzi Asiyaya, ilk növbədə Sırdərya xəttinə sahib olmaq üçün Türküstan və Daşkəndi tutmalıyıq. Çar hökumətinin diplomatları və xarici siyasət sahəsində fəaliyyət göstərən mütəxəssisləri, Hərbi Nazirlik Mərkəzi Asiyaya hücum etmək planını dəstəkləyirdilər.

XIX əsrin 40-50-ci illərində çarizm Mərkəzi Asiya və Qazaxıstanın hələ tamamilə Rusiyaya qatılması məsələsini həll etməmişdi. Əlbəttə, bu ciddi hazırlıq və əlverişli şərait tələb edirdi. Amma əsas səbəb isə dövlətin diqqəti və ölkənin ehtiyaclarının

Qafqazın alınmasına yönəldilməsi idi. 1848-ci il Avropadakı inqilabi hadisələr və Krım müharibəsi ilə /1853-1856-cı illər/ əlaqədar olaraq Rusiyanın ümumi beynəlxalq vəziyyəti də Mərkəzi Asiyanı istila etmək üçün əlverişli deyildi.

Buna baxmayaraq, Rusiya Mərkəzi Asiya və Qazaxıstan məsələsinə bütövlükdə böyük maraq göstərirdi. Rus diplomatlarının fəaliyyətlərinin güclənməsi ilə əlaqədar olaraq xanlıqların iqtisadi və siyasi vəziyyəti, Mərkəzi Asiyaya gedən karvan yolları hərtərəfli öyrənilirdi. Rusiya Mərkəzi Asiyada mövcud olan xanlıqlar arasındakı daxili çəkişmə və narazılıqdan istifadə etməklə siyasi əlaqələrini genişləndirir, gələcək planlarını həyata keçirmək üçün müvafiq tədbirlər proqramı üzrə hərəkət edirdi.

1841-1842-ci illərdə Xivəyə göndərilən rus diplomatik heyətlərinin vəzifəsi Xəzər dənizinin şərq sahilinin bir hissəsi və Sırdərya çayından şimaldakı bütün əraziyə Rusiyanın sahib olmasına Xivə xanlığını razı salmaq idi. Lakin danışıqlar istənilən nəticələri vermədi. Buxaraya göndərilən Butenevin diplomatik heyəti də əsaslı nəticə əldə edə bilmədi.

XIX əsrin 40-cı illərinin axırı-50-ci illərinin əvvəlində çar hökuməti Mərkəzi Asiyaya doğru daha planlı şəkildə irəliləməyə başladı. Bununla əlaqədar olaraq əsas addım 1847-ci ildə Sırdərya çayının mənsəbində Raim istehkamının /1851-ci ildən Aral adlandırılıb/ tikilməsi oldu. 1848-ci ildə Raim istehkamından 45 verst aşağıda yerləşən Qazalı qalasının əsası qoyulmuşdu.

1851-ci ildə Orenburq və Samara general-qubernatoru təyin edilən general V.A.Perovski Mərkəzi Asiya xanlıqlarına qarşı həlledici hərbi əməliyyata keçməyin tərəfdarı idi. Onun tərəfindən göndərilən silahlı dəstələr 1853-cü ildə Sırdərya çayının sağ sahilində mühüm strateji əhəmiyyəti olan Kokand qalası Ağ məscidi almışdı. Ağ məscidin yerində istehkam – «Perovsk qalası» /Qızıl Orda şəhəri/ tikilmişdi. 1850-1854-cü illərdə çar qoşunları tərəfindən bütün Zailiysk diyarı tutulmuşdu. 1854-cü ildə Alma-Ata kəndində Vernı istehkamı inşa edilmişdi. Bir ildən sonra Vernı yaxınlığında Almatı çayının sağ sahilində inşası yenicə başa çatdırılmış kazak qəsəbəsi adlanan yerə, Almatinsk stanitsasına 132 nəfər Sibir kazakı və 200 rus kəndli ailəsi köçürülmüşdü. Sonra İli çayının arxasındakı ərazi-

lərə onuncu Sibir kazak qoşununun yeridilməsi haqqında göstəriş verilmişdi. Tezliklə hərbi general-qubernator Kolpakovski Semipalatinskdən köçkünləri-tatar əkinçiləri və Voronej quberniyasından olan kəndliləri yaşayış qeydiyyatından çıxartmışdı.

Beləliklə, tədricən Vernı /ruslar ona bəzən Alma-Ata da deyirdilər/ şəhəri yaradılmışdı. Çu çayından cənubda yeni istehkam tikmək və qonşu qazax köçərilərini Rusiyaya tabe etmək məqsədilə bu əsas dayaq nöqtəsindən hərbi dəstələr göndərilirdi. Çar hökuməti yeni qalalar tikdirməklə yanaşı həm də müstəmləkə idarəetmə sistemini həyata keçirirdi.

Krım müharibəsinin başlanması ilə əlaqədar olaraq Mərkəzi Asiya xanlıqları bu əlverişli şəraitdən istifadə edərək rus qoşunlarını geri sıxışdırmağa başlamışdılar.

Lakin Kokand, Buxara və Xivə xanlıqları arasında olan daxili ixtilaflar rus qoşunlarının bu ərazilərdən geri oturdulmasına imkan vermirdi.

XIX əsrin ortalarında Kokand xanlığı Qazaxıstan-Türküstanın bəzi ərazilərini zəbt etmişdi. Eyni zamanda Xivə xanlığı Qazaxıstanın cənub torpaqlarının istilasına başlamışdı. 1853-cü ildə Yaqub bəyin başçılığı altında Kokand qoşunları Ağ məscidi azad etmək üçün hücuma keçdilər. Lakin onu geri ala bilmədilər.

Krım müharibəsində Rusiyanın məğlub olması Şərqdə onun mövqeyini laxlatdı. Əlalxüsus Mərkəzi Asiya xanlıqlarının yuxarı dairələrində Rusiya əleyhinə əhval-ruhiyyə dəyişilmişdi. Hökumətə göndərdiyi məlumatında V.A.Perovski bildirirdi ki, türkiyəli casuslar Mərvi almaq uğrunda mübarizə aparan Buxara və Xivəyə münaqişəni dayandırıb Rusiyaya qarşı müharibə aparmaq üçün öz qüvvələrini birləşdirməyi təklif etmişdi. İngiltərənin də bu regiona marağı artmaqda idi. Ona görə də Rusiya Mərkəzi Asiyaya dair siyasətində daha ciddi kurs götürməyə, öz mövqeyini bu regionda möhkəmləndirməyə diqqəti artırırdı. Digər bir tərəfdən isə, gəlir mənbəyi və əlverişli strateji mövqeyi olan Mərkəzi Asiya və Qazaxıstanın alınmasını başa çatdırmaq Rusiyanın qarşısında duran əsas vəzifə idi.

Bu dövrdə Mərkəzi Asiyada mövcud olan vəziyyət çarizm üçün əlverişli idi. Xivə, Buxara və Kokand arasında birlik yox idi.

Hər bir xanlıq digərinin hesabına öz ərazisini genişləndirməyə çalışırdı. Mərkəzi Asiya xanlıqlarının heç biri özünə möhkəm dövlət qura bilməmişdi. Kokand xanlığında vəziyyət daha gərgin idi. Burada yaşayan xalqlar arasında daim münaqişələr olurdu. Feodallar arasında gedən qruplaşmalar nəticəsində tez-tez hakimiyyət dəyişikliyi baş verirdi.

Beləliklə, Rusiya Mərkəzi Asiyaya qarşı öz siyasi fəaliyyətini genişləndirməkdə idi. 1858-ci ildə polkovnik İqnatyevin başçılığı altında Buxara və Xivəyə diplomatik heyət göndərildi. Nümayəndə heyətinin əsas vəzifəsi Xivə xanlığının Rusiya dövlətinə qarşı heç bir düşmənçilik mövqeyi tutmaması haqqında müqavilə bağlamaq, Amudərya çayında rus gəmilərinin azad hərəkəti, Xivədə rus ticarət agentliyinin yaradılması və rus mallarına 2,5 faizdən çox gömrük haqqı qoyulmaması haqqında razılığa gəlmək idi. Lakin Xivə xanlığı ilə razılıq əldə edilmədi. Buxara əmirliyi ilə razılaşmaya əsasən rus mallarına qoyulan gömrüyün azaldılması, müvəqqəti ticarət agentliyinin açılması və rus əsirlərinin buraxılmasına dair razılıq əldə edildi.

Xivə xanlığı ilə münasibətlərin kəskinləşməsi Rusiyanı Mərkəzi Asiyaya qarşı daha sərt siyasət yürütməyə sövq etdi. Çar hökumətinin Mərkəzi Asiyaya qarşı geniş hücum əməliyyatına keçməsi XIX əsrin 60-cı illərində, Rusiyanın beynəlxalq və daxili vəziyyətinin xeyli dəyişildiyi bir şəraitdə başlandı. Belə ki, kəndli islahatı nəticəsində ölkədə iqtisadiyyat inkişaf etsə də, təhkimçilik qalıqları hələ də davam edirdi. 1863-cü ildə Polşa, Litva, Belorusiya və Sağsahil Ukraynasındakı üsyanlar yatırıldı. 1864-cü ildə isə Qafqazın istila olunması başa çatdırıldı. Krım müharibəsindən sonra Rusiyanın siyasi cəhətdən təcrid edilməsi aradan qaldırıldı.

Rusiyanın Mərkəzi Asiyaya doğru irəliləməsi İngiltərə ilə kəskin rəqabət şəraitində baş verirdi.

Sırdərya və Kokandla sərhəddə Kokand dəstələri ilə toqquşma zamanı rus əsgərləri dəfələrlə onlardan ingilis silahları və tüfəngləri ələ keçirmişdilər. Hətta bəzən kokandlı piyadalar ingilis hərbi geyimində olur və ingilis silahları ilə döyüşürdülər.

Digər tərəfdən isə İngiltərə İran körfəzində Qarak adasını tutaraq İranı Heratın mühasirəsini aradan qaldırmağa məcbur etmişdi.

Daha sonra isə İngiltərə açıq şəkildə Hindistanın qonşusu olan Əfqanıstana 1838-1839-cu illərdə hücum edərək Herat və Kabili tutmuşdu. Lakin İngiltərə burada möhkəmlənə bilmədi. 1841-1842-ci ilin qışında ingilis qoşunları əfqan xalqı tərəfindən güclü əks-müqavimətə məruz qalaraq geri çəkilməyə məcbur oldular. Bununla da İngiltərənin Mərkəzi Asiya və Qazaxıstana birbaşa hücuma keçmək təhlükəsinin qarşısı müvəqqəti olaraq alındı. İngiltərənin müstəmləkə siyasətinin əsas vasitəsi kimi ticarət yenə də qalırdı.

Krım müharibəsində İngiltərənin Türkiyə tərəfində iştirak etməsinin səbəbi isə Rusiyanı Qafqaz və Mərkəzi Asiyadan sıxışdırıb çıxartmaq idi. İngiltərə Rusiyaya qarşı «müqəddəs» müharibə aparmaq üçün Türkiyə sultanı başda olmaqla Mərkəzi Asiya xanlıqlarının ittifaqını yaratmağa cəhd göstərmişdi. Eyni zamanda Qaşqar hökmdarı Yaqub bəyə və Əfqanıstan əmirinə pul, qoşun, silah və s. veriləcəyini vəd etməklə Rusiyaya qarşı müharibəyə başlamağa çalışırdı. Kokand xanı öz ərazisindən ingilis qoşunlarının keçməsinə yol verməyə də razı olmuşdu. O, qazax və qırğızlara müraciət edərək 9 minlik Kokand dəstələri ilə birlikdə Vernı şəhəri və Uzun-Ağac qalasına doğru hərəkət edərək ruslara qarşı çıxmağa çağırırdı. Lakin qazax və qırğızlar kokandlılarla birləşməkdən imtina etdilər. Kokand xanlığının daxilində gedən ədavət və Buxara tərəfindən hərbi hücum təhlükəsi kokandlıları Rusiyaya qarşı açıq müharibəyə başlamaqdan çəkindirirdi.

İngiltərə Mərkəzi Asiya xanlıqlarından ibarət ittifaq yarada bilmədi. Daxili çəkişmə və vahid xarici siyasət xəttinin olmamasından istifadə edən çar Rusiyası Mərkəzi Asiya və Qazaxıstanı öz müstəmləkəsinə çevirməyə çalışırdı.

Yaxın Şərqdə çarizmin məğlubiyyətindən sonra Mərkəzi Asiya feodallarında belə bir inam yaranmışdı ki, rus qoşunları tezliklə bölgədən çəkilib gedəcəklər. Bütün Şərqdə müstəmləkəçilər əleyhinə milli-azadlıq hərəkatının genişlənməsi vəziyyəti ağırlaşdırırdı. Çin, Hindistan və Əfqanıstanda xalq üsyanları baş verirdi. Ancaq Mərkəzi Asiya feodallarının mülahizələri özünü doğrultmadı. Çar Rusiyası Krım müharibəsindən sonra Mərkəzi Asiya və Qazaxıstanda nəinki öz mövqeyindən üz döndərdi, əksinə, onu daha da gücləndirdi.

Digər bir tərəfdən isə, İngiltərənin açıq şəkildə Mərkəzi Asiya və Qazaxıstanı tutmasından ehtiyat edən Rusiya bu regiona hücuma keçməyi sürətləndirdi.

Bəzi tarixçilər Mərkəzi Asiya və Qazaxıstanın Rusiyaya qatılması ərəfəsi və istilası dövrünü tədqiq edərkən beynəlxalq faktorun əhəmiyyətini şişirtmişlər. Bir çoxları Mərkəzi Asiya və Qazaxıstanın Rusiyaya qatılmasının səbəbini İngiltərənin hücum etmək təhlükəsi yaratmasında görürdülər. Bu tarixçilərin nöqteyi-nəzərincə çar Rusiyası guya Mərkəzi Asiya və Qazaxıstan xalqlarının xilaskarı rolunda çıxış etmişdi. Bu «səhv»in kökü çarizmin müstəmləkəçilik siyasətinin xarakterini başqa səmtə yönəltməkdən ibarət idi. Müəlliflərin mürəkkəb tarixi hadisələrin şərhinə birtərəfli, daha doğrusu qərəzli yanaşmaları nəticəsində rus çarizminin siyasətinə haqq qazandırılır. Hər hansı bir tarixi prosesi, o cümlədən də Mərkəzi Asiya və Qazaxıstanda rus-ingilis qarşıdurmasının tarixini araşdırarkən konkret tarixi həqiqətdən çıxış etmək lazımdır.

Hər iki ölkə – Rusiya və İngiltərə Mərkəzi Asiya və Qazaxıstanı istila etmək uğrunda kəskin mübarizə aparırdılar. XIX əsrin 50-ci illərində rus-ingilis rəqabətinin güclənməsi 70-80-ci illərə qədər davam etmişdi.

Beləliklə, istər daxili vəziyyət, istərsə də xarici şərait Rusiyanı Mərkəzi Asiya və Qazaxıstana qarşı daha inamlı addımlar atmağa sövq edirdi. 1859-cu ildə qazaxların Böyük juz və Şimali Qırğızıstanın sərhəddində Kastek istehkamı yaradıldı. Bu, Çu vadisindən keçərək Kokandın içərilərinə Auliye-Ata, Çimkənd və Daşkəndə irəliləməyə imkan yaradırdı. Rusiyanın silahlı qüvvələrinin bu hərəkəti Sibir və Sırdərya xətlərinin birləşdirilməsini başa çatdırmalı və Mərkəzi Asiyada mövqe üstünlüyünü möhkəmləndirməli idi.

Kastek istehkamı yaradıldıqdan sonra Rusiya ilə Kokand xanlığı arasında münasibətlər daha da kəskinləşdi. Kokand xanlığının hərbi hissələrinin yerləşdiyi Bişkek və Tokmak hərbi istehkamları mühüm əhəmiyyət kəsb edirdi. Bütün bunlar sərhəddə Rusiya və Kokandın hərbi qüvvələrinin toqquşmasına gətirib çıxartdı.

Çu qırğızlarına Kokand xanlığının təsirini aradan qaldırmaq üçün Bişkek və Tokmak qalalarını ələ keçirmək lazım idi. 1859-cu ildə Qərbi Sibir general-qubernatoru Bişkek qalasını tutmaq üçün çardan icazə istədi. 1859-cu il yanvarın 24-də çağırılmış xüsusi

iclasın qərarı ilə buna icazə verildi. 1860-cı ilin avqustunda polkovnik Tsimmermanın 1750 nəfərlik piyada və atlı dəstələri Tokmak üzərinə hücuma keçdilər. Avqustun 26-da Tokmak alındı. Bişkek istehkamı 1860-cı il sentyabrın 4-də tutuldu.

Kokand xanlığı bu itkilərlə heç cür razılaşmaq istəmirdi. Daşkənd və Kokanddan iki dəstə Çu vadisinə göndərildi. 1860-cı ilin oktyabrında Sibir kazakları tərəfindən mühafizə olunan Uzun-Ağac postuna hücum edildi. Uzun-Ağacda rus qoşunları qələbə qazandı. Lakin onlar Çu vadisində dayanacaq tapa bilmədilər. Rus qoşunları ancaq Kastek qalasında möhkəmləndilər.

1861-ci ildə Tokmak və Bişkek kokandlılar tərəfindən geri alındı. Amma Kokand xanlığının daxilində gedən qeyri-sabitlikdən istifadə edən Rusiya yenidən hücuma keçməyə hazırlaşırdı.

1862-ci ildə Moskvanın 15 iri taciri Maliyyə Nazirliyinə məktub yazaraq rus vətəndaşlarının mənafeyini müdafiə etmək üçün Buxarada konsulluq açılmasını xahiş etdilər. Ancaq Xarici İşlər Nazirliyi buna şübhə ilə yanaşaraq konsulluğun normal fəaliyyət göstərməsi üçün əmirdən beynəlxalq hüquqi qarantiya almağın qeyri-mümkünlüyünü bildirmişdi.

Bu dövrdə rus mətbuatında Mərkəzi Asiya məsələsi geniş müzakirə olunur, əksər müəlliflər regiona hücuma keçməyə tərəfdar olduqlarını göstərirdilər. 1862-ci il üçün «Russkiy Vestnik» jurnalında nəşr olunan bir çox məqalələrin müəllifləri Mərkəzi Asiyanın alınmasını daha ciddi surətdə tələb edirdilər. «Qolos» jurnalı «Xəzər dənizini rus gölünə çevirmək» çağırışı ilə hökumətə müraciət etmişdi.

Çar hökuməti burjuaziya və mülkədarların mənafeyi naminə Mərkəzi Asiyanın istila edilməsini Rusiyanın xarici siyasətinin mühüm və təxirəsalınmaz vəzifəsi hesab edirdi. Lakin bu məsələ üzrə hakim dairələrdə tam razılıq hələ yox idi. Rus məmurlarının ayrı-ayrı nümayəndələri, ələlxüsus diplomatlar Mərkəzi Asiya və Qazaxıstanı işğal etmək planını hazırlayarkən bu prosesə nə vaxt başlamaq, bunun üçün beynəlxalq şəraitin əlverişli olması məsələlərində tərəddüd edirdilər.

## § 2. İŞĞALIN BAŞLANMASI, GEDİŞİ VƏ NƏTİCƏSİ

Rusiyanın Ali dövlət dairəsində və Hərbi Nazirlikdə Mərkəzi Asiya və Qazaxıstana hərbi hücum etmək qərara alınmışdı. 1861-ci ildə Xarici İşlər Nazirliyinin Asiya departamentinin başçısı təyin edilmiş general İqnatyev bu planın fəal tərəfdarı idi. Məlum olduğu kimi, hələ XVIII əsrdə Qazaxıstanın müəyyən bir hissəsi-Kiçik və Orta juz Rusiyanın təbəəliyini qəbul etmişdi. 1862-ci ilin payızında rus qoşunları əvvəlcədən apardıqları kəşfiyyat nəticəsində Bişkek və Tokmakı tutdular. 1863-cü ildə polkovnik Çernyayevin dəstələri Suzak qalasını alaraq Rusiyanın tabeliyinə keçirdi.

1863-cü ilin dekabrında Hərbi Nazirlik çardan 1864-cü ildən Orenburq və Sibirin ön xətlərini birləşdirmək və daha sonra isə müvafiq sahələrə doğru irəliləmək haqqında göstəriş almışdı. Beləliklə, çar qoşunlarının Mərkəzi Asiya və Qazaxıstana geniş miqyasda hərbi hücumu başlandı.

Kokand xanlığına qarşı hərbi əməliyyatın başlanması ilə əlaqədar olaraq Xarici İşlər naziri Qorçakov 1864-cü il noyabrın 21-də Rusiyanın müharibə aparmasının səbəblərini açıqlamaq üçün bütün Avropa ölkələrinə müraciət etmişdi. Müraciətdə bildirilirdi ki, sərhədlərin təhlükəsizliyinə olan maraq və ticarət əlaqələri tələb edir ki, daha mədəni ölkələr qonşu ölkələr üzərində müəyyən səlahiyyətə malik olsunlar. Rus hökumətinin bu addımının Qərb dövlətləri, ələlxüsus İngiltərə tərəfindən bədxahlıqla qarşılanacağını nəzərə alaraq, Qorçakov göstərirdi ki, Rusiya Mərkəzi Asiyaya aid öz siyasətində qədimdən müstəmləkə tutmaq xətti yürüdən başqa dövlətlərin yolu ilə gedir. Onun çıxışından həm də belə anlaşılırdı ki, Rusiya başqa dövlətlərin ənənəsini davam etdirir və özünə harada, nə vaxt əlverişli olduğunu hiss etdikdə «dayanacaq»dır.

Rusiya Kokanda iki tərəfdən - Perovsk qalasından Sırdərya və Vernıdan Semireçye xətti üzrə hücuma keçmişdi. 1864-cü ilin yazında Sibir və Sırdərya xətlərinin birləşdirilməsi həyata keçirilmişdi. İyun ayının 12-də polkovnik Veryovkinin başçılığı altında olan dəstələr Türküstan şəhərini almışdı. Çimkənd üzərinə hücum iki istiqamətdən - polkovnik Çernyayevin komandanlığı altında

Türküstandan və podpolkovnik Lerxenin başçılığı ilə Auliye-Atadan başlanmalı idi. Çimkənd altında rus hərbi dəstələri kokandlıların güclü müqavimətinə rast gəldilər. Kokandın quru qüvvələri və atlı dəstələrinin hücumu nəticəsində Çernyayev öz qüvvələrinin lazımınca olmadığını nəzərə alaraq geri çəkildi. Yenidən Çernyayev və Lerxenin rəhbərliyi altında birləşmiş ordunun hücumu nəticəsində 1864-cü il sentyabrın 22-də Çimkənd şəhərinin alınması başa çatdırıldı.

1864-cü ildə Veryovkinin silahlı dəstələrinin Türküstanı, Çernyayevin Auliye-Ata, Çimkəndi tutması, Sibir və Sırdərya xəttinin birləşdirilməsinin başa çatdırılması ilə Rusiya Çu vadisi və İssıkkul çökəkliyində qəti möhkəmləndi. Susamır və Kətmən-Tuba vadisi Rusiyanın təbəəliyini qəbul etdi. 1864-cü ildə İssıkkul ətrafında Aksuysk istehkamı tikildi. Nəticədə çar Rusiyasının hərbi qüvvələri burada yerləşdirildi. 1867-ci ildə Poltoratskinin Mərkəzi Tyanşana hərbi ekspedisiyası Rusiya dövlətinin bu bölgədə tam hakimiyyətini möhkəmləndirdi. Növbəti ildə Narın istehkamı tikildi. Kokand xanlığı ilə sıx bağlı olan bəzi feodallar və Kokand qarnizonu Qırğızıstanın Rusiya tabeliyinə keçməsinin tam əleyhinə idilər.

Çar Rusiyası zəbt etdiyi torpaqlarda həm də yeni idarəetmə sistemi yaradırdı. Belə ki, 1865-ci ildə Orenburq general-qubernatorluğunun tərkibində Sırdərya və Yenikokand xətti birləşdirilərək Türküstan vilayəti yaradıldı. Buraya Talas və Kətmən-Tuba vadisi də daxil idi. General Çernyayev yeni vilayətin hərbi qubernatoru təyin edildi. 1865-ci ilin yazında Çernyayevin qoşunları Niyazbəy qalasını aldılar. Alimkulun başçılığı altında Kokand qoşunlarının böyük dəstələrinin müqavimətinə baxmayaraq, mayın 17-də Mərkəzi Asiyanın ən böyük şəhəri olan Daşkənd şəhəri qanlı döyüşdən sonra zəbt edildi. Çar bu münasibətlə general Çernyayevə üstü brilyantla işlənmiş qılınc bağışlamışdı.

1865-ci ilin sentyabrında Daşkənd şəhəri Kokand və Buxaranın təsirindən azad elan edildi. Eyni zamanda bu dövrdə Mərkəzi Asiyada vəziyyət yaxşı deyildi. Buxara ilə Kokand arasında müharibə davam edirdi. Buxara əmirliyi Daşkəndi öz torpağına birləşdirməyə çalışırdı. Daşkəndə doğru hərəkət edən Buxara qoşunları Xocəntdən aşağı İrcarada /Sırdəryada/ rus qoşunları tərəfindən darma-

dağın edildi. 1866-cı il mayın 24-də Xocənt alındı. Beləliklə, 1866-cı ilin avqustunda Daşkənd, Xocənt və Zaçirçik diyarının rəsmi şəkildə Rusiyanın tərkibinə qatılması elan edildi. Bunun ardınca rus qoşunları Buxara əmirliyinin torpaqlarının bir hissəsini tutdu.

1867-ci ildə mərkəzi Daşkənd şəhəri olmaqla işğal olunmuş torpaqlar əsasında Türküstan general-qubernatorluğu yaradıldı. Onun tərkibinə 1847-ci ildə qazaxlardan, Kokand xanlığı və Buxara əmirliyindən zəbt olunmuş torpaqlar da daxil edildi. Eyni zamanda, Türküstan Hərbi dairəsi yaradıldı. İlk Türküstan general-qubernatoru general K.P.Kaufmana geniş səlahiyyət verilmişdi.

Çar Müdafiə Nazirliyi və general K.P.Kaufmanın Buxaraya hücuma keçmək haqqında təkliflərini təsdiq etmişdi. 1868-ci ilin yazında çar qoşunlarının hücuma keçməsi ilə əlaqədar olaraq, Buxara əmiri rus qoşunlarına qarşı «müqəddəs» müharibə elan etmişdi. Mayın 1-də Səmərqənd ətrafında döyüşdə Buxara qoşunları məğlubiyyətə uğradıldıqdan sonra rus qoşunları mayın 2-də Səmərqəndə daxil oldular. İyunun 2-də Buxara əmirliyinin qoşunları Zerabulaq yüksəkliyində ağır məğlubiyyətə məruz qaldılar.

1868-ci il iyunun 23-də Buxara ilə Rusiya arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən işğal olunmuş Xocənt, Ura-Tuba, Cizak, Səmərqənd, Kattakurqan torpaqlarından Türküstan general-qubernatorluğunun tərkibində Zərəfşan mahalı yaradılaraq Rusiya tərkibinə qatıldı. Bundan əlavə, Buxara əmiri 500 min manat təzminat ödəməli, rus vətəndaşlarının azad ticarət hüququ və silahlı dəstələrin təhlükəsizliyi təmin edilməli, rus tacir və sənayeçilərinə istədikləri yerdə ticarət agentliyi açmaq hüququ verilməli, rus tacirlərinin gətirdikləri məhsullardan 2,5 faiz gömrük alınmalı və onlar əmirliyin ərazisindən qonşu dövlətlərə azad keçib getməli idilər. Qul əməyindən istifadə qadağan olunurdu.

1868-ci il müqaviləsindən beş il keçdikdən sonra bağlanmış müqaviləyə əsasən Rusiyanın hüququ genişləndirildi. 1873-cü il 18 sentyabr müqaviləsinə görə, Buxara Rusiyanın protektoratlığını qəbul etdi və xarici ölkələrlə müstəqil əlaqələr yaratmaq ona qadağan olundu. Bir qədər sonra əmirlikdə Rusiyanın daimi siyasi agentliyi yaradıldı.

1873-cü ilin əvvəlində çar hökuməti Xivə xanlığına qarşı hücuma keçmək qərarına gəldi. Hələ 1869-cu ildə Qafqaz qoşunları

polkovnik Stoletovun rəhbərliyi altında Krasnovodsk körfəzinə çıxarılmış və Krasnovodsk şəhərinin əsası qoyulmuşdu. 1869-1870-ci illərdə Stoletovun dəstələri Qızıl Arvad, 1871-1872-ci illərdə polkovnik Markozovun dəstələri üç istiqamətdə Balxan və Sarıqamış çökəkliyi, Qızıl Arvad və Bam, həmçinin Atrekə qədər olan yollarda kəşfiyyat aparmışdılar. Xəzər dənizinin şərq sahilini tutduqdan sonra rus ordusu 1869-1873-cü illərdə Türkmənistanda hərbi kəşfiyyat aparmışdı. Rusiya Krasnovodsk körfəzinə sahib olduqdan sonra Xivə xanlığını üç tərəfdən mühasirəyə almışdı. Bu, bir-biri ilə əlaqəsi olan üç hərbi dairə-qərbdə Qafqaz, şimalda-Orenburq, şərqdə Türküstan tərəfindən həyata keçirilmişdi.

1873-cü ildə Türküstan general-qubernatoru K.P.Kaufmanın başçılığı altında Xivə hərbi ekspedisiyası işə başladı. Burada iştirak edən ordu hissələrinin tərkibində 13 mindən çox canlı qüvvə və xeyli silah var idi. Ciddi müqavimətə rast gəlməyən rus ordusu 1873-cü il mayın 29-da Xivəni tutdu. Xivə xanlığına nəzarət etmək üçün məşvərətçi orqan - Divan yaradıldı. Bu orqanın tərkibinə tanınmış yerli əyanlardan başqa çar hökumətinin nümayəndələri də daxil edilmişdi.

1873-cü il avqustun 2-də Rusiya ilə müqavilə bağlamaq haqqında K.P.Kaufmanın irəli sürdüyü şərtləri Xivə xanlığı qeyd-şərtsiz qəbul etdi. Xivə xanlığının çar protektoratlığını qəbul etməsi onu müstəqil xarici siyasət yürütmək hüququndan məhrum etdi. Xivə xanlığı 2 milyon 200 min manat təzminat verməli idi. Buxarada olduğu kimi, burada da protektoratlığın qəbul edilməsi çarizmin tabeliyinə keçmək demək idi. Xanlığın ərazisində fəaliyyət göstərən rus tacir və sahibkarlarına bir sıra güzəştlər edildi. Xivənin Amudəryanın sağ sahilindəki torpaqları Rusiyanın əlinə keçdi.

Buxara və Xivənin çar protektoratlığını qəbul etməsi Kokand xanlığının Rusiyaya tabe edilməsini sürətləndirdi. 1873-1876-cı illərdə Kokand xanlığında baş vermiş ara müharibələri bu xanlığın tam ləğv edilməsi və onun ərazisinin Rusiyaya qatılmasına gətirib çıxartdı. 1873-cü ilin yazından 1874-cü ilin avqustuna kimi Qırğızıstanın cənubu və Kokand xanlığının cənubi-şərqində vergilərin 3 dəfə artırılması əleyhinə üsyan qalxmışdı. Bu üsyan xan ordusu tərəfindən amansızcasına yatırılmışdı. Nəticədə xanın xəzinəsinə daxil olan vergilərin məbləği və feodalların gəliri kəskin şəkildə azalmışdı.

Eyni zamanda Kokand xanı Xudoyar çarizmin köməyinə əsaslanaraq hakim feodalların imtiyazlarını məhdudlaşdırmışdı. Bu da özbək və qırğız feodalları, Kokandın adlı-sanlı hərbi məmurları və müsəlman ruhanilərinin narazılığına səbəb olmuş, onları Xudoyar xana qarşı mübarizəyə sövq etmişdi.

1875-ci il iyulun birinci yarısında Pulat xanın başçılığı altında yeni üsyan baş verdi. Üsyan Cənubi Qırğızıstan və Kokand xanlığının cənubi-şərq hissəsini əhatə etməklə tezliklə Fərqanə vadisinə də keçmişdi. Üsyançılar döyüşmədən Oş, Namanqan, Əndican, Assak, Margilan və b. şəhərləri tutdular. Sıravi vətəndaşlar da üsyançılara qoşulmuşdular. Sırdərya vilayətinin hərbi qubernatoru 1875-ci il 29 iyun tarixli gizli məlumatında xanlığı mərkəzdən ucqarlara qədər üsyan bürüdüyünü bildirirdi. Xudoyar xanın üsyanı yatırtmaq üçün Əbdürrəhman Aftobaçinin komandanlığı altında göndərdiyi cəza dəstələri Əndican şəhəri yaxınlığında üsyançıların tərəfinə keçdilər. Xanın oğlu, Əndican hakimi Nəsrəddin bəy də üsyançıların tərəfində idi. Başqa feodallar da üsyançılara qoşulmuşdular. Xudoyar xanın qoşununun bir hissəsi digər oğlu Məhəmməd Əmin bəyin başçılığı ilə üsyançılarla birləşdilər.

1875-ci il iyulun 22-də heç bir köməyi olmayan Xudoyar xan Kokandı tərk edərək Daşkənddəki rus səfirliyinə gedib sığınacaq istədi. Feodallar onun əvəzinə oğlu Nəsrəddin bəyi özlərinə xan seçdilər. Əbdürrəhman və Nəsrəddin xan general-qubernator K.P.Kaufmanla əlaqə saxlayaraq Rusiya ilə «dostluq» münasibətlərində olduqlarını bildirdilər. Onlar göstərirdilər ki, əgər Rusiya Nəsrəddinin Kokand xanı olmasını tanıyarsa, onda Xudoyar xanla bağlanmış əvvəlki müqavilələrin qüvvədə qalacağına zəmanət verirlər. Çar hökuməti tərəfindən bu təklif qəbul olundu. Lakin Pulat xanın tərəfinə keçmiş Xudoyar xanın qoşunları, adlı-sanlı feodalların nümayəndələri, müsəlman ruhanilər, rusların təsirinin güclənməsindən narazı olanlar üsyanın xarakterini müəyyənləşdirdi. Belə ki, Əbdürrəhman Aftobaçi və başqaları dindarları və xalq kütlələrini «cihad» şüarı altında ruslara qarşı müharibəyə çağırdılar.

1875-ci il avqustun 29-da çar qoşunları Kokandı aldılar. Bu üsyan birinci mərhələdə feodal-xanlara qarşı çevrilmişdi. Lakin üsyançılar polkovnik Skobelevin rəhbərliyi altında kazak vzvodlarının

«fərari» Xudoyar xanı və onun dəstələrini müdafiə etməsini, yeni xan Nəsrəddinin Türküstan general-qubernatorluğunun himayəsi altında olmasını gördükdə üsyan müstəmləkə və çar əleyhinə çevrildi.

Çar hökuməti üsyanı yatırtmaq və Xudoyar xanı yenidən hakimiyyətə gətirmək üçün üsyançılara qarşı cəza dəstələri göndərdi. Üsyançılar cəza dəstələrinə qarşı mərdliklə vuruşaraq güclü müqavimət göstərirdilər. Yaxşı silahlanmış və təlim görmüş cəza dəstələrinə qarşı döyüşmək çətin olduğundan, üsyançılar Məhrəm qalası altında müvəffəqiyyətsizliyə uğradılar. Bundan sonra Nəsrəddin xan və üsyanın bəzi tərəfdarları ümidlərini itirərək Türküstan general-qubernatoru K.P.Kaufmanın yanına gəldilər. Onlar bu yolla hakimiyyəti əldə saxlamaq istəyirdilər. Sentyabrın 22-də Nəsrəddin xan Türküstan general-qubernatoru ilə müqavilə imzaladı. Müqaviləyə əsasən, o, 600 min manat məbləğində təzminat ödəməli, xanlığın şimal hissəsi, eləcə də Sırdərya çayının sağ sahili və Namanqan şəhəri Rusiyaya verilirdi. Çar hökuməti isə Nəsrəddin xanı himayəsinə götürdü.

Nəsrəddin xan Türküstan general-qubernatorluğu tərəfindən dəstəkləndiyinə görə, yeni vergilər yığır, orduya qoşun toplayır və təzminatı ödəməyin yollarını arayırdı. Məhz buna görə də 1875-ci ilin sentyabrında yenidən güclü üsyan baş verdi. Çar hökuməti üsyanı yatırmaq üçün 1400 nəfərlik cəza dəstələri göndərdi. 1876-cı il yanvarın 9-da general Qolovaçev və polkovnik Skobelevin qoşunları Əndicanı tutaraq üsyanı amansızcasına yatırtdılar. Əsir düşən Pulat xan Margilanda öldürüldü. Əbdürrəhman, Nəsrəddin xan və Xudoyar xan isə Kokanddan sürgün edilərək ömürlük təqaüdlə təmin olundular. Xanlığın əhalisi isə 3 milyon manat təzminat verməli idi. 1876-cı il fevralın 19-da Kokand xanlığı ləğv edilərək Fərqanə vilayəti adı ilə Türküstan general-qubernatorluğunun tərkibinə qatıldı. Abdulla bəy, Molla Aşır, qırğız və özbəklərin iri feodallarının rusların əleyhinə çıxışlarından sonra Alay da Rusiyanın tərkibinə qatıldı. Beləliklə, XIX əsrin 70-ci illərində Rusiyanın xarici siyasətinin yaxşılaşması Kokand xanlığı və onun hakimiyyəti altında olan Cənubi Qırğızıstanın Rusiya tərəfindən işğalına əlverişli şərait yaratmışdı.

1875-1876-cı illər üsyanları məğlubiyyətlə nəticələndi. Kortəbii xarakter daşıyan bu üsyanların təşkilati cəhətdən zəif idarə edil-

məsi, üsyançıların pis silahlanması, vahid rəhbərliyin olmaması və sair bu kimi qüsurları var idi. 1875-1876-cı illərin üsyanları Mərkəzi Asiya xalqlarının tarixində ən böyük üsyanlar olmuşdu. Onlar həm də Cənubi Qırğızıstan, Kokand xanlığı, Tacikistanın bir hissəsi və Türküstan general-qubernatorluğunun bəzi sərhəd bölgələrini əhatə etmişdi. Üsyan ümumxalq hərəkatı xarakteri daşıyırdı. Mərkəzi Asiyada ruslar hələ heç vaxt belə uzunmüddətli və qətiyyətli mübarizə ilə rastlaşmamışdılar. Bu, Cənubi Qırğızıstanın Rusiyanın hakimiyyəti altına düşməsinə qarşı çevrilmişdi. Əhalinin işğalçılara qarşı çıxışları regionda sosial ziddiyyətləri kəskinləşdirdi.

Çar hökuməti nə Xudoyar, nə də Nəsrəddin xanın hakimiyyətini bərpa etdi. Çarizmin çıxışları silah gücü ilə yatırtmaq tədbirlərinə həm də dini rəng verilirdi. Digər tərəfdən isə, üsyançılar həm yerli istismarçılara, həm də onları dəstəkləyən çarizmə qarşı mübarizə aparmışdılar. Üsyan həm də əhalinin özünüdərketməsinin artdığını göstərdi. Eyni zamanda, üsyan sosial ziddiyyətləri gücləndirdi. Bütün bu amillər nəticəsində Kokand xanlığı ləğv olunaraq ərazisi Rusiyaya birləşdirildi.

XIX əsrin 80-ci illərinin əvvəlində İngiltərə hökumətinin kəskin etirazına baxmayaraq, rus ordusu Türkmənistanın da ərazisini tutdu. Çar hökuməti Mərkəzi Asiyanın qərb hissəsi, Xəzər dənizinin sahili, Qafqazın şərq cinahı, Buxara və Xivə xanlığının cəbhə arxası kimi mühüm strateji əhəmiyyəti olan bu bölgəni «nəzarət»dən kənarda qoya bilməzdi.

Rusiya imperiyasının Türkmənistanı zəbt etməsi prosesi 1868-1885-ci illərdə həyata keçirilmişdi. Türkmənistanın daxilinə doğru irəliləməkdə Rusiya üçün əsas baza olan Krasnovodsk şəhərinin əhəmiyyəti böyük olmuşdu.

1874-cü ildə Qafqaz ordusunun baş komandanlığının tabeliyində mərkəzi Krasnovodsk şəhəri olmaqla Zakaspi hərbi şöbəsi yaradılmışdı. Bu şöbənin ərazisi Türkmənistanı istila etmək üçün plasdarm rolu oynayırdı. Hələ 1870-ci illərin əvvəllərində rus ordusu bir sıra kəşfiyyatlar aparmışdı. 1877-1878-ci illərdə rus qoşunları Qərbi Türkmənistanın Qızıl Arvad rayonunda təkinlilərə qarşı hərbi əməliyyata başlamışdı. 1879-cu ildə general Lomakin onların müqavimətini qırmaq üçün əvvəlcədən düşünülmüş əməliyyat -

Axaltəkə ekspedisiyasını təşkil etmişdi. Avqustun 28-də Lomakinin qoşun hissələri Göytəpə qalasına hücuma keçdilər. Lakin onlar geri oturduldular. Bu döyüş zamanı ruslardan 450 nəfər ölən və yaralanan olmuşdu. General Lomakin çar komandanlığına bildirmişdi ki, təkinlər ən yaxşı Avropa ordusuna layiq, görünməmiş müqavimət göstərmişdilər.

Rus qoşunlarının bu məğlubiyyəti çar hökuməti üçün böyük zərbə oldu.

Bu dövrdə Mərkəzi Asiyada nüfuz dairəsi uğrunda rus-ingilis mübarizəsi də getdikcə kəskinləşirdi. 1878-ci ildə İngiltərə Əfqanıstana hücum etsə də, yerli əhalinin güclü müqaviməti nəticəsində onlar geri oturduldular. Lakin İngiltərə-Əfqanıstan müharibəsi 1880-ci ildə İngiltərə hökumətinin Əfqanıstan əmirinin xarici siyasəti üzərində tam nəzarəti ilə sona yetdi. Mövcud vəziyyətdən istifadə edən İngiltərə Mərkəzi Asiyada Rusiyanı qabaqlayaraq Türkmənistanı zəbt etməyə cəhd göstərdi. Herat və Türkmənistanın cənub sərhəddində möhkəmlənən İngiltərə türkmən qəbilələri arasında və Buxara əmirliyində geniş fəaliyyətə başladı.

1880-ci ilin fevralında Rusiyanın Müdafiə naziri Milyutin Dövlət Şurasında çıxış edərək göstərmişdi ki, əgər Axaltəkə alınmasa, onda Qafqaz və Türküstan həmişəlik ayrı düşəcəkdir. Məhz ona görə də dəqiq və təcili olaraq ikinci Axaltəkə ekspedisiyası təşkil olunmalıdır. Bu ekspedisiyanın başçısı general M.Skobelev təyin edilmişdi.

1880-ci ilin fevralında general M.Skobelev Zakaspi vilayəti qoşunlarının baş komandanı təyin edildi və Göytəpənin fəthi ona tapşırıldı. Mayın əvvəlində M.Skobelev Krasnovodska gəldi. Mayın 28-də Xoca qala, iyunda Karrı qala və Bam tutuldu. Əhalinin çox hissəsi rus qoşunlarına silahlı müqavimət göstərməyin tərəfdarı idi. Bu hərəkata təkinlilərin tanınmış adamları Axalaxan və Marı Nurberdı xan, onun oğlu və davamçısı Məxdumqulu xan və başqaları rəhbərlik edirdilər.

1880-ci ilin dekabrında general M.Skobelevin komandanlığı altında yeni böyük hücum əməliyyatına başlanıldı. M.Skobelev hücum əməliyyatına başlamaq haqqında tapşırıq alarkən bildirmişdi ki, onun zabit heyətinə humanist görüşlərlə fərqlənənləri göndər-

məsinlər. Böyük hərbi qüvvə ilə /11 min əsgər və 107 top/ hücuma keçən rus ordusu dekabrın 23-də Göytəpə uğrunda gedən döyüşlərdə müqavimətə rast gəldi. Üç həftəyə qədər davam edən döyüşdən sonra 1881-ci il yanvarın 12-də Göytəpə qalası zəbt edildi. Yanvarın 18-də polkovnik Kuropatkinin dəstələri Aşqabadı aldı.

1881-ci ilin mayında yeni alınmış ərazilər əsasında inzibati mərkəz Aşqabad şəhəri olmaqla Zakaspi hərbi şöbəsindən Qafqaz canişinliyinin tərkibinə daxil olan Zakaspi vilayəti yaradıldı. 1884-cü ildə Mərv şəhəri rus qoşunları tərəfindən alındı. Sonrakı illərdə Türkmənistanın bütün ərazisi - Aşqabadın cənubundan Kuşka qalasına qədər olan sahə zəbt edilmişdi.

Rusiyanın tutduğu ərazi Əfqanıstan və İranın sərhədinə çatdıqda İngiltərə ilə münasibətlər kəskinləşdi. İngiltərə Əfqanıstan əmirini Rusiyaya qarşı çıxmağa məcbur etdi. 1885-ci il martın 18-də çar qoşunları Pənc vahəsində əfqan dəstələrini darmadağın etdi. Bu məğlubiyyətlə əlaqədar olaraq İngiltərə 1885-ci il sentyabrın 10-da müqavilə bağlamağı təklif etdi. Müqaviləyə əsasən Rusiya Kuşka çayına qədər olan əraziyə də sahib oldu. 1895-ci ildə Pamiri almaqla Mərkəzi Asiyanın Rusiyaya qatılması başa çatmış oldu.

Mərkəzi Asiya və Qazaxıstanın sosial-iqtisadi və siyasi quruluşunun geriliyi, hərbi qüvvələrinin zəifliyi belə böyük bir regionun tezliklə Rusiya tərəfindən zəbt olunmasının əsas səbəbi idi.

Çarizmin işğalına qarşı hər şeydən əvvəl feodal-əyanlar və iri müsəlman ruhaniləri fəal çıxış edirdilər. Ən böyük çıxışlar 1885-ci il Fərqanə və 1898-ci il Əndican üsyanı olmuşdu. Əndican üsyanı yatırıldıqdan sonra 546 nəfər məhkəməyə cəlb olunmuş, üsyanın başçısı Məhəmmədəli və onun yaxın tərəfdarları dar ağacından asılmış, bir çoxları isə Sibirə - katorqaya sürgün edilmişdi.

Rusiyanın Mərkəzi Asiya və Qazaxıstanı işğal etməsi çar ordusunun istilaçılıq yürüşünün nəticəsi idi. Bu xalqların tarixinə aid yazılmış əsərlərdə bəzən könüllü birləşmək, Rusiyaya birləşmək üçün müraciət edilməsi faktları da mövcuddur. Lakin Mərkəzi Asiya və Qazaxıstanı zəbt etmək üçün Rusiyanın hələ XVIII əsrin 30-cu illərindən başlayaraq XIX əsrin axırlarına qədər apardığı təkcə döyüş əməliyyatlarını yada salmaq kifayətdir ki, bu prosesin əsl mahiyyəti-yaxşı silahlanmış və təşkil edilmiş rus ordusunun

Mərkəzi Asiya dövlətlərinin müqavimətini asanlıqla qırması nəticəsində regionun alınması aydınlaşsın. Eyni zamanda, Mərkəzi Asiya və Qazaxıstanda yürüdülən milli-müstəmləkəçilik siyasəti Rusiyanın hakimiyyətdə olan qüvvələrinin xətti idi. Bu siyasət Mərkəzi Asiya və Qazaxıstan xalqlarına yeni ağır iqtisadi və milli zülm gətirmişdi.

Onu da qeyd etmək lazımdır ki, rus çarizminin müstəmləkəçilik siyasətinin mənfi tərəflərinə baxmayaraq, Mərkəzi Asiya və Qazaxıstanın Rusiyaya qatılması onların təsərrüfatlarının Rusiyanın iqtisadi həyatı və dünya əmtəə dövriyyəsinə cəlb edilməsində müəyyən rol oynamışdı. Bu da nəticə etibarı ilə regionda iqtisadi və sosial dəyişikliklərə səbəb olmuşdu. XIX əsrin sonu-XX əsrin əvvəlində kənd təsərrüfatı məhsullarının ayrı-ayrı sahələri üzrə /pambıqçılıq, maldarlıq, taxılçılıq/ ixtisaslaşma özünü göstərirdi. Əmtəə-pul münasibətlərinin və bazar üçün məhsul istehsalının inkişafı söz-süz ki, muzdlu əməkdən istifadəyə gətirib çıxartmışdı. Yerli burjuaziya və fəhlələrin təşəkkülü prosesi başlanmışdı. Təsərrüfat sahələri bərpa edilmiş və iqtisadiyyatda kapitalist elementlərinə keçilməsinə imkan yaranmışdı.

Mərkəzi Asiyanın Rusiyaya qatılmasından sonra rus alimləri bu ölkələrin hər cəhətdən öyrənilməsinə başladılar. Elm, maarif və səhiyyənin inkişafına diqqət bir qədər artırıldı. Rus alimləri Mərkəzi Asiya və Qazaxıstanın maddi ehtiyatları, tarix və mədəniyyətini tədqiq edirdilər. Əlbəttə, Rusiya bu sahədə öz dövlətinin marağını daha çox nəzərə almışdı. Feodal müharibələri, tayfa və qəbilələr arasında mübarizəyə son qoyuldu. Bütün bunlar isə Mərkəzi Asiya və Qazaxıstanın sosial-iqtisadi və ictimai-siyasi həyatına öz təsirini göstərirdi. Lakin bir fakt da danılmazdır ki, işğaldan sonra Mərkəzi Asiya və Qazaxıstan öz iqtisadi və siyasi müstəqilliyini itirmişdi.

# III FƏSİL

# MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN XIX ƏSRİN İKİNCİ YARISINDA

## § 1. İNZİBATİ İDARƏETMƏ SİSTEMİNDƏ DƏYİŞİKLİKLƏR

Çar Rusiyası Mərkəzi Asiya və Qazaxıstanı işğal etdikdən sonra əsas vəzifəsi bu regionlarda Rusiyaya yaxın vahid idarəetmə sistemi tətbiq etmək oldu. 60-cı illərə qədər Qazaxıstanın idarə olunması vahid idarəetmə sisteminə daxil deyildi. İslahata başlamamışdan əvvəl ilk növbədə ayrı-ayrı bölgələrin təsərrüfat xüsusiyyətləri, xalqların adəti, əvvəlki idarəetmə sisteminin vəziyyətini öyrənmək vacib idi. Ona görə də hələ 1865-ci ildə Daxili İşlər Nazirliyi, Hərbi Nazirlik və polkovnik F.K.Girsin sədrliyi altında yerli general-qubernatorluğun nümayəndələri tərəfindən yeni idarəetməyə aid qanun layihəsi hazırlamaq üçün xüsusi komissiya yaradılmışdı. 1867-ci ildə komissiyanın işinin nəticəsi əsasında Türküstan diyarının tərkibinə daxil olan «Semireçye və Sırdərya vilayətlərinin idarə edilməsinə aid müvəqqəti əsasnamə» hazırlanmışdı. 1867-ci il iyulun 11-də Əsasnamə təsdiq olunmuşdu.

Hərbi nazir D.N.Milyutinin başçılığı altında Qazaxıstanın inzibati idarəçiliyi haqqında islahatın layihəsini tərtib etmək üçün «Xüsusi komitə» təsis edilmişdi. 1868-ci il oktyabrın 21-də II Aleksandr komitənin üç il ərzində işləyib hazırladığı «Vilayətlərin idarə edilməsi haqqında müvəqqəti əsasnamə»ni təsdiq etmişdi.

1867-ci il Əsasnaməsinə görə Türküstan vilayətə, vilayət qəzaya, qəza isə nahiyəyə bölünürdü.

Türküstan general-qubernatorluğunda ali icraedici hakimiyyət general-qubernatorun əlində idi. Vilayətlərin mülki və hərbi idarəsinin başında hərbi qubernatorlar dururdular. Vilayət idarəsinin tərkibinə təşkilat, təsərrüfat və məhkəmə şöbələri daxil idi. Qəzaları

qəza rəisləri və onların köməkçiləri, nahiyə müdirləri nahiyələri, aul başçıları isə aulları idarə edirdilər. Seçkilər ikidərəcəli idi. Əvvəlcə 50 təsərrüfatdan bir nümayəndə verilir, sonra isə bu nümayəndələr vəzifəli şəxsləri seçirdilər. Bütün seçilənlər qəza rəisləri, daha sonra isə general-qubernator tərəfindən təsdiq olunmalı idi. İkidərəcəli seçki sistemi bir qayda olaraq, feodal qrupları arasında mübarizəyə səbəb olurdu. Əslində çar hökuməti özünə münasib adamı seçdirirdi.

İnzibati bölgü tayfa bölgüsü nəzərə alınmadan ərazi prinsipi üzrə aparılırdı. Bu da tayfaları zəifləmtəyə yönəldilmişdi. Hələ XIX əsrin 50-ci illərinin ortaları və 60-cı illərinin əvvəllərində Rusiya təbəəliyini qəbul etmiş İssıkkul, Çu, Kəmin dərəsi, Tyanşan dağının ətəklərində yaşayan qırğızlar Qərbi Sibir general-qubernatorluğunun Semipalatinsk vilayətinin Altay mahalına daxil edilmişdi. Orenburq general-qubernatorluğunun tərkibində yaranmış Türküstan vilayətinə /1865/ Talas və Kətmən-Tuba vadisi birləşdirilmişdi. Paytaxtı Daşkənd olan Türküstan general-qubernatorluğuna /1867/ Semireçye və Sırdərya vilayətləri daxil idi. Sırdərya və Semireçye vilayətləri, Kokand xanlığının ləğvindən sonra yaradılmış Fərqanə vilayəti /1876/ ayrı-ayrı qəzalara bölünmüşdü. Belə ki, Sırdərya vilayəti Auliye-Ata, Xocənt, Cizak, Daşkənd, Çimkənd, Türküstan, Qazalı və Perovsk qəzalarından təşkil edilmişdi. Talas vadisində yaşayan qırğızlar Auliye-Ata qəzasının tərkibinə qatılmışdı. Semireçye vilayətinə İssıkkul, Tokmak, Vernı, Kopal və Sergiopol qəzaları daxil idi. Fərqanə vilayəti Əndican, Oş, Margilan, Namanqan, Kokand qəzalarından ibarət olmuşdu. 1886-cı ildən Türküstan general-qubernatorluğu Səmərqənd, Sırdərya və Fərqanə vilayətləri də daxil edilməklə Türküstan diyarına çevrildi. Səmərqənd vilayəti Kattakurqan, Səmərqənd, Xocənt və Cizak qəzalarından təşkil olunmuşdu.

Oktyabr çevrilişinə qədər Qırğızıstanın ərazisi Bişkek, Prjevalsk, Talas, Oş, Əndican, Namanqan, Margilan, Kokand və Xocənt qəzalarından ibarət idi.

Qafqaz ordusunun baş komandanlığına tabe olan Krasnovodsk və Manqışlaq bölgələrindən yaradılan Zakaspi hərbi şöbəsi /1874/ mərkəzi Aşqabad olmaqla Zakaspi vilayətinə çevrilmişdi /1881/. 1890-cı ildə çarın imzaladığı «Müvəqqəti əsasnamə»yə görə

Zakaspi vilayəti Qafqaz hərbi dairəsinin ixtiyarından çıxarılaraq bilavasitə Hərbi Nazirliyin ümumi idarəsinin sərəncamına verilmişdi. Vilayət qəzalara, qəza isə kiçik nahiyələrə bölünmüşdü. Zakaspi vilayətinə Manqışlaq, Krasnovodsk, Aşqabad, Təcən və Mərv qəzaları daxil edilmişdi. Eyni zamanda Krasnovodsk qəzası Çikişlyar və Qaraqalin, Aşqabad Durun, Təcən Serax və Atek, Mərv isə Pendin və İolotan nahiyələrinə bölünmüşdü.

1897-ci ildən Zakaspi vilayəti inzibati cəhətdən Türküstan general-qubernatorluğuna, hərbi sahədə Türküstan hərbi dairəsinə tabe edilmişdi.

1868-ci ilin «Müvəqqəti əsasnamə» sinə görə Qazaxıstan Ural, Turqay, Akmolinsk və Semipalatinsk vilayətlərinə bölünmüşdü. Ural vilayəti Ural, Quryev, Kalmıkov, Emba qəzalarına və Manqışlaq nahiyəsinə, Turqay vilayəti isə Turqay, Nikolayevsk, İrgiz, İleçki qəzalarına, Akmolinsk vilayəti Akmolinsk, Kokçetav, Omsk, Petropavlovsk qəzalarına bölünmüşdülər. 1869-cu ildə Akmolinsk vilayətinin tərkibində Sarısu qəzası yaradılmışdı. Semipalatinsk vilayəti Semipalatinsk, Kokpektin, Pavlodar, Karkalal qəzalarına ayrılmışdı. Bukey Ordası /1801-1845-ci illərdə Ural ilə Volqa arasında mövcud olmuşdu /Həştərxan quberniyasının, Ural və Turqay vilayətləri Orenburq general-qubernatorluğunun, Akmolinsk və Semipalatinsk isə Qərbi Sibir general-qubernatorluğunun tərkibinə daxil edilmişdilər. Semireçye və Sırdərya vilayətləri Türküstan general-qubernatorluğunun sərəncamında idi.

Beləliklə, XIX əsrin 90-cı illərinin axırlarında Türküstan diyarına 5 (Semireçye, Sırdərya, Fərqanə, Səmərqənd və Zakaspi) vilayət daxil idi. Rusiya Mərkəzi Asiyanı tamamilə işğal etdikdən sonra ərazisi 1533 min kv.verst olan Türküstan sahəcə Fransa, Almaniya və Astriya-Macarıstanın ərazisinə bərabər idi. Buxara və Xivə xanlıqları Türküstan general-qubernatorluğunun nəzarəti altında başda öz feodal «hökmdarları» olmaqla nominal müstəqilliklərini saxlamışdılar.

1897-ci il Ümumrusiya əhali sayımına görə, Türküstan general-qubernatorluğunun əhalisinin ümumi sayı 5280 min nəfər idi. Milli tərkibinə görə özbəklər 35,8 faiz, qazax və qırğızlar 44,4, türkmənlər 5, taciklər 6,7, qaraqalpaqlar 2,3, ruslar 3,8 və başqaları

2 faizdən bir qədər çox olmuşdu. Semireçye, Sırdərya vilayətlərində sayca qazaxlar, Səmərqənd və Fərqanə vilayətlərində özbəklər, Zakaspidə isə türkmənlər üstünlük təşkil edirdilər. Qaraqalpaqlar əsasən Amudəryanın aşağı axarının sağ sahili və Fərqanənin bir hissəsində, ruslar əsasən şəhərlərdə və dəmiryolu boyunca olan yaşayış məntəqələrində yerləşmişdilər. Rus kəndliləri kompakt halda Semireçye, Sırdərya və Səmərqənd vilayətlərində məskunlaşmışdılar. Türküstan diyarının bütün əhalisinin 13,8 faizini şəhər əhalisi və 86,2 faizdən çoxunu isə kəndlilər təşkil edirdilər. Fərqanə, Səmərqənd və Sırdərya vilayətləri üzrə şəhər əhalisinin demək olar ki, əksər hissəsi bu vilayətlərdə yerləşən iri şəhərlərdə - Daşkənd, Kokand, Margilan, Əndican və Səmərqənddə yaşayırdı.

Mərkəzi Asiya və Qazaxıstanın kənd əhalisi öz həyat tərzinə görə oturaq və köçərilərə ayrılırdı. Əhalinin daha çox sıx yerləşdiyi kəndlərdə yaşayan özbək və taciklər əsasən əkinçiliklə məşğul olurdular. Qazax, qırğız və türkmənlər köçəri həyat tərzi keçirirdilər.

Türküstan diyarının inzibati quruculuğu Mərkəzi Asiyanın tarixən mövcud olan bölgüsünə, eləcə də xalqların iqtisadi və milli mənafeyinə zidd idi.

1882-1883-cü illərdə Xarici İşlər naziri Girs Türküstan general-qubernatorluğunda birinci senat yoxlaması aparmışdı. O, Türküstanın idarə olunmasına aid 4 müvəqqəti əsasnamənin /1867, 1868, 1874, 1886/ qüvvədə olduğunu müəyyən etmişdi. Bunlardan sonuncusu Oktyabr çevrilişinə qədər qüvvədə olmuşdu.

Sırdərya vilayəti 1867-ci il müvəqqəti Əsasnaməsi, Zərəfşan mahalı K.P.Kaufmanın 1868-ci ildə təsdiq etdiyi müvəqqəti Əsasnamə, Amudərya şöbəsi 1874-cü ildə general-qubernator tərəfindən təsdiq edilmiş müvəqqəti qaydalar, Fərqanə vilayəti isə 1873-cü ildə K.P.Kaufmanın təsdiq etdiyi, lakin yuxarı dairələrdə təsdiq edilməmiş layihə əsasında idarə olunurdu. Girsin təqdimatı üzrə 1884-cü ildə yaranmış xüsusi komissiya 1886-cı il üçün Türküstan diyarının idarə edilməsi haqqında Əsasnamə hazırlamış və çar tərəfindən bəyənilmişdi.

1867-ci il Əsasnaməsi general-qubernatora böyük səlahiyyətlər vermişdi. Bu səlahiyyətlərdən qonşu ölkələrlə diplomatik əlaqələrdə olmaq, əhalidən alınan verginin miqdarını müəyyən etmək, rus vətəndaşlığının verilməsi, büdcə üzrə vəsaitin xərclən-

məsi, yerli əhalidən olan şəxslər üçün ölüm cəzası haqqında hökmün təsdiqi və əfv olunması və s. qeyd etmək olar.

Beləliklə, 1867-ci il Əsasnaməsi Türküstan general-qubernatorluğuna xalq kütlələrini itaətdə saxlamaq üçün çox geniş imkanlar verirdi. Bu da müstəmləkə sisteminin möhkəmləndirilməsinin əsas vasitələrindən biri idi.

1868-ci il islahatı hüquqi münasibətlər sahəsində müəyyən dəyişikliklər etmişdi. İslahata əsasən Mərkəzi Asiya və Qazaxıstanda məhkəmə Rusiya imperiyasının qanunları üzrə aparılırdı. Məhdud hüquqa malik, yerli sistemə uyğunlaşdırılan az sayda yerli hüquq və məhkəmə orqanları qalırdı. Siyasi və ağır cinayət işləri, o cümlədən üsyan etməkdən ötrü təbliğat aparmaq və üsyan, vəzifəli şəxslərin öldürülməsi və s. hərbi məhkəmənin sərəncamına verilmişdi. Soyğunçuluq, adam öldürmək və başqa işlərə vilayət məhkəmələrində baxılırdı.

1868-ci ildə Qazaxıstanda həyata keçirilən islahat «tayfa birləşmələrinin» və onlara rəhbərlik edən başçıların rolunu azaltmaq məqsədi güdürdü. İslahatın məqsədi yerli adlı-sanlı feodal və sultanların siyasi rolunu zəiflətmək idi. Sultanların hüquq və nüfuzları getdikcə aşağı düşürdü. Dövlət bilirdi ki, xanlıq ləğv edildikdən sonra sultanlar Rusiyaya qarşı düşmən mövqeyi tutaraq, öz mənafeləri naminə xanlığı bərpa etmək və Rusiyadan ayrılmaq siyasəti yürüdəcəklər. Əsasnamə üzrə sultanların seçilmək hüququ qadağan edilməmiş, amma onlara seçki üzrə vəzifə tutmaq üçün xüsusi hüquq da verilməmişdi. Lakin feodal əyanlar özlərinin iqtisadi vəziyyətinə və ənənəyə görə siyasi həyata az təsir göstərmirdilər. Eyni zamanda Qazaxıstanda bazarla əlaqəsi və sələmçiliklə məşğul olan, çarizmin dayağı sayılan sultan və feodalları sıxışdırıb aradan çıxaran yeni bəylər meydana gəlirdi.

İslahata görə, müsəlman ruhanilərin hüquqları da məhdudlaşdırılmışdı. Əhalini uşaqlara yalnız ərəb əlifbası və quran oxunmasını öyrədən mollaların təsir dairəsindən çıxarmaq üçün rus-yerli məktəblərin açılması və tibbi yardım göstərilməsi nəzərdə tutulurdu. Əgər çarizm XIX əsrin birinci yarısında işğal olunmuş ərazilərdə islamı müdafiə edir, məscidlərin tikilməsinə vəsait buraxırdısa, indi faktiki olaraq islam dini və müsəlman ruhanilərinin köməyindən

imtina edilirdi. Din xadimləri Orenburq müftiləri tərəfindən qazax aullarına təyin edilmir və onlara tabe deyildilər. Onları əhali dəvət edir və yerli müdiriyyət tərəfindən təsdiq olunurdular. İcazəsiz məscidlərin tikilməsi və müsəlman məktəblərinin açılması qadağan edilmişdi.

Beləliklə, 1868-ci il islahatı kapitalizməqədərki təsərrüfat formalarının dağılması prosesinin sürətləndirilməsində mütərəqqi rol oynayırdısa da, digər tərəfdən milli müstəmləkəçilik zülmü, siyasi hüquqsuzluq, vergilərin artırılması və istismarın güclənməsinə gətirib çıxarırdı.

1886-cı il Əsasnaməsi Türküstan diyarının Rusiyaya daha möhkəm bağlanılması məqsədi daşıyırdı. Rusiyanın bir çox quberniya və vilayətlərindən fərqli olaraq Türküstan rəhbərliyi Daxili İşlər Nazirliyinə deyil, Hərbi Nazirliyə tabe idi. Türküstan general-qubernatorluğunun dəftərxanası üç şöbədən ibarət idi. Birinci şöbə diyarın idarə edilməsi və idarənin şəxsi tərkibi, ikinci torpaq məsələsi və vergi, tikinti işləri, rabitə, tədris və sanitariya, üçüncü şöbə isə əsasən maliyyə məsələləri, vəqf mülkiyyəti, statistika, xarici vətəndaşlara nəzarət və s. baxırdı.

Türküstan general-qubernatorluğu dəftərxanasının xüsusi şöbəsi-diplomatik bölmə 1899-cu ildə Xarici İşlər Nazirliyinin nümayəndəsi, diplomatik məmurla əvəz edilmişdi. Bu şöbənin vəzifəsi Buxara və Xivənin protektoratlığı ilə əlaqədar bütün məsələləri həll etmək idi.

Daşkənd istisna olmaqla Türküstanın şəhərləri özünüidarədən istifadə etmirdilər. 1877-ci ildə Daşkənddə şəhər duması və şəhər rəhbərliyinə açıq seçkilər keçirilmişdi. Seçkilərdə Duma üzvlüyünə əhalinin üçdə biri «asiyalı» hissəsindən, üçdə ikisi «ruslardan» seçilmişdi. Seçilənlərin tərkibi yerli burjuaziya, məmur və burjua ziyalılarından ibarət idi.

Türküstanda inzibati-idarə aparatını saxlamaq çox baha başa gəlirdi. Türküstan general-qubernatorluğunun illik büdcəsinin 65 faizi hərbi-polis və inzibati idarələrə xərclənirdi.

XIX əsrin ikinci yarısında Buxara xanlığının (əmirliyin) ərazisi 200 min kv. km., əhalisi isə təxminən 3 mln. nəfər idi. Buxara xanlığına özbəklərin sayca üstünlük təşkil etdiyi Zərəfşan, Qaşqadərya və Surxandəryanın münbit vadiləri, taciklər yaşayan Kulyab,

Darvaz, Qaratəkin və Bəlcuanın dağlıq sahələri, həmçinin Amudərya çayının sağ sahili, Cərco, Karşi və Kərki bölgələri daxil idi.

Əmirin səylərinə baxmayaraq, Buxara xanlığı zəif mərkəzləşdirilmiş dövlət olmuşdu.

XIX əsrin ikinci yarısında Buxara xanlığının Rusiyanın protektoratlığını qəbul etməsi əslində onun müstəqilliyinə son qoyulması və çarizmin müstəmləkəsinə çevrilməsi demək idi. Hüquqi cəhətdən isə bu, 1873-cü il sentyabrın 28-də Rusiya ilə Buxara arasında Şəhrisəbzdə «dostluq haqqında müqavilə»nin imzalanması ilə təsbit olunmuşdu. Buxarada çar Rusiyasının protektoratlığı qurulduqdan sonra Şəhrisəbz, Kitab, Hissar, Qaratəkin və Darvaz tam olaraq Buxara əmirinin hakimiyyətinə tabe edilmişdi.

1885-ci ildə Buxarada «Rusiya imperatorluğunun siyasi agentliyi» yaradılmışdı. Bu təşkilat suveren və müstəqil dövlətdə səfirlik deyildi. Siyasi agent burada çar Rusiyasının rəsmi nümayəndəsi olmuşdu. Eyni zamanda siyasi agent vasitəsilə Peterburq və Daşkənd Buxara hökuməti ilə geniş əlaqələr yaradırdı. Siyasi agent həm də rus-əfqan sərhəddindəki vəziyyəti izləməli idi.

Buxarada Rusiyanın siyasi agentliyinin yaranması Buxara əmiri və onun dövlətinin üzərində bilavasitə nəzarətin təşkili demək idi. Onun üzərinə həm də xanlıqdan kənarda rus əhalisinin yerləşdirilməsi və ticarət-sənaye burjuaziyasının maraqlarının qorunması vəzifəsi düşürdü.

Qeyd etmək lazımdır ki, agentliyin əsas məqsədlərindən biri də rus tacirlərini himayə etmək və xammal alınması, Buxara xanlığı ilə ardıcıl olaraq ticarətin inkişafına qayğı göstərmək idi.

1895-ci ildə Pamirdə sərhəd müəyyən edildikdən sonra Buxara xanlığına Şuqnan, Roşan və Vaxanın şimal hissəsi də birləşdirilmişdi.

İnzibati-ərazi cəhətdən Buxara xanlığı vilayətlərə /bəyliyə/ bölünmüşdü. Xanlıqda 28 belə bəylik - vilayət var idi. Onlar Cərco, Kərminin, Ziyauddin, Nuratin, Xatırçin, Kitab, Şəhrisəbz, Çıraqçin, Yakkabaq, Güzar, Bəysun, Qaratəkin, Denau, Hissar, Darvaz, Bəlcuan, Şuqnan, Roşan, Kulyab, Kurqan-Tuba, Kabadian, Şirabad, Kəlif, Kərki, Burdalıq, Qabaklıq, Karşi və Narızımdan ibarət idi.

Buxara xanlığının əhalisi əsasən özbək, tacik, türkmən, qazax və başqa xalqlardan ibarət idi. Belə ki, xanlıq əhalisinin yarıdan

çoxunu özbəklər təşkil edirdilər. Taciklər 30 faizdən çox, türkmənlər isə 10 faizə qədər olmuşdular. Eyni zamanda burada az miqdarda ərəb, yəhudi, iranlı, əfqan, tatar və hindli də yaşayırdı.

XIX əsrin ikinci yarısında Buxara xanlığı feodal dövləti idi. Dövlətin başında əmir dururdu. Onun dayağı əsasən müsəlman ruhaniləri və torpaq sahibləri idilər. Əmir feodalların və tacirlərin mənafeyini müdafiə edirdi. Çar Rusiyası da Buxara xanlığında feodalizm quruluşunu saxlamaqda maraqlı idi.

XIX əsrin 90-cı illərində Buxara əmirliyinin 13 min nəfər piyada, 500 nəfər atlı və 620 nəfər topçudan ibarət qoşunu olmuşdu. Bundan əlavə əmirin səlahiyyətində 2 mindən çox polis /mirşab/ var idi.

Buxara xanlığında əsas vergi növləri xərac, zəkat və aminan /ixrac olunan məhsuldan tutulan vergi/ idi. Əmir, kuşbeqi, qazıkalyan və başqa dövlət məmurları «peşkəş»dən / bəxşiş, hədiyyə/ böyük gəlir əldə edirdilər.

Xivə xanlığında Rusiyanın protektoratlığı quruldüqdan sonra xan çarizmin vassalına çevrilmişdi. Rusiya hökumətinin rəsmi nümayəndəsi bildirmişdi ki, «1873-cü il müqaviləsinə görə, biz xanlığın sahibiyik, xan ancaq rus çarının iradəsini itaətkarcasına yerinə yetirəndir».

Xan hakimiyyətinin fəaliyyətinə nəzarət etmək və xanla əlaqəni möhkəmləndirmək üçün yaradılmış Şuranın /Divan/ 7 üzvü var idi. Onun 4 nəfəri Türküstan rəhbərliyindən, 3 nəfəri isə xana yaxın əyanlardan təyin edilirdi. Xan Şuraya sədrlik edirdi. Şuranın qəbul etdiyi ən mühüm qərarlar Türküstan general-qubernatorluğu tərəfindən təsdiq edilirdi. General-qubernator həm də Şuranın üzvlərini təyin etmək və dəyişdirmək səlahiyyətinə malik idi. General-qubernatorluğun Amudərya şöbəsi yaranandan sonra Şura ləğv olunmuşdu.

1873-cü ildə xanlığın Rusiya tərəfindən işğal edilmiş hissəsində Amudərya dairəsi yaradılmışdı. 1874-cü ildə Amudərya dairəsi mərkəzi Petro-Aleksandrovsk /Turtkul/ olmaqla Amudərya şöbəsinə çevrilmişdi. Bu şöbənin başında rus zabiti dururdu. 1887-ci ildə Türküstan diyarının idarə edilməsinə aid Əsasnamənin tətbiqi ilə əlaqədar olaraq Amudərya şöbəsi Sırdərya vilayətinin tərkibinə

qatıldı. Şöbənin müdiri Sırdərya vilayətinin hərbi qubernatoruna tabe edildi. Amudərya şöbəsinin müdirinə geniş hüquqlar verilmişdi.

Rusiyanın işğalı ərəfəsində Xivə xanlığının ərazisi 130,6 min kv.verst idi. Xivədə çar protektoratlığı təsbit edildikdən sonra 75,9 min kv.verst və ya 76 min kv.km. Türküstan general-qubernatorluğuna qatılmışdı.

XIX əsrin ikinci yarısında Xivə xanlığının əhalisinin ümumi sayı təxminən 500 min nəfər, Amudərya şöbəsinin əhalisi isə 205 min nəfər idi.

Xivə xanlığında müxtəlif xalqlar: özbəklər, türkmənlər, qaraqalpaqlar, qazaxlar, iranlılar, ərəblər və başqaları yaşayırdılar. Əhalinin sayına görə birinci yerdə özbəklər /64,7 faiz/, sonrakı yerlərdə isə türkmənlər /26,8 faiz/, qaraqalpaqlar /3,8 faiz/, qazaxlar /3,4 faiz/ və b. gedirdi.

Xanlığın əhalisinin 90 faizdən çoxu oturaq, qalan hissəsi isə köçəri və yarımköçərilərdən ibarət olmuşdu. Əhalinin çox hissəsi kəndlərdə yaşayaraq əkinçilik və maldarlıqla məşğul idi. Sənətkarlıq və ticarətlə məşğul olan şəhər əhalisi 5 faizdən çox deyildi. Ruslar xanlıqda əsasən şəhərlərdə yaşayırdılar.

Dövlətin başında irsən keçən xan dururdu. O, dövlətin idarə olunmasında saray əyanları və ali ruhanilərə əsaslanırdı. İnzibati-məhkəmə və hərbi hakimiyyət də xana məxsus idi.

Xivə xanlığı inzibati-siyasi cəhətdən 20 bəyliyə /vilayətə/ bölünmüşdü: Pitnyak, Xəzərəsp, Xanka, Ürgənc, Koş-Kupır, Xazavat, Kyat, Şahabad, Taşauz, Ambar-Manak, Qurlen, Manqıt, Klıç Niyazbəy, Qıpçaq, Porsu, İlyalı, Kunya-Ürgənc, Xoceyli, Çumanay və Kunqrad. İki naiblik - Biş-Arıq, Kiat-Kunqrad və Xivə şəhər dairəsi xanın sərəncamında idi. Xivə xanlığında hər bir bəyliyin başında xan tərəfindən təyin olunmuş hakim, naibliyin başında isə naib dururdu.

## § 2. ÇARİZMİN İQTİSADİ SİYASƏTİ

**Kənd təsərrüfatı.** Rusiya Mərkəzi Asiya və Qazaxıstanın işğalına başlayanda bu regionlarda feodalizm quruluşu hökm sürür, köçəri xalqlarda ictimai münasibətlər feodal-patriarxal xarakter daşıyırdı.Türküstan diyarının bütün əhalisinin 86,7 faizini kəndlilər təşkil edirdilər. Kənd əhalisi həyat tərzinə görə oturaq və köçərilərə ayrılırdı. Aqrar ölkə olan Mərkəzi Asiya və Qazaxıstanın təsərrüfatının əsas sahəsi əkinçilik və maldarlıq idi. Əhalinin daha çox sıx yerləşdiyi bölgələrdə yaşayan özbək və taciklər əsasən əkinçiliklə məşğul olurdular. Regionda kənd təsərrüfatının inkişafı üçün əsas baza süni suvarma idi. Burada əhali pambıq, taxıl, düyü, meyvə və bostan bitkiləri becərirdi. Çarizm pambıq istehsalını artırmaq üçün bir sıra tədbirlər görmüşdü. Rusiyanın toxuculuq sənayesi üçün xammal bazası yaratmaqdan ötrü Daşkənd yaxınlığında pambıqçılıq təcrübə stansiyası yaradılmışdı. 1884-cü ildə 300 desyatin sahədə Amerika sortu pambıq əkilmişdisə, 1889-cu ildə əkilən sahə 44550 desyatinə çatdırılmışdı. 1892-ci ildə Fərqanə vilayətində 1 milyon puddan çox mahlıc istehsal edilmişdisə, 1900-cu ıldə bu, 3,9 milyon puda yüksəlmişdi. Eyni zamanda Fərqanə vilayətində kənd əhalisinin məşğul olduğu əsas sahələrdən biri də ipəkçilik idi.

Torpaqdan xanlıq dövründə olduğu kimi istifadə edilirdi. Lakin ildən-ilə becərilən torpaq sahələri artırılırdı. Türkmənistanda əkilən torpaqların sahəsi 1889-cu ildə 57 min desyatin təşkil edirdisə, 1894-cü ildə bu, 106 min desyatinə çatdırılmışdı. 1895-ci ildə Mərvdə 178 min pud pambıq yığılmışdı. 1887-ci ildə senatın qərarı ilə Türkmənistanın Mürğab vadisində eyni adlı malikanə yaradılmışdı. Mürğab dövlət malikanəsinin yaradılmasının əsas səbəbi xəzinə üçün yeni gəlir mənbəyi əldə etmək idi. Mürğab malikanəsinin ərazisini genişləndirmək üçün Mərv və İolotan vahəsi əhalisinin torpaqları əllərindən alınmışdı. Malikanənin ümumi sahəsi 104 min desyatin idi. Mürğabda xüsusi süni suvarma sistemi yaradılmışdı. 1887-1890-cı illərdə Sultanbənd və 1891-1895-ci illərdə Hindiquş bəndləri salınmışdı. Mürğab malikanəsindən Rusiya dövlət xəzinəsinə xeyli gəlir daxil olurdu.

Zakaspi Türkmənistanın sosial-iqtisadi cəhətdən inkişaf etmiş vilayəti idi. 1892-1895-ci illərdə burada 13 milyon pud taxıl əldə edilmişdi.

XIX əsrin sonunda Xivə xanlığında ümumi əkin sahəsi 2 milyon desyatindən çox idi. Xanlığın cənub torpaqları daha məhsuldar idi. Kənd təsərrüfatı məhsullarının 80 faizə yaxını burada istehsal olunurdu. Xivə xanlığı əhalisinin 60 faizi xanlığın cənub hissəsində yaşayırdı. Burada əsasən pambıqçılıq, ipəkçilik və qaragül dərisi yetişdirməklə məşğul olurdular. Buxara xanlığına nisbətən Xivə xanlığında əkinçilik daha geniş yayılmışdı. Burada növbəli əkinə üstünlük verilirdi.

Suvarma sistemində Amudəryanın suyundan çox istifadə olunurdu. Şahabad, Yarmış, Xazavat, Palvan-Yab, Klıç Niyazbəy, Laudan kimi iri kanallar mövcud idi.

Xivə xanlığında quraqlıq olmayan illərdə 9 milyon pud taxıl, o cümlədən 1,5 milyon pud düyü becərilirdi.

Bu dövrdə qazax, qırğız və türkmənlərin xeyli hissəsi köçəri həyat tərzi keçirirdi. 1871-ci ildə Qırğızıstanın İssıkkul qəzasında 10,5 min yurt sahibinin 74 min atı, 130 min baş iribuynuzlu malqarası, 4,4 min dəvəsi, 231 min qoyunu var idi.

Oturaq və yarımköçəri əhali əkinçiliklə məşğul olurdu. Feodal ara müharibələrinə son qoyulması əhalinin əkinçilik və maldarlıqla məşğul olmasına imkan vermişdi. Digər tərəfdən isə, əkinçilikdə böyük təcrübəsi olan gəlmələrin İssıkkul, Çu, Talas və Fərqanə vadilərində məskunlaşması iri yaşayış məntəqələrinin meydana gəlməsinə səbəb olmuşdu. Eyni zamanda Rusiyanın mərkəzi və Türküstanın bir çox bölgələri ilə ticarət əlaqələrinin yaranması və genişlənməsi köçərilərin maldarlıq və əkinçilik məhsullarının müəyyən hissəsini onlara satmasına imkan verirdi.

Dağlıq bölgələrdə köçəri maldarlıq, dağətəyi bölgələrdə maldarlıq və əkinçilik, vadilərdə isə oturaq əkinçiliklə məşğul olurdular. Həmçinin yarımköçərilərin müəyyən hissəsi qışladıqları ərazidə əkinçiliklə məşğul idi. Türküstan Rusiyaya qatıldıqdan sonra bu regiona köçürülən rus kəndliləri ilk dəfə kartof, kələm, pomidor və çuğundur əkib-becərməyə başlamışdılar.

Çar hökuməti xeyli vaxt yerli əhalinin torpaq münasibətləri və vergi sisteminə toxunmamışdı. Əkinçiliklə məşğul olunan bölgə-

lərdə əhali əvvəlki kimi məhsulun $^{1}/_{10}$ hissəsi qədər xərac və tanap vergisi, köçərilər isə hər alaçığa 3 manat 50 qəpik alaçıq vergisi verirdi. Ümumiyyətlə, əhaliyə vergi qoyulmasındakı qeyri-sabitlik, sui-istifadələr, vergi toplanılarkən onların müəyyən hissəsinin mənimsənilməsi nəticəsində vergidən gələn gəlir mütəmadi olaraq azalırdı. Türküstan diyarında 12 il ərzində dövlət xəzinəsinin məxarici mədaxildən 3 dəfə çox olmuşdu. 1868-1879-cu illərdə mədaxil 32,4 milyon manat, məxaric isə 99,5 milyon manat təşkil etmişdi. Mərkəzi mətbuatda Türküstanın «ziyanla» işləməsi və belə halın aradan qaldırılması haqqında tədbir görülməsinin zəruriliyi qeyd olunurdu. Ona görə də Türküstan general-qubernatoru K.P.Kaufman 1870-ci ildə əhalidən alınan vergini artırdı. Nəticədə torpaq vergisi təkcə Sırdərya vilayətində 1869-cu ildəki 288 min manatdan 1882-ci ildə 505 min manata çatmışdı.

Mərkəzi Asiya və Qazaxıstanda çar Rusiyası hakimiyyətinin bərqərar olması milyonlarla yerli əhalinin maraq və mənafeyinə toxunan torpaqdan istifadə məsələsinin həll edilməsinin zəruriliyini meydana çıxartdı. Bu da öz əksini 1868, 1886 və 1891-ci illərdə qəbul olunmuş əsasnamələrdə tapmışdı.

1886-cı ildə Türküstan diyarının idarə olunmasına aid yeni Əsasnamə verilmişdi. Bu Əsasnamədə torpaq münasibətləri məsələsi də öz əksini tapmışdı. Əsas məqsəd yerli feodalların hakimiyyətini zəiflətmək və müstəmləkə hakimiyyətini möhkəmləndirmək idi. Əsasnamədə oturaq kənd əhalisinə torpaqların həmişəlik verilməsi nəzərdə tutulmuşdu. Torpaqdan istifadəyə görə ödənişə nəinki dövlət vergisi, həmçinin feodal rentası da daxil idi. Əmlak torpaqlarının həm dövlət, həm də əhalinin ixtiyarında olduğu göstərilirdi. Eyni zamanda torpağın bir şəxsdən başqasına keçməsi də nizamlanmışdı. Burada alıcı və satıcının hüquqları da müəyyənləşdirilmişdi. Hökumət tərəfindən vəqf torpaqları kimi qeyd edilən torpaqlar həm də kənd icmasına aid edilmişdi. Ümumiyyətlə, Mərkəzi Asiya və Qazaxıstanın işğalından sonra vəqf torpaqlarının ümumi sahəsi xeyli azalmışdı.

XIX əsrin ikinci yarısında Türküstanda əmlak-dövlət torpaqları, mülk-sahibkar torpaq mülkiyyəti, vəqf-ruhanilərə aid olan torpaq mülkiyyəti formaları mövcud idi.

1886-cı il Əsasnaməsində göstərilirdi ki, dövlət mülkiyyəti hesab edilən torpaqlardan köçərilərin istifadə etmək hüququ vardır. Amma köçərilərin bu torpaqlara heç bir mülkiyyət hüququ yox idi. Köçərilər asılı kəndlilər hesab olunur və dövlət torpaqlarından istifadə etdiyinə görə vergi ödəməli idilər.

Ümumiyyətlə, Mərkəzi Asiya və Qazaxıstanda bir-birindən fərqlənən üç təsərrüfat tipi var idi. Onlardan oturaq, köçəri və yarımköçəriləri qeyd etmək olar.

Beləliklə, 1886-cı il Əsasnaməsi torpaq quruculuğunun başlanğıcını qoydu, vergilərin miqdarını və Türküstan diyarının təbii sərvətlərinin tədqiq olunmasını müəyyən etdi. Köçərilərin torpaqları dövlət mülkiyyəti hesab olunaraq icma torpaqları hüququnda əhalinin istifadəsinə verilirdi. Türküstan xalqlarının torpaqlarının dövlət mülkiyyəti elan edilməsi əslində burada çarizmin Rusiyadan köçürülən «artıq» əhali üçün torpaq fondunun yaradılması demək idi.

1891-ci il Əsasnaməsində torpaqdan istifadə və vergi qaydaları müəyyənləşdirilmişdi. Əsasnamədə köçərilərin istifadəsində olan «artıq torpaqlar» əllərindən alınırdı. Bu Əsasnamənin qəbulundan sonra Semireçye vilayətində qazaxların istifadəsində olan 838 min desyatin və Sırdərya vilayətində 159 min desyatin torpaq sahəsi müsadirə edilmişdi. Eyni zamanda torpaqların icarəyə verilməsinə məhdudiyyət qoyulmurdu.

Göründüyü kimi, XIX əsrin ikinci yarısında mütləqiyyətin apardığı torpaq islahatı nəticəsində ruhanilərin sahib olduqları torpaq sahələri xeyli azaldılmış və bunların bir hissəsi kəndlilərə verilmişdi. Keçmişdə kəndlilərin feodallardan icarəyə götürdükləri torpaqlar kəndlilərin nəsli istifadəsinə keçmişdi. Dövlət torpaqları da kəndlilərin nəsli istifadəsinə verilmişdi. Bu da kənd təsərrüfatında kapitalizmin inkişafına zəmin yaradırdı. Lakin əkinçilik və maldarlıqda muzdlu əməkdən nadir halda istifadə olunurdu. Kəndliləri istismar etməyin kapitalizmə qədərki formaları /ələlxüsus feodalın torpaqdan müntəzəm surətdə götürdüyü gəlir/ saxlanılırdı. Kəndlilərin vəziyyəti yenə də ağır olaraq qalırdı. Buxara xanlığında kənd əhalisinin 25 faizi torpaqsız idi.

Çarizm Rusiyanın mərkəzi quberniyalarından kəndliləri Türküstana köçürməklə Mərkəzi Asiya və Qazaxıstanda ruslardan ibarət

özünə sosial dayaq yaratmaq niyyətində idi. Bu siyasət nəticəsində yerli əhali öz tarixi yurdlarından köçürülür və onlar müəyyən çətinliklərlə üzləşirdilər. Yararlı torpaq sahələri kifayət qədər olmadığına görə gəlmələri istənilən ərazilərdə yerləşdirmək mümkün olmurdu. Bəzən də onlar geri qayıtmaq məcburiyyəti qarşısında qalırdılar.

Hələ XVIII əsrdə Rusiya Qazaxıstanın şimal-qərb hissəsini işğal edəndən sonra bu ərazilərdə rusları məskunlaşdırmağa başlamışdılar. Lakin Özbəkistanda suvarılan torpaqlar nisbətən az olduğuna görə kəndlilər ən çox Qazaxıstan və Şimali Qırğızıstana köçürülürdülər. 1867-ci ildə Sibir kazak qoşunlarının bir hissəsi Semireçyeyə gətirilmiş və onlara 10 milyon desyatin ən yaxşı torpaq sahələri verilmişdi. Hərbçilərlə yanaşı kəndlilər də buraya köçürülürdülər.

1868-ci il Əsasnaməsində rusların Qazaxıstana köçürülməsi məsələsi xüsusi olaraq göstərilmişdi. Əsasnaməyə görə, gəlmə kəndlilərə xüsusi imtiyazlar da verilirdi. Belə ki, hər kişiyə 30 desyatin torpaq ayrılması nəzərdə tutulurdu. Gəlmələr bütün vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər. Onlara 15 il müddətinə hərbi mükəlləfiyyətdən möhlət verilirdi.

1881-ci ilin sonunda çar hökuməti Qırğızıstana Rusiyadan kəndlilərin köçürülməsinə aid müvəqqəti qayda tətbiq etmişdi. Buraya köçürülən kəndlilər hər adam başına 45 desyatin torpaq alırdı. Lakin 1883-cü ildə Rusiyadan kəndlilərin köçürülməsi «müvəqqəti» dayandırılmışdı.

1881-ci ildə imzalanmış müqaviləyə əsasən Rusiya Kulcin diyarını Çinə qaytarmışdı. Bununla əlaqədar olaraq Kulcin diyarı əhalisinə sərbəst şəkildə təbəəlik seçmək hüququ verilmişdi. Kulcin diyarında yaşayan dunqan, uyğur və qazaxların xeyli hissəsi Rusiyanın təbəəliyini qəbul edərək Semireçye vilayətinə köçmüşdü. Onlara Çu çayının sağ sahili, İrdiq çayı və İssıkkul gölü yaxınlığında torpaq sahələri verilmişdi. Burada 60 dunqan və uyğur kəndi yaradılmışdı. Çar hökuməti bunlara borc pul verməklə həm də onları 10 il vergilərdən azad etmişdi. Qırğızıstanda gəlmə kəndlilər yeni kəndlər salırdılar. XIX əsrin sonunda Qırğızıstanda 100 rus-ukrayna, 5 alman və 3 dunqan kəndi var idi. Bunlar əsasən Çu vadisi, İssıkkulun şimal və şərq hissəsində yerləşirdilər.

Türkmənistanda XIX əsrin 80-ci illərindən gəlmələrin yerləşdirilməsinə başlanılmışdı.

Ümumiyyətlə, Mərkəzi Asiya və Qazaxıstana kəndlilərin köçürülməsi mərhələlərlə həyata keçirilmişdi. Məsələn, Qazaxıstana kəndlilərin köçürülməsi 3 mərhələdə olmuşdu. Birinci mərhələ XIX əsrin 60-90-cı illərini, ikinci-üçüncü mərhələlər isə XX əsrin əvvəllərini əhatə edirdi.

XIX əsrin 80-ci illərinin aqrar böhranı ilə əlaqədar olaraq Qazaxıstanda yerli əhalinin torpaqlarının kütləvi şəkildə zəbt olunmasına başlanılmışdı. 1891-1892-ci illərdə Rusiyada baş vermiş aclıqla bağlı buraya köçürülənlərin sayı daha da artmışdı. Hələ 1889-cu ildə çar hökuməti kəndlilərin Rusiyadan Qazaxıstana köçürülməsinin qayda və şərtlərinə aid yeni qanun vermişdi. Qanuna görə, Qazaxıstanda «Köçkünlər fondu» yaradılmışdı. Ural və Turqay vilayətlərindən bu fonda 20 milyon desyatin, Semireçyedən 3,3 milyon və Sırdəryadan 0,5 milyon desyatin ən münbit torpaqlar verilmişdi. Hələ 1868-1883-cü illərdə Semireçye vilayətində gəlmələr üçün 36 yaşayış məntəqəsi yaradılmışdı. 1891-ci ildə yalnız Sırdərya vilayətində 19 rus kəndi mövcud idi.

Bu dövrdə özbaşına köçənlərin Türküstana kütləvi axını da başlamışdı. Müxtəlif qadağalara baxmayaraq, 1892-ci ildə Türküstanda 1792 belə ailə yerləşmişdi. 1896-cı ildə Qazaxıstanda bütün köçkünlərin 55 faizi özbaşına gələnlər idi. Beləliklə, çar Rusiyası müxtəlif yollarla Türküstanda «artıq» əhalini yerləşdirməklə özünə sosial dayaq yaradırdı.

1895-ci ildə çar hökuməti Şerbinin başçılığı altında Qazaxıstana ekspedisiya göndərmişdi. Onlar qazax əhalisini siyahıya almış, malqara və örüş yerlərinin hesabını aparmışdılar. Bu ekspedisiya həmçinin gələcəkdə qazaxlardan torpaqları almaq və torpaqdan istifadə etmək qaydalarını işləyib hazırlamışdı. Şerbinin ekspedisiyası 8 qəzada qazaxların artıq torpaqlarının olduğunu aşkar etmişdi. Bu qəzalarda demək olar ki, torpaqların yarısı qazaxlardan alınmışdı.

Ümumiyyətlə, çar hökuməti köçürmə siyasətini həyata keçirmək üçün Türküstanın yerli əhalisindən xeyli torpaq sahəsi müsadirə etmişdi. Əslində çarizmin torpaq siyasəti Mərkəzi Asiya və Qazaxıstanın bütünlüklə Rusiyanın müstəmləkəsinə çevrilməsi, region-

da gəlmələrin yerləşdirilməsi, ruslaşdırma siyasətinin aparılması və Rusiyadan tam asılılığını təmin etmək məqsədilə həyata keçirilirdi.

Semireçyenin varlı vilayət olması, mülayim iqlim şəraiti, münbit torpağı rus əhalisinin diqqətini daha çox özünə cəlb etmişdi. 1895-ci ildə burada 26 min nəfərdən çox gəlmə əhali qeydə alınmışdı. 1896-cı ildə Səmərqənd vilayətinin Xocənt qəzasında 6 qəsəbə salınmışdı. 1897-ci il əhali sayımına görə Buxara əmirliyinin ərazisində 13 min nəfərədək rus yaşayırdı.

Türküstanda köçürmə məsələsi ilə yerli inzibati idarələr – vilayətlərdə ruslardan təyin olunmuş vilayət rəisləri, yerlərdə qəza rəisləri və naiblər məşğul olurdular. XIX əsrin ikinci yarısında çarizmin köçürmə siyasəti həm də hərbi-strateji və siyasi xarakter daşıyırdı. Ümumiyyətlə, 1897-ci ilin məlumatına görə, Türküstanda rus əhalisinin sayı 200 min nəfərə qədər olmuşdu.

**Sənaye.** Rusiyanın maşınlı istehsalının rəqabətinin təsiri altında Türküstanda sənətkarlıq zəifləmişdi. Xırda sənətkarların vəziyyəti daha ağır olduğundan ya iri emalatxana sahibkarlarının yanında işləyir, ya da muzdlu fəhlə kadrlarına çevrilirdilər. Türküstanda məhsuldar qüvvələr və regionlararası iqtisadi əlaqələri inkişaf etdirmək üçün dəmiryolunun çəkilməsinə böyük ehtiyac duyulurdu. Bu, həm də Mərkəzi Asiyanın işğalını başa çatdırmaq üçün son dərəcə vacib idi. 1881-ci ildə Xəzər dənizindən başlayaraq Mərv, Səmərqənd istiqamətində Zakaspi dəmiryol xəttinin tikintisinə başlanıldı. Zakaspi dəmiryolu 1885-ci ildə Aşqabad, 1886-cı ildə Mərv, 1888-ci ildə Səmərqənd, 1898-ci ildə Daşkənd və 1899-cu ildə isə Əndicana çatdırıldı. XIX əsrin 90-cı illərinin axırlarından Qazaxıstanın şimal hissəsindən Sibir magistral yolu keçirdi. İnşasına 1899-cu ildə başlanan Orenburq-Daşkənd dəmiryol xətti 1906-cı ildən istifadəyə verilmişdi. Krasnovodskdan başlayaraq Daşkəndə qədər uzanan Zakaspi dəmiryol xəttinin uzunluğu 1748 verst idi. Qeyd olunan dəmiryol xətlərinin inşası Mərkəzi Asiya və Qazaxıstanın müstəmləkəyə çevrilməsində mühüm amillərdən biri olmuşdu. Mərkəzi Asiya dəmiryol xəttində 10 min daimi və mövsümi fəhlə və qulluqçu işləyirdi. Bu dəmiryol xəttinin ticarət-iqtisadi əhəmiyyətini daşınan yük dövriyyəsi ilə müəyyənləşdirmək olar. Belə ki, əgər 1890-cı ildə bu yol ilə 9,6 milyon pud yük daşınmışdısa, 1898-ci ildə bu, 16,7 milyon puddan çox olmuşdu.

XIX əsrin sonunda Türküstanda sənaye sahələri inkişaf etməyə başlamışdı. 1880-ci ilə kimi Türküstan diyarında cəmi 21 sənaye müəssisəsi var idi. 1880-1890-cı illərdə isə 63 belə müəssisə fəaliyyətə başlamışdı ki, onların 23-nü pambıqtəmizləmə zavodları təşkil edirdi. 1890-1900-cu illərdə 111 yeni müəssisə, o cümlədən 52 pambıqtəmizləmə zavodu işə salınmışdı.

XIX əsrin ikinci yarısında Qırğızıstanın ərazisində kustar sənaye müəssisələri çoxluq təşkil edirdilər. Əsrin sonunda gön-dəri, yağ, pambıq zavodları və s. inkişaf etməyə başlamışdı. 1896-cı ildə Q.Özbəyovun dəri zavodu 20 min manatlıq dəyəri olan dəri istehsal etmişdi.

Türküstan diyarında əsas pambıqçılıq bölgəsi sayılan Fərqanə vilayəti regionda istehsal olunan pambığın demək olar 80 faizini verirdi. Buxarada 26 pambıqtəmizləmə zavodu var idi. Ümumiyyətlə, Türküstandakı 157 pambıqtəmizləmə zavodundan 107-i yerli bəylərə, 50-i isə rus və xarici sahibkarlara məxsus idi. Çiyiddən təmizlənmiş pambıq-mahlıc əsasən Moskva pambıq-parça fabriklərinə göndərilirdi. XIX əsrin 70-ci illərində bu fabriklərə 35 min pud mahlıc göndərilmişdisə, bu, əsrin sonunda 3,5 milyon puda çatmış, yəni on dəfə artmışdı.

Çar Rusiyası Türküstanda pambıqçılığın inkişafına xüsusi maraq göstərirdi. Pambıqçılığa rus kapitalı qoyuluşu yüksək templə davam edirdi. Daşkənd ətrafında rus sahibkarları iri pambıqçılıq təsərrüfatları yaratmışdılar. Belyakovun əkinçilik təsərrüfatı 620 desyatin və Böyük Yaroslav manufakturası 400 desyatin torpağa sahib idilər. Ümumiyyətlə, Türküstanda belə təsərrüfatlar 4800 desyatin torpağa malik olmuşdular.

Türkmənistanın təbii sərvətlərinin öyrənilməsi nəticəsində neft, kükürd yataqları və duz mədənləri aşkar edilmişdi. Beləliklə, 1900-cu ildə Türküstan diyarında 195 müxtəlif sənaye müəssisəsi fəaliyyət göstərirdi. 1895-ci ildə Aşqabadda Rusiya Dövlət bankı və 1899-cu ildə isə İran hesab-borc bankının şöbələrinin açılması sənaye müəssisələrinin kredit almalarını xeyli asanlaşdırmışdı. Təxmini hesablamalara görə diyarın sənaye müəssisələrində 10 min fəhlə işləyirdi. Bunlardan 70,7 faizini özbək və digər yerli xalqlar, 22,8 faizini ruslar, qalan 6,5 faizini isə başqa xalqların nümayəndələri təşkil edirdilər. İxtisaslı fəhlələr əsasən ruslardan ibarət idilər.

Türküstanın sənayesində iş şəraiti olduqca ağır, əməyin mühafizəsi isə yox dərəcəsində idi. Cüzi əmək haqqı alan fəhlələr 12-14 saat işləməyə məcbur edilirdilər. Senator Palen apardığı yoxlama nəticəsində Rusiyanın mərkəzi quberniyalarına nisbətən Türküstanda fəhlələrin, ilk növbədə yerli millətlərdən olanların vəziyyətinin dözülməz olduğunu qeyd etmişdi. Məhz bu səbəbdən 1885-ci ildə Pəncikənd şəhəri yaxınlığında daş kömür mədəni, 1898-ci ilin fevralında Kokand inşaatçıları, iyunda isə Səmərqənd şərab zavodu fəhlələri iqtisadi xarakter daşıyan tətil etmişdilər.

**Şəhərlər.** XIX əsrin ikinci yarısında Türküstan diyarının şəhərlərində bir sıra dəyişikliklər baş vermişdi. 1880-ci ildən 1897-ci ilə kimi keçən müddətdə Fərqanə, Sırdərya və Səmərqənd vilayətlərinin əhalisi təxminən iki dəfə artmışdı. Bu üç vilayətin ən böyük şəhərləri Daşkənd, Namanqan, Səmərqənd və Əndican idi. Türküstanda bütün əhalinin 13,8 faizini şəhər əhalisi təşkil edirdi. 1897-ci ilin əhali sayımına görə, Daşkənddə 155,7 min, Kokandda 81 min, Namanqanda 62 min, Səmərqənddə 55 min, Əndicanda 47,6 min, Köhnə Margilanda isə 36,5 min nəfər yaşayırdı. Daşkənddə yerlilər əhalinin 83 faizini, Səmərqənddə 79 və Kokandda isə 97 faizini təşkil edirdilər. Rusiya işğalından sonra salınan yeni şəhərlərdə tamamilə başqa mənzərə yaranmışdı. Məsələn, Yeni Margilanda /Skobelev/ gəlmə əhali 62,6 faiz, Petro-Aleksandrovskda /Turtkul/ isə 80 faiz olmuşdu. Türküstan diyarının iri şəhərlərində ruslar onlara ayrılmış hissələrdə yaşayırdılar.

Türküstan diyarının inzibati mərkəzi olan Daşkənd şəhərində general-qubernatorluğun iqamətgahı və diyarın bütün idarələri yerləşirdi. Şəhər iki hissəyə - yerli əhalinin ta qədimdən yaşadığı və 1865-ci ildə Daşkəndin işğalından sonra gəlmə rusların məskunlaşdıqları hissələrə ayrılmışdı. Belə bölgü Səmərqənd, Namanqan /1876/, Yeni Margilan və Əndicanda da /1877/ tətbiq edilmişdi. Şəhərlərdə abadlıq işləri zəif aparılırdı. Lakin əhalinin varlı təbəqələri özlərinə Avropa üslubunda evlər tikdirirdilər. Şəhərin büdcəsinin əsasını əhalidən toplanan vergi təşkil edirdi.

XIX əsrin 90-cı illərində Daşkənd iri ticarət-sənaye mərkəzi idi. Türküstanın iri şəhərlərinə, xüsusilə Daşkəndə rusların axını davam edirdi. Şəhərdə rüşvət və korrupsiya güclənmişdi. Rusiyadan

qaçıb buraya gəlmiş fırıldaqçı və möhtəkirləri görkəmli rus ədibi Saltıkov-Şedrin haqlı olaraq «daşkəndli ağalar» adlandırmışdı. Onlar yerli əhalini soyub-talayırdılar. Şəhərin illik əmtəə dövriyyəsi idxal üzrə 25 milyon pud, ixrac sahəsində isə 15 milyon pud təşkil edirdi. Rusiyadan Daşkəndə, eləcə də digər şəhərlərə gətirilən nisbətən ucuz olan fabrik-zavod məmulatları ənənəvi yerli istehsala mənfi təsir göstərir, xırda istehsalçılar bilavasitə satış bazarlarına çıxa bilmədiklərindən onlar vasitəçilik edən möhtəkirlərdən /gəlmə ruslardan və qismən yerli varlılardan/ asılı vəziyyətə düşürdülər. Yerli sənətkarlıq tənəzzül dövrü keçirirdi. XIX əsrin 60-cı illərində yalnız Daşkənddə 300-dən çox boyaqçı müəssisəsi olduğu halda, əsrin sonunda bu, 20-yə enmişdi. 1871-ci ildəki 341 gön-dəri müəssisəsindən 1892-ci ildə 66-sı qalmışdı. Bu proseslə yanaşı iri müəssisələr də inşa edilirdi. Rus və xarici kapitalın dağ-mədən sənayesinin inkişafında rolu böyük idi. Əsrin sonuna yaxın Daşkənddə müxtəlif istehsal sahələrində 50-yə qədər iri sənaye müəssisəsi var idi. Türküstanda təkcə Daşkənd şəhəri məhdud şəkildə olsa da, özünüidarədən istifadə edirdi. 1895-ci ildə Daşkənd şəhərində dörd bankın – Dövlət, Volqa-Kama, Rus-Çin və Mərkəzi Asiyanın şöbələri, həmçinin Daşkənd qarşılıqlı kredit cəmiyyəti var idi.

Əhalinin sayı və sənayenin inkişafına görə Kokand Türküstan diyarında ikinci şəhər hesab edilirdi. Kokand həm də xanlığın paytaxtı olmuşdu. Kokand Fərqanə vilayətinin ticarət-sənaye mərkəzi və Qərbi Çinlə ticarət üzrə tranzit məntəqəsi olmuşdu. 90-cı illərin axırlarında Kokandda 2487 fəhləsi olan 40 müəssisə var idi. Sənayedə əsas yeri pambıqtəmizləmə zavodları tuturdu.

Fərqanə vilayətinin inzibati mərkəzi Yeni Margilan idi. Bu dövrdə şəhər ticarət-sənaye əhəmiyyəti kəsb etməmişdi.

Eyni adlı vilayətin inzibati mərkəzi olan Səmərqənd şəhəri Mərkəzi Asiyanın ən qədim şəhərlərindən biri idi. Səmərqənd şəhərinin rus əhalisinin məskunlaşdığı hissə 1871-ci ildə salınmışdı. Şəhərin köhnə hissəsi nadir tarixi abidələrlə zəngin idi. 90-cı illərdə şəhərdə 50 müəssisə işləyirdi.

Buxarada çar Rusiyasının protektoratlığı yaradıldıqdan sonra ilk illərdə daxili idarəçilik bir müddət köhnə qayda ilə davam etdirilmişdi. XIX əsrin 80-ci illərində kapital axını və ticarətin geniş-

lənməsi Buxaranın inkişafına təsir etmişdi. Zakaspi dəmiryol xəttinin Cərco, Buxara və Səmərqəndə çatması Buxaranın inkişafında mühüm rol oynamışdı. İlk rus gəlmələri ilə bağlı olaraq çox da böyük olmayan Yeni Buxara /Kaqan/, Cərco, Termez və Kərki şəhərləri meydana gəlmişdi. Yeni Buxara və Cərco inzibati mərkəzlər idi. Cərco, Termez və Kərkini hərbçilər idarə edirdilər.

Xivə, Yeni Ürgənc, Xəzərəsp, Xoceyli və sair bu kimi şəhərlərdə metal emalı sexləri, dəri istehsalı və toxuculuqla məşğul olurdular.

**Sənətkarlıq.** Kapitalist tipli müəssisələrin yaranmasına baxmayaraq, xeyli köhnə kustar istehsal və sənətkarlıq sahələri saxlanılırdı. Sənətkarlıq ticarət və əkinçilikdən tam ayrı deyildi. Sənətkarlar adətən bazarlarda öz məhsullarını satırdılar. Rusiyanın fabrik-zavod sənayesinin rəqabətinə baxmayaraq, yerli bazarın tələbatının ödənilməsində sənətkarlıq hələ mühüm rol oynayırdı. Təsərrüfat və məişətdə lazım olan bir çox əşyalar: paltar, ayaqqabı, xalça, gil və metal qablar, kətmən, bıçaq, sandıq, yəhər, zinət əşyaları və s. sənətkarlar tərəfindən hazırlanırdı.

Türkmənistanda balıq vətəgələri mövcud idi. XIX əsrin 90-cı illərində xalça istehsalı daha da artmışdı. Aşqabad, Mərv və Zakaspi vilayətinin başqa şəhərlərində xalça alan ticarət agentlikləri həm daxili - Rusiya, həm də xarici - Paris, Berlin, London bazarlarında onun satışını təşkil edirdilər. Əgər 1891-ci ildə Krasnovodsk qəzasında 94 min manatlıq xalçaçılıq məmulatı satılmışdısa, 1895-ci ildə həmin məbləğ 128 min manatdan çox olmuşdu. Lakin buna baxmayaraq, Rusiyadan gətirilən sənaye malları /ipək və yun parçalar, dəmir, çuqun, mis, qızıl, gümüş və s./ yerli məhsulların bəzilərindən ucuz başa gəldiyinə görə və kustar sənayenin rəqabətə tab gətirə bilməməsi onu zəiflədib aradan çıxarırdı.

**Ticarət.** Türküstanın iqtisadi həyatında ticarət mühüm rol oynayırdı. Diyarın Rusiya və digər qonşu ölkələrlə geniş ticarət əlaqələri var idi. Rusiyanın mərkəzi quberniyaları ilə ticarətin genişlənməsində Mərkəzi Asiya dəmiryolunun əvəzsiz rolu olmuşdu. 1900-cu ildə Mərkəzi Asiya dəmiryolu ilə 5 milyon pud məhsul daşınmışdı. Aparılan yüklərin 60 faizi pambıq, meyvə qurusu, xam ipək, çiyid yağı, yun, dəri və s. olmuşdu. Mərkəzi Asiyaya gətirilən məhsullar isə buğda, çay, meşə materialı, pambıq, yun parçalar,

qənd, metal məmulatlardan və s. ibarət idi. Əgər 1862-ci ildə Rusiyanın Mərkəzi Asiya və Qazaxıstanın bazarlarında ticarət dövriyyəsi 6,6 milyon manat idisə, 1896-cı ildə bu, 70,2 milyon manata çatmışdı. 1868-ci ildə ticarət sahəsində olan bütün maneələr demək olar ki, aradan qaldırılmışdı. Qazaxıstanın Uil, Kuyandin, Çir, Akmolinsk, Atbasar yarmarkalarında rus tacirləri ticarətdə böyük rol oynayırdılar. Şəhərlərdə ticarət pul və aullarda isə məhsul mübadiləsi ilə də aparılırdı. Ticarətin əsas sahələri İvanov, Pervuşin, Filatov, Kamensk qardaşları və b. ticarət firmalarının əlində olduğu halda, orta və xırda ticarət yerli tacirlərin əlində idi.

Hindistan, Əfqanıstan, İran və b. ölkələrlə ticarət əlaqələrinin genişlənməsi ilə bağlı olaraq 1890-cı ildə Türküstan gömrük dairəsi təşkil edilmişdi. Aşqabad, Buxara, Səmərqənd, Kokand, Xivə və b. gömrük məntəqələri yaradılmışdı.

XIX əsrin 80-ci illərində Zakaspi vilayətində Kudrin və K$^0$ ticarət-sənaye şirkətinin şöbəsi açılmışdı. Tezliklə şirkətin kontor və mağazaları bütün Mərkəzi Asiyada, o cümlədən Daşkənd, Kokand, Cərco, Mərv, Kuçan və Məşhəddə /Şimali İran/ yaradılmışdı. Zakaspi vilayətində həmçinin Konşinin ticarət evi, Stuken və K$^0$ şirkətləri fəaliyyət göstərirdi.

XIX əsrin ikinci yarısında Türküstan diyarının sosial-iqtisadi inkişafı ilə əlaqədar qeyd etmək lazımdır ki, bu dövrdə rus kapitalizminin iqtisadi cəhətdən bölgəni mənimsəməsi, ilk növbədə onun aqrar-xammal bazası və müstəmləkəyə çevrilməsi ilə xarakterizə olunur.

Kənd təsərrüfatındakı gerilik, aztorpaqlı və torpaqsız kəndlilərin artması, vergi və mükəlləfiyyətlərin çoxalması, feodal-kapitalist istismarı və milli-müstəmləkə zülmü kəndlilərin narazılığını getdikcə artırırdı. Kəndlilərin çıxışları, bir qayda olaraq, kortəbii xarakter daşıyırdı.

Çar hökuməti Türküstanda əkinçilikdə süni suvarma sisteminin böyük əhəmiyyətə malik olduğunu başa düşsə də, bu sahədə heç bir iş görməmişdi.

Rus sənayesi ilə rəqabətdə minlərlə sənətkar istehsaldan ayrılmalı olmuşdu. Regionu aqrar-xammal bazası kimi saxlamaq üçün çarizm toxuculuq sənayesinin inkişafına maneçilik törədirdi.

## IV FƏSİL

# VOLQABOYU, SİBİR VƏ KRIMDA 60-70-Cİ İLLƏRİN BURJUA İSLAHATLARI. KAPİTALİZMİN İNKİŞAFI.

## § 1. SOSİAL - İQTİSADİ VƏZİYYƏT

Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Sibir və Krımın Rusiyaya qatılması bu regionların iqtisadi həyatını Rusiyanın iqtisadiyyatı ilə bağlamışdı. Təhkimçilik hüququnun ləğvi ərəfəsində bütün Rusiya üçün xarakterik olan sosial-iqtisadi vəziyyət əsasən Volqaboyu, Sibir və Krımda da mövcud idi.

Kazan quberniyasında təhkimçiliyin böhranı və kapitalist təsərrüfat formasının inkişafı açıq şəkildə özünü büruzə verirdi. Sənayedə təhkimçilik əməyinə əsaslanan dövlət, votçina və posession manufakturaların tənəzzül etməsi, yaranmaqda və getdikcə möhkəmlənməkdə olan kapitalist tipli müəssisələrdə özünü göstərirdi. İri kapitalist müəssisələri meydana gəlirdi. Bunlardan Krestovnikov qardaşlarının sabun istehsalı /1855/ və Volqada Spassk tərsanəsindəki mexaniki gəmi təmiri zavodlarını /1858/, Alafuzovların dəri və toxuculuq fabrikini /1860/ və b. qeyd etmək olar. Bu fabrik və zavodlarda muzdlu əməkdən istifadə edilir, maşın və mühərriklər tətbiq olunur, əmək bölgüsü təcrübəsinə keçilirdi. XIX əsrin 50-ci illərinin axırlarında Volqa və Kamada 221 gəmi üzürdü. Kəndlilərin əsas istehsalçı olaraq /bütün əhalinin 94 faizi/ qalmalarına baxmayaraq, iri şəhərlərin əhalisi artmışdı. Kənddə əmtəə-pul münasibətlərinin inkişafı natural təsərrüfata zərbə endirir, daxili bazarın daha da genişlənməsi və iri istehsal sahələri üçün /ağac emalı, dəri, mahud və s./ geniş şərait yaradırdı. Lakin feodal təhkimçilik qaydaları bütün sahələrdə, o cümlədən şəhərlərdə sənaye və ticarətin daha da inkişaf etməsinə maneçilik törədirdi.

Kənd təsərrüfatı böhran keçirirdi. XIX əsrin ilk 60 ili ərzində kənd əhalisinin sayının 88 faiz artmasına, mülkədar və kəndlilərin

taxıl satışını 14 faiz yüksəltməsinə, kənd təsərrüfatında təbəddülatın baş verməsinə, kəndlilərin ictimai təbəqələşmə prosesinin güclənməsinə baxmayaraq, feodal-təhkimçilik qaydaları yenə də demək olar ki, əvvəlki kimi davam edirdi. Bütövlükdə mülkədar və kəndli torpaqlarında kənd təsərrüfatı işləri köhnə metodlarla aparılırdı. Regionun kənd əhalisinin çoxunu təşkil edən dövlət kəndlilərinin də vəziyyəti ağır idi. Adambaşına düşən pay torpağının miqdarı azaldılır, ildən-ilə ödənclərin həcmi artırdı. İslahat ərəfəsində ümumi böhran daha dərinləşmişdi. Təkcə 1855-1860-cı illərdə Kazan quberniyasında kəndlilərin 30 iri çıxışı olmuşdu.

Bu ümumi sosial-iqtisadi proses Başqırdıstanda da müşahidə edilirdi. Kənd təsərrüfatında feodal təsərrüfatının böhranı və dağılması, kapitalist münasibətlərinin inkişafı Rusiyanın mərkəzi quberniyalarına nisbətən xeyli zəif idi. Mülkədarlar kapitalist münasibətlərinin inkişafı prosesində kəndlilərin istismarını gücləndirirdilər. Bu məqsədlə onlar təhkimli kəndlilərin əksəriyyətini biyar təsərrüfatına keçirirdilər. 1860-cı ildə Ufa qəzasında biyar kəndliləri 96,9 faiz təşkil edirdilər. Bu da narazılığın artması və kəndli çıxışlarına səbəb olurdu. 1859-cu ildə Başqırdıstanda baş vermiş kəndli çıxışlarının yatırılmasında iştirak edən hərbi hissələr çar II Aleksandrın təşəkkürünü almışdı.

Başqırdıstanın fabrik-zavod sənayesi feodal-təhkimçilik quruluşunun qalması nəticəsində hələ də kapitalist inkişaf yoluna düşə bilmirdi. XIX əsrin ortalarında Orenburq quberniyasında hər il ticarətin aşağı düşməsi iqtisadiyyatda geriliyin təzahürünün nəticəsi idi.

Çuvaşiyada təhkimçilik məhsuldar qüvvələrin inkişafında buxova çevrilmişdi. Əhalinin əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu. XIX əsrin ikinci rübündə Çuvaşiyadakı 122 mülkədar malikanəsinin 47-də biyar, 16-da töycü, 59-da qarışıq töycü və biyar sistemi hökm sürürdü. Kiçik malikanəsi olan bəzi zadəganlar öz təsərrüfatlarının gəlirini artırmaq üçün qismən muzdlu əməkdən istifadə edir, digərləri isə torpaqları kəndlilərə və tacirlərə icarəyə verirdilər. Lakin bu, mülkədar təsərrüfatının tənəzzül etməsinin qarşısını ala bilmədi. Artıq istehsalın manufaktura forması muzdlu işçi qüvvəsi tələb edirdi. İri mülkədar təsərrüfatlarında mahud fabriki, kərpic, ağac emalı və başqa müəssisələr yaradılırdı. Çuvaşiyanın

şimal hissəsində isə bir çox orta və xırda sənaye müəssisələri Kazan və Nijni-Novqorodun kapitalist sənayesinin inkişafı ilə rəqabətə tab gətirə bilmədiklərinə görə öz fəaliyyətlərini dayandırmışdılar.

İqtisadiyyatda əsas rolu şəhər sənətkarlığı oynayırdı.

Altayın kənd təsərrüfatı 1861-ci ilə kimi demək olar ki, natural xarakterdə idi. Əsas səbəb gümüş və qızıl filizi mədənlərinə diqqətin artması, kəndin isə ancaq zavod və mədənləri işçi qüvvəsi və ərzaqla təmin etməsinə yönəldilməsi nəticəsində kənd təsərrüfatının ikinci dərəcəli bir sahəyə çevrilməsi idi. Altayda 42 milyon desyatin yararlı torpaq fondundan 1858-ci ildə ancaq 5,9 milyon desyatini əkin yeri idi. Natural təsərrüfat, əkinçilik mədəniyyətinin aşağı olması, texnikanın geriliyi üstünlük təşkil edirdi. Altayda qızıl və gümüş çıxarılmasından ildə 1 milyon manatdan çox gəlir götürülürdü. 1856-1860-cı illərdə hər il 43,5 pud qızıl çıxarılmışdı. XIX əsrin axırlarında Altayda kapitalizm elementləri özünü göstərirdi.

Yakutiyada kəndlilərin çoxu aztorpaqlı idi. Ayrı-ayrı qolçomaq təsərrüfatlarının olmasına və kapitalist elementlərinin yaranmasına baxmayaraq, xırda, natural təsərrüfat və feodal-patriarxal münasibətlər əvvəlki kimi qalmaqda idi.

Krımın tarixi inkişafının xüsusiyyətləri və təbii-coğrafi şəraiti onun kəndlərində əmtəə-pul münasibətlərinin xeyli sürətlə inkişaf etməsinə səbəb olmuşdu. Rusiyanın mərkəzi quberniyalarına nisbətən burada kənd təsərrüfatı kapitalizm inkişafı yoluna daha tez düşmüşdü. İslahat ərəfəsində Krımın sənayesinin inkişafı sahəsində xeyli irəliləyiş olmuşdu.

Krım müharibəsi regionun təsərrüfat həyatına böyük zərbə vurmuşdu. Yevpatoriya, Perekop və Simferopol qəzalarında sosial-iqtisadi vəziyyət xüsusilə ağırlaşmışdı. Əhalinin imkanlı hissəsinin Krımı tərk etməsilə əlaqədar olaraq 300-dən çox yaşayış məskəni və xeyli torpaq sahələri boş qalmışdı. Rusiyanın mərkəzi quberniyaları və xaricdən buraya köçürülən əhaliyə torpaq sahələri paylanmışdı. Nəticədə 1897-ci ildə köçürülənlərin sayı 130 minə çatmışdı ki, bu da yarımada əhalisinin 25 faizini təşkil edirdi.

Göründüyü kimi, islahatdan əvvəlki sosial-iqtisadi inkişaf səviyyəsinə görə türk xalqları nəinki Mərkəzi Rusiya ilə müqayisədə geridə qalırdı, eyni zamanda bu xalqların özləri də bir-birindən

xeyli fərqlənirdilər. İslahat isə Rusiya kəndlilərinin uzun illərdən bəri təhkimçiliyə qarşı mübarizəsinin «əlavə məhsulu» kimi meydana çıxmışdı.

## § 2. BURJUA İSLAHATLARININ HƏYATA KEÇİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Rusiyada təhkimçiliyin ləğvi haqqında 1861-ci il 19 fevral Əsasnaməsi ölkənin iqtisadiyyatı və siyasi quruluşunu kapitalizm təməli üzərinə keçirdi. İslahata əsasən kəndli şəxsən azad edilirdi. Mülkədar artıq onun üzərində ağalıq və həm də şəxsi həyatına müdaxilə edə bilməzdi. Kəndli ümumi vətəndaşlıq hüquqları əldə etmişdi. Lakin bu «azadlıq» bütün kəndlilərə aid edilməmişdi. Kəndlilərin xeyli hissəsi «müvəqqəti mükəlləfiyyətli» vəziyyətdə saxlanır, biyar üçün işləməyi davam etdirirdilər. Azad olunmuş kəndlilər isə cüzi miqdarda «bağışlanmış pay torpağı» alırdılar. Kəndlilərin qalan hissəsi çox çətinliklə pul verib azad olurdu. Mülkədarların kəndlilərə «könüllü» razılıq əsasında verdiyi pay torpağının sahəsi imperiyanın müxtəlif yerləri üçün 3 desyatindən 8 desyatinədək nəzərdə tutulurdu. Əgər «azad edilmə» vaxtı kəndlinin ixtiyarında müəyyən edilmiş həcmdən artıq torpaq olardısa, onda mülkədarların bu artığı kəsib götürməyə ixtiyarı var idi. Öz pay torpaqlarını pulla alanadək kəndlilər mülkədarların xeyrinə ya töycü verməli, ya da biyara getməli idilər. Onlar həm də «müvəqqəti mükəlləfiyyətli» adlanırdılar. Əvvəlki vergilərin ödənilməsi və mükəlləfiyyətlərin daşınmasını müvəqqəti hal hesab edirdilər. Kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyəti 3 il davam edə bilərdi. Əslində isə mülkədar kəndlərində bu vəziyyət 20 il, ölkənin ucqarlarında isə daha çox davam etmişdi. Mülkədar və kəndlinin «könüllü» razılığı əsasında kəndlinin pay torpağını alması üçün hökumət «ödənc əməliyyatı» təşkil edirdi. Kəndli əvvəlcədən mülkədara pay torpağı dəyərinin 20-25 faizini nağd pulla verməli idi. Hökumət mülkədara ödənc pulunu birdəfəlik əldə etmək imkanı yaratmaq üçün kəndlinin əvəzinə ona pul verirdi, kəndli isə həmin borcu 49 il müddətinə ildə 6 faiz üstünə gəlmək şərtilə dövlətə qaytarmalı idi. Ödənc əməliy-

yatı nəticəsində kəndlilər aldıqları torpaq üçün torpağın həqiqi qiymətindən 5 dəfə artıq pul verməli olurdular.

Rusiyanın mərkəzi quberniyalarına nisbətən milli ucqarlarda 1861-ci il 19 fevral islahatı özünəməxsus şəkildə həyata keçirilmişdi. İşğal illəri və sonrakı dövrlərdə çar Rusiyası türk xalqlarının ərazilərində hakimiyyətini möhkəmləndirmək üçün buraya rus əhalisini köçürmüşdü. Köçürülən kəndlilər münbit torpaqlarda yerləşdirilmişdilər. İslahat zamanı isə həmin torpaqlar yenə də onların əlində saxlanılmışdı.

1861-ci il islahatı Rusiyanın ucqar vilayətlərində daha gec və xüsusi əsasnamələr üzrə həyata keçirilmişdi. Burada feodal-asılı və təhkimçilik münasibətlərinin hələ də qalması inkişafa buxov olaraq qalırdı. Buna baxmayaraq, çar hökuməti türk xalqları yaşayan regionlarda kəndli islahatının keçirilməsini ləngidirdi.

Rusiyanın mərkəzi quberniyalarına nisbətən Başqırdıstanda təhkimli kəndlilər mülkədarlardan daha az asılı idilər. Təhkimçilik hüququ ləğv edilən zaman Ufa və Orenburq quberniyalarının 105 mindən bir qədər çox kəndlisi şəxsi azadlıq əldə edərək öz təsərrüfatları ilə məşğul olurdu.

Çuvaşiyada mülkədar və xanədan kəndlilərinin pay torpaqları azalmışdı. Çünki kəndlilərə nəzərdə tutulduğundan az torpaq verilmişdi.

Kəndli islahatı Sibir kəndlilərinin əsas hissəsini əhatə etməmişdi. Amma təhkimçiliyin ləğvi Sibirə köçürülənlərin sayca artması və kapitalizmin eninə inkişafına təsir etmişdi.

Krımda təhkimli kəndlilərin sayı az olmuşdu. 1861-ci ildə kənd əhalisinin 5,1 mini təhkimli kəndlilərdən ibarət idi. Krımda təhkimli kəndlilərin az olması təhkimçilik hüququnun ləğvindən sonra yarımadanın təsərrüfat həyatında böyük dəyişikliklər edilməsinə imkan vermədi. Amma təhkimçilik hüququnun ləğvi Krımın iqtisadi inkişafına böyük təsir etmişdi.

Rusiyanın mərkəzi quberniyaları və milli ucqarlarından fərqli olaraq, türk xalqlarının yaşadıqları regionlarda - Mərkəzi Asiyada 1861-ci il islahatı həyata keçirilmədi. Ona görə ki, bu dövrdə Mərkəzi Asiyanın Rusiya tərəfindən işğalı hələ başa çatdırılmamışdı.

Türk xalqları ərazilərində həyata keçirilmiş torpaq islahatı sahibkar kəndlilərin böyük hissəsinin torpaqsızlaşması ilə nəticələn-

mişdi. Çünki kəndlilər vergi və digər borcları ödəyə bilmədiklərinə görə mülkədar və qismən qolçomaqlar kəndlilərin pay torpaqlarını icarəyə götürür, bu torpaqlarda həmin kəndlilərin özlərini işlədirdilər. İcarə müddəti qurtardıqdan sonra isə mülkədarlar bu torpaqları geri qaytarmırdılar. 1861-1863-cü illərdə Simferopol və Feodosiya qəzalarında bu kimi haqsızlıqlara qarşı 10 yaşayış məskənində kəndli çıxışları baş vermişdi.

Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra bir sıra burjua islahatları da həyata keçirildi. Onlar zemstvo, şəhər, məhkəmə, hərbi və s. islahatlardan ibarət idi. Bu islahatlar bütün Rusiyada, eyni zamanda Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Sibir və Krımda baş verən sosial-iqtisadi dəyişikliklərlə, feodal münasibətlərinin kapitalist istehsal münasibətləri ilə əvəz olunmağa başlaması ilə bilavasitə bağlı idi.

1864-cü il yanvarın 1-də «Quberniya və qəza zemstvo idarələri haqqında» qanun verilmişdi. Əsasnaməyə görə, zemstvo idarələri bütün silklərin nümayəndələrindən ibarət olmalı idi. Seçki hüququ üçün əmlak senzi qalırdı. «Bütün silklərdən olan» zemstvolara seçkilər burjuaziya nümayəndələrilə birlikdə böyük əksəriyyət təşkil edən mülkədarların rəhbər rolunu təmin edirdi. İslahata əsasən, yeni yerli idarə orqanları olan qəza və quberniya zemstvo idarələri yaradılırdı. Zemstvo idarəsinə əvvəllər yalnız imtiyazlı silkə aid olanların seçki hüququ var idisə, yeni Əsasnaməyə görə, hamı, yəni vergi verən əhali seçkilərdə iştirak edə bilərdi. Vergini ödəməyənlər seçkilərdə iştirak edə bilməzdilər. Zemstvo idarəsi kiçik təsərrüfat işlərilə məşğul olmaq imkanına malik idi. Zemstvolara əmlakın sığorta olunması, yerli ticarət və sənaye müəssisələri, məktəb, xəstəxana, həbsxana və sairələrə «qayğı» göstərmək həvalə olunurdu. Zemstvo idarəsi verginin yığılması işinə də baxırdı. Lakin zemstvolar hər yerdə tətbiq edilmədi. Sibir, Cənubi Qafqaz və Mərkəzi Asiyada zemstvo idarələri yaradılmamışdı. Zadəgan-mülkədar torpaq sahibliyi olmayan, yaxud əhəmiyyətsiz dərəcədə olan bir sıra quberniyalar zemstvo idarələrindən məhrum edilmişdilər. Orenburq quberniyasında zemstvoların yaradılması 1912-1913-cü illərə qədər uzadılmışdı. Lakin buna baxmayaraq, zemstvo ölkənin kapitalistcəsinə inkişafına köməklik göstərmişdi.

Məhkəmə islahatı haqqında Əsasnamə 1864-cü il noyabrın 20-də təsdiq edilmişdi. Yeni məhkəmə qanununa görə, bütün silklərin formal bərabərliyi, məhkəmənin açıqlığı, hakimlərin müstəqilliyi və s. əsasında qurulurdu. Yüksək əmlak senzi müəyyən edildiyindən əhalinin xeyli hissəsi məhkəmə iclasçıları sırasından kənar edilirdi. Rusiyada hakimlər seçildiyi halda, ucqarlarda onlar təyin olunurdular. Bu islahat bütün ölkədə eyni vaxtda həyata keçirilməmişdi. Məsələn, Çuvaşiyaya məhkəmə islahatı XIX əsrin 70-ci illərinin əvvəllərindən şamil edilmişdi.

1864-cü ildə «İbtidai xalq məktəbləri haqqında Əsasnamə» həyata keçirilməyə başladı. Məktəb islahatı kilsə-prixod və dini-missioner məktəblərlə yanaşı dünyəvi məktəblərin də açılmasına imkan verirdi. Müəllimlərin və vəsaitin az olması zemstvo məktəblərinin genişlənməsini ləngidirdi. Tədris işinə rəhbərlik isə hökumət orqanlarının əlində qalırdı. Bu proses türk xalqlarının tədris işində də özünü göstərmişdi.

1870-ci il 16 iyun şəhər Əsasnaməsi də müəyyən məhdudiyyətlə tətbiq olunurdu. Şəhər özünüidarəsinin səlahiyyətlərinə şəhərin abadlığı, ticarətə himayəçilik etmək, yanğından mühafizə tədbirləri, səhiyyə və maarifin ehtiyacları qayğısına qalmaq və s. daxil idi. İslahat bütün ölkədə eyni vaxtda həyata keçirilməmişdi. Bunun səbəbini guya əhalinin islahatın keçirilməsinə hazır olmaması və əlavə xərclərlə izah edirdilər. Əsasnaməyə görə şəhər idarələri və dumalara seçkilərdə silki məhdudiyyət aradan qaldırılmışdı. Amma Dumaya deputatlar 4 il müddətinə əmlak senzi əsasında seçilirdilər. Seçkilərdə 25 yaşına çatmış, tərpənməz əmlakı, ticarət və sənaye müəssisəsi olan, iki ildən az olmayaraq həmin şəhərdə yaşayan, həmçinin idarə, təşkilat, kompaniya, cəmiyyət, kilsə nümayəndələri iştirak edə bilərdilər. Kirayənişinlər seçki hüququndan məhrum edilmişdilər. Çar hökuməti çalışırdı ki, şəhər özünüidarə orqanlarında tatar, başqırd və başqa rus olmayan xalqların nümayəndələri maksimum az təmsil olunsunlar. Məsələn, şəhər özünüidarəsində qeyri-xristianların sayı üzvlərin yarısından çox olmamalı idi. Ümumiyyətlə, «Şəhərlər haqqında əsasnamə» Kazan, Ufa, Orenburq, Tomsk, Sevastopol şəhərlərində daha məhdud şəkildə tətbiq edilmişdi.

1874-cü ildə Rusiyada hərbi mükəlləfiyyət haqqında nizamnamə təsdiq edildi. Nizamnaməyə əsasən rekrut toplanışları əvəzinə

ölkənin 20 yaşına çatmış, silkindən asılı olmayaraq bütün kişi əhalisi hərbi mükəlləfiyyət yerinə yetirməli idi. Əvvəlki 25 il əvəzinə əsgərlər üçün həqiqi xidmət quru qoşunlarda 6, donanmada 7 il müəyyən olunmuşdu. Millətlərin xeyli hissəsinə /islam, iudaizm və bəzi başqa dinlərə mənsub olanlar/ hərbi mükəlləfiyyət aid deyildi.

Ümumiyyətlə, çarizmin milli ucqarlarda həyata keçirdiyi islahatlar əsasən müstəmləkə hakimiyyətini möhkəmləndirmək məqsədi güdürdü. Eyni zamanda, 60-70-ci illərin burjua islahatları kapitalizmin inkişafında mütərrəqqi rol oynamışdı. Şəhər və kəndlərdə burjua təbəqəsi yaranır və inkişaf edirdi. Lakin əvvəlki kimi hakimiyyət yenə də zadəgan-mülkədarların əllərində qalırdı.

## § 3. KAPİTALİZMİN İNKİŞAFI VƏ ONUN NƏTİCƏLƏRİ

İslahatdan sonrakı dövrdə Rusiyada kapitalizmin inkişafı milli ucqarların, o cümlədən türk ölkələrinin təbii sərvətlərini mənimsəməyə yönəldilmişdi. Həmin müstəmləkə regionlarında, o cümlədən Tatarıstanda kapitalist münasibətlərinin meydana gəlməsi və genişlənməsi, öz növbəsində ölkənin ümumi iqtisadi inkişaf yoluna cəlb olunması üçün müəyyən şərait yaradırdı.

XIX əsrin ikinci yarısında Tatarıstanın iqtisadiyyatında, eyni zamanda kənd təsərrüfatında, kapitalist münasibətlərinin inkişafı bütövlükdə mütərəqqi səciyyə daşıyırdı. Lakin Mərkəzi Rusiya quberniyalarına nisbətən türk xalqları yaşayan regionlarda, o cümlədən Tatarıstanda kənd təsərrüfatında kapitalizm nisbətən ləng inkişaf edirdi. İslahatdan sonra həm də sosial-iqtisadi vəziyyət mürəkkəb və ziddiyyətli olmuşdu. Lakin Volqa və Kama çaylarında gəmiçiliyin genişləndirilməsi Tatarıstanın kənd təsərrüfatı məhsullarına Rusiya bazarında olan tələbatın ödənilməsini nisbətən asanlaşdırmışdı. Buraya az miqdarda olsa da daha mükəmməl əmək alətləri və kənd təsərrüfatı maşınlarının gətirilməsi ticarət əkinçiliyinin inkişafına kömək edirdi. Əhalisinin çox hissəsi ticarətlə məşğul olan Kazan quberniyasında ticarət daha da genişlənirdi.

İmperiyada taxıla olan tələbat taxılçılığın inkişafına təkan verirdi. 1843 - 1886-cı illərdə Kazan quberniyasında əkin sahələri və dənli bitkilər yığımı 2-2,5 dəfə çoxalmışdı. Bazara çıxarılan məhsullar da artırdı. İslahatdan sonrakı 40 ildə ümumi taxıl istehsalı 54 milyon puddan 72 milyon puda çatmış, yaxud 33 faiz artmışdı. Əkinçilikdə muzdlu əməyin tətbiqi sahələrinin genişlənməsi natural təsərrüfatın dağılması prosesini gücləndirmişdi. Taxılçılıq kənd təsərrüfatının aparıcı sahələrindən birini təşkil edirdi. Taxılın çox hissəsi Rusiyanın mərkəzi quberniyalarına və xaricə göndərilirdi. Satlığa gedən mallar içərisində kənd təsərrüfatı məhsulları mühüm yer tuturdu. Tərəvəzçilik və bağçılıq da inkişaf edirdi. İslahatdan sonrakı dövrdə, xüsusilə XIX əsrin axırıncı on ilində Tatarıstanda maldarlıq, ələlxüsus qoyunçuluğa diqqət artırılmışdı. Əmtəə maldarlığının xüsusi çəkisi getdikcə artırdı.

Təsərrüfatın idarə edilməsi formalarında da dəyişikliklər olmuşdu. Mülkədar təsərrüfatları yenə əvvəlki kimi son dərəcə az idi. Mülkədarların çoxu öz torpaqlarını kəndlilərə müəyyən şərtlərlə icarəyə verməyi üstün tuturdu. Eyni zamanda kapitalist qaydaları əsasında qurulan bir sıra təsərrüfatlar meydana gəlmişdi. Burada muzdlu əməkdən, təkmil istehsal alətlərindən, bəzən isə kənd təsərrüfatı maşınlarından istifadə olunurdu. Burjuaziya nümayəndələri, rus zadəganları və ayrı-ayrı mülkədarlara məxsus olan bu cür təsərrüfatların sayı o qədər də çox deyildi. Kapitalist metodlarından daha çox yerli kəndlilərin varlı-qolçomaq təbəqəsinin, xüsusilə ruslardan ibarət olan gəlmələrin təsərrüfatlarında istifadə edilirdi. Lakin bütövlükdə kapitalist əsasları üzərində qurulmuş təsərrüfatların sayı böyük deyildi. Kəndlilərin mülkədarlar və dövlət tərəfindən istismar edilən xeyli hissəsi öz təsərrüfatını köhnə qayda ilə davam etdirirdi.

Beləliklə, islahatdan sonrakı dövrdə Tatarıstanın kənd təsərrüfatında kapitalist münasibətləri inkişaf etməyə başlamışdı. Lakin Tatarıstan kəndində feodal münasibətləri üstün yer tuturdu. Kəndlilərin ağır istismar edildiyi, çarizmin müstəmləkə zülmünün hökm sürdüyü, kənd təsərrüfatı texnikasının primitivliyi kənd təsərrüfatının ümumi geriliyini ləğv etməyə imkan vermirdi.

İslahatdan sonrakı Tatarıstan kəndlilərinin əksəriyyəti dövlət torpaqlarında yaşayırdı. Dövlət kəndlilərinin istifadəsində olan torpaqları mülkədarların ələ keçirməsi halları artmışdı. Mülkədarlarla əlbir hərəkət edən çar məmurları isə buna göz yumurdular. XIX əsrin 60-90-cı illərində çarizmin köçürmə siyasətinin geniş miqyas alması yerli kəndlilərin torpağa ehtiyacını daha çox kəskinləşdirirdi.

Dövlət kəndliləri vergi yükünün ağırlığından əzab çəkirdilər. Vergiləri vaxtında verə bilmədiklərinə görə onların dövlətə borcu ildən-ilə artırdı. Mülkədar torpaqlarında yaşayan kəndlilərin vəziyyəti daha ağır idi. Onların pay torpağının sahəsi get-gedə daha da azalırdı. 0n minlərlə kəndli aztorpaqlılıq və torpaqsızlıqdan əzab çəkir, mülkədar və qolçomaqlar isə böyük torpaq sahələrinə malik idilər. Kəndlilər əsarətli şərtlərlə dövlət və mülkədarlardan torpaq icarəyə götürməyə məcbur olurdular. Mülkədar torpaqlarında yaşayan kəndlilər mülkədarlar və dövlətin xeyrinə bir çox mükəlləfiyyət icra etməli idilər.

Tatarıstan kəndində ictimai təbəqələşmə prosesi tədricən güclənirdi. Bir tərəfdən kəndli kütlələrini istismar edən varlı kəndlilər-qolçomaqlar, digər tərəfdən isə yoxsul və muzdurlar meydana gəlirdi. Qolçomaqlar çox zaman borc əvəzinə yoxsul kəndlilərin əmlakını əlindən alır və həmin kəndliləri özləri üçün işləməyə məcbur edirdilər. Çar məmurları qolçomaqlara kömək edir, kənddə baş verən münaqişələr qolçomaqların xeyrinə həll olunurdu.

Sələmçilər kənddə getdikcə daha çox fəallıq göstərirdilər. Onlar pula kəskin ehtiyacı olan kəndlilərə yüksək faizlə borc verir, sonra isə onlardan toplanmış məhsulu ucuz qiymətə alırdılar.

Kənddə gedən ictimai təbəqələşmə prosesi nəticəsində kənd burjuaziyası və kənd təsərrüfatı fəhlələri formalaşırdı. XIX əsrin 80-ci illərinin əvvəllərində Kazan quberniyasının rus kəndlərində kənd burjuaziyası 12 faiz, tatar kəndlərində isə 5,3 faiz təşkil edirdi. Bütün rus kəndlilərinin 39,3 faizi, tatarların 56,8 faizi kənd muzdurları idilər. Kənd təsərrüfatında kapitalizmin inkişafı Prussiya yolu ilə gedərək torpağa sahib olmaqda mühüm rolu mülkədarlar oynamış, əsas kütlə olan kəndlilər isə əzablı və uzun yol keçmişdilər. 80-90-cı illərdə Kazan quberniyasında mülkədar təsərrüfatlarında əkin üçün yararlı sahələrin üçdə ikisində aztorpaqlı kəndlilər

işləyirdilər. Pul verib azad olmaq, çoxsaylı vergi və mükəlləfiyyətlər, siyasi hüquqsuzluq və milli zülm kəndliləri dözülməz hala gətirib çıxarırdı. Bu vəziyyəti vaxtaşırı baş verən quraqlıq və onunla sıx bağlı olan kütləvi aclıq daha da ağırlaşdırırdı. 1863-1893-cü illərdə Kazan quberniyasında belə hallar çox olmuşdu. On minlərlə insanın ölümü ilə nəticələnən 1891-ci ildəki aclıq daha dəhşətli idi.

Mülkədar və çarizm zülmünə kəndin yeni burjua ünsürlərinin zülmü də əlavə olunmuşdu. Zəhmətkeş kəndlilərin onsuz da ağır olan vəziyyəti get-gedə daha çox pisləşirdi. Ağır vergilər vermək məcburiyyətində qalan və ehtiyac içində olan bir çox kəndlilər öz iş qüvvəsini satmağa məcbur olur, kənd təsərrüfatı məhsulları istehsalında və şəhərlərin sənaye müəssisələrində mövsümi işlərlə məşğul olurdular.

Beləliklə, islahatdan sonrakı Tatarıstanın kəndlərində feodal istehsal münasibətlərinin pozulması prosesi güclənmiş, yeni münasibətlər – kapitalist münasibətləri inkişaf etməyə başlamışdı. Lakin feodal istehsal münasibətlərini tədriclə sarsıtmaqda olan kapitalist münasibətləri hələ bütövlükdə kənddə ictimai istehsalın xarakterini dəyişdirə bilməmişdi.

İslahatdan sonrakı Rusiyada, o cümlədən onun ucqarlarında məzlum kütlələrin azadlıq hərəkatı genişlənirdi. Tatarıstan kəndlilərindən müxtəlif inzibati təşkilatlara və məhkəmə orqanlarına minlərlə şikayət ərizəsi gəlirdi. Lakin məhkəmə və inzibati orqanlar bütövlükdə varlıların tərəfində idilər. Məhkəmə xərclərini vermək üçün yoxsul kəndlilərin vəsaiti yox idi.

Belə bir şəraitdə kəndli kütlələri içərisində narazılıq artırdı. XIX əsrin 70-80-ci illərində mülkədar, qolçomaq və çar hökumətinə qarşı Tatarıstan kəndlilərinin mübarizəsi güclənirdi. Kəndlilər vergiləri vermək və mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırır, mülkədar torpaqlarını ələ keçirir, mülkədar-qolçomaqların malikanələrini dağıdır və onları öldürürdülər.

Təhkimçilik hüququnun ləğvindən sonra Rusiyada kapitalist sənayesi və bütövlükdə iqtisadiyyat inkişaf etməyə başlamışdı. Kapitalist münasibətlərinin inkişafı milli ucqarları da əhatə edirdi. Kazan quberniyasının fabrik-zavod sənayesi kapitalizm inkişaf yolu ilə gedirdi. 80-ci illərdə istehsalın təmərküzləşməsilə iri kapita-

list sənaye sahələri yaranırdı. Onlardan ən böyüyü Kazanda Krestovnikov qardaşları və Alafuzovların müəssisələri idi. Daha sonra isə Sveşnikovun çuqunəritmə və M.Ramın kənd təsərrüfatı maşınları istehsal edən zavodları var idi. Sənayenin inkişafı ilə əlaqədar burjuaziya və fəhlələr yaranırdı. Quberniyada sənaye fəhlələrinin orta illik sayı 1861-1870-ci illərdə 5,7 min nəfər olduğu halda, 1891-1900-cu illərdə 20 min nəfərə çatmışdı. Eyni zamanda Kazan, Çistopol, Laişev kimi şəhərlərin də əhalisi çoxalmışdı. Kazan şəhəri fabrik-zavod fəhlələrinin formalaşdığı ən böyük şəhər idi. Ayrı-ayrı illərdə quberniyadakı sənaye fəhlələrinin 70 faizi Kazan şəhərində cəmləşmişdi. 1895-ci ildə Kazan quberniyasında 10 min nəfərədək fəhlənin çalışdığı 140 müəssisə işləyirdi.

Sənaye sahələrinə milli kapital qoyuluşu getdikcə artırdı. Tatar milli burjuaziyası yerli işçi qüvvəsindən istifadə etməyə çalışırdı. Milli burjuaziya fəhlələrin əməyini istismar edirdi. Fəhlə kütləsi bundan narazı idi. Milli burjuaziya yığdığı kapital hesabına yeni xəz, dəri və s. yüngül sənaye müəssisələri açırdı.

Onlar həm də sənaye malları ilə ticarət edirdilər. Tatar tacirlərinin Mərkəzi Asiya ilə sıx ticarət əlaqələri var idi.

Kənddə kapitalist münasibətlərinin inkişafı, şəhərlərin artması, gəmiçiliyin genişlənməsi və dəmiryol çəkilişi ticarətin genişlənməsinə öz təsirini göstərirdi. İslahatdan sonra Kazan quberniyasında rus və tatar tacirlərinə məxsus müəssisələrin ticarət dövriyyəsi iki dəfə artmışdı. Rusiyanın iri ticarət mərkəzləri və xarici ölkələrlə Kazan quberniyasının ticarət əlaqələrinin genişlənməsində Volqa və Kama gəmiçiliyi mühüm rol oynayırdı.

Yerli kapitalistlər öz müəssisələrində Mərkəzi Asiyadan gətirilən xammal hesabına müxtəlif məhsullar hazırlanmasına çalışırdılar. 80-ci illərdə qızıl məmulatı hazırlayan zavod meydana gəlmişdi. Tatarıstanda hazırlanan ət məhsulları Başqırdıstan və Qazaxıstana göndərilirdi. Simbirsk və Saratov quberniyalarında toxuculuq fabrikləri yaranmışdı.

1900-cu ilin məlumatına görə, Kazan quberniyasının böyük müəssisələrində 14 minə yaxın fəhlə çalışırdı. Xırda və kustar sənaye sahələrində işləyən 10 min muzdlu işçi əsasən kəsbkarlardan ibarət idi. Onların müəyyən hissəsini bilavasitə Kazan quberniya-

sından gələnlər təşkil edirdi. Təhkimçilik hüququnun ləğvi, kapitalizmin sənaye və kənd təsərrüfatında inkişafı ilə əlaqədar Tatarıstanda ictimai təbəqələşmə prosesi artmışdı. XIX əsrin sonunda burada kapitalist münasibətlərinin inkişafı sənaye burjuaziyası və fəhlələrin yetkinləşməsinə kömək edirdi.

Sənaye müəssisələrində fəhlələrin ağır şəraitdə işləmələrinə baxmayaraq, onlar çox az əmək haqqı alırdılar. Özbaşınalıq və zorakılığın hökm sürməsi onların vəziyyətini daha da ağırlaşdırırdı. Rus kapitalistləri meşə materialları istehsalı və digər sənaye sahələrini demək olar ki, inhisara almışdılar. Burada fəhlələri köhnə patriarxal həyat şəraitində saxlayırdılar. Onların savadsızlığı və məzlumluğundan istifadə edən rus kapitalistləri fəhlələri kölə vəziyyətinə salmışdılar.

Beləliklə, Tatarıstanın zəhmətkeş kütlələri çarizm və feodal-kapitalistlərin zülmü altında idilər.

XIX əsrin birinci yarısında kənd təsərrüfatı, feodal təhkimçilik sistemi böhran içərisində idi. Feodal münasibətləri kapitalist istehsalının inkişafını ləngidirdi. Təhkimçilik hüququnun ləğvi və burjua islahatlarının həyata keçirilməsi kapitalizmin inkişafı üçün sərbəstlik yaratmışdı. Bu, sənayenin inkişafını genişləndirir və fəhlələrin sayını artırırdı. Kənddə əmtəə-pul münasibətləri yaranır və kəndlilərin sosial təbəqələşməsi prosesi gedirdi.

XIX əsrin ikinci yarısında Rusiyada həyata keçirilən islahatlar Başqırdıstanın iqtisadi həyatında dəyişikliklərə səbəb olmuşdu. Başqırdıstanda kənd təsərrüfatı və sənaye məhsullarının artması, həmçinin su nəqliyyatının genişlənməsi ticarətin inkişafına təkan verirdi. Eyni zamanda kapitalist münasibətlərinin yaranması şəhər əhalisi və yerli varlılar arasında barışmaz ziddiyyətlər yaratmışdı.

Rusiyada kəndli islahatının həyata keçirilməsi kapitalizmin sürətlə inkişafına imkan vermişdi. Rusiyanın tərkib hissəsinə çevrilmiş, iqtisadiyyatı Rusiya ilə üzvi surətdə bağlanmış Başqırdıstan da bu sosial dəyişikliyin, sosial-iqtisadi inkişafın axınına düşmüşdü. Bununla belə, qeyd etməliyik ki, mərkəzi quberniyalara nisbətən müstəmləkələrdə məhsuldar qüvvələrin inkişafı ləng gedirdi.

Rusiyanın başqa müstəmləkə ucqarları kimi, Başqırdıstan da Ümumrusiya təsərrüfat sisteminə qoşulmuşdu. Mərkəzi Rusiyada

sənayenin inkişafı Başqırdıstanda da ticarət, əkinçilik və digər sahələri bir-birilə qırılmaz surətdə əlaqələndirir, həm də biri digəri üçün bazar yaradırdı. Yalnız daxili və xarici bazarla sıx əlaqə nəticəsində iqtisadi sahədə müəyyən inkişaf əldə edilmişdi. XIX əsrin ikinci yarısında inkişaf etməkdə olan Rusiya sənayesinin tələblərinə uyğun olaraq, Başqırdıstanın kənd təsərrüfatında xammal istehsalı, həmçinin mədən və emaledici sənaye sahələrində böyük irəliləyiş müşahidə edilirdi. Başqa sözlə desək, Başqırdıstanın iqtisadiyyatı Rusiya bazarının tələbinə tabe edilmiş və onun başlıca vəzifəsi Rusiya sənayesini xammalla təmin etməkdən ibarət olmuşdu. Buna baxmayaraq, XIX əsrin ikinci yarısında Başqırdıstanın kənd təsərrüfatı və sənayesində kapitalizmin inkişafı diyarda feodal istehsal münasibətlərinin zəifləməsinə böyük təsir göstərirdi.

Əmtəə-pul münasibətlərinin inkişafı və təsərrüfatın qapalılığının ləğv edilməsində dəmiryol çəkilişinin böyük əhəmiyyəti olmuşdu. 1876-cı ildə Samara-Orenburq dəmiryolu işə salınmışdı. 1885-ci ildə isə Samara Zlatoustovsk dəmiryol tikintisinə başlanılmışdı. Bu, 1888-ci ildə Ufaya, 1890-cı ildə Zlatoustovska, 1892-ci ildə isə Çelyabinskə qədər uzadılmışdı. Dəmiryolu və su nəqliyyatı Başqırdıstanı Volqa və Mərkəzi quberniyalarla birləşdirmişdi. Belə bir vəziyyət isə, heç şübhəsiz, Başqırdıstanın iqtisadiyyatını Ümumrusiya bazarına möhkəm bağlamış və imperiyanın ayrı-ayrı regionları ilə iqtisadi əlaqələrin daha da artmasına, əmtəə mübadiləsi, eləcə də mal dövriyyəsinin xeyli asanlaşmasına kömək etmişdi.

1890-cı ildə Ufa quberniyasının dəmiryollarında yük dövriyyəsi 5560 min pud olduğu halda, 1899-cu ildə bu, 37,6 milyon puda çatmışdı. 90-cı illərdə Orenburq quberniyasında 152, Ufa quberniyasında isə 125 kənd yarmarkası var idi. 1862-ci ildə istifadəyə verilmiş Kazan dəmiryolu sonralar Simbirsk, Nijni-Novqorod, Sankt-Peterburq, Moskva, Perm, Ufa, İrkutsk, Həştərxan, Bakı, Donbas və s. şəhərlərlə əlaqələri genişləndirmişdi. Dəmiryol nəqliyyatı vasitəsilə Başqırdıstana az da olsa təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərinin gətirilməsi üçün əlverişli şərait yaranmışdı. Volqa və Kama çayları vasitəsilə yüklərin lazımi yerlərə daşınması da xeyli asanlaşmışdı. Ufa və Orenburqda kənd təsərrüfatı maşınları və alətləri satan kontorlar açılmışdı. Beləliklə, yerli varlılar və

Rusiyadan buraya köçürülmüş kəndlilərin təsərrüfatlarında az da olsa təkmil maşın və alətlər tətbiq olunurdu.

Şəhərlərin böyüməsi, şəhər əhalisinin artması ticarət əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yaratmışdı. Bu əlaqələr Volqa və Kama çayları vasitəsilə Başqırdıstanda taxılçılığın inkişafına güclü təkan vermişdi. Kənd təsərrüfatı istehsalında yenə də birinci yeri buğda və arpa istehsalı tutur və az miqdarda çəltik becərilirdi. Taxıl məhsullarına olan tələbat onun istehsalının sürətlə artmasına səbəb olmuşdu. Bu dövrdə Başqırdıstanın kənd təsərrüfatında muzdlu əmək də tətbiq olunmağa başlamışdı. Kənd təsərrüfatında muzdlu əməyin tətbiqi isə kapitalizmin inkişafının başlıca göstəricisi idi.

Başqırdıstanda əkinçiliklə yanaşı maldarlıq da geniş inkişaf etmişdi. Qaramal saxlanılması, atçılıq Başqırdıstanda maldarlığın mühüm sahələri idi.

XIX əsrin ikinci yarısında meşə materialları istehsalı sənayesinin inkişaf etdirilməsinə diqqət artmışdı. Ağacdan şalban, odun, taxta lövhələr, çəllək və sair hazırlayırdılar. Adları çəkilən təsərrüfat sahələrində bu və ya digər dərəcədə muzdlu əməkdən istifadə edilirdi. Bu, Başqırdıstanın kənd təsərrüfatı və meşə sənayesində kapitalizmin inkişaf etməsinə bariz nümunədir. Lakin Başqırdıstanın kəndlərində feodal istehsal münasibətlərinin qalıqları hələ güclü idi.

XIX əsrin sonlarında Başqırdıstanın kənd əhalisi artıq yeni-kapitalist cəmiyyətinin təbəqələrinə parçalanmışdı. Bu təbəqələrin biri torpaqların xeyli hissəsini öz əlində cəmləşdirmiş kənd varlıları - qolçomaqlar və mülkədarların bir hissəsi torpaqlarını muzdlu əmək tətbiq etməklə becərirdilər. Digər zümrəni isə torpaqsız və ya aztorpaqlı kəndlilər təşkil edirdilər. Sonuncular ağır həyat sürürdülər. Doğrudur, hələ mülkədarların hamısı öz təsərrüfatı ilə məşğul olmur və kəndlilər feodallara, yaxud dövlətə istifadə etdiyi torpaqların müqabilində vergi ödəyirdilər. Hələ onların feodallar və dövlət ilə münasibətləri feodal-asılı münasibəti idi. Lakin bu münasibətlər tədricən yeni yaranan kapitalist cəmiyyətinə uyğun olaraq qurulurdu. Bu isə uzun çəkən proses olub XX əsrin əvvəllərində də davam etmişdi.

Kapitalizmin inkişafı ölkənin ayrı-ayrı bölgələrində heç də eyni deyildi.

Başqırdıstanda kapitalizmin inkişafı yerli əhalinin torpaqlarının kütləvi şəkildə qarət edilməsi ilə nəticələnmişdi. 1869-cu il fevralın 10-da qəbul olunmuş qanuna əsasən başqırdların torpaqlarının azad alqı-satqısına icazə verilmişdi. 1875-ci ildə Ufa quberniyası zemstvo idarəsinin sədri Daşkov və tacir Sofronov Sterlitamaksk qəzasının Kumruk-Tabınsk nahiyəsində başqırdlardan desyatini 1 manata 15 min desyatin torpaq satın almışdılar. «Azad» satış nəticəsində 1869-cu ildən 1878-ci ilə qədər Ufa quberniyasında 852 min desyatin torpaq mənimsənilmişdi. 1878-ci ildə müstəmləkəçiliyə qarşı başqırd zəhmətkeşlərinin mübarizəsinin təzyiqi altında azad satış haqqında qanun ləğv edilmişdi. 1882-ci ildə başqırdların torpaqlarının dövlət və kəndli cəmiyyətlərinə satılmasına yenidən icazə verilmişdi. 1882-ci ildə fəaliyyətə başlamış Kəndli torpaq bankının 1883-cü ildə Ufada, 1885-ci ildə isə Orenburqda şöbələri açılmışdı. Başqırdların torpaqlarının mənimsənilməsinə icarə metodu da az təsir etməmişdi. İcarəyə götürülən torpaqlar demək olar icarəçilərin xüsusi mülkiyyətinə çevrilirdi. XIX əsrin axırlarında təkcə Orenburq quberniyasında təkində filiz olan 1,5 milyon desyatin torpaq icarəyə verilmişdi.

İslahatdan sonra çarizmin müstəmləkə siyasətinin əsas istiqamətlərindən biri də Rusiyanın mərkəzi quberniyalarından torpaqsız və aztorpaqlı kəndlilərin Başqırdıstana köçürülməsi olmuşdu. Mərkəzi quberniyalarda mülkədarların ucuz işçi qüvvəsini öz yanlarında saxlamaq cəhdlərinə baxmayaraq, hökumət 1868-ci il 13 aprel və 4 may, həm də digər sərəncamlarla kəndlilərin Başqırdıstana köçürülməsini qanuniləşdirmişdi. 1861-ci ildən 1897-ci ilə kimi təkcə Ufa quberniyasına 26 min kəndli ailəsi /168 min nəfər/ köçürülmüşdü. Ölkədəki yararlı torpaqların bir hissəsi gəlmələrə verilmiş, yerli mülkədar və qolçomaqlar öz növbəsində ucuz işçi qüvvəsi əldə etmişdilər. Nəticədə isə torpağı əllərindən alınmış yerli kəndlilərlə gəlmələr arasında münaqişələr yaranmışdı.

Eyni zamanda başqırdların maldarlıqdan oturaq həyata keçmələri və kənd təsərrüfatı, xüsusilə əkinçiliklə məşğul olmaları prosesi güclənmişdi. Bu, həm də maldarlığın azalmasına səbəb olmuşdu.

Məsələn, əgər 1864-cü ildə Ufa quberniyasının qəzalarında 100 sakinə orta hesabla 80 baş, o cümlədən başqırdlara 94 baş mal-qara düşürdüsə, 1899-cu ildə bu, 54 başa enmişdi. XIX əsrin sonunda əvvəllər maldarlıqla məşğul olan başqırdların mal-qaraları kənd təsərrüfatında işləyənlərinkindən az idi.

Başqırdıstanda 1861-ci il islahatından sonra əvvəllər olduğu kimi, yenə də torpağın çox böyük hissəsi mülkədarlar, dövlət və qismən qolçomaqların əllərində cəmləşmişdi. Başqırdıstanda torpağın xüsusi mülkiyyətçisi əsasən rus, başqırd və tatar zadəganları olmuşdu. Mülkədar torpaq sahibliyi getdikcə azalır və torpaq kənd burjuaziyası, müxtəlif şirkətlərin və qismən ipotek /torpaq/ banklarının sərəncamına keçirdi. Lakin bu proses hələ zəif idi. Əhalinin Başqırdıstana axıb gəlməsi isə xüsusi kəndli təsərrüfatının Rusiyaya nisbətən daha sürətlə inkişafına səbəb olmuşdu. Bütün mülkədarlar öz təsərrüfatlarında muzdlu əmək, maşın və gübrədən istifadə edə bilmədiklərinə görə işləyib ödəmə və icarə hələ də qalırdı. Lakin Rusiyanın mərkəzi quberniyalarına nisbətən Başqırdıstanda kəndlilər daha çox torpaqla təmin edildiyindən işləyib ödəmə az idi. Mülkədar torpaqlarının çox hissəsi kəndlilərə icarəyə verilirdi. 1895-1896-cı illərdə Ufa quberniyasında xüsusi sahibkarların əkin yerlərinin 40 faizi icarədə idi. 1897-ci ilin məlumatına əsasən Ufa quberniyasında 15 minə qədər, Orenburq quberniyasında isə 15 min təsərrüfat muzdlu əməkdən istifadə edirdi.

Beləliklə, kapitalizmin inkişafı patriarxal kəndli təsərrüfatını dağıdır, kənd burjuaziyası və kənd təsərrüfatı fəhlələri yaranırdı.

1878-1897-ci illərdə Ufa quberniyasında əkin sahəsi 824,5 min desyatindən 1557,8 min desyatinə qədər artmışdı. Orenburq quberniyasında 1881-ci ildə 1397,1 min desyatin əkin sahəsi olduğu halda, 1893-cü ildə bu, 1554,2 min desyatinə yüksəlmişdi. Taxıl becərilməsinin-yığımının artması isə əkin sahələrinin genişlənməsilə əlaqədar idi. Daxili və xarici bazarlara çıxış təsərrüfatın natural xarakterinə zərbə vururdu. Lakin təsərrüfatlar kapitalist təməli üzərinə kəndlilərin istismar edilməsi hesabına keçirilirdi.

Başqırdıstanda sənayenin əsas sahələri dağ-mədən, meşə sənayesi, kənd təsərrüfatı məhsulları istehsalı idi. 1897-ci ildə 1889-cu ilə nisbətən çuqun əridilməsi 2 dəfə artaraq 10 milyon puda çatmışdı.

1889-cu illə müqayisədə 1894-cü ildə dəmir və polad əridilməsi 1,5 dəfə artaraq 4121,1 min pud təşkil etmişdi. Fəhlələrin sayı isə 1889-cu ildəki 23,5 min nəfərdən, 1897-ci ildə 34,6 min nəfərə qədər artmışdı. 1897-ci ildə Orenburq quberniyasında qızıl istehsalı ilə məşğul olan 35 şirkət var idi. Texniki cəhətdən olduqca geridə qalan meşə materialları istehsalı sənayesində 23 min nəfər məşğul olurdu. Başqırdıstanın iqtisadi həyatında fabrik-zavod sənayesi də mühüm yer tuturdu. Orenburq quberniyasında 182, Ufa quberniyasında isə 128 sənaye müəssisəsi işləyirdi. Kustar sənayedə ən çox ağacdan düzəldilən müxtəlif növ məhsullar üstünlük təşkil edirdi. Dəri məmulatı və metal əşyalar da istehsal edilirdi.

1865-1866-cı illərdə Ufa və Orenburqda dövlət bankının şöbələri açılmışdı. 1885-ci ildə Orenburqda Kəndli torpaq bankının, 1894-cü ildə isə Rusiya ticarət-sənaye bankının şöbələri yaradılmışdı. Yerli rus burjuaziyası sənaye və ticarətin əsas sahələrini öz əlində cəmləşdirmişdi. Zəif də olsa tatar və başqırd burjuaziyası yaranırdı. Başqırdıstanın meşə təsərrüfatı sahəsində iri sənayeçilərdən Davletşin, Abdullatıpov, Bəxtiyarov, Kotlubayev, qızıl çıxarılmasında Arabov, Kadırov, Qabitov, Qaleyev, Şarıpov, Abubəkirov, Adiqamov, Xakberdin, Daşkin, digər sənaye sahələrində isə Utyamışev, Valitov, Usmanov, İşmuhamətov, Burnayev, Abdumatmarov və başqalarını göstərmək olar.

Beləliklə, Başqırdıstanda təhkimçilik hüququnun ləğvindən sonra sənaye sahələrində kapitalizm inkişaf etməyə başlamışdı. Qətiyyətli irəliləyiş dağ-mədən sənayesi, qızılçıxarma, meşə və fabrik-zavod sənayesində özünü daha qabarıq şəkildə göstərirdi.

XIX əsrin ikinci yarısında Başqırdıstanda kapitalist sənayesinin inkişafı ilə bərabər bir çox sənət sahələrinin manufaktura səviyyəsinə yüksəlməsi, kənd təsərrüfatında kəndlilərlə sahibkarlar arasında baş verən sosial dəyişikliklər, iqtisadiyyatın müəyyən sahələrində, xüsusilə kənd təsərrüfatında muzdlu əməkdən istifadə edilməsi cəmiyyətdə əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdu. Yeni kapitalist cəmiyyətinin burjuaziya və fəhlə təbəqələri təşəkkül tapmışdı. Başqırdıstan burjuaziyası qızılçıxarma sənayeçilərindən, fabrik-zavod və manufaktura səviyyəsində olan sənətkar emalatxanalarının sahiblərindən, tacirlərdən, qolçomaqlardan, təsər-

rüfatını muzdlu əmək üzərində quraraq kapitalistə çevrilmiş mülkədarlardan və b. ibarət idi. Başqırdıstan burjuaziyasının XIX əsrin ikinci yarısında başlamış təşəkkül prosesi sonrakı illərdə də davam etmişdi. Kənddə baş vermiş ictimai təbəqələşmə ilə əlaqədar olaraq, kəsbkarlığa gedənlərin sayı artmış, bu isə nəticədə fəhlələrin təşəkkülündə mühüm rol oynamışdı. Lakin fəhlələrin hüquqsuzluğu, maddi vəziyyətinin ağır olması özünü bariz şəkildə göstərirdi.

Kapitalizmin inkişafı şəhər əhalisinin sayının artması, onun sosial tərkibi və şəhərlərin xarici görünüşünün dəyişməsində də müşahidə olunurdu. 1864-1897-ci illərdə Başqırdıstanın Ufa quberniyasının əhalisi 76,5 faiz artaraq 1184,2 mindən 2089,3 min nəfərə çatmışdı. Həmin dövrdə Ufa quberniyasının şəhər əhalisi sayca iki dəfə artaraq 53,6 min nəfərdən 107,3 min nəfərə yüksəlmişdi. Başqırdıstanın kənd və şəhərlərində əhalinin artım sürəti Rusiyadan daha çox olmuşdu. Bu da 1861-ci il islahatından sonra regionun daha çox müstəmləkə diyarına çevrilməsi ilə bağlı idi. Lakin Başqırdıstanın şəhər əhalisinin xüsusi çəkisi hələ aşağı idi. Əgər 1897-ci ildə Rusiyanın Avropa hissəsində bütün əhalinin 12,8 faizini şəhər əhalisi təşkil edirdisə, bu, Ufa quberniyasında 4,9 faiz, Orenburq quberniyasında isə 9,5 faiz olmuşdu. Sənayenin inkişafına baxmayaraq, Başqırdıstan yenə də Rusiyanın geridə qalmış kənd təsərrüfatı bölgəsi olaraq qalırdı. Şəhər əhalisinin əsas artımı kənddən gələnlərin hesabına idi. Başqa şəhərlərə nisbətən Orenburq, Ufa, Troitsk, Çelyabinsk və Zlatoust şəhərlərinin inkişafı nisbətən daha sürətlə gedirdi. XIX əsrin axırında Orenburqda 84,2 min, Ufada 49,3 min, Troitskdə 23,3 min, Zlatoustda 20,5 min və Çelyabinskdə 19,9 min nəfər əhali yaşayırdı. Orenburq şəhərində 84, Ufada 35, Troitskdə 31 və Çelyabinskdə 9 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Zlatoustda metallurgiya sənayesi inkişaf etmişdi. Şəhərlərin xarici görünüşü dəyişir, iki və üçmərtəbəli binalar tikilirdi.

Çuvaşiyada əhalinin beşdə dörd hissəsindən çoxu, yəni 86 faizi kənd yerlərində yaşayırdı. Məsələn, əgər 1859-cu ildə kənd əhalisinin sayı 436 min nəfər idisə, 1897-ci ildə bu rəqəm 666 min nəfərə çatmışdı. 1897-ci ilin məlumatına görə, imperiyadakı 843,8 min çuvaşdan yalnız 542,4 mini Çuvaşiyanın özündə, qalan 301,4 min nəfəri isə Çuvaşiyadan kənarda yaşayırdı.

Hələ islahatdan əvvəlki dövrdə natural təsərrüfat dağılmağa başlamışdı. Təhkimçilik hüququ ləğv edildikdən sonra isə əmtəə-pul münasibəti genişlənməkdə idi. Kəndlilər sənətkarlıqla da məşğul olmağa başlamışdılar. Çuvaşiya kəndində müxtəlif peşə sahibləri-işbaz, çəkməçi, dəriçi, dərzi, boyaqçı və b. sayı xeyli artmışdı. Çuvaşiya kəndində də ictimai təbəqələşmə baş vermişdi.

Kənd burjuaziyası və muzdlular yaranırdı. Muzdurlar kapitalizm şəraitində ilin bir hissəsini kapitalist müəssisəsində, o biri hissəsini isə öz təsərrüfatında işləyirdilər.

İslahatdan sonrakı illərdə torpağın alınıb-satılması ilə ən çox mülkədarlar və varlı kəndlilər-qolçomaqlar məşğul olurdular. Həyatı ağır keçən kəndliyə torpağı dövlət, mülkədarlar, kilsə və işbazlar icarəyə verirdilər. İcarə ilə başlıca olaraq, aztorpaqlı kəndlilər məşğul idilər. Varlı sahibkarlar öz mənafelərini nəzərə alaraq taxıl və b. ərzaq mallarının istehsalına maraq göstərirdilər.

1877-ci ildə Çuvaşiya diyarında 8 qəzanın kəndliləri pay torpağından başqa 21 min desyatin qəbalə torpaq sahəsinə malik idilər. 1905-ci ildə bu torpaq sahəsini varlı kəndlilər ələ keçirmişdilər.

Beləliklə, varlı kəndlilər qəza idarələrindən, dövlət və mülkədarlardan torpaq almaq hesabına varlanmışdılar. Kəndlilər mövsümi işlə əlaqədar öz pay torpaqlarını icarəyə verirdilər.

Kəndli öz pay torpağını satmaq hüququna malik deyildi. Yalnız icmanın ellik zəmanətinin icazəsi ilə sata bilərdi. Vergini ödəyə bilməyən borclu kəndlilər öz pay torpaqlarını varlılara icarəyə verməyə məcbur idilər. İcarəyə verilmiş pay torpaqlarında varlılar kəndliləri işlədirdilər. Çox vaxt icarə müddəti qurtardıqdan sonra varlılar bu torpaqları öz adlarına keçirirdilər. Beləliklə, kənd yoxsullarının torpaqsızlaşdırılması prosesi yaranmışdı. Qolçomaqlar təqribən 3 dəfədən çox əkin yerinə və muzdlu işçilərə malik idilər. Kəndlərdə əkinçilik alətləri az idi. 1905-ci ildə 28 kəndli təsərrüfatında bir dəmir kotan var idi. Yüz səksən təsərrüfatda bir sovurucu və dənsovuran maşın, bir əl və ya at toxmağından istifadə edirdilər. Taxılbiçən maşın nadir hallarda tapılırdı. Kozmodemyansk, Çeboksarı və Yadrinsk qəzalarında bir dənə də olsun dəmir kotan yox idi.

İslahatlar dövründə Çuvaşiya kəndində hər desyatinin məhsuldarlığı xeyli artmışdı. Əgər 1856-1865-ci illərdə 1 desyatin sahədən 26 pud taxıl yığılmışdısa, bu, 1866-1875-ci illərdə – 27 pud, 1876-1885-ci illərdə – 31 pud və 1886-1895-ci illərdə 33 pud olmuşdu. Taxılın azlığından Çuvaşiyada çörək qıtlığı yaranmışdı. Qolçomaqlar taxılın artığını saxlayırdılar. 1897-ci ildə saxlanılan taxılın 90 faizdən çoxu onların əlində cəmlənmişdi. Taxılın qalan artığı isə işbaz və mülkədarların əlində idi. 1898-ci ildə Yadrinsk qəzasındakı 1130 nəfər sahibkarın hər birinin 600 pud artıq taxılı var idi. Qolçomaqlar yoxsulların taxıla olan ehtiyacını məhsulsuzluq illəri ilə bağlayırdılar. Onlar taxılı misli görünməmiş qiymətə satır və ya son dərəcə ağır şərtlərlə yoxsullara borc verirdilər. 1867, 1877, 1880, 1883, 1891-1892, 1897-1898-ci illər Çuvaşiya üçün kütləvi aclıq illəri olmuşdu. Xüsusən 1891-1892-ci illər tək Çuvaşiya üçün deyil, bütün Rusiya üçün də ağır keçmişdi. Aclıq minlərlə yoxsul və ortabab təsərrüfatını dağıtmışdı. Sosial tənəzzül Çuvaşiya kəndlilərini açıqca müflisləşdirir və maldarlığın inkişafını zəiflədirdi.

Yoxsul kəndlilər vergi və vergi qalığını ödəyə bilmədiklərinə görə qolçomaqlar və mülkədarlar onların pay torpaqları və əmlaklarını əllərindən alıb bazarlarda ucuz qiymətə satırdılar. 1886-cı ilin sonunda Yangildinsk nahiyəsinin 17 kəndindən vergi və vergi qalıqlarını ödəmək üçün 324 kəndlinin tikili evləri, mal-qarası, paltarları və s. əmlakları bazarda satılmışdı. Onların dövlətə 7 min rubla yaxın vergi qalığı var idi.

İslahatlardan sonrakı dövrlərdə aztorpaqlı və torpaqsız kəndlilər səfalət içində yaşayırdılar. Qolçomaqlar isə daha çox varlanaraq kapitalist sahibkarlara çevrilmişdilər. Çuvaşiya kəndliləri əkinçiliklə yanaşı tərəvəzçilik, bağçılıq, arıçılıq, tənbəki becərilməsini inkişaf etdirirdilər. 1897-ci il məlumatına görə, Alatır mahalında 355 kəndli təsərrüfatında tənbəki becərilirdi. XIX əsrin sonunda Çuvaşiyada 400-ə yaxın iri və 1000 xırda arıçılıq təsərrüfatı var idi. Bəzi kənd təsərrüfatı məhsulları satış üçün Sankt-Peterburq, Moskva və Nijni-Novqoroda göndərilirdi.

Bu dövrdə kəndlilərin müəyyən hissəsi əkinçiliklə məşğul olur və qalanları isə əkinçilikdən çox «kustar sənaye» sahələrinə üstün-

lük verirdilər. Bu və ya digər sənətlə məşğul olan sənətkarlar müxtəlif peşələrə yiyələnirdilər.

Bunlardan bəziləri kapitalist sahibkarlara, digərləri isə müstəqil istehsalçılara çevrilmişdilər. Sənətkarların böyük hissəsi müstəqil istehsalçılar kimi fəaliyyət göstərirdi /dəmirçi, çəkməçi və s./. 1874-cü ilin məlumatına görə, Kazan quberniyası ərazisində yerləşən çuvaş qəzalarında sənayeçilərin faizi belə idi: ruslar - 3,3, tatarlar-3,2, çuvaşlar-2,6, marilər-8,3, udmurdlar- 4,1, mordvalılar-0,7 təşkil edirdilər.

Çuvaşiyanın kəndlərində natural təsərrüfatın tənəzzülü və kustar sənaye ilə məşğul olanların sayının artması nəzərə çarpırdı.

1897-ci il Ümumrusiya əhali sayımına görə Çuvaşiya əhalisinin /kişi cinsindən olanların/ 63,5 faizi əkinçiliklə, 26,5 faizi isə əkinçiliklə bərabər sənətkarlıqla da məşğul olurdu. Kişilərin 10 faizi müxtəlif sahələrdə çalışırdı. Çuvaşiyanın 52 nahiyəsində 2647 sənaye və ticarət müəssisəsi qeydə alınmışdı.

1894-1895-ci illərdə Tsivilsk qəzasında 3170 nəfər ticarət-sənaye müəssisələrinə malik idi.

İslahatdan sonrakı Çuvaşiyada kənd yoxsullarının sayı get-gedə artırdı. Sahibkarlar isə bu yoxsulları ağac tədarükü və meşə sənayesi sahəsində işləməyə cəlb etmişdilər. XIX əsrin sonunda Çuvaşiyanın 8 qəzasında meşə sənayesində 15 min nəfər muzdla işləyən fəhlə çalışırdı. Onların 96 faizi mövsümi fəhlələrdən ibarət idi.

1897-1898-ci illərdə Çuvaşiyada 12 min nəfərə qədər fəhlə çalışan 3878 müəssisə var idi. Amma bu müəssisələrin yalnız 25-i əsl fabrik və zavod tipində idi. Bu zavodlardan 14-ü parket və taxtaşalban, 4-ü araq, 1-i yağ istehsal edir, 3-ü mexaniki-emalatxana, 1-i dəyirman, 1-i karton fabriki və 1-i isə mətbəə idi. Müəssisələrdə 2 min fəhlə çalışırdı. Fabrik-zavodların 9-u Alatırda, 1-i Çeboksarıda, qalanı isə kəndlərdə yerləşirdi. Maşınlı sənaye inkişaf etdikcə kustar müəssisələr və kapitalist sənayesinin əsası yaranırdı. İri şəhərlərdə sənətkarların sayı 2 mindən çox deyildi.

Çuvaşiyanın ərazisində Alatır, Çeboksarı, Tsivilsk və Yadrin iri şəhərlər hesab edilirdilər. XIX əsrin axırında Çuvaşiyada şəhər əhalisinin sayı 40 il əvvələ nisbətən 24 min nəfərə qalxmışdı. Nisbətən çoxdan inşa olunmuş şəhərlər öz xarici görünüşünü dəyişir və

nəinki inzibati, həm də ticarət mərkəzinə çevrilirdilər. Sosial təbəqələşmənin güclənməsi nəticəsində ziddiyyətlər də kəskinləşirdi.

Təhkimli kəndlilərin mülkədar asılılığından azad olunması Sibirin əhalisinin cüzi bir hissəsinə aid edilmişdi. Mülkədarların təhkimli kəndliləri Sibirin əhalisinin mindən birini təşkil edirdi. Sibirdə kənd təsərrüfatında kapitalizmin inkişafının əsas xüsusiyyəti mülkədar torpaq sahibliyinin olmaması və boş torpaqların «tutulması» prosesinin geniş yayılması idi. Əhalinin bu regiona köçürülməsi ucuz işçi qüvvəsi ordusu yaradırdı.

Sibirdə torpağın əsl sahibi dövlətin olmasına baxmayaraq, torpaqdan istifadə etmək üçün müəyyən vəsaitlərə malik olan hər bir kənd burjuaziyası 100-200 desyatindən çox torpaq sahəsi əldə etmişdi. Rusiyanın kapitalizm mərhələsinə daxil olması ilə ölkənin Avropa hissəsindən Sibirə köçənlər üçün geniş torpaq sahələrində yerləşmək imkanı yaranmışdı. 1861-ci ildən 1891-ci ilə kimi Sibirə 450 min kəndli gəlmişdi. Təkcə 9 ildə, yəni 1884-1892-ci illərdə təxminən 196 min nəfər Altayda yerləşdirilmişdi. XIX əsrin ikinci yarısında Sibir əhalisinin artması təhkimçilik hüququnun ləğvindən sonra Rusiyanın Avropa hissəsindən əhalinin kütləvi şəkildə buraya köçürülməsinin nəticəsində baş vermişdi. Onların sayı demək olar iki dəfə artaraq 1858-ci ildəki 2936 min nəfərdən 1897-ci ildə 5760 min nəfərə çatmışdı.

Bu dövrdə Sibirin kənd təsərrüfatında elə bir dəyişiklik olmamışdı. Kənd təsərrüfatı alətləri əhalinin özü tərəfindən kustar üsulla düzəldilir, ya da Rusiyanın Avropa hissəsindən gətirilirdi. Kənd təsərrüfatı məhsullarının becərilməsində ən çox üstünlük taxılçılığa verilirdi. Tomsk, Yenisey, İrkutsk quberniyaları, Zabaykalye və Yakutiya vilayətlərində taxılçılıq daha da artmışdı. 1899-cu ildə Sibirdə 216 milyon pud taxıl istehsal olunmuşdu. 1892-ci ildə Sibirdən Avropa Rusiyasına 10 milyon pud taxıl aparılmışdı.

Sibirdə taxılçılıqdan sonra əsas sahə maldarlıq idi. İri buynuzlu mal-qaranın sayı 1860-cı ildəki 2082 min başdan 1895-ci ildə 4050 min başa çatmışdı. Altay və Zabaykalyedə əsasən maralçılıqla məşğul olurdular. 1883-cü ildə İrkutskda 30 balıq sənayesi sahibi Baykalın balıq vətəgələri əsasında şirkət yaratmışdı. Sibirdə xəzdəri istehsalı da mühüm əhəmiyyət kəsb edirdi. İslahatdan sonra

kənd təsərrüfatının bütün sahələrinin bu və ya digər formada bazarla əlaqələri yaranmışdı. Bu da məhsuldar qüvvələrin inkişafı və ayrı-ayrı istehsal sahələrinin qismən ixtisaslaşmasına gətirib çıxarırdı. Əmtəə-pul münasibətlərinin inkişafı natural təsərrüfatı dağıdır və kapitalist münasibətlərinin inkişafına təsir edirdi.

Rusiyanın ucqar regionu olan Sibirdə kapitalizm iqtisadiyyatda eninə inkişaf edirdi. XIX əsrin ikinci yarısında Sibirdə hələ az da olsa torpaq ələ keçirmək halları qalırdı. Burada Rusiyanın Avropa hissəsindəki torpaqdan istifadə forması aradan qaldırılmış, geniş torpaq sahələri və əhalinin azlığı, mülkədar torpaq sahibliyinin olmaması səciyyəvi idi. Lakin torpaq ələ keçirmək heç də torpaqdan istifadədə başqa qaydaları aradan qaldırmamışdı. Kapitalist münasibətlərinin inkişaf etməsi, köçürmə siyasəti, əhalinin sayının artması nəticəsində torpaqdan istifadə edilməsində dəyişiklik yaranmışdı. Torpağı «zəbt» etmək halları getdikcə məhdudlaşırdı. Sibirdə kənd burjuaziyası-qolçomaq, yoxsul və muzdur təbəqələri yaranırdı. İslahatdan sonra vergi sistemində dəyişiklik olmamışdı. Çünki Sibirdə kəndlilərin istifadə etdikləri torpaq sahələrinin dəyəri və gəliri haqqında tam dəqiq məlumat çox az idi. Sənayenin zəif inkişaf etməsi də kənd təsərrüfatına öz mənfi təsirini göstərirdi. Kənd təsərrüfatı lazımi texniki avadanlıq ala bilmirdi.

XIX əsrin ikinci yarısında kapital qoyuluşu və fəhlələrin sayına görə Sibirdə qızıl sənayesi birinci yerdə gedirdi. 1882-1891-ci illərdə Rusiyada çıxarılan qızılın 75 faizi Şərqi Sibirin payına düşürdü. Əgər 1882-ci ildə Şərqi Sibirdə 1622 pud qızıl çıxarılırdısa, 1893-cü ildə bu, 1822 puda çatmışdı. Qızıl əsasən Yenisey, Ob, Lena və Amur hövzələrindən əldə edilirdi. Rusiyanın qızıl ehtiyatının əsasını Sibir qızılı təşkil edirdi. Sibirdən dövlət xəzinəsinə daxil olan qızıl ölkənin maliyyə vəziyyətini möhkəmləndirir, kapital yığımı və kapitalizmin inkişafına təsir göstərirdi. 1892-ci ildə Altayda birinci su-elektrik stansiyası meydana gəlmişdi. 1896-cı ildə Nıqri çayı üzərində Lena qızıl sənayesi şirkətinin Pavlovsk mədənində su-elektrik stansiyası tikilmişdi. Bir çox şaxtalar, kanat dəmir yolu, fabrik elektrikləşdirilmişdi.

Qızıl çıxarılmasının genişlənməsi fəhlələrin sayının artmasına da təsir edirdi. 1882-1891-ci illərdə qızıl mədənlərində hər il 37 minə

qədər fəhlə işləyirdi. Qərbi Sibir gümüş, qurğuşun, mis çıxarılması və əridilməsində birinci yerdə idi. Sibirin dağ-mədən sənayesi ancaq texniki cəhətdən geridə qalırdı. 1897-ci ildə Sibirdə 100 mindən çox sənətkar var idi. Sənətkarlığın ən çox yayılmış növü dülgər, dəmirçi, çilingər, saatsazlıq, zərgərlik və s. ibarət olmuşdu. Qızıl sənayesi, qara metallurgiya və duz istehsalının inkişafı, eləcə də 90-cı illərdə Sibir dəmiryol xəttinin tikilməsinə başlanılması ilə bağlı olaraq fəhlələrin sayı çoxalmışdı. 1897-1898-ci illərdə Sibirdə 403 min nəfərdən çox muzdlu işçi var idi.

İnkişaf etməkdə olan kapitalizm Rusiyanın ucqarlarında özü üçün xammal mənbəyi və satış bazarı yaradırdı. XIX əsrin sonunda Tobolsk quberniyasında 567, Tomsk quberniyasında 68, Yeniseydə 13, İrkutskda 12, Yakutiya vilayətində 5 və Zabaykalyedə 3 yarmarka fəaliyyət göstərirdi. Sibir yarmarkalarının ümumi ticarət dövriyyəsi 33 milyon manat idi. Ən böyük yarmarka İrbitsk hesab olunurdu. Nijni-Novqorod yarmarkasından sonra ikinci yeri tutan İrbitsk yarmarkasının 1900-cu ildəki ticarət dövriyyəsi 45 milyon manatı keçmişdi. Barnaul və Kuznetsk də Altay dairəsinin əsas ticarət mərkəzləri idilər. Müxtəlif kənd təsərrüfatı məhsulları və dəri məmulatı satışı əsas yer tuturdu. Rusiya Çin, Monqolustan və Tuvaya dəmir, metal məmulatı, neft, parça, dəri, tütün və s. göndərirdi. Həmin regionlardan isə çay, ipək, kağız, ərzaq məhsulları idxal olunurdu. Sibirə xarici mallar Vladivostok vasitəsilə gətirilirdi. Almaniya, İngiltərə və Amerikadan gətirilən mallar üstünlük təşkil edirdi.

Sibirdə ticarət kapitalı sənayedən ayrılmamışdı. Buradakı kapitalistlər həm tacir, həm də sənayeçi idilər. Sibirin iri tacirləri Basnin, Sibiryakov, Trapeznikov, Bazanov, Qromov, Butin və başqalarının qızıl mədənləri var idi. Zadəgan və məmurlardan ibarət burjuaziya da formalaşırdı.

Kapitalizmin inkişafı Sibirin şəhərlərində əhalinin sayca artmasına təsir göstərirdi. Əgər 1858-ci ildə şəhərlərdə 202 min nəfər yaşayırdısa, 1897-ci ildə onların sayı 554 min nəfərdən çox olmuşdu.

XIX əsrin 60-cı illərindən rus kapitalistləri istehsal sahələrini genişləndirir və yeni satış bazarları axtarırdılar. 1860-cı ildə Pekində Rusiya ilə Çin arasında bütün sərhədboyu ərazilərdə azad və göm-

rüksüz ticarət haqqında müqavilə imzalandı. Rus tacirlərinin Tuva ilə ticarət əlaqələri artdı. Hələ 50-ci illərdə Tuva ilə sərhəddə ticarət təşkilatları yaradılmışdı. 1863-cü ildə Tuvaya birinci ticarət karvanı gəlmişdi. 1866-cı ildə rus tacirləri Tuvaya 9887 manatlıq məhsul aparmış, Rusiyaya isə 11410 manat dəyərində məhsul gətirmişdilər. Tuvadan mal-qara, dəri, duz və s. alınırdı. Rusiya Tuvaya çuqun, dəmir, mis və dəmirdən hazırlanmış qablar və s. məhsullar satırdı.

XIX əsrin 70-80-ci illərində rus tacirləri Tuvada faktoriyalar açmağa başladılar. Bu da ticarət dövriyyəsinin genişlənməsinə səbəb oldu.

Rusiyanın Tuva ilə iqtisadi əlaqələrinin inkişafına yeni bir sahə - qızıl sənayesi də əlavə olundu. Əgər 1883-cü ildə 9 qızıl mədəni var idisə, 1896-cı ildə onların sayı 11-ə çatmışdı. Rusiya və Tuva fəhlələrinin qızıl mədənlərində birgə işləməsi onların arasında dostluq əlaqələri yaradırdı. Rusiyanın ərazisinə keçən tuvalılar ovçuluqla məşğul olurdular. Yenisey quberniyasının Minusin dairəsi və Şuşensk nahiyəsinin kəndliləri balıqçı və ovçuların artelində birləşərək sərhədboyu balıq ovu ilə məşğul olurdular.

Rusiya ilə Tuva arasında iqtisadi əlaqələrin inkişafı Tuvada rusların məskunlaşmasına şərait yaratdı. Lakin heç də həmişə Tuvada yerləşməyə icazə verilmirdi.

1885-ci ildə tacir Q.P.Safyanov Turan çayı rayonunda əkinçiliklə məşğul olmaq üçün icazə almışdı. Həmin ildə bu icazədən istifadə edən bir neçə ailə də buraya köçərək əkinçiliklə məşğul olmağa başladı. Turan kəndi belə yaranmış oldu. Onun qonşuluğunda Uyuk qəsəbəsi yarandı. 1896-cı ilin rəsmi məlumatına əsasən Turan kəndində 169, Uyuk qəsəbəsində isə 44 sakin məskunlaşmışdı. Rus kəndliləri burada yeni təsərrüfat sahəsi - maralçılıq yaratdılar.

Təhkimçilik hüququnun ləğvi və Krıma dəmiryolunun çəkilməsi buraya daimi və mövsümi işləmək üçün ucuz işçi qüvvəsinin axınını gücləndirmişdi. Əkinçilikdə kapitalizm sürətlə inkişaf edirdi. XIX əsrin 60-90-cı illərində Krımda əkin sahələri 204 min desyatindən 849 min desyatinə çatmış, yəni üç dəfədən çox artmışdı. Ölkənin daxili bazarına ildə 24 min pud üzüm çıxarılırdı. Krımda üzümçülük, tütünçülük, ipəkçilik və s. texniki bitkilər də inkişaf etmişdi. Eyni zamanda torpağın iri torpaq sahiblərinin əlində

cəmlənməsi prosesi güclənmişdi. Kəndlərdə ictimai təbəqələşmə Rusiyaya nisbətən burada daha yüksək sürətlə gedirdi. XIX əsrin sonunda bütün kəndli həyətlərinin yarısına qədəri torpaqsız idi. Bütün kəndli təsərrüfatlarının 12 faizini təşkil edən qolçomaq təsərrüfatları xüsusi torpaqların təxminən 90 faizini öz əllərində cəmləşdirmişdi. Yerdə qalan hissə ortabab və yoxsullara məxsus idi. Krımda 300 desyatindən çox torpaq sahəsi olan iri qolçomaq təsərrüfatları var idi. Beləliklə, bəzi tarixçilərin Krımın kənd təsərrüfatı sahəsində geridə qalmış ucqar bölgə olması haqqındakı fikirləri tamamilə həqiqətdən uzaqdır.

Rusiyanın başqa diyar və vilayətləri arasında Krım yarımadası kapitalizmin inkişaf sürətinə görə xeyli fərqlənirdi. Bu, Krımın kəndlərində təhkimçiliyin olmaması ilə izah edilməlidir. İslahata qədər Krımın kəndlərində əmtəə-pul münasibətləri də inkişaf etmişdi. Mərkəzi quberniyalardan Krıma köçüb gələnlərin və kənd təsərrüfatı fəhlələrinin axını getdikcə artırdı. 1875-ci ildə çəkilişi başa çatdırılmış Lozova-Sevastopol dəmiryol xətti Krımın iqtisadiyyatının inkişafında mühüm rol oynayırdı. Bu dəmiryolu Krım yarımadasını Rusiyanın mərkəzi sənaye rayonları ilə əlaqələndirir, kənd təsərrüfatı məhsullarının Krımın daxili bazarına daşınmasını asanlaşdırırdı.

XIX əsrin ikinci yarısında Krımın sənaye sahələrində xeyli irəliləyiş olmuşdu. Yeni müəssisələr - fabrik və zavodlar açılmışdı. Konserv zavodu, tütün fabriki və s. əsas yer tuturdu. 1900-cu ildə Simferopolda 40-dan çox orta tipli sənaye müəssisəsi var idi. Sevastopolda ən iri müəssisələr gəmi təmiri müəssisələri idi. Onlar «Rus gəmiçiliyi və ticarəti cəmiyyəti»nə məxsus idi. 1859-cu ildə təsis edilmiş bu səhmdar cəmiyyət XIX əsrin axırında Qara dənizdə bütün Rusiyanın ticarətini öz əlinə almışdı. Liman şəhərlərində onun ticarət kontorları, gəmi təmiri və gəmiqayırma müəssisələri var idi. Krım iqtisadiyyatının inkişafına 1874-1900-cu illərdə çəkilən və müxtəlif şəhərləri, mühüm əhəmiyyət kəsb edən bölgələri birləşdirən dəmiryol xətləri böyük təsir göstərmişdi.

Simferopol, Kerç, Yevpatoriya və Sevastopol Krımın iri ticarət mərkəzləri idi. XIX əsrin sonunda Yevpatoriyada illik dövriyyəsi 8 milyon manat olan 350 ticarət müəssisəsi var idi. Krımdan ölkənin

mərkəzi quberniyalarına meyvə, tütün, balıq, duz və dəmir filizi aparılırdı. Krımın liman şəhərlərində 1875-ci ildə gömrük rüsumu toplanılmasının 6 dəfə artması əmtəə dövriyyəsinin genişlənməsini göstərirdi. Krım ölkənin xarici ticarət əlaqələrində mühüm yer tuturdu.

İslahatdan sonra Krımın xarakterik xüsusiyyəti şəhər əhalisinin sürətlə çoxalması idi. Simferopolda 61,9 min, Feodosiyada 30,8 min və Sevastopolda 63,5 min nəfər yaşayırdı. Əsrin sonunda Simferopol Tavriya quberniyasının inzibati və iqtisadi-mədəni mərkəzinə çevrilmişdi. Sevastopol Qara dəniz hərbi donanmasının əsas bazası idi. Feodosiya ölkənin inzibati və ticarət mərkəzləri ilə dəmiryol xətti vasitəsilə birləşən ən iri ticarət-liman şəhəri olmuşdu. Kerç şəhəri Azov-Qara dəniz gəmiçiliyinin inkişafında mühüm yer tuturdu. Yalta kurort şəhəri olmaqla yanaşı abadlaşdırılmış qəza mərkəzi idi.

XIX əsrin ikinci yarısında Rusiya imperiyasının ayrı-ayrı regionları arasında iqtisadi əlaqələr genişlənirdi. Şəhərlər inkişaf edir, yeni sənaye mərkəzləri yaranırdı. Ümummilli dil yaranır, milli mədəniyyət inkişaf edir və möhkəmlənir, milli şüur formalaşırdı.

Ümumiyyətlə, türk xalqları yaşayan regionlarda bir sıra islahatların həyata keçirilməsi zəruri idi. İslahatlar öz növbəsində yeni kapitalist münasibətlərini formalaşdırırdı. Burjua islahatları keçirmədən ölkənin, o cümlədən türklər yaşayan regionların təsərrüfat həyatını əsaslı surətdə dəyişmək mümkün deyildi. XIX əsrin 60-70-ci illərində həyata keçirilmiş islahatlar ictimai həyatın bütün sahələrində ciddi dəyişikliklərə gətirib çıxartmışdı. Bu dövrdə azadlıq əldə etmiş kəndlilərin bir hissəsi öz pay torpağına sahib olsa da, kəndlilərin bəzi zümrələri başqa yerlərə köçüb getmək məcburiyyətində qalmışdı. Torpaq islahatı zamanı ən dəhşətli vəziyyət onda idi ki, çarizm Rusiyanın mərkəzi quberniyalarından rusları türk xalqları yaşayan regionların ən münbit torpaqlarına köçürməklə həmin torpaqları onlara paylayırdı. Bu isə yerlərdə torpaqsızların sayının artması və iğtişaşların baş verməsinə səbəb olurdu.

XIX əsrin ikinci yarısında türk xalqları yaşayan regionlarda kapitalist sənayesinin inkişafı, bir çox sənət sahələrinin manufaktura səviyyəsinə yüksəlməsi, kənd təsərrüfatında muzdlu əmək və təkmil texnikanın tətbiqi kənddə sosial dəyişikliklərlə nəticələnirdi.

Yeni kapitalist cəmiyyətinin əsas təbəqələrini təşkil edən burjuaziya və fəhlələr təşəkkül tapırdı. Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Sibirin türklər yaşayan diyarlarının orta və xırda burjuaziyası sənayeçilərdən, manufaktura səviyyəsində olan sənətkar müəssisələri sahiblərindən, tacirlərdən, ev sahiblərindən, kənddə qolçomaqlardan, təsərrüfatlarını muzdlu əmək üzərində quraraq kapitalistə çevrilmiş mülkədarlardan və b. ibarət idi.

Böyük sənaye-ticarət mərkəzlərinə çevrilmiş Kazan, Ufa və s. şəhərlər burjuaziyanın təşəkkül tapdığı ən mühüm mərkəzlər hesab olunurdu. Burjuaziyanın ən güclü dəstəsi də məhz bu şəhərlərdə cəmlənmişdi.

# V FƏSİL

# XIX ƏSRDƏ MƏRKƏZİ ASİYA, QAZAXISTAN, VOLQABOYU, SİBİR VƏ KRIM XALQLARININ MƏDƏNİYYƏTİ

## § 1. MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN XALQLARININ MƏDƏNİYYƏTİ

Mərkəzi Asiya və Qazaxıstan ən qədim insanların məskunlaşdığı ərazilərdən biridir. Bunu həmin xalqların zəngin maddi-mədəniyyət abidələri də sübut edir. Eyni zamanda Mərkəzi Asiya və Qazaxıstanda Qərb ilə Şərqi, Cənub ilə Şimalı əlaqələndirən ticarət yolları kəsişirdi. Bu regionun xalqlarının qonşuları olan böyük dövlətlərdən Çin, Hindistan, Rusiya, eləcə də Qafqaz, Yaxın və Orta Şərqlə sıx iqtisadi, siyasi və mədəni əlaqələri olmuşdur. Bu münasibətlər nəinki həmin ölkələrin xalqlarının elm və mədəniyyətinə, həm də dünya elm və mədəniyyətinin inkişafına qarşılıqlı faydalı təsir göstərmişdir.

Öz mədəni inkişafında çətin və əzablı yollar keçmiş Mərkəzi Asiya və Qazaxıstan xalqlarının tarixi bir-biri ilə sıx bağlıdır. Qədim müştərək mədəniyyətə malik olan bu xalqlar bir çox xarici işğalçıların hücumlarına baxmayaraq, öz mədəni sərvətlərini qoruyub saxlamış və onu daha da zənginləşdirməyə çalışmışlar.

Əsrlər boyunca bir neçə ictimai-iqtisadi quruluş dəyişilmişdir. Xalqın yaratdığı maddi və mənəvi xəzinə gələcək nəsillər üçün mədəni irsə çevrilmişdir. Lakin bəzi alimlər dərin təhlil və analiz aparmadan Oktyabr çevrilişindən əvvəl nəşr olunmuş əsərlərə obyektiv qiymət verməmişdilər. Belə ki, qırğız ziyalılarının müəyyən hissəsində Oktyabr çevrilişinə qədər qırğız xalqının mədəniyyətinin əhəmiyyətsiz, zəif olması meylləri əmələ gəlmişdi. Onlar belə hesab edirdilər ki, əvvəllər qırğız xalqı «mədəniyyət haqqında heç bir təsəvvürə malik olmamışdır». Keçmişdə qırğız xalqının geridə

qalmasını bilərəkdən göstərənlər Oktyabra kimi bu xalqın mədəniyyətinin mövcud olmasını inkar edirdilər. Bununla da onlar bu xalqın mənəvi mədəniyyəti, zəngin şifahi xalq yaradıcılığı, özünəməxsus adət-ənənələrinin mövcud olmasına şüurlu surətdə diqqət yetirməmişdilər. Qırğız tədqiqatçısı D.O.Aytmambetov haqlı olaraq qeyd edir ki, şifahi xalq yaradıcılığında «Manas» kimi şah əsər və onlarla epik əsərlər yaradan xalqı «tamamilə» mədəniyyətsiz adlandırmaq həqiqətə uyğun deyildir. O, qırğız xalqının mənəvi mədəniyyətinin inkişafı və çoxcəhətliliyini geniş, əhatəli şəkildə araşdıraraq mədəni irsi öyrənmək, ona qayğı ilə yanaşmağın aktual və vacib olmasını göstərmişdir. Görünür bəzi tədqiqatçılar xalqın mədəniyyəti, şifahi xalq yaradıcılığı, tətbiqi sənət nümunələri, adət-ənənələri və sairəni lazımınca nəzərə almamışlar. Digər tərəfdən isə Türküstanın qədim tarixinin kifayət qədər öyrənilməməsi də onları bu yanlış nəticəyə gətirib çıxarmışdı.

Mərkəzi Asiya və Qazaxıstan xalqlarının XIX əsrə aid tarix və mədəniyyətinin öyrənilməsində əsas mənbə Oktyabr çevrilişinə qədərki nəşrlər olmuşdu. Onların çoxu isə çar inzibati və hərbi məmurları və ya Türküstana səyahət etmiş, tədqiqatlar aparmış rus ictimaiyyətinin müxtəlif nümayəndələri tərəfindən çap olunmuşdur. Bunların bəzilərini isə yerli xalqların mənəviyyatından çox həmin ərazinin təbii sərvətləri maraqlandırmışdı. Lakin Rusiyanın mütərəqqi görüşlü, demokratik fikirli tədqiqatçı, alim və səyyahları Mərkəzi Asiya və Qazaxıstanın çoxəsrlik tarixi, türk xalqlarının dili və mədəniyyətini araşdıraraq sanballı əsərlər yazıb çap etdirməklə məsələlərə obyektiv baxımdan yanaşmışdılar. Onlardan ilk növbədə V.V.Bartold, V.V.Radlov, N.A.Severtsev, P.P.Semyonov-Tyanşanski, A.P.Fedçenko, A.Y.Krımski və başqalarını göstərmək olar.

Məlum olduğu kimi, hər bir xalqın tarixi keçmişi və mədəniyyətini öyrənmədən onun bu gününü lazımınca anlamaq və qiymətləndirmək qeyri-mümkündür. Mərkəzi Asiya və Qazaxıstan xalqları böyük mədəniyyətin varisləridir. Zaman keçdikcə bu mədəniyyət daha da tərəqqi etmiş və mədəni əlaqələr zənginləşmişdi. Türküstan xalqlarının mədəniyyəti həm də özünəməxsus tərzdə inkişafı ilə fərqlənirdi.

Əlbəttə, mədəniyyətin inkişafı cəmiyyətin inkişafı ilə üzvi surətdə bağlıdır. Mədəniyyət formalaşdığı, əlaqədar olduğu quruluş və dövrün hadisələrini özündə əks etdirir. Xalqın mədəni inkişafında isə maarifin başlanğıc və ilk mərhələ kimi əvəzsiz rolu vardır. Milli mədəniyyətin formalaşmasında maarif, təhsil əsas və aparıcı sahədir.

**Maarif.** XIX əsrin birinci yarısında Mərkəzi Asiya və Qazaxıstanda milli maarifin əsasını dini məktəb və mədrəsələr təşkil edirdi. Akademik V.V. Bartold göstərirdi ki, islamın bərqərar olması ilə eyni zamanda müsəlman xalqlarında iki növ tədris ocağı-məktəb /ibtidai/ və mədrəsə /ali dini/ yaranmışdı.

Mərkəzi Asiya və Qazaxıstandakı bütün xanlıqlarda məktəb və mədrəsələr oturaq əhalinin daha çox məskunlaşdığı bölgələrdə yaranır, köçərilər isə övladlarını «yurt»larda təşkil edilmiş məktəblərdə oxudurdular. Ancaq adlı-sanlı feodal əyanları və əhalinin imkanlı hissəsinin uşaqları mədrəsələrdə öz təhsillərini davam etdirə bilirdilər. Onlara ali dini məktəblərdə, o cümlədən Buxara, Səmərqənd, Kazan, Ufa və Orenburqdakı iri mədrəsələrdə təhsil almış tanınmış din xadimləri dərs deyirdilər. Ərəb dili, müsəlman dininin qaydaları /şəriət/ və sair öyrədilirdi. Mədrəsələrdə xan və sultanların dəftərxanaları üçün kadr və həmçinin din xadimləri hazırlanırdı. Tədris prosesində ərəb və fars dillərində yazılmış əsərlərdən istifadə olunurdu. Ərəb yazısı üstünlük təşkil edirdi.

Mərkəzi Asiya və Qazaxıstan xalqlarının maarif, mədəniyyət və tarixinə dair yazılmış bəzi əsərlərdə XIX əsrin birinci yarısında hakim təbəqələrin xalqı istismar etmək üçün onu dini cəhalətdə saxlamağa çalışması qeyd edilir. Digər tərəfdən isə tədris sistemində orta əsr üsulunun uzun müddət qalması, onun məzmun və metodunda mütərəqqi cəhətlərin olmaması göstərilir.

Özbəkistan Elmlər Akademiyasının akademiki T.N. Karı-Niyazov yazır ki, Türküstanın mütərəqqi ictimaiyyətinin nümayəndələrinin mədəniyyətin inkişafı uğrunda mübarizəsi, müsəlman ruhanilərinin idarəçiliyində olan məktəb və mədrəsələrdəki vəziyyətə qarşı etirazları deyilənlərə nümunədir.

Bununla yanaşı məzunların Şərq ədəbiyyatının klassik əsərləri ilə tanış olmasında müsəlman məktəblərinin müəyyən rol oynaması da qeyd olunur. Türküstan müəllimlər seminariyasının direktoru

N.P.Ostroumov belə hesab edirdi ki, müsəlman məktəblərinin yaxşı cəhətlərindən biri ondan ibarət idi ki, onlar şagirdlərə ailə qanunları və adət-ənənələrini pozmamağı aşılayırdı. Ona görə də nəinki XIX əsrin əvvəllərində, habelə əsrin sonunda da dini məktəblərə axın davam etmişdi.

Mərkəzi Asiya və Qazaxıstanda əsrlər boyu mövcud olan təhsil ocaqlarından məktəblər daha geniş yayılmışdı. İbtidai dini məktəblərdə dərslər ərəb əlifbası əsasında aparılırdı. Məktəblərdə qiraət kimi çərəkələrin əzbərlənməsinə daha çox diqqət yetirilirdi. Qurandan seçilmiş ayrı-ayrı ayə və surələrdən ibarət «Həftyek» /«Yeddidə bir»/, «Çorkitab» /«Dörd kitab»/, «Sufi-Allayar», şair Hafizin şerlərindən ibarət «Xoca Hafiz» kitablarının tədrisi məktəbin əsas kursunu təşkil edirdi. Belə məktəblərdə tədris olunan dini dərslərdən başqa ümumi elmi biliklər haqqında şagirdlərə məlumat verilirdi.

Türküstan diyarında köçərilərin məktəblərinin müəyyən daimi yerləri olmadığından ilboyu fəaliyyət göstərə bilmədikləri üçün məktəblərin ümumi sayı haqqında dəqiq məlumatlar demək olar ki, yox dərəcəsindədir. Köçərilər üçün xüsusi məktəb binası tikilmirdi. Onlar çox zaman yurtların yanındakı dəyələrdə, bəzən isə böyük ağacların altında dərs keçirdilər. Köçərilərin bir yerdən başqa yerə köçməsilə əlaqədar olaraq bu məktəblər də öz yerlərini dəyişirdilər.

1883-cü ildə Qırğızıstanın Oş qəzasında daimi fəaliyyət göstərən 391 şagirdi olan 41 məktəb var idi. 1899-cu ilin məlumatına əsasən Türküstan diyarının Sırdərya, Səmərqənd və Fərqanə vilayətlərində 44 773 şagirdi olan 4 632 məktəb olmuşdu.

Dini məktəblərdən biri də mədrəsələr idi. Adətən mədrəsələrə məktəbləri qurtaranların cüzi bir hissəsi, imkanlı ailələrin uşaqları daxil ola bilirdilər. Burada tədrisin müddəti dəqiq müəyyənləşdirilməmişdi. Bəziləri 10 il, başqaları 12-15 və daha çox müddətə təhsilini başa çatdırırdı. Quran ayələri, müxtəlif dini kitablar, müsəlman hüququ, hesab, Şərq ədəbiyyatı klassiklərinin əsərləri və s. öyrənilirdi. V.V.Bartold qeyd edirdi ki, Buxara və Səmərqənddə olan dini məktəblərdə Qurani - Kərimi dini məqsədlərlə bərabər həmçinin bir elm kimi şagirdlərə öyrədirdilər.

Tarixi ədəbiyyatda Mərkəzi Asiya və Qazaxıstanda bəzi rus ziyalılarının mədrəsələrdəki vəziyyətin əleyhinə açıq şəkildə çıxması

göstərilirdi. Eyni zamanda yuxarı dairələrin buna biganə qalması bildirilirdi. Dini məktəb və mədrəsələr tədris sahəsində dini ayinlərin təbliği çərçivəsindən kənara çıxmayan, şagirdləri savadsız yetişdirən «mollaxanalar» adlandırılırdı. Türküstan diyarının tarixinə nəzər saldıqda bu fikirlərin əsassız olduğunu görürük. T.N.Karı-Niyazov yazır ki, özbək xalqı nail olduğu dünyagörüşü, elmi biliklər, islami dəyərlər üçün məhz mədrəsələrə borcludur. 1890-cı ilin məlumatına əsasən Buxara, Səmərqənd mədrəsələrində Şərq klassiklərinin əsərləri, hüquq elmi, fəlsəfə tədris olunurdu. Bu mədrəsələrdə çox savadlı müəllimlər dərs deyirdilər.

Ümumiyyətlə, hər bir tədris müəssisəsinin, o cümlədən məktəb və mədrəsələrin fəaliyyətində bu və ya digər formada çatışmamazlıq və qüsurlar ola bilərdi. Lakin dini məktəblərin «zərərli» olmasını əldə bayraq etmək və daha çox rus-yerli, rus məktəblərinin açılmasına üstünlük verməklə əslində çar Rusiyasının Türküstan diyarında təhsilin ruslaşdırılmasını həyata keçirmək demək idi. Digər bir tərəfdən isə, rus-qırğız məktəblərində qazax dilinin tədris olunmasının qadağan edilməsi qazax əhalisinin böyük narazılığına səbəb olmuşdu. Hətta belə şayiə yayılmışdı ki, uşaqları rus-qırğız məktəblərində oxutmaq xristian dininə keçmək deməkdir. Əlbəttə, məktəblərdə hər hansı bir dilin, məsələn, ingilis, rus, fransız və s. tədris olunması və öyrənilməsi mütərəqqi bir haldır. Amma bu, milli və dini hisslərə toxunulması əsasında olmamalı idi.

Məlum olduğu kimi, çar Rusiyası Mərkəzi Asiya və Qazaxıstanı istila edən zaman həmin regionu özü üçün xammal mənbəyi və satış bazarına çevirməklə yanaşı, həm də imperiyanın sərhədlərini genişləndirmək və möhkəmləndirmək məqsədini güdmüşdü. Türküstan diyarının əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri Rusiyanın diqqət mərkəzində idi. Əvvəlcə diplomatik, iqtisadi və ticarət əlaqələri ilə Mərkəzi Asiya və Qazaxıstana müdaxilə edən çar Rusiyası artıq XIX əsrin 60-90-cı illərində bu ərazinin işğalını başa çatdırmışdı.

Rusiya Türküstan diyarını işğal etdikdən sonra burada özünə yerli dayaq yaratmağa və tədricən ruslaşdırma xəttini həyata keçirməyə daha çox diqqət yetirirdi. Ruslaşdırma siyasətinin əsas istiqamətləri Türküstanda idarəetmə sistemi, maarif sahəsi və köçürmə siyasətində özünü daha qabarıq göstərmişdi.

Hələ Mərkəzi Asiya və Qazaxıstanın işğalı ərəfəsində, işğalın başa çatması prosesində və eləcə də ondan sonrakı dövrlərdə çarizm buraya müxtəlif sosial təbəqədən olan slavyan mənşəli əhalinin köçürülməsinə şərait yaratmış və ya onu təşkil etmişdi. Hətta «narahat» kəndliləri Rusiyanın mərkəzi quberniyalarından şərqin ucqar bölgələrinə köçürmək üçün Köçürmə idarəsi yaradılmışdı. Məqsədyönlü şəkildə düşünülmüş bu siyasət Türküstanın maarif sisteminə Rusiyanın təsirinin güclənməsinə bəhanə olmuşdu. Köçürülmüş rus əhalisindən olan uşaqların təhsilinin qayğısına qalmaq adı ilə çarizm milli maarif sisteminin ruslaşdırılmasına başladı. Rusdilli məktəb və kursların açılması bu sahədə ilk tədbirlərdən biri olmuşdu.

Çar Rusiyası maarif sahəsində öz siyasətini həyata keçirmək üçün hər şeydən əvvəl müsəlman ruhanilərinin Türküstan xalqlarına təsirini zəiflətməyə çalışırdı. Onlar yerli əhali arasında islamı yaymaqla bərabər, həm də ruslara istədikləri kimi hərəkət etməyə imkan vermirdilər. Eyni zamanda Türküstan general-qubernatoru K.P.Kaufman güclü müsəlman idarələrinin yaradılması üçün göstərilən bütün cəhdləri qəbul etməmişdi. Çar hökumətinin din xadimlərinə təsiri güclənirdi. Dini məktəblər yerli idarəetmə orqanlarının nəzarəti altına keçmişdi. Müsəlman müftilərinin bəzi hüquqlarını çar hökuməti ləğv edib onları yerli məhkəmə orqanlarına verirdi. Bunlar nikah və vərəsəliklə bağlı olan hüquqlar idi. Türküstan molla və qazılarının səlahiyyətləri onlardan alınıb Orenburq müftisinə verilmişdi. Bununla əlaqədar olaraq Daşkənd əhalisi Orenburq general-qubernatoruna ərizə yazaraq öz narazılıqlarını bildirmişdi.

Çar hökuməti Mərkəzi Asiya və Qazaxıstan xalqlarının Rusiyaya qarşı çıxmasının səbəbini mədrəsələrdə də görürdü. Mədrəsələrin varlığı Türküstan general-qubernatoru K. P. Kaufmanı narahat edirdi. O, 1865-ci ildə Daşkənddə, 1868-ci ildə Səmərqənddə çar Rusiyasının qoşununa qarşı çıxışların baş verməsinin səbəbini həm də mədrəsələrin antirus fəaliyyəti ilə bağlayırdı. 1891-ci ildə general-qubernatorlardan birinin «zati-alilərinə» göndərdiyi hesabatında bildirilirdi ki, Türküstanda ən pis müsəlman rəhbərlərinin cəzalandırılması deyil, mədrəsələrin məhv olmasına çalışmaq lazımdır.

Türküstan diyarında mədrəsələr sayca çox olmamışdır. 1892-ci ilin məlumatına əsasən, Qırğızıstanda cəmi 7 mədrəsə fəaliyyət

göstərirdi ki, onlardan 5-i Oş şəhərində yerləşirdi. Lakin mədrəsələrin sayca çox və daha geniş fəaliyyət göstərdiyi diyar Özbəkistan olmuşdu. Burada hətta XIX əsrin sonlarında belə dini məktəblərin sayı artmaqda idi.

Mərkəzi Asiya və Qazaxıstanın işğalı başa çatdıqdan sonra çar hökuməti din xadimləri, ruhanilərin xalq arasındakı hörmət və nüfuzunu nəzərə alaraq dövlət məmurlarını dolayı yolla dini məktəblərə təsir göstərməyə vadar edirdi. Dini məktəblərdə təbliğat aparmaq, onlara dərs vəsaiti, dərslik və s. köməklik göstərmək, bu məktəbləri məscidlərin nəzarətindən çıxararaq dövlətə tabe etmək məqsədi güdülürdü. Sonralar dini məktəbləri azaltmaqla rus-yerli məktəbləri yaratmaq nəzərdə tutulurdu. Bu dövrdə Kazan şəhərində nəşr olunmuş xüsusi kitablar, o cümlədən Quranın çap edilmiş nüsxələri Türküstan vilayətinə gətirilirdi.

XIX əsrin ikinci yarısında mədrəsələrin təhsil proqramlarında dəyişikliklər edilmişdi. Türküstanda Buxara islam dini təhsilinin mərkəzi kimi öz əvvəlki şöhrətini qoruyub saxlaya bilmişdi. Buraya Volqaboyu türkləri də təhsil almağa gəlirdilər. Lakin mədrəsələr panislamizm və fanatizmi təbliğ etməkdə günahlandırılırdı. Bu isə mədrəsələrin fəaliyyətinə məhdudiyyət qoyulmasında bir bəhanə idi. Digər bir tərəfdən isə, Türküstan general-qubernatorluğuna yerli, lakin rus dilində danışıb-yazmağı bacaran savadlı məmurlar lazım idi. Ona görə də yerli məktəblərdən fərqli olaraq rus əhalisi arasında maarif işi daha geniş vüsət alırdı. Bu məqsədlə K.P.Kaufman tərəfindən üç nəfərdən–M.İ.Brodovski, A.L.Kun və M.A.Terentyevdən ibarət komissiya yaradılmışdı. Hələ 1871-ci ildə tədris işi quruculuğu layihəsinin tərtib olunmasına baxmayaraq, komissiya öz işini 1873-cü ilə kimi davam etdirmişdi. Layihədə kişi gimnaziyası, müəllim seminariyası, seminariyalar nəzdində nümunəvi məktəblər, qəza xalq məktəbləri və ibtidai məktəblər açılması nəzərdə tutulurdu. Bəzi dəyişikliklər edilməklə layihə 1875-ci ildə təsdiq edilmişdi. Bununla əlaqədar olaraq 1876-cı ildə Türküstan tədris müəssisələri idarəsi yaradılmışdı.

Çarizmin böyük dövlətçilik və ruslaşdırma siyasətinin məqsədi rəsmi orqanlar və ayrı-ayrı şəxslərin məlumatlarında da öz əksini tapmışdı. 1870-ci ildə Xalq Maarif Nazirliyinin məlumatında qeyd

edilirdi ki, ölkənin ucqarlarında yaşayan bütün «özgə»lərin təhsil sisteminə müəyyən diqqət yetirilməsi onların rus xalqı ilə qaynayıb-qarışmasına kömək edə bilər. General K.P.Kaufman göstərirdi ki, diyarda xalq təhsilinin inkişafı rusların maraqlarına uyğun olaraq qurulmalıdır. Bu baxımdan rus-qırğız məktəblərinin açılmasının başlıca məqsəd və vəzifəsi qırğızlara yalnız rus yazı və təhsilini öyrətmək deyil, həm də onları rus dünyagörüşü, adət və ənənələri ilə tanış etmək idi. Digər tərəfdən rus-qırğız məktəblərində qazax dilinin tədris olunması qadağan edilmişdi. Qazaxıstana göndərilən rus missionerlərinə xristian dininin təbliği və yerli əhalini çara sadiq təbəə olmağa sövq etmək tapşırılmışdı. Türküstanda pravoslav keşişləri üç rus-yerli məktəbi maliyyələşdirirdi. Bu məktəblər monastır nəzdində fəaliyyət göstərirdi. Qazax dilinin tədris olunmaması və xristianlığın təbliği qazaxlar arasında belə şayiəyə səbəb olmuşdu ki, uşaqları rus-qırğız məktəblərində oxutmaq guya onları xristian etmək deməkdir.

Məktəb və mədrəsələrin fəaliyyətini məhdudlaşdırmaqla rus-yerli və rus məktəblərinin açılmasına daha çox diqqət yetirilirdi. Dövlət tərəfindən maliyyələşdirilən rus-yerli məktəblərdə rus və yerli türk xalqlarının uşaqları birlikdə təhsil alırdılar. Türküstan general-qubernatoru K.P. Kaufman bildirirdi ki, yeni təşkil olunan məktəblərdə tədris olunan fənləri yerli şəraitə uyğunlaşdırmaqla elə sənət sahələri öyrədilməlidir ki, onlar gələcəkdə «qazanc mənbəyi»nə çevrilsin. Eyni zamanda qızların təhsilə cəlb olunması da nəzərdə tutulurdu.

XIX əsrin 50-ci illərində Qazaxıstanın ərazisi Rusiya tərəfindən işğal edildikdən sonra Turqay vilayətinin inzibati mərkəzi olan Orenburqda xüsusi məktəblər fəaliyyətə başlamışdı. Onların təşkil edilməsində əsas məqsəd valideynləri dövlətə sədaqətlə xidmət edən şəxslərin uşaqlarından gələcəkdə sərhəd idarəsi, habelə digər yüksək vəzifələri tutmaqdan ötrü kadrlar hazırlanması idi. 1856-cı ildə Omsk şəhərində rus və qazax uşaqlarının təhsil aldığı 12 rus-yerli məktəb fəaliyyət göstərirdi. Yerli şagirdlər müxtəlif sənətlərə yiyələnməklə yanaşı rus dili və qrammatikasını, rus poeziyasını öyrənirdilər. 1863-cü ildə Perovskdə, 1865-ci ildə Qazalıda qızlar məktəbi, 1866-cı ildə Daşkənddə rus, 1870-ci ildə Səmərqənddə

rus-yerli məktəb, 1873-cü ildə Daşkənddə üçillik xalq məktəbi, 1875-ci ildə Çimkənddə xalq peşə məktəbi, 1879-cu ildə Bişkekdə və 1884-cü ildə isə Daşkənddə rus-yerli məktəblər açılmışdı. 1886-cı ildə Sırdərya vilayətində rus-yerli məktəb fəaliyyətə başladı. Həm yerli xalqın dilini, həm də rus dilini bilən kadrların hazırlanmasında rus-yerli məktəblər mühüm rol oynayırdı. Ona görə də bu məktəblərə diqqət getdikcə artırdı. 1896-cı ildə Türküstan diyarında 28 rus-yerli məktəb var idi.

Bu dövrdə müsəlman məktəb və mədrəsələri ilə rus tipli məktəblər arasında nisbət dəyişmişdi. Əgər 1872-ci ildə 3821 nəfərin təhsil aldığı 154 məktəb və mədrəsə var idisə, 1899-cu ildə şagirdlərin sayı 1679-a, məktəb və mədrəsələrin sayı isə 60-a endirilmişdi.

Daşkənd xalq məktəbində rus dili, tarix və coğrafiya geniş tədris olunurdu. Rus-yerli məktəblərdə dünyəvi fənlərin keçirilməsi qənaətbəxş deyildi.

Şərq, eləcə də Qərb ölkələri haqqında elmi biliklərin tədrisi demək olar yox dərəcəsində idi. Bununla yanaşı Türküstan əhalisi üçün Avropa və rus mədəniyyəti nümunələri yad olduğuna görə onları qavramaq çətinlik yaradırdı. Lakin bu o demək deyildi ki, onlar savadlanmaya meylli deyildilər. Onlar yeni açılan məktəblərdə ilk vaxtlarda həvəslə oxumağa çalışırdılar. Amma yerli xalqlara qarşı yürüdülən ayrı-seçkilik siyasəti, islami dəyərlərin məhdudlaşdırılması bu məktəblərə qarşı xalqda inamsızlıq yaradırdı. Lakin tarixi ədəbiyyatda rus-yerli məktəblərin yerli əhali arasında nüfuz qazanması və həmin məktəblərdə öz uşaqlarının oxumasında yaxşı nəticələri görən valideynlərin yerli hökumətdən belə məktəblərin açılmasını xahiş etmələri haqqında məlumatlar da verilir. Belə təşəbbüslərdən biri 1898-ci ildə Zakaspi vilayətində olmuşdu.

Əlbəttə, çarizm maarif sahəsində müstəmləkə siyasətini həyata keçirmək üçün təkcə rus-yerli, rus məktəbləri yaratmaqla kifayətlənməyərək, bu məktəblərin yanında əhaliyə rus dili öyrədən axşam kursları, bazar günü məktəbləri də açırdı. 1884-cü ildən Türküstan diyarı xalq təhsil şöbəsinin yanında rus dili və tarixini öyrədən axşam kursları təşkil olunmuşdu. Hətta «Andlı vərəqələr» /çara sadiq təbəə olacağına söz verən/ Rusiyadan ucqarların məktəblərinə göndərilərək bütün şagird və müəllimlərin onu imzalaması tələb olunurdu.

Tədricən Türküstan diyarının iqtisadiyyatını idarə etməyə nail olan Rusiya maarif sahəsində də bir sıra tədbirlər həyata keçirirdi. Yerli dil və din yavaş-yavaş sıxışdırılır, rus dili geniş yayılırdı. Rus-yerli məktəblər, eləcə də yaşlılara aid axşam kursları və bazar günü məktəbləri üçün dərsliklərin hazırlanması və istifadəyə verilməsində Sırdərya vilayətində xalq məktəbinin direktoru S.M.Qramenitskinin böyük xidməti olmuşdu. Lakin o, bir sıra qüsurlara, o cümlədən «Təhsil sistemi»ndə yerli dilin lazımınca nəzərə alınmamasına yol vermişdi.

XIX əsrin 60-70-ci illərində Rusiyada olduğu kimi, milli ucqarların iqtisadiyyatında da yaranan dirçəliş texniki təhsilə ehtiyac doğururdu. Türküstana rus əhalisi və hərbçilərin köçürülməsi ilə əlaqədar olaraq əvvəllər ehtiyac olmayan sənət sahələri əmələ gəlmişdi. 1872-ci il mayın 13-də peşə məktəbləri haqqında fərman verildi. 1879-1886-cı illərdə rus-yerli peşə məktəblərinə şagirdlərlə bərabər yaşlılar da gəlirdilər. 1882-ci ildə Fərqanə, Kokand, Yeni Margilanın peşə məktəblərində yerli rəhbərlər və onların işçiləri üçün rus dilində kurslar təşkil olunmuşdu. 1884-cü ildən yaşlı adamlar üçün vilayətdə axşam kursları açılmışdı. Bu kursların açılmasına aid afişalarda yazılırdı ki, rus dilini yaxşı ticarət etmək və qanunları bilmək üçün öyrənmək vacibdir. 1884-1885-ci təhsil ilinin sonlarında Özbəkistan ərazisindəki 8 peşə məktəbində yerli əhalidən 103 nəfər təhsil alırdı. 1894-cü ildə Daşkənddə rus tacirlərinin uşaqları üçün peşə məktəbləri açılmışdı. Belə məktəblər Sırdərya, Səmərqənd və Fərqanə vilayətlərində də təşkil edilmişdi.

Türküstan diyarında məktəb və mədrəsələr, həmçinin rus-yerli, peşə məktəbləri ilə yanaşı Rusiyanın Avropa hissəsində olan təhsil sistemi üzrə fəaliyyət göstərən rus məktəbləri də mövcud idi. Rus məktəblərində yerli əhalinin yuxarı təbəqələrinin uşaqları azlıq təşkil edirdilər.

1876-cı ildə Daşkənddə qadın və kişi gimnaziyaları açılmışdı. 1879-cu ildə Daşkənddə Türküstan müəllimlər seminariyası təşkil edilmişdi. Burada rus ibtidai məktəbləri üçün müəllimlər hazırlanırdı. 1880-ci illərin ortalarından etibarən bu seminariyada rus-yerli məktəblər üçün də müəllim kadrları hazırlığına başlanıldı. Daşkənd müəllimlər seminariyasında 1879-1904-cü illərdə təhsil alan 415 nə-

fərdən yalnız 65 nəfəri yerlilərdən ibarət olmuşdu. Bunlar da bütün tələbələrin 15 faizini təşkil edirdi. Həmin tələbələrin 11-i özbək, türkmən, tatar, 54-ü qazax və qırğız idi. Eyni zamanda, Türküstan diyarının gimnaziya və seminariyalarında təhsil alan rus uşaqlarına yerli dillərdən biri öyrədilirdi. Daşkənd müəllimlər seminariyasında qazax, 1884-cü ildən sonra isə özbək dili tədris edilirdi.

Çarizm Mərkəzi Asiya və Qazaxıstanın idarə olunmasını Rusiyanın idarəetmə sisteminə uyğunlaşdırmağa başlamışdı. Ona görə də Türküstan diyarının idarəetmə sistemində rusdilli mütəxəssislərin müəyyən vəzifələrə irəli çəkilməsinə diqqət yetirilirdi. 1891-ci ildə Diyar general-qubernatorluğundan vilayət rəhbərlərinə göndərilən məktubda tələb olunurdu ki, nahiyə başçıları, qazı və başqa vəzifəli şəxslərin öz xidməti borclarını yerinə yetirən zaman yalnız rus dilini işlətmələrinə və bu vəzifələr boşalan vaxt isə rus dilini bilən namizədlərə üstünlük verilməsinə nəzarət etsinlər.

XIX əsrin sonunda Türküstan diyarında yaranmaqda olan milli burjuaziya bəzi islahatların keçirilməsinə meyl edirdi. İslahatçılar ilk növbədə dinin tədrisinin mahiyyətini dəyişdirmədən mövcud dövrün tələblərinə uyğun olaraq köhnə məktəbləri təkmilləşdirməklə onları yenidən qurmağa çalışırdılar.

Hələ XIX əsrin sonunda Kokand və Əndicanda ilk yeniləşdirilmiş tatar məktəbləri meydana gəlmişdi. Tatar müəllimləri əvvəlcə Fərqanədə tatar əhalisi üçün yeni üsullu məktəb təşkil etmişdilər. Bu məktəbdə özbək bəylərinin uşaqları da təhsil alırdılar.

1893-cü ildə Krımdan Səmərqəndə gələn müsəlman məktəblərinin islahatçısı İsmayıl bəy Qaspiralı /1851-1914/ burada ilk yeni üsullu məktəblərlə tanış olmuşdu. O, yeni üsullu /üsuli-cədid/ məktəblərin müəllimlərinə bir sıra məsləhətlər verməklə köməklik göstərmişdi. Lakin İsmayıl bəy Qaspiralı Səmərqənddə pantürkizm yuvasının əsasını qoyanlardan biri və sonralar Özbəkistan cədidçilərinə yaxından köməklik göstərən bir şəxs kimi qələmə verilmişdi. Əslində maarifpərvər və mütərəqqi görüşlü İsmayıl bəyin məqsədi Rusiyanın tərkibində olan türk xalqlarının təhsil və mədəniyyətinin inkişafına kömək etmək idi.

«Üsuli-cədid»in məqsəd və məramı türk xalqlarının birliyi-vahid dil, ədəbiyyat, mənəvi mədəniyyətin təbliği, islam bayrağı

altında azadlıq ideyalarının yayılması, maarif və mədəniyyətin inkişafı, cəhalət və fanatizmin tənqidindən ibarət idi. Təhsildə yeni islahatların keçirilməsinin tərəfdarı olan müəllim və ziyalılar yeni üsullu məktəblərdə islam dininin tədrisini təkmilləşdirməklə yanaşı dünyəvi elmlərin keçirilməsini əsas götürürdülər. Bu məktəblərdə təhsil müddəti 4 il idi. Yeni üsullu məktəblərin əleyhinə çıxanların bir qismi özlərini «üsuli-qədimçi»lər adlandırırdı. Bunlar din xadimləri idilər. Onlar bu məktəbləri mədrəsələrə rəqib görürdülər. Çara «sədaqət andı içmiş» bir qisim mollalar «üsuli-cədid» məktəblərinin yaranmasının əleyhinə xalq içərisində təbliğat aparırdılar. Onların fikrincə, islahatçı müəllimlər ateist fənləri keçməklə uşaqları haqq yolundan döndərirdilər. Əslində XIX əsrin sonundan etibarən fəaliyyətə başlayan yeni üsullu məktəblərin yaradıcıları islami bilikləri tədris edərkən din xadimlərinə arxalanırdılar. Yeni üsullu məktəblərdə həm də islamı bir elm kimi keçməklə sonuncu sinifdə Qurandan sınaq imtahanı olurdu. İsmayıl bəy Qaspiralının «Tərcüman» qəzetində nəşr etdirdiyi «Üsuli-cədid»in proqramını nəinki yerli ruhanilər, həm də İstanbul, Qahirə və digər Şərq ölkələrində təhsil almış din xadimləri də müdafiə edirdilər. Çar hökumətinin müvafiq orqanları isə yeni üsullu məktəblərin fəaliyyətini dayandırarkən onları panislamizmin mərkəzi kimi dəyərləndirirdi.

Cədidçilər türkçülük və islamçılıq amilinin köməyilə milli birlik və azadlığa qovuşmağa üstünlük verirdilər.

Lakin onu da qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısında Mərkəzi Asiya və Qazaxıstan xalqlarının dünyəvi təhsil sisteminə keçməsi irəliyə doğru atılmış bir addım hesab edilə bilər.

**Elm.** Çar Rusiyası hələ Mərkəzi Asiya və Qazaxıstanı işğal etməmişdən əvvəl bu regionda elmi axtarışlar aparmağa diqqət yetirmişdi. XIX əsrin sonunda isə bu sahəyə maraq daha da artmışdı. Elmi ekspedisiyaların təşkili, buraya sürgün edilmiş elm adamlarının regionun öyrənilməsinə marağının olması, bəzi ziyalıların müstəqil olaraq Türküstanda tədqiqat işləri aparmaları elmi əlaqələrin yaranması və inkişafında mühüm rol oynamışdı. Əlbəttə, çar Rusiyasının iqtisadi maraqları dövlət üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Mərkəzi Asiya və Qazaxıstanda elmi-tədqiqat işləri mürəkkəb siyasi və sosial-iqtisadi şəraitdə aparılırdı. Tarixçi və şair

Şir Məhəmməd Munis və onun vəfatından sonra qohumu Məhəmməd Rza özbək dilində Xivə xanlığının tarixini yazmışdılar. Bu əsərdə Xivənin siyasi tarixi, Xorasan və Buxaraya hücum, türkmən və qaraqalpaqların üsyanları öz əksini tapmışdı. Fərqanənin XIX əsrin birinci yarısına aid tarixinin öyrənilməsində Hakim xanın xatirələri ilk mənbədir.

1819-cu ildə Türkmənistan və Xivəyə səyahət edən N.Muravyov Xəzər dənizinin şərq sahili haqqında yeni coğrafi məlumatlar vermişdi. 1820-ci ildə Buxarada ekspedisiyada olan Neqri bölgənin təbii şəraiti, flora və faunası haqqında məlumatlar əldə etmişdi. Berqin 1825-ci il ekspedisiyası Aralın qərb sahilinin öyrənilməsi məqsədini daşımışdı. Q.Karelin 1832, 1834 və 1836-cı illərdə Aral-Xəzər üzrə səyahət zamanı etnoqrafiya, botanika, zoologiya və geologiyaya aid mühüm məlumatlar toplamışdı. 1846-cı ildə Manqışlaq yarımadasının böyük bir hissəsini, o cümlədən Ak-Tau, Kara-Tau dağlarını tədqiq edən İvanin yarımadanın xəritəsini tərtib etmişdi.

Peterburqda yaradılmış Rus Coğrafiya Cəmiyyətinin /1840-1917/ Mərkəzi Asiyanın öyrənilməsində mühüm rolu olmuşdu. Bu zəngin diyarın tədqiq edilməsində Cəmiyyətin üzvlərindən alim və səyahətçilər N.A.Severtsev, A.P.Fedçenko, İ.V.Muşketov, P.P.Semyonov və b. əsərləri elmə dəyərli töhfədir. Rus coğrafiyaşünası P.P. Semyonov /1827-1914/ Tyanşanın dağlıq sistemi xüsusiyyətlərinin öyrənilməsinin əsasını qoymuşdu. Onun topladığı məlumatlar əsasında alman coğrafiyaşünası A.Humboldtun Tyanşanda vulkan püskürmələri haqqında mülahizəsi təkzib edilərək Alp buzlaqlarının mövcud olması sübuta yetirilmişdi.

1848-1849-cu illərdə Aral dənizi, Amudərya və Sırdəryanın müəyyən hissələri tədqiq olunmuşdu. 1850-ci ildə A.İ.Butakovun apardığı ekspedisiyalar nəticəsində Aral dənizinin xəritəsi tərtib olunaraq çap edilmişdi. Onun təklifi ilə Aral dənizində gəmiçiliyin açılışına başlanılmışdı. A.İ.Butakovun tədqiqatı sayəsində Rusiya Avropada birinci olaraq Çinlə Qərbi Türküstan vasitəsilə təhlükəsiz əlaqə xətti yaratmışdı.

1877-1879-cu illərdə İ.V.Muşketov /1850-1902/ Altay, Pamir, Buxara, Hissar, Amudərya və Qızılqumda geoloji axtarışlar aparmış, 1880-ci ildə Zərəfşan buzlağına ekspedisiyaya getmişdi.

İ.V.Muşketov Q.D.Romanovski ilə birgə 1881-ci ildə birinci dəfə Türküstanın geoloji xəritəsini tərtib etməklə Mərkəzi Asiyanın geoloji quruluşu haqqında elmi konsepsiya irəli sürmüşdü. Türküstanı öyrənərkən apardığı tədqiqatlar əsasında İ.V.Muşketov «Türküstan» adlı əsər yazmışdı. XIX əsrin 80-ci illərində Məhəmməd Salih XVIII-XIX əsrlər üzrə Daşkəndin tarixi xronikasını tərtib etmişdi.

«Türküstan məcmuəsi ...»nin tərtib edilməsinə Peterburqda rus biblioqrafı V.İ.Mejovun Mərkəzi Asiya, ümumiyyətlə, Türküstan diyarına aid rus və Qərbi Avropa xalqlarının dillərində olan qəzet kəsikləri, jurnallardan mətnlər və hətta kitabların toplanılması ilə başlanılmışdı. 1888-ci ildə bu məcmuənin 416-cı cildi çapdan çıxmışdı. Lakin çar hökuməti «vəsait olmadığına görə» işin dayandırılması haqqında sərəncam vermişdi.

Mərkəzi Asiya və Qazaxıstanın tədqiq olunması görkəmli rus alimlərinin marağına səbəb olmuşdu. Lakin dövlətin elmi idarələri vəsaitin olmamasını bəhanə gətirərək məqsədyönlü tədqiqatların aparılmasına mane olurdular. Buna görə də həvəskar tədqiqatçılar istədikləri problemlə məşğul ola bilmirdilər. Nəticədə bir sıra dəqiq elmlər-kimya, fizika, riyaziyyat, mexanika və s. sahələr elmi tədqiqatdan kənarda qalırdı.

Bütün bunlara baxmayaraq, yeni təşkil olunmuş cəmiyyətlər elmi idarələrin rolunu qismən də olsa yerinə yetirirdilər. Rus zooloqu və səyahətçisi A.P.Fedçenkonun fəal iştirakı ilə 1870-ci ildə Təbiətşünaslıq, Antropologiya və Etnoqrafiya Həvəskarları Cəmiyyətinin Türküstan şöbəsi yaradıldı. 1879-cu ildə Cəmiyyət özünün birinci və həm də axırıncı buraxılışı olan «Təbiətşünaslıq, Antropologiya və Etnoqrafiya Həvəskarları Cəmiyyətinin Türküstan şöbəsinin Xəbərləri»ni nəşr etdirdi. A.P.Fedçenko 1868-1871-ci ildə Mərkəzi Asiyanın cənub hissəsini tədqiq etmişdi. O, Türküstan və Alay silsilələri, Alay və Fərqanə vadilərini öyrənmiş, ən yüksək zirvəsi ilə Zaalay silsiləsini kəşf etmişdi. Fedçenko buzlağı onun şərəfinə adlandırılmışdı. A.P.Fedçenko böyük elmi əhəmiyyət daşıyan "Türküstana səyahət" əsərinin müəllifidir.

1871-ci ildə Mərkəzi Asiya Elmi Cəmiyyəti yaradılmışdı. Cəmiyyətin əsas məqsədi tarix, coğrafiya, etnoqrafiya, statistika, iqtisadiyyata aid məlumatları toplamaq, onun üzərində işləmək və yay-

maq idi. 1867-ci ildə Daşkənddə meteoroloji stansiya yaradıldı. 1869-cu ildə Hərbi Topoqrafiya şöbəsi təşkil olundu. 1874-cü ildə Pulkova rəsədxanasının köməyilə Daşkənddə rəsədxana təşkil edildi. Rəsədxananın əməkdaşları hazırkı Mərkəzi Asiya dövlətlərinin ərazilərində 870 astronomiya məntəqəsi təşkil etmişdilər. Burada elmi-tədqiqat işləri aparılırdı. Rəsədxanada regionun iqlim və coğrafiyasının öyrənilməsində seysmoloqların mühüm rolu olmuşdu.

1868-ci ildə Türküstan Statistika Komitəsi təşkil edildi. Komitənin topladığı materiallar diyarın öyrənilməsində mühüm rol oynamışdı. 1871-1874-cü illərdə hər il «Türküstan diyarı statistikasının öyrənilməsi üçün materiallar» nəşr olunurdu. 1887-ci ildən əyalət statistika komitələri təşkil edilmişdi. Bunlardan Sırdərya, Səmərqənd və Fərqanə komitələrini göstərmək olar.

1895-ci ildə həvəskar arxeoloqlar Türküstan Həvəskar Arxeoloqları dərnəyində birləşdilər. İxtisaslı kadrların çatışmamazlığı müəyyən çətinliklər yaradırdı.

Türküstan diyarının memarlıq abidələrindən əsasən Səmərqənd abidələri öyrənilmişdi. 1895-ci ildə Mərkəzi Arxeologiya Komissiyası memar A.V.Şusevin iştirakı ilə Səmərqənddə Teymurun mavzoleyi olan Quri Əmirin memarlıq cəhətdən öyrənilməsi üçün ekspedisiya təşkil etmişdi. Bu komissiyanın işinin nəticəsi 1905-ci ildə albom şəklində nəşr edilmişdi.

1897-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Türküstan şöbəsi yaradıldı.Türküstan şöbəsi regionun təbiət və tarixi, bitki və heyvanat aləmi, iqliminin öyrənilməsi sahəsində xeyli iş görmüşdü. Onlardan biri 1899-1903-cü illərdə L.S.Berqin Mərkəzi Asiyanın ən böyük su hövzəsi olan Aral dənizi və Balxaş gölünü tədqiq etməsi idi. Türküstan şöbəsi əldə edilmiş nailiyyətləri «Aral ekspedisiyasının elmi nəticələri» adı altında on bir buraxılışda çap etmişdi. Eyni zamanda Rus Texnika Cəmiyyətinin Türküstan şöbəsi, Türküstan Tibb Cəmiyyəti, Türküstan Baytarlar Cəmiyyəti, Türküstan Kənd Təsərrüfatı Cəmiyyəti və b. fəaliyyət göstərirdi.

Türküstan diyarının xalq təsərrüfatının öyrənilməsi böyük maraq doğururdu. A.F.Middendorfun «Fərqanə vadisi» əsəri, qraf K.K. Palenin Fərqanədə apardığı yoxlamanın hesabatı indi də öz elmi əhəmiyyətini itirməmişdir.

Mərkəzi Asiyada rus alimlərini maraqlandıran həm də onun zəngin keçmiş tarixi idi. XIX əsrin 20-ci illərində İ. Senkovski Buxara xanlığının tarixinə aid «Mukim xanın tarixi» adlı əlyazmasını tərcümə etmişdi. XIX əsrin ikinci yarısında rus tarixçilərindən A.L.Kun bir çox tarixi abidələr haqqında dəqiq məlumatlar verməklə, həm də Xivənin tarixini yazmış, V.P. Nalivkin isə Kokand xanlığının tarixi ilə məşğul olmuşdu. Mərkəzi Asiyanın tarixinə aid mühüm mənbələrdən biri olan X əsrdə yaşamış Məhəmməd Narşahinin «Buxaranın tarixi» əsəri N.S.Lıkoşin tərəfindən rus dilinə tərcümə edilmişdi. P.S.Savelyevin numizmatikaya aid materialları nəşr olunmuşdu.

1853-cü ildə Çokan Vəlixanov Qərbi Sibir general-qubernatorluğunda məsləhətçi kimi işə başladı. O, Rusiyanın Çin dövləti ilə sərhəd rayonlarına gedən ekspedisiyaların rəhbəri təyin edilmişdi. Bu ekspedisiyalar Cənubi Altay, Cənubi Alay bölgəsi və İssıkkul gölü rayonunu əhatə edirdi. 1856-cı ildə İssıkkul ekspedisiyası zamanı elmi cəhətdən çox qiymətli məlumatlar əldə edilmişdi. Akademik V.V.Velyaminov-Zernovun əsərləri numizmatika, Buxara və Kokand xanlığının tarixinə həsr olunmuşdu. Onun «Kasimov çarları və çariçaları haqqında tədqiqat» əsərində Mərkəzi Asiyanın tarixinə aid qiymətli tarixi məlumatlar öz əksini tapmışdı. Nisə, Anau və qədim Mərvin xarabalıqları alimlərin diqqətini özünə cəlb etməklə tezliklə dünya şöhrəti qazanmışdı. 1894-cü ildə V.A.Jukovski apardığı tədqiqat nəticəsində «Zakaspi diyarının uzaq keçmişi. Qədim Mərvin xarabalıqları» əsərini çap etdirmişdi.

Bəzi rus publisist və alimləri, o cümlədən V.V.Radlov, Q.N.Potanin və başqalarının apardıqları tədqiqatlar və nəşr etdirdikləri əsərləri elmi-mədəni əlaqələrin yaranması və inkişafına öz töhfələrini vermişdi. Səyahətçi, arxeoloq, dilçi, folklorşünas akademik V.V.Radlov həyatının bir çox ilini Qazaxıstanın öyrənilməsinə həsr etmişdi. V.V.Radlov Şərqi və Mərkəzi Qazaxıstanda kurqan-qəbirlərin öyrənilməsi ilə əlaqədar olaraq yaradılan ekspedisiyanın rəhbəri idi. O, türk xalqlarının dili və Qazaxıstanın maddi mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olmuşdu. V.V.Radlov Mərkəzi Asiya və Qazaxıstanı gəzərkən qazax nağıl, rəvayət, mahnı, atalar sözlərini öyrənmişdi. "Türk tayfalarının xalq ədəbiyyatından nümu-

nələr" (c. I-XI) V.V.Radlovun mühüm əsərlərindən biridir. Bunun üçüncü cildində qazax xalqının əsas epik əsərləri toplanılmışdı. V.V.Radlovun digər əsərlərindən biri də "Türk dillərinin lüğəti"dir (c. I-IV). Onun "Altay əhalisinin mifologiyası və dünyagörüşü" əsəri böyük maraq doğurur. V.V.Radlovun "Sibir qədim zamanlarda" əsərində Şərqi və Mərkəzi Qazaxıstanın arxeoloji abidələrinin dəqiq tədqiqi Qazaxıstan elmi üçün dəyərli məxəzdir.

Q.N.Potanin bir çox əsərini Qazaxıstanın etnoqrafiyasının öyrənilməsinə həsr etmişdir. O, 1889-cu ildə nəşr etdirdiyi "Orta əsr Avropa eposunda Şərq motivləri" əsərində qazax folkloruna xeyli yer vermişdi.

Tibbi müəssisələrin olmaması üzündən regionda epidemiyaların yayılma miqyası və kütləviliyi geniş idi. XIX əsrin sonundan etibarən bu sahədə müəyyən irəliləyiş olduğu nəzərə çarpırdı. İssıkkul gölü rayonunda yaradılan və müalicə cəhətdən müvafiq məntəqənin olması əhalinin sağlamlığı üçün əhəmiyyət kəsb edirdi. Həkim M.Şişova iqlimin öyrənilməsi, suyun tərkibi və xəstəliklərin yaranmasının səbəblərini tədqiq etmişdi. 1876-cı ildə Daşkənddə yaradılmış laboratoriyada həkim Larionovun rəhbərliyi altında bir qrup mütəxəssis Kokandın suyunun tərkibini müəyyənləşdirmiş və ondan istifadə olunmasını lazım bilməmişdi. Həmin ildə müdiriyyət Kokand üçün iki ştat vahidi – həkim və feldşer ayımışdı. 1879-cu ildə "Kokandın ümumi səhiyyə komitəsi" yaradılmışdı. 1882-ci ildə 3032 nəfərə tibbi yardım göstərilmişdi. 1887-ci ildə Fərqanə vilayətində ambulatoriya açılmışdı. Ambulatoriyada yüngül cərrahiyyə əməliyyatları və təcrübələr də aparılırdı. 1887-1897-ci illərdə 71961 nəfər tibbi yardım almışdı. Onlardan 57128 nəfəri özbək olmuşdu. 1890-cı ildə Fərqanədə xəstəxana, 1892-ci ildə isə Kokandda aptek açılmışdı. 1895-ci ildə xəstələri mineral sularla müalicə etmək üçün tibb müəssisəsi yaradılmışdı.

Regionda tibbi baxımdan baytarlıq xidməti yox dərəcəsində idi. Yerli əhalinin üçdə iki hissəsinin maldarlıqla məşğul olduğu nəzərə alınarsa, onda nə qədər acınacaqlı vəziyyət yarandığının şahidi olarıq. Tibbi xidmətdə yaranmış çətinlikləri Rus Coğrafiya Cəmiyyətinin Türküstan şöbəsi nəzdində təşkil olunmuş Tibb və Baytarlıq cəmiyyətləri müəyyən dərəcədə həll edirdilər. Ümumiyyətlə, Mərkəzi Asiya və Qazaxıstanda tibbi xidmət aşağı səviyyədə idi.

Türküstanda elmi-tədqiqat işlərinin aparılmasında qarşıya çıxan əsas çətinliklərdən biri kadr problemi idi. Regionda yaranmış kadr azlığını aradan qaldırmaq üçün vahid elmi mərkəzin olmaması bu problemin həllində maneələrdən birinə çevrilirdi. Rusiyanın Mərkəzi Asiya və Qazaxıstanda iqtisadi mənafeyi daha güclü idi. Siyasi marağı isə dəyişməz olaraq qalırdı. Elmi potensialı artırmaq, kadr hazırlığı məsələsini nizamlamaq mərkəz üçün bir o qədər də məqsədəuyğun deyildi. Regionda aparılan tədqiqatların maddi-texniki bazasına diqqət yetirdikdə aydın olur ki, elmi işlərlə məşğul olanların əksəriyyəti həvəskar tədqiqatçılar və dövlət tərəfindən maliyyələşdirilməyən cəmiyyətlərdən ibarət idi. Türküstanda ali məktəbin olmaması bu işdə xeyli çətinlik yaradırdı. İxtisaslı milli elmi kadrların hazırlanmasına böyük ehtiyac duyulurdu.

Mərkəzi Asiya və Qazaxıstanda fəaliyyət göstərən elmi təşkilat, cəmiyyət və ayrı-ayrı şəxslər elmi əlaqələrin yaranmasında əsas rol oynayırdılar. XIX əsrin 50-ci illərinin ikinci yarısında Omskda Çokan Vəlixanovla P.P.Semyonov-Tyanşanskinin görüşməsi onların sonrakı elmi əlaqələrinin başlanğıcı olmuşdu. 1857-ci ildə P.P.Semyonov-Tyanşanskinin köməyi ilə Çokan Vəlixanov Rus Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdi. 1858-ci ildə Ç.Vəlixanovun əvvəlki ekspedisiyalarda əldə etdiyi təcrübi bilikləri nəzərə alaraq onu Qaşqara göndərirlər. Ç.Vəlixanovu bu bölgəyə göndərməkdə əsas məqsəd mövcud siyasi abı-havanı öyrənmək idi. Ona qədər Qaşqara göndərilən bir neçə nümayəndə heyətinin taleyi və fəaliyyəti çox da uğurlu olmamışdı. Yerli fəallar onların özündən Rusiya haqqında məlumat toplamağa çalışırdılar. İlk dəfə Qaşqar haqqında Ç.Vəlixanov geniş aspektdə qiymətli məlumatlar toplamışdı. O, bölgənin siyasi həyatı, iqtisadiyyatı, yerli əhali və onların məişəti, flora və faunası, iqlimi haqqında məlumatlar əldə etmişdi. Onun əməyi və fəaliyyəti Peterburqda Xarici İşlər Nazirliyi və Rus Coğrafiya Cəmiyyəti tərəfindən yüksək qiymətləndirilmişdi. Gördüyü işlərin nəticələri ilə bağlı Ç. Vəlixanovu Peterburqa dəvət etmişdilər. Ç.Vəlixanovun uyğurlar haqqında topladığı qiymətli məlumatlar onun uyğurşünas kimi tanınmasında böyük rol oynamışdı. XIX əsrin 50-60-cı illərində Ç.Vəlixanovun Sinçuyandan topladığı materiallar bu gün də öz əhəmiyyətini itirməmişdir.

O, 1864-cü ildə Şərqi Türküstanda baş vermiş uyğur və dunqanların üsyanlarını öz əsərində lazımınca əks etdirmişdi. Çokan Vəlixanovun Biçurin, Kazım bəy, Humboldt, Əbu-l-Qazi, Rəşid əd-Dinin və başqalarının uyğurlar haqqında verdiyi məlumatlardan xəbəri var idi. Onun elmi və ədəbi fəaliyyəti zəngin olmuşdu. Alimin vəfatından sonra Rus Coğrafiya Cəmiyyəti onun topladığı materialları çap etmək qərarına gəlmişdi. Bu işdə P.P.Semyonov-Tyanşanski və K.K.Qutkovskinin böyük rolu olmuşdu. N.İ.Veselovski 1904-cü ildə Ç.Ç.Vəlixanovun «Məqalələr toplusu»nu çap etdirmişdi. Bir çox rus inqilabçıları Çokan Vəlixanovun Kokçetavdakı kəndində istinadgah yeri tapmışdı. Ç.Vəlixanovla dostluq əlaqələri yaratmış F.M.Dostoyevski onu Peterburqlu şairlər Maykov, Qriqoryev və başqaları ilə tanış etmişdi.

Elmi əlaqələrin yaranması və genişlənməsində böyük rol oynamış təşkilatlardan biri də zooloq A.P.Fedçenkonun fəal iştirakı ilə yaradılmış Təbiətşünaslıq, Antropologiya və Etnoqrafiya Həvəskarları Cəmiyyətinin Türküstan şöbəsi idi. Görkəmli rus alimləri N.A.Severtsev, İ.V.Muşketov və V.F.Oşanin bu şöbənin üzvləri olmuşdular. V.F.Oşaninin rəhbərliyi altında Cəmiyyətin 1878-ci ildə təşkil edilmiş ekspedisiyası zamanı I Pyotr adına dağ silsiləsi və Muk-Su çayının mənbəyindəki buzlaq aşkar edilmişdi.

Daşkənddə açılmış kitabxanaya Rusiya İmperator Elmlər Akademiyası, universitetlər, bəzi kitabxanalar, Rus Coğrafiya Cəmiyyəti, Arxeologiya Komissiyası və digər müəssisələr öz kitab fondlarından kitab göndərmişdilər.

XIX əsrdə Türküstanda tərcümə işinin geniş yayılması Mərkəzi Asiyada elmin dərin tarixi köklərə malik olmasını göstərir. Xivədə tarixi əsərlər özbək dilinə tərcümə edilirdi. Mirxond və Xondemirin ümumi tarixi tərcümə olunmuşdu. Eyni zamanda orta əsr ərəb tarixçiləri əl-Məsudi /X əsr/ və İbn əl-Əsirin /XII-XIII əsrlər/ ümumi tarixə aid əsərləri tərcümə edilmişdi. 1868-ci ildə A.L.Kun topladığı 150 vəqf sənədini rus dilinə çevirmişdi.

**Dövri mətbuat. Mədəni-maarif müəssisələri.** XIX əsrin ikinci yarısından sonra Türküstanda nəşriyyat sahəsində müəyyən yeniliklər nəzərə çarpmağa başladı. 1868-ci ildə Daşkənddə ilk mətbəə açıldı. N.A.Severtsevin rus dilində «Dağlıq ölkənin Çu və Narın

yüksəkliyi və oradan Çin Türküstanına gedən yol haqqında qeydlər» kitabı çap olundu. 1870-ci ildə başqa daha böyük bir mətbəə yaradıldı ki, burada diyarda dövri mətbuatın əsasını qoyan ilk rəsmi qəzet «Türküstan xəbərləri» çıxmağa başladı. Həmin ildən bu qəzetə ərəb əlifbası ilə özbək və qazax dilində əlavələr çıxırdı. Əlavələr ayda 2 dəfə özbək və 2 dəfə də qazax dilində buraxılırdı. Bu əlavə 1883-cü ilin əvvəlində dövlətin çox da böyük olmayan «Türküstan vilayətinin qəzeti»nə çevrildi. Qəzet 500-600 tirajla həftədə bir dəfə özbək dilində çıxırdı. Rəsmi xəbərlərdən başqa qəzetdə Rusiya, Çin və Hindistanın qısa tarixi və coğrafiyası haqqında məlumatlar da verilirdi. 1888-ci ildə Daşkənddə S.A.Portsevin yaratdığı mətbəə Türküstanda bütün mətbəələrin milliləşdirilməsinə kimi /1918/ fəaliyyət göstərmişdi. 1874-cü ildə Xivədə, 70-ci illərin sonunda Xarəzm, Buxara, Səmərqənd, Əndican və Türküstanın başqa şəhərlərində litoqrafiya yaradıldı. 1883-cü ildə Daşkənddə litoqrafiya üsulu ilə Sufi-Allayarın «Zəiflərin mətinliyi» kitabı çap edildi. Mərkəzi Asiyada kitabların geniş yayılmasında litoqrafiya böyük rol oynamışdı.

1898-ci ildən Daşkənddə «Rus Türküstanı» adlı qəzet çıxarılırdı. Bu qəzetdə müxtəlif problemlərə aid materiallar çap olunurdu. Türkmənistanda 1895-ci ildən «Zakaspi icmalı», 1899-cu ildən «Aşqabad» adlı iki qəzet nəşr edilir, «Orta Asiya» /1895/ və «Orta Asiya xəbərləri» /1896/ adlı jurnallar çıxırdı.

Daşkənddə ümumi kitabxana və Tokmakda qəza kitabxanası /1870/, Zakaspi vilayətində 15 min fondu olan ümumi kitabxana /1896/ fəaliyyət göstərirdi.

**Ədəbiyyat.** XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanın ədəbi həyatında müəyyən irəliləyiş özünü göstərirdi. Buxaralı şair Mirzə Sadiq 15 min şerdən ibarət «Divan»ın müəllifi idi. II Məhəmməd Rahim xanın göstərişi ilə Xivə poeziyasının antologiyası yaradılmışdı. Bu dövrdə Kokand ədəbi mərkəzə çevrilmişdi. Şairlərdən Fəzli və Məşrəf «Şairlərin külliyyatı» /«Məcmuai-şuara», 1821/ adlı Kokand poeziyasının antologiyasını tərtib etmişdilər. Məxmur və Gülxani satirik əsərlərində mövcud haqsızlıqlara qarşı mübarizə aparmışdılar. Şair Hirami Hindistan-İran hekayələri məcmuəsindən «Çordərviş» /Dörd dərviş/ və

«Tutinamə»ni /Tutuquşunun hekayələri/ tərcümə etmişdi. Özbək ədəbiyyatına Azərbaycan ədəbiyyatının təsirini Nizami əsərlərinin tərcüməsi, Füzuliyə yazılan nəzirə və bədii parçalar sübut edir. Özbək ədəbiyyatşünası Vahid Zahidov yazır ki, XVIII əsrin sonu-XIX əsrin əvvəlindəki özbək ədəbiyyatına ən çox təsir edən... şairlərdən biri dahi azərbaycanlı Füzulidir.

XIX əsrin ikinci yarısında Ə. Doniş /1827-1897/, M.M.Mukimi /1850-1903/, Z.X.Furkat /1858-1909/, U.S.Zavkinin /1853-1921/ bədii yaradıcılıqlarında tənqidi realizm və demokratik ideyalar əsas yer tuturdu. Ə.Doniş ölkənin inkişafını maarifdə görürdü. Z.X.Furkat özbək xalqının mədəniyyətinin tərəqqisinə üstünlük verirdi. O, «Elmin əhəmiyyəti» şerində yeni təhsil sistemini dəstəkləyirdi. Mukiminin Kokandda təşkil etdiyi yeni ədəbi dərnəyə Furkat və Zavki də qoşulmuşdu. Mukimi «Yerölçənlər» adlı şerində torpaq sahələrini ölçərkən əhalinin aldadılması, qorxudulub rüşvət alınmasını tənqid edirdi. Zavki «Borc» şerində xalqın ağır həyatının təsvirini verirdi.

Türkmən ədəbiyyatının görkəmli nümayəndələrindən S. Seyidi, M.V. Kəminə, Q.Zəlili, Mollanepes və b. göstərmək olar.

Şair-hərbçi Seyidi /1768-1830/ Buxara əmiri və İran şahına qarşı müharibədə iştirak etmişdi. Bəzi mülahizələrə görə İrana əsir düşdükdən sonra ölmüşdü. S.Seyidi yaradıcılığında vətənə məhəbbət və lirik şerlərə üstünlük verirdi. Türkmən poeziyasında satiranın əsasını qoyan M.V. Kəminə /1770-1840/ dövrün mütərəqqi, qabaqcıl ideyalarını təsvir edərək ictimai-siyasi fikrin inkişafında demokratik cərəyanın möhkəmlənməsinə təsir göstərmişdi. Q.Zəlilinin /1780-1845/ şerləri tarixi sənədlər kimi əhəmiyyətlidir. O, 1816-1817-ci illərdə Xivə xanının qoşunlarına qarşı döyüşdə əsir düşmüşdü. Şairin «Sənə, mənim Vətənim» şerində əsirlərin Tehranda qul kimi satılması və onların acı taleyindən söhbət getmişdi. Mollanepes /1810-1862/ lirik şerlərində yazılı ədəbiyyat və dastanlardan lazımınca istifadə etmişdi. Onun şerləri, «Zöhrə və Tahir» dastanı xalq arasında geniş yayılmışdı. Mollanepesin əsərləri baxşıların /aşıqların/ repertuarında mühüm yer tuturdu. Türkmənlərdə şifahi xalq yaradıcılığı - nağıl, tapmaca, atalar sözü və s. xeyli inkişaf etmişdi. Nəsimi, Füzuli və Nəvai yaradıcılığından türkmən şairləri faydalanmışdılar.

Qazax xalqının poetik əsərlərinin yaradıcısı və mühafizəçisi akınlar /xalq şairi və nəğməkarı, aşıq/ olmuşdu. Bəzi istedadlı akınların yaradıcılıq qabiliyyəti də var idi. XIX əsrin ortalarına kimi dastan və folklor əsərləri yazıya alınmamışdı. Ancaq akınların xidməti nəticəsində onlar qazax və dünya ədəbiyyatının incilərinə çevrilmişdilər. Görkəmli akınlardan Bukar, Dosxoja, Kuderi, Nısanbay, Mahambet, Şerniyaz və b. göstərmək olar. XIX əsrin 30-50-ci illərində Qazaxıstanda İsatay, Kenesar, Janxoja və Beketin başçılığı altında olan üsyanlara həsr edilmiş tarixi mahnıların çox hissəsini akınlar yaratmışdılar.

Mahambet Utemisov /1804-1846/ İsatay Taymanovun başçılığı altında baş vermiş üsyanın iştirakçısı və təbliğatçısı olmuşdu. Şair «İsatay fəryadı» əsərində üsyana, onun başçısı İsatayın şəxsiyyətinə və əməllərinə yüksək qiymət vermişdi. Nısanbay «Kenesar və Naurızbay» poemasında üsyandan müxtəlif epizodları, başçıların şücaətlərini və onların ölümünü təsvir etmişdi.

İbray Altınsarin /1841-1889/ ilk qazax pedaqoqu olmuşdu. O, 1879-cu ildə qazax məktəbliləri üçün «Qırğız müntəxəbatı» əsərini nəşr etdirmişdi. İ.Altınsarin şerlərində elmə, maarifə yüksək qiymət verirdi. Abay Kunanbayev /1845-1904/ qazax realist ədəbiyyatının görkəmli nümayəndəsidir. O, ədəbiyyatın tərbiyəvi, ictimai əhəmiyyətinə daha çox diqqət yetirir, cəmiyyətdəki qüsurlara, haqsızlıq və ədalətsizliyə qarşı mübarizə aparmaqla elmə, maarifə yüksək qiymət verirdi. Maarifpərvər şair dünya mədəniyyətini öyrənməklə yanaşı onun təbliğinə də diqqət yetirilməsini vacib sayırdı. Öz yaradıcılığında Şərq ölkələrinin mədəniyyəti, ədəbiyyat və tarixinin öyrənilməsinə üstünlük verərək Firdovsi, Nizami, Sədi, Nəvai və Füzuli kimi sənət korifeylərinin əsərlərini mütaliə etmişdi. Şair Lermantovun bir sıra şerlərini, Puşkinin «Yevgeni Onegin» əsərindən ayrı-ayrı hissələri qazax dilinə tərcümə etmiş, «Leyli və Məcnun», «Koroğlu», «Şahnamə», «Üç muşketyor» əsərlərini qazaxlar arasında yaymışdı.

Özbək, qazax, qırğız və türkmənlərin xalq yaradıcılığında mahnı, nağıl, dastan və səyyar tamaşalar mühüm əhəmiyyət kəsb edir. Özbək folklorunda «Koroğlu», «Alpamış» dastanları, Xoca Nəsrəddin haqqında lətifələr, qazaxlarda «Koblandı batır», «Kozı Korpeş və

Bayan Slu», qırğızlarda «Manas», türkmənlərdə isə başqa türk xalqları ilə ortaq olan «Kitabi-Dədə Qorqud», «Şahsənəm və Qərib», «Yusif və Züleyxa» və s. dastanlar xalq arasında geniş yayılmışdı. «Manas» dastanının nəğmələri məzmun etibarilə uzaq keçmişə aiddirsə, bəzi nəğmələr XVIII və hətta XIX əsrə təsadüf edir. «Manas»ın müəyyən hissələrini ilk dəfə Ç.Vəlixanov, sonra isə rus şərqşünası V.V.Radlov yazıya köçürmüşlər. Ç.Vəlixanov «Manas» eposunu bütün qırğız mif, nağıl və rəvayətlərinin «ensiklopedik toplusu» hesab edirdi. O, göstərirdi ki, bu eposda qırğızların həyat tərzi, adəti, əxlaqı, dini, coğrafiyası, tibbi dərk etməsi, beynəlxalq münasibətlər və s. öz əksini tapmışdır. Həcm etibarilə «Manas» dünyada ən böyük dastan nümunəsidir. Təəssüflə qeyd etməliyik ki, qırğız xalqının mənəvi sərvəti olan «Manas» keçmiş SSRİ-də dəfələrlə yasaq edilmiş, onu ziyanlı, zərərli əsər kimi qələmə verməyə çalışmışdılar. Lakin buna nail olunmamış, «Manas» həmişə olduğu kimi bu gün də dəyərli bir məxəzdir. 1995-ci ildə onun minilliyinin qeyd olunması buna əyani sübutdur.

Mərkəzi Asiya və Qazaxıstanın Rusiya ilə ədəbi-mədəni əlaqələrinin yaranması və inkişafında mütərəqqi görüşlü rus ziyalılarının və ədəbiyyatşünaslarının böyük rolu olmuşdu. Onlardan bəziləri buraya gəlib türk xalqlarının həyat tərzi, folkloru, ədəbiyyatı və s. ilə tanış olaraq əsərlər yazırdılar. Qazaxıstana sürgün edilmiş rus ziyalıları yerli ziyalılarla əlaqə yaradır, maarifçiliyin, demokratik ideyaların yayılmasına köməklik göstərirdilər.

A.S.Puşkin Qazaxıstanda olarkən yerli xalqın ictimai-siyasi həyatı, folkloru, ədəbiyyatı və incəsənəti ilə maraqlanmışdır. O, 1833-cü ildə burada Y.Puqaçovun rəhbərlik etdiyi üsyanın yayıldığı əraziləri gəzmiş və bu üsyan haqqında məlumatlar toplamışdı. A.S.Puşkin Orenburq, Uralsk və bir sıra qazax aullarında olmuşdu. Digər rus yazıçılarından əvvəl qazax xalq yaradıcılığı ilə tanış olan A.S.Puşkin "Abidə" şerini yazmışdır. XIX əsrin 40-cı illərində V.Dalın topladığı eksponatlar Qazaxıstanın tarix-diyarşünaslıq muzeyində saxlanılır.

**İncəsənət.** Mərkəzi Asiyada peşəkar xalq teatrı qədim zamanlardan mövcud olmuşdur. İlk növbədə Özbəkistanda məzhəkə və kukla teatrları fəaliyyət göstərirdi. XIX əsrin ikinci yarısında məzhə-

kəçi aktyor Sədi Məhsum və kukla teatrının görkəmli nümayəndələri Şo-Muhiddin, Şo-Əzimov və Tursunbay Abducabbarov olmuşdu.

Türküstan Rusiyaya qatıldıqdan sonra burada rus teatrı yaradıldı. 1867-ci ildə Daşkənddə ilk dram dərnəklərinin təşkilatçıları N.F.Ulyanov, S.V.Lexanov və M.Q.Lexanova olmuşdu. Belə dərnəklər bir qədər gec Namanqan, Margilan, Səmərqənd, Əndican, Oş və başqa şəhərlərdə də təşkil edilmişdi. 1877-ci ildə Türküstana ilk peşəkar rus dram truppası gətirildi. 1890-cı ildən sonra rus teatrına gələn özbək və tatarların sayı artmışdı. Gimnastik hərəkətlər və sehrbazlıq əsas etibarilə bayram və ailə şənliklərində göstərilirdi.

Mərkəzi Asiya və Qazaxıstan xalqlarının mədəni inkişafında mühüm əhəmiyyət kəsb edən sahələrdən biri də musiqidir. Qazax musiqisinin inkişafında xidməti olan iki məktəbin nümayəndələrindən bəstəkarlardan Kurmanqazı Saqırbayev /1818-1893/ və Birjansal Kojaqulovu /1832-1895/ göstərmək olar. Onlar öz musiqi əsərlərində qazax xalqının ictimai-siyasi həyatında baş verən hadisələri, qəhrəmanlıq və lirik mahnıları, gələcəyə ümidlə baxmağı tərənnüm edirdilər.

Qırğız musiqisinin bədii üslubunun əsas əlamətləri qazax və altaylıların musiqisinə yaxındır. Eyni zamanda qırğız xalqının musiqi yaradıcılığında vokal və instrumental forma mühüm sayılır. XVIII-XIX əsrin ortalarına qədər olan dövrdə xalq musiqiçilərindən Tilen, Kalçek, Sırtbay və başqalarının adları çəkilir.

XIX əsrin 80-ci illərində xivəli musiqiçi P.N. Mirzaboşi Kamil səsyazma sistemini ixtira etmişdi. Fərqanə vadisində musiqi alətlərindən istifadə etmədən iki nəfərin deklamasiya janrında ifa etdikləri mahnı janrı geniş yayılmışdı. Öz musiqi ifaçılığı ilə fərqlənən görkəmli müğənnilər buxaralı Ata Cəlaləddin Nəsirov və səmərqəndli Xoca Əbdüləziz Əbdürəsulov peşəkar musiqiçilər idilər.

Bu dövrdə Türküstanın əhalisi rus və Qərbi Avropanın klassik musiqi əsərləri ilə tanış olurdular. 1871-ci ildə Daşkənddə həvəskar musiqiçilərin konserti təşkil edilmişdi. Musiqi Cəmiyyəti yaradıldıqdan sonra bu kimi konsertlərin təşkil olunmasına diqqət artmışdı.

1880-ci illərin sonunda Türküstan diyarına musiqi truppalarının qastrolları başlamışdı. Onlardan biri 1889-cu ildə Dm. Slavyanskinin xor kapellasının verdiyi rus xalq musiqisi konserti idi.

A.F. Eyxqorn və V.V.Leysek özbək xalq musiqisini nota köçürərək Rusiya və Avropanın bir sıra ölkələrində təbliğ etmişdilər. A.F.Eyxqorn Mərkəzi Asiya xalqlarının musiqi alətlərinin kolleksiyalarını toplayaraq 1872-ci ildə Moskvada, sonrakı ildə isə Vyanadakı Ümumdünya sərgisində nümayiş etdirmişdi. Onun ikinci kolleksiyası Peterburqda göstərilmiş, sonra isə Moskva konservatoriyası tərəfindən mənimsənilmişdi.

V.V.Leysek bir çox özbək xalq melodiyalarını nəfəslə çalınan musiqi alətləri orkestrində ifa etmək üçün işləyib hazırlamışdı. O, bunu 1897-ci ildə Çexiyada verdiyi konsert proqramına daxil etmişdi. V.V.Leysek nota köçürülmüş özbək, qırğız və tatar musiqilərinin nəşrini də təşkil etmişdi.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Mərkəzi Asiya memarlığında Xarəzmdən olan xalq ustaları birinci yerdə dururdular. Mühafizə olunmuş abidələrdən ən çox diqqəti cəlb edən Xəzərəspdə Rahmankul sarayı /XIX əsrin əvvəli/ və Allakulu xanın tikdirdiyi Taş-Xauli /1832/ sarayıdır. I Məhəmməd Rahim xan dövründə tikilmiş Palvandarvaza qapısı /1806/ və Allakulu xanın karvansara və bazar tikililəri /1835/ böyük maraq doğurur. XIX əsrin 80-ci illərində tikilmiş ən böyük bina Daşkənd məscidi olmuşdu.

XIX əsrin 40-cı illərindən Mərkəzi Asiya və Qazaxıstana Rusiyadan xeyli sayda rəssam gəlmişdi. Burada çəkilən rəsm əsərləri əsasən Rusiyaya aparılırdı. Türküstan diyarı, onun təbiət və məişətinə həsr olunmuş rəsm əsərləri ilə yerli əhaliyə nisbətən Peterburq, Moskva, Kiyev, Odessa və xarici ölkələrdə keçirilən sərgilərdə daha tez tanış olurdular. Çar hökuməti tərəfindən regiona göndərilən rəssam Taras Qriqoryeviç Şevçenko özünün bir çox əsərlərini Mərkəzi Asiyaya həsr etmişdi. O, 1848-1849-cu illərdə Aral dənizi və onun sahilinin öyrənilməsi məqsədilə A.İ.Butakovun elmi ekspedisiyasında iştirak etmişdi. 1850-ci ildə Manqışlaq yarımadasında olmuşdu. Onun bədii irsində Türküstanda olduğu dövr xüsusilə dəyərlidir.

V.V.Vereşşaqin 1867-1868 və 1869-1870-ci illərdə Türküstanın həyatının müxtəlif sahələrinə aid bir sıra rəsm əsərləri yaratmışdı. Qırğızıstanda olan V.V.Vereşşaqin qırğız xalqının mədəniyyət, məişət və mənəviyyatını, təbiətinin gözəlliyini əks etdirən 40-a yaxın rəsm əsəri və etüd çəkmişdi. O, "Qırğız ovçusu şahinlə", "Qırğız qızı"

rəsmləri, "Qırğızlar", "Qırğız köçləri", "İssıkkul gölü", "Alatau dağlarında" etüdləri və s. əsərlərində qırğız xalqını ağıl, zəka, gözəllik və Qırğızıstanın təbiətini təsvir etmişdi. O, əsərlərini başlıca olaraq naturadan çəkmişdi. Əsərlərini mövzu dairəsinə görə qruplaşdıran rəssamın yaradıcılığında "Türküstan" silsiləsi mühüm yer tuturdu. Onun bir çox əsərləri, o cümlədən «Səmərqənd zindanı» Daşkənd şəhərindəki İncəsənət muzeyində saxlanılır. Rus qoşunlarının Mərkəzi Asiyaya yürüşlərində, Buxara və Xivə xanlıqlarında elmi ekspedisiyalarda iştirak etmiş N.N.Karazin Türküstanın təbiəti, əhalisinin məişəti və s. öz əsərlərində əks etdirmişdi.

Hər üç xanlıqda - Buxara, Kokand və Xivədə ağac və mis üzərində oyma, gil və saxsı məmulatı, silah, müxtəlif bəzəkli parçalar istehsalı geniş yayılmışdı. Bu məhsullar öz keyfiyyətinə görə xüsusilə fərqlənirdi. Parça üzərində naxış tikmə, xalçaçılıq, zərgərlik, bədii məmulatlar xalq yaradıcılığı nümunəsi kimi qiymətli və dəyərli idi. Sənət əsərləri, o cümlədən Mərkəzi Asiya xalçaları xarici bazarlarda özünə şöhrət qazanmışdı. Türkmən xalıları müxtəlif təsvir formaları və zənginliyinə görə xüsusilə fərqlənirdi.

Beləliklə, XIX əsrdə Mərkəzi Asiya və Qazaxıstan xalqları mədəniyyət sahəsində öz qədim ənənələrini davam etdirməklə, ideya-bədii və milli xüsusiyyətlərinə görə özünəxas cəhətlərə malik idi.

## § 2. VOLQABOYU, SİBİR VƏ KRIM XALQLARININ MƏDƏNİYYƏTİ

Qədim və zəngin maddi mədəniyyəti olan Volqaboyu, Sibir və Krım türkləri bu sahədə özünəməxsus tərzdə inkişaf etmişdilər. Eyni mənşə və kökə malik olan bu xalqların bəzisi istifadə etdikləri alət, mənzil, paltar, habelə insanların əmək təcrübəsi və dini etiqadına görə digərlərindən fərqlənirdi.

Tatarların geyimləri digər Volqaboyu və Sibir xalqlarının geyimlərindən seçilirdi. Onlar başqa müsəlman xalqları ilə nikah bağlayırdılar. XIX əsrin sonundan yuxarı təbəqənin üzvləri rus zadəgan və burjuaziyası ilə nikah əlaqələri yaratmağa başlamışdılar. Bu hal başqırdlarda da mövcud olmuşdu.

Hələ XVIII əsrdə Çuvaşiyada xristianlığın qəbul etdirilməsinə baxmayaraq, XIX əsrin 70-ci illərinə qədər bütpərəstliyə sitayiş davam edirdi. Matəm mərasimləri islam qanunları əsasında aparılırdı.

Rus kəndlilərinin qeyd olunan bölgələrə köçürülməsi əkinçiyin təkmilləşdirilməsi və kənd təsərrüfatı alətlərinin yeniləşdirilməsinə səbəb olmuşdu. Başqırd kəndliləri əkinçilik alətlərini rus və tatarlardan əxz etmişdilər.

Altaylılarda və yakutlarda nəsli-qəbilə quruluşu mövcud idi. Altaylılarda bütpərəstlik və ruha sitayiş qüvvətli idi. Bütpərəst kahinlər qəbilələrdə hakim mövqe tuturdular. XIX əsrin ortalarında Altayda buddizm və xristianlıq yayılmağa başlamışdı. Yakutların dini etiqadı şamanizm olmuşdu.

**Maarif.** Volqaboyu xalqları arasında Tatarıstanda maarif müəssisələri daha tez yaranmağa başlamışdı ki, bu da bölgədə kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafı ilə əlaqədar idi.

Hələ XVIII əsrdə Kazan diyarının mədəni həyatında başlanmış mütərəqqi irəliləyişlər ölkədə feodal-təhkimçilik quruluşunun dağılması və kapitalist ukladının formalaşmasından irəli gəlirdi. 1758-ci ildə Kazanda açılan gimnaziya ən mühüm mədəni hadisələrdən biri olmuşdu. Bu, tatar, ərəb, türk və b. şərq dillərinin öyrənildiyi ilk tədris müəssisəsi idi. İlk tatar əlifbası və rus-tatar lüğətini yazıb çap etdirən S.Xalfin gimnaziyanın yaradıcısı olmuşdu. Eyni zamanda dini məktəb və mədrəsələr də fəaliyyət göstərirdi.

XVIII əsrdə Tatarıstanın mədəni həyatında başlanmış mütərəqqi irəliləyişlər XIX əsrin əvvəllərində daha da inkişaf etmişdi. Lakin XVIII əsrdə açılmış silki məktəblərdən fərqli olaraq XIX əsrdən dövlət və xanədan kəndlilərinin uşaqları üçün məktəblər açılırdı. Rus kəndlərinin əhalisi üçün məktəblər yaradılırdı. Kazan tatarlarında məktəb və təhsilə böyük maraq var idi. Hər bir müsəlman kəndində məktəb və məscidlər yaradılır və fəaliyyət göstərirdi. Bu dövrdə mədrəsə və internat /pansion/ məktəblər üçün daşdan binalar inşa olunurdu. Mədrəsələrdən fərqli olaraq internatlarda təhsil alanlar orada qalırdılar. İnternatlarda xüsusən varlı təbəqənin uşaqları təhsil alırdılar. Təhsil alanların çoxu oğlanlardan ibarət idi. Dini təhsil alan tatar qızları əsas etibarilə mollaların arvadlarından evdə dərs alırdılar. 1804-cü ildən kəndlərdə birillik prixod mək-

təbləri, daha sonra qəza məktəbləri, gimnaziya və universitet təhsil sisteminə keçilməsi nəzərdə tutulmuşdu. Bunlar da kənd və şəhərlərdə rus məktəbləri şəbəkəsinin genişlənməsinə, 1835-ci ildə isə ikinci gimnaziyanın açılmasına imkan vermişdi. XIX əsrin ortalarında Tatarıstanda 430 tatar dilində kənd məktəbi və 37 mədrəsə var idi. Ümumiyyətlə, XIX əsrin 50-ci illərində Tatarıstanda 672 məktəbdə 21 min şagird təhsil alırdı. Bu rəqəm sonralar 41,5 minə çatmışdı.

XIX əsrin ikinci yarısında kapitalist münasibətlərinin inkişafı türk xalqları mədəniyyətinin tərəqqi etməsinə şərait yaratmışdı. Çarizm Rusiya sənayesinə lazım olan xammal və təbii ehtiyatları əldə etmək üçün ucqarlara – Başqırdıstan, Altay və Yakutiyaya elmi ekspedisiyalar göndərirdi. Rusiyada kapitalizmin inkişafı kadr hazırlığına diqqəti artırırdı. İxtisaslı fəhlə və mühəndislərə, ümumiyyətlə, müvafiq kadrlara olan ehtiyac türk xalqları yaşayan ərazilərdə də yeni təhsil müəssisələrinin yaradılması və inkişafına səbəb olurdu. Bölgəyə əhali axını, ziyalıların sayının artması mədəniyyətə öz təsirini göstərirdi. Lakin çarizm əhalinin savadlandırılmasına tələsmirdi. Buna baxmayaraq, XIX əsrin 70-ci illərindən sonra yeni məktəblərin açılmasına diqqət artmışdı. Dövlət hesabına rus-tatar məktəbləri yaradılmağa başlanmışdı. 1876-cı ildən fəaliyyətə başlayan belə məktəblərdə məqsəd öz xalqı içərisində ruslaşdırma siyasətini həyata keçirmək üçün tatarlardan müəllim kadrları hazırlamaq idi.

XIX əsrin birinci yarısına nisbətən əsrin ikinci yarısında ibtidai tatar məktəblərinin sayı xeyli artmışdı. 1895-ci ildə onların sayı 614-ə çatmışdı. Eyni zamanda 33 orta məktəb fəaliyyət göstərirdi. 80-90-cı illərdə məktəblərdə dini dərslərlə yanaşı tarix, coğrafiya, riyaziyyatın əsasları və rus dili keçirilirdi. 80-ci illərdə Kazanda 3 kişi və 3 qadın gimnaziyası, realnı məktəb, xalq müəllimləri hazırlayan zemstvo məktəbi var idi. İki dini təhsil müəssisəsi - ruhani akademiyası və ruhani seminariyası fəaliyyət göstərirdi. Tatarıstanda yeni üsullu /üsuli-cədid/ məktəblərin açılmasında liberal burjuaziya və ruhani nümayəndələri böyük rol oynamışdılar. Belə ruhanilərdən biri Ş.B.Mərcani olmuşdu. O, yeni tipli mədrəsə yaratmışdı. Mədrəsə dini xarakter daşısa da, burada dünyəvi elmlər - tarix,

coğrafiya və başqa fənlər tədris olunurdu. Bütün bunlara baxmayaraq, 1897-ci ildə Kazan quberniyasında əhalinin 17,9 faizi savadlı idi. Həmin ildə Kazan quberniyasında 259 min məktəb yaşlı uşaq qeydə alınmışdı. Amma məktəblərdə cəmi 43304 oğlan və 18984 qız təhsil alırdı. XIX əsrin sonunda tatar əhalisinin demək olar ki, 80 faizi savadsız idi. Qadınlar arasında savadsızlıq 92 faizə çatmışdı.

Başqırdıstanda xalq, qəza məktəbləri, gimnaziyalar, qızlar məktəbi, ruhani seminariyası, ibtidai qarnizon və hərbi məktəblər, dağmədən və zavod məktəbləri və s. yaradılmışdı. Hərbi məktəblərin bəziləri kadet korpusuna çevrilmişdi. XIX əsrin əvvəllərində Başqırdıstanda beşillik Orenburq baş xalq məktəbi və Ufa, Mənzəli, Buqruslan, Birsk, Çelyabinsk, Troitsk və Buzulukda ikiillik aşağı /ibtidai/ xalq məktəbləri mövcud idi. Burada hesab, həndəsə, coğrafiya və b. fənlər tədris olunurdu. 20-40-cı illərdə xalq məktəbləri qəza məktəbləri ilə əvəz edildi. 1839-cu ildə Ufa, Orenburq, Mənzəli, Birsk, Troitsk və b. şəhərlərdə ikiillik prixod məktəbləri fəaliyyət göstərirdi. 1850-ci ildə qəza və prixod məktəblərində 400 nəfər təhsil alırdı ki, onlardan 33 faizi zadəganların, 37,6 faizi tacirlərin, 29,4 faizi isə raznoçinlərin uşaqları idilər. 1828-ci ildə Ufada yeddiillik gimnaziya açılmışdı. 1846-1847-ci dərs ilində gimnaziyada 225 nəfər təhsil alırdı. Burada latın, alman və fransız dilləri, hesab, məntiq, statistika, fizika və tarix fənləri tədris olunurdu.

1800-ci ildən Ufada ruhani seminariyası işə başlamışdı. 60-cı illərdə Ufa quberniyasındakı 354 məktəb və mədrəsələrdə 15693 nəfər təhsil alırdı. 1832-ci ildə zadəgan, tacir və hərbçilərin uşaqları üçün qızlar məktəbi açılmışdı. Az keçmədən bu məktəb Nəcib qızlar institutuna çevrilmişdi /1840/.

XIX əsrin ikinci rübündən rus kəndlərinin əhalisi üçün ilk məktəblər fəaliyyətə başlamışdı. 50-ci illərdə 56 belə məktəb var idi. Eyni zamanda Başqırdıstanda ibtidai qarnizon və hərbi məktəblər yaradılmışdı. Belə məktəblər Orenburq, Orsk və başqa yerlərdə də açılmışdı. Qarnizon və hərbi məktəblərdə təhsil alanların əsas hissəsi kəndli, əsgər və kazakların uşaqları idi. Burada təlim-tərbiyə işinə ciddi fikir verilirdi. Hərbi məktəblərin bəziləri kadet korpusuna çevrilmişdi. 40-cı illərin ortalarında kadet korpusunda 200 nəfər təhsil alırdı. Onlardan 30-u başqırd idi. Dağ-mədən və zavod məktəbləri də fəaliyyət göstərirdi.

1835-1840-cı illərdə Peterburq, Moskva və Kazana müxtəlif peşə öyrənmək üçün 300 başqırd uşağı göndərilmişdi. Həmin ildə başqırd uşaqlarına Kazan gimnaziyası və Universitetdə 30, Peterburq Dağ-mədən İnstitutunda 3, Moskva Hərbi Akademiyasında 16 vakansiya yeri ayrılmışdı.

XIX əsrin ikinci yarısında Ufa quberniyasında 746 ibtidai məktəb var idi ki, onlardan 396-sı rus, 88-i rus-başqırd, 254-ü müxtəlif millətlərin, 8-i məktəb və mədrəsələr nəzdində rus sinifləri idi. Orenburq quberniyasında isə 925 ibtidai məktəb açılmışdı ki, onun da 901-i rus, 13-ü rus-başqırd, 4-ü müxtəlif millətlərin və 7-ni mədrəsələrdəki rus sinifləri təşkil edirdi. Məktəblər Maarif Nazirliyi, zemstvo və ruhani idarələrinə tabe idi. Təlim-tərbiyə işlərinə rəhbərlik etmək üçün qəza və quberniya məktəb şuraları yaradılmışdı. 1874-cü ildə Ufa, Orenburq, Perm, Vyatsk quberniyaları, Ural və Turqay vilayətlərindən ibarət müstəqil Orenburq təhsil dairəsi təşkil edilmişdi. Təhsilin təşkili bütün məktəblərdə eyni deyildi. Zemstvo məktəbləri daha hazırlıqlı müəllim kadrları, tədris avadanlığı ilə təmin edilirdi. Məktəblilər həm də pulsuz dərs vəsaiti alırdılar.

Təhsil sistemində çarizmin ruslaşdırma siyasəti özünü açıq şəkildə göstərirdi. Belə ki, rus sinifləri olmadan məktəb və mədrəsələrin açılmasına icazə verilmir, vəzifəli şəxs və mollaların rus dilini bilmələri məcburi idi. 1894-cü ilin məlumatına əsasən, kişi gimnaziyalarında təhsil alanların 84 faizini rus, 16 faizini başqırd, tatar və başqa xalqdan olanlar təşkil edirdilər.

Çuvaşiyada dini məktəblərlə yanaşı ilk dünyəvi məktəblər hələ 1796-cı ildən açılmağa başlamışdı. 1802-ci ildə Xalq Maarif Nazirliyinin yaranması, 1804-cü ildə təhsil müəssisələri nizamnaməsinin hazırlanması maarif işində bir qədər canlanma yaratmışdı. 1807-ci ildə Tsivil qəzasının Burtası kəndində prixod məktəbləri açılmışdı. Sonralar belə məktəblər başqa kəndlərdə də təşkil edilmişdi. 1860-cı ildə Çuvaşiyada dövlət kəndlilərinin uşaqları üçün olan məktəblərin sayı 46-ya çatmışdı. Prixod, dövlət və xanədan məktəblərində təhsil üçillik idi. Çuvaşiyanın ərazisində birsinifli və ikisinifli ibtidai məktəblər, zemstvo məktəbləri, kilsə-prixod məktəbləri və missioner məktəbləri də fəaliyyət göstərirdi.

Tədricən məktəblərdə oğlan və qızlar birlikdə təhsil alırdılar. Ümumiyyətlə, məktəblilər içərisində qızlar hələ az idilər. Eyni

zamanda çuvaşlar rus dilini yaxşı bilmədiklərinə görə dərsi başa düşmürdülər. Məhz bu səbəbdən də valideynlər uşaqlarını məktəbə qoymurdular. Digər tərəfdən isə təhsil haqqı yüksək olduğundan ancaq varlıların uşaqları təhsilə daha çox cəlb edilmişdilər.

Ümumiyyətlə, Çuvaşiyada uşaqlar təhsilə zəif cəlb olunurdular. 1876-cı ildən 1914-cü ilədək Çuvaşiyanın Volqaboyundakı ərazilərində nazirlik və zemstvo məktəblərinin sayı 249-a, kilsə-prixod və missioner məktəblərinin sayı isə 272-yə çatmışdı. Bu məktəblərdə 27 min şagirdin oxumasına baxmayaraq, yenə də 75-80 min şagird məktəblərdən kənarda qalırdı. 1897-ci ilin Ümumrusiya əhali sayımına görə, Kazan quberniyası çuvaşlarından kişilərin 13,2 faizi, qadınların isə 1 faizi savadlı idi.

Sibirdə dini, hərbi, texniki-peşə və imtiyazlı silklər üçün fəaliyyət göstərən məktəblər var idi. Kilsə Tobolsk, İrkutsk və Tomskda üç seminariya və bir sıra dini məktəblərə malik idi. Seminariyalarda 10-15 il oxuyurdular. Dağ-mədən sənayesi üçün kadrlar xüsusi məktəblərdə hazırlanırdı. XIX əsrin 60-cı illərində Altayın zavodları və Nerçinsk dağlıq mahalında bu sahə üzrə 19 məktəb var idi. Çar hökuməti hərbi kadrların hazırlanmasına mühüm əhəmiyyət verirdi. Hələ XVIII əsrdə hərbi qarnizon məktəbləri kimsəsiz uşaqlar üçün hərbi hissələrə çevrilmişdi. 1820-ci ildə burada 7 mindən çox uşaq təhsil alırdı. Kazak uşaqları üçün kənd məktəbləri tipində xüsusi məktəblər açılmışdı. 1813-cü ildə Omskda Sibir kazak qoşunlarının hərbi məktəbləri yaradılmışdı. Bunlar 1846-cı ildən kadet korpusuna /məktəbinə/ çevrilmişdi.

1803-1804-cü illərdəki məktəb islahatına əsasən Rusiyada universitetlər tərəfindən idarə olunan 6 tədris dairəsi yaradılmışdı. Sibir Kazan tədris dairəsinin tərkibinə daxil edilmişdi. Bundan əlavə gimnaziya, qəza və prixod məktəbləri də fəaliyyət göstərirdi. XIX əsrin 30-cu illərinin ortalarınadək Sibirdəki iki gimnaziyada təhsil alan şagirdlərin sayı 130 nəfərdən çox deyildi. 1817-1826-cı illərdə 13 qəza məktəbi yaradılmışdı. Dövlət xalq təhsilinə az vəsait ayırırdı. 1851-ci ildə Qərbi Sibir quberniyaları büdcəsinin 1,7 faizi maarif sahəsinə xərclənmişdi. İ.P.Mendeleyev, şair P.P.Yerşov, coğrafiyaçı R.K.Maak və sair bu kimi öz işinə yaradıcılıqla yanaşan təşəbbüskar müəllimlər fəaliyyət göstərirdilər. Lakin bütöv-

lükdə Sibirdə ixtisaslı müəllim kadrlarına böyük ehtiyac var idi. Sibir əhalisinin əsas hissəsi savadsız, şimal bölgələrinin xalqları isə mədəni cəhətdən geridə qalırdı. Ancaq buryat və Sibir tatarlarının yazısı var idi. Bu yazı da lamaçı və müsəlman ruhanilərin əlində cəmləşmişdi. Sibir xalqları piktoqrafiyadan /şəkillər vasitəsilə ifadə edilən ən qədim yazı üsulu/ geniş istifadə edirdilər. Bunun vasitəsilə savadsız yakut tacirləri borc dəftərləri düzəldirdilər.

Təhsil almaq işi təkcə ayrı-ayrı yerli xalqlar içərisində deyil, həm də rus əhalisi arasında zəif həyata keçirilirdi. Maarifçi missionerlər müəyyən işlər görürdülər. Missioner Makari Qluxaryov Altay türkləri üçün rus əlifbası əsasında milli yazı yaratmışdı. 1897-ci ildə Altayda 87 məktəb fəaliyyət göstərirdi. Bu məktəblərdə 1775 şagird təhsil alırdı.Yerli yakut uşaqları üçün məktəblərin açılmasında provaslav missionerləri daha çox fəallıq göstərirdilər. Onların fikrincə, bu, Yakutiyada xristianlığın yayılmasına kömək etməli idi.

Xalq Maarif Nazirliyi Yakutiya vilayətindəki məktəblərə lazımınca qayğı göstərmirdi. 1879-1892-ci illərdə nazirliyin tabeliyində olan ibtidai məktəblərə 1040 nəfər, o cümlədən 698 yakut uşağı qəbul edilmişdi. Tam kursu 336 nəfər, eyni zamanda 180 yakut qurtarmışdı. Qalanları kurs başa çatana kimi dağılıb getmişdilər. Ümumiyyətlə, Yakutiyanın yerli əhalisinin savadlıq səviyyəsi çox aşağı idi. 1897-ci ilin əhali sayımına görə yakutların 0,7 faizi savadlı idi.

Krım Rusiya tərəfindən işğal edildikdən /1783/ sonra burada ixtisaslaşdırılmış məktəblər yaradıldı. 1865-ci ildə Krımda məktəblərin sayı 262-yə çatmışdı. Onların böyük əksəriyyətini məktəb və mədrəsələr təşkil edirdi. XIX əsrin 60-cı illərindən məktəblərin zemstvo idarələrinin tabeliyinə keçməsindən sonra bir sıra irəliləyişlər oldu. İlk növbədə kəndlərdə məktəb şəbəkələri genişləndirildi. 1865-ci ildən 1874-cü ilə kimi 77 kənd məktəbi açılmışdı. Ümumiyyətlə, 1887-ci ildə Krımda müxtəlif tipli 569 məktəb var idi. Bu məktəblərdən 148-i şəhərlərdə, 421-i kəndlərdə fəaliyyət göstərirdi. Onların 275-i ibtidai dini müsəlman məktəbləri idi. XIX əsrin sonunda Krım əhalisinin 34 faizi yazıb oxuyurdu. 1783-cü ildə Krımda 130 min əhali yaşayırdısa, 1854-cü ildə onların sayı iki dəfə artmışdı.

Beləliklə, Volqaboyu, Sibir və Krımda yuxarıda haqqında bəhs edilən təhsil sistemi bu sahədə qarşıda duran vəzifələri yerinə yetirə bilmirdi. Təhsil aşağı səviyyədə idi. Dövlət qayğısının zəif və təhsil haqqının yüksək olması, ruslaşdırma siyasəti və s. milli maarifin inkişafına mane olurdu. Əgər çar hökuməti Qafqaz və qərb vilayətlərində ilk ibtidai təhsilin ana dilində olmasına icazə vermişdisə, Orta Volqaboyu əhalisinə bu qadağan davam etməkdə idi. Məktəblərdə müəllimlər və uşaqlar bir-birini başa düşmürdülər.

**Elm.** Tədrisin ixtisaslı müəllim kadrları ilə təmin edilməsi və elmi inkişafında 1804-cü ildə təsis olunmuş Kazan Universitetinin əvəzsiz rolu var idi. Universitetdə təhsil alan və müxtəlif sahələr üzrə çalışan mütəxəssislər elmin inkişafına yaxından kömək etmişdilər. Bu universitet yalnız Rusiya imperiyası tərkibində olan türk xalqlarının deyil, həm də rus təhsili və elminin mərkəzinə çevrilmişdi. Universitetin dörd-mənəvi-siyasi, tibb, fizika-riyaziyyat və şərq filologiyası şöbəsi ilə birgə filologiya fakültəsi var idi. Riyaziyyatçı N.İ.Lobaçevski /19 il Kazan Universitetinin rektoru işləmişdir/, astronom və səyyah İ.M.Simonov, kimyaçı N.N.Zinin, görkəmli şərqşünaslar İ.N.Berezin, V.P.Vasilyev, O.M.Kovalevski, Mirzə Kazım bəy, mənşəcə tatar olan İ.Xalfin, M.Mahmudov, H.Feyzxanov, A.Vaqapov və b. alimlərin universitetin fəaliyyətinin genişlənməsi və elmin inkişafında böyük rolu olmuşdu. N.İ.Lobaçevski /1792-1856/ rektor olduğu müddətdə Kazan Universitetində tədrisin təşkili və keyfiyyətini yaxşılaşdırmış, tələbələrin hazırlıq səviyyəsini artırmışdı. O, Kazan İqtisadi Cəmiyyətinin yaradıcılarından biri idi. İ.M.Simonov /1794-1855/ universitetin elmi-pedaqoji həyatında və təşkilati işlərdə fəal iştirak etmişdi. O, görkəmli astronom və səyahətçi olmuşdu. İ.M.Simonov universitet nəzdində astronomiya laboratoriyası yaratmışdı. O, N.İ.Lobaçevskidən sonra universitetin rektoru vəzifəsinə təyin olunmuşdu.

Universitetdə kimya elminin inkişafında xüsusi xidməti olan istedadlı alim N.N.Zinin /1812-1880/ üzvi kimya sahəsində dünya şöhrəti qazanmışdı. İ.Xalfin /1778-1829/ tatar dilinin qrammatikası və ədəbiyyatı ilə məşğul olmuş, onun etimologiyasını vermiş, müntəxəbat tərtib etmişdi. H. Feyzxanov «Tatar dilinin qısa qrammatikası», İ.N.Berezin «Tatar salnaməsi», «Volqada Bulqar»,

«Monqolların Rusiyaya hücumu», K.F.Fuks isə /1776-1846/ «Kazanın qısa tarixi» və s. əsərlərini nəşr etdirmişdilər. 1826-cı ildən Mirzə Kazım bəy /1802-1870/ Kazan Universitetində şərq dilləri üzrə mühazirəçi, türk-tatar dilləri kafedrasının müdiri /1828/, fəlsəfə fakültəsinin birinci şöbəsinin dekanı /1845/, ərəb-fars dilləri kafedrasının müdiri /1846/, Peterburq Universitetində fars dili kafedrasının müdiri /1849/ işləmişdi. Kazım bəy Peterburq Universitetində 1855-ci ildən ömrünün axırına kimi Şərq fakültəsinin dekanı olmuşdur. Akademik V.V.Bartold göstərirdi ki, O.İ.Senkovski və Mirzə Kazım bəy öz mühazirələri ilə rus şərqşünaslığını yaratmışlar. Kazım bəy Rusiyada müsəlman hüququnun, İranda babilər hərəkatının və Dağıstanda Şamil hərəkatının ilk tədqiqatçılarından biri idi. Sədinin «Gülüstan» əsərini rus dilinə ilk dəfə o tərcümə etmişdi /1829/. L.N.Tolstoy və N.Q.Çernışevskiyə şərq dillərindən dərs demişdi. Onun «Türk-tatar dilinin ümumi qrammatikası» kitabından uzun illər Rusiya və Avropa universitetlərində dərs vəsaiti kimi istifadə edilmişdir.

Mirzə Kazım bəy XIX əsr rus və dünya şərqşünaslıq elmində görkəmli simalardan biri idi. O, ömrünün 45 ildən çoxunu Azərbaycan, türk, ərəb, fars dillərinin, Şərq ədəbiyyatı və mədəniyyətinin, Azərbaycan və Qafqaz tarixinin, islamın dini, ideoloji, etik və siyasi əsaslarının və s. Rusiyada və Avropada öyrənilməsinə, Rusiya ilə Şərq xalqları arasındakı ədəbi-mədəni əlaqələrin inkişafına həsr etmişdi. Mədrəsə şagirdliyindən universitet professorluğuna qədər çətin bir yol keçən alim 33 yaşında Rusiya Elmlər Akademiyasının müxbir üzvü olmuş, Böyük Britaniya, Almaniya, Danimarka, Fransa, Amerika Birləşmiş Ştatları və başqa ölkələrin elmlər akademiyalarının və elmi cəmiyyətlərinin üzvü seçilmişdi. Türkologiya və tarix sahəsindəki qiymətli tədqiqatlarına görə o, üç dəfə Rusiya Elmlər Akademiyasının Demidov mükafatına layiq görülmüşdü. Mirzə Kazım bəy Kazan şərqşünaslıq məktəbinin banisi kimi tanınırdı.

1869-cu ildə Sankt-Peterburq universitetinin 50 illik yubiley təntənələri ərəfəsində Rusiya şərqşünaslığının iki görkəmli nümayəndəsinə - akademik B.A.Dorn və Mirzə Kazım bəyə yüksək elmi xidmətlərinə görə Şərq filologiyası doktoru adı verildi. O, uni-

versitetin ən çox fərqlənən professorları ilə birlikdə Rusiyanın yüksək mükafatı - Ağ Qartal ordeni ilə təltif edildi.

Kazan universitetinin nəzdində yaradılmış Həkimlər Cəmiyyəti /1868/, Təbiətşünaslıq Cəmiyyəti /1869/, Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyəti /1878/, Hüquq Cəmiyyəti /1879/, Fizika-riyaziyyat və Nevrologiya Cəmiyyəti /1890/ çoxlu faydalı iş görmüşdü. Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinin fəaliyyətində tatar alimlərindən K.Nəsirov və Ş.Mərcani fəal iştirak etmişdilər. Hələ 1839-cu ildə yaradılmış Kazan İqtisadi Cəmiyyəti ölkədə iqtisadiyyat sahəsində elmin inkişafına öz töhvələrini vermişdi.

Universitet öz fəaliyyətində bir sıra maneə və senzura ilə rastlaşırdı. 1819-cu ildə müfəttiş M.Maqnitski yazırdı ki, universitetlərin allahsız professorları bədbəxt gəncliyə qanuni hakimiyyətə qarşı incə zəhər kimi inamsızlıq və kin aşılayırlar. Kazan təhsil dairəsinin müdiri işlədiyi 7 il ərzində M.Maqnitski 17 professordan 9-nu işdən azad etmişdi. Hökumətin siyasi reaksiyalarına baxmayaraq, Kazan Universiteti ölkənin elmi mərkəzlərindən biri olaraq qalırdı.

Eyni zamanda Kazan Universiteti xeyli müddət tatar, başqırd, çuvaş və diyarın başqa xalqlarının üzünə bağlı idi. Yalnız 1836-cı ildə Tibb fakültəsinə 20 müsəlmanın qəbul olunmasına icazə verilmişdi. 1855-ci ildə isə Kazan Universitetinin şərq şöbəsi Peterburq Universitetinə köçürülmüşdü. Çarizmin müqavimətinə baxmayaraq, Kazan Universiteti tatar xalqı, eləcə də regionun digər xalqlarının maariflənməsində böyük rol oynamışdı.

XIX əsrin birinci yarısında Başqırdıstanda kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq onun təbii sərvətləri və iqtisadi vəziyyətinin öyrənilməsinə maraq artmışdı. 20-30-cu illərdə Q.Karelin, Z.Hofman, Q.Gelmersen, A.Humboltd, Q.Roze, Q.Şurovski və başqaları bir çox geoloji tədqiqatlar aparmışdılar. 30-cu illərdə X.Lessinq Cənubi Uralın bitki örtüyü, A.Leman isə florasını tədqiq etmişdi.

Başqırdıstanın təbiətinin öyrənilməsində E.A.Eversmanın «Orenburq diyarının təbiətşünaslığının tarixi» əsəri mühüm əhəmiyyət kəsb etmişdi. O, üç hissədə çap etdirdiyi əsərində /1840, 1850, 1866/ Orenburq diyarının coğrafi xarakteristikası, iqlimi, bitki və heyvanat aləminin təsvirini vermişdi. Başqırdıstanın öyrənilmə-

sində yerli alimlərdən İ.Jukovski apardığı araşdırmalar əsasında 1832-ci ildə «Orenburq quberniyasının qısa coğrafi və statistik təsviri» əsərini nəşr etdirmişdi. V.S.Yumatov «Orenburq quberniyasının tarixi haqqında mülahizələr» və «Orenburq diyarının ibtidai insanlarının qısa tarixinə baxış» əsərlərində XVII-XVIII əsrlərdə baş vermiş xalq üsyanlarına aid qiymətli məlumatlar vermişdi. Ruhani seminariyasının müəllimi V.M. Çeremşanskinin «Orenburq quberniyasının təsərrüfat-statistik, etnoqrafiya və sənaye sahələrinin təsviri» /1859/ adlı əsəri kiçik qızıl medala layiq görülmüşdü. Bu əsərdə diyarın coğrafiyası, tarixi, iqtisadiyyatı, etnoqrafiyası, maarif və səhiyyəsi haqqında gətirilmiş maraqlı faktlar bu gün də öz əhəmiyyətini itirməmişdir.

XIX əsrin 60-cı illərində V.S.Losnevski Ufa quberniyasının florasını öyrənmişdi. 90-cı illərdə A.A.Morozov böyük bitki kolleksiyası toplayaraq onun geniş təsvirini vermişdi. O.A.Fedçenko və B.A.Fedçenko «Ufa quberniyasının florası üçün material» adlı əsər dərc etdirmişdilər. S.İ.Korjinski 1898-ci ildə «Şərqi Sibirdə flora təcrübələri» əsərində Başqırdıstanın bitki örtüyünün öyrənilməsi ilə əlaqədar olaraq toplanılmış materiallara istinad edərək, bu diyarı dörd botaniki-coğrafi hissəyə-Alp dağları, meşə, meşə-səhra və səhraya ayırmışdı. Alimlər başqırd xalqının tarixi, etnoqrafiyası, təsərrüfat və mədəniyyət tarixinin öyrənilməsinə də maraq göstərmişdilər. B.M.Florinski «Başqırdıstan və başqırdlar», D.P.Nikolski «Başqırdlar» əsərində başqırd xalqının tarixi, etnoqrafiyası, antropologiyası və s. məsələləri tədqiq etmişdilər.

Başqırdıstanın öyrənilməsilə yerli elmi cəmiyyətlər də məşğul olurdular. 1868-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Orenburq şöbəsi yaradılmış və 1881-ci ildə Venesiyada keçirilən coğrafiya sərgisində cəmiyyətin üzvləri iki qızıl medal almışdılar.

Bu dövrdə mənşəcə başqırd olan diyarşünaslar yetişmişdi. 1870-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Orenburq şöbəsinin üzvü S.A.Batırşin cəmiyyətin «Xəbərlər»ində orijinal və başqırd dilindən ruscaya tərcümə olunmuş mahnını dərc etdirmişdi. Xalq yaradıcılığı materiallarını toplayan Məhəmmədqalim Kuvatov 1895-ci ildə başqırd atalar sözləri və deyimləri nümunələrini buraxdırmışdı. B.Yuluyev 1890-cı ildə «Etnoqrafiya icmalı» jurnalında başqırdların etnoqrafiyasına aid olduqca maraqlı materiallar çap etdirmişdi.

Çuvaşiyada təhsilin inkişafı elm və mədəniyyətə öz təsirini göstərmişdi. XIX əsrdə Çuvaşiyada elmin inkişafı sahəsində İ.Y.Biçurin, S.M.Mixaylov, V.K.Maqnitski, İ.V.Nikolski və başqalarının böyük xidmətləri olmuşdu. Çin-monqol-tibet dillərini mükəmməl bilən İ.Y.Biçurin /1777-1853/ 12 minə qədər sözü əhatə edən çin-rus lüğəti, dörd cildlik mancur-çin və rus-çin lüğətlərini tərtib etmişdi. Onun «Çinin tarixi və bu imperiyanın hakimiyyəti altında olan bütün torpaqların tam coğrafiyası» əsəri ilk dəfə rus və Avropa alimlərinə Çinin tarixini hərtərəfli öyrənməyə imkan vermişdi. O, 1807-ci ildə Çinə məsul vəzifəyə göndərilmiş, 1822-ci ildə isə Xarici İşlər Nazirliyində Asiya departamentinə çin dili üzrə tərcüməçi təyin edilmişdi. 1829-cu ildə Rusiya İmperator Elmlər Akademiyasının müxbir üzvü və Parisdə Asiya Cəmiyyətinin üzvü seçilmişdi. İ.Y.Biçurinin on altı kitabı nəşr olunmuşdu. Bu kitablardan altısı Demidov mükafatına layiq görülmüşdü. Həmin əsərlərdən biri «Qədim dövrlərdə Orta Asiyada yaşamış xalqlar haqqında məlumat toplusu»dur. Onun şərqşünaslıq elminin inkişafında böyük tarixi xidməti olmuşdu.

XIX əsrin ortalarında tarixçi, etnoqraf, statist və yazıçı S.M.Mixaylov /1821-1861/ 37 adda qəzet, jurnal məqalələri və əsər çap etdirmişdi. O, çuvaş, mari və rusların tarix, etnoqrafiya və folklorunu tədqiq etmişdi. Onun «Çuvaşların qısa etnoqrafik təsviri», «Çuvaş toyları», «Çuvaş musiqisi»,«Çuvaş deyimləri və nağılları», «Çuvaşların mahnı və atalar sözləri» əsərləri dəyərli məxəzdir. O, Rus Coğrafiya Cəmiyyətinin üzvü kimi elmi xidmətlərinə görə gümüş medalla təltif edilmişdi. S.M.Mixaylov maarif və mədəniyyətin inkişafı ilə xalqın həyatının yaxşılaşmasını arzu edir, çuvaş və marilərin ana dillərində təhsil almasını dəstəkləyirdi.

XIX əsrin ikinci yarısında çuvaş dilinin əsas tədqiqatçılarından biri Kazan tədris dairəsi çuvaş məktəblərinin inspektoru N.İ.Zolotnitski /1829-1880/ olmuşdu. O, «Çuvaş-rus lüğətinin əsasları», «Çuvaş ləhcəsi ilə tanışlıq üzrə qeydlər» adlı işində çuvaş dilinin elmi cəhətdən öyrənilməsi sahəsində çox böyük işlər görmüşdü. Onun elmi axtarışlarından İ.Y.Yakovlev və N.İ.Aşmarin istifadə etmişdilər.

V.K.Maqnitski /1839-1901/ görkəmli tarixçi, etnoqraf və xalq maarifi xadimi olmuşdu. O, Kazan Universitetini qurtarmış, Çuvaş

diyarında məhkəmə müstəntiqi və daha sonra xalq məktəblərinin inspektoru işləmişdi. O, çuvaş uşaqlarının məktəblərə cəlb olunması və xeyli məktəbin açılmasında yaxından iştirak etmişdi. Şifahi xalq yaradıcılığı ilə məşğul olan V.K.Maqnitski atalar sözləri, zərbi-məsəllər və tapmacalar toplayıb çap etdirmişdi. Kazan Universiteti nəzdində Arxeoloji komissiyasının üzvü olan V.K.Maqnitski ölkənin keçmiş tarixini öyrənmiş və bir çox arxeoloji axtarışlar aparmışdı. O, «Qədim çuvaş inamlarının materialları» /1881/, «Çeboksarı qəzasında adət və ənənələr» /1888/ əsərləri və çoxsaylı elmi məqalələrin müəllifidir.

İ.Y. Yakovlevin /1848-1930/ rus filoloqu V.A. Belilinin iştirakı ilə çuvaş dilində əlifba və yazı yaratması ən böyük tarixi hadisə idi. Xanədan kəndlisinin oğlu çuvaş İ.Y. Yakovlev bildirirdi ki, təhsil milli təfəkkür və mədəniyyətin inkişafına xidmət etməlidir.

Prof. N.İ.Aşmarinin /1870-1933/ «Çuvaş dilinin tədqiqi üçün materiallar» /1898/, «Çuvaş sintaksisinin tədqiqi təcrübəsi» /1903/, 17 cildlik «Çuvaş dilinin lüğəti» /1896-1933/ və b. əsərləri ona dünya şöhrəti gətirmişdi. O, görkəmli şərqşünas-türkoloq, çuvaş dilinin mahir bilicisi olmuşdu.

Sibirin iqtisadi və mədəni inkişafında onun təbii sərvətləri, coğrafiyası, etnik xüsusiyyətləri və tarixinin öyrənilməsi böyük əhəmiyyət kəsb edirdi. 1820-1824-cü illərdə F.P.Vrangel və F.F.Matyuşkin Sibirin şimal-şərq sahillərinə səyahət zamanı yerin maqnit xassəsi məsələsi ilə bağlı tədqiqat aparmışdılar.

Hələ XVIII əsrin sonlarında Rusiya İmperator Elmlər Akademiyası Altay diyarının tədqiq olunması üçün bir sıra ekspedisiyalar təşkil etmişdi. XIX əsrin birinci yarısında Altay coğrafi-geoloji tədqiqatların mərkəzinə çevrilmişdi. Regionun öyrənilməsində Q.İ.Spasskinin mühüm rolu olmuşdu. 1826-cı ildə Altaya Derpt Universitetinin professoru Meyerin başçılığı ilə elmi ekspedisiya təşkil olunmuşdu. Aparılan tədqiqat işləri nəticəsində elmə məlum olmayan 200 növ bitki, 1300 növ toxum aşkar edilmişdi. Geoloq və səyyahlardan Q.A.Gelmersen, P.A.Çixolayev və Q.Şurovski Altay dağlarının /Biş vadisindən Teletsk gölünə qədər ərazidə/ geoloji strukturunu tədqiq etmişlər. Q.Şurovski /1803-1884/ 1844-cü ildə «Altayın geoloji ekspedisiyası» kitabını nəşr etdirmişdi. Kitabda

diyarın geoloji quruluşu, təbii sərvətləri haqqında ətraflı və dəqiq məlumat verilmişdi.

Yakutiyaya ilk elmi ekspedisiya 1805-1806-cı illərdə M.İ.Adamsın başçılığı altında olmuşdu. O, əldə etdiyi mamont qalıqlarını Yakutiyadan Peterburqa aparmışdı. Rusiya İmperator Elmlər Akademiyasının ikinci belə bir ekspedisiyası İ.İ.Redovskinin başçılığı altında İrkutsk-Yakutiya-Oxotsk-Qijiçinsk xətti üzrə olmuşdu. Diyarın öyrənilməsində 1820-1824-cü illərdə F.P.Vrangel və P.F.Anjunun apardıqları ekspedisiyalarda xeyli iş görülmüşdü. Əldə edilmiş ən böyük qənaətə görə hətta ən güclü şaxtalar zamanı qütb dənizi bütünlüklə buzla örtülmür.

XIX əsrin əvvəlində Sibirdə yerli ziyalılar yaranmaqda idi. Görkəmli şərqşünas buryat Qalsan Qomboyev, Sibirdə şamançılığı tədqiq edən etnoqraf Dorji Banzarov və b. bu qəbildəndir. 30-40-cı illərdə aparılmış geoloji kəşfiyyatlar nəticəsində Altayın Kuznetsk bölgəsi, Yenisey və Biryusinsk tayqalarında, Baykal gölü yaxınlığında qızıl mədənləri aşkar edilmişdi. P.A.Slovtsovun hazırladığı iki cildlik «Sibir tarixinin icmalı» 1838 və 1844-cü illərdə nəşr edilmişdi.

1843-1844-cü illərdə Rusiya İmperator Elmlər Akademiyası A.F.Middendorfun başçılığı altında Yakutiyanın öyrənilməsi ilə əlaqədar elmi ekspedisiya göndərmişdi. A.F.Middendorf və onun əməkdaşlarının Şərqi Sibir və Yakutiyada apardıqları axtarışlar əsasında 1867-1878-ci illərdə «Sibirin şimal və şərqinə səyahət» adlı çoxcildli əsər çap olunmuşdu. Dilçi akademik O.N.Byotlinqk «Yakut dili haqqında» /1855/ iri həcmli əsərini nəşr etdirmişdi. Dəniz ekspedisiyaları zamanı Sibir və Uzaq Şərqdə mühüm coğrafi kəşflər edilmişdi. Amurətrafı və Ussuri tərəflərin tədqiqi üçün 1849-1855-ci illərdə Q.İ.Nevelskoyun rəhbərliyi altında aparılan Amur ekspedisiyasının böyük əhəmiyyəti olmuşdu. A.Y.Uvarovski «Xatirə» əsərində Yakutiyanın təbii sərvətləri, xalqın məişət və mənəviyyatı haqqında faktları ətraflı şəkildə və obyektiv baxımdan təsvir etmişdi. O, yerli əhalinin dil, etnoqrafiya və folklorunun gözəl bilicisi idi. Yakutiyanın görkəmli tədqiqatçıları olan akademiklərdən A.F.Middendorf, O.N.Byotlinqk və b. onun elmi və ədəbi yazılarından istifadə etmişdilər.

XIX əsrin əvvəllərində Kozin Krımda faydalı qazıntıların aşkar edilməsi sahəsində müəyyən nailiyyətlər əldə etmişdi. 40-cı il-

lərdən Kerç dəmir filizi mədəni istifadəyə verilmişdi. 1812-ci ildə açılmış X.Stevenin rəhbərlik etdiyi Dövlət Botanika bağı mədəni bitkiçiliyin inkişafında mühüm rol oynamışdı.

1829-cu ildə Sak, az sonra isə Yevpatoriya məşhur müalicə zonasına çevrilmişdi. Lakin tibbi xidmət zəif idi. Qara dəniz sahilində yayılmış taun epidemiyası ilə əlaqədar 1828-ci ildə karantin haqqında qərar qəbul olunmuşdu. 1870-ci ildə bütün Krımda 7 zemstvo həkimi var idisə, 1886-cı ildə onların sayı 22-yə çatmışdı. Varlı və imkanlı adamlar Krımın kurort şəhərlərində istirahət edirdilər. XIX əsrin 80-ci illərində hər il Yaltaya 15 min adam istirahətə gəlirdi. Alupka, Qurzufa, Aluşta, Simeiza, Sak, Sudak, Feodosiya və sair bu kimi istirahət yerləri şöhrət qazanmışdı.

1829-cu ildə Başqırdıstanda yayılan vəba epidemiyası, 1848-1849 və 1853-cü illərdə yenidən baş vermişdi. Mənşəcə başqırd olan həkimlər XIX əsrin 30-cu illərindən fəaliyyətə başlamışdılar. 1865-ci ildə Ufada 22 xəstəxana var idi. Şəhərdə 1889-1890-cı illərdə 105 çarpayılıq quberniya xəstəxanası tikilmişdi. 1882-ci ildə zemstvo həkimlərini birləşdirən Tibb Cəmiyyəti yaradılmışdı. Quberniya Sanitar bürosu /1886/ yoluxucu xəstəliklərin aşkar edilməsi və qeydə alınması ilə məşğul olurdu. Eyni zamanda büro Ufa quberniyası üzrə yayılan yoluxucu xəstəliklər və tibbi-sanitariya fəaliyyəti haqqında aylıq məlumat verirdi. Çuvaşiyanın Çeboksarı şəhərində əsrin ortalarında 50 çarpayılıq xəstəxana fəaliyyət göstərirdi. 1820-ci ildə Alatırda 15 çarpayılıq, 1830-cu ildə isə Tsivildə 12 çarpayılıq, Yadrində isə 15 çarpayılıq xəstəxana açılmışdı.

**Mətbuat. Mədəni-maarif müəssisələri.** XIX əsrin ilk illərindən Kazanda nəşriyyat işi genişlənmişdi. Asiya /1800/ və Universitet /1804/ mətbəələrində rus, ərəb, tatar və başqa dillərdə kitab nəşr olunurdu. Asiya mətbəəsində dini kitablar və əlifba çap edilirdi. Həmin kitablar Volqaboyu, Başqırdıstan, Sibir və Mərkəzi Asiyaya göndərilirdi. 1801-ci ildə Ufada mətbəə açılmışdı. Dövri mətbuat orqanlarının – «Kazan xəbərləri» /1811/, «Kazan məcmuəsi» /1821/, «Universitetin elmi əsərləri» /1834/, «Kazan quberniyasının xəbərləri» /1838/, «Kama-Volqa qəzeti» /1872 /, «Volqa xəbərləri» /1884/ və s. nəşrinə başlanılmışdı. Kazan universitetinin orqanı olan «Kazan xəbərləri»ndə Tatarıstan, Başqırdıstan, Çuvaşiya və Sibir ziya-

lıları regionun keçmişi, onun təbiəti, zəngin sərvətləri və əhalisi haqqında məqalələr çap etdirirdilər.

1838-ci ildən Ufada «Orenburq quberniya xəbərləri» çıxırdı. Burada yerli xəbərlər, statistik materiallar, ölkənin tarix və coğrafiyası və s. sahələrə aid maraqlı materiallar verilirdi. Sonralar bu qəzet «Ufa quberniya xəbərləri» adı ilə çıxmağa başlamışdı. 1876-cı ildən çıxan «Orenburq səhifələri» qəzetinə 1879-cu ildən «Orenburqun elanlar səhifəsi» adlı əlavəsi çıxırdı. Burada elanlar, bülletenlər və başqa materiallar dərc olunurdu. Başqırdıstanın flora, fauna, coğrafiyası, geologiyası və tarixinə aid zəngin və lazımi materialları öz səhifələrində verən «Rus Coğrafiya Cəmiyyəti Orenburq şöbəsinin Xəbərləri» /1879/ dərc olunurdu. Qəzet və jurnallara abunəçilərin sayı artırdı. Kitab mağazalarının sayı getdikcə çoxalırdı.

Sibirin elmi həyatında Q. İ. Spassk tərəfindən Peterburqda nəşr olunan «Sibir xəbərləri» /1818/ jurnalı mühüm rol oynamışdı. Jurnalda Gedenştrom, Kiber, Zlobin, Çerniqovtsevin ekspedisiya və səyahətləri əsasında hesabatlar, maraqlı elmi məqalələr və salnamələr çap olunmuşdu. Tədqiqat obyektlərinin genişlənməsi, öyrənilməsi və nəşri ilə bağlı olaraq «Sibir xəbərləri» jurnalı 1825-ci ildən «Asiya xəbərləri» adı altında nəşr olunmağa başlamışdı. Dekabristlər üsyanının yatırılmasından sonra irticanın güclənməsi ilə əlaqədar olaraq 1827-ci ildə jurnal öz fəaliyyətini dayandırmışdı. XIX əsrin ortalarına kimi Sibirdə dövri mətbuat yox idi. Quberniya şəhərlərində yeni qəzetlər yalnız 1857-ci ildən sonra çıxmağa başlamışdı.

1830-cu ildə Krımda ilk dəfə Simferopolda yaradılmış mətbəədə «Tavriya quberniya xəbərləri» nəşr olunurdu. Aparılmış arxeoloji qazıntılar nəticəsində Kerç, Sevastopol və Feodosiyada tarix-arxeologiya muzeyi yaradılmışdı.

1864-cü ildə Ufa quberniya muzeyi açılmışdı. A.F.Lixaçovun kolleksiyaları əsasında Kazanda muzey təsis olunmuşdu /1894/. 1897-ci ildə Orenburqda muzey yaradılmışdı.

XIX əsrin 70-ci illərində Barnaulda bir neçə ziyalı qrupu öz klublarını təşkil etmişdi. Eyni zamanda burada «Xəbərlər» qəzeti çap olunmağa başlamışdı. 80-ci illərdən etibarən Barnaulda tez-tez səyyar sərgi salonları təşkil olunurdu. 1889-cu ildə şəhərdə Etnoqrafiya muzeyi fəaliyyət göstərirdi. XIX əsrin ortalarından etibarən

mətbəələrdə rəsmi xəbər və sənədlərlə yanaşı yerli şair və yazıçıların da kitabları çap olunurdu. Əsrin axırlarında «Altayın zoologiyası», «Altayın etnoqrafiyası» və s. kitablar nəşr edilmişdi.

XIX əsrin 90-cı illərindən etibarən Yakutsk şəhərində mətbəə təşkil edilmişdi. Həftədə bir dəfə «Yakutiya quberniyasının xəbərləri» buraxılırdı. 1891-ci ildə siyasi əqidəsinə görə buraya sürgün olunmuş ziyalılar Yakutiya muzeyini açmışdılar. 1898-ci ildə pulsuz xalq kitabxanası-oxu zalı yaradılmışdı. XIX əsrin 80-90-cı illərində Orenburq, Ufa və Mənzəlidə şəhər kitabxanaları fəaliyyət göstərirdi. Eyni zamanda Çelyabinskdə şəxsi kitabxana və müəssisələrdə kitabxanalar mövcud idi. Ufa kişi və qadın gimnaziyaları, kənd təsərrüfatı məktəbində kitabxanalar açılmışdı. 1893-cü ildə Zlatoustovsk zavodunda fəhlələr öz şəxsi vəsaitləri hesabına kitabxana yaratmışdılar. Kəndlərdə də kitabxanalar açılırdı.

**Ədəbiyyat.** Tatarıstanda bədii yaradıcılığın inkişafı sahəsində müəyyən irəliləyiş özünü göstərməkdə idi. 1806-cı ildə rus dilində yaradılan dərnək sonralar Həvəskar Cəmiyyəti adı altında öz fəaliyyətini davam etdirmişdi. Cəmiyyət 1815-ci ildə özünün birinci və sonuncu 316 səhifəlik kitabını buraxmışdı. Həvəskar Cəmiyyəti 1853-cü ilə qədər fəaliyyət göstərmişdi. Tatar yazıçılarından Qabdərəhim Utız İməni /1756-1836/ və İbadulla Salihov /1794-1867/ öz yaradıcılıqlarında doğma ədəbiyyatın ənənələri və mütərəqqi yazıçıların təcrübəsinə arxalanmışdılar. Qabdənnasir Kursəvi /1776-1818/ və Qabdulzəbbar Kandalının /1797-1860/ yaradıcılığında realizm tərənnüm edilirdi.

Onlar zülm, haqsızlıq, cəhalət və nadanlığı, həyatdakı çatışmamazlıqları tənqid edərək insan düşüncələrinin azadlıq və sərbəstliyini əsas götürürdülər. Şəhabəddin Mərcani /1818-1889/ dünyəvi biliklərin təbliğ və tədris edilməsinin əsas tərəfdarlarından biri kimi maarif, elm, fəlsəfənin inkişafına xüsusi diqqət yetirilməsini vacib sayırdı. O, qədim Bulqar və Kazan xanlığının tarixinə dair əsər yazmış və Şərq dünyası ilə çox maraqlanmışdı. Ş. Mərcani fəlsəfə, tarix, ədəbiyyat, dil və dinə aid 30-a yaxın əsər yazmışdı.

Görkəmli tatar maarifçisi Kayum Nasiri /1825-1902/ 1879-cu ildən ədəbi-bədii və elmi işlə məşğul olan yazıçı kimi tanınmışdı. O, ərəb, fars, türk, cığatay və rus dillərini mükəmməl bilirdi.

K.Nasirinin ilk əsəri 1859-cu ildə yazılan «Qısa nəhv kitabı»dır. 1871-ci ildən isə təqvim buraxmağa başlamışdı.

Onun 24 il ərzində nəşr etdirdiyi təqvim Tatarıstanda elmi-ədəbi məcmuə kimi mühüm əhəmiyyət kəsb etmişdi. K.Nasiri «Ləhceyi-tatar», «Rusca-tatarca lüğət», «Əxlaq risaləsi», «Tərbiyə kitabı», «Qanuni-səhhət», «Yer-yurt»,«Adətlər» və s. bu kimi əsərlərin müəllifidir. O, 1885-ci ildə Kazan Universiteti nəzdindəki Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdi. K.Nasiri ədəbi, elmi və pedaqoji fəaliyyətlə yanaşı tatar ictimai fikrinin inkişafında mühüm rol oynamışdı. Onun jurnalist, folklorşünas, maarifçi və dilçi kimi də elm aləmində özünəməxsus yeri var idi.

XIX əsrin axırlarında tatar ədəbi mühitində maarifçilik və humanist ideyaların inkişafında Zakir Bigeyev /1870-1902/, Qabdrəhman İlyasi /1856-1895/ və b. böyük rolu olmuşdu. Q.İlyasi «Biçarə qız» əsərində tatar qadınlarının azadlıq, ailə və məişət uğrunda mübarizələrini əks etdirmişdi.

XIX əsrin birinci yarısında başqırdlarda şifahi xalq yaradıcılığı, xüsusən də mahnı janrı inkişaf etmişdi. Başqırd xalqının həyatının müxtəlif sahələrini tərənnüm edən xalq mahnıları daha çox yayılmışdı. Orenburq quberniyasının idarəçiliyində baş verən haqsızlıqlara, eləcə də hərbçilərə, 1812-ci il Fransa-Rusiya müharibəsinin bəzi döyüşlərinə, 1839-cu ildə Orenburq general-qubernatoru V.A. Perovskinin komandanlığı altında Sırdərya, Kokand qalası Ağ məscidə olan hərbi ekspedisiyalarda iştirak edən başqırd döyüşçülərinə həsr olunmuş mahnılar xüsusilə fərqlənirdi. A.S. Puşkin, V.İ. Dal, S.T. Aksakov, M.L. Mixaylov, P.M. Kudryaşev və b. yaradıcılığında başqırd xalqına ehtiram və hörmət bəslənirdi. A.S.Puşkin yaratdığı başqırd obrazını ilk dəfə olaraq rus və dünya ədəbiyyatına gətirmişdi /«Puqaçovun tarixi» və «Kapitan qızı»/. S.T.Aksakov «Ovçunun hekayə və xatirələri», «Ailə xronikası», «Baqrovun nəvəsinin uşaqlıq illəri» əsərlərində Orenburq quberniyasının əsrarəngiz təbiətini təsvir etmişdi. Şair P.M. Kudryaşev bir çox şer, poema və povestlərini başqırd xalqının sosial ədalətsizlik və milli zülmə qarşı mübarizəsinə həsr etmişdi. Onun «Başqırd batırının ölümünə» şeri vətəninin azadlığı uğrunda mübarizə aparan başqırd

qoşununa həsr olunmuşdu. P.M. Kudryaşev «Abdryaş» və «Abdrahman» povestlərində Başqırdıstanın təbiəti, onun heç də İsveçrədən geri qalmaması, Rusiyaya birləşdirilməsi, Puqaçov hərəkatından yazmışdı.

XIX əsrin ikinci yarısında Başqırdıstanda maarifçilər arasında Muhamed Salim Umetbayev /1841-1907/ mühüm yer tuturdu. O, başqırd torpaqlarının zəbt edilməsinə qarşı mübarizə apararaq xalqı əkinçiliyi genişləndirməyə, müxtəlif sənətlərə yiyələnməyə, məktəblər açmağa çağırırdı. Məqalə, çıxış və məruzələrində o, başqırd, tatar uşaqlarının öz ana dilində təhsil almasını vacib hesab edirdi. M.S.Umetbayev Başqırdıstanın tarixinin öyrənilməsinə çox diqqət yetirirdi. O, folklorla maraqlanır, şerlər yazırdı. 1899-cu ildə A.S. Puşkinin «Baxçasaray fontanı» əsərini tatar dilinə çevirmişdi.

Ümumiyyətlə, XIX əsrdə Başqırdıstanda yazılı ədəbiyyat hələ çox zəif inkişaf etmişdi. Bədii yaradıcılıqla başqırd ruhaniləri içərisindən çıxmış yazıçılar da məşğul olurdular. Bunlardan Tacəddin Yalsıqulov /1767-1837/, Qali Sokrı /1826-1889/, Şəmsəddin Zəki /1825-1865/, Miftahəddin Akmulla /1831-1895/ və b. göstərmək olar. M. Akmulla istisna olmaqla bu yazıçıların əsərləri xalq arasında geniş yayılmamışdı. M.Akmulla Ufa, Orenburq qaberniyalarında və Qazaxıstanda uşaqların maariflənməsinə çalışmışdı. O, şerlərini türk dilində, bəzən də qazax dilində yazmışdı. Şerlərində torpağa bağlılığı təqdir, bəylərin tamahkarlığını isə tənqid edir, xalqı maariflənməyə, ədalətli olmağa çağırırdı. Başqırd və qazax şifahi xalq yaradıcılığını dərindən bilməsi, şərq klassiklərinin yaradıcılıq ənənələrini mənimsəməsi ona realist əsərlər yaratmaqda kömək etmişdi.

Çuvaşiyanın xalq ədəbiyyatında mif, əfsanə və nağıllar əsas yer tuturdu. Eyni zamanda atalar sözləri, lətifə və tapmacalar xalq müdrikliyi nümunəsi kimi qəbul edilirdi. Hələ XVIII əsrin ikinci yarısında ruhani seminariyasının müəllim və tələbələri tərəfindən toplanılmış çuvaş dilində olan ilk şer nümunələri nəşr olunmuşdu. XIX əsrdə çuvaş folkloru nümunələrini A.A.Fuks, D.P.Oznobişin, V.İ.Lebedev, S.M. Mixaylov, N.İ. Zolotnitsk və başqaları toplamışdılar. 1852-ci ildə V.İ.Lebedev «Daxili İşlər Nazirliyinin jurnalı»nda naməlum şair tərəfindən çuvaş dilində yazılmış şerləri çap etdirmişdi. Burada əhalinin ağır və hüquqsuz vəziyyəti əks olunmuşdu.

Bədii ədəbiyyatın inkişafında dilin daxili qanunları əsasında yaradılmış yeni çuvaş yazısı mühüm rol oynamışdı. Çuvaş yazıçılarının əksəriyyəti cəmiyyətdəki sosial ədalətsizliyi öz əsərlərində göstərməyə çalışırdılar. Onlar ciddi senzuranın hökm sürdüyü bir şəraitdə daha çox məişət məsələləri, qadın hüquqsuzluğu və köhnə adət-ənənələrə dair problemlərə diqqət yetirirdilər. Bəzən sosial təbəqələşməyə münasibət bildirilir və çar məmurlarının rüşvətxorluğu tənqid edilirdi. Şifahi xalq yaradıcılığı xəzinəsindən bəhrələnməklə İ. İvanov /1848-1885/ nəsihət xarakterli atalar sözləri və zərbi-məsəllərlə dolğun olan kiçik hekayələr yazırdı. Onun «Çəkmələri geyin, amma çarıqları atmayın», «İnsan pul üçün deyil, pul insan üçündür», «Özgəyə pislik etmə, öz başına gələr» və s. bu səpgidə yazılmış bədii əsərləri diqqətəlayiqdir. Çuvaş ədəbiyyatında M.F. Fyodorovun /1848-1904/ yaradıcılığında xalqın istək və arzuları, mövcud şəraitdə baş verən hadisələr daha qabarıq şəkildə verilmişdir. O, çuvaş dilində yazdığı «Arsuri» /«Qulyabani»/ balladasında burjua islahatlarının həyata keçirildiyi bir şəraitdə çuvaş kəndlilərinin sosial həyatını təsvir etmişdir. İ.N.Yurkin /1863-1943/ 1886-cı ildə «Göy qurşağı», 1889-1890-cı illərdə «Adam tox, gözləri ac» və «Sərvət» əsərlərini yazmışdı. Müəllifin «Sərvət» povestində üç nəslin miras üstündə qalmaqalından söhbət gedirdi.

Satirik şer, salnamələr və çox vaxt ədəbi əsərlərə çevrilən şikayət yazıları Sibir ədibləri üçün xarakterik idi. Tacir-salnaməçilər öz memuarlarında Şərqi Sibir general-qubernatorları Pestel və Treskinin özbaşınalıqlarına qarşı çıxırdılar. Ədəbi prosesdə mövcud olan müxtəlif cərəyanlar arasında mübarizə genişlənmişdi. Romantizm ədəbiyyatda xəlqilik və milli özünəməxsusluq problemini ön plana çəkmişdi. Romantik şairlər tarix, folklor, etnoqrafiya və milli koloritliyə daha çox diqqət yetirməyə başlamışdılar. Sibirin kəşfi ilə əlaqədar olaraq Yermakın obrazı dekabristlərdən K.F. Rıleyevin yazılarında öz əksini tapmışdı. 1823-cü ildə onun yazdığı «Voynarovsk» adlı poemasında Sibir sürgünlərində baş vermiş hadisələr əks olunmuşdu. A. Bestujev yerli əhalinin məişət və mənəviyyatına aid «Sibir haqqında hekayələrdən hissələr», «Həkim Ermana məktub» oçerklərini yazmışdı. Tarixi romanların yazılmasında İ.Kalaşnikov mühüm yer tuturdu. Onun «Tacir Jolobovun qızı» /1831/,

«Sürgün edilmiş adamlar» /1834/ əsərləri böyük müvəffəqiyyət qazanmışdı. Yerli nəşriyyat orqanlarının ləngliyi, tənqid və jurnalistikanın inkişaf etməməsi, istedadlı adamların azlığı və Sibirin ucqar region olması ədəbiyyatın inkişafına mane olurdu.

**İncəsənət.** Kazanda teatr XIX əsrin əvvəllərində həvəskar aktyorlar tərəfindən yaradılmışdı. Burada S.T. Aksakovun teatrı fəaliyyət göstərirdi. Sonralar belə teatrlar professional teatra çevrilmişdi. Burada dram, opera və başqa truppalar da yaradılmışdı. Bu işdə istedadlı artist və teatr xadimi P.P.Medvedevin böyük xidməti olmuşdu. O, Kazan ictimaiyyətini ilk dəfə Ostrovski, Şekspir və Şillerin pyesləri, Qlinka, Musorqski, Darqomıjski və b. operaları ilə tanış etmişdi. F.İ.Şalyapinin həyat yolu və yaradıcılığı Kazan şəhəri ilə bağlı idi. Teatrların repertuarlarında rus yazıçılarının əsərləri əsas yer tuturdu.

1841-1843-cü illərdə Ufada N.A.Sokolovun rəhbərliyi altında birinci peşəkar teatr truppası tamaşalar vermişdi. 1890-cı ildə Ufada qış teatrında hələ heç kəsə məlum olmayan 17 yaşlı F.İ.Şalyapin çıxış etmişdi. Simferopolda yaradılmış xüsusi həvəskar teatrda görkəmli rus aktyoru Şepkin fəaliyyət göstərirdi.

XIX əsrin əvvəlində İrkutskda qarnizon əsgərləri və sürgün olunmuş qadınlardan ibarət teatr truppası yaradılmışdı. XIX əsrin 40-50-ci illərində teatr sahəsində müəyyən irəliləyiş hiss edilirdi. İrkutskda İ.Qudkov və onun ardıcılı L.Suxorukov həvəskar teatr qrupu yaratmışdılar. İrkutsk və Tomskda xüsusi teatr binaları tikilmişdi. «İrkutsk quberniya xəbərləri» Anayeva-Pryaxinanın dramaturgiya sahəsində fəaliyyətini xüsusi olaraq qeyd etmişdi. İrkutsk teatrında N.V.Qoqol, A.N.Ostrovski, A.S.Qriboyedovun əsərləri səhnəyə qoyulmuşdu. Yakutiyada da həvəskar teatr mövcud olmuşdu.

İncəsənət əsərləri və xalq mahnılarının folklor, lirika, xalqın ictimai-siyasi, sosial-iqtisadi və mənəvi həyatı ilə bağlılığı Volqaboyu, Sibir, eləcə də Krım türklərinin musiqi yaradıcılığında mühüm yer tuturdu. Əmək, xor, tarixi şəxslər, adət-ənənələr, toy və s. aid mahnılar geniş yayılmışdı / S.Razin,Y.Puqaçov/.

1881-ci ildə Kazanda Musiqi Həvəskarları dərnəyi, 1887-ci ildə Rusiya Musiqi Cəmiyyətinin Kazan şöbəsi yaradılmışdı. Musiqi məktəbləri ölkənin musiqi mədəniyyətinin inkişafında mühüm

rol oynayırdı. Tatar musiqisinin nota alınması sahəsində ilk addımlar atılırdı. Bu işdə Q.Sayfullinin böyük xidməti olmuşdu.

Başqırdların «Buranbay» və «Biiş» adlı mahnılarında xalqın sosial ədalətsizliyə qarşı mübarizəsindən bəhs olunur. «Buranbay» mahnısında onun qaçıb İryandiks dağında gizlənməsi və həbs olunaraq Sibirə sürgün edilməsi səslənir. XIX əsrin birinci yarısında hərbi mahnılara, 1812-ci il Vətən müharibəsi, Orenburq sərhəd xətti haqqında və müxtəlif hərbi yürüşlərdən bəhs edən mahnılara üstünlük verilirdi.

XIX əsrin axırlarında etnoqraf-musiqiçi S.Q. Rıbakov başqırd xalq mahnılarının toplanılma və öyrənilməsi ilə məşğul olmuşdu. O, başqırd xalq mahnılarının melodik və effektli, fəlsəfi baxışlara meylli olmasını göstərirdi. XIX əsrin 60-cı illərindən etibarən Ufada skripka, fortepiano və piano müəllimləri hazırlanırdı. Musiqinin inkişafında Musiqisevərlər Cəmiyyətinin böyük rolu olmuşdu. Yakutların kumıs bayramı /ısıax/ təbiətə və insanların dünyagörüşündəki dəyişikliyə həsr edilmişdi. Bu bayramda müğənninin ifa etdiyi mahnı xorun müşayiəti ilə səslənir və həm də rəqs edilirdi.

Realist cərəyanın nümayəndələrindən olan L.D.Kryukov, V.Turin, E.P.Turnerelli öz rəsm əsərlərində Kazan şəhərinin və onun ətraf yerlərinin təsvirinə üstünlük vermişdilər. V.Turinin «Kazanın təsviri», «Universitet» və s. əsərləri xüsusilə fərqlənirdi. 1895-ci ildə Kazanda rəssamlıq məktəbi açılmışdı. Burada rəssam, memar və digər ixtisaslar üzrə sənət ustaları hazırlanırdı. Vaxtaşırı rəsm əsərlərinin sərgiləri təşkil edilirdi.

Sibirdə tətbiqi incəsənət qədim zamanlardan özünəməxsus tərzdə inkişaf etmişdi. Bu sahə ilə peşəkar rəssamlar deyil, adi ovçu, balıqçı və maldarlar məşğul olurdular. Milli ornamentlə bəzədilən paltarların tikilməsi, ağac, sümük üzərində oyma, müxtəlif bəzək şeyləri, ibadət etmək üçün əşyaların hazırlanması Sibir və Volqaboyunda geniş yayılmışdı. Sibirin Rusiya tərəfindən işğalından sonra istedadlı yakut, xakas və tuva rəssamları rus tətbiqi incəsənətinin müvafiq formalarından da istifadə etməyə başlamışdılar. Dekabristlərdən Sibirə sürgün edilən Y.M.Andriyeviç, İ.A.Annenkov, P.İ.Borisov, V.P.İvaşev, N.P.Repin və b. bacarıqlı həvəskar rəssam idilər. Bunlardan fərqli olaraq N.A.Bestujevin rəssamlıq

yaradıcılığı Sibirlə bağlıdır. O, Senat meydanında üsyan iştirakçılarından, sürgün edilən inqilabçılar və onların zövcələrindən 78 nəfərinin portretini yaratmışdı. N.A.Bestujev həmçinin Sibirin sərt təbiətinə aid xeyli sayda naturadan peyzajlar çəkmişdi. Karikatura çəkən rəssam N.A. Stepanov böyük şöhrət qazanmışdı. Peterburqdan olan rəssam V.P.Petrov Sibirdə yaşadığı 10 il ərzində 100-dən çox rəsm və akvarel yaratmışdı. V.P.Petrov Sibirə aid əsərlərinə görə 1806-cı ildə Peterburq Bədae Akademiyasının akademiki seçilmişdi. Rəssam M.İ.Molçanov Altayda böyük şöhrət tapmışdı. O, altaylıların həyatına aid etnoqrafik şəkil, portret və peyzajlar çəkmişdi. 1840-cı ildə memar Melnikovun layihəsi üzrə çar vazı hazırlanmışdı. Altaylıların qiymətli daşlardan düzəltdikləri məmulat 1851 və 1862-ci illərdə Londonda keçirilən sərgidə nümayiş etdirilmişdi.

XIX əsrin birinci yarısında Kazan şəhərində gözəl inzibati və yaşayış binaları inşa edilmişdi. Universitet şəhərciyinin tikilməsinin layihəsi memarlardan M.P.Korinfsk və P.Q. Pyatnitskiyə məxsusdur. Əsrin əvvəlində inşa olunmuş «Qonaq evi», «Şəhər idarəsi» və «Zadəgan məclisi»nin binası öz memarlıq üslubu ilə fərqlənirdi. Sibir memarlığında klassik üslüb üstünlük təşkil edirdi. 1804-cü ildə İrkutskda tikilən «Ağ ev» bu cəhətdən diqqətəlayiqdir.

# VI FƏSİL

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKÜSTAN, VOLQABOYU, SİBİR VƏ KRIM

## § 1. SOSİAL-İQTİSADİ VƏZİYYƏT

XX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanın iqtisadi və siyasi həyatında xeyli dəyişiklik olmuşdu. Kapitalist münasibətlərinin inkişafı kənddə təbəqələşməni sürətləndirmiş və kustar istehsalın geriləməsinə gətirib çıxarmışdı. Bu dövrdə Türküstan Rusiya üçün xammal bazasına çevrilmişdi.

Sibir, Mərkəzi Asiya və Qafqazda dəmiryol tikintisinin daha da genişlənməsi pambıq-parça sənayesinin inkişafına kömək etmişdi. Dəmir yolları Mərkəzi Asiyanın pambıqçılıq rayonlarını Rusiyanın pambıq-parça sənayesi, daha sonra isə qonşu ölkələrin bazarları ilə əlaqələndirirdi. 1906-cı ildə Orenburq-Daşkənd dəmiryol xətti işə düşdükdən sonra Rusiyanın mərkəzi rayonları ilə əmtəə dövriyyəsi xüsusilə genişlənmişdi. 1912-ci ildə Daşkənd yolu ilə 13 milyon puddan çox mal aparılmışdı.

Türküstanda daha məhsuldar pambıq sortlarının əkilməsi bu sahədə məhsuldarlığın artmasına səbəb olurdu. Sırdərya, Zərəfşan, Fərqanə və Zakaspi vilayətləri əsas pambıqçılıq rayonları idi. 1910-cu ildə 25.488 min pud çiyidli pambıq becərilmişdisə, bu, 1915-ci ildə 93.918 min puda yüksəlmişdi. Mərkəzi Asiyada əkilən torpaq sahələrinin çox hissəsində pambıq becərilirdi. Türküstanın kənd təsərrüfatı həm də geridə qalmış feodal ənənələrini özündə qoruyub saxlamışdı. Bütün kənd təsərrüfatı məhsullarının istehsalı, demək olar ki, əl əməyinə əsaslanırdı və kənd təsərrüfatı texnikası primitiv xarakter daşıyırdı. Kənd təsərrüfatında Rusiya üçün zəruri olan pambıqçılığın inkişafına mühüm diqqət yetirilirdi. Daşkənd, Bayraməli rayonlarında iri pambıq plantasiyaları yaradılmışdı. Texniki bitkilərin digər növlərinin yetişdirilməsinə də xüsusi fikir verilirdi. Pambıqçılıq sahə-

lərinin genişləndirilməsi ilə əlaqədar olaraq Türküstan ərazisində taxıl əkini sahələri azaldılmışdı. Rusiyadan buraya gətirilən taxıl isə əhalinin tələbatını ödəmək üçün kifayət etmirdi.

Maldarlıq kənd təsərrüfatında mühüm əhəmiyyət kəsb edirdi. Türkmənistanda ayrı-ayrı illərdə maldarlıqdan gələn ümumi gəlirin 90 faizini qoyunçuluq verirdi. Türküstandan Rusiya, İngiltərə, Fransa, Almaniya və digər Avropa ölkələrinə yüksək keyfiyyətli qaragül dərisi də ixrac edilirdi.

Torpaq və su vasitələrinin bir tərəfdən çar hakimiyyətinin inzibati idarələri, digər tərəfdən isə yerli feodallar tərəfindən tutulması kütləvi şəkildə torpaqsız və aztorpaqlı kəndlilərin yaranmasına səbəb olmuşdu. Qazaxıstanın kəndlərində ictimai təbəqələşmə artmaqda idi. Semipalatinsk vilayətinin Pavlodar qəzasında 125 min yoxsul təsərrüfatın 63 mindən bir qədər çoxunun atı olduğu halda, 1800 bəy təsərrüfatının 172 min başdan artıq atı var idi. Oturaq əhali, xüsusilə rus gəlmələrinin yaşadığı bölgələrdə əkinçilik xırda əmtəə və bazar üçün mal istehsal edən təsərrüfata çevrilirdi. Feodal istismar formaları ilə yanaşı muzdlu əməkdən də istifadə olunurdu. Məsələn, Qazaxıstanın Kustanay qəzasında təsərrüfatların 28 faizində muzdlu əməkdən istifadə edilirdi. Əkinçilik və oturaq həyata keçid prosesi genişlənirdi.

Beləliklə, XX əsrin əvvəllərində Türküstanda pambıqçılığın inkişafı nəticəsində kəndli təsərrüfatının bazarla əlaqəsi güclənir, torpaqlar bəylərin və yaranmaqda olan varlı kəndlilərin əlində cəmləşirdi. Kənd təsərrüfatı fəhlələrinin sayı isə getdikcə artırdı. Lakin bütün bunlar hələ regionda hakim olan feodal münasibətləri çərçivəsində baş verirdi. Türküstanda kəndlilərin vəziyyətini ağırlaşdıran amillərdən biri də vergilərin ağırlığı və qeyri-sabit olması idi. Kəndlilərdən alınan vergilər ildən-ilə artırdı. Əhali hərbi mükəlləfiyyət daşımadığına görə 1905-ci ildən yerli müsəlmanlardan vergi alınırdı. Bundan başqa alaçıq vergisi, çoxişlənən mallar üzərinə qoyulan vergilər, «ictimai ehtiyacları» ödəmək üçün vergilər mövcud idi. 1906-cı ildə Zakaspi vilayətində kənd əhalisindən təkcə birbaşa toplanan vergilərin ümumi miqdarı yarım milyon manata qədər olmuşdu.

XX əsrin əvvəllərində Rusiyada başlayan kəndli hərəkatını zəiflətmək üçün çar hökuməti kəndliləri mərkəzi rayonlardan ucqarlara, xüsusən Mərkəzi Asiya və digər şərq bölgələrinə köçürməyə çalışırdı. 1904-cü ildə Köçürmə idarəsi yaradılmışdı. Həmin ildə «Kənd əhalisi və meşşan-əkinçilərin könüllü köçürülməsi haqqında» qanun verilmişdi. Gəlmə rus kəndliləri içərisində qolçomaq təsərrüfatı yaratmaq üçün onlar 15 il müddətinə bütün vergi və mükəlləfiyyətdən, o cümlədən rekrutdan azad olunur, onlara borc verilirdi. 1906-cı ildə Türküstan diyarında 77 min gəlmə rus ailəsi var idi. 1914-cü ildə Semireçye vilayətinin yerli əhalisinin 4,2 milyon desyatin əlverişli torpaq sahəsi gəlmə ruslara verilmişdi.

Mərkəzi Asiya və Qazaxıstanda iri kapitalist təsərrüfatı deyil, xırda kəndli təsərrüfatı üstünlük təşkil edirdi. Bu regionlarda xırda sənaye sahələri daha geniş yayılmışdı. Rusiyanın ayrı-ayrı ərazilərindən bu regionlara gələn sahibkarlar Türküstanda pambıqtəmizləmə sənayesinin inkişafına xeyli kapital məsarif edirdilər.

Türküstanın sənaye həyatında pambıqtəmizləmə mühüm yer tuturdu. Buradakı 208 pambıqtəmizləmə zavodunda 8060 fəhlə işləyirdi. Orta hesabla hər zavodda 39 fəhlə çalışırdı. 1913-cü ildə həmin zavodlarda 177,85 min ton mahlıc istehsal edilmişdi. Ancaq ilkin emal yerlərdə həyata keçirilirdi. İndiki Özbəkistan ərazisində 1683 fəhləsi olan 21 yağ zavodu var idi. 1913-cü ildə yağ zavodları 36,5 min ton bitki yağı istehsal etmişdir. Özbəkistanda istehsal olunan bütün sənaye məhsulunun 87 faizini pambıqtəmizləmə, yağ və sabun istehsalı müəssisələri verirdi. Türküstanda 37 şərab zavodu fəaliyyət göstərirdi.

Mərkəzi Asiyada ağır sənaye faktiki olaraq yox idi. Neft sənayesi yaranıb inkişaf etməkdə idi. Dəmiryol şəbəkələrinin genişlənməsi bölgələrarası iqtisadi əlaqələri gücləndirmişdi.

Kustar sənayenin mövcud olması haqqındakı statistik məlumatlar ziddiyyətlidir. Birinci dünya müharibəsi ərəfəsində Türküstanın oturaq əhalisinin yerləşdiyi bölgələrdə kustar müəssisələrin sayının 108 min olması qeyd edilir. Burada ildə 60 milyon manat dəyərində məhsul istehsal olunurdu.

Daşkənd qəzası, Buxara əmirliyi və Xivə xanlığı ərazisində iri ticarət firmaları fəaliyyət göstərirdi. Onlar bütün kənd təsərrüfatı

məhsullarını almaqla məşğul idilər. Eyni zamanda bu firmalar Rusiya və xarici ölkələrin sənaye məhsullarını da satırdılar.1912-ci ildə Daşkənddə 22 iri rus və xarici ticarət firması, 186 mağaza mövcud idi. Mərkəzi Asiya və Qazaxıstanın digər şəhərlərində də belə firma və mağazalar var idi. Mərkəzi Asiyanın pambıqtəmizləmə sənayesi və onunla bağlı olan təsərrüfat sahələri «Böyük Yaroslav manufakturası», «Moskva ticarət-sənaye şirkəti», «Mərkəzi Asiya və İranla ticarət şirkəti», «Şlosberq qardaşları şirkəti», «Yurov ticarət evi», «S.Morozov ticarət evi» və b. bu kimi sənaye-ticarət kompaniyalarından asılı idilər. Türküstanda müxtəlif növ məhsul istehsal edən 256 zavoddan 96-sı rus və xarici firmalara məxsus idi. Bunlar istehsalın həcminə görə daha böyük olmaqla yanaşı, həm də müvafiq təkmil avadanlıqla təmin edilmişdilər. Rusiya firmalarına məxsus zavodların istehsal gücü yerli sahibkarların müəssisələrinə nisbətən 2 dəfə artıq idi.

Pambıq bazarı əsasən rus və onların vasitəsilə xarici kapitalistlərin əlində cəmləşmişdi. Bütün iri şəhərlərdə metal məmulatları və metalla ticarət «Prodamet», kerosin və başqa yanacaq materialları ilə «Nobel qardaşları şirkəti», rezin məmulatları ilə «Treuqolnik» və b. kompaniyalar məşğul olurdular. 1910-cu ildə Qazaxıstanda 18 min fəhləsi olan irili-xırdalı 5 min sənaye müəssisəsi var idi. 1914-cü ildə Özbəkistanda 18 mindən bir qədər çox fəhləsi olan 425 kapitalist müəssisəsinin hər birində orta hesabla 42 fəhlə işləyirdi. Bununla bərabər, kapitalist müəssisələrinin ümumi inkişaf səviyyəsi hələ aşağı idi.

1912-ci ildə Türküstan general-qubernatorluğunda Dövlət bankının 7, müxtəlif kommersiya banklarının isə 40 şöbəsi fəaliyyət göstərirdi.

Təşəkkül prosesi hələ də davam edən yerli burjuaziyaya məxsus xeyli sayda sənaye və ticarət müəssisələri yaradılmışdı. 1912-ci ildə Fərqanə vilayətindəki 157 pambıqtəmizləmə zavodundan 107-si, Səmərqənd vilayətində 37-dən 27-si, Buxara əmirliyindəki 20-dən 8-i yerli kapitalist-bəylərə məxsus idi.

Fərqanə vilayətində Dautbayev, Xocayev, Buzruk Xoca, Mirkamil Muminbayev, Səmərqənd vilayətində Fuzailov, Kələntərov, Hakimov və Daşkənddə Yusif Davıdov, Əsədullayev, Arif Xocayev və b. bu kimi yerli kapitalistlərin bir sıra müəssisəsi işləyirdi.

Belə sahibkarlar sırasında qazax İsmayıl Jamançalov, Jensenbay Baymahambet və Maman Turspek də var idi.

XX əsrin əvvəllərində sənaye-ticarət müəssisələri Mərkəzi Asiya və Qazaxıstanın nisbətən iri şəhərlərində Daşkənd, Səmərqənd, Buxara, Kokand, Xivə, Əndican, Namanqan, Margilan, Aşqabad, Mərv, Aktyubinsk, Petropavlovsk, Perovsk, Qazalı və b. cəmləşmişdi. Təkcə Kokand şəhərində 3 min fəhləsi olan 58 sənaye müəssisəsi mövcud idi. Şəhərlər böyüdükcə və onlarda kapitalist tipli müəssisələr sayca artdıqca şəhər əhalisinin sayı da çoxalırdı. Daşkənd, Kokand, Əndican və Səmərqənd şəhərlərinin əhalisi 1897-ci ilə nisbətən 1910-cu ildə iki dəfəyə qədər artmışdı.

Bu dövrdə Tatarıstanda kənd təsərrüfatının inkişafına təhkimçiliyin qalıqları mane olurdu. Demək olar ki, torpaq sahələrinin yarısı mülkədar, xanədan və dövlətə /xəzinəyə/ məxsus idi. Torpaqsız kəndlilərin sayı getdikcə artırdı. Kəndlərdə feodalizm dövrünə məxsus olan işləyib ödəmə hələ də qalırdı. Lazımi qədər torpaq sahələri olmadığına görə kəndlilər mülkədarlardan ağır şərtlərlə torpaq icarəyə götürürdülər.

Başqırdıstan əhalisinin 90 faizi kənd təsərrüfatı ilə məşğul olurdu. Kəndlilər ağır istismara məruz qalır və əsasən kəndli icmalarında birləşirdilər. Burada mülkədar torpaqları qismən çox, dövlət və xanədan torpaqları isə az idi. Başqırdıstanın kənd təsərrüfatı taxılçılıq üzrə ixtisaslaşırdı. Buradan Rusiya imperiyasının müxtəlif ərazilərinə, o cümlədən Mərkəzi Asiyaya taxıl göndərilirdi.

Başqırdıstanın Ufa və Orenburq quberniyalarında torpaq sahələrinin üçdə biri mülkədarların əlində idi. Ufa quberniyasında 343 iri mülkədarın ixtiyarında 1294,5 min desyatin torpaq var idi ki, bu da bütün sahibkarlara məxsus olan torpaqların yarısını təşkil edirdi. Dağlıq-meşəlik və cənubun düzənlik bölgələrində başqırd kəndlilərinin torpaqla təmin edilməsi orta hesabla bütün Başqırdıstan üzrə olan ümumi göstəricidən daha yüksək idi. Başqırdıstanda kapitalist torpaq sahibliyi yüksək olmuşdu /Rusiya üzrə 11,5 faiz, Ufa quberniyasında isə 23 faiz idi/. Başqırdıstanın kənd təsərrüfatında kapitalizmin inkişafı kənd burjuaziyası və xeyli sayda yoxsul kəndlilərin meydana gəlməsinə səbəb olmuşdu ki, bu da muzdlu fəhlələrin sayını artırmışdı. Lakin buna baxmayaraq, ölkənin cənub və

cənub-şərq nahiyələrində başqırdların yarımköçəri maldarlıqdan oturaq həyata keçid prosesi hələ də davam edirdi.

XX əsrin əvvəllərində Çuvaşiya Tsvil, Çeboksarı, Yadrin, Kozmodemyansk, Tetyuş, Alatır, Buin və Kurmış qəzalarından ibarət idi. Əhali əkinçilik və maldarlıqla məşğul olurdu. Kəndli icmalarının üstünlük təşkil etdiyi Çuvaşiyada mülkədar torpaq sahibliyi cüzi idi.

Çuvaşiyada qolçomaqların sərəncamında olan torpaq sahələri artmaqda davam edirdi. Qolçomaq-varlı kəndlilərin Kəndli torpaq bankı /1882/ vasitəsilə mülkədar, xanədan və kəndlilərin torpaqlarını əldə etməsi üçün əlverişli şərait yaranmışdı. Bu bank mülkədar və xanədan torpaqlarını ucuz qiymətə satın alaraq üç qat artığına kəndlilərə satırdı. Sözsüz ki, bu bankın xidmətindən qolçomaqlar daha çox istifadə edirdilər, çünki sələmçiliyin geniş yayıldığı bir şərait kəndlilərin əsas hissəsinin bankın xidmətindən istifadə etməsinə imkan vermirdi. İmkansız kəndlilər ağır borca düşərək pay torpaqlarını da itirirdilər. Çuvaşiyada Kəndli torpaq banki vasitəsilə satılan torpaqların 53 faizi qolçomaqların, 33 faizi qolçomaqların təsis etdikləri şirkətlərin və 14 faizi qolçomaqların sayca üstünlük təşkil etdikləri cəmiyyətlərin əlinə keçirdi.

XX əsrin əvvəllərində Rusiyanın digər milli ucqarlarında olduğu kimi, Sibirin türklər yaşayan ərazilərində də sosial-iqtisadi və siyasi vəziyyət gərginləşmişdi. Geniş torpaqlara malik olan Sibir, eləcə də buradakı türk məmləkətləri çarizmin aqrar siyasətinin ən ziddiyyətli nöqtələrindən birinə çevrilmişdi. İqtisadi sahədə böyük əhəmiyyət kəsb edən Altay və Yakutiya rus sənayeçilərinin diqqətini özünə daha çox cəlb etmişdi.

Sibirdə dəmiryolu çəkilişinin genişlənməsi də kənd təsərrüfatının inkişafına, daxili bazarla xarici bazarın əlaqələrinin möhkəmlənməsi və kapitalizmin inkişafına kömək edirdi.

Altay və Yakutiyada kənd təsərrüfatında maldarlıq əsas yer tuturdu. Torpaq və mal-qaranın bölüşdürülməsində qeyri-bərabərlik mövcud idi. 1917-ci ildə bütün yakut kəndliləri yoxsul təbəqələrinin yalnız 45 faizinin torpaq sahəsi var idi. 1909-cu ilin məlumatına əsasən Suntar bölgəsi əhalisinin 7 faizini təşkil edən toyonlar /ağsaqqal və hərbi başçı/ bütün torpaqların yarısına sahib idilər.

Torpağın bərabər bölüşdürülməsi haqqında müəyyən cəhdlər edilməsinə baxmayaraq, o yenə də Yakutiyada kənd icmasının varlı təbəqələrinin əlində qalırdı.

XX əsrin əvvəllərində Krımda torpaqların mülkədar və varlı adamların əlində cəmləşməsi artır, ortababların mövqeyi möhkəmlənir, yoxsul təsərrüfatların xüsusi çəkisi aşağı düşürdü. Əgər 65 min kəndli təsərrüfatından 40 faizi torpaqsız idisə, torpaqların 95 faizi 15,6 min mülkədar və varlı təsərrüfatının sərəncamında idi. Hətta onlardan bəzilərinin 10 min desyatinə qədər torpağı var idi. Əkinçilikdə taxılçılıq üstünlük təşkil edirdi. 1917-ci ilədək Krımdan ixrac olunan kənd təsərrüfatı məhsullarının ümumi dəyəri qızıl pulla təxminən 19 milyon manata bərabər idi. Məhsulun çoxu mülkədar və qolçomaq təsərrüfatlarında muzdlu kənd təsərrüfatı fəhlələri tərəfindən istehsal olunmuşdu. Təbəqələşmə nəticəsində yoxsulluq getdikcə artırdı.

Kapitalist münasibətlərinin inkişafı Tatarıstanın iqtisadiyyatında özünü daha qabarıq şəkildə göstərirdi. 1903-cü ildə təkcə Kazan quberniyasında 152 sənaye müəssisəsi var idi. Yüngül, yeyinti və ağac emalı sənayesi sahələri daha çox inkişaf etmişdi. Ən iri müəssisə Krestovnikovların, Alafuzovun zavod və fabrikləri idi. Ağır sənaye bu sahələrə nisbətən zəif olmuşdu. Sənaye müəssisələrinin xeyli hissəsi milli burjuaziyaya məxsus idi. Onlardan Araslanov, Əzimov, Saydaşev, Kərimov və b. göstərmək olar. Lakin sənayeyə milli kapital qoyuluşu hələ geniş miqyas almamışdı. Bu da milli burjuaziyanı qane etmirdi. Sənaye fəhlələrinin yalnız 10-12 faizini tatarlar təşkil edirdi. Tatar fəhlələrinin xeyli hissəsi mövcud çətinliklərlə əlaqədar olaraq ölkənin-Tatarıstanın hüdudlarından kənarda müxtəlif sənaye sahələrində işləyirdilər.

1901-ci ildə Başqırdıstanın Ufa quberniyasında 7334 daimi və 13342 mövsümi fəhləsi olan 20 dağ-mədən müəssisəsi mövcud idi. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə 626 xırda sənaye müəssisəsi məşğul olurdu. Burada 4068 fəhlə çalışırdı. Orenburq quberniyasında isə 1411 fəhləsi olan 186 müəssisədən 56-sı kəndlərdə tikilmişdi. 1901-ci ildə Ufa quberniyasında 2300-ə yaxın təsərrüfat kustar istehsalla məşğul idi. Yeyinti sənayesində başqırd kapitalistlərindən Utyamışev, Tukayev, Naqayev, Bayazidov, yüngül səna-

yedə Yaqudin, İbrahimov, meşə təsərrüfatında Adıyev, Safiullin və başqaları geniş fəaliyyət göstərirdilər. Lakin sənayenin müxtəlif sahələrində başqırd burjuaziyasının rolu hələ zəif idi. 1913-cü ildə 6 səhmdar cəmiyyətdən 3-ü rus kapitalına məxsus idi. Cənubi Uralın dağ-mədən və metallurgiya sənayesi, Komarovsk dəmir-filizi yataqları, Cənubi Ural zavodları İngiltərə, Belçika və Fransa kapitalı əsasında yaradılmışdı.

Rusiyadakı iqtisadi böhranla bağlı 1902-ci ildə Ufa quberniyasında işləyən domna sobalarının sayı 18-dən 6-ya enmişdi. Çuvaşiyada baş verən işsizlik nəticəsində fəhlələrin xeyli hissəsi Donbas şaxtasında, Bakı neft sənayesində, Volqaboyunun bəzi rayonlarında işləməyə getmişdilər. 1909-cu ildən etibarən sənayedə nisbətən canlanma özünü göstərmişdi. İri müəssisələrdən Popov, Karpov və Koptarskinin ağac emalı zavodları, Kurbatovun mebel fabriki, Talantsev qardaşlarının yağ zavodu və b. göstərmək olar. Çuvaşiyada 30 min adamın işlədiyi 80-ə qədər kustar istehsal sahələri var idi. İqtisadiyyat əsasən Ümumrusiya bazarı ilə sıx bağlı idi. Buraya başlıca olaraq dəmir məmulatları, qənd, balıq və s. gətirilir, buradan isə əsasən kənd təsərrüfatı məhsulları ixrac olunurdu. 1913-cü ildə İngiltərə, Almaniya və başqa Avropa ölkələrinə xeyli miqdarda kənd təsərrüfatı məhsulları ixrac edilmişdi. Xarici ölkələrin vətəndaşlarına məxsus olan səhmdar cəmiyyətlərindən Avstriya firması «Ferdinand Nebenual», «Frants Miklis», fransız «Pati Ferdinand», «Şevalye», «Buve» və b. meşə təsərrüfatı, həmçinin ağac emalı istehsalı ilə məşğul olurdular.

Sibirin qızıl mədənlərinə xarici kapital qoyuluşu artmışdı. 1908-ci ildə İngiltərənin «Lena Qoldfilds» səhmdar cəmiyyəti Lena qızıl mədənlərini özündə birləşdirən yerli şirkətin səhmlərinin 70 faizini 14 milyon manata almışdı. Lena qızıl mədənləri şirkəti /«Lenzoto»/ 1909-cu ildə Bodaybinsk dəmiryolunu, 1910-cu ildə Pribrejno-Vitimsk kompaniyasının bütün çay gəmilərini ələ keçirmişdi. «Lenzoto» şirkəti «Lena Qoldfilds» səhmdar cəmiyyətinin vəsaiti hesabına 122 mədən almışdı. 1911-ci ildə cəmiyyətin mədənlərində 818 pud qızıl çıxarılmışdı. Hər il Lena mədənlərindən çıxarılan qızılın ümumi dəyəri təxminən 18-20 milyon manatdan çox olurdu. Yakutiyanın iqtisadi həyatında iri sənaye ilə bərabər kustar istehsal

da mühüm rol oynayırdı. Bəhs edilən dövrdə müxtəlif istehsal sahələrində yakut sahibkarlarının sayı xeyli artmışdı. 1911-ci ildə ölkədə telefon xətləri, 1914-cü ildə isə elektrik stansiyası işləməyə başlamışdı.

Yakutiyada fəaliyyət göstərən iri ticarət firmaları Moskva, Kyaxtu və Londona xəz-dəri aparırdılar. Dünya müharibəsi ərəfəsində Rusiya və xarici ölkələrin bazarlarında Yakut xəzi ilə ticarətdən gələn gəlir 3-3,7 milyon manat təşkil edirdi. Kapitalist münasibətlərinin inkişafı ticarət sahəsində daha geniş inkişaf etmişdi.

Yakutiyada bütün bank işi Rus-Asiya bankının əlində cəmləşmişdi. Sibirin, o cümlədən Yakutiyanın iqtisadiyyatının ayrı-ayrı sahələrində kapitalist müəssisələrinin meydana gəlməsi, kənd təsərrüfatı məhsullarının artması və milli burjuaziyanın formalaşmasına baxmayaraq, natural təsərrüfatın xüsusi çəkisi hələ də üstün idi. Kapitalist münasibətləri yarımfeodal münasibətlərlə çulğalaşmışdı.

XX əsrin əvvəllərində Rusiyanın Tuva ilə ticarət dövriyyəsi 300-400 min manata çatmışdı. Lakin bu dövrdə Rusiyanın Tuva ilə əlaqələri başqa tarixi şəraitdə baş verirdi. Dünyanın böyük dövlətləri arasında olan ziddiyyətlər bu əlaqəyə öz təsirini göstərirdi. Tuva və Monqolustanda Rusiyanın mövqeyi ABŞ, İngiltərə, Yaponiya, Almaniya və b. dövlətlərin bu regiona marağını artırırdı. Bu dövlətlərin təsiri nəticəsində Çin Tuvada öz mövqeyini gücləndirməyə başladı. Buna cavab olaraq Rusiya bir sıra tədbirlər gördü. 1909-cu ilin yayında Nazirlər Soveti xüsusi olaraq Tuva haqqında məsələ müzakirə etdi. Tuvanın təbii sərvəti və coğrafi şəraiti, həmçinin siyasi vəziyyətini öyrənmək üçün buraya ekspedisiya göndərildi. Rusiya ilə Tuva arasında iqtisadi əlaqələri inkişaf etdirmək və coğrafi cəhətdən şimal sərhəddində Tuvanın təcrid olunmasını aradan qaldırmaq üçün Yenisey quberniyasından Tuvaya şosse yolunun çəkilişinə başlanıldı. 1909-cu ildə Dövlət duması Usinsk yolunun çəkilişinə 1250 min manat pul ayrılması haqqında qərar qəbul etdi. Şose yolunun çəkilişinin ləng getməsinə baxmayaraq Rusiya ilə Tuva arasında ticarət əlaqələri inkişaf etmişdi. 1902-1912-ci illərdə Rusiyanın Tuva ilə ticarət dövriyyəsi ildə 800-900 min manata çatmışdı.

XX əsrin ilk onilliyində Tuvada bir çox rus tacirləri müəssisə sahibkarı və qızıl mədənçisinə çevrilmiş, iri mal-qara təsərrüfatına

malik olmuşdu. Tacir İ.K.Leonov qızıl mədənlərinə sahib idi. Vavilin iri mal-qara təsərrüfatı, un dəyirmanı və s. malik idi. 1914-cü ildə Tuvada 1440 pud qızıl çıxarılmışdı. İldə 500-ə qədər dəri istehsal edən zavod fəaliyyət göstərirdi.

Rus vətəndaşlarının Tuvaya gəlməsi məhsuldar qüvvələrin inkişafı, əmək bölgüsü, yerli bazarın formalaşması və başqa sahələrə təsir etmişdi.

XX əsrin əvvəlində Rusiya-Tuva əlaqələrinin möhkəmlənməsi ilə bağlı olaraq rus kəndlilərinin Tuvada məskunlaşması güclənmişdi. 1910-cu ildə Tuvanın 116 kəndində 2000-dən çox rus əhalisi yaşayırdı.

1914-cü ildə Krımın 8 şəhərində 3249 fəhləsi olan 148 sənaye müəssisəsi və kustar tipli emalatxana var idi. Kerçdə metallurgiya zavodunun işə düşməsi ilə əlaqədar olaraq fəhlələrin sayı 4250 nəfərə çatmışdı. Ümumiyyətlə, 1913-1914-cü illərdə Krımda 16-18 min sənaye fəhləsi var idi. Krımda sənaye müəssisələrinin böyük bir hissəsi kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul idi. Məhz buna görə də 1914-cü ildə Krımın kəndlərində 1915 fəhləsi olan 452 müəssisə fəaliyyət göstərirdi. Birinci dünya müharibəsi illərində Simferopol və Qarasubazarda təyyarə zavodu istifadəyə verilmişdi.

Krımın əmtəə dövriyyəsində əsas yeri kənd təsərrüfatı məhsulları tuturdu. 1913-cü ildə Krımın bütün limanlarından 10 milyon pud taxıl, 2,5 milyon pud meyvə, 50 min pud yun və s. ixrac edilmişdi. Eyni zamanda Krıma 90 min pud süd məhsulları, yarım milyon manatlıq yumurta, 35 min manatlıq ət məhsulları və s. gətirilmişdi. Bununla yanaşı əhalinin sosial-iqtisadi vəziyyəti ağır olaraq qalırdı. İşsizlik getdikcə artırdı. Təkcə Simferopol şəhərində evsizlərin sayı 1901-ci ildəki 3200 nəfərdən 1910-cu ildə 73071 nəfərə çatmışdı. 1917-ci ildə Krımın kəndlərində təsərrüfatların 40 faizi torpaqsız idi.

Krımda əhalinin dörddə birini tatarlar təşkil edirdilər. Əsrin əvvəllərində əhalinin sayı 2 dəfəyə qədər artmışdı.

1904-cü ildə Krımın ən abad şəhərlərindən biri olan Sevastopolda 67752 nəfər əhali yaşayırdı. Bu dövrdə Feodosiya şəhərinin əhalisi XIX əsrin ortalarındakı 3700 nəfərdən 30573 nəfərə çatmışdı. Şəhər ölkənin inzibati və ticarət mərkəzləri ilə dəmiryol xətti

vasitəsilə birləşdirildikdən sonra iri ticarət-liman şəhərinə çevrilmişdi. Simferopolda Krımın bütün şəhərlərindən əvvəl şəhərlərarası telefon şəbəkəsi yaradılmışdı /ilk növbədə Peterburq və Moskva ilə/. Yaxşı abadaşdırılmış Yalta kurort şəhəri kimi şöhrət qazanmışdı. Xanlığın qədim şəhərləri olan Baxçasaray və Qarasubazar hələ də orta əsr görkəmini saxlamaqda idi.

## § 2. TÜRK XALQLARI 1905-1907-Cİ İLLƏR İNQİLABI DÖVRÜNDƏ

XX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanda kapitalist münasibətlərinin inkişafı həm rus, həm də yerli əhalidən olan sənaye fəhlələrinin formalaşması prosesini sürətləndirmişdi. Çarizmin köçürmə siyasəti nəticəsində ən yararlı torpaq sahələri yerli əhalinin əlindən alınırdı. Sənaye fəhlələrinin əsas hissəsini isə nəqliyyatda, yüngül və yeyinti sənayesində, eləcə də az sayda dağ-mədən müəssisələrində işləyən rus fəhlələri təşkil edirdilər.

Qərbi Avropanın geniş müstəmləkələrə malik olan ölkələrindən fərqli olaraq, Rusiya imperiyasına məxsus müstəmləkələrdə fəhlələrin təşəkkülündə Rusiyadan Türküstana gələnlər mühüm rol oynamışdılar. Belələrinin çoxunu fəhlə, kəndli, sənətkar və zehni əməklə məşğul olan adamlar təşkil edirdi. 1904-cü ildə Daşkənd şəhərində olan 25228 nəfər rus əhalisinin 19078 nəfəri sənətkar, xırda qulluqçu və alverçilər, həmçinin kəndlilər, 5 min nəfəri məmur, zabit, 821 nəfəri tacir və b. idi. Türküstanın 1 milyondan azacıq çox olan şəhər əhalisinin 400 min nəfəri və ya 40 faizə qədərini Rusiyadan gələn əhali təşkil edirdi. Mütləqiyyət Rusiyası mərkəzi rayonlardan əhalini Türküstana köçürərkən qolçomaq təsərrüfatları əsasında özünə dayaq yaratmaqla yanaşı, həm də inqilab ərəfəsində güclənmiş aqrar böhranı zəiflətməyə çalışırdı.

Çarizmin yeritdiyi torpaq siyasəti nəticəsində əhalinin əksəriyyəti əsrlər boyu istifadə etdiyi torpaqlardan məhrum edilmişdi.

Türküstanda ildən-ilə artırılan vergilər dövlət xəzinəsini doldurmaq vasitəsinə çevrilmişdi. Türküstan general-qubernatorluğu-

nun əsas gəlir mənbəyi təbii sərvətlərlə yanaşı, həm də torpaq vergisi idi. Əhalidən müxtəlif adda vergilər toplanırdı. Şəhər əhalisi tərpənməz əmlakdan dövlət vergisi ödəməli idi.Vergilərin bütün ağırlığı yenə də yoxsulların-kəndlilər, xırda sənətkarlar və başqalarının üzərinə düşürdü. Bu isə onların narazılıq və çıxışlarına səbəb olurdu. XIX əsrin sonlarında baş vermiş belə çıxışlar iqtisadi xarakter daşıyırdı. 1900-cu ilin noyabrında Krasnovodskda yükdaşıyanların iqtisadi tətili başlamışdı. Dekabrın əvvəllərində tətil yatırılsa da, fəhlələr bir sıra iqtisadi güzəştlərə nail olmuşdular. 1903-cü il dekabrın 16-da Krasnovodsk depo fəhlələri, dekabrında 20-də isə Spassk misəritmə zavodu fəhlələrinin iqtisadi xarakter daşıyan tətilləri baş vermişdi.

1905-1907-ci illər inqilabı ərəfəsində Rusiyada inqilabi hərəkat genişləndikcə siyasi görüşlərinə görə sürgün olunanların sayı artırdı. Hətta Türküstanın yerli hakimiyyət orqanları buraya sürgün edilən tələbələrin sayca artmasından narazılıqlarını bildirərək Daxili İşlər Nazirliyinə müraciətdə «siyasi cəhətdən etibarsız olan» adamların göndərilməsinin dayandırılmasını tələb etmişdilər.

Tam olmayan məlumata əsasən, 1903-1906-cı illərdə Türküstan diyarına siyasi məhbus kimi sürgün edilən və polis nəzarətində olanların ümumi sayı 400 nəfərdən çox olmuşdu.

1902-1903-cü illərdə Türküstanda gizli sosial-demokrat dərnəkləri yaranmağa başlamışdı. 1903-1904-cü illərdə Daşkənd, Aşqabad, Qızıl Arvad, 1905-ci ilin əvvəlində isə Səmərqənddə gizli sosial-demokrat təşkilatları yaradılmışdı. Bunlar Rusiya və Cənubi Qafqaz sosial-demokrat təşkilatları ilə əlaqə yaratmışdılar. Müvafiq gizli ədəbiyyatlar gətirilərək Türküstanda yayılırdı. Gizli iş aparan sosial-demokratların əksəriyyəti ruslardan ibarət idi. 1903-cü ildə sosial-demokrat fəhlə R.S.Baranov Çitadan Daşkəndə gəlmişdi. Qafqaz sosial-demokratlarının Bakı komitəsinin mətbəəsində hökumət əleyhinə nəşr olunmuş vərəqələri Bişkek şəhərində yayan İ.Ponomaryov və İ.Oleynikov həbs edilmişdilər. Qazax və qırğız dilini bilən A.P.Berezovski hökumət əleyhinə əhali arasında təbliğat aparırdı. 1905-1907-ci illərdə Daşkənd və Vernıda /Alma-Ata-da/ gizli mətbəə fəaliyyət göstərirdi.

Siyasi təbliğat kəndli və əsgərlər arasında da aparılırdı. Daşkənd sosial-demokratları və RSDFP-nin Sibir İttifaqı fəhlə və

əsgərlər arasında apardıqları təbliğatla müharibəyə münasibət, demokratik azadlıqlar məsələsini ön plana çəkirdilər. Özbəkistanda inqilabi hərəkatın iştirakçısı Sultanxoca Qasımxocayev öz xatirəsində rus sosial-demokratlarının yerli fəhlələr və əhali arasında gördükləri inqilabi işləri geniş təsvir etmişdi.

Ümumiyyətlə, 1904-cü il müxtəlif sosial-demokrat dərnəklərinin vahid qrupda birləşməsi ilə xarakterizə olunmuşdu. 1904-cü ilin yayında bir neçə sosial-demokrat qrupun birləşməsi nəticəsində RSDFP-nin Qızıl Arvad təşkilatı yaradılmışdı.

Türküstan fəhlələrinin ilk iqtisadi və siyasi çıxışları 1904-cü il mayın 1-də olmuşdu. Daşkənd və Qızıl Arvadda 1 may qeyd edilmişdi. Türküstan sosial-demokratları öz ideya və siyasi baxışlarını «Səmərqənd», «Rus Türküstanı» qəzetləri vasitəsilə yayırdılar. Köçürmə nəticəsində Rusiyadan gəlmiş kəndli və tələbələr də inqilabi ideyaların yayılması üçün əlverişli şərait yaradırdılar. Lakin ümumilikdə Rusiyanın mərkəzi quberniyalarından «ixrac» olunan inqilabi ideyalar yerli əhali tərəfindən kütləvi şəkildə mənimsənilməmiş və ümumi xarakter almamışdı. Bu da Türküstanda inqilabın məhdud çərçivədə inkişaf etməsinə təsir göstərmişdi.

Mərkəzi Asiya və Qazaxıstanda siyasi proseslərin inkişafı, iqtisadi çətinliklər və milli zülm inqilabi çıxışlarla nəticələnmişdi. 1905-ci il yanvarın 12-də Türküstan fəhlələrinin ilk kütləvi çıxışları başlanmışdı. Yanvarın 12-də Daşkənddə Moskva Universitetinin 150 illiyi münasibətilə keçirilməsi nəzərdə tutulan tədbir çarizmə qarşı açıq çıxışa çevrildi. 1905-ci il yanvarın 19-da Səmərqənddə Demurovun mətbəə fəhlələrinin çıxışı ilk dəfə olaraq tətilçilərin qələbəsi ilə nəticələndi. Demurov 10 saatlıq iş gününü azaldaraq 9 saat etmiş, pulsuz tibbi xidmət, fəhlələrin işdən çıxarılmasının bir ay əvvəl xəbər verilməsi və s. nəzərdə tutan sənədi imzalamışdı. 1905-ci il fevralın 18-də Daşkənddə dəmiryol fəhlələri tətilə başladılar. Tətildə iqtisadi tələblərlə yanaşı siyasi təkliflər də irəli sürülmüşdü. 1905-ci il mayın 1-də Aşqabad, Krasnovodsk və başqa şəhərlərdə də tətil hərəkatı olmuşdu. 1905-ci ilin oktyabr ayında Mərkəzi Asiya və Orenburq-Daşkənd dəmiryolu xəttlərini tətil hərəkatı dalğası bürümüşdü. Aşqabad və Daşkənddə tətil komitələri yaradılmışdı. Bunun Ümumrusiya siyasi tətilinin keçirilməsində mühüm

rolu olmuşdu. Oktyabr siyasi tətili dövründə Qazaxıstanda da inqilabi hərəkat xeyli güclənmişdi. Petropavlovsk, Uralsk və Perovskda siyasi tətillər keçirilmişdi. 1905-ci ildə Semipalatinsk, Turqay, Ural və Sırdərya vilayətlərini kəndli çıxışları bürümüşdü.

1906-cı ilin fevralında Daşkənddə Türküstan sosial-demokrat təşkilatlarının birinci konfransında bu təşkilatlar birləşərək «RSDFP-nin Türküstan təşkilatı ittifaqı»nı yaratdılar. Konfransın əsas qərarı yerli əhalidən olan fəhlələr arasında təbliğat və təşviqatı genişləndirməkdən ibarət olmuşdu. Düzdür, Türküstanda inqilabi çıxışlar ideoloji və siyasi cəhətdən kifayət qədər hazırlanmamışdı. İrəli sürülmüş tələbnamələrdə siyasi tələblər bir qayda olaraq az, iqtisadi tələblər isə, əksinə, daha çox olurdu. «İnqilab» yerli əhali tərəfindən geniş aspektdə müdafiə olunmurdu. Sənayenin zəif inkişafı fəhlələrin say və tərkibinə öz təsirini göstərmişdi. Onların əksəriyyətini, yuxarıda deyildiyi kimi, ruslar təşkil edirdilər.

Kəndlilərin hərəkatı isə kortəbii xarakter daşıyırdı. Rusiyanın mərkəzi quberniyalarından fərqli olaraq, Qazaxıstana köçürülən kəndlilər çar inzibati idarəetmə sisteminin məmurları və köçürmə siyasətinə qarşı çıxırdılar. Qazax bəyləri isə Qazaxıstana rus kəndlilərinin köçürülməsinin dayandırılmasını tələb edirdilər.

1905-1907-ci illər inqilabı ərəfəsində Volqaboyu quberniyalarında yaşayan türk xalqlarının ictimai-siyasi vəziyyəti tamamilə fərqlənirdi. Kazan quberniyası iqtisadi, siyasi və sosial cəhətdən diqqət mərkəzində idi. Tatarıstanın iqtisadiyyatına xarici kapitalistlər böyük həcmdə kapital qoymuşdular. Artıq tatar burjuaziyası da ölkənin iqtisadi həyatında mühüm rol oynayırdı. Kazan sosial-demokrat qruplarının fəhlə hərəkatı ilə birləşməsində ciddi addımlar atılırdı. Sibirdə sürgündə olmuş adamlar burada da siyasi fəaliyyətlə məşğul olurdular.

Bəhs edilən dövrdə Rusiyanın mərkəzində olduğu kimi, Başqırdıstan, Sibir və Krımda da ictimai-siyasi vəziyyət gərgin idi. Çarizm bu regionların xalqlarını siyasi, iqtisadi və milli əsarət altında saxlayırdı. İnqilab ərəfəsində bu regionlarda sosial-demokrat dərnək və təşkilatlarının yaradılmasına başlanılmışdı. Ufa sosial-demokrat dərnəyi /1895/, Kazan sosial-demokrat qrupu /1897/, Çuvaşiyada kəndli ittifaqı, Krımda sosial-demokrat qrup, dərnək və

təşkilatları /1900-1903/, Yakutiyada qeyri-leqal siyasi dərnək /1902/, Yakut fəhlə ittifaqı və b. zəhmətkeşlər arasında geniş təbliğat aparmaqla tətil və nümayişlərə rəhbərlik edirdilər. Sosial-demokratlar çarizmə qarşı mübarizədə fəhlə və kəndliləri birləşməyə çağırırdılar. 1903-cü il noyabrın 18-də RSDFP-nin Kazan komitəsi hökumət əleyhinə vərəqələr yaymışdı. Sosial-demokratların Yakutiya vilayətinə sürgün edilmələri məhz bu dövrdən başlanmışdı. 1904-1906-cı illərdə Yakutiya vilayətində «Sürgün xəbərləri» jurnalı nəşr olunmuşdu. Rus-Yapon müharibəsi ölkədəki sosial ziddiyyətləri kəskinləşdirmiş və inqilabi böhranı gücləndirmişdi. 1905-ci il 9 yanvar «Qanlı bazar günü» hadisəsi Rusiyada yaşayan xalqların böyük hiddət və qəzəbinə səbəb olmuşdu.

1905-ci il yanvarın 20-də Tatarıstanda Alafuzovun fabriklərində başlayan tətil hərəkatı sonra Rama, Sveşnikovun zavodu və Lokke fabrikini, Kazan mətbəələrini də əhatə etmişdi. Tətilçilər 8 saatlıq iş günü, əmək haqqının artırılması, cərimələrin ləğvi və s. tələblər irəli sürmüşdülər. Yanvarın 24-də Kazan Universiteti və Baytarlıq institutu tələbələrinin tətilində rus fəhlələri ilə həmrəy olduqları bildirilmişdi. Buqulma, Çistopol, Spassk və b. qəzalarda isə kəndli çıxışları genişlənməkdə idi. 1905-ci il oktyabrın 7-də Moskva-Kazan dəmiryolu fəhlələrinin Ümumrusiya siyasi tətilinə Tatarıstan fəhlələri də qoşulmuşdular.

1905-ci il yanvarın 12-də Ufada keçirilən mitinq polis tərəfindən dağıdılmışdı. Yanvar-aprel aylarında Başqırdıstanı tətil dalğası bürümüşdü. 1905-ci ilin martında Ufada RSDFP-nin Şərq rayonları komitəsi müsəlmanlar arasında tatar dilində yaydığı bəyannamədə onları tətil hərəkatına qoşulmağa çağırırdı. 1905-ci ilin avqustunda əsasən başqırdlardan ibarət ehtiyat polkunda əsgərlərin həyəcanı başlamışdı.

Başqırd burjuaziyası digər müsəlman xalqlarının burjuaziyası ilə birləşərək ümummüsəlman hərəkatı bayrağı altında siyasi mübarizəyə keçmişdi.

1905-ci il inqilabı Çuvaşiyada da güclü əks-təsir doğurmuşdu. Yanvar ayında 440 min fəhlə ayağa qalxmışdı. 1905-ci il fevralın 4-də Alatır teleqraf stansiyası və fevralın 9-da paravoz təmiri zavodu fəhlələrinin tətillərində iqtisadi tələblər irəli sürülmüşdü.

1905-ci ilin payızında Çuvaşiyanın kəndlərində 113 kəndli ittifaqı yaradılmışdı. Onlar torpaq və demokratik azadlıqlar uğrunda mübarizə aparırdılar. 1906-cı ildə Çuvaşiyada 270 kəndli çıxışı olmuşdu. 1907-ci ilin fevralında Çemeyev və Yadrin qəzasının Lebedkin, İxonkin və Xozançin kəndlərində kəndlilər silaha əl atmışdılar.

1905-ci il oktyabrın 30-da Yakutiyada ilk böyük nümayiş olmuşdu. Noyabrın 16-da Yakutskda poçt-teleqraf işçilərinin tətili başlamışdı. 1906-cı il yanvarın 4-də «Yakut fəhlə ittifaqı» adlı təşkilat yaradılmışdı. İttifaqın əsas məqsəd və tələbləri yakutlara insani münasibət, vətəndaş hüquqlarının gözlənilməsi və s. idi. Lakin çarizm təkcə xalqın inqilabi hərəkatını deyil, həm də milli-liberal təşkilatlarını dağıtmışdı.

Peterburqda baş vermiş 9 yanvar hadisələri Krımda da inqilabın başlanması üçün işarə olmuşdu. 1905-ci il yanvarın 17-də Sevastopolda sosial-demokrat təşkilatlarının yığıncağı keçirildi. Yığıncaqda 9 yanvar hadisəsinə etiraz olaraq kütləvi tətillər keçirilməsi qərara alındı. Bu ərəfədə şəraitin mürəkkəbləşdiyini görən hökumət fövqəladə vəziyyət elan etmişdi.

1905-ci il iyunun 14-də Krımda «Potyomkin» zirehli gəmisindəki üsyandan sonra Simferopol, Kerç və Feodosiyada fəhlələrin siyasi tətilləri gücləndi. Üsyanın rəhbərləri Q.Vakulençuk və A.Matyuşenko olmuşdu. İlk dəfə olaraq hərbi gəmi inqilabçıların tərəfinə keçmişdi.

1905-ci il oktyabrın 17-də çar bir sıra azadlıqlar haqqında manifest imzalamağa məcbur oldu. Bu manifestdə Dövlət dumasının çağırılması, xalqa demokratik azadlıqlar-söz, mətbuat, yığıncaq və təşkilatlar azadlığı, vicdan azadlığı verilməsi vəd edilirdi. Heç bir qanun Dövlət dumasının razılığı olmadan qüvvəyə minə bilməzdi. Amma əslində Duma çar yanında məşvərətçi orqan hesab edilirdi.

Rusiya xalqlarına verilən bu imkan Volqaboyu, Sibir və Krım türkləri üçün də faydalı oldu. Türk xalqları regionlarında inqilabi ideyalar milli özünüdərklə əvəz olunmağa başlamışdı. Bir çox qəzet və jurnallar nəşr edilirdi. 1905-ci il avqustun 15-də Nijni - Novqorodda, 1906-cı il yanvarın 15-23-də Peterburqda, avqustun 16-23-də yenə Nijni-Novqorodda keçirilən Ümumrusiya müsəlmanları qurultaylarında Rusiya müsəlmanlarının, o cümlədən türk

xalqlarının siyasi, iqtisadi və mədəni problemləri müzakirə edilmiş, müsəlmanların birliyini yaratmaq vəzifəsi qarşıya qoyulmuşdu.

Birinci rus inqilabı cəmiyyətin bütün təbəqələrinin siyasi fəallığının artması üçün əlverişli şərait yaratmışdı. Bu inqilab xalqların milli-azadlıq hərəkatının genişlənməsinə təkan vermişdi. Lakin 1905-1907-ci illər inqilabı, mərkəzdə olduğu kimi, milli ucqarlarda da, o cümlədən türk xalqları regionlarında məğlubiyyətlə nəticələndi.

İnqilabın ideoloqları milli ucqarlarda əhalinin psixologiyasını, həyat tərzini, siyasi yetginliyini və ideoloji məsələlərə münasibətini düzgün nəzərə almamış, onların sosial bazalarını lazımınca qiymətləndirməmişdilər. Bu səbəbdən də Türküstan, Sibir türkləri yaşayan ərazilərdə inqilabi hərəkat nisbətən zəif, Volqaboyu və Krımda isə daha yüksək və mütəşəkkil şəkildə keçmişdi. Eyni zamanda bu inqilabi hərəkat ideoloji-siyasi cəhətdən kifayət qədər hazırlanmamışdı. İnqilab dövründə müəyyən qədər siyasi tələblər irəli sürülsə də, lakin əsas yeri iqtisadi tələblər tuturdu. Digər tərəfdən isə Rusiya imperiyasının demək olar ki, əksər regionları iqtisadi, siyasi, elmi-mədəni inkişaf səviyyəsinə görə bir-birindən kəskin surətdə fərqləndiyi üçün bu inqilabın həmin regionlarda başlanması, gedişi və nəticələri spesifik xüsusiyyətlərə malik olmuşdu. Bu özünəməxsusluq Rusiya imperiyasına daxil olan, türk xalqları yaşayan ərazilərdə özünü daha qabarıq şəkildə büruzə vermişdi.

Türküstana «inqilab» kənardan gətirildiyi və yerli əhali tərəfindən geniş şəkildə müdafiə olunmadığı üçün bu ərazilərdə inqilabi hərəkat yüksək olmamış, nümayiş və əsasən iqtisadi tətil səviyyəsində keçmişdi. Mərkəzi Asiya və Qazaxıstanda sənaye yüksək inkişaf səviyyəsində olmadığını görə fəhlələr sayca azlıqda qalırdılar. Tətil və nümayişlər əsasən gəlmə ruslar və başqa xalqların nümayəndələri tərəfindən təşkil edilirdi.

## § 3. RUSİYA DUMALARINDA TÜRK DEPUTATLARININ FƏALİYYƏTİ

XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiya imperiyasının tərkibində olan geniş əraziyə malik müsəlman əhalisi Volqa-Ural regionunda - tatar və başqırdlar, Mərkəzi Asiya və Qazaxıstanda - qazax, özbək, türkmən, tacik, Krım və Qafqazda - Krım tatarı, Şimali Qafqazın dağlı xalqları və azərbaycanlılardan ibarət idi. 1897-ci il Ümumrusiya əhali sayımına görə, Rusiya imperiyasında Buxara və Xivənin əhalisini nəzərə almadan 13, 9 milyon müsəlman yaşayırdı. Ayrı-ayrı vaxtlarda vahid dövlətin tərkibinə qatılmış regionların idarəetmə sistemi müxtəlif şəraitdə həyata keçirilirdi. Hətta müstəmləkələrdən ən mühümü sayılan Türküstan diyarının idarə olunması haqqında islahat müvafiq təşkilatlarda müzakirə olunub qərar qəbul edilməmişdi. Bir sıra qanuni aktlarda müəyyən olunmuş müsəlman xalqlarının hüquqi statusundakı ziddiyyətli məqamlara və qarışıqlıqlara yenidən baxılmasına ehtiyac var idi.

Milli prinsip, dini etiqad və məhdudiyyətlərə əsaslanan hüquqi amil müsəlmanların siyasi, iqtisadi və mədəni cəhətdən birləşməsini tələb edirdi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiyadakı qeyri-rus xalqların siyasi hərəkatı Ümumrusiya siyasi partiya və hərəkatlarının təsiri altında olmuşdu. Məhz bu dövrdə tatarlarda ilk siyasi qruplar yaranmışdı. Lakin onların fəaliyyəti uzun sürməmiş və tatar ictimaiyyətinə az təsir göstərmişdi. Qafqazın türk-müsəlman əhalisi, Krım tatarlarının isə siyasi fəallığı artmışdı. Azərbaycan cəmiyyətinin həm siyasi, həm də ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaranmışdı.

Rusiya imperiyasının müstəmləkə ucqarlarında müsəlman xalqlarının siyasi qüvvələrinin birləşməsi prosesi davam edirdi. Ümumrusiya müsəlmanları qurultaylarının (1905-1906) müsəlmanların siyasi hərəkatının inkişafında mühüm əhəmiyyəti olmuşdu. I Ümumrusiya müsəlmanları qurultayında müsəlmanların ictimai-siyasi ittifaqı "Ümumrusiya müsəlman ittifaqı" ("İttifaqi-müslimin") yaradıldı. Qurultay iştirakçıları ruslar kimi müsəlmanların da siyasi, dini və əmlak hüququna malik olmasını tələb etdilər.

XX əsrin əvvəllərində Rusiyada sosial gərginlik və inqilabi şəraitin yaranması ilə bərabər, türk-müsəlman xalqlarının milli şüur, özünüdərk prosesi də güclənirdi. Başqa xalqlar kimi, türk xalqları da mövcud siyasi rejimə qarşı çıxırdılar. Çarizm bu prosesin qarşısını almaq üçün müxtəlif maneələr törədirdi. Əslində çar Rusiyasının 1905-1907-ci illərdə türk xalqlarına qarşı apardığı siyasət əvvəlki dövrlərdə müstəmləkələrdə yeritdiyi şovinist siyasətin davamı idi. Həyata keçirilən ruslaşdırma və xristianlaşdırma siyasəti türk xalqlarının hüquqlarının məhdudlaşdırılmasına yönəldilmişdi. Məktəblərdə milli təhsil almaq imkanı olduqca məhdud idi. İslam dininə qarşı təbliğat aparılır və onun tədrisini azaltmağa cəhd göstərilirdi. Türk xalqlarının nümayəndələri yüksək vəzifələrdə çalışmaq imkanından məhrum edilmişdilər. Ucqarlardakı şəhər dumalarında deputat olan türklər yerli əhalinin sayına görə azlıqda qalırdılar. Bu hal iqtasadiyyat, ticarət və digər sahələrdə də özünü göstərirdi.

Krımda tatarlara qarşı aparılan dini və milli ayrı-seçkilik siyasəti daha kəskin idi. Dini ayinlərin icra olunması inzibati qaydada qadağan edilmişdi. Osmanlı din xadimləri ölkədən sürgün edilir, yerlilər isə təqiblərə məruz qalırdılar. Kəbəyə həcc ziyarəti qadağan olunmuşdu. Qubernator tərəfindən dini müəssisələrə güclü nəzarət edilirdi.

Sibir və Uzaq Şərqdə ruslaşdırma və xristianlaşdırma prosesi məcburi surətdə həyata keçirilir və köçürmə siyasəti, pasport sisteminin tətbiqi ilə daha da mürəkkəbləşdirilirdi. Volqaboyu, Mərkəzi Asiya və Qazaxıstanda da müəyyən dini qadağalar və maarif sahəsində ruslaşdırma, qismən də xristianlaşdırma /xüsusən qırğızlar və qazaxlar arasında/ siyasəti aparılırdı. Bu siyasətin məcburi şəkildə həyata keçirilməsi ucqarlarda böyük narazılıq doğururdu. Hələ 1870-ci il fevralın 2-də Xalq Maarif Nazirliyi tərəfindən qəbul edilmiş «İlminsk sistemi»nin türk məmləkətlərində tətbiq edilməsi nəzərdə tutulmuşdu. Bu «sistem»in müəllifi olan İlminski 1864-cü ildə Kazan təhsil dairəsinin müdiriyyətinə müraciət etmişdi. «İlminski sistemi» yeni tipli müsəlman məktəblərinə qarşı yönəldilmişdi. Belə ki, ruslaşdırma daha incə üsullarla, birinci növbədə ana dilini «əlindən almaq» yolu ilə aparılırdı. Sistemin tətbiqi gedişində «İncil» yerli dillərdə və kiril əlifbası ilə nəşr olunub yayı-

lırdı. Türk dillərindəki fərqlər ədəbiyyata gətirildikdən sonra, türk xalqlarının özlərini də parçalamaq və ruslaşdırmaq, rus düşüncə tərzini formalaşdırmaq nisbətən asan olurdu. İlminski sisteminə görə, hər bir yerli xalqın öz məktəbi olmalı və burada ibtidai təhsil həmin xalqın ana dilində aparılmalı idi. İbtidai məktəblərdə rusdilli və ya rus dilini bilən yerli xalqdan olan müəllimlər dərs deməli idilər və ana dilində tədris kiril əlifbası əsasında aparılmalı idi. Ana dilində ibtidai təhsil müddəti iki il müəyyən edilmişdi. Bu sistem əsasında yerlərdə rus məktəbləri və rus-yerli məktəblər də açılırdı.

İmperiya əhalisinin təqribən yarıdan çoxu /57 faizi/ milli əsarətə məruz qalır, müxtəlif xalqlara öz ana dillərindən belə sərbəst istifadə etməyə imkan verilmir, onlar zorla ruslaşdırılırdılar.

Müsəlmanlar Ədliyyə Nazirliyinin icazəsi olmadan məhkəmə institutlarında işləyə bilməzdilər. Digər sahələrdə də vəziyyət buna bənzər idi.

1904-cü il 6 iyun qanunu ilə köçürmə prosesi icbari qaydada aparılmağa başlandı. 1905-ci il mayın 6-da Köçürmə idarəsi torpaq quruculuğu və bölgüsü idarəsinə tabe etdirildi. 1905-ci ilin payızında Rusiya qəzalarının böyük əksəriyyətində aqrar hərəkat başlamışdı. Mərkəzi Asiya və Sibirin /Turqay, Semireçye, Semipalatinsk, Tobolsk, Tomsk, Yenisey və b./ demək olar ki, bütün quberniya və vilayətlərində kəndli çıxışları baş vermişdi. Kəndlilər torpaqsızlıq və aztorpaqlıqdan şikayət edirdilər. Türküstan və Sibirə sürgün regionları kimi baxılırdı.

XX əsrin əvvəllərində mütləqiyyət rejimi «aşağıları» idarə edə bilmək, Rusiyanın müstəmləkələrini əldə saxlamaq üçün idarəçilik və qanunvericilik sahələrində «yuxarıdan» müəyyən islahatlar aparmağa məcbur idi. Nazirlər Şurasının 1905-ci il fevralın 3-də keçirilən iclasında seçkili nümayəndələrin qanunvericilik işlərinə cəlb olunması məsələsi müzakirə olunmuşdu. İclasda hazırlanan reskript /sərəncam/ layihəsi II Nikolaya təqdim edilmişdi. Layihə çar tərəfindən təsdiq olunduqdan sonra 1905-ci il fevralın 18-də mətbuatda dərc edilmişdi.

1905-ci il 18 fevral reskriptində çarın «xalq nümayəndələrinin» qanunvericilik təşəbbüslərinin hazırlanması və müzakirəsinə cəlb etmək iradəsi ifadə edilmişdi. Bunun üçün isə qeyri-məhdud

mütləqiyyət quruluşunun qorunub saxlanılması mühüm şərt olaraq irəli sürülürdü.

1905-ci il fevralın 18-də elan olunan digər çar fərmanında dövlət quruluşunun təkmilləşdirilməsi və «xalqın rifahının» yaxşılaşdırılması üçün əhaliyə qanunvericilik təşəbbüsü hüquqlarının verildiyi bildirilirdi. Nəzərdə tutulurdu ki, Duma 5 il müddətində fəaliyyət göstərməli və çarın istəyi ilə vaxtından əvvəl buraxıla bilərdi. Qafqaz, Səhra general-qubernatorluğu, Türküstan diyarı və Sibirdən olan deputatların seçilməsi prosesi Avropa Rusiyasının 50 quberniyasındakı seçkilərdən ayrı keçirilməli idi. Volqaboyunda yaşayan başqırd, çuvaş, tatar və Krım tatarları üçün xalq nümayəndələrinin seçkiləri mərkəzi Rusiya quberniyalarında olduğu kimi keçirilməli idi.

Çarizm məşvərətçi orqan olan Dövlət dumasından inqilaba qarşı etibarlı mübarizə vasitələrindən biri kimi istifadə etmək niyyətində idi. Digər bir tərəfdən isə Mərkəzi Asiya və Qazaxıstanda inzibati idarəetmə sisteminin Rusiyanın idarəetmə sisteminə uyğunlaşdırılması, maarif sahəsində ruslaşdırma və köçürmə siyasətinin sosial-iqtisadi və milli münasibətləri gərginləşdirməsi, aqrar məsələnin mürəkkəb şəkil alması, vergilərin ağırlığı və s. əhali arasında böyük narazılıq doğururdu. Birinci rus inqilabı dövründə milli ucqarlardan mərkəzi hakimiyyət orqanlarına çoxsaylı ərizə və şikayətlər göndərilirdi. 1905-ci ildə Omarxan Musafirovun rəhbərliyi altında bir qrup qazax burjuaziya və torpaq sahibləri nümayəndələri, həmçinin Semipalatinskdən olan hüquqşünas Temirqali Norokonov və qaraqalpaq Ayk Colşarin hökumətə ərizə ilə müraciət etmişdilər.

Hökumətin həyata keçirdiyi daxili siyasət milli ucqarlarda, o cümlədən türk məmləkətlərində hökumətə etimadsızlıq əhval-ruhiyyəsi yaradırdı. 1905-ci il 17 oktyabr manifesti və digər rəsmi sənədlərdə demokratik azadlıqların elan edilməsi burjuaziya arasında canlanma yaratmışdı. Xalq isə bir tərəfdən Dumanın çağırılmasını nəzərdə tutan, digər tərəfdən isə mətbuat orqanlarının nəşrini məhdudlaşdıran və ya onları bağlayan hökumətə inanmırdı. Müsəlman-türk burjuaziyası, torpaq sahibləri və ruhanilər müəyyən

güzəştlər əldə etməyə çalışırdılar. İctimai-siyasi, mədəni-maarif, milli və dini hüquqların bərpası ön planda dururdu.

I Dövlət dumasına seçkilər 1905-ci il dekabrın 11-də çarın verdiyi seçki qanununa əsasən təyin edilmişdi. Qanun elə tərtib edilmişdi ki, Dumada deputatların əksəriyyəti mülkədar və burjuaziya nümayəndələrindən ibarət olmalı idi. Çar Rusiyasının hakim bürokratiya orqanı- Dövlət Şurası Dumanın yuxarı palatası hüququnu almışdı.

Türküstan diyarında Dövlət dumasına seçkilər haqqında əsasnamənin tətbiqi üçün xüsusi qayda qoyulmuşdu. Fövqəladə Şuranın 1906-cı il 26 mart və 15 aprel tarixli müşavirələrində Mərkəzi Asiyanı ümumiyyətlə seçkilərdən məhrum etmək irəli sürülmüşdü. Guya yerli əhali öz inkişaf səviyyəsinə görə Dumanın qanunvericilik fəaliyyətində iştirak edə bilməzdi. Müşavirə iştirakçılarının əksəriyyəti bu xalqlara siyasi hüquqlar verilməsi nəticəsində Rusiyanın maraq və ehtiyaclarının təmin edilməsi işində rus xalqı ilə bərabər onların da xüsusi rol oynayacaqları haqqında fikir meydana gələcəyini bildirirdilər. Türküstanda yaşayan rusların nümayəndələri Dumaya yerli əhalidən ayrı seçilməli idilər.

Semireçye, Səmərqənd, Zakaspi, Sırdərya və Fərqanə vilayətlərindən seçiləcək 13 deputat yerindən 6-sı yerli əhaliyə, 6-sı ruslara və 1-i Semireçye kazaklarına ayrılmışdı. Halbuki ruslar bölgənin əhalisinin 5 faizini, kazaklar 0,6 faizini, türklər və taciklər isə 94,4 faizini təşkil edirdilər. 1906-cı il mart-aprel müşavirəsində Akmolinsk, Semipalatinsk, Ural və Turqay vilayətlərindən Dumaya seçiləcək 10 deputat yerindən 4-ü qazax və qırğızlara ayrılmışdı. Lakin bu xalqlar göstərilən vilayətlərin əhalisinin 70 faizini təşkil edirdilər. Eyni zamanda 2 yer kazaklara, 4 yer isə ruslara verilmişdi.

1906-cı ilin martında I Dövlət dumasına seçkilər keçirilmişdi. Seçki üzrə xüsusi qayda Dumanın açılmasına bir neçə gün qalmış alındığına görə Özbəkistanda Dövlət dumasına seçkilər keçirilməmişdi. Ümumiyyətlə, Türküstan general-qubernatorluğunda seçkilərin keçirilməsi gecikdirilmişdi. Seçkilər başa çatana qədər I Duma buraxılmışdı. Qazaxıstanın ərazisində seçkilər 1906-cı ilin may ayına təyin edildiyi halda, iyunun əvvəlində başa çatdırılmışdı. I Dövlət dumasına seçkilərdə Turqay vilayətindən qırğız Ə.Beremjanov, Ural vilayətindən qırğız A.Kalmenev, Akmolinsk vilayətindən qazax

K. Bukeyxanov, Semipalatinsk vilayətindən isə qazax B.A.Kulmanov deputat seçilmişdilər. Bu 4 deputat Dumanın Müsəlman fraksiyasına daxil edilmişdi.

1906-cı ilin yay və payızında Türküstanda fəhlələrin çıxışları genişlənmişdi. May-iyun aylarında Daşkənd dəmiryol fəhlələrinin, iyulda Zakaspi atıcı batalyonu əsgərlərinin çıxışları göstərirdi ki, mərkəzdə dekabr silahlı üsyanının məğlub olmasına baxmayaraq, yerlərdə fəhlələrin inqilabi çıxışları hələ də davam edirdi. Seçki qanununa əsasən, I Dövlət dumasında 36 nəfərdən ibarət Müsəlman fraksiyası olmalı idi. Müsəlman fraksiyası Dumanın 1906-cı il iyunun 21-də keçirilən ilk yığıncağında təşkil edilmişdi. Türküstan diyarı və Dağıstandan deputatlar gəlmədiyindən fraksiya yaradılan zaman onun üzvlərinin sayı 22 nəfərdən ibarət olmuşdu. Müsəlman fraksiyasının Dumada əsas siyasi kredosu konstitusiya əsasında vilayətlərdə torpaqların milliləşdirilməsi, dini işlərdə və yerlərdə idarəetmədə geniş muxtariyyət verilməsindən ibarət idi.

I Duma çar hökumətinin nəzərdə tutduğu qədər itaətkar olmadı. Aqrar, milli və s. məsələlərin həllində deputatların tutduqları mövqe çarı təmin etmədiyi üçün 1906-cı ilin iyununda I Dövlət duması buraxıldı.

II Dövlət dumasına seçkilər Türküstanda da kütləvi həbslər şəraitində keçirilmişdi. 1906-cı ilin axırlarında polis RSDFP-nin Əndican, Cərco və Aşqabad təşkilatlarını dağıtmışdı.

1907-ci ilin əvvəlində II Dövlət dumasına seçkilər keçirildi. Seçkilər nəticəsində məlum olmuşdu ki, Türküstanda avropalı əhalinin 50 min nəfərinə 1 deputat, yerlilərə isə 80 min nəfərə 1 deputat yeri verilmişdi. II Dövlət dumasına yerli hakim dairələrin nümayəndələri və din xadimlərindən Abdul Vahid Kari, Rauf Kariyev, Taş Pulat Abdulxəlilov, Tleuli Alabergenov, Məxdumquli xan və b. deputat seçilmişdilər. Daşkənd seçicilərini Dumada təmsil edən deputat Rauf Kariyevə verilmiş tapşırıqların əsasını özbək burjuaziyasının tələbləri təşkil edirdi. Həmin tələblər idarəetmə hüququnun bərpası, dövlət vergilərinin azaldılması, Mərkəzi Asiyanın müstəmləkəyə çevrilməsini dayandırmaq, gəlmələr üçün zəbt olunmuş torpaqları geri qaytarmaqdan ibarət idi. II Dövlət dumasında Ural vilayətinin qazax əhalisini təmsil edən deputat Bəhican

Karatayev öz çıxışlarında göstərirdi ki, bizim dövlətimizdə kəskinləşən aqrar məsələni kəndliləri Ural, Turqay, Akmolinsk və Semireçye vilayətlərinə köçürməklə həll etmək istəyirlər.

II Dumada Müsəlman fraksiyası özünün 11 bölmədən ibarət proqramını qəbul etmişdi. Proqramda vətəndaşların hüquqları, dövlət və dini quruluşun əsasları, yerli özünüidarə, məhkəmə, xalq maarifi, maliyyə, dövlət iqtisadiyyatı, kəndli və fəhlə məsələsi, fraksiyanın əsas siyasi məqsəd və vəzifələri verilirdi.

Dumada həll edilən məsələlərə fraksiyanın münasibətini bildirmək üçün «Duma» adlı çıxan qəzetin səhifələrində oxuculara bu haqda məlumat verilirdi.

1907-ci il iyunun 3-də II Dövlət duması buraxıldıqdan sonra III Dumaya seçkilər haqqında yeni seçki qanunu nəşr olundu. Bu qanun Mərkəzi Asiya və Qazaxıstan xalqlarını seçki hüququndan məhrum etdi. III /1907/ və IV /1912/ Dumalarda türk deputatlarının sayı kəskin şəkildə azalmışdı. III Dumada Müsəlman fraksiyası 1907-ci il noyabr ayında yenidən təşkil edildi. Fraksiya 8 nəfərdən ibarət idi. 1908-ci ilin martında Müsəlman fraksiyası öz iclasında ibtidai təhsilin ana dilində olmasını müzakirə etmişdi.

IV Dumada Müsəlman fraksiyası 7 nəfərdən çox deyildi. Müxtəlif çətinliklərə baxmayaraq, Müsəlman fraksiyasının azsaylı üzvləri vaxtı çatmış problemlərin həlli üçün Dumanın tribunasından, onun çoxsaylı komissiya və yarımkomissiyalarından istifadə edirdilər. Onlar seçicilərinin və öz diyarının təmsilçisi olmayan ucqarların müsəlman əhalisinin də mövqeyini Dövlət dumalarında müdafiə edirdilər.

Müsəlman fraksiyasının üzvü, Azərbaycandan olan deputat M.Y.Cəfərov qırğızların münbit torpaqlarının gəlmələrə verilməsindən narazı olduqlarını və onları seçki hüquqlarından məhrum etmiş 1907-ci il 3 iyun qanununun ləğvini IV Duma deputatlarının nəzərinə çatdırmaq səlahiyyətlərini öz üzərinə götürmüşdü. O, 1913-cü ildə Dumada köçürmə məsələsi ilə əlaqədar çıxışında göstərirdi ki, dövlət bu işdə Səhra və Türküstan vilayətlərinin yerli əhalisinin hüquq və mənafeyinə etinasızlıq göstərməməyə borcludur.

İnqilabın gələcək yüksəlişini nəzərdə tutan sosial-demokratlar Dumaya seçkiləri boykot etdilər. Tatarıstanda da boykot taktikasına

tərəfdar çıxmışdılar. Bəzi yerlərdə seçki baş tutmamışdı. Lakin boykot kompaniyası kəndlilər arasında müvəffəqiyyət qazanmışdı. I Dumaya seçkilərdə kadetlər qələbə çalmışdılar. Ümumiyyətlə, I Dumaya Kazan şəhəri və Kazan quberniyasından 10 deputat seçilmişdi.

RSDFP-nin Ufa komitəsi I Dumaya seçkilər dövründə «Dövlət duması haqqında kəndlilərə» bəyannaməsində onları seçkiləri boykot etməyə çağırırdı. Amma kəndlilər Duma vasitəsilə torpaq ala biləcəklərinə ümid edərək seçkilərdə iştirak etmişdilər.

I Dövlət duması buraxıldığına görə Sibir, o cümlədən Yakutiyada seçkilər keçirilməmişdi.

Ufa, Orenburq, Kazan quberniyaları və Krımdan I Dumaya seçilən türk deputatları ümumi pulsuz ibtidai təhsilin tətbiqi, milli və dini hüquqların bərpa edilməsi, aqrar məsələ və s. problemlərin həll edilməsini irəli sürmüşdülər. Yetmiş iki gün fəaliyyət göstərən I Dövlət dumasında Müsəlman fraksiyasının tələbləri demək olar öz həllini tapmadı.

Çar hökuməti onu qane etməyən I Dumanı qovduqdan sonra II Dumaya keçirilən seçkilərdə də Müsəlman fraksiyası lazımi miqdarda yer ala bilmişdi. Məsələn, Kazan şəhəri və Kazan quberniyasından II Dumaya 10 deputat seçilmişdi. Tatar kəndliləri II Dumaya mülkədar torpaqlarının müsadirə olunması və ölkədə demokratik dəyişikliklərin keçirilməsi tələbləri ilə müraciət etmişdilər.

Ufa və Orenburq quberniyalarından II Dumaya 4 başqırd və 5 tatar deputat seçilmişdi.

Başqırdıstanın Burayevsk nahiyəsinin 9 kəndi 1891-ci ildə dövlətin 12 992 desyatin zəbt etdiyi torpağı geri qaytarması üçün II Dumaya şikayət etmişdilər. II Dövlət dumasında Tavriya quberniyası tatar əhalisi adından çıxış edən Rəşid Mədiyev bildirmişdi ki, xalqın bizim qarşımıza qoyduğu tələb daha aydın göstərir ki, torpaqdan öz xoşbəxtliyini başqasının zəhməti üzərində quranlar deyil, öz təri ilə onu becərən və zəhmət çəkənlər istifadə etməlidirlər.

II Dumada Ufa quberniyasından olan başqırd deputat Kalimullo Xasanovun başçılığı altında 6 nəfər /tatar, başqırd, çuvaş və azərbaycanlı/ deputat «Müsəlman əmək qruppası» yaratmışdılar. Onlar tatar və Azərbaycan dilində «Duma» adlı qəzet buraxmışdılar.

III və IV Dövlət dumalarında türk deputatlarının sayı azalmışdı. Dumada qanun layihələrinin müzakirələrində bu və ya digər

məsələlərə öz münasibətlərini bildirmək üçün Müsəlman fraksiyasının iclaslarında həmin məsələlər əvvəlcədən müzakirə edilirdi. Ufa quberniyasından olan deputat İ.Axtyamov Dövlət dumasının üzvlərinə Müsəlman fraksiyası adından müraciət edərək onların ikinci dərəcəli vətəndaş vəziyyətindən çıxarılmasını bildirmişdi.

Rusiya türklərinin hüquqi vəziyyəti ilə bağlı problemlər I-IV Dövlət dumalarında qaldırılsa da, deputatların əldə etdikləri nəticələr çox cüzi idi. Bunun əsas səbəbi mövcud hakim rejimin milli siyasəti ilə bağlı idi. Lakin Rusiyanın ictimai-siyasi vəziyyəti Dumanın fraksiya və milli tərkibində də əks olunduğu üçün, Duma daxilindəki monarxist mərkəzçi-millətçi, rusofil qüvvələr, həmçinin Dövlət Şurasının Duma üzərində nəzarət və nüfuzu, hüquqi imkanları türk deputatlarının milli ucqarlarla bağlı problemlərin həllinə nail olmalarına imkan vermirdi.

Dövlət dumalarında türk deputatlarının fəaliyyəti heç də Duma iclaslarındakı fraksiyadaxili işlərlə məhdudlaşmırdı. Türk deputatları Duma komissiya və şöbələrinin işində də fəaliyyət göstərirdilər.

I Dumada kadetlərlə bir blokda çıxış edən türk deputatları hökumət üzvlərinə ünvanlanan müraciətlərdə vicdan, söz, mətbuat, ittifaq, yığıncaq və s. azadlıqlar, mülki hüquq bərabərliyinin təmin edilməsi, ölüm hökmünün ləğvi, ümumi pulsuz ibtidai təhsilin tətbiq edilməsi, milli və dini hüquqların bərpasını tələb edirdilər. Ə.Topçubaşov və digər deputatlar aqrar məsələ ilə bağlı olaraq başqırd, qırğız və s. xalqların narazılıqlarını I Dumanın üzvlərinə bildirmişdilər.

Ş.Ş.Sırtlanov isə vətəndaş hüququ haqqında qanunlar müzakirə edilərkən, müsəlmanlarla rusların hüquqlarının bərabərləşdirilməsini təklif etmişdi. I Dumada türk deputatları qadınların hüquq bərabərliyi, Rusiya və Cənubi Qafqaz müsəlmanlarının vəziyyəti haqqında çıxışlar etmişdilər. I Dövlət dumasının iclaslarından birində A.Axtyamov tələb edirdi ki, tatar mülkədar və burjuaziyasının hüquqları rus zadəgan hüquqları ilə bərabərləşdirilsin, tatarların Mərkəzi Asiyada tərpənməz əmlak alması və məskunlaşmasını qadağan edən qanunlar ləğv edilsin.

1906-cı il iyunun 2-si və 8-ində I Dumanın iclaslarındakı çıxışında Ş.Ş.Sırtlanov bildirmişdi ki, hərbi xidmətə çağırılanların siyahısında başqırdların kazak adlandırılması adi hal almışdır. Onlardan

ucuz işçi qüvvəsi kimi istifadə olunur. Başqırdlar öz torpaqlarını xəzinəyə və ya rus kəndli icmalarına satmağa, istifadə etmədikləri torpaqlar üçün məhsulla borc ödəməyə məcbur edilirlər. Başqırdlar torpaqlarının onlara qaytarılmasını istəyirlər. Müsəlmanlar heç də rus əhalisinin istifadə etdikləri hüquqlardan istifadə etmirlər. Müsəlmanlar məscid tikmək istədikdə pravoslav kilsəsi bu işə qarışır. Buxara və İstanbulda təhsil alan müəllimlərə məktəb və mədrəsələrdə dərs deməyə icazə verilmir. Məktəblərdə Türkiyə, Buxara və Misirdə nəşr olunmuş kitablar əsasında dinin öyrədilməsinə icazə verilmir. Müsəlmanlar uşaqlarını rus mülki təhsil müəssisələrinə qoyduqda, burada dini təhsil ana dilində aparılmır. Rusiyada 20 milyona qədər müsəlman yaşayır, lakin orduda müsəlman ruhaniləri demək olar ki, yox dərəcəsindədir. Əsgərlər fikirləşirlər ki, necə dəfn ediləcəklər. Rus məktəblərindəki müəllimlər hərbi mükəlləfiyyətdən azad ediliblər, müsəlmanların məktəblərində isə bu yoxdur. Müsəlman məktəb açmaq istədikdə, rus dilində də dərs deyilməsi tələb edilir. Onlara dünyəvi elmlərin tədris edilməsinə icazə verilmir. Zemstvo və şəhər özünüidarə orqanları məktəb şuralarına müsəlmanlardan da üzv seçmək hüququna malik deyildirlər. Müsəlmanlara Türküstan diyarında tərpənməz əmlak almaq qadağan edilmişdir.

1916-cı il iyunun 25-də II Nikolayın orduya səfərbərlik haqqındakı fərmanından dərhal sonra, yəni iyul-avqust aylarında Mərkəzi Asiya və Qazaxıstanda bununla əlaqədar olaraq böyük üsyan baş verdi. Yerli əhali bu fərman haqqında Dumada məsələ qaldırmaq üçün Müsəlman fraksiyasına müraciət etmişdi. Sədr K.B.Tevkelev və M.Y.Cəfərov Nazirlər Şurası sədrinə bu barədəki məktubda qeyri-rus xalqlarının arxa cəbhəyə çağırılmasının nizamlanmasını, əhalinin əkin-biçin işləri ilə məşğul olmasına mane olmamağı bildirirdilər. Bununla da Dumanın qərarları ilə Türküstan əhalisi və ümumiyyətlə, müsəlmanların arxa cəbhəyə səfərbərliyini 1916-cı ilin 15 sentyabrına qədər təxirə salmağa nail olunmuşdu.

1916-cı il iyulun 20-də sağlar və blokçuların bir hissəsi özgə xalqlardan olanlara qarşı qanunvericilikdəki məhdudiyyətlərin ləğv edilməsi əleyhinə səs vermişdilər.

1917-ci il martın 8-də Dumanın Müsəlman fraksiyası Nazirlər Şurasının sədri Kerenskiyə Müvəqqəti hökumətin proqramına

etimad göstərdiyini bildirən ərizə ilə müraciət etmişdi. Bu ərizədə təklif olunurdu ki, hökumət təşkil edilərkən Daxili İşlər, Ədliyyə, Xalq Maarifi, Hərbi, Hərbi-dəniz nazirlikləri və Torpaq quruluşu idarələri təsis olunarkən müsəlmanların sayca üstünlük təşkil etdikləri quberniya və vilayətlərdə onların mənafe və maraqları nəzərə alınsın.

Müsəlman fraksiyası özünü müsəlmanların yeganə siyasi təşkilatı elan etmişdi. I-IV Dövlət dumalarında Müsəlman fraksiyası proqram tələblərinin həyata keçirilməsinə nail olmaq üçün Duma iclasları və komissiyalarının işində fəal iştirak edirdi. Lakin bu tələblər ümumi xarakterinə görə elə tələblər idi ki, Dövlət siyasətinin ana xəttinə qarşı yönəlirdi. Türk deputatlarının bu tələbləri qanunvericilik yolu ilə əldə etməyə çalışmalarına baxmayaraq, onları həyata keçirmək qeyri-mümkün idi. Çünki bu, əslində imperiyanın parçalanmasına gətirib çıxara biləcək tələblər idi.

Dövlət dumalarındakı Müsəlman fraksiyası türk xalqları və ümumiyyətlə, müsəlmanların seçkili nümayəndələrinin birliyi idi. Türk deputatları Duma tribunasından müsəlman xalqlarının problemləri, köçürmə siyasətinin ucqarlarda yaratdığı narazılıqlar, yerli idarəçilikdəki nöqsanlar, milli məktəblərin açılması və s. ilə bağlı məsələlər barədə tənqidi çıxışlar edir, hökumət və Duma sədarətinə ərizə və sorğularla müraciət edirdilər. Müsəlman fraksiyası aqrar məsələnin həllində hökumətin köçürmə siyasətinin törətdiyi əngəlləri deputatlara elan edir, onun həyata keçirilməsində yol verilmiş haqsızlıqları göstərirdilər. I və II Dövlət dumalarında Müsəlman fraksiyası kadetlərlə, III və IV Dövlət dumalarında isə tərəqqiçilərlə birgə çıxış etmişdi.

Rusiya imperiyasının bütövlüyü məsələsi demək olar ki, bütün proqramların özülünü təşkil edirdi. III və IV Dumalarda zemstvo və ibtidai təhsil sahəsində qəbul edilmiş qanunlar nəzərə alınmazsa, türk xalqlarının çoxsaylı problemləri Dumanın işində faktiki olaraq öz həllini tapmamışdı.

## § 4. TÜRKÜSTAN, VOLQABOYU, SİBİR VƏ KRIMDA STOLIPİN AQRAR İSLAHATININ HƏYATA KEÇİRİLMƏSİ

1905-1907-ci illər inqilabı dövründə və sonra Rusiyada vəziyyət xeyli dəyişmişdi. 1907-ci il iyunun 3-də II Dövlət dumasının qovulması və yeni seçki qanununun verilməsi tarixi ədəbiyyatda dövlət çevrilişi kimi qiymətləndirilir. III Dövlət duması isə əslində ölkədə həyata keçirilən hərbi-polis diktaturasını dəstəkləyirdi. Çarizm Mərkəzi Asiya və Qazaxıstanda qatı müstəmləkə siyasəti həyata keçirirdi. Yerli xalqlar Dumaya seçki hüququndan məhrum edilmiş və mədəni-milli cəmiyyətlərin yaranmasına qadağa qoyulmuşdu. İnqilab illərində ana dilində çıxan qəzet və jurnalların nəşri dayandırılmışdı. Mədrəsələrin açılmasına general-qubernator, məktəblərə isə vilayət və qəza rəhbərləri icazə verməli idilər. Siyasi repressiyalarla yanaşı çarizm Türküstanı müstəmləkə kimi də talamağa başlamışdı. Ona görə də əhalinin vəziyyəti getdikcə ağırlaşırdı.

Belə çıxılmaz bir vəziyyət Türküstan diyarında milli burjuaziyanı hərəkətə gətirmişdi. Milli burjuaziya və cədidçilərin bir qismi isə çar hökumətinin tərəfdarı kimi çıxış edirdi. Digər hissə isə Türküstanın Rusiyadan ayrılaraq Türkiyə nümunəli dövlət yaradılmasının tərəfdarı idi. Türküstanda milli burjuaziya hərəkatına həm də 1908-1909-cu illərdəki gənc türklər hərəkatı və 1905-1911-ci illərin İran inqilabı təsir göstərmişdi.

Beləliklə, Türküstan, Volqaboyu, Sibir və Krımda sosial-iqtisadi və siyasi vəziyyət getdikcə çətinləşir, kənd icmalarının dağılması, kəndlilərin torpaqsızlaşması və istismarın artması daha geniş şəkil alırdı. Məhz buna görə də iqtisadi böhranın dərin siyasi böhrana çevrilməməsi üçün aqrar islahat keçirilməsi zərurəti yaranmışdı. Bu islahatlar həm Rusiyanın mərkəzi quberniyaları, həm də milli ucqarlarda-türk xalqları regionlarında sosial-siyasi partlayışın qarşısını almalı idi.

Rusiyada 1906-1911-ci illərdə keçirilmiş Stolıpin torpaq islahatı kənddə kapitalizmin eninə inkişafını sürətləndirmək, kənd icmalarını dağıtmaqla kəndliləri torpağın xüsusi mülkiyyətçisinə çevirmək, dövlət və əyalət torpaqlarını milliləşdirməkdən xilas etmək

üçün onları Kəndli Torpaq bankına satmaq, Rusiyanın mərkəzi quberniyalarından torpaqsız və inqilabi əhval-ruhiyyəli kəndliləri ucqarlara köçürmək, mülkədar torpaq sahibliyinin tədricən ləğv edilməsi ilə yanaşı kənd burjuaziyasını yaratmaqdan ibarət olmuşdu. 1906-cı il 9 noyabr, 1910-cu il 14 iyun və 1911-ci il 29 may qanunları ilə Stolıpinin aqrar islahatları keçirilmişdi.

1906-cı il noyabrın 9-da kəndli icma torpaq sahibliyindən xüsusi torpaq sahibliyinə keçmək haqqında çar fərmanı Stolıpin aqrar islahatının əsasını təşkil edirdi. Fərmana əsasən icma torpağına sahib olan hər bir kəndliyə icma torpağından ona düşən payı xüsusi mülkiyyət kimi almaq hüququ verilirdi. İyirmi dörd il ərzində torpaqların yenidən vaxtaşırı bölünmədiyi kəndli icmalarında kəndlilər bu vaxta qədər istifadə etdikləri torpaq sahələrinin mülkiyyətçisi ola bilərdilər.

1910-cu il iyunun 14-də qəbul edilmiş «Kəndli torpaq sahibliyinə dair» qanuna əsasən, artıq məcburi qaydada bütün icmaçı kəndlilər, əgər onların yaşadıqları icmada ödəncə keçdiyi vaxtdan icma torpağı vaxtaşırı bölünməyibsə, xüsusi mülkiyyətçilər vəziyyətinə keçirilirdilər.

1911-ci il 29 may qanununa görə kəndlilərin icmadan çıxması üçün kəndli yığıncağının razılığını almaq işi də xeyli sadələşdirilmişdi. Bu isə kəndli yığıncağında səs çoxluğu ilə həyata keçirilirdi.

Çar Rusiyası Mərkəzi Asiya və Qazaxıstanda öz mövqeyini daha da möhkəmləndirmək üçün köçürmə siyasətini gücləndirirdi. Bunun üçün Stolıpin aqrar islahatının əsas prinsiplərindən biri olan «yeni kurs»-Türküstanda rus kəndli-qolçomaq təsərrüfatlarını artırmaq və möhkəmləndirmək əsas götürülürdü.

1907-ci il iyulun 30-da Türküstan diyarında yoxlama aparılması və onun idarə olunmasına dair qərar qəbul edilmişdi. 1908-ci il iyulun 13-dən 1909-cu ilin əvvəlinə kimi qraf K.K.Palen Türküstanda yoxlama aparmışdı. Yoxlamanın məqsədi qolçomaqları regionda hökumətin etibarlı dayağına çevirmək, yerli idarəçilikdə çar hökumətinin mövqeyini gücləndirmək, Türküstanda kapitalist münasibətlərinin genişlənməsi ilə yanaşı onun imperiyanın aqrar-xammal bazası kimi qalması idi.

Ucqarlarda Stolıpinin aqrar islahatı yarımçıq və məhdud şəkildə həyata keçirilirdi. Türküstanda kənd icmalarının dağılması nəticəsində torpaqlar kəndlilərə xüsusi mülkiyyət kimi deyil, yalnız müvəqqəti istifadəyə verilirdi. Kəndli icmanın dağılmasından sonra torpağın sahibi hesab edilsə də, xüsusi mülkiyyətçi kimi heç bir sənəd almırdı. O, öz torpağını yalnız dövlət torpaqları üzərində hüququ olan şəxsə verə bilərdi. Türküstan və Sibir kəndliləri Rusiyanın digər 50 quberniyasına nisbətən daha məhdud hüquqlar əldə etdiklərini başa düşmüşdülər. Onlar hətta dəfələrlə bu barədə Rusiya Daxili İşlər Nazirliyinə şikayət ərizələri və tələblər göndərmişdilər. Kəndlilərə verilmiş torpaqları eyni zamanda satmaq, bağışlamaq və icarəyə vermək olmazdı. Avropa Rusiyasında isə bu hüquqlar xutor sahiblərinə verilmişdi.

Türk xalqları regionlarının əksəriyyətinin kəndliləri də onlara belə hüquqların verilməsini tələb edirdilər. Bəzi kəndlilər öz torpaqlarını icarəyə verməklə sənətkarlıqla məşğul olmaq istəyir, digərləri isə xutorlarındakı torpaqlarını sataraq başqa yerə köçmək niyyətində idilər.

Kəndlilərin köçürülməsi Stolıpin aqrar islahatının tərkib hissəsini təşkil edirdi. Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Özbəkistan gəlmələrin məskunlaşdıqları ən mühüm regionlar hesab edilirdi. Köçürmənin ilkin mərhələsində /1904-1910-cu illər/ buraya az təminatlı kəndlilər, ikinci mərhələsində isə /1910-1914-cü illər/ varlı qolçomaqlar köçürülmüşdülər. Demək olar ki, hər il Mərkəzi Asiya və Qazaxıstana köçürülən 8 min nəfər kəndli yerli əhalidən alınmış torpaqla təmin edilirdi. 1865-1910-cu illərdə Türküstana 500 min nəfər köçürülmüşdü. Burada onlara 12,7 milyon desyatin torpaq sahəsi verilmişdi. Köçürülənlərin içərisində ruslar, polyaklar və yəhudilər üstünlük təşkil edirdilər. 1906-1913-cü illərdə Bişkek qəzasına köçürülənlər üçün 179 min desyatin torpaq sahəsi ayrılmışdı. Bu ərazilərdə 64 xutor salınmışdı. Lakin köçürülənlərin heç də hamısı torpaq almırdı. İri torpaq sahələrini qolçomaqlar ələ keçirir, yoxsullar isə torpaqsızlaşaraq fabrik və zavodlarda işləməyə məcbur olurdular. Köçəri maldarlıqla məşğul olan kəndlilərin müəyyən hissəsinin torpaqları əllərindən alındığına görə oturaq həyata keçirdi. 1914-cü ildə Əndican qəzasının 520 ailəsi hələ 1907-ci ildə

onlardan alınaraq gəlmələrə verilmiş 65 min desyatin torpağın geri qaytarılmasını tələb etmişdilər.

Çarizmin köçürmə siyasətinə qarşı 1906-1908-ci illərdə Qazaxıstanın Turqay əyalətində üsyan baş vermişdi. Rusiyanın quberniyalarında kəndli çıxışları zəiflədiyi halda, Mərkəzi Asiyada bu hərəkat güclənməkdə idi. Çar hökumətinin Türküstan əhalisinin tələbləri və iqtisadi vəziyyətlərini nəzərə almadan həyata keçirdiyi köçürmə siyasəti bunun əsas səbəblərindən sayılmalıdır. Köçürmə idarəsi hər şeyi rusların mənafeyi naminə həyata keçirirdi.

Çarizmin köçürmə siyasətini həyata keçirən məmurlar ən münbit torpaqları yerli əhalidən alaraq onları qeyri-münbit torpaqlara çəkilməyə məcbur edirdilər. Məsələn, Səmərqənd əyalətində kəndlilər öz əlverişli torpaqlarından məhrum edilərək az yararlı olan torpaqlara köçürülmüşdü. Bişkek qəzasının əhalisi dəfələrlə torpaqlarının geri qaytarılması üçün rəsmi orqanlara ərizə ilə müraciət etsələr də, onların torpaqları geri qaytarılmamışdı. Belə hallar Türküstanın Oş, Əndican, Xocənt, Fərqanə və digər əyalətlərində baş vermişdi.

Stolıpinin torpaq islahatı bütün çətinlikləri və qüsurlarına baxmayaraq, Mərkəzi Asiya və Qazaxıstanın kənd təsərrüfatında kapitalizmin inkişafı, bank və maliyyə sisteminin yaranması və genişlənməsi, eyni zamanda yeni sənaye sahələrinin meydana gəlməsi, burjuaziya və fəhlələrin təşəkkülünə səbəb olmuşdu.

Lakin bununla yanaşı iqtisadi yüksəliş illərində /1910-1914/ Rusiyada baş vermiş fəhlə hərəkatı Türküstandan da yan keçməmişdi. Burada Rusiyanın Avropa hissəsinə nisbətən fəhlələrin iqtisadi və hüquqi vəziyyəti daha ağır idi. Onlar 1,5 dəfə az əmək haqqı alırdılar. İşsizlik getdikcə artırdı. Daşkənd yaxınlığında Troitskdəki hərbi hissənin üsyana hazırlaşan «hərbi-inqilabi təşkilat»ı fəhlələr və sosial-demokratlarla əlaqə yaratmışdı. 1912-ci il iyunun 1-də hərbi hissədə üsyan baş vermişdi. Nəticədə 268 nəfər əsgər hərbi məhkəməyə verilmiş, 20 nəfər katorqaya sürgün edilmiş, 14 nəfər isə ölüm cəzasına məhkum olunmuşdu. 1915-ci ilin ikinci yarısında Daşkənd sosial-demokratları geniş təbliğata başladılar. Ən böyük tətil Krasnovodsk rayonu və 2 min nəfər neftçinin işlədiyi Çələkəndə olmuşdu. Birinci dünya müharibəsinin başlanması Rusiyada olduğu kimi, burada da inqilabi yüksəlişə mənfi təsir göstərmişdi.

Stolıpin aqrar islahatı Volqaboyu, Sibir və Krımda müvəffəqiyyət qazana bilmədi. O, ucqarlarda natamam şəkildə həyata keçirilmişdi. Məhdudiyyətlər Sibirdə daha çox nəzərə çarpırdı. Sibir torpaqları, o cümlədən türklərin yaşadıqları ərazilər, yenə də əvvəlki kimi Dövlətin mülkiyyəti olaraq qalırdı. Əsasən icma torpaq sahibliyinin üstünlük təşkil etdiyi Volqaboyunda aqrar islahatın həyata keçirilməsi bir sıra ziddiyyətli amillərlə bağlı olmuşdu. Aqrar islahatı həyata keçirmək üçün torpaq komissiyaları yaradılmışdı. Volqaboyu ərazilərdə islahat icbari şəkildə həyata keçirilirdi. Ufa qubernatorunun xüsusi qərarına əsasən islahatdan boyun qaçıran və ona qarşı çıxan hər bir şəxs üç ay müddətinə həbs edilməli və ya cərimə olunmalı idi. İslahata qarşı təbliğat aparanlar isə quberniyadan qovulurdular.

Ümumiyyətlə, Tataristan və Çuvaşiyada islahatın həyata keçirilməsi ləng gedirdi. Kəndlilər icmadan öz torpaq paylarını almaq üçün ərizə ilə müraciət etmirdilər. Bu isə hər şeydən əvvəl hakimiyyət orqanlarına inamsızlıqdan irəli gəlirdi. Kənd icmalarının dağıdılması prosesində zemstvo rəisi, pristav və polis dəstələri iştirak edirdilər.

İcmadan çıxaraq torpaq mülkiyyəti əldə etməklə kəndlilər müxtəlif məqsədlər güdürdülər. Volqaboyunda islahatın həyata keçirilməsindən ilk əvvəl yoxsullar, aztorpaqlı və torpaqsız kəndlilər istifadə etməyə başladılar. Kəndlilərin bir qismi torpağı satdıqdan sonra Sibirə köçmək, digər hissəsi isə xüsusi mülkiyyətə keçirdikləri torpağı icarəyə vermək haqqında düşünürdü.

1907-1915-ci illərdə Ufa quberniyasında 48 mindən çox və ya 15 faiz kəndli təsərrüfatı icmadan çıxıb torpağı öz mülkiyyətində möhkəmləndirmişdi.

1915-ci ildə Orenburq quberniyasında 5 mindən bir qədər çox kəndli təsərrüfatı öz pay torpağını satmışdı. Kəndli Torpaq bankı bu işdə əsas rol oynayırdı. Bank 1906-1915-ci illərdə Ufa və Orenburq quberniyalarında çox ucuz qiymətə 465 min desyatin torpaq almışdı. Qeyd olunan dövrdə bank Ufa quberniyasında kəndlilərə 125 min desyatin, Orenburq quberniyasında isə 115 min desyatin torpaq satmışdı. Kəndli Torpaq bankı xüsusi torpaqları satmaq, vasitəçilik əməliyyatları aparmaqla Stolıpinin xutor və otrubların

təşkili, eləcə də qolçomaq təsərrüfatlarının yaradılması siyasətini həyata keçirirdi. 1907-1916-cı illərdə Çuvaşiyada torpaqların 14 faizi xüsusi mülkiyyətə çevrilmişdi. Stolıpin 1910-cu ildə Kazanda olarkən demişdi ki, 10 və bəlkə də 20 ildən sonra biz öz cəhdlərimizin bəhrəsini görəcəyik.

Kəndli Torpaq bankı torpaqların satışı ilə yanaşı onları icarəyə də verirdi. İcarəyə verilmiş torpaqların haqqı ya pulla, ya da natura şəklində ödənilirdi. İcarə müddəti 1 və 3 il olurdu. Kazan quberniyasında pulla icarə üstünlük təşkil etmişdi. İslahatın yalnız 3 ili ərzində Tatarıstanda 1301 nəfər torpaq icarəyə götürmüşdü. Onlardan 734-ü Kəndli Torpaq bankının xidmətindən istifadə etmişdi. Başqa quberniyalarda torpağın icarəyə verilməsi o qədər də geniş yayılmamışdı. Ümumiyyətlə, çar hökumətinin çox ciddi-cəhdinə baxmayaraq, Stolıpinin torpaq islahatı nəticəsində imperiyanın bütün kəndli təsərrüfatlarının yalnız 14 faizi /təxminən 1,5 milyon təsərrüfat/ torpağın xüsusi mülkiyyətçisinə çevrilmişdi.

Volqaboyunda aqrar islahatların əsas cəhətlərindən biri də köçürmə siyasəti ilə bağlı idi. Burada əhalinin bir hissəsinin köçürülməsi pay torpaqlarının xüsusi mülkiyyətə verilməsi ilə əlaqədar olmuşdu. 1909-cu ildə Çeboksarı qəzasından 224 ailə Sibirə göndərilmişdi. 1904-1914-cü illərdə Ufa quberniyasından köçürülmüş 53 min nəfərin təxminən 10 min nəfəri, Orenburq quberniyasında isə köçürülən 30 min nəfərdən 6 min nəfərə qədəri geri qayıtmışdı. Rusiyanın Avropa hissəsinin digər quberniyalarına nisbətən Volqaboyundan daha az adam köçürülmüşdü. 1906-cı ildə Sibirə 140 min nəfər məcburi, 77 min nəfər isə könüllü köçmüşdü.

Sibirə köçürülmüş və yeni torpaq almış kəndlilər öz təsərrüfatlarını qurmaq üçün dövlətdən kredit alırdılar. Belə ki, kəndlilər əvvəlcədən 5 faiz, sonra isə 10-12 faiz illik ödənişlə kredit alırdılar. Rusiyanın digər quberniyalarından fərqli olaraq Sibirdə kreditin ipoteka növü /torpaq banklarının verdikləri borc pul/ mövcud idi. Bunu həyata keçirmək üçün 1911-ci il sentyabrın 15-də Omskda Rusiya Kəndli Torpaq bankının şöbəsi açılmışdı. Şöbə xüsusi torpaq mülklərini satın alır və bu torpaqları almaq üçün kəndlilərə kredit verilirdi. Verilmiş kreditin əvəzində isə bank kəndliləri mülklərini girov kimi qoymağa vadar edirdi. Banka kredit üçün əsasən iri torpaq sahibləri və kazaklar müraciət edirdilər.

Stolıpin aqrar islahatının həyata keçirilməsi nəticəsində Krımda pay torpaqları daha çox azalmışdı. Çar hökuməti varlı kəndlilərin icma pay torpaqlarını xüsusi mülkiyyət kimi saxlamaqla onlara otrub və xutorlara getməyi məsləhət görürdü. Müəyyən güzəştlə kəndli təsərrüfatlarına borc da verilirdi. Bununla da bir tərəfdən yoxsul təsərrüfatları artır, digər tərəfdən isə muzdlu əməkdən istifadə edən iri qolçomaq təsərrüfatları çoxalırdı.

Çarizm aqrar islahatın gedişi prosesində kütlələrin narazılığını nəzərə alaraq müəyyən dəyişikliklər etmişdi. Bu dəyişikliklər daha çox ucqarlarda həyata keçirilmişdi. 1910-cu ilin payızında köçürmə siyasəti haqqında mətbuatda tənqidi yazıların dərc edilməsindən sonra Stolıpin, həmçinin Əkinçilik naziri Sibir və Volqaboyunun yeni məskunlaşdırılmış ərazilərinə səfər etmişdilər. Onların bu səfərindən sonra 1911-ci ildə dərc etdirdikləri «Sibir və Volqaboyuna səfər» adlı hesabatlarında göstərilirdi ki, köçürülənlərin 700 min nəfərinə torpaq payı verilmədiyinə görə onlar icarəçi və muzdurlara çevrilmişlər. Bu səfərdən sonra hər iki nazirin təqdimatı ilə köçürülənlərə torpağın yalnız satılması, Sibirdə isə torpaqların xüsusi mülkiyyətə çevrilməsi, otrub və xutorların yaradılması, zemstvo və şəhər idarəçiliyinə rəhbərlik etmək üçün buraya mülkədarların dəvət olunmaları, artıq torpağın əhalidən alınması təklif edilmişdi. Hesabatda həm də qeyd edilirdi ki, Sibir və Volqaboyunda hələ 3,5 milyon desyatin boş torpaq vardır və əhalini orada məskunlaşdırmaq lazımdır. Bu dəyişikliklərdən sonra 1915-ci ilin sonunadək Sibirdə 72 minədək xutor və otrub təsərrüfatı yaradılmışdı.

İslahatın gedişində Rusiyanın mərkəzi quberniyaları ilə ucqarlar arasında müəyyən fərqlər qoyulduğundan onun nəticələri də müxtəlif idi. Bu, özünü ilk növbədə Türküstan, Tatarıstan, Başqırdıstan, Çuvaşiya və Sibirdə göstərirdi. Belə ki, qısa müddətdə yeni əkin sahələri meydana gəlirdi. Gəlmələr hesabına şəhər əhalisinin sayı artırdı. Çünki onların bir qismi öz torpaqlarını satıb şəhərlərə gedirdi. Həm də şəhərlərdə yeni sənaye sahələrinin yaranması ilə əlaqədar olaraq əhali buraya daha çox can atırdı. Əhalinin məskunlaşdığı ərazilərdə yeni yaşayış məntəqələri-kəndlər salınırdı. Kəndlər ən çox Türküstanın Sırdərya və Sibirin Tomsk, Yenisey quberniyalarında salınmışdı. Yeni köçürülənlərin yerləşdiyi bölgə-

lərdə əkin və biçənəklərin sahəsi artmışdı. Lakin Türküstana köçürülənlərin hamısı torpaqla tam təmin olunmurdu. İri torpaq sahələrini qolçomaqlar ələ keçirir, yoxsullar isə torpaqsız qalırdılar. Bəzən torpaqsız kəndlilər qeyri-qanuni şəkildə dövlət mülkiyyətində qalan torpaqları tuturdular. Köçürmə siyasəti nəticəsində köçəri maldarlıqla məşğul olan əhalinin bir hissəsi oturaq həyata keçməyə məcbur olurdu. Çünki onların torpaqları əllərindən alınıb gəlmələrə verilmişdi.

Volqaboyu, Sibir və Krımda Stolıpin aqrar islahatının məhdud şəkildə həyata keçirilməsinə baxmayaraq, kənddə qolçomaq və yoxsulların artması kapitalist münasibətlərini genişləndirirdi. Bank-kredit sistemi şəbəkəsinin genişlənməsi yeni sənaye sahələrinin yaranmasını sürətləndirirdi. Kütləvi şəkildə Sibir və qismən də Volqaboyuna köçürülmə kapitalizmin eninə inkişafına səbəb olurdu. Bütün bunlara baxmayaraq, islahatın həyata keçirilməsi Volqaboyunda kənd icmasını tamamilə dağıda bilmədi. Sibirdə kəndlilər torpaq islahatının həyata keçirilməsi zamanı yol verilmiş əyintilərə və bütövlükdə köçürmə siyasətinə, kütləvi sürgünlər, vergilərin artırılması və hakimiyyət strukturlarına qarşı mübarizə aparırdılar.

Stolıpin aqrar islahatının nəticələrindən biri də bəzi milli ucqarlarda xristianlaşdırma prosesinin gücləndirilməsi idi. İslahatın həyata keçirilməsi üçün əvvəlcədən lazımi tədbirlərin görülməməsi ucqarlarda hökumətin bu siyasətini əsla doğrultmadı. Digər tərəfdən isə icma kəndli-torpaq sahibliyinin dağıdılması və kəndlilərin yeni torpaqlara köçürülməsi gözlənilən nəticəni vermədi.

Yeni torpaq islahatı Rusiya kəndində, o cümlədən türk məmləkətlərində aqrar böhranı heç də aradan qaldırmadı. Ona görə kəndlilər Dumaya da inamını itirmişdilər. Başqırdıstan və Çuvaşiyanın bir çox kəndlərində çox vaxt yanğınlar törədilir, torpaqların xüsusi mülkiyyətə çevrilməsi və icmadan xutor və otrublara çıxarılmaya etiraz edilirdi. 1908-1913-cü illərdə Ufa quberniyasında 536, Orenburq quberniyasında isə 443 yanğın törədilmişdi. 1912-ci ildə Çuvaşiyanın Tsivil qəzasının İmbyurti kəndində icmadan çıxmağı təbliğ edən qolçomaq öldürülmüşdü. Belə hadisələr başqa bölgələrdə də baş vermişdi. Yakutiyada kəndlilər kütləvi şəkildə vergi verməkdən imtina etmişdilər.

Bir neçə il davam edən durğunluqdan sonra Rusiyada yeni iqtisadi yüksəliş dövrü başlandı. Ufa quberniyasında fəaliyyət göstərən dağ-mədən və mexaniki müəssisələrin sayı 1911-ci ildəki 20-dən 1913-cü ildə 30-a çatmışdı. Çuqun əridilməsi 1911-ci ildəki 2,9 milyon pud əvəzinə 1914-cü ildə 4 milyon pud olmuşdu. Əgər 1910-cu ildə Kazan quberniyasında 14 min fəhləsi olan 157 müəssisə var idisə, 1913-cü ildə fəhlələrin sayı 20 min nəfəri keçmiş, müəssisələrin sayı isə 212 olmuşdu. Lakin fəhlələrin əmək və həyat şəraiti dözülməz idi. İş günü 12-14 saat davam edirdi. Fəhlələrin vəziyyətinin pisləşməsi onların tətil hərəkatı ilə nəticələnirdi.

1912-ci il aprelin 4-də Lena qızıl mədənlərində baş vermiş tətil 500 nəfərdən çox fəhlənin öldürülməsi və yaralanmasına gətirib çıxartmışdı. Lena gülləbaranı bütün ölkədə güclü əks-səda doğurmuş, 300 minə yaxın fəhlənin etiraz nümayişi, mitinq və tətillərinə səbəb olmuşdu. 1912-ci ildə tətil hərəkatının geniş vüsət aldığı bir zamanda Krımda «İoann Zlotoust» zirehli gəmisində hazırlanmış silahlı üsyan hökumət orqanları tərəfindən boğuldu, üsyan təşkilatçılarından 10 nəfər güllələndi, 200 nəfər matros hərbi-səhra məhkəməsinə verildi və 600 nəfərdən çox dənizçi hərbi gəmilərdən qovuldu.

Göründüyü kimi, Birinci dünya müharibəsi ərəfəsində ölkədə artıq yeni siyasi böhran yetişirdi.

# VII FƏSİL

# TÜRK XALQLARI BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ. FEVRAL İNQİLABINDAN SONRAKI DÖVR

## § I. TÜRK XALQLARI BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ

Çar Rusiyası Birinci dünya müharibəsinə nisbətən hazırlıqsız qoşulmuşdu. Müharibə Rusiyanın milli ucqarlarında yaşayan xalqlara, o cümlədən türk xalqlarına ağır iztirablar gətirmişdi. Müharibənin əvvəlindən Türküstan, Buxara və Xivə çar Rusiyasının ən iri aqrar-iqtisadi rayonu hesab olunurdu. 1900-cu ildə Özbəkistanda pambıq əkini sahələri 224 min desyatin idisə, 1913-cü ildə bu, 383,4 min desyatinə çatmışdı. Ümumiyyətlə, müharibə ərəfəsində Mərkəzi Asiya və Qazaxıstanın cənub hissəsində 750 min desyatindən çox pambıq əkini sahəsi var idi.

Kapitalist münasibətlərinin inkişafı kəndlilərin ictimai təbəqələşmə prosesini gücləndirir, torpaqsız kəndlilərin sayı çoxalır və onlara məxsus olan pay torpağı sahələri varlıların əlində mərkəzləşirdi. Fərqanə vilayətinin iki qəzasında – Margilan və Əndicanda 24 min torpaqsız kəndli var idi. Çar hökuməti qazax kəndlilərindən 40 milyon desyatinə yaxın münbit torpaqları alaraq, onların özlərini boş səhra rayonlarına göndərmişdi. Kəndlilərin vəziyyəti ona görə ağırlaşırdı ki, Birinci dünya müharibəsi illərində Qırğızıstan və Qazaxıstanda yerli əhalinin icma torpaqları müsadirə edilirdi. Köçürmə idarəsinin təşkilatçıları tərəfindən «artıq» torpaq aşkar edilərək hesaba alınır, diyarın cənubunda yeni dövlət bağları, meşəliklər salınırdı. 1915-ci ildə Bişkek qəzasında qırğız əhalisindən 712 min desyatindən çox, «Qırğızıstanın Fərqanə hissəsindən» isə 82 min desyatinə qədər torpaq sahəsi alınmışdı. Torpaqsız qalan kəndlilərin bir hissəsi yaxşı torpaqları öz əlində cəmləşdirən dövlətdən yük-

sək qiymətlə və qolçomaqlardan ağır şərtlərlə torpağı icarəyə götürürdülər.

Bu dövrdə Rusiyaya xarici kapitalın, ilk növbədə ingilis-fransız kapitalının axını güclənmişdi. Xarici kapital irriqasiya sahələrini konsessiyaya götürmək yolu ilə hətta suvarma işlərinə də nüfuz edirdi. Müharibə ərəfəsində Mərkəzi Asiyanın iqtisadiyyatında alman kapitalının mühüm mövqeyi var idi. Regionun pambıqtəmizləmə sənayesini texniki avadanlıqla alman taciri Knabe təmin edirdi. Alman firması «Dyurşmidt» bəzi növ maldarlıq məhsullarının satışını inhisara almışdı. Daşkəndin toxuculuq sənayesində Lui Zalma məxsus müəssisələr mühüm yer tuturdu. Müharibə dövründə Mərkəzi Asiyada alman firmalarını Amerika kapitalına məxsus müəssisələr əvəz etmişdi.

Təkcə xarici ölkələrdən deyil, Rusiyanın inkişaf etmiş bəzi yerlərindən də bu sahəyə kapital qoyuluşu müşahidə edilirdi. Hələ 1912-ci ildə Bakı sənayeçiləri X.Meyləmov və M.Nağıyev Türkmənistanda əsas kapitalı 1,2 milyon manat olan «Xlopok» səhmdar cəmiyyətini təsis etmişdilər. Cəmiyyətin bir neçə pambıqtəmizləmə zavodu var idi.

Göründüyü kimi, Mərkəzi Asiya və qismən Qazaxıstan Rusiyanın ucqarı, geridə qalmış müstəmləkəsi idi. Bu nəhəng region həm də xarici kapitalın fəaliyyət dairəsinə çevrilmişdi.

Birinci dünya müharibəsi Mərkəzi Asiya və Qazaxıstanda sosial və milli əsarəti daha da gücləndirmişdi. Çar hökuməti sənaye və hərbi-strateji əhəmiyyəti olan məhsulları, ilk növbədə pambığın daşınmasını sürətləndirmək üçün bir sıra tədbirlər görmüşdü.

Müharibə dövründə Mərkəzi Asiyada dəmiryol tikintisi Buxara, Fərqanə, Semireçyedə davam etdirilmişdi. 1916-cı ilin aprelində Fərqanə dəmiryolu xətti istifadəyə verildikdən sonra yeni fabrik və zavodlar-Xilkov sement, hərbi əhəmiyyəti olan Daşkənd pambıqtəmizləmə zavodları və s. istifadəyə verilmişdi.

Müharibənin ilk illərində pambıq bütün istehsal olunan sənaye məhsulları dəyərinin 40 faizini və diyardan Rusiyaya aparılan məhsulların isə 80 faizini təşkil edirdi. Bu da Rusiya sənayesinin tələbatını 50 faizə qədər ödəyirdi. Birinci dünya müharibəsi xaricdən və Cənubi Qafqazdan Rusiyaya gətirilən mahlıcın azalmasına

səbəb olduğundan, Mərkəzi Asiya pambığına tələbat artmışdı. Ona görə də mühüm strateji əhəmiyyəti olan pambıq istehsalını çoxaltmaq üçün ilk növbədə əkin sahəsini genişləndirməyə maraq güclənmiş və pambığın satınalma qiyməti bahalaşmışdı. 1913-cü ildə buradan Rusiyanın pambıq-parça fabrikləri üçün 27 milyon puda qədər mahlıc göndərilmişdi. Lakin bu çox çəkmədi. 1915-ci ildən iqtisadi çətinlik özünü büruzə verdi.

Müharibə şəraitində kənd təsərrüfatında təkcə pambıq əkinlərinə üstünlük verilməsi xalq kütlələrinin maddi vəziyyətinə də öz təsirini göstərirdi. Bu, ölkədə müharibənin törətdiyi dağıntı şəraitində pambıqçıların müharibə dövrünün qeyri-sabit bazarından asılılığını gücləndirmiş, pambıqçılıq bölgələrində ərzaq məhsullarının qiymətini yüksəltmiş, pambıqla taxıl istehsalı arasındakı nisbəti pozmuş və taxılla yem məhsullarının balansını pisləşdirmişdi. Türküstanı aclıq təhlükəsi gözləyirdi.

1914-cü ildə mahlıc idxalının azalması hökumət dairələrini təşvişə salmışdı. 1915-ci ilin əvvəlində Ticarət və Sənaye Nazirliyindən Nazirlər Şurasına böyük təlaşla bildirilirdi ki, Amerikadan hər il aldığımız 7 milyon pud mahlıcın arası kəsilmişdi.

1915-ci il iyunun 26-da Nazirlər Şurasında pambıq-parça sənayesini xammalla təchiz etmək üçün xüsusi komitə yaradılması məsələsi müzakirəyə qoyulmuşdu. Az sonra, yəni iyulun 4-də Pambıq Təchizatı Komitəsi yaradılmışdı. Komitəyə 6 nazirliyin /Ticarət və Sənaye, Yollar, Hərbi /intendant/, Torpaq Quruculuğu və Əkinçilik Nazirliyi və b./, həmçinin pambıqtəmizləmə və toxuculuq sənayesi sahibkarlarının nümayəndələri daxil edilmişdilər. Komitə üzvləri arasında Moskva və Kokand birja nümayəndələri də var idi.

Pambıq Təchizatı Komitəsi pambığa sabit dövlət qiyməti qoymaq, xammalı toxuculuq fabrikləri arasında bölüşdürmək və digər işlərlə məşğul olmalı idi.

Qeyd etmək lazımdır ki, sabit dövlət qiymətləri ildə bir neçə dəfə dəyişdirilir və toxuculuq sənayesində ağalıq edən inhisarların mənafeyi nəzərə alınırdı. Ona görə də mahlıcın qiyməti pambıq-parça məmulatı qiymətlərindən çox ucuz idi. 1915-ci ilin avqustunda qəbul edilmiş qərara görə, Fərqanə mahlıcının puduna 24,3 manat qiymət qoyulmuşdu. Sabit dövlət qiymətləri olmasına baxma-

yaraq, iri mahlıc istehsalçıları dolayısı ilə məhsulun pudunu 30-32 manata satırdılar.

Bütün sənaye sahələrində olduğu kimi, bu komitə hökumətin inhisarlarla çulğalaşdığına əyani sübutdur. Pambıq Təchizatı Komitəsi dövlət-inhisarçı kapitalizmin müharibə şəraitində fəaliyyət göstərən mühüm təşkilatlarından biri hesab edilməlidir.

Pambığa norma qoyulmasından ilk növbədə pambıqçılıqla məşğul olan kəndlilər ziyan çəkirdilər. Bu, həm də yerli ticarət-sənaye burjuaziyasının mənafeyinə toxunurdu. Hətta bəzi yerli firmalar pambığı norma üzrə qoyulan qiymətə satmaqdan imtina etmişdilər. Buxara və Xivədə 1916-cı ildə, Mərkəzi Asiyanın digər yerlərində isə 1917-ci ildən pambıq əkini sahələri kəskin surətdə azalmışdı. Digər tərəfdən isə, kənd təsərrüfatı üçün əlverişsiz şərait olan 1916-cı ildə /yazın gecikməsi və soyuq keçməsi, yayın quraqlığı və s./ taxılçılıq və pambıqçılıqda kəskin qıtlıq baş vermişdi. Türküstanda ümumi pambıq toplanışı 1915-ci ilə nisbətən 1916-cı ildə 21 faiz azalmışdı. Digər sənaye sahələrində olduğu kimi, bu sahədə də böhran baş vermişdi.

Zakaspi vilayətində bəzi müəssisələrdə məhsul istehsalının ümumi həcmi aşağı düşmüşdü. 1912-ci ilə nisbətən 1917-ci ildə Çələkən adasında neft hasilatı 10 dəfə azalmışdı. Duz, daş kömür çıxarılması da zəifləmişdi. Mədənlərin xeyli hissəsi bağlanılmışdı. Kustar istehsal da tənəzzülə uğramışdı. Yun və boyaq məhsullarının olmaması nəticəsində xalça istehsalı kəskin şəkildə azalmışdı.

1915-ci ilin ikinci yarısından imperiyada başlayan iqtisadi böhran Rusiyanın milli ucqarlarının da təsərrüfat həyatına təsirini göstərirdi.

İnhisarçı kapitalistlər hərbi sifarişlər əvəzində dövlətdən böyük məbləğdə vəsait alırdılar.

1915-ci ilin avqustundan müvafiq nazirliklərin nəzdində burjuaziyanın fəal iştirakı ilə Türküstan diyarında təşkil edilmiş hərbi-sənaye komitələri iqtisadiyyatın dağılmasının qarşısını ala bilmədi.

Pulun qiymətdən düşdüyü bir şəraitdə müttəfiq ölkələrdən alınan borclar belə böhranı aradan qaldırmadı. Milli ucqarların vəziyyəti daha ağır idi.

1916-cı ilin yayından etibarən isə müsəlmanların cəbhə arxasında işləmək üçün orduya səfərbər edilmələri xalq təsərrüfatında işçi qüvvəsinin çatışmamasına gətirib çıxartmışdı.

Qırğızıstanda kənd təsərrüfatında məhsuldarlığın ən azı iki dəfə aşağı düşməsinin əsas səbəbləri əkin sahələrinin azalması, iri buynuzlu mal-qara və atların cəbhəyə, həmçinin ölkənin mərkəzi rayonlarına göndərilməsi, toxumların keyfiyyətsiz olması və nəhayət, kənd təsərrüfatı avadanlığının çatışmamasından ibarət idi. Müharibədən əvvəlki dövrə nisbətən 1917-ci ildə Qırğızıstanda mal-qaranın sayı iki dəfə azalmışdı.

İqtisadi gerilik sənaye sahəsinə də öz təsirini göstərirdi. Xammal, yanacaq, işçi qüvvəsinin çatışmaması, sənaye avadanlıqlarının sıradan çıxması deyilənlərə misal ola bilər. Kustar istehsal da tənəzzülə uğramışdı. Dağ-mədən sənayesində gerilik mövcud idi. 1914-cüilədək Qırğızıstanın üç iri daş kömür mədəni Türküstan diyarının bütün kömür istehsalının 82,4 faizini verirdi. Birinci dünya müharibəsi illərində burada daş kömür çıxarılması xeyli ixtisara düşmüşdü.

Rusiyada sənaye və kənd təsərrüfatında tənəzzülün güclənməsi eyni zamanda Mərkəzi Asiya və Qazaxıstanın bir müstəmləkə kimi açıqcasına talanmasına gətirib çıxarırdı. 1914-1916-cı illərdə Türküstan diyarından Rusiyaya 41 milyon pud mahlıc, 3 milyon pud çiyid yağı, 229 min pud sabun, 48 min pud ət aparılmışdı. Onu da xüsusi qeyd etmək lazımdır ki, çiyid yağı, gön-dəri məhsulları, tütün və s. dövlətin inhisarında idi. Müharibənin 2 ili ərzində 70 min baş at və 13 min dəvə orduya göndərilmişdi. Bundan əlavə, xeyli miqdarda quru meyvə, balıq, Türkmənistandan qaragül dərisindən tikilmiş papaq, şuba, eləcə də Qırğızıstandan dəri, kürk və s. məhsullar Rusiyaya göndərilirdi.

Rusiyadan Mərkəzi Asiya və Qazaxıstana gətirilən məhsullar getdikcə azalırdı. 1917-ci ildə isə onların göndərilməsi bütünlüklə dayandırılmışdı. 1916-cı ildən ticarət yarmarkaları işləmirdi. 1915-1916-cı illərdə Mərkəzi Asiya və Qazaxıstanı Rusiya ilə birləşdirən, eləcə də yerli dəmiryol xətlərində yüklərin daşınmasında bir sıra çətinliklər yaranmışdı. Dəmir yolları ilə hərbi yüklər birinci yola salındığına görə başqa zəruri məhsullar yerlərdə yığılıb qalırdı.

1916-cı ildə 3000 vaqon çiyidli pambıq Xivə xanlığından aparılmamışdı.

Müharibə Volqaboyu, Sibir və Krımın da iqtisadiyyatına mənfi təsir göstərmişdi. Tatarıstanın fabrik və zavodlarının çoxu cəbhə üçün işləyirdi. Ordunu lazımi məhsullarla təchiz etmək və geyim hazırlamaq üçün Alafuzovun müəssisəsi istehsalı xeyli genişləndirmişdi. Müharibə dövründə Kazan şəhərinin ən iri müəssisəsinə çevrilən Şabanovun dəri fabriki olduqca böyüdülmüşdü. Krestovnikovun zavodu da müharibənin tələbatını ödəmək üçün işləməyə başlamışdı. Müharibə üçün məhsul istehsal edən fabrik və zavodlarda 15-16 min fəhlə çalışırdı.

Müharibə şəraiti həm də kapitalistlər üçün gəlir mənbəyinə çevrilmişdi. Onların müəssisələri dövlət sifarişlərini yerinə yetirdiklərinə görə sahibkarların əldə etdikləri mənfəət də artmaqda idi.

Tatarıstan sənayesinin hərbiləşdirilməsində 1915-ci ildə yaradılmış Kazan hərbi-sənaye komitəsinin böyük rolu olmuş, onun köməyi ilə sahibkarlar əlverişli hərbi sifarişləri yerinə yetirmək üçün müqavilələr bağlamışdılar. Kapitalist Şabanovun dəri zavodunun ümumi gəliri 1915-ci ildə 185 min manat olduğu halda, bu, 1916-cı ildə 817 min manata çatmışdı.

İmperiyanın başqa yerlərində olduğu kimi, Tatarıstanda da sənayenin hərbi sifarişləri yerinə yetirən sahələri inkişaf edirdi. Bütövlükdə isə müharibə Tatarıstan sənayesinə böyük zərbə vurmuşdu. İxtisaslı fəhlə kadrlarının çatışmaması, qadın və uşaq əməyindən istifadə edilməsi müəssisələrdə əmək məhsuldarlığının aşağı düşməsi və buraxılan məhsulun keyfiyyətinin pisləşməsinə səbəb olurdu. Yaşayış üçün zəruri məhsullar istehsal edən müəssisələr istehsalı azaldır və ya bağlanırdı. 1916-cı ildə xammal, yanacaq və işçi qüvvəsinin çatışmaması üzündən Nabokov və Veretennikovun taxtaşalban zavodu, Morozov və Veselovun yarma zavodu işi dayandırmışdı. Cəbhə üçün işləyən bəzi müəssisələr də məhsul istehsalını ixtisar etməyə başlamışdılar. Məsələn, 1917-ci ildə Krestovnikovun stearin-sabun zavodu istehsalı 65 faiz azaltmışdı.

Kənd təsərrüfatında vəziyyət daha pis idi. İldən-ilə əkin sahələri azalır və məhsuldarlıq aşağı düşürdü. Əgər 1913-cü ildə Tatarıstanda 2,3 milyon desyatinə qədər sahədə taxıl və digər bitkilər

əkilmişdisə, müharibə illərində bu, 1,5 milyon desyatinə düşmüşdü. Taxılçılıqda hər desyatinin məhsuldarlığı 59 puddan 30 puda enmişdi. Kənd təsərrüfatı alətləri və iş heyvanı çatışmırdı.

Müharibəyə başqırd və tatar burjuaziyası nümayəndələrinin münasibəti heç də eyni deyildi. 1914-cü il oktyabrın 20-də Orenburq qubernatorunun Daxili İşlər nazirinə göndərdiyi məlumatda bildirilirdi ki, ata-babaları kimi onlar /müsəlman burjuaziyası və ziyalıları/ vətəni müdafiə etmək üçün hər cür fədakarlığa hazırdırlar. Lakin əhalinin böyük əksəriyyəti müharibə əleyhinə idi.

Ümumiyyətlə, Rusiya imperiyasının milli ucqarlarında, mərkəzdə olduğu kimi, bolşeviklər müharibə və çarizmə qarşı mübarizə aparırdılar.

Başqırdıstanda müharibənin ilk ilindən dövlət və digər bəzi müəssisələr hərbi istehsala keçmişdilər. Altı səhmdar cəmiyyətdən yalnız üçü rus kapitalına məxsus idi. Burada İngiltərə, Fransa və Belçikanın səhmdar cəmiyyətləri də fəaliyyət göstərirdilər. 1917-ci ildə Başqırdıstanın dağ-mədən sənayesində fəaliyyət göstərən səhmdar cəmiyyətlərin kapital qoyuluşunda xarici kapitalın xüsusi çəkisi 32 faiz təşkil edirdi.

Dövlətə məxsus üç zavod /Zlatoustovski, Kusinski, Satkinski/ cəbhə üçün işləyirdi. Onlar çuqun, polad, təbəqə dəmir, top mərmiləri, soyuq silah və s. istehsal edirdilər. Əgər 1913-cü ildə bu zavodlar 7,3 milyon manatlıq məhsul istehsal etmişdilərsə, 1915-ci ildə buraxılan məhsulun ümumi dəyəri 15,5 milyon manata çatmışdı.

Müharibə başlanandan az sonra, yəni 1914-cü il avqustun 9-da Hərbi Nazirlikdə general Vernanderin sədrliyi ilə keçirilən idarələrarası müşavirədə qərara alındı ki, imperiyada istehsal edilən, həmçinin idxal olunan metalı hərbi sursat istehsal edən zavodlar arasında bölüşdürmək üçün ayrıca komitə yaradılması lazımdır. Avqustun sonunda Nazirlər Şurası Komitənin tərkibini təsdiq etdi. «Metaltəchiz» adlanan bu komitəyə bir sıra nazirlik və metallurgiya sənayesi üzrə fəaliyyət göstərən inhisarların nümayəndələri daxil edilmişdilər. Müharibənin ilk ilyarımı ərzində hökumət öz başlıca vəzifəsini xaricdən alınan metala güzəştli şərtlərlə valyuta buraxmaqla məhdudlaşdırmışdı. Həm xaricdən alınan və həm də imperiyada istehsal edilən metalın cəbhə üçün işləyən müəssisələr

arasında bölüşdürülməsi dövlət-inhisar təşkilatı olan «Metaltəchiz» komitəsinə həvalə olunmuşdu. 1916-cı ildən başlayaraq metala qoyulan qiymətlərin hökumət tərəfindən «tənzim» edilməsi gecikmiş bir tədbir idi. Bir sözlə, Rusiyada metal satışı bazarının bu kimi inhisar təşkilatları tərəfindən «tənzim»i imperiyanın, eləcə də milli ucqarların xalq təsərrüfatı üçün müsbət nəticə vermədi, əksinə, bu, satış bazarının qeyri-mütəşəkkilliyini bir qədər də artırdı, onun əcnəbi ölkələrin metalından asılılığını daha da gücləndirdi.

1915-ci ildən Nikolski zavodunda minalar hazırlanmasına başlanıldı. Simsk mahalının zavodları Zlatoustovsk zavodu üçün mərmi və səngər qazan alətlər hazırlayırdılar. Müharibə dövründə Simsk, Aşa Balaşevsk, Katav-İvanovsk, Nikolsk, Beloretsk, Uzyansk, İnzersk, Lapıştinsk və Ziqazinsk zavodları çuqun istehsalı ilə məşğul idilər. 1916-cı ildə Nikolsk zavodunda çuqun istehsalı 71 faiz olmuşdu. 1916-cı ildə Beloretsk səhmdar cəmiyyətinin zavodlarında 1914-cü ilə nisbətən hərbi məqsədlər üçün istehsal olunan məftillərin miqdarı 155 faiz artmışdı.

Çuqun istehsalının artmasına baxmayaraq, müharibə dövründə bu zavodların istehsalı 1900-cu il səviyyəsinə çata bilməmişdi. Bununla yanaşı, ümumiyyətlə metallurgiya zavodlarının bir hissəsində çuqun istehsalı xeyli azalmışdı. Digər bir tərəfdən, cəbhə üçün işləməyən müəssisələrdə istehsal kəskin şəkildə aşağı düşmüşdü. Ancaq hərbi məhsul istehsalına keçməklə əlaqədar olaraq, dağmədən, metallurgiya sənayesi müəssisələrində istehsalın genişləndirilməsi zavod sahiblərinə yüksək gəlir gətirirdi. 1913-cü ilə nisbətən 1916-cı ildə Simsk zavodunda prokat istehsalı 249 faiz təşkil etmişdi. Digər sahələrdən fərqli olaraq müharibə dövründə Başqırdıstanda daş kömür çıxarılması xeyli artmışdı. Başqırdıstanın dağ-mədən, metallurgiya sənayesində müharibənin doğurduğu bu canlanma 1916-cı ilin payızına qədər davam etmişdi. Bundan sonra ölkədə baş verən təsərrüfat dağıntısının təsiri altında sənaye məhsullarının azalması, onun texniki təchizatının bərbad vəziyyətə düşməsi prosesi başlamışdı.

Başqırdıstanın sənayesində müharibənin ilk günündən işçi qüvvəsinin kəskin şəkildə çatışmaması özünü göstərmişdi. 1914-1915-ci illərdə Beloretsk səhmdar cəmiyyətinə məxsus zavoddan cəbhəyə

1376 fəhlə çağırılmış, 1750 nəfər isə möhlət almışdı. Sənaye sahələrinə istehsalat təcrübəsi olmayan yeniyetmə və qadınlar gəlirdi. 1916-cı ilin payızında Beloretsk zavodunda qadın, yeniyetmə və xaricilər bütün fəhlələrin 32 faizini təşkil edirdilər.

Başqırdıstanın kənd təsərrüfatında isə əkin sahələri və mal-qaranın sayının azalması, kənd təsərrüfatının maşın və alətlər, mineral gübrələr, keyfiyyətli toxumla təmin olunmaması və s. qabarıq şəkildə özünü göstərirdi. Əkin sahəsinin əsas hissəsi, əvvəldə olduğu kimi, yenə qolçomaq və varlı kəndlilərin əlində idi. 1915-ci ildə Ufa quberniyasında 55 faiz xırda təsərrüfatın 20 faiz əkin sahəsi olduğu halda, 12 faiz iri təsərrüfatın isə 41 faiz əkin fondu var idi. Yoxsulluğun artması həm də kənddə ictimai təbəqələşmənin nəticəsi idi.

İşçi qüvvəsinin cəbhəyə səfərbərliyə alınması və atların müsadirə edilməsi yüzlərlə ailəni başsız qoymuş və qoşqu heyvanından məhrum etmişdi. Tam olmayan məlumata əsasən, 1914-cü ilin iyulundan 1916-cı ilin noyabrına kimi Ufa quberniyasında 296 min nəfər orduya səfərbərliyə alınmış, 25 min başdan çox at isə müsadirə edilmişdi. Təkcə Orenburq quberniyasında 1915-ci ilə nisbətən 1916-cı ildə ümumi taxıl yığımı 58 faiz azalmışdı.

Müharibə dövründə Çuvaşiyada əkin sahələri 21 faiz azalmışdı. 1917-ci ildə burada atı və inəyi olmayan kəndli təsərrüfatları bütün təsərrüfatların 30 faizini təşkil edirdilər.

Rus ordusuna isti paltar hazırlamaq və göndərmək üçün iri sahibkar V.V.Nikiforov Qırmızı Aypara Cəmiyyətinin Yakut şöbəsinin «Özgə xalqdan olan komitə»sini yaratmışdı. Qadın komitəsi və Ordunu isti paltarla təmin etmək üzrə yakut komitəsi də bu işlə məşğul idilər.

Müharibə illərində Krımın əhalisi səksəkəli yaşamışdı. Dəfələrlə əks tərəfin hərbi gəmiləri Krım yarımadasının sahilində görünmüş və hətta yaşayış məntəqələrinə artilleriya atəşi açılmışdı. 1916-cı il aprelin 24-də düşmənin hərbi gəmisi-«Breslau» Yevpatoriyaya 50 mərmi ataraq liman, sanatoriya və şəhərin bir sıra yerlərində dağıntı törətmişdi.

Müharibə başlayandan az sonra Krıma qərb quberniyalarından xeyli sayda qaçqın gəlməyə başlamışdı. Onların yerləşdirilmə və təmin olunmasına qayğı ilə yanaşılmışdı.

Birinci dünya müharibəsi dövründə Krımda olan bolşevik təşkilatları darmadağın edilmiş, fəallar isə həbs olunmuşdu. Çarizmin mövqeyini müharibədə müdafiə edən eser və menşeviklər isə 1917-ci il fevral inqilabına qədər öz kadrlarını qoruyub saxlaya bilmişdilər.

Rusiya imperiyasında çarizmin yeritdiyi millətçilik və ayrıseçkilik siyasəti nəticəsində müsəlmanlar hərbi mükəlləfiyyət daşımırdılar. Çar hökuməti onlara silah verməkdən ehtiyat edirdi. Dinc dövrdə «özgə» xalqların-müsəlmanların orduya səfərbərliyə alınmaması, müharibə illərində isə cəbhə arxası işlərə cəlb edilməsi bu xalqların hərb sənətinə yiyələnməməsi məqsədini güdürdü. Hökumət müharibənin ancaq üçüncü ilində müsəlmanların hərbi mükəlləfiyyət daşıması və cəbhədə işə çağırılması qərarına gəldi. 1915-ci il yanvarın 1-dən «Hərbi vergi haqqında əsasnamə» hərbi mükəlləfiyyət çəkməmiş bütün «özgə» xalqlardan olanlara aid edilmişdi. 1916-cı il iyunun 25-də II Nikolay «Döyüşən ordu rayonunda hərbi nəqliyyat və müdafiə tikintisi quruculuğu, onlara bərabər, dövlətin müdafiəsindən ötrü vacib işlər üçün imperiya əhalisinin özgə xalqdan olan kişilərini cəlb etmək haqqında» qərar imzaladı. Burada 19 yaşından 43 yaşına kimi kişilər nəzərdə tutulurdu. Faktiki olaraq, orduya səfərbərlik 1916-cı ilin payızında başlandı və dekabrında qurtardı.

Birinci dünya müharibəsi Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu, Sibir və Krım əhalisinin iqtisadi vəziyyətini ağırlaşdırmışdı. Müharibənin altıncı günü -1914-cü il 24 iyul tarixli çar fərmanına müvafiq olaraq Türküstan general-qubernatoru iyulun 26-da Türküstan diyarında fövqəladə mühafizə vəziyyəti elan etmişdi. Bu vəziyyət 1916-cı il iyulun 17-nə kimi davam etmişdi.

Ölkənin təsərrüfatına dağıdıcı təsir göstərən müharibə Mərkəzi Asiya, Qazaxıstan,Volqaboyu, Sibir və Krımda sosial-iqtisadi problemləri daha da kəskinləşdirirdi. Əmək qabiliyyəti olan və bəzən də ailənin başçısının müharibəyə getməsi həmin ailələrin ciddi çətinliklərlə qarşılaşmasına səbəb olmuşdu.

Pulun qiymətdən düşməsi, ərzaq məhsulları qıtlığı və çoxişlənən malların qiymətlərinin kəskin şəkildə 3-4 və bəzən daha çox artması təkcə müharibə dövrünün təsərrüfat dağıntısının deyil, həm də sələmçi-tacir və möhtəkirlərin cinayətkar əməllərinin nəticəsi

idi. Türküstan diyarında 1913-cü ilə nisbətən 1916-cı ildə sənaye məhsullarının qiyməti 4 dəfə artmışdı. Əlǝlxüsus Rusiyadan gətirilən malların qiyməti-qənd 250 faizdən çox, paltar 200-300 faiz, ayaqqabı 300-400 faizdən çox bahalaşmışdı. Krımda çörəyin qiyməti 3 dəfə, ətinki 4,5, yağınkı 5, kartofun qiyməti isə 10 dəfə artmışdı. 1914-cü ilin iyunundan 1916-cı ilin iyununa kimi çoxişlənən malların qiyməti Ufada orta hesabla 250 faiz yüksəlmişdi. Əmək haqlarının həcmi ilə ərzaq məhsullarının qiymətləri arasında görünməmiş uyğunsuzluq yaranmışdı. Çoxişlənən, gündəlik tələbat məhsulları tapılmır, möhtəkirlik artırdı. 1916-cı ilin payızında ölkədə, xüsusilə şəhərlərdə yoxsulluq son həddə çatmış, bu isə özünü ən qabarıq şəkildə Bişkekdə göstərmişdi. Əsgər ailələri və imkansızlara edilən cüzi yardım da ardıcıl olaraq verilmirdi.

Türküstana gətirilən taxıl və sənaye malları günbəgün azaldılırdı. 1915-ci ildə tələb olunandan beş dəfə az taxıl gətirilmişdi. 1917-ci ildə isə taxıl və sənaye mallarının gətirilməsi demək olar ki, dayandırılmışdı. Dəmiryol nəqliyyatı zəif işlədiyinə görə müharibə şəraitində qarşıya qoyulan vəzifələr yerinə yetirilmirdi. Ən ağır vəziyyət texniki cəhətdən pis təmin olunmuş Kazan dəmiryol xəttində yaranmışdı. Əsgərlərin və hərbi yüklərin ilk növbədə daşınması ilə əlaqədar olaraq sənaye müəssisələri xammal və yanacaq, əhali isə əsas zəruri məhsullarla təmin olunmurdu. Vaqon və bir çox lazımi alətlərin çatışmaması mal dövriyyəsinin kəskin şəkildə azalmasına səbəb olmuşdu.

Müxtəlif xəstəliklərə tutulduqlarına və yaşlarına görə arxa cəbhədə qalan fəhlələrin müəyyən hissəsi xeyli ticarət-sənaye müəssisələrinin bağlanılması nəticəsində işsiz qalmış, kəndlərdən yoxsulların şəhərə axını, ucuz qadın və uşaq əməyinin artması, hərbi əsir və cəbhəçilərin əməyə cəlb olunması, xüsusilə şaxtalarda, gecə və iş vaxtından artıq işləmək fəhlələrin vəziyyətini daha da ağırlaşdırmışdı.

1916-cı ildən isə şəhər və fəhlə qəsəbələrində əsas ərzaq məhsulları kartoçka sistemi ilə verilirdi. Başqırdıstanda əksər ərzaq məhsulları-un, qənd, duz və s. kartoçka sistemi ilə ödənilirdi. Əlbəttə, bu heç də mövcud çətinliklərin qarşısının alınmasına kömək edə bilməzdi. Tibbi və sosial xidmət olduqca aşağı səviyyədə idi.

Türküstan diyarında arxa cəbhədə çalışan fəhlələr əslində dözülməz şəraitdə işləyir və yaşayırdılar. Belə bir ağır vəziyyətdə yoxsul kənd və şəhər əhalisi üzərinə birbaşa və dolayı yolla qoyulan vergilər də artırılırdı. Əlavə olaraq, əhalidən yeni pul və natural vergi alınırdı. Türküstan diyarında müharibəyə qədər də vergi və mükəlləfiyyətlər ağır idi. 1915-ci il yanvarın 1-dən hərbi vergi adı ilə hərbi mükəlləfiyyət əvəzinə yerli əhalinin bütün birbaşa gəlirinə əlavə olaraq 21 faiz vergi qoyulmuşdu. Müharibə dövründə Qırğızıstanda hər alaçığa vergi 8 manata çatmışdı. 1915-ci il yanvarın 1-dən isə bu məbləğə 1 manat 84 qəpik hərbi vergi də əlavə olunmuşdu. Qırğız və digər yerli əhalinin son qəpik-quruşu hərbi mükəlləfiyyət əvəzində alınırdı. Qazaxıstanda isə yeni hərbi vergi hər bir alaçığın 4 manat verməsi ilə müəyyən edilmişdi. Kəndlilərdən alınan müxtəlif vergilər getdikcə artırılırdı. Var-yoxdan çıxmış kəndlilər bütün artan vergiləri ödəmək imkanına malik deyildilər. İldən-ilə kəndlilərin xeyli vergi borcları yığılıb qalırdı.

Müharibə dövründə müəyyən qrup şəxslər də varlanırdılar. Kəndli təsərrüfatının var-yoxdan çıxması prosesi güclənirdi. Borcu olan təsərrüfatlar xüsusilə ağır vəziyyətə düşürdü. Hakimiyyət orqanları etiraf edirdilər ki, yerlilər borc əvəzinə çox halda torpaq mülkiyyəti və alətlərdən başqa hər şeyi satırdılar.

Bu dövrdə əhalinin ən çox narazılığına səbəb olan xalq arasında çox da kütləvi olmayan hərbi istiqrazların yayılması və müharibəni «qələbə ilə sona çatdırmaq» naminə tez-tez pul və əşya ianəsi toplamaq idi. Müharibənin başlanılmasından fevral inqilabına qədərki dövrdə ölkədə məcburi qaydada 8 milyard manat məbləğində istiqraz əhaliyə satılmışdı. Qırğızıstanda ordu və dəniz donanmasına, həmçinin yaralı və əlil hərbçilərə, Qırmızı Aypara və s. kömək üçün hər bir qırğız ailəsindən mal-qara, məhsul və müxtəlif əşyalarla yanaşı, 30 qəpikdən 2 manata qədər pul ianəsi toplanılırdı. Lakin toplanılan vəsaitin heç də hamısı lazımi ünvanlara çatdırılmırdı.

Beləliklə, Birinci dünya müharibəsi dövründə, bütün ölkədə olduğu kimi, milli ucqarlarda da əhalinin müflisləşməsi və ehtiyacın daha kəskin şəkildə artması sosial-iqtisadi ziddiyyətləri kəskinləşdirirdi. Eyni zamanda iqtisadi və siyasi narazılıqlar ictimai-siyasi mübarizənin təhlükəli xarakter alacağından xəbər verirdi.

1915-ci ilin ikinci və 1916-cı ilin birinci yarısında Türküstan regionunda inqilabi böhranın əlamətləri üzə çıxmaqda idi. Yerli hakimiyyət müharibə başlayandan bölgədə sakitliyi qorumaq üçün hər cür tədbir görürdü. Türküstan general-qubernatorunun 1914-cü il 9 avqust tarixli xüsusi sərəncamında qubernatorlara bildirilirdi ki, düşmənçilik ifadə edən ən kiçik çıxışlar da hər cür vasitələrlə yatırdılmalıdır.

Türküstan diyarında mövcud hadisələr mürəkkəb daxili və xarici siyasət şəraitində baş verirdi. Rusiya Türkiyə ilə müharibəyə başlayarkən İran və Əfqanıstanla sərhədlərinin zəif qorunmasından və bu ölkələrlə münasibətdə ciddi çətinliklər yaranacağından ehtiyat edirdi. O, hər şeydən əvvəl Türküstanda ümumi «müsəlman üsyanının» qalxacağından qorxurdu. Digər tərəfdən isə, Almaniya və Türkiyənin hərbi ittifaqda olması Rusiyanı Mərkəzi Asiyadan sıxışdırıb çıxaracağını yazırdılar. Onlar Mərkəzi Asiyadakı feodal təbəqələri və millətçi-burjua qrupları ilə birləşərək «rus qayda-qanununa» qarşı narazılığı qızışdırır, panislamizm və pantürkizmin güclənməsinə təsir edirdilər. Panislamistlər təbliğat aparırdılar ki, «Rusiya müharibədə uduzur», «Rusiya dövlətinin mövcudluğunun sonu çatmışdır», «Almaniya müsəlmanları azad edəcəkdir», «Hazırkı əlverişli şəraitdən istifadə edib Rusiyanın hökmranlığından azad olmaq tədbirləri görmək lazımdır», «Ruslara qarşı müqəddəs müharibə» və Türkiyəyə kömək etmək üçün pul toplamaq çağırışı geniş yayılmışdı.

Lakin məlum olduğu kimi, müəyyən tarixi dövrlərdə Rusiya imperiyasının müstəmləkəsi olan türk ölkələrinə panislamizm və pantürkizm yarlığını yapışdırmaqla bu ölkələrdə yaşayan xalqları öz dil və din qardaşlarına qarşı qoymaq, onların arasında birliyin yaranmasına yol verməmək və ya öz məqsədlərini həyata keçirmək üçün bu üsuldan istifadə etmək halları mövcud olmuşdur.

Əslində bu xalqlar arasında panislamizm və pantürkizmin yayılması üçün heç bir əsas olmamışdır. Çar idarələrinin rəsmi nümayəndələri bildirirdilər ki, yerli əhalidə «ruslara qarşı münasibətdə heç bir düşmənçilik hərəkətlərinə yol verilməməsi» göstərir ki, «xalq kütlələrində panislamist meyl olmamışdır». Daha sonra qeyd edilirdi ki, panislamist və pantürkistlər öz fəaliyyətlərini gücləndirmələrinə baxmayaraq, onlar Rusiyaya qarşı açıq çıxış etməyəcəklər.

Türküstan diyarının xalqları öz qanuni hüquqlarını müdafiə etmək uğrunda mübarizəyə başlamışdılar. 1915-ci ilin ikinci yarısından Mərkəzi Asiya və Qazaxıstan, Tatarıstan, Başqırdıstanın şəhər və kəndlərində «dövlət qanunları və ictimai asayişin pozulması» halları, ərzaq «iğtişaşları», iqtisadi xarakter daşıyan tətillər başlamışdı. Bəzi yerlərdə əsas iştirakçıları qadınlar olan ərzaq qiyamları baş vermişdi. 1916-cı il fevralın 29-dan martın 1-nə kimi Daşkənddə qadınlar Hərbi xəstəxana bazarındakı tacirlərin dükanlarını dağıtmışdılar. Qiyam edən qadınlardan 60-a qədəri həbs olunmuşdu.

1915 və 1916-cı ilin əvvəllərindən Türkmənistanın Çələkən adasında rus və iranlı neftçi fəhlələrin, Mərkəzi Asiya dəmiryolunun Daşkənd baş emalatxanasının, Tatarıstanda Alafuzovun zavodundakı fəhlələrin tətilləri iqtisadi xarakter daşıyırdı. Bahalığın artması ilə əlaqədar olaraq 1915-ci ilin fevralından iyuluna kimi Uralın 29 zavod və mədənində 7500-dən çox fəhlə çıxış etmişdi.

Müharibəni texnika hesabına deyil, canlı qüvvələrin sayına görə aparan Rusiya kütləvi və nizamsız səfərbərlik apardığına görə, cəbhədə də işçi qüvvəsinə çox böyük ehtiyac duyulurdu.

Hakimiyyət dairələri hərbi xidmətə cəlb olunmamış Şərq bölgələrinə daha tez-tez müraciət edirdilər. Dövlət duması daim «özgə xalqdan olan əhalini» cəbhəyə kömək etmək üçün səfərbərliyə almağı tələb edirdi.

1916-cı il iyunun 25-də qazax, qırğız, özbək, türkmən, uyğur və başqa xalqların arxa cəbhədə işləmələri üçün orduya səfərbərliyi haqqında çarın verdiyi fərmanda «səfərbərlik» əvəzinə «müsadirə» yazılmışdı. Buradan da belə anlaşılırdı ki, söhbət elə bil adamların orduya çağırışından deyil, mal-qara və ya canlı inventardan cəbhə işində istifadədən gedirdi. Bu qərar Mərkəzi Asiya və Qazaxıstanda üsyanın başlanmasına səbəb olmuşdu.

Türküstan diyarından arxa cəbhəyə 250 min adam səfərbərliyə alınmalı idi. Səfərbərliyi keçirməyə hazırlıq zamanı yerli əhalinin adət-ənənəsi və təsərrüfat mənafeyi tamamilə nəzərə alınmamışdı. Çar məmurları müsadirə əleyhinə çıxış üçün heç bir əsas olmadığını düşünürdülər.

1916-cı il iyulun 2-3-də qubernatorların Daşkənddə çağırılmış iclasında səfərbərliyin keçirilməsi praktik olaraq yerli orqanlara həvalə olunmuşdu.

Çarın səfərbərliklə əlaqədar olaraq verdiyi fərmana əlavədə regiondakı «hörmətli vətəndaşlar» və hakimiyyətdə olanlar arxa cəbhə işlərinə səfərbərlikdən azad edilmişdilər. Göstəriş verilmişdi ki, «hər bir yerli sakin başqa şəxsi öz əvəzinə bu işə göndərə bilərdi». Bundan istifadə edən imkanlı adamlar asanlıqla özlərini çağırışdan azad etdirirdilər. Bununla da cəbhədə işləmək üçün muzdla tutulmuş kasıblarla xeyli müqavilələr bağlanılmışdı.

Bütün bunlar çar və yerli hakimiyyət orqanlarına qarşı xalqın nifrətini daha da artırırdı. 1916-cı il iyulun 4-də Türküstan diyarının Xocənt şəhərində səfərbərlik əleyhinə əvvəlcə iğtişaş, sonra da nümayiş başladı. Əksəriyyəti qadın və gənclərdən ibarət olan nümayişdə 3000 nəfər adam iştirak edirdi. Yerli hakimiyyət fəhlələrin «müsadirə» olunacaqlarının davam etdiriləcəyini bildirmişdi. Polisin köməyinə çağırılmış qoşunun nümayişçilərə açdığı atəş nəticəsində 2 nəfər öldürülmüş və 30 nəfər yaralanmışdı.

İyulun 6-dan 11-nə kimi Özbəkistanın iki mühüm mərkəzində-Daşkənd və Səmərqənddə gərgin vəziyyət yaranmışdı. İyulun 11-də üsyançıların köhnə Daşkənddəki nümayişini şəhər polis rəisi Kolesnikov və ona kömək edən Moçalovun dəstələri yatıra bilmədilər. Türküstanın hakim dairələri köhnə şəhərdə təhlükəli vəziyyət yarandığına görə üsyançılara qarşı hərbi qüvvə göndərdi. Cəza dəstələrinə ümumi komandanlıq podpolkovnik Savitskiyə tapşırılmışdı. Şəhər başçısı və qubernator general Qalkin də hadisə yerinə gəlmişdi. Hökumətin «nüfuzlu» Arifxoca bəy vasitəsi ilə xalqı sakitləşdirmək cəhdi də nəticəsiz qaldı. Üsyanı yatırmaq üçün göndərilmiş qüvvələrlə üsyançılar arasında baş vermiş toqquşmada 11 nəfər ölən və 15 nəfər yaralanan olmuşdu. Cəza dəstələrindən 1 nəfər ölən, 7 nəfər isə yaralanan var idi. Sakitlik olmasa da, «müsadirə» haqqında elan pozulmuşdu.

1916-cı il iyulun ortalarında Türküstan general-qubernatorluğuna daxil olan Özbəkistan və Tacikistanın, demək olar ki, bütün bölgələrini üsyan bürümüşdü. Daşkənd qəzasının 11, Fərqanə vilayətinin 29, Səmərqənd vilayətinin 24 nahiyəsində iri çıxışlar baş vermişdi. 1916-cı ilin iyul hərəkatı əvvəldən kütləvi xarakter daşıyırdı.

Səmərqənd vilayətinin yerli idarə orqanlarının verdiyi məlumata görə, xalq hərəkatının təsiri nəticəsində yerlərdə vəzifəli şəxslərin bir

qismi hakimiyyətin tələbləri və rəhbərliyin tövsiyələrini həyata keçirməyə çalışır, digərləri isə görülən işlərə, həmçinin fəhlələrin toplanılmasına passiv də olsa maneçilik göstərmək istəyirdilər.

Milli burjuaziyanın müəyyən hissəsi inqilabi hərəkatın genişlənməsindən qorxuya düşərək çarizmin siyasətini müdafiə edirdi. Fəhlələrin cəbhədə işə cəlb edilməsinin böyük maddi ziyan vuracağını dərk edən milli burjuaziyanın digər bir qismi açıq şəkildə bunun əleyhinə çıxış etmək deyil, çar idarələrinə yazdıqları ərizədə kənd təsərrüfatı işləri mövsümünün qurtarmasına qədər çağırışı dayandırmaq və çağırışçıların sayının azaldılmasını xahiş edirdi.

Eyni zamanda milli burjuaziyanın bəzi nümayəndələri Rusiyanın əleyhinə təbliğatı genişləndirərək, Türküstan diyarından rusların çıxıb getmələrini bildirirdilər. Onlar xalq hərəkatına qoşulmaqla xan, mülkədar və din xadimlərinin mövqeyini möhkəmləndirməyə çalışırdılar. Səmərqənd vilayətinin Cizak qəzasında buna nail olunmuşdu. Özbəkistanda baş verən çıxışların təsiri altında burada kortəbii xalq hərəkatı-Cizak üsyanı başlanmışdı. İyulun 13-dən 15-dək davam edən üsyan Cizak şəhəri və qəzanın 20 nahiyəsindən 15-ni bürümüşdü.

Xalq kütlələri yerli çar idarə orqanlarının dəftərxana, ev və bağlarını dağıtmışdılar. Yerli hakimiyyətin 9 nümayəndəsi öldürülmüşdü. Cizak qəzasının Boqdan, Sanzar, Cizak, Zaamin və Karataş kimi iri yaşayış məntəqələrində yerli feodallar hakimiyyəti ələ alaraq Rusiyaya qarşı «müqəddəs müharibə» elan etmişdilər. Bununla da, yerli feodal və bəylər müvəqqəti olaraq Boqdan kəndini üsyanın ümumi mərkəzinə çevirmişdilər.

1916-cı il iyulun 14-də «nüfuzlu şəxslərin» iclasında Əbdürrəhman Xoca Abducabarov Cevaçi başda olmaqla «müstəqil xanlıq» yaradılmışdı. Cevaçi partiyası qəzanın bütün əhalisini öz rəhbərliyi altında birləşdirmək üçün hər cür tədbir görür, kişiləri isə «müqəddəs müharibə»yə cəlb etməyə cəhd göstərirdi. Lakin bu hərəkatın başçıları üsyanın vahid mərkəzdən idarə olunmasına və xalqı «müqəddəs müharibə»yə qaldırmağa nail ola bilmədilər. Bir çox qəzalarda müharibəyə, çarizmə və onun idarə sisteminə qarşı çevrilmiş xalq üsyanları kortəbii xarakter daşıdığından müvəffəqiyyətsizliyə uğradı.

Özbəkistanın əksər rayonlarında 1916-cı il üsyanı xalq azadlıq hərəkatına çevrilmişdi. Türküstan diyarının əsas pambıqçılıq bölgələrindəki xalqın çıxış və üsyanları müstəmləkə idarə üsulunun başlanmış böhranını gücləndirirdi. Fərqanənin hakimiyyət orqanları, ümumiyyətlə, vilayətin idarə oluna bilməyəcəyindən ehtiyat edirdilər. İyulun 16-da Fərqanə vilayətinin general-qubernatoru Qippius vilayətdə arxa cəbhə işlərinə kişiləri səfərbərliyə almaq haqqında çarın fərmanının ləğv olunmasını elan etmişdi. O, vilayətin şəhərlərinə gedərək «nüfuzlu» şəxslərin iştirakı ilə keçirilən iclaslarda bu barədə xalqa məlumat verirdi.

Amma Türküstan rəhbərlərinin əksəriyyəti hərəkatı silah gücü ilə yatırmağın tərəfdarı kimi qalırdı. Yerli əhalinin ruslara qarşı üsyanının baş verəcəyi haqqında da şayiələr yayılmışdı. Lakin nə cəza dəstələri, nə repressiyalar, nə də bəyannamə və «nüfuzlu» şəxslərin adamları dilə tutmaları səfərbərlik əleyhinə xalqın kütləvi müqavimətini qıra bilmədi. Səfərbərliklə əlaqədar olaraq başlanan hər bir cəhd uğursuzluq, yeni həyəcan və üsyanla nəticələnirdi. İyulun 4-17 arasında birinci həyəcanlardan sonra 22-30 iyulda xalqın yeni çıxışları başlandı.

Nəhayət, rus burjuaziyası başa düşdü ki, ucqarlarda fəhlələrin və digərlərin səfərbərliyinin keçirilməsi ancaq vəziyyətin gərginləşməsini gücləndirir.

Dövlət dumasında kişilərin səfərbərliyini müvəqqəti olaraq dayandırmaq haqqında və daha «əlverişli» yeni çağırışın metod və şərtlərini hazırlamaq məsələsi müzakirəyə qoyulmuşdu. 1916-cı il iyulun 24-də Dövlət dumasının üzvü eser Kerenski Dumanın adından Ali Baş Komandanlığın Qərargah rəisi general Alekseyevə göndərdiyi teleqramda pambıq yığımı mövsümü qurtarana qədər çağırışı dayandırmaq göstərilirdi. 1916-cı il iyulun 30-da Baş Qərargahın iclasında ucqarlarda cəbhədə işləmək üçün kişilərin səfərbərliyə alınmasını sentyabrın 15-nə kimi dayandırmaq qərara alınmışdı.

Lakin 1916-cı ilin avqustunda Özbəkistanda yeni həyəcanlar başlandı. Sentyabr-oktyabr aylarında üsyan hazırkı Qazaxıstan, Qırğızıstan və Türkmənistanın əksər bölgələrini bürümüşdü. Mərkəzi Asiya və Qazaxıstanda xalqların milli-azadlıq mübarizəsi Birinci dünya müharibəsinin qızğın çağında, Rusiyada inqilabi böhra-

nın yetişdiyi dövrdə genişlənməkdə idi. Üsyan Qazaxıstanın bütün vilayətlərində eyni vaxtda başlamış, ələlxüsus Semireçyedə kütləvi və kəskin xarakter almışdı. Semireçyedə üsyanın başçılarından biri olan Tokaş Bokin çarın mühafizə dəstələri tərəfindən həbs edilərək fevral inqilabına kimi həbsdə saxlanılmışdı. Millətlərarası toqquşma nəticəsində yerli əhalidən və ruslardan onlarla adam öldürülmüşdü.

Mərkəzi Asiya və Qazaxıstanda Rusiyanın əleyhinə bir çox xarici ölkələrin nümayəndələri də bəzi yerli hakim qüvvələrlə birgə iş aparırdılar. Semireçye düşərgəsinin hərbi məhbusları və Qaşqardakı alman konsulu ilə geniş əlaqə saxlayan Zinqer kompaniyasının anbar müdiri alman casusu Yermiş fəaliyyət göstərirdi. Semireçye qubernatoru Falbaum və Kuropatkinin köməkçisi Fluqun alman casusu olması aşkar edilmişdi.

Çarizmin milli-müstəmləkə siyasəti və yerli hakim qüvvələrə qarşı mübarizə Turqay vilayətində daha uzun çəkmiş və ciddi xarakter almışdı. Qazaxıstanın şimalında-Turqay vilayətində baş vermiş milli-azadlıq hərəkatına Amangəldi İmanov başçılıq etmişdi. Burada üsyan qazaxların cəbhədə işləməyə çağırışı haqqında çarın əmrinin 1916-cı il iyunun 28-də alınmasından sonra başlanmışdı. Amangəldi İmanovun başçılığı altında Kustanay, Aktyubinsk, Atbasar və başqa qəzaların çağırış yaşına çatmış gəncləri birləşmişdilər. Qazax hərbi dairəsinin komandanı general Sandetski 1916-cı il 26 noyabr tarixli məlumatında bildirirdi ki, üsyanda 50 min qazax iştirak edirdi. İstər canlı qüvvə, istərsə də silah cəhətdən rus ordusundan az olmasına baxmayaraq, Amangəldi İmanovun dəstələri müvəffəqiyyətli döyüş aparırdı. 1917-ci il fevralın 24-də qanlı döyüşdən sonra Batpakkarın çar qoşunları tərəfindən alınması ilə Amangəldinin dəstələri döyüşə-döyüşə geriyə-boş səhraya doğru çəkilirdilər.

Bu hadisədən bir neçə gün sonra Petroqradda baş vermiş fevral inqilabı haqqında xəbər Qazaxıstana da yayılmışdı. Qazaxıstandakı bu hərəkat milli-azadlıq və müstəmləkəçilik əleyhinə mübarizə xarakteri daşımışdı.

Cəbhəyə birinci səfərbərlik baş tutmadığından 1916-cı ilin avqustunda çar üsul-idarəsi daha əlverişli şərtlərlə arxa cəbhə işlərinə yeni səfərbərlik elan etməyə məcbur oldu. Türküstan general-

qubernatorunun əmrinə əsasən diyar üzrə cəbhəyə çağırılan adamların ümumi sayı 250 mindən 200 min nəfərə qədər azaldılmışdı. Əmrə əsasən müəyyən güzəştlər edilirdi.

1916-cı il sentyabrın 18-də cəbhədə işləməyə səfərbərliyə alınanları aparan ilk eşalon yola salınmışdı. Altı ay ərzində 123 min nəfər adam toplanmış və onun 113 min nəfəri Rusiyanın Avropa hissəsinə göndərilmişdi. Onların bir hissəsi cəbhə sahəsinə, əsasən isə dəmiryol xətlərində, şaxtalarda, mədənlərdə, eləcə də Petroqrad, Moskva, Belorusiya, Ukrayna və Qafqazın müəssisələrində yerləşdirilmişdi. Cəbhədə işləməyə aparılanların amansızcasına istismar edilməsi onların müqavimətinə və bəzən də iş yerlərindən qaçıb getmələrinə səbəb olurdu.

1916-cı il noyabrın əvvəllərində Cənubi Qafqazın mis mədənlərində /Yelizavetpol /Gəncə/ quberniyasının Zəngəzur qəzasında/ 600 nəfər işləyən fəhlə tətil etmişdi. Noyabrın 10-da Qara dəniz dəmiryolu xəttində tunel qazan 200 nəfər fəhlə işləməkdən imtina edərək icazəsiz çıxıb getmişdi. Sonrakı aylarda Moskva, Petroqrad və Kiyevdə də bu kimi tətillər baş vermişdi.

Mərkəzi Asiya və Qazaxıstanda 1916-cı ildə baş vermiş üsyanlar 1917-ci ilin əvvəllərində çarizmin cəza dəstələri tərəfindən amansızcasına yatırıldı. Sərhəd ərazilərdən Mərv, Kuşk və Termezdən üsyanın baş verdiyi bölgələrə gətirilən ordu hissələrinin köməyilə xalqın həyəcan və üsyanları boğulurdu. Səmərqənd vilayətinin Cizak və başqa qəzalarında yerli əhalidən xeyli torpaq sahəsi alınmışdı. Türküstan diyarında məhkəmənin hökmünə görə 347 nəfərə ölüm cəzası kəsilmiş, 168 nəfər sürgünə göndərilmiş və 129 nəfər isə 10-20 il müddətinə həbs cəzasına məhkum edilmişdi.

Birinci dünya müharibəsi əleyhinə çıxışlar Rusiyanın milli ucqarlarının digər bölgələrində də baş verirdi. 1916-cı ildə Tatarıstanda Kazan tələbələri, Çuvaşiyanın fəhlə, əsgər və kəndlilərinin etiraz çıxışları müharibə əleyhinə çevrilmişdi.

Mütləqiyyət, müharibə, yerli və hərbi-müstəmləkə idarə sisteminə qarşı çevrilmiş və müəyyən proqramı, aydın siyasi tələbi olmayan, heç bir hazırlıq olmadan başlanan bu kortəbii üsyanlar məğlubiyyətlə nəticələndi.

1916-cı ildə Mərkəzi Asiya və Qazaxıstanda baş vermiş üsyan Rusiyada Birinci dünya müharibəsinin törətdiyi inqilabi böhranın

güclənməsinə təsir etmişdi. Geniş xalq kütlələrinin iştirakı bu üsyanların xarakterik cəhətlərindən biri idi.

Beləliklə, müharibənin bütün ağırlığı Rusiya imperiyasının xalqlarının, eləcə də türk xalqlarının üzərinə düşürdü. İqtisadiyyatın dağılması, xalqın maddi rifah halının pisləşməsi, müharibə əleyhinə narazılığın artması getdikcə daha geniş miqyas alırdı.

## § 2. MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN FEVRAL İNQİLABINDAN SONRA

Rusiyanın Birinci dünya müharibəsində iştirakı ona uğur gətirmədi. Müharibənin törətdiyi təsərrüfat dağınıqlığının dərinləşməsi, ictimai hərəkatın güclənməsi, orduda müharibəyə qarşı etirazlar Rusiyanın inqilabi böhrana mübtəla olduğunu göstərirdi. Əhalinin müflisləşməsi və amansızcasına istismar edilməsi, xalqların hüquqsuzluğu, mütləqiyyətin mövcudluğu, ölkədə demokratik azadlıqların olmaması siyasi və iqtisadi vəziyyəti pisləşdirmişdi.

1917-ci ilin əvvəllərində Türküstanda da sosial-iqtisadi və siyasi vəziyyət ağır idi. Müharibənin uzanması təsərrüfata mənfi təsir göstərirdi. Əhalinin güzəranı ağırlaşırdı. Müharibədən əvvəl Özbəkistana gətirilən taxılla qidalanan əhalinin vəziyyəti getdikcə dözülməz olurdu. İstər mərkəzdə və cəbhədə, istərsə də milli ucqarlarda əhalinin müharibə və çarizmə qarşı mübarizəsi güclənirdi.

1916-cı ilin axırı və 1917-ci ilin əvvəlində Rusiyada inqilabi hadisələr böyük vüsət almışdı. 1917-ci il fevralın 27-də Petroqradda inqilabın qələbəsindən sonra iki hakimiyyət-Müvəqqəti hökumət və fəhlə-əsgər deputatları Sovetləri yaradılmışdı. Türküstanda fevral inqilabı kapitalizmə qədərki münasibətlər və milli zülmün mövcud olması şəraitində baş vermişdi.

1917-ci ilin yanvarında Türküstanın əhalisi 7 milyona yaxın idi ki, bunun da çox hissəsi kənd təsərrüfatında çalışırdı. Əhalinin 25 faizindən çoxu köçəri maldarlıqla məşğul olurdu. Çarizm Türküstanı kənd təsərrüfatı məhsulları ixrac edən bölgə kimi saxlayırdı. Ümumi gerilik və sənaye fəhlələrinin azlığı güclü sosial-

demokrat təşkilatının yaranmamasının əsas səbəbi idi. Ümumiyyətlə, hələ də burada inqilabi işlə məşğul olanlar çox az idilər. Müxtəlif bölgələrdə, xüsusilə milli ucqarlarda inqilabi hərəkat zəif və bəzi gecikmələrlə müşayiət edilirdi. Eyni zamanda əhali hələ də Müvəqqəti hökumətin siyasi hüquq və azadlıq verəcəyinə ümid edirdi.

Petroqradda mütləqiyyətin devrildiyi xəbərini Türküstan general-qubernatoru A.N.Kuropatkinin gizlətmək cəhdinə baxmayaraq, iki gün sonra Daşkənddə bu hadisə ilə bağlı xəbər yayılmışdı. Şəhər və kəndlərdə kütləvi mitinq və nümayişlər təşkil edilirdi. Müxtəlif ictimai təşkilat və ittifaqlar yaradılmağa başlanmışdı. Əhali düşünürdü ki, çar hökumətinin yıxılması milli-müstəmləkə zülmü və özbaşınalığa son qoyacaqdır. Bu dövrdə Türküstanın şəhərlərində fəhlə və əsgər deputatları Sovetləri yaradılırdı. Martın 2-də çağırılmış dəmiryolçuların yığıncağında ilk dəfə olaraq Daşkənddə fəhlə deputatları Sovetləri təsis edildi. Daşkənd Sovetinə 12 nəfər deputat seçilmişdi. Martın 3-də şəhərin sənaye müəssisələrindən seçilmiş deputatlardan Mərkəzi Asiyada ilk fəhlə deputatları Soveti yaradılmışdı. Daşkənd Sovetinin sədri menşeviklərdən İ.İ.Belkov, müavini isə bolşevik A.Y.Perşin seçilmişdi. Martın 5-də menşevik və eserlər tərəfindən rəhbərlik edilən Daşkənd əsgər deputatları Soveti də seçilmişdi. Bundan sonra Türküstan diyarının başqa şəhərlərində Sovetlər yaranmağa başlamışdı. Əndican, Səmərqənd, Fərqanə vilayətinin şəhərlərində fəhlə və əsgər deputatları Sovetləri təşkil edilirdi. 1917-ci il martın əvvəllərində Daşkənddə yenidən sosial-demokrat qrupu, Səmərqənddə isə birləşmiş sosial-demokrat təşkilatı yaradılmışdı.

1917-ci ilin mart-aprel aylarında Qazaxıstanda yaradılmış 25 Sovetdən 8-i fəhlə, 9-u kəndli və 7-si əsgər deputatları Soveti idi.

1917-ci il martın 7-8-də Daşkənddə həkim, qulluqçu və inşaatçıların həmkarlar ittifaqları, bir qədər gec isə dəmiryolu fəhlələri, pambıqtəmizləmə müəssisələri və tramvay işçilərinin birləşmiş həmkarlar ittifaqı yaradıldı. Yerli əhalidən olan fəhlələrin birləşmiş həmkarlar ittifaqları təşkil edildi. Daşkənddə aprel ayında Müsəlman əsgər və fəhlələrin cəmiyyəti yaradılmışdı. Cəmiyyətin nizamnaməsində göstərilirdi ki, onun yaradılmasında məqsəd əsgər və fəhlələrin siyasi dünyagörüşünün artırılması, yerli müsəlmanlar

arasında demokratik ideyaların yayılmasında əsgər və fəhlə deputatları Sovetinə kömək etmək idi. Buna görə də Cəmiyyət mühazirələr təşkil edir, əsərləri səhnələşdirir, klub, kitabxana və «təbliğatçılar qrupu» yaradırdı. Bunların nizamnaməsi Daşkənd Soveti tərəfindən təsdiq edilmişdi.

Fevral inqilabından sonra Türküstanın şəhərlərində - Səmərqənd, Kokand, Əndican və s. yaranan sosial-demokrat təşkilatları Müvəqqəti hökuməti müdafiə etmək siyasətinə qarşı çıxırdılar. Ümumiyyətlə, Türküstan sosial-demokratları metropoliyada-mərkəzdəki həmkarlarının siyasətini dəstəkləyirdilər.

Rus və yerli milli burjuaziya xalqı yeni hökuməti, «hər şeydən əvvəl sakitlik və qanun-qaydanı» müdafiə etməyə çağırırdı. Martın 3-də «Türküstan kuryeri» qəzetində göstərilirdi ki, diyarda çar məmurları öz yerlərində qalmalıdırlar. «Çevriliş ancaq nazirlər kabinetinə məxsusdur». Martın 4-də şəhər rəhbərliyinin Daşkənd əhalisinə tam sakitliyə riayət etməyə aid nəşr olunmuş müraciətində işi dayandırmamaq, müdafiə və ərzaq məsələlərinə diqqəti artırmaq bildirilirdi. 1917-ci il martın 5-də Daşkənd qarnizonu qoşunlarının paradında «yerli nümayəndələrə» təbrik cavabında Türküstan general-qubernatoru A.N.Kuropatkin demişdi ki, «indi tabe olacağımız yeni və möhkəm dövlət yaranmışdır». Yeni hökuməti dəstəkləməyi çar zabitləri və pravoslav din xadimləri də müdafiə edirdilər. General-qubernator Müvəqqəti hökumətin varlı əhalini müdafiə etməsi və knyaz Lvovun isə onu hakimiyyətdən uzaqlaşdırmaq fikrində olmadığını əmin etdikdən sonra bütün yeni quruluşu və hökumətin tərkibini qanuni hesab edərək diyarda özünün yeni hökumətin nümayəndəsi olacağını bildirmişdi. A.N.Kuropatkinin general-qubernator kimi Müvəqqəti hökumətin sərəncamı ilə öz işində qalması yeni dövlətin nümayəndəsinin 13 mart tarixli teleqramında göstərilmişdi.

Mart ayının ikinci yarısında general-qubernator inzibati idarəetmə sahəsində bir sıra dəyişikliklər keçirmək üçün sərəncamlar vermişdi. Yerli əhali və ruslardan eyni sayda seçilməklə seçkili şəhər duması yaratmağa icazə verilirdi. Jandarm-polis orqanı və mühafizə ləğv edilərək əvəzində milis yaradılması qərara alınmışdı. Müxtəlif cəmiyyət və ittifaqlardan şəhər, qəza və mahallarda seçkili ərzaq komitələri yaradılmasına icazə verilmişdi.

İnqilabın ilk günlərindən Müvəqqəti hökumətin yerlərdə müxtəlif orqanları-«İctimai Komitə», «İcraiyyə Komitəsi» yaradılmışdı. Martın 6-da Daşkənd burjuaziyasının təklifi ilə şəhər duması ictimai təşkilatların iclasını çağıraraq 19 nəfərdən ibarət Daşkənd Müvəqqəti icraiyyə komitəsinin yaradıldığını bildirmişdi. Komitənin tərkibi burjua ziyalıları və məmurlardan ibarət idi. Səmərqənddə tərkibi vəkil, məmur, zabit, bəy və başqalarından ibarət olan İctimai təhlükəsizliyin icra komitəsi yaradılmışdı. Xalqın təkidi ilə bir çox köhnə məmurları A.N.Kuropatkin dəyişdirməyə məcbur olmuşdu. Əlbəttə, bu kimi kosmetik dəyişikliklər köhnə dövlət aparatını heç də yeniləşdirə bilməzdi. Köhnə müstəmləkəçilik aparatı hələ də qalmaqda idi. Müvəqqəti hökumət Türküstanda öz hakimiyyətini saxlamaq üçün çarizmin müstəmləkə aparatından istifadə edirdi.

Fevral inqilabından sonra Türküstanda iqtisadi vəziyyət ağırlaşmışdı. Ərzaq böhranı dərinləşmiş və aclıq təhlükəsi yaranmışdı. Martın 8-də Fərqanə vilayətinin hərbi qubernatoru Petroqrada bildirirdi ki, axırıncı taxıl ehtiyatları tükənmək üzrədir və aclıq gözlənilir. Skobelev şəhərinin ərzaq komitəsi əhalinin varlı hissəsi və tacirlərə müraciət edərək bazara əhalinin ehtiyacı olan məhsulları çıxarmağı bildirmişdi. Əks təqdirdə, bəzi məhsulların müsadirə olunacağı qeyd edilmişdi.

Müvəqqti hökumət və onun regiondakı nümayəndəsi A.N.Kuropatkin ərzaq böhranını aradan qaldırmaq üçün heç bir təsirli tədbir görmürdülər. Yerli hökumət yuxarı orqanlara burada xalqlar arasında qanun pozuntuları baş verərsə daha çox qoşun göndərilməsini bildirmişdi. Diyarda milli münasibətlər də olduğu kimi qalırdı. Kuropatkin və onun tərəfdarları şayiə yaymışdılar ki, guya rus əhalisinə qarşı qırğın törədiləcəkdir. Ona görə də Daşkənddəki ruslara paylamaq üçün xeyli miqdarda hərbi sursat ayrılmışdı.

1916-cı ildə cəbhə işinə səfərbərliyə alınanlar çarizm devrildikdən sonra vətənlərinə qayıtmağı tələb edirdilər. Özbaşına işi tərk edib gedənlərin sayı kütləvi xarakter almışdı. Sənaye müəssisələri, şaxta və mədən sahibləri qaçanlara qarşı tədbir görmək üçün hökumətə müraciət etmişdilər. Mühüm dəmiryol qovşaqlarında qaçanları tutmaq üçün məntəqələr yaradılmışdı. Lakin diyarın rəhbərliyi nəinki

bunun qarşısını ala bildi, əksinə, Türküstandan əlavə olaraq, daha 80 min nəfərin səfərbər edilməsinə hazırlıq işləri görüldü.

Beləliklə, fevral inqilabı Türküstan diyarında əsaslı dəyişikliklərə səbəb olmadı. Hakimiyyətdə çar hökumətinin təyin etdiyi adamlar qalırdılar.

1917-ci il martın 28-də Daşkənddə fəhlə və əsgər deputatları Sovetləri vahid bir Sovetdə birləşdilər. A.N.Kuropatkinin rus kəndlilərinə silah vermək sərəncamını müzakirə edərək, Sovet onun millətlərarası qırğın törədilməsində təhlükəli olduğunu qeyd etdi. Sərəncam ləğv edildi, silahın saxlanılması və verilməsi üzərinə nəzarət qoyuldu. Fəhlə və əsgərlər A.N.Kuropatkin və digər hökumət nümayəndələrinin tutduqları vəzifələrdən başqa işə dəyişdirilməsini tələb etdilər. Daşkənd Soveti Türküstanda çar məmurlarının hakimiyyətdən getməsinin təşəbbüskarı oldu.

Martın 28-də Müsəlman komitəsinin üzvləri Petroqrada göndərdikləri teleqramda Dumaya seçkilərdə müsəlmanların hüquqlarının bərpa edilməsi və tam vətəndaşlıq hüququ verilməsini tələb edirdilər.

1917-ci il martın 31-də Daşkənd fəhlə və əsgər deputatları Soveti, Müsəlman deputatları Soveti, kəndli deputatları Soveti və Daşkənd icraiyyə komitəsinin bir çox deputatlarının birləşmiş iclası general A.N.Kuropatkindən başlayaraq bütün rəhbərliyin dəyişdirilməsinə tərəfdar olduqlarını bildirdilər. A.N.Kuropatkin və bir çox keçmiş çar məmurlarına qarşı başlanmış narazılıq onların hakimiyyətdən getməsi ilə nəticələndi.

Müvəqqəti hökumət Türküstan general-qubernatoru A.N.Kuropatkini vəzifəsindən uzaqlaşdırdıqdan sonra aprelin 7-də Şepkinin başçılığı altında 9 nəfərdən ibarət Türküstan komitəsi yaratdı. Türküstan komitəsinin tərkibinə Yelpatyevski, Şkapski, Bukeyxanov, Tınışpayev və b. daxil idilər. Türküstan komitəsi Müvəqqəti hökumətin regionda siyasətini həyata keçirən orqana çevrildi.

Türküstan komitəsi Mərkəzi Asiya və Qazaxıstan xalqlarının həyatında köklü dəyişiklik edə bilmədi. Düzdür, fevral inqilabının qələbəsi bütün milli ucqarlarda olduğu kimi, burada da milli dirçəlişə inamı gücləndirdi. Amma fevral inqilabı Türküstanda əhalinin sosial-iqtisadi, milli, siyasi və s. problemlərini həll etmədi.

Müvəqqəti hökumət və onun Türküstan komitəsi diyarın inzibati idarəetmə quruluşunda əsaslı dəyişiklik etmək istəmirdilər. Türküstanın muxtariyyəti məsələsinə aid diyar müşavirəsində qərara alınmışdı ki, Türküstandakı xüsusi şərait onun siyasi muxtariyyət almasına imkan vermir. Müşavirənin nöqteyi-nəzərini tərənnüm edən «Türküstan kuryeri» qəzeti yazırdı ki, Türküstan ingilis və fransız müstəmləkəsi nümunəsində qurulmalıdır. Hərbi qubernator və qəza rəislərinin əvəzinə Müvəqqəti hökumətin vilayət və qəza komissarları təyin olunurdu. Türküstan komitəsi torpaqdan istifadə məsələsində yaranmış bərabərsizlik və bəylərin mənafeyini müdafiə edirdi.

1917-ci il aprelin 7-dən 15-nə kimi Türküstan diyar Sovetlərinin qurultayı keçirilmişdi. Qurultayda menşevik və eserlər üstünlük təşkil edirdilər. Qurultayda müvəqqəti hökuməti müdafiə etmək, müharibəni Almaniyanın məğlubiyyətinə qədər davam etdirmək, Müəssislər məclisi torpaq haqqında qərar qəbul edənə qədər torpaqları özbaşına tutmamaq və s. məsələlərə aid qərarlar qəbul edilmişdi.

İnqilabın ilk günlərindən özbək burjuaziyasının yaratdığı müsəlman komitələri tezliklə «Şurayi-islam» təşkilatında birləşmişdilər. Bu adda ilk təşkilat martın 9-da burjua cəmiyyəti «Turan» tərəfindən yaradıldı. Onun 40 nəfər üzvü var idi. Belə təşkilatlar Səmərqənd, Əndican, Oş, Xocənt, Mərv və b. şəhərlərdə də təşkil edilmişdi.Onlar xalq arasında öz nüfuz dairələrini genişləndirməkdə digər «ümummüsəlman» təşkilat və cəmiyyətlərindən – «Gülüstan», «Qələbə», «Turan» və başqalarından fərqlənir, əksinqilabi milli burjuaziyanın hakimiyyət orqanı kimi çıxış etməyə çalışırdılar.

1917-ci il aprelin 16-dan 23-nə qədər «Şurayi-islam» təşkilatının I qurultayı keçirildi. Qurultay Türküstan müsəlmanlarının Diyar Sovetini seçdi. Sovetin tərkibinə M.K.Abduraşidov, M.Çokayev, Mahmudxoca Behbudi və digərləri daxil edilmişdilər. Qurultayda təhsil, vəqf torpaqları, müsəlmanların mərkəzləşdirilmiş dini idarəsinin yaradılması və s. məsələlər müzakirə edilmişdi. Burada həm də Türküstan müsəlmanlarının ərazi muxtariyyəti ideyasını nəzərdə tutan qərar qəbul olunmuşdu.

İlk dövrdə yerli əhalinin xeyli hissəsi, cədidçilər və din xadimləri bütün xalqın adından danışmaqla birgə çıxış edirdilər. Lakin

1917-ci ilin iyul ayından din xadimlərinin bir hissəsi «Şurayi-islam»dan ayrılaraq özlərinin «Şurayi üləma» təşkilatını yaratdılar. «Şurayi-islam» həm də «müsəlmanların etimadını qazanmış» adamları seçib inzibati idarələrdə vəzifəyə irəli çəkirdi. Daşkənddə «Şurayi-islam» Xudoyar xanın qohumunu şəhərin köhnə hissəsinin komissarı təyin etmişdi.

1917-ci ilin sentyabr ayında Daşkənd şəhərində Türküstan müsəlman ictimai təşkilatlarının yeni qurultayı oldu. Qurultayda Rusiyada yaradılacaq yeni Federativ Respublikanın tərkibində Türküstan Federativ Respublikasının təsis edilməsi də qərara alındı. Qərarda ona ərazi və mədəni muxtariyyət verilməsi də öz əksini tapmışdı. Eyni zamanda öz polisi, pulu, gömrük təşkilatları olmalı idi. Lakin Rusiyada baş vermiş Oktyabr çevrilişi prosesin qarşısını aldı.

Fevral inqilabı Rusiyanın protektoratlığını qəbul etmiş Buxara əmirliyi və Xivə xanlığına da öz təsirini göstərmişdi. Buxara əmirliyinin dəmiryol stansiyası, yağ və pambıq zavodlarının rus fəhlələri fəhlə və əsgər deputatları Sovetləri yaratmışdılar. 1917-ci il martın 12-də 30 deputatdan ibarət Yeni Buxara icra komitəsi seçilmişdi.

Fevral inqilabından sonra Buxara əmirliyində idarə işlərinin yenidən qurulması uğrunda mübarizə gedirdi. Müvəqqəti hökumətin buradakı nümayəndəsi A.Miller islahatın layihəsinin hazırlanması ilə məşğul idi. A.Miller Buxara əmirinin islahat haqqında layihəsini əmirin özü, tacirlər, ruhanilər və digər müvafiq şəxslərlə müzakirə etmişdi.

Buxara əmirliyi islahatının mahiyyəti idarəetmənin yeniləşdirilməsi, mötəbər feodal əyanlar, tacir və ruhanilərin şəhər təsərrüfatı, maarif, tibb sahələrinin idarə olunmasına cəlb edilməsi, dövlət bankı və əmirliyin büdcəsinin təşkilindən ibarət idi. Şəriəti hüququn yeganə əsası olmasını qəbul etmək, Buxara ilə Rusiya arasında ticarətdə bütün məhdudiyyətləri aradan qaldırmaq, elm və biliklərin inkişafını genişləndirmək və mətbəə açmaq da islahat haqqındakı layihədə öz əksini tapmışdı. Mahiyyət etibarilə feodalizm quruluşu və müstəmləkə sisteminin əsasına toxunmayan bu islahat xalqın vəziyyətini yaxşılaşdıra bilməyəcəkdi. İslahat layihəsi Petroqradda Xarici İşlər Nazirliyində müzakirə edilmişdi. Manifest 1917-ci il aprelin 7-də

feodal aristokratlar, iri tacirlər və müsəlman ruhanilərinin əmirin sarayında çağırılmış birgə iclasında açıqlanmışdı.

Burada A.Miller, Yeni Buxara və Səmərqənd icra komitələrinin nümayəndələri də iştirak etmişdilər. Əhalinin müxtəlif qruplarının bu manifestə münasibəti birmənalı deyildi. Hakim aristokratlar və müsəlman ruhaniləri açıq şəkildə islahatın əleyhinə çıxırdılar. Yerli milli burjuaziya müəyyən güzəştlərə gedilməsini istəyirdi. Əslində əmir və tanınmış feodal əyanlar da bu islahatın əleyhinə idilər.

1917-ci il aprelin 8-də əmirin islahat «verməsi» münasibətilə Buxarada Registan meydanına toplaşan 5 min nəfər hakimin sərbazları tərəfindən qovulmuşdu.

Beləliklə, manifestin yeniliyi elə bir ciddi dəyişikliyə səbəb olmadı. 1917-ci il aprelin 14-də fəhlə və əsgərlərin ümumşəhər iclasında A.Millerə etimadsızlıq göstərilməsi elan edildi. Aprelin 17-də mövcud vəziyyətlə tanış olmaq üçün Türküstan komitəsinin üzvü, Müvəqqəti hökumətin komissarı P.N.Preobrajenski Buxaraya gəlmişdi. Əhalinin çıxışı və Rusiya Mərkəzi müsəlman bürosunun işə müdaxiləsi nəticəsində əmir tutduğu mövqedən geri çəkilməyə məcbur oldu. May ayında Buxarada «Şurayi-islam»ın yerli bölməsi təsis edildi. Buxaranın Hərbi naziri dəyişdirildi. Miller əmirliyin idarəçiliyindən uzaqlaşdırıldı və koalision hökumət təşkil olundu.

Bu dövrdə Xivədə yaranmaqda olan burjuaziya şəraitdən istifadə etdi. 1917-ci ilin aprelində Xivədə «Gənc xivəlilər» cədidçilər qrupu yaradıldı. Aprelin 5-də «Gənc xivəlilər» Xivə xanından bir sıra islahatlar keçirməyi tələb etdilər. Xan manifest elan etməyə məcbur oldu. Müvəqqəti komitə yaradıldı. Dövləti idarə etmək üçün həmin komitənin göstərişi nəticəsində Səid İsfəndiyar xan tərkibi 32 nəfər olan Məclis-Şura yaratdı. Qanun qarşısında azadlıq və bərabərlik elan olundu. Bütün vəzifəli şəxslər seçilməli və dövlət xəzinəsindən müvafiq vəsaitlə təmin edilməli idi.

Xivədə cərəyan edən bu hadisələrə Müvəqqəti hökumət biganə qala bilməzdi. General A.N.Kuropatkin Xivə xanından «Gənc xivəlilər»in başçılıq etdiyi Müvəqqəti komitəyə qarşı tədbir görməyi tələb etdi. Xivənin Hərbi naziri general Hidayətulla Mirbədəlov, rus qarnizonunun rəisi polkovnik Zaytsev və b. 1917-ci ilin may ayında çevriliş edərək Müvəqqəti komitənin 17 üzvünü həbs etdilər.

Rusiyanın müsəlman ictimaiyyəti buna öz etirazını bildirməli oldu. Hadisələri öyrənmək üçün Rusiya Mərkəzi müsəlman bürosu Xivəyə xüsusi komissiya göndərdi. Lakin Xivə xanı Səid İsfəndiyar Daşkənddə hakimiyyəti ələ almış bolşeviklərə kömək üçün müraciət etmişdi.

Fevral inqilabından sonra qazax-qırğız milli hərəkatı Orenburqda Qırğız Milli Şurasını yaratmışdı. 1917-ci il iyul ayının 21-dən 26-na kimi Orenburqda I Ümumrusiya qırğızları qurultayında qırğız-qazax milli muxtariyyətinin yaradılması tələbi əsas götürülmüşdü. Eyni zamanda regionun Rusiya tərəfindən işğalından sonra qazaxlardan müsadirə edilən torpaqların qaytarılması, torpaqdan istifadə və yerli idarəçilik sisteminin saxlanılması, qırğız dilində məktəblərin açılması, yerli «adət» əsasında fəaliyyət göstərən məhkəmənin bərpa olunması və s. haqqında qərarlar qəbul edildi. Qurultayda A.Bukeyxanov, D.Dostməhəmmədov, M.Tınışpayev, H.Qabbasov və digərlərinin başçılığı altında Alaş milli qazax partiyasının formalaşmasının başa çatması elan olunmuşdu.

1917-ci ilin dekabrında A.Bukeyxanovun başçılığı altında Alaş-Orda Muxtar qazax hökuməti təşkil edilmişdi.

Türküstan diyarının başqa bölgələrində olduğu kimi, Türkmənistanda da Sovetlər yaradılmışdı. 1917-ci il martın 7-də Aşqabadda depo fəhlələrinin iclasında 24 nəfərdən ibarət fəhlə deputatları Soveti yaradılmışdı. Martın 12-də şəhərin bazar meydanında bütün müəssisələrin fəhlələrinin iclasında ümumşəhər Aşqabad Sovetində birləşmək haqqında qərar qəbul edilmişdi. Zakaspi vilayətinin bir sıra şəhərində də Sovetlər yaradılmışdı. Lakin onlar Rusiyanın mərkəzi şəhərlərinin təcrübəsi əsasında kortəbii olaraq təsis edilirdi.

1917-ci il martın 29-da Müvəqqəti hökumət vəzifə borcunu yerinə yetirə bilmədiyinə görə Zakaspi vilayətinin müdiri Kolmakovu tutduğu vəzifəsindən azad etmişdi. Zakaspi komissarı vəzifəsinə Q.Dorrer təyin olunmuşdu.

Martın 5-də yerli burjua nümayəndələri Aşqabadda Müvəqqəti icra komitəsini təşkil etdilər. Komitə şəhərin təsərrüfat, iqtisadiyyat və mədəni həyatını idarə etməyi öz əlinə almışdı. Martın birinci yarısında vilayətin bütün şəhərlərində icra komitələri yaradılmışdı. Aul, məntəqə və qəzalarda da icra komitələri təsis edilmişdi. Bu

komitələrin təşkili podpolkovnik, xan N.N.İomudskinin rəhbərliyi ilə həyata keçirilmişdi. İcra komitələrinə xan, bəy, tacir, sələmçi, ziyalı və ruhanilər daxil idilər. Ümumiyyətlə, Türkmənistanda milli hərəkat zəif olmuşdu.

Eyni zamanda Türkmənistanda Sovetlərlə yanaşı əsgər komitələri də mövcud idi.

Beləliklə, bütün regionda olduğu kimi, Türkmənistanda da ikihakimiyyətlik /Müvəqqəti hökumətin icra komitələri və Sovetlər/ yaradılmışdı.

## § 3. VOLQABOYU, SİBİR VƏ KRIMDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

**Volqaboyu xalqları fevral inqilabından sonrakı dövrdə.** Fevral inqilabının qələbəsindən sonra Rusiyanın hər yerində olduğu kimi, Tatarıstanı da inqilab dalğası bürümüşdü. Martın 1-2-də Kazanda siyasi nümayişlər başlandı. Əsgərlər bir neçə alayın komandirini həbs etdilər. Martın 4-dən 5-nə keçən gecə hərbi dairənin komandiri general Sandetski həbs olundu. Martın 2-də Kazanda və quberniyalarda fəhlə deputatları Sovetləri yaradıldı. Martın 10-da əsgər deputatları Soveti təşkil olundu. Martın 14-də Kazan fəhlə deputatları Soveti əsgər deputatları Soveti ilə birləşdi. 1917-ci il martın 5-də isə yerli burjuaziya Quberniya ictimai təhlükəsizlik komitəsi yaratdı. Beləliklə, Tatarıstanda ikihakimiyyətlik əmələ gəldi.

Fevral inqilabının ilk günlərindən Tatarıstanın şəhərlərində müxtəlif fəhlə təşkilatları-həmkarlar ittifaqları, fabrik-zavod komitələri yaradılmağa başlandı. Bu təşkilatlar fəhlələrin siyasi və iqtisadi maraqlarını müdafiə edirdilər.

Müvəqqəti hökumət öz üzərinə götürdüyü təəhhüdləri həyata keçirmək istəmirdi. Hökumət Rusiyada rus olmayan xalqlar barəsində millətçi siyasət yeritməkdə davam edirdi. O, yalnız rus dilini dövlət dili kimi tanıyır və digər milli dillərdən ancaq müxtəlif xüsusi cəmiyyət, müəssisə, həmçinin xüsusi tədris müəssisələrində istifadə edilməsinə icazə verirdi. Bu isə 1917-ci il martın 20-də verilmiş

qərarda öz əksini tapmışdı. Ona görə də hökumət öz fəaliyyətinin ilk dövründə təkcə milli ucqarların zəhmətkeş kütlələri ilə deyil, habelə əhalinin siyasi hüquqlarının genişlənməsini tələb edən yerli burjua təbəqələri ilə toqquşmalı olmuşdu.

Tatar xalqı inqilabın ona azadlıq verəcəyinə ümid bəsləyirdi. Lakin Müvəqqəti hökumət milli zülmün köhnə və kobud formasını incə, daha təhlükəlisi ilə əvəz etmişdi. Burjuaziyanın ana dilindən istifadə tələbi belə yerinə yetirilməmişdi. Müvəqqəti hökumət çarların «inqilabi demokratiya» bayrağı ilə pərdələnmiş «vahid, bölünməz Rusiya» şüarını yenə də müdafiə edirdi. Belə bir şəraitdə Rusiyada yaşayan xalqlar milli və ictimai azadlıq uğrunda mübarizəyə başladılar. Ayrı-ayrı regionlarda milli burjuaziya bir sıra müvafiq təşkilatlar yaratmışdı. Tatar burjuaziyası fevral inqilabından sonra xalqın rifahı naminə müəyyən nailiyyətlər əldə etməyə çalışırdı.

IV Dövlət dumasında Müsəlman fraksiyasının liderləri «Rusiya müsəlmanlarının mərkəzi bürosu» nu yaratmışdılar. Duma tribunasından istifadə edərək türk-müsəlman xalqlarının liderləri milli, hüquqi, sosial-iqtisadi çətinliklərin aradan qaldırılması uğrunda mübarizə aparırdılar.

Rusiyadakı türk diyarlarında milli hərəkatın daha da genişlənməsi, konkret ictimai-iqtisadi və siyasi tələblərin irəli sürülməsi, xüsusilə milli dövlətçilik məsələsinin qaldırılması özünü açıq şəkildə büruzə verirdi. 1917-ci ilin mart-aprel aylarında Krım, Daşkənd, Orenburq və başqa yerlərdə türk-müsəlman xalqları nümayəndələri milli hüquqların bərpası və digər məsələləri geniş şəkildə müzakirə edirdilər. Bu baxımdan 1917-ci il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda çağırılmış qurultayı mühüm əhəmiyyət kəsb edirdi. Qurultayda türkçülük, millətçilik, istiqlalçılıq və başqa məsələlər diqqət mərkəzində olmuşdu.

Eyni zamanda bu dövrdə yerlərdə milli Müsəlman komitələrinin yaradılmasına da başlanılmışdı. Martın 7-də Kazanda Müsəlman komitəsi təsis olunmuşdu. Ona Xalfin və Tuktarov başçılıq edirdilər.

1917-ci il aprelin 23-24-də Kazan quberniyası müsəlmanlarının birinci qurultayı çağırıldı. Qurultayda tatar burjuaziyası, bəy, ruhani və qolçomaqlardan ibarət quberniya müsəlmanlarının Milli

Şurası təşkil edilmişdi. Bu təşkilat xalq arasında böyük şöhrət qazanmışdı. Tatar milli burjuaziyası bütün müsəlman xalqlarının mənafe birliyi ideyasını geniş təbliğ etməklə təkcə tatar deyil, həm də Rusiyanın digər xalqlarının zəhmətkeşlərini buna çağırırdı. Onlar Rusiyada mərkəzləşdirilmiş hakimiyyəti saxlamaqla müsəlman xalqlarına mədəni-milli muxtariyyət verilməsini tələb edirdilər. Tatar burjuaziyası Qafqaz, Mərkəzi Asiya və Qazaxıstanla əlaqələri qoruyub saxlamağa və möhkəmləndirməyə çalışırdı.

1917-ci il mayın 1-dən 11-nə kimi Moskvada Ümumrusiya müsəlmanlarının qurultayı olmuşdu. Qurultayda milli-məhəlli muxtariyyət, maarif və mədəniyyət, Müəssislər məclisi, aqrar və s. məsələlər müzakirə edilmişdi. Tatarların nümayəndəsi Əhməd Salikov milli azlıqlara mədəni-muxtariyyət verilməsi ideyasını irəli sürmüşdü. Qurultayda M.Ə.Rəsulzadənin irəli sürdüyü milli-məhəlli muxtariyyət təklifi səs çoxluğu ilə qəbul edilmişdi. Qəbul edilmiş qərarda ibtidai təhsilin icbari və pulsuz, təhsilin ana dilində olması, bu prinsipin orta və ali məktəblərdə də gözlənilməsi, rus dilinin xarici dil kimi tədris edilməsi bildirilirdi. Qurultayda türk-müsəlman xalqlarına milli-məhəlli muxtariyyət verilməsinə tərəfdar çıxıldı və Müəssislər məclisi çağırılana kimi müsəlmanların siyasi sahədə birgə hərəkətini təmin etmək nəzərdə tutulurdu. Türk-müsəlman xalqlarının müvafiq problemlərini həll etmək üçün Milli Şura yaradıldı.

1917-ci il iyulun 26-dan avqustun 2-nə kimi Kazanda keçirilən Ümumrusiya müsəlmanlarının ikinci qurultayı Mərkəzi Rusiya və Sibir müsəlmanlarının mədəni-milli muxtariyyətini elan etdi. Noyabr ayında keçirilən seçkilər əsasında Milli məclis seçildi.

1917-ci il noyabrın 29-da Volqa-Ural Respublikası yaradıldı. Milli hökumət təşkil edildi. Həmin hökumətin sədri isə Sədri Maksudov olmuşdu. 1918-ci ilin martında bolşeviklər Milli məclisi dağıtdıqdan sonra hökumət süqut etdi.

Beləliklə, fevral inqilabından sonra tatar xalqının milli-azadlıq hərəkatında liderliyi ələ alan milli-liberal, demokratik hərəkatın nümayəndələri Rusiya müsəlmanlarının birliyi əsasında ümummilli razılaşma siyasəti aparırdılar. Tatar inqilabçı-demokratları millli

qarşıdurma yaradan səbəbləri aradan götürməklə demokratik islahatlar aparılmasının tərəfdarı idilər.

Milli özünüdərkin zəif inkişaf etməsi eyni xalqdan olan müxtəlif siyasi görüşə malik adamları hakimiyyət, dövlətçilik məsələlərində vahid bir fikrə gətirmədi. Buna görə də Sovetlərin sosializm şüarı ilə hakimiyyət uğrunda mübarizə ideyası çoxluğu öz ardınca apardı, milli maraqlar isə arxa plana keçirildi. Eyni zamanda ümummilli hərəkat proqramını yaradanların onu tədricən həyata keçirmələri üçün dözüm və səbrləri çatmadı. Milli-demokratik hərəkatdakı fikir ayrılığı onları son nəticədə parçalanmaya gətirib çıxardı. Əgər tatarlar mədəni-milli muxtariyyəti əsas götürürdülərsə, başqırdlar federasiya quruluşunun tərəfdarı idilər.

1917-ci il martın 2-si və 5-də Başqırdıstanda yaradılan iki hakimiyyət-Quberniya ictimai təşkilat və təhlükəsizlik komitələri və fəhlə və əsgər deputatları Sovetlərindən ibarət olmuşdu.

Martın 17-də Çeboksarıda /Çuvaşiyada/ vətəndaş deputatları Soveti /sonra fəhlə və əsgər deputatları Soveti/ və burjuaziyanın orqanı olan İctimai təhlükəsizlik komitəsi yaradılmışdı. Çuvaşiyada eserlərin əhaliyə təsiri daha güclü idi.

**Fevral inqilabının Altay xalqlarına təsiri.** Milli ucqarların zəhmətkeşləri çarizmin devrilməsini özlərinin siyasi azadlıq və milli dirçəlişi kimi qarşıladılar. İnqilabın ilk günündən Sibirin bütün quberniya, qəza və iri sənaye mərkəzlərində İctimai təhlükəsizlik komitələri yaradılmışdı. Sovetlərin yaranması ilə Sibirdə ikihakimiyyətlik meydana gəlmişdi. Mart ayında Uzaq Şərq də daxil olmaqla Sibirdə 67 fəhlə və əsgər deputatları Soveti yaradılmışdı. Kəndli deputatları Sovetinin yaranması 1917-ci ilin yayından başlanmışdı.

Eyni proses demək olar ki, Yakutiya və Altayda da gedirdi. 1917-ci il martın 4-də Yakutiya İctimai təhlükəsizlik komitəsi yaradıldı. Mayın 14-də yeni təşkil edilmiş ayrı-ayrı əsgər və fəhlə deputatları Sovetləri birləşdikdən sonra Yakutiyada da ikihakimiyyətlik yaranmışdı. 1917-ci il martın 3-4-də Biysk və Barnaulda İctimai idarə üsulu komitəsi təşkil edildi. Martın sonunda isə fəhlə

və əsgər deputatları Sovetləri yaradıldı. Altayın bəzi kəndlərində Müvəqqəti icraiyyə komitələri təşkil olunmuşdu.

Fevral inqilabı Dağlıq Altayda milli-azadlıq hərəkatına təkan vermişdi.

Altay ziyalılarının bir qismi belə hesab edirdi ki, çarizmin devrilməsi ilə milli zülmə son qoyulacaqdır. Onlar milli müqəddəratını təyin etmə və Dağlıq Altaya müstəqillik verilməsi ideyasını irəli sürürdülər. Müvəqqəti hökumət bu məsələni həll etmək iqtidarında deyildi. Milli məsələnin həllini Müəssislər məclisi çağırılana qədər təxirə salmalı oldular. Müstəqillik ideyasını yerli bəy və tacirlər də müdafiə edirdilər. Onların təşəbbüsü ilə 1917-ci il iyulun 1-dən 6-na kimi Biysk şəhərində Kuznetsk qəzası və Biysk nahiyəsinin özgə xalqlarının 60 səlahiyyətli nümayəndəsinin qurultayı keçirilmişdi.

Qurultayda muxtariyyət və torpaq məsələləri müzakirə olunmuşdu. Qərara alınmışdı ki, «Altayda özgə xalqlardan olanların muxtariyyəti»nin tanınması və onlara «fərdi zemstvo özünüidarəsi»nin verilməsi ilə əlaqədar müvafiq dairələrə müraciət edilsin. Qurultay bu məsələnin həllinə qədər keçid dövrü üçün Biysk şəhərində mərkəzi yerli özünüidarə orqanı-Dağlıq Altay dumasının yaradılmasını qərara almışdı. Dumanın sədri Q.İ.Qurkin seçilmişdi. Dumanın tərkibinə bəylərdən D.M.Tobokov, Saymu Tolkıçakov, V.K.Maneyev, A.N.Kozlov və b. daxil edilmişdi. Qurultayın qərarında Altayda torpağın özgə xalqlardan olanların istifadəsinə verilməsi, rus əhalisinin torpaq quruculuğu vaxtı aldığı torpaqda qalmaları, kənd cəmiyyətlərinə üzv olmayan rusların Müəssislər məclisi çağırılana qədər Dağlıq Altayın ərazisində yerləşdirilməməsi, torpağın icarəyə verilməsinin ləğvi və ondan icma mülkiyyəti kimi istifadə edilməsi və s. məsələlər öz əksini tapmışdı. Maarif sahəsində ümumdemokratik burjua tələblərindən kənara çıxılmırdı.

İnzibati müstəqilliyin tələb olunması siyasi cəhətdən həm də Altay zəhmətkeşlərini bolşeviklərin təsirindən qorumaq demək idi. 1917-ci ilin yay və payızında ölkədə gedən inqilabi proseslər Dağlıq Altayın demək olar ki, bütün ərazisini əhatə etmişdi.

**Fevral inqilabı və Tuva.** İnqilabi hadisələr ərəfəsində Tuva Rusiyanın ucqar müstəmləkəsi idi. 1914-cü ildə Tuva Uryanxaysk

diyarı adı altında Rusiyaya birləşdirilmişdi. Torpaqların daha məhsuldar və xeyli hissəsi rus müstəmləkəçilərinin əlinə keçmişdi. Tuvalılar kəskin sosial və milli məsələ ilə üzləşmişdilər.

Çarizmin devrilməsi xəbəri Tuvaya 1917-ci il martın 6-da çatmışdı. Devrilmiş hakimiyyət orqanlarının vəzifəli adamları öz yerlərində qalmaq qərarına gəlmişdilər. 1917-ci ilin martında rusların yaşadıqları qəsəbələrdə İctimai təhlükəsizlik komitələri yaradılmağa başlanmışdı. Martın 24-də Tuvanın rus əhalisinin birinci qurultayı çağırıldı. Qurultay Müvəqqəti hökumətin dünya müharibəsini davam etdirmək və milli ucqarları əsarətdə saxlamaq siyasətini müdafiə edirdi.

Diyarın feodalları və din xadimləri Rusiyada baş verən inqilabla əlaqədar olaraq monqol və çin feodalları ilə daha sıx əlaqələr yaratmaq üçün praktik addımlar atırdılar. Tonmit, Taktan və başqaları Tuvanın Rusiyadan ayrılaraq monqollarla birləşməsini açıq şəkildə irəli sürürdülər. Hələ 1912-ci ildə monqol feodalları Tuvaya müstəqillik verilməsinin əleyhinə çıxmışdılar. Rusiyada çarizm devrildikdən sonra monqolların Tuvaya olan marağı xeyli artmışdı.

Müvəqqəti hökumət Tuvanı Rusiyanın tərkibində saxlamaq istəyirdi.1917-ci il avqustun 22-də Müvəqqəti hökumətin Daxili İşlər Nazirliyi Tuvanın gələcək taleyi məsələsi ilə bağlı idarələrarası iclas keçirdi. İclasın qəbul etdiyi qərarda Müvəqqəti hökumət əvvəlki bütün beynəlxalq öhdəlikləri öz üzərinə götürməklə Rusiyanın Uryanxaysk diyarı üzərindəki protektoratlığını bir daha təsdiq etdi. Bu isə onu göstərirdi ki, Müvəqqəti hökumət Tuva xalqına, eləcə də Rusiyanın ucqarlarında yaşayan digər xalqlara qarşı müstəmləkəçilik siyasətindən əl çəkməmişdir.

Krımda fevral inqilabı başlıca olaraq dinc yolla başa çatdı. Hakimiyyət Müvəqqəti hökumətin nümayəndələrinin əlinə keçdi. Burjua və mülkədarların mənafeyini müdafiə edən çar məmurları və qulluqçularının çoxu yenə də öz yerlərində qalırdılar. General-qubernator Ebelov və donanma komandanı vitse-admiral Kolçak Müvəqqəti hökuməti tanıdılar.

Krım türklərinin yaratdıqları Müsəlman komitəsi 1917-ci il martın 25-də müsəlmanların I qurultayını çağırdı. Qurultay Müsəlman İcraiyyə Komitəsini təsis etdi. Burada Krımın milli-ərazi mux-

tariyyəti məsələsi mühüm siyasi məqsəd kimi qarşıya qoyulurdu. Krıma köçürülmüş əhali qeyd olunan qərarların həyata keçirilməsinin əleyhinə idi. Belə bir şəraitdə milli hərəkatın qabaqcıllarına qarşı təqiblər artır, hadisələrin sonrakı inkişafı ictimai-siyasi vəziyyətə öz təsirini göstərirdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə Rusiya tərkibindəki türk xalqlarının ictimai-siyasi həyatı üçün türkçülük, islamçılıq və müasirlik ideyaları səciyyəvi idi.

Beləliklə, fevral inqilabından sonra türk xalqlarının yaşadıqları regionlarda yaranan milli dirçəliş, özünüdərk prosesi, siyasi cəhətdən oyanma ilk növbədə Müvəqqəti hökumətin, daha sonra isə bolşeviklərin müqaviməti ilə qarşılaşmışdı.

**Oktyabr çevrilişi və türk xalqları.** Rusiya dövlətinin tərkibində olan türk xalqlarının ərazilərində xalq kütlələrinin siyasi yetginliyi və iqtisadi inkişaf səviyyəsi eyni deyildi. Hakimiyyət orqanları çarizmin inzibati idarəetmə sisteminə tabe edilmişdi. Burjua və xırda burjua partiyaları milli proqramlarını həyata keçirə bilmirdilər. Milli burjuaziya zəif və həm də rus burjuaziyasından asılı idi. Bolşeviklərin milli proqramında xalqlara azadlıq və öz milli dövlətlərini yaratmaq vəd olunurdu. Türk regionlarında bolşeviklər partiyası fəaliyyət göstərirdi. Onların təbliğat-təşviqat işi yaxşı təşkil edilmişdi. Məhz buna görə də Oktyabr çevrilişindən sonra, yəni 1917-1918-ci illərdə onlar demək olar ki, bütün türk məmləkətlərində hakimiyyəti ələ almışdılar. Eyni zamanda bu proses həm dinc, həm də silahlı mübarizə yolu ilə həyata keçirilirdi. Məsələn, Türküstanın Sırdərya vilayəti və Amudərya rayonunda Sovet hakimiyyəti dinc yolla qurulmuşdu.

1917-ci il oktyabrın 28-31-də Daşkənddə gedən döyüşlər nəticəsində Müvəqqəti hökumətin Türküstan komitəsinin üzvləri həbs edilmiş və Daşkənd Soveti, həmçinin İnqilabi komitə əhaliyə Daşkənddə Sovet hakimiyyətinin qələbə çaldığını elan etmişdilər. Müxalifətin güclü olduğu Fərqanə vilayətində bolşeviklər çox çətinliklə hakimiyyəti zəbt edə bilmişdilər.

1918-ci ildə Semireçyedə müxalifət qüvvələri silahlı müqavimət göstərərək Vernıda /Alma-Ata/ hərbi hökumət yaratmışdılar.

Yuxarıda gətirilmiş ayrı-ayrı misallar da göstərir ki, 1918-ci ilin yazınadək Mərkəzi Asiya və Qazaxıstanda Sovet hakimiyyəti qurulmuşdu. Xivə və Buxarada 1920-ci ilə kimi xan və əmirlik hakimiyyəti qalmışdı.

1917-ci il oktyabrın 24-25-də Kazanda silahlı üsyan yolu ilə Sovetlər hakimiyyəti ələ almışdılar. 1918-ci ilin əvvəlində Tatarıstanın bir çox qəzalarında da hakimiyyət Sovetlərin əlinə keçmişdi.

Ümumiyyətlə, 1917-1918-ci illərdə haqqında bəhs olunan regionlarda bolşeviklərin hakimiyyəti qurulmuşdu.

# VIII FƏSİL

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKÜSTAN, VOLQABOYU, SİBİR VƏ KRIM XALQLARININ MƏDƏNİYYƏTİ

## § 1. TÜRKÜSTAN XALQLARININ MƏDƏNİYYƏTİ

Xalqın həyatında mədəniyyətin rolunun artması cəmiyyətin ən mühüm inkişaf qanunauyğunluqlarından biridir. Əlbəttə, siyasi yetkinlik və iqtisadi irəliləyiş bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

XX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanda kapitalist münasibətlərinin inkişafı mədəniyyətə öz təsirini göstərirdi. Yeni üsullu məktəblərin yaranması və onların sayının çoxalması dünyəvi fənlərə marağın artmasına kömək edirdi. Dövri mətbuat və kitab nəşri genişləndirilirdi. Yeni yaranan milli ziyalılar ana dilində müxtəlif adda qəzet, jurnal və kitablar nəşr etdirirdilər.

Bu dövrdə Rusiyanın mədəniyyət tarixində olduğu kimi, Türküstan diyarı xalqlarının mədəniyyətində də iki cərəyanın mübarizəsi davam etdirilirdi. Onlardan biri mülkədar, bəy və ruhanilərə əsaslanaraq feodal-patriarxal münasibətləri, xalqı cəhalətdə saxlayan çarizmin irticaçı siyasəti idi. Digəri isə mədəniyyətin inkişafına çalışan, demokratik meyli əks etdirən, daha doğrusu, çarizmin müstəmləkə siyasəti, orta əsr qalıqları və yeni yaranan burjuaziyanın milli meyllərinə qarşı mübarizə aparan cərəyan olmuşdur. Bu meyl istər Mərkəzi Asiya və Qazaxıstan tarixinə, istərsə də sırf mədəniyyətə aid nəşr olunmuş əsərlərdə öz əksini tapmışdı.

Bizcə, hər hansı bir xalqın mədəniyyətini marksistlər kimi, iki hissəyə-demokratik və sosialist mədəniyyəti və burjua mədəniyyətinə ayırmaq düzgün deyildir. Çünki cəmiyyətdəki mövqeyindən asılı olmayaraq xalqın bacarıqlı, istedadlı, yaradıcı və milli ziyalıları öz mədəniyyətlərini inkişaf etdirməklə həm öz xalqının mə-

nəvi sərvətini artırır, həm də dünya mədəniyyəti xəzinəsini zənginləşdirirlər.

Əlbəttə, çar Rusiyasının yürütdüyü milli-müstəmləkəçilik siyasəti müəyyən mənada öz rolunu oynaya bilmişdi. Özbəkistan Elmlər Akademiyasının akademiki T.N.Karı-Niyazov göstərir ki, milli məsələnin bir hissəsi olan milli mədəniyyətin taleyi bütünlüklə milli məsələnin həllindən asılı olduğundan öz-özlüyündə aydındır ki, Rusiyanın digər xalqları kimi Mərkəzi Asiya xalqlarının da milli mədəniyyət məsələsi nə çar Rusiyası, nə də Müvəqqəti hökumət dövründə həll edilə bilərdi.

Lakin çətin tarixi dövrlərdə belə elm və mədəniyyətin inkişafı sahəsindəki ənənələr qanunauyğun olaraq davam etdirilmişdir.

**Maarif.** XX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanın təhsil sistemində məktəb və mədrəsələrlə yanaşı, rus-yerli, rus, yeni üsullu məktəblər, gimnaziyalar, müəllim seminariyaları və realnı məktəblər var idi. Bu regionlarda əsrlər boyu fəaliyyət göstərən təhsil ocaqlarından olan məktəblər daha çox idi. 1914-cü ildə Oş qəzasında 3170 şagirdi olan 229 məktəb var idi. 1910-cu ildə Zakaspi vilayətində 9560 nəfərin, o cümlədən 900 qızın təhsil aldığı 557 məktəb fəaliyyət göstərirdi.

Dini təhsillə yanaşı hüquq, hesab, fəlsəfə, Şərq ədəbiyyatı klassiklərinin əsərləri də öyrədilirdi. 1910-cu ildə Zakaspi vilayətindəki 56 mədrəsədə 911 şagird təhsil alırdı. Oş qəzasında 1176 şagirdi olan 88 mədrəsə /1914/ var idi.

Elmi ədəbiyyatda Mərkəzi Asiya və Qazaxıstanda məktəb və mədrəsələrin fəaliyyəti tənqid edilir, onlar xalqı cəhalətdə saxlamaqda günahlandırılırdı. Yerli mətbuatda bəzi rus ziyalılarının mədrəsələrdəki vəziyyətin əleyhinə çıxması göstərilirdi. Hakim dairələrin buna biganə qalması da bildirilirdi. Əlbəttə, çarizmin bu ayrı-seçkilik siyasətində təəccüblü heç nə yox idi.

XX əsrin əvvəllərində rus-yerli məktəblər şəbəkəsi genişlənməkdə idi. Əgər 1896-cı ildə Türküstan diyarında 28 rus-yerli məktəb var idisə, 1909-cu ildə onların sayı 98-ə çatmışdı. 1903-cü ildə Zakaspi vilayətində 10 rus-yerli məktəb var idi ki, burada da 328 nəfər təhsil alırdı. Oktyabr çevrilişi ərəfəsində hazırkı Qırğızıstanın ərazisində 750 nəfərin təhsil aldığı 16 rus-yerli məktəb fəaliyyət göstərirdi.

Rus-yerli məktəblərdə rus dili və hesab geniş tədris olunurdu. Eyni zamanda, əsasən Rusiyanın tarixi, coğrafiyası və təbiətşünaslıq haqqında məlumat verilirdi. Bunlarla yanaşı xanlıqların da tarixi öyrənilir, müsəlman dininin əsası tədris olunurdu.

XX əsrin əvvəllərində Daşkənddə Türküstan pedaqoji dərnəyi yaranmışdı. 1903-cü ildə dərnək ictimai əsaslarla ilk qadın rus-yerli məktəbi açmışdı ki, burada 19 özbək qızı təhsil alırdı. Lakin hökumət tərəfindən müdafiə olunmadığına görə məktəb ancaq iki il fəaliyyət göstərə bilmişdi.

1907-ci ildən rus-yerli məktəblər yeni proqramla işləməyə başlamış, rus dili və hesab fənlərinə daha çox vaxt ayırmaqla digər fənlərin tədrisi də genişləndirilmişdi. Daha fəal müəllimlər dərslik və dərs vəsaitləri tərtib edir, yerli dillərin dialektlərini öyrənir, etnoqrafik materiallar toplayırdılar.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Türküstanda yaranmaqda olan burjuaziya maarif sahəsində bəzi islahatların keçirilməsinə meyl edirdi. İslahatçılar ilk növbədə dinin tədrisinin mahiyyətini dəyişdirmədən mövcud dövrün tələblərinə uyğun olaraq, köhnə məktəbləri təkmilləşdirməklə yenidən qurmağa çalışırdılar. Bu da 1905 və 1906-cı illərdə müsəlmanların Nijni-Novqorodda keçirilmiş qurultaylarında hazırlanmış təzə tədris proqramı əsasında yeni üsulla işləyən məktəblərin yaranması və inkişafına səbəb olmuşdu.

XX yüzilliyin astanasında ilk yeni üsullu məktəblər Daşkənd, Buxara, daha sonra isə Xivə xanlığında meydana gəlmişdi. Təkcə 1910-cu ilin yayında 5 yeni üsullu məktəb açılmışdı. Cədidçilərin yeni üsullu məktəblərini milli burjuaziya maliyyələşdirirdi. Çarizm cədidçilərin Türkiyə ilə əlaqə saxlamalarını bəhanə gətirərək bu məktəblərin açılmasını təhlükəli hesab edirdi. 1910-1911-ci tədris ilində Türküstanda 50-dən çox yeni üsullu məktəb bağlanılmışdı.

1911-ci ildə general-qubernator Samsonov cədidçilərin məktəblərinə qarşı dura bilən yeni tipli rus-yerli məktəblərin açılmasına münasibətini bildirərək deyirdi ki, ana dilində Avropa elminin tədrisindən başlamaq, yerliləri öz dilləri vasitəsilə rus mədəniyyətinə qovuşdurmaq, dövlət dili kimi rus dilini məcburi öyrənmək lazımdır. 1915-ci ildə Türküstan dairəsi tədris xeyriyyə komitəsinin rəyinə görə yerlilər təhsili ancaq rus dilində almalı idilər.

Qırğızıstanda ilk yeni üsullu məktəblər 1901-1902-ci illərdə Bişkek, Tokmak və Prjevalskdə yaranmışdı. Dərslərin əsasən tatar dilində aparıldığı bu məktəblərin təşkilatçıları və müəllimləri tatar ziyalılarının nümayəndələri olmuşdular.

Tokmak şəhərində təşkil edilmiş yeni üsullu ən böyük məktəb «Mütərəqqi» adlanırdı. Bu məktəbdə müxtəlif xalqların uşaqları təhsil alırdılar. Məsələn, 1908-ci ildə burada 200 qırğız, 36 tatar, 30 özbək, 9 dunqan və 5 kaşqar oxuyurdu. Bəzi şagirdlər təhsillərini davam etdirmək üçün Kazan və Ufa mədrəsələrinə göndərilirdi.

Türküstan diyarında məktəb-mədrəsələr və rus-yerli məktəblərlə yanaşı Rusiyanın Avropa hissəsində olan təhsil sistemi üzrə fəaliyyət göstərən rus məktəbləri də mövcud idi. 1909-cu ildə Zakaspidə 2 qadın və bir kişi gimnaziyasında təhsil alan 1137 nəfərdən 43-ü, şəhər məktəblərindəki 459 şagirddən 29-u, 52 müxtəlif tipli ibtidai məktəbdəki 2281 şagirddən 277-si yerli əhalidən idi. Səkkiz xüsusi məktəbdə 656 nəfər təhsil alırdı.

1911-ci ildə Qazaxıstandakı müxtəlif tipli 2155 məktəbdən 33-nü orta məktəblər təşkil edirdilər. Rus-yerli məktəblər gəlmələrin ən çox yerləşdirildiyi iri kəndlərdə, o cümlədən qazax və qırğızların ərazilərində açılmışdı. 1915-ci ildə Namanqan qəzasının ibtidai məktəblərində 45 qırğız oxuyurdu. Cənubi Qırğızıstanın Oş, Qızıl-Ki və başqa yerlərindən olan bir qrup şagird Azərbaycanın Şamaxı şəhərində təhsil alırdı. Rus-yerli məktəblərdə adətən Türküstan müəllimlər seminariyasını bitirən və yerli dili bilənlər işləyirdilər. 1914-1915-ci tədris ilində Türküstan diyarının rus və rus-yerli məktəblərində 704 müəllim çalışırdı. Yerli xalqlardan olanlar arasında qazaxlar üstünlük təşkil edirdilər.

Çar Rusiyasi Mərkəzi Asiya və Qazaxıstanla iqtisadi və siyasi əlaqələrlə yanaşı, həm də mədəni əlaqələri genişləndirirdi. Bu işdə təhsil sahəsinə, ilk növbədə maarifə daha çox diqqət yetirilmişdi. Əgər təhsil sistemində görülən tədbirlər mədəni əlaqələrin yaranması və inkişafına müsbət təsir göstərirdisə, digər tərəfdən çarizm maarif sahəsində ruslaşdırma siyasətini həyata keçiridi.

Türküstanda təhsil sahəsində çar Rusiyasının apardığı siyasət, həm də regiona köçürülmüş rus əhalisinin mənafeyinə xidmət edirdi. Belə ki, hazırkı Özbəkistanın ərazisində 1881-1914-cü illərdə

160 rus-yerli məktəb fəaliyyət göstərmişdi. Bu məktəblərdə təhsil alan 18 min şagirddən 5 minə yaxını yerli əhalidən idi. Eyni zamanda 1903-cü ildə Daşkənddən olan Rəsulxoca Səid Əzimov rus-yerli məktəbləri üçün dərslik yazmışdı.

Daşkənddə kənd təsərrüfatı hidrotexnika /1902/, Səmərqənddə isə bağçılıq və şərabçılıq /1904/ məktəbləri açılmışdı. 1904-cü ildə Daşkənddə dəmiryol-texniki və 1913-cü ildə isə ticarət məktəbləri fəaliyyətə başlamışdı. 1908-ci ildə xüsusi qadın peşə məktəbi təsis edilmişdi.

Əlbəttə, müxtəlif tipli məktəblərin açılması xalqın sosial-iqtisadi və mədəni inkişafında mühüm rol oynayırdı. Lakin ümumilikdə götürdükdə, bu, heç də Mərkəzi Asiya və Qazaxıstan xalqlarının təhsil problemlərinin həll edilməsi demək deyildi. Çünki çar hökuməti Türküstan diyarında xalq təhsilinə 1915-ci il üçün 1 milyon manatdan bir qədər çox pul vəsaiti ayırmışdı ki, bu da 44,5 milyon manatlıq ümumi büdcənin 2,4 faizini təşkil edirdi. Başqa sözlə desək, hər bir adamın təhsil almasına orta hesabla o dövrün pul vahidi ilə ildə 22 qəpik xərclənirdi. Təbiidir ki, hökumətin buraxdığı belə az vəsaitlə nə mədəniyyət, nə də maarifin yüksək inkişaf səviyyəsindən danışmaq mümkündür.

Bu dövrdə xalq maarifinə çəkilən xərclərə, şagirdlərin və məktəblərin sayına görə Rusiya Avropa ölkələri arasında axırıncı yerlərdən birini tuturdu. Rusiyanın özündə də maarif işindəki çatışmazlıqlar bu sahədə xeyli çətinlik yaradırdı. Belə ki, hələ XIX əsrin 60-cı illərinin əvvəllərində Rusiyada əhalinin ümumi sayına görə savadlılar 6 faizdən çox deyildi. Yalnız 1861-ci il islahatından sonra zemstvo, xalq məktəbləri açılmış, orta təhsil ocaqlarının /gimnaziya, realnı məktəblərin/ sayı artmışdı.

Bundan əlavə, Rusiyada hələ 1858-ci ildən qapalı tipli tək-tək qadın gimnaziyaları haqqındakı Əsasnaməyə görə qızların orta təhsil almasına icazə verilirdi. Əlbəttə, Rusiyada maarif sistemində mövcud olan gerilik istər-istəməz Mərkəzi Asiya və Qazaxıstanda da maarif sahəsinə mənfi təsir göstərirdi.

**Elm.** Öyrənilən dövrdə Türküstan diyarında elmin inkişafı sahəsində müəyyən nailiyyətlər əldə edilmişdi.Rus Coğrafiya Cəmiy-

yətinin Türküstan şöbəsi Mərkəzi Asiya və Qazaxıstanın təbiəti, tarixi, bitki və heyvanat aləmi və iqliminin öyrənilməsi sahəsində xeyli iş görmüşdü. Türküstanda buzlaqlar və zəlzələlərin öyrənilməsi ilə əlaqədar olaraq rus alimləri bir sıra tədqiqatlar aparmışdılar. Rus Coğrafiya Cəmiyyəti Türküstan şöbəsinin 1897-ci ildən 1917-ci iləmək olan fəaliyyətinə aid 12 cildlik əsər nəşr edilmişdi.

L.S.Berqin 1908-ci ildə nəşr olunmuş «Aral dənizi» adlı monoqrafiyasında çoxsaylı faktlar gətirilmiş və onlar ümumiləşdirilmişdir. B.A.Fedçenko və onun anası O.A.Fedçenko Türküstanın bitki aləmini öyrənmişdilər. B.A.Fedçenkonun 1915-ci ildə çapdan çıxmış «Türküstan bitkiləri» əsərində Mərkəzi Asiyada 5031 bitki növü olması göstərilirdi.

«Türküstan məcmuəsi»nin nəşrini 1907-ci ildə biblioqraf N.V.Dmitrovski, 1912-ci ildən isə A.A.Semyonov yenidən canlandırmışdılar. 1917-ci ildə məcmuənin çap olunmuş cildlərinin sayı 594-ə çatdırılmışdı. Burada Mərkəzi Asiya və onunla həmsərhəd olan Şərq ölkələrinin tarixi, arxeologiyası, etnoqrafiyası, coğrafiyası, ədəbiyyatı, iqtisadiyyatı, mədəniyyəti və s. bir sıra mühüm məsələlərinə aid zəngin materiallar toplanmışdı. Həmin məcmuə Ə.Nəvai adına Özbəkistan Dövlət ümumi kitabxanasında saxlanılır.

Şərqşünas-tarixçi, akademik V.V.Bartoldun şərq dillərini yaxşı bilməsi ona nəinki Mərkəzi Asiya, eləcə də bütün Şərq ölkələrinin tarixinə aid xeyli sayda ilk mənbəni əsaslı surətdə öyrənməyə imkan vermişdi. Müəllifin Mərkəzi Asiyanın orta əsrlər tarixinə həsr etdiyi «Türküstan monqol istilası dövründə» əsərinin regionun tarixinin öyrənilməsində böyük rolu olmuşdu. "Avropa və Rusiyada Şərqin öyrənilməsi tarixi", «Uluqbəy və onun dövrü», «Türküstanın suvarma tarixinə dair», "Türküstan tarixi", "Türküstanın mədəniyyət tarixi" əsərləri, yüzlərlə məqalə, kitab və başqa tədqiqatları çox qiymətli olub bu günə kimi öz elmi dəyərini itirməmişdir.

Mərkəzi Asiya və Qazaxıstan tarixinin ayrı-ayrı məsələlərinə aid digər rus tədqiqatçıları da qiymətli əsərlər yazmışdılar. V.L.Vyatkin Səmərqəndin tarixini tədqiq etmişdi. O, 1908-ci ildə arxeoloji qazıntılar nəticəsində Səmərqənddə Uluqbəy rəsədxanasının qalıqlarını tapmış, şəhərin tarixi abidələrinin öyrənilməsi və müha-

fizəsi ilə məşğul olmuş, qədim Əfrasiyab şəhəri və onun ətraf yerlərini öyrənmişdi.

Türkmənistanda Rusiyanın hakim dairələrini maraqlandıran onun faydalı qazıntıları, əsasən neft yataqları və istifadə olunmamış məhsuldar torpaqları idi.

Sənaye-maliyyə sahibkarlarını və kapitalistləri birinci növbədə sənaye və kənd təsərrüfatı xammal ehtiyatlarını artırmaq düşündürürdü. Bunu həyata keçirmək üçün coğrafiya, geologiya, torpaqşünaslıq, botanika və sair sahələrdə ayrı-ayrı təşəbbüskar alimlər və bir sıra elmi ekspedisiyalar tədqiqat aparmışdılar. İlk növbədə əsas diqqət neft yataqlarının aşkar olunmasına yönəldilmişdi.

N.İ.Andrusov 1901 və 1912-ci illərdə Krasnovodsk yarımadası, Qaraboğaz göl sahili, Böyük və Kiçik Balxan, Kopetdağın qərb hissəsi və Qubadağın geoloji tədqiqi ilə məşğul olmuşdu. Onun tədqiqatlarının nəticələrinin müəyyən hissəsi 1905-ci ildə nəşr olunmuş «Zakaspi vilayətinin geologiyasına aid materiallar» əsərində öz əksini tapmışdı.

1910-1911-ci illərdə, eləcə də müxtəlif vaxtlarda A.P.İvanov, V.N.Veber və K.P.Kalitski Çələkən adasında geoloji axtarışlar aparmış və onu bu baxımdan geniş təsvir etmişdilər. 1908, 1912 və 1913-cü illərdə K.P.Kalitski Nebitdağı tədqiq etmiş, 1913-cü ildə Boyadağın ilk dəfə olaraq geoloji təsvirini vermişdi. O, 1914-cü ildə Nebitdağın geoloji xəritəsini tərtib etmişdi. N.İ.Andrusovun tələbəsi A.D.Natski 1913-1916-cı illərdə Kiçik Balxan və Kopetdağın qərb hissəsinin dağ silsiləsində geoloji axtarışlar aparmışdı.

Bütün bu axtarış və elmi ekspedisiyaların təşkili, həmçinin tədqiqat əsərləri regionun öyrənilməsi və məhsuldar qüvvələrin inkişafının əsasını qoymuşdu. Praktik cəhətdən iqtisadi mənimsəmə məsələsi bitki və heyvanat aləmi, torpaqşünaslıq və su ehtiyatlarının öyrənilməsi vəzifəsini ön plana çəkmişdi.

1911-ci ildə B.X.Şleqel Amudərya su ehtiyatları vasitəsilə Mərv və Təcən vahələrini suvarmaq imkanları haqqında məsələni öyrənmək üçün ekspedisiya təşkil etmişdi. Aqronom F.İ.Levçenkonun torpaqşünaslıq sahəsində apardığı tədqiqat işləri əsasında 1912-ci ildə «Suvarma məsələsi ilə əlaqədar Qaraqum səhrasının torpağı, yeri və yeraltı suları» əsəri çap olunmuşdu.

Türkmənistanın bitki aləminin öyrənilməsində akademik V.L.Komarovun böyük rolu olmuşdu. Onun «Bitki növlərinin öyrənilməsi haqqında», «Bitkilərin tipləri», «Mədəni bitkilərin əmələ gəlməsi» və sair adda olan əsərləri gələcək türkmən botanikləri üçün mühüm mənbələrə çevrilmişdi.

Türkmənistanın tarix və mədəniyyətinə aid bir sıra arxeoloji tədqiqatlar da aparılmışdı. Arxeoloji abidələrə marağın artması ilə əlaqədar olaraq 1903-cü ildə Aşqabadda Arxeologiya Həvəskarları Cəmiyyəti yaradılmışdı.

1904-cü ildə R.Pampellinin rəhbərliyi altında Amerika ekspedisiyası Anau tarixi abidəsinin şimal və cənub kurqanlarında arxeoloji qazıntı aparmışdı. Əldə edilmiş tapıntıların bir hissəsi Aşqabad diyarşünaslıq muzeyinə verilmişdi.

Memarlıq və tarixi abidələrin uçotu aparılır və onlar qeydə alınırdı. Zakaspi üzrə belə bir siyahını E.E.Teyle tərtib etmişdi. İctimaiyyətin təşəbbüsü ilə Mürğab malikanəsinin rəhbərliyi Bayraməlidəki Sultan Səncər mavzoleyində təmir işləri aparmışdı.

1908-1916-cı illərdə Qırğızıstanda və onunla həmsərhəd vilayətlərdə elmi ekspedisiyalara rəhbərlik edən və ekspedisiyaların iştirakçısı olan iqtisadçılardan P.P.Rumyantsev, botaniklərdən B.A.Fedçenko, V.V.Sapojnikov, torpaqşünaslardan L.İ.Prasolov, A.İ.Bessonov, zooloqlardan V.N.Şnitnikov, geoloqlardan D.İ.Muşketov, K.N.Argentov və başqalarının topladıqları elmi materiallar Moskva, Peterburq və Tomsk universitetlərinin muzeylərinə, eləcə də Vernı /Alma-Ata/ və Daşkəndə göndərilmişdi. Əlbəttə, bunlar çarizm və rus burjuaziyasının marağı naminə həyata keçirilirdi. Amma bununla belə, faktiki olaraq Qırğızıstan, bütövlükdə isə Türküstan diyarının daha dərindən tanınmasına səbəb olmuşdu.

Türküstan diyarında tibb elmi və tibbi yardım sahəsində irəliləyiş olduqca zəif idi. Çar hökumətinin bu işə ayırdığı vəsait, demək olar ki, heç dərəcəsində idi. Hesablamalara görə, 1910-cu ildə Rusiyanın Avropa hissəsində hər bir sakinin tibbi tələbatına 94 qəpik, Mərkəzi Asiyada 50 qəpikdən az, Fərqanə vilayətində 10 qəpik xərclənmişdi. Mərkəzə nisbətən bütün milli ucqarlar üçün bu hal xarakterik idi.

Ümumiyyətlə, Türküstanda dövlətin maliyyələşdirdiyi elmi-tədqiqat idarələrinin olmaması üzündən elmi işlər çox az vəsaitlə

burada yaşayan, əsas etibarilə həvəskarlar və müxtəlif cəmiyyətlər tərəfindən aparılırdı. Elmi işlər dəqiq plan əsasında deyil, ayrı-ayrı alimlərin təşəbbüskarlığı nəticəsində epizodik şəkildə yerinə yetirilirdi. Elmin əsas sahələri olan riyaziyyat, mexanika, fizika və kimya üzrə müvafiq mütəxəssislərin olmaması üzündən tədqiqat işləri aparılmırdı. Təəssüf doğuran cəhətlərdən biri də ondan ibarət idi ki, milli kadr azlığı və elmi axtarışların zəif olması qabarıq şəkildə özünü göstərirdi.

**Dövri mətbuat. Mədəni-maarif müəssisələri.** XX əsrin əvvəllərində Özbəkistanda müxtəlif mövqeləri əks etdirən mətbuat orqanları mövcud olmuşdu. Bunlar həm özbək, həm də rus dilində çap edilirdi. Rus dilində nəşr olunan qəzetlərdən hələ 1898-ci ildən Daşkənddə çıxan «Rus Türküstanı» və 1904-cü ildə Səmərqənddə dərc olunan «Səmərqənd» qəzetlərini göstərmək olar. Bu qəzetlər ayrı-ayrı vaxtlarda müxtəlif istiqamətlərdə fəaliyyət göstərmişdilər.

1905-ci ildən başlayan inqilab dalğasının təsiri altında çar hökuməti bir sıra güzəştlərə getməyə məcbur oldu. Az da olsa «mətbuata azadlıq» verildi. Adı çəkilən qəzetlərin rəhbərliyinə bolşevik-redaktorlar gəldilər /əvvəlcə M.V.Morozov, onun həbsindən sonra isə V.V.Bıxovski və A.V.Xudaş /.Bu vaxtdan etibarən bolşeviklər Türküstanda həmin qəzetlərdən çarizmin milli-müstəmləkə siyasətinin ifşası və marksizm ideyalarının təbliği üçün istifadə etməyə başladılar. Qeyd edilən qəzetlər çar hökuməti tərəfindən təqib olunur, onların redaktorları və işçiləri repressiyaya məruz qalırdılar. Bundan sonra «Rus Türküstanı» qəzeti sadəcə olaraq «Türküstan», daha sonra başqa adlarla, «Səmərqənd» isə «Zərəfşan», «Yeni Səmərqənd» və «Rus Səmərqəndi» adları ilə işıq üzü görmüşdülər. 1906-cı ilin iyulunda Morozov, sonra isə Bıxovski və digər bolşeviklər həbs edilib mühakimə olundular. «Rus Türküstanı» və «Səmərqənd» qəzetləri də bağlanıldı. Eyni zamanda Türküstan diyarında sosial-demokratların ideyalarını yayan və təbliğ edən gizli qəzet və vərəqələr də buraxılırdı.

1905-1907-ci illərin birinci rus inqilabı dövründə cədidçilər özbək dilində 12 qəzet, 2 jurnal, onlarla kitab və broşyur çap etdirmişdilər. Onlar xalqın azadlıq və tərəqqisinin tərəfdarı kimi çıxış edirdilər. Özbək-sovet tarixçiləri isə onları mətbu orqanlarda və əsərlərində panislamist və pantürkist kimi qələmə verirdilər.

XX əsrin birinci onilliyində özbək dilində bir çox adda qəzetin nəşrinə başlanmışdı. Onlardan 1906-cı ildə Daşkənddə nəşr olunan «Tərəqqi» və «Günəş», 1907-ci ildə «Şöhrət», 1908-ci ildə «Asiya» və «Tacir» qəzetlərini, 1912-ci ildə Buxarada çıxan «Turan»ı, 1913-cü ildə Səmərqənddə rus-özbək-tacikcə çap edilən «Səmərqənd» qəzeti və «Ayna» jurnalını, 1914-cü ildə Daşkənddə nəşrə başlayan «Türküstanın səsi» və Kokandda dərc olunan «Fərqanənin səsi» qəzetlərini, 1915-ci ildə Daşkənddə iki həftədən bir çıxan din xadimlərinin buraxdıqları «İslahat» jurnalı və b. göstərmək olar. Həmin qəzetlərin redaktorları imkanlı şəxslər və burjuaziyanın nüfuzlu nümayəndələri olmuşdular. Təəccüblüdür ki, bütün bu qəzetlər burjua millətçiliyi, klerikal ideologiya yaymaqda və «Səmərqənd-torpağın yaraşığıdır, Buxara-islam dininin dayağıdır» kimi mürtəce şüarlar irəli sürməkdə tənqid olunmuşdu. Bizcə, Səmərqənd öz gözəlliyinə görə tarixi abidələr şəhəri olub bütövlükdə muzeyi xatırladır. O, şəhər-muzey kimi dünyada məşhurdur. Buxara isə məktəb-mədrəsələrin beşiyi olaraq bütün dövrlərdə orta və ali təhsilli ruhanilərin yetişdirilməsi sahəsində şöhrət qazanmışdı.

Qeyd edilən qəzetlərin məhdud miqdarda çıxması və oxucu kütlələrinin sayca az olması da bildirilirdi. Onların guya xalq kütlələrinin arzu və istəklərini əks etdirməməsi və xalq tərəfindən müdafiə olunmaması qəzetlərin bağlanmasının səbəbləri kimi göstərilirdi. Yalnız ayrı-ayrı qəzetlər bir ildən artıq çıxa bilirdi.

Ancaq dövlətə məxsus «Türküstan diyarının qəzeti» və din xadimlərinin «İslahat» jurnalı hərtərəfli müdafiə olunduğuna və maliyyələşdirildiyinə görə öz fəaliyyətini davam etdirmişdi. Əlbəttə, hər bir qəzetin öz işini dayandırmasının obyektiv və subyektiv şərtləri var idi.

Türkmənistanda çap işi zəif inkişaf etmişdi. 1914-cü ilə qədər türkmən dilində heç bir qəzet və kitab nəşr olunmamışdı. Nisbətən ardıcıl olaraq «Zakaspi icmalı» /1895-1913/ və «Aşqabad» /1899-1918/ adlı iki qəzet nəşr olunurdu. Aşqabadda türkmən dilində «Zakaspi yerli qəzeti» /1914-1917/ çap edilmişdi.

1913-cü ildə Türkmənistanda başqa dildə cəmi 4 kitab çapdan çıxmışdı. Ümumiyyətlə, Oktyabr çevrilişinə qədərki dövrdə türkmən dilində yalnız bir kitab-klassik türkmən ədəbiyyatından şerlər

məcmuəsi, eləcə də Daşkənd, Səmərqənd, Kazan, Buxara, Həştərxan və Bakıda bir neçə kitab və broşyur nəşr olunmuşdu.

1913-cü ildə Qırğızıstanda Y.B.Silinin redaktorluğu ilə Prjevalsk qəzasının kənd təsərrüfatı cəmiyyətinin «Prjevalskin kənd sahibi» adlı jurnalı nəşrə başladı. 1916-cı ildən Bişkek şəhərində Xodayevin mətbəəsində V.A.Vasilyevin təşəbbüsü ilə «Teleqraf xəbərləri» nəşr olunurdu. «Xəbərlər»də Ümumrusiya teleqraf agentliyinin teleqramları, ayrı-ayrı əmr və sərəncamlar, həmçinin rəsmi materiallar da dərc edilirdi. Bu dövrdə Prjevalsk qəzasında «Kənd təsərrüfatı məcmuəsi» buraxılmışdı. Bu məcmuədə rəsmi sənədlərlə yanaşı, kənd təsərrüfatı üzrə məsləhətlər də nəşr olunurdu.

Təbii ki, bu sadalanan mətbu orqanlar qırğız oxucularına rus dilində təqdim olunurdu. Qırğızıstanın ərazisində dövri mətbuat həm də qazax və tatar dillərində yayılırdı. Yerli əhali ən çox «Türküstan vilayətinin qəzeti», «Aykap», «Ağ yol», «Qazax» və s. qəzet və jurnallardan istifadə edirdi.

Oktyabr çevrilişinə qədərki dövrdə qırğız müəlliflərinin cəmi 4 kitabı nəşr edilmişdi. 1911-ci ildə Ufada akın Moldo Kılıçın «Zəlzələ haqqında poema» əsəri çapdan çıxmışdı. Yenə orada 1913-1914-cü illərdə E.Arabayevin praktikada işlənilməyən ərəb qrafikasında qırğız dilinin əlifbası, O.Sıdıkovun «Qırğızıstanın tarixinin qısa kursu» kitabı nəşr olunmuşdu. Göründüyü kimi, qırğızların mətbuatı bir sıra problemlərlə rastlaşmış, nəşr olunan əsərlərin əksəriyyəti qonşu, qohum və əcnəbi dillərdə, həmçinin başqa yerlərdə çap edilmişdi. Bunun da nəticələri mədəniyyətin inkişafına öz mənfi təsirini göstərmişdi.

XX yüzilliyin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanın mətbuatı dövrün xüsusiyyətlərini özündə əks etdirirdi. Bu dövrdə Qazaxıstanda, bəzən də onun hüdudlarından kənarda qazax dilində qəzet və jurnallar nəşr olunurdu.

Belə ki, «Boz at» /Peterburq/, «Qazax» /Orenburq/, «Qazaxıstan» /Urda/, «Zaman dili», «Alaş» /Daşkənd/ qəzetləri və «Aykap» /Troitsk/, «Abay» /Semipalatinsk/ jurnalları çıxmağa başlamışdı. Qazaxıstan yazıçıları xalqın həyatından bəhs olunan məqalələri ilə «Vaxt» qəzetində, tatar dilində Orenburqda çıxan «Şura» və Troitskdə qazax dilində nəşr olunan «Akmolla» jurnallarında çıxış edirdilər.

Əlbəttə, nə qədər çar senzurası qoyulsa da, ayrı-ayrı müəlliflər dövrün problemlərindən söz açır, öz fikirlərini və mülahizələrini bildirirdilər. Demokratik dünyagörüşünə malik olan yazıçılar, jurnalistlər öz bədii əsərlərində və məqalələrində daha aktual məsələləri, xalqın bilik və mədəniyyətə can atmasını, milli azadlığa olan meylləri və bir sıra ictimai-siyasi problemlər qaldırırdılar. Nəşr olunan yazılarda köçərilikdən oturaq həyat tərzinə keçid, iqtisadi məsələlər də öz əksini tapırdı. Ancaq bununla yanaşı, onlar eyni xalqın arasında varlı-yoxsul, bəy-xanla rəiyyət qarşıdurması, ümumən cəmiyyətdəki ziddiyyətləri də ifadə etməkdən çəkinmirdilər. Başqa sözlə, eyni xalqı parçalayır və onları bir-birinə düşmən edirdilər.

Bununla yanaşı çarizmin müstəmləkəçilik siyasətini həyata keçirən qəzetlər də çap olunurdu. Omskda qazax dilində buraxılan Qərbi Sibir general-qubernatorluğunun rəsmi orqanı «Akmolinsk vilayət xəbərləri»nin əlavəsi «Çöllük diyarı» qəzeti bu qəbildən idi.

1913-cü ildə Orenburqda çıxan «Qazax» adlı qəzetin naşirlərinə müxtəlif yarlıqlar vurulmuşdu. Qəzet irticaçı burjua millətçilərinin ideyasını təbliğ edən, qazax cəmiyyətinin aradan qaldırılmaqda olan «feodal-patriarxal özül»ünü müdafiəyə qalxan, qazax əhalisini rus xalqına qarşı qoyan və s. kimi qələmə verilirdi. Bununla belə qəzetin həm də rus çarizmini müdafiə etməsi göstərilirdi.

1911-1915-ci illərdə nəşr olunmuş «Aykap» /«Təəssüf»/ jurnalı qazax ədəbi dilinin formalaşması və publisistikanın inkişafına xeyli təsir göstərmişdi. Jurnalda xalqın öz hüququnu dərk etməsi ilə bağlı məsələlər qaldırılır, bəzi ictimai-siyasi problemlər ön plana çəkilirdi. «Aykap» təşəkkül tapmaqda olan gənc qazax burjuaziyasının müəyyən hissəsinə arxalanır, xalqın maariflənməsi və demokratiyaya əsaslanırdı. Jurnalın səhifələrində peşəkar yazıçı və jurnalistlərlə birlikdə kənd müəllimləri və qadınların da yazılarına yer verilirdi. Lakin «Aykap» jurnalı siyasi mövqeyində ardıcıl demokratik xətt yürüdə bilmirdi.

Oktyabr çevrilişinə qədər Qazaxıstanda nəşr olunan qəzet və jurnalların tirajı 1000 nüsxədən çox deyildi. Hər il 15-ə qədər kitab çap edilirdi. Bu dövrdə Qazaxıstanda müstəqil nəşriyyat və mətbəə yox idi. Çap olunan qəzet və jurnallar çar senzurası tərəfindən həmişə izlənilir və çox böyük çətinliklə çıxırdı. Bəzən də onlar

Qazaxıstandan kənarda nəşr edilirdi. Bundan başqa, müəyyən qəzetlər ayrı-ayrı sənədlərin nəşrinə əlavə kimi çap olunurdu.

Kitablar adətən Kazan, Peterburq, Orenburq, Troitsk, Semipalatinsk, Uralsk və Qazaxıstanın bəzi şəhərlərində çap edilirdi. Qazax xalqının şifahi yaradıcılıq nümunələrinin çapından başqa, yazıçı və şairlərin ictimai həyatın müxtəlif sahələrinə toxunan əsərləri də nəşr olunurdu. 1909-1911-ci illərdə Abayın şerlər məcmuəsi, S.Donentayev və S.Torayqırovun əsərləri çapdan çıxmışdı. Rus şair və yazıçılarının əsərləri qazax dilinə çevrilib nəşr edilmişdi. İbtidai məktəblər üçün qazax dilində dərsliklərin buraxılmasına başlanılmışdı.

Beləliklə də, ölkənin iqtisadiyyatının zəif olması və çar hökumətinin Rusiyanın milli ucqarlarında mədəniyyətə qayğı göstərmək istəməməsinə baxmayaraq, XX əsrin əvvəllərində Türküstan diyarında elmə maraq artır, qəzet, jurnal və kitab nəşri genişləndirilir, kitabxanalar açılır və onların fondları zənginləşdirilirdi.

Daşkənddə ümumi kitabxana və Tokmakdakı qəza kitabxanası /1870/, Zakaspi vilayətində 15 min fondu olan ümumi kitabxana /1896/ XX yüzilliyin əvvəllərində də fəaliyyət göstərirdi. Zakaspi vilayətindəki kitabxana və 1899-cu ildə açılmış muzey üçün xüsusi bina inşa olunmuşdu /1902/. 1904-cü ildə muzeydə zoologiya, botanika, geologiya-mineralogiya, etnoqrafiya və arxeologiyaya aid kolleksiyalar yerləşdirilmişdi. Muzey daim ölkənin bir sıra cəmiyyətləri və Rusiya İmperator Elmlər Akademiyası ilə əlaqə saxlayırdı. Rus alimlərindən N.İ.Andrusov, İ.V.Muşketov, N.A.Zarudno, Q.İ.Radde, V.İ.Lipski və başqaları öz elmi-tədqiqat işləri üçün muzeydə toplanan materiallardan istifadə etmişdilər. Amma bəzən də arxeoloji qazıntı nəticəsində tapılmış çox nadir və qiymətli eksponatlar Rusiya imperiyasının mərkəzi şəhərlərinin muzeylərinə göndərilirdi. Hətta sovet dövründə belə bu ənənə davam etdirilir və arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət qalıqları yerli-milli muzeylərdə saxlanılmırdı. Məsələn, bütövlükdə qızıldan düzəldilmiş öküz başı eksponatının maketi Aşqabad diyarşünaslıq muzeyində nümayiş etdirilmək üçün «yadigar» olaraq muzeyə verilmiş, əsli isə «saxlanılmaq» üçün Leninqraddakı /indiki Sankt-Peterburq/ Ermitaja göndərilmişdi.

1902-ci ildə Prjevalskdə şəhər əhalisinin vəsaiti hesabına ilk xalq qiraət-kitabxanası açılmışdı. Kitabxananın qiraət zalında müxtəlif məzmun və mündərəcalı qəzet və jurnallar var idi. Ayrı-ayrı oxucular kitabxanaya hədiyyə olaraq qəzet və jurnallar verirdilər. Kitabxanaya onun fəxri üzvü olan N.M.Barsov 38 qiymətli elmi kitab bağışlamışdı. 1903-cü ildə qiraət-kitabxananın 4957 nəfər oxucusu olmuşdu. Maddi cəhətdən çətinlik çəkən bu kitabxanaya Prjevalsk şəhərində fəaliyyət göstərən həvəskar incəsənət dram dərnəyi köməklik göstərirdi.

1908-ci ildə Semireçye vilayəti hərbi qubernatorunun icazəsi ilə Prjevalsk şəhərində müsəlmanların qiraət-kitabxanası təşkil olunmuşdu. Eyni zamanda Tokmakda sahə qiraət-kitabxanası /1912/, Bişkek şəhər ümumi qiraət-kitabxanası /1916/ və «Şurayi-islam» müsəlman cəmiyyətinin ümumi qiraət-kitabxanası, Oşda xalq qiraət-kitabxanası /1917/ açılmışdı. 1920-ci ilin məlumatına əsasən, Bişkek şəhər ümumi qiraət-kitabxanasının fondunda 1795 kitab, müsəlman cəmiyyətinin ümumi qiraət-kitabxanasında isə 500 kitab saxlanılırdı.

Bütün bu kitabxanalar əsasən şəhər əhalisinin tələbini ödəyirdi, yerlilərin isə yalnız savadlı olan az bir hissəsi onlardan istifadə edirdi. Bundan əlavə məktəblərin nəzdində də kitabxanalar fəaliyyət göstərirdi.

**Ədəbiyyat.** Mərkəzi Asiya və Qazaxıstan xalqlarının ədəbiyyat və incəsənəti özünəməxsus şəkildə inkişaf etmişdi. Təbii ki, əsrlərdən gələn ədəbi-mədəni ənənələr, çar rejimi, müstəmləkə həyatı keçirən xalqların taleyi ədəbiyyata öz təsirini göstərmişdi. Dövrün və zamanın müstəmləkə əsarəti bu sahədə başlıca təsiredici amil və faktor sayılmalıdır.

Qeyd etmək lazımdır ki, bu regionların mədəniyyət, ədəbiyyat və incəsənətinin inkişafını rus imperiyası öz xidməti, kömək və yardımı ilə bağlayırdı. Əlbəttə, Rusiyadakı ictimai-siyasi həyatın, iqtisadi problemlər və mədəni prosesin ona göstərdiyi müsbət cəhətləri də görməmək doğru olmazdı. Lakin bütövlükdə çarizmin törətdiyi maneələr və çətinliklərin təsiri də etiraf edilməlidir. Sözsüz ki, Türküstan diyarı xalqlarının ədəbi-bədii yaradıcılığı sahəsindəki

nailiyyətləri ilk növbədə onların özlərinin qazandıqları mənəvi sərvətlərdir.

Özbək ədəbiyyatı bir-birinə əks olan cəbhələrdə fəaliyyət göstərən zümrələrin kəskin mübarizəsi fonunda yaradılır və inkişaf etdirilirdi. Yeni şərait ədəbi istiqamətlərin xarakterini müəyyən edir və onların bir-birinə olan münasibətlərini açıqlayırdı. Ədəbi mühitdə müxtəlif cərəyanlar, xüsusən cədidçilər öz fəaliyyətini genişləndirmişdilər. Lakin onların maarif-mədəniyyət sahəsində gördükləri işlərə düzgün qiymət verilməmiş və əksinə, bu işlər kəskin şəkildə tənqid edilərək cədidçilər hərəkatı əksinqilabi hərəkat adlandırılmışdı. 1906-cı ildə cədidçilərin rəhbərlərindən biri olan Behbudi yazmışdı: «Biz müsəlmanlara RSDFP-yə daxil olmaq böyük zərər gətirər. Sosial-demokratların Proqramı şəraitə uyğun deyildir. Cədidçilər yeni üsullu məktəblər, dövri mətbuat və ədəbiyyat məcmuələri vasitəsilə xalqa müraciət edərək öz diyarları, müsəlman mədəniyyətinin geridə qalması, Türküstanın bütün əhalisinin maraqlarının ahəngdarlığı haqqında milli ideologiyalarını yayırdılar». XIX əsrin axırlarında şair Furkat özbək və tacikləri mütərəqqi rus mədəniyyətini öyrənməyə çağırdığı halda, cədidçilər öz növbəsində ərəb və türk mədəniyyəti bazasında dünyəvi bilikləri təbliğ edirdilər. Əgər Mukimi öz satiralarında varlıları, mollaları, bütövlükdə ruhaniləri tənqid edir və zəhmətkeş insanlarda onlara qarşı nifrət oyadırdısa, cədidçilər bütün türklərin birliyi, müsəlman millətləri haqqındakı ideyalarını müdafiə və təbliğ edirdilər.

Müasir dövrdə həmin qütblərdə dayanan qrupların hansının haqlı olduğunu göstərmək o qədər də çətin deyildir. Amma o zaman bütün təbliğat növləri mövcud hakimiyyətin mənafeyinin müdafiə edilməsinə yönəldilir və bunun əleyhinə olanlar isə əksinqilabçı kimi damğalanırdı.

XX əsrin əvvəllərinə aid ədəbiyyatda «mütərəqqi ictimai fikrin nümayəndələri»nin çarizmin müstəmləkəçilik siyasəti, orta əsr «qalıqlar»ı və cədidçilərin millətçi burjua ideologiyalarına qarşı müxtəlif forma və üsullarda mübarizə aparmaları göstərilir. Bu dövrdə artıq ədəbi cərəyanların xarakteri müəyyənləşir, «mürtəce» və «mütərəqqi» cərəyanlar arasında gedən mübarizə daha da güclənirdi. Mürtəce dedikdə əsasən cədidçilərin yaratdığı ədəbiyyat təsəvvür

edilirdi. Cədidçilərin ədəbiyyatının başlıca məqsədi yerli kapitalın mənafeyini müdafiə etmək idi. Onların fəaliyyətindəki millətçilik xarakteri isə panislamizm və pantürkizm ideyalarını açıq surətdə təbliğ etmələrində görülürdü. Cədidçilərin xarici ölkələrin panislamist və pantürkistləri ilə əlaqə saxlamaları, Türkiyədə təhsil almaları da bildirilirdi. Türküstanda yerli burjuaziya ildən-ilə daha çox öz nümayəndələrini Türkiyə, Misir və başqa ölkələrə göndərirdi. 1911-ci ildə İstanbulda 15, 1912-ci ildə isə 30 nəfər gənc buxaralı təhsil alırdı.

Tarixən dünya xalqları arasında siyasi, iqtisadi və mədəni əlaqələr mövcud olmuşdur. Eyni kökdən olan türk xalqlarının elmi, mədəni əlaqələrinin məqsədli xarakter daşımasını irəli sürmək, onları panislamizm və pantürkizm adı altında millətçilikdə günahlandırmaq şüurlu surətdə yürüdülən siyasətin nəticəsi idi.

Cədidçi yazıçılar guya milli-azadlıq hərəkatına, xalq maarifinə və müxtəlif millətlərin zəhmətkeşlərinin dostluğuna qarşı çıxırdı. Bu, həm də onların xalqın mədəni irsinə münasibətində də özünü göstərirdi. Belə ki, onlar mürtəce yazıçılardan Yassəvi, Bəkirqani, Sufi Allayar və b. ideallaşdırır, mütərəqqi yazıçılardan Nəvai, Mukimi və Furkatın yaradıcılığını saxtalaşdırmağa çalışır, hətta onların əsərlərindən imtina etmək məsələsini qaldırırdılar. Buna misal olaraq 1906-cı ildə cədidçilərdən Münəvvər Kari yazmışdı ki, əgər biz şagirdə oxumaq üçün Füzulinin əsərlərinin əvəzinə-qiraət kitabı, Nəvainin əvəzinə-doqma haqqında elm, Bedilin əvəzinə-hesab, Hafizin əvəzinə-praktik bilik versək, bu daha çox faydalı olar və şagird əsl müsəlman kimi yetişər.

Cədidçilər özbək ədəbi dilinə türk dilindən götürülmüş sözlər və üslublar əlavə etmişdilər. Özbək tarixçilərinin şərhinə görə, cədidçilərin ədəbiyyatı həqiqi bədiilik, realizm və həyat həqiqətindən uzaq olduğuna görə, özbək xalqının mənəvi mədəniyyətində dərin izlər qoya bilməmişdir.

Yenilikçilik və türkçülüyün tərəfdarı olan cədidçilərin xalq maarifinə, milli-azadlıq hərəkatına, xalqlar dostluğuna qarşı çıxmasının həqiqətə uyğun olması şübhə doğurur. Lakin Füzuli, Nəvai və Hafiz kimi dünyəvi şairlərin yaradıcılığına cədidçilərin münasibətinin yanlış olması göz qarşısındadır.

Demokrat yazıçı adlananlar isə xalqın mənafeyini müdafiə edir, onun ağır həyat tərzini və istismarçıların əsarətinə qarşı qəzəbini göstərir, xalqı maariflənməyə çağırır, rus mədəniyyəti ilə həmrəy olduğunu bildirir, panislamizm və pantürkizm, həmçinin cədidçilərin əleyhinə mübarizə aparırdılar. Digər tərəfdən isə, onlar sələfləri olan klassik ədəbiyyatın ənənələrini davam etdirir, yaradıcılıqda isə realizm metodunu əsas götürürdülər.

Əgər müasir baxımdan yanaşılarsa, onda aydın olar ki, həmin yazıçıların yaradıcılığı nə qədər çoxcəhətli, mürəkkəb, təzadlı və ziddiyyətli olmuşdur. Bu yazıçılardan Zavki, Əvəz, Ayni, Həmzə və b. əsərlərinin müntəzəm surətdə çap olunması və təbliği onların şöhrətlənməsinə kömək etmişdir. Onlar öz əsərlərində xalqın mənafeyini müdafiə etmək prinsipini əsas götürsələr də, bəzən bir çox məsələlərə öz zümrələrinin mövqeyindən yanaşırdılar. Əvəz Otar oğlu «Xalq» şerində bir tərəfdən xalqı istismar edənləri ifşa edirdisə, digər tərəfdən bu istismardan azad olmaq yolunu islam dinində deyil, maarifdə axtarmağı vacib sayırdı. «Məktəb», «Dil» şerlərində cəmiyyətin və xalqın inkişafı üçün xalq maarifi və elmin əvəzsiz əhəmiyyətə malik olmasını qeyd edirdi.

Həmzə Həkimzadə demokrat-maarifçi kimi öz məktəbini təkcə yeni üsullu deyil, «darulaytom»- kasıb və yetimlər üçün məktəb adlandırmışdı. O, 1914-1916-cı illərdə 20-dən çox məqalə və broşyur yazmışdı. 1915-ci ildə nəşr olunmuş «Yeni xoşbəxtlik» romanında cədidçiləri kəskin tənqid etmişdi. Çap olunmuş «Milli mahnılar» adlı məcmuəsində /1916/ göstərirdi ki, varlıların və din xadimlərinin məqsədi xalqı soymaqdır. Bununla da onun maarifçilik mövqeyindən inqilabçılıq mövqeyinə keçməsi bildirilirdi. Əlbəttə, bütövlükdə bunlara əsla haqq qazandırmaq olmaz.

Özbəklərin şifahi xalq ədəbiyyatında dövrün xarakterik amilləri öz əksini tapmışdı. Xalq nəğmələrindən olan «Min lənət», xalq nağılçısı və şairi Pulkanın «Mərdikor» dastanı, xalq baxşısı Fazil Yuldaş oğlunun «Çəyirtkə», «Aclıq» və b. mahnıları həmin dövrün xalq yaradıcılığının nümunələri idi.

Türkmən xalqının istər şifahi, istərsə də yazılı ədəbiyyatı sahəsində müəyyən nailiyyətlər əldə edilmişdi. Təsadüfi deyildir ki, rus tədqiqatçıları Türkmənistanın folkloru, ədəbiyyatı və poeziyası va-

sitəsilə bu diyarın həyatını və tarixini öyrənirdilər. Bununla da türkmən tapmacaları, nağılları və eposları, əfsanələri, zərbi-məsəlləri və atalar sözləri, bu sahəyə qətiyyən birbaşa dəxli olmayan, həmin biliklərə yiyələnməmiş adamlar tərəfindən yazıya alınır, tərcümə edilir və çap olunurdu. Məsələn, D.N.Loqofetin «Unudulmuş ölkədə», «Buxaranın dağları və düzənliklərində», «Mərkəzi Asiyanın sərhəd rayonlarının həyatından oçerklər», «Mərkəzi Asiyanın sərhədlərində» və s. kitablarında bir çox türkmən nağıl və əfsanələri verilmişdir. Bir sıra nağıl və atalar sözü türkmən dilinə bələd olan İ.A.Belyayevin çap etdirdiyi «Türkmən dilinin qrammatikası» kitabında dərc olunmuşdu. Onun «Rus-türkmən lüğəti» kitabında da bəzi atalar sözləri verilmişdi. Qeyd edilən kitablarda türkmən folkloru haqqında geniş məlumat olmasa da, hər halda onunla tanışlığın bünövrəsi qoyulmuş və bu sahənin öyrənilməsinə başlanılmışdı. Bu folklor materiallarında türkmən xalqının həyat tərzi öz əksini tapmışdır.

Beləliklə, türkmən folkloru özünün forma və məzmununa görə çox zəngin və rəngarəng olub qədim, mədəni irsi qoruyub saxlamaqla yanaşı xalqın ictimai-siyasi həyatını da özündə əks etdirirdi.

Bu vəziyyəti türkmən klassik ədəbiyyatı və türkmən xalqının eposlarının öyrənilməsi sahəsində də görmək mümkündür. Rus alimlərindən V.V.Bartold, İ.N.Berezin, A.Y.Krımski və b. əsərləri türkmən ədəbiyyatşünaslığının inkişafına əhəmiyyətli töhfələr olmuşdur. Nəticədə rus-türkmən ədəbi-mədəni əlaqələri yaranır və genişlənirdi. Bununla da zəngin, qabaqcıl rus mədəniyyətinin türkmən xalqının mədəniyyətinə və eləcə də cəmiyyətinə təsir göstərməsi, türkmən dilinin lüğət tərkibinə yeni-yeni sözlərin daxil olması və onun zənginləşdirilməsi prosesi gedirdi.

Sözsüz ki, dünya xalqları arasında mədəni əlaqələrdə qarşılıqlı faydalanma təqdirəlayiqdir. Amma burada «yüksək»-«zəif», «qabaqcıl»-«geridə qalmış» xətti yürüdülmədən xalqların mədəni irslərinin qorunub saxlanılması və onun daha da inkişaf etdirilməsi əsas götürülməlidir. Digər bir tərəfdən isə, hər bir dilin lüğət tərkibinin təmizliyinin qorunub saxlanılması, onun «özgə», «yabançı» təsirlərə məruz qalmasının qarşısının alınması, o xalqın özünün bu sahədə

çalışan mütəxəssislərinin əsas vəzifəsidir. Xalqı yaşadan onun dilidir, onu hifz etmək isə hər bir vətəndaşın müqəddəs amalı olmalıdır.

Türkmən klassik ədəbiyyatının banisi Məxdumqulunun ənənələrini əsas tutaraq, dövrün xarakterik xüsusiyyətlərini öz əsərlərində təcəssüm etdirən söz ustaları öz xalqına məxsus ən yaxşı cəhətləri-vətənə məhəbbət, azadlığı sevmək, qonaqpərvərlik, dostluğa sadiqlik və s. əsas götürürdülər. Bu irsə sadiq qalan şairlərdən Kormolla, Durdı Klıç cəmiyyətdəki haqsızlıqlara qarşı mübarizəyə üstünlük verirdilər. Durdı Klıç «Çiqir», «Çatma», «Şalaş», «Varlılar», «Kasıblar» adlı şerlərində kəndlilər və qadınların ağır həyatını göstərmişdi.

Qırğız xalqı zəngin özünəməxsus mənəvi mədəniyyətin varisidir. Özünün çoxəsrlik tarixində o, bir çox şifahi ədəbiyyat inciləri, o cümlədən dünya şöhrətli «Manas» eposunu yaratmışdır. Xalq bu eposu nəsildən-nəslə daha da zənginləşdirmişdir. Ona görə də XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində də «Manas» eposu təkcə qırğızların deyil, eyni zamanda səyyahların və tədqiqatçıların da tez-tez müraciət etdiyi, xalqın tarixini və bədii dühasını öyrənmək üçün etibarlı bir mənbə idi. «Manas» eposuna xüsusi maraq göstərmiş Çokan Vəlixanov onu bütün qırğız mif, nağıl və rəvayətlərinin «ensiklopedik toplusu» saymış və eyni zamanda onları bir şəxsin-qəhrəman Manasın ətrafında qruplaşdırılması kimi qiymətləndirmişdi.

Şərqşünas alim V.V.Radlov «Manas» eposunun rus transkripsiyasında qırğız dilində olan qısaldılmış variantını yazıya köçürmüş və eyni zamanda onu alman dilinə tərcümə etmişdi. O, «Manas»da xalqın bütün həyat və mübarizəsinin poetik inikasını görürdü.

Macar alimi Q.Almaşi «Manas»dan bir parçanı /«Manasın oğlu ilə vidalaşması»/ alman dilinə tərcümə etmiş və 1911-ci ildə Budapeştdə nəşr olunan şərqşünaslığa aid jurnalda çap etdirmişdi. «Manas»ın bir hissəsi isə Kazanda nəşr olunmuşdu. Qırğız eposu ilə rus rəssamı B.V.Smirnov da çox maraqlanmışdır. O, 1903-cü ildə Bişkekə təşkil edilmiş elmi ekspedisiyanın üzvü kimi Çu vadisində məşhur manasçı /nağılçı/ Kenjə Kara ilə görüşmüş və onun ifasında fonoqram kimi «Semetey»dən parçalar yazmışdı. 1914-cü ildə Moskvada nəşr olunmuş «Türküstan çöllərində» adlı kitabına həmin hissəni daxil etmişdi.

Qırğız xalqının varlığını özündə təcəssüm etdirən «Manas» eposunun müəyyən vaxtlarda nəşrinin dayandırılmasına baxmayaraq, o həmişə sevilə-sevilə oxunur və elmi, ədəbi – mədəni mənbə kimi qorunub saxlanılır. Dastanın minilliyinin YUNESKO vasitəsilə keçirilməsi bunu bir daha təsdiq edir.

«Manas»la yanaşı qırğızların «Er Toştyuq», «Kurmanbay», «Er Tabıldı», «Janıl Mırza» və s. eposları da vardır. Xalq arasında geniş yayılmış sosial-məişət və romantik nağıl məzmunlu epik poemalardan «Olcoboy və Kişimcan», «Sarinji Bököy», «Mendirman» və s. adətən xalq təntənələrində və ailə şənliklərində ifa olunurdu. Bu əsərlərdə macəra süjetləri və ailə-məişət konfliktləri əks etdirilmişdir. Köləliyə qarşı çevrilmiş sosial satira nümunəsi kimi «Kedeykan» poeması xalq arasında öz əvvəlki şöhrətini saxlamışdır. «Boğazlı qaloş geymiş Qaraqul» əsəri kalmık işğalçı feodallarının sıxışdırılmasına həsr edilmişdir.

Qırğız folklorunda qəhrəmanlıq poemaları, rəvayətlər və nağıllarla yanaşı lirik, əmək və məişət nəğmələri də yaranmışdır. Həmişəyaşar məişət nəğmələrində-«Bəkbəkey», «Şırıldan», «Opmayda» və s. xalqın əmək fəaliyyəti tərənnüm olunur.

Qırğızların istər eposları, istərsə də mahnılarını əsasən akınlar yaradır və ifa edərək yaşadırlar. XX əsrin əvvəllərində akın Moldo Kılıç Şamırkanovun yaradıcılıq fəaliyyəti daha geniş olmuşdu. O, «Bürküttün toyu» /«Quşların toyu»/ əsərində xalqın yoxsulluğunun başlıca günahını cəmiyyətdə deyil, ayrı-ayrı adamların fəaliyyətində görürdü. Ümumiyyətlə, M.Kılıçın əsərlərində xalqın maddi-rifahının yüksəlməsi üçün əmtəə-pul münasibətlərinin mühüm vasitə olması qeyd edilirdi. Onun fikrincə, Qırğızıstanın Rusiya tərəfindən işğal olunması əski gözəl günlərə zərbə vurmuşdu. Buna əsaslanaraq yazırdılar ki, Moldo Kılıç tatar və qazax millətçi burjuaziyası, panislamizm və pantürkizm ideologiyasına yad deyildi.

Osmonalı Sıdıkov feodalizmin tərənnümçüsü və həm də yeni yaranan milli burjua ideologiyasının tərəfdarı olmuşdur. O, yeni üsullu məktəbin yetirməsi olub, «Muxtasi tarix Kirqiziya» /«Qırğızıstanın tarixinin qısa kursu»/ əsərində xan və bəyləri tərənnüm edirdi. O.Sıdıkov öz yazılarında həm keçmişdə, həm də yaşadığı dövrdə qırğız və qazaxların müəyyən təbəddülat baş vermiş

cəmiyyətdə yaşadıqlarını göstərməyə çalışır, müsəlman millətinin birliyi və onun müstəqil inkişafı haqqında millətçi-burjua görüşlərinə üstünlük verirdi.

Bununla belə o, çarın 1905-ci il 17 oktyabr manifestini alqışlayır, onu «ağ çarın ədaləti» kimi qiymətləndirirdi. O, həm də maarifçilik sahəsində islahatları müdafiə edir və idarəedici zümrələri geriliyi aradan qaldırmağa çağırırdı.

Demokratik fikirli akınlar isə «Rusiyanın əməkçi xalqı»nı, «qabaqcıl rus mədəniyyəti»ni, «ictimai-siyasi həyatı»nı ön plana çəkir, qırğız xalqının dünyagörüşünü genişləndirir, cəmiyyəti inkişaf etdirmək üçün onun ideologiyasının daşıyıcısı olmaqla zəhmətkeş kütlələrin mənafeyinin müdafiəçiləri sayılırdılar.

Onlar həm də çar məmurları və yerli bəyləri tənqid edir, sosial haqsızlığa qarşı mübarizə aparırdılar. Belə akınlardan Toktoqul Satılqanov, Toqolok Moldo, Barpı Alıkulov, Kalık Akiyev, Alımkul Usenbayev və b. göstərmək olar.

Qazax milli ədəbiyyatının, ümumilikdə, mədəniyyətdə olduğu kimi, iki istiqamətdə inkişaf etməsi göstərilir. Biz bu məsələyə öz münasibətimizi əvvəldə bildirmişik. Qazax ədəbiyyatı bir tərəfdə maarifçi şairlərdən Abay Kunanbayev, İbrahim Altınsarın kimi realist şairlərin ənənələrini davam etdirən və demokratik adlanan yazıçılardan Məhəmmədcan Seralin, Spandiar Kobeyev, Sultan Mahmud Torayqırov, Sabit Donentayev və b. ilə xarakterizə olunurdu. Digər tərəfdən isə, millətçi-burjua və feodal-klerikal yazıçıların fəaliyyət göstərməsi qeyd edilir. Bu yazıçıların isə öz əsərlərində «Zərzaman» ədəbi cərəyanı üçün xarakterik olan pessimizm və mistisizmə üstünlük verməsi göstərilirdi. Belə ki, guya onlar xalq əleyhinə olan millətçi-burjua ədəbiyyatı yaradırdılar ki, bu da bəylərin mənafeyini müdafiə etməyə yönəlmişdi. Eyni zamanda milli-azadlıq pərdəsi altında qazax xalqının iqtisadiyyatı və mədəniyyətinin təcrid olunmasını təbliğ edirdilər. Başqa sözlə, «mürtəce» yazıçılar öz əsərlərində Qazaxıstanın keçmiş xanlığını idealizə edir, feodal və bəylərin müdafiəsini verirdilər. Feodal-bəy «mədəniyyəti»nin ideoloqları, millətçi-burjua və feodal-klerikal yazıçılar qazax xalqını inkişaf etmiş qabaqcıl rus mədəniyyətindən ayırmağa, bu mədəniyyətin geniş xalq kütlələrinə çatmasına maneçilik törətməyə

çalışırdılar. Millətçi-burjua ziyalılarının bir hissəsi ədəbiyyata ancaq cəmiyyətin hakim təbəqələrini əyləndirmək və zövq almaq üçün bir vasitə kimi baxırdılar.

Əlbəttə, məsələni bu cür qoymaq düzgün deyildir. Ona görə ki, bu konsepsiya xalqın mənəvi potensialını təşkil edən yaradıcı ziyalıları bir-birinə qarşı duran qüvvələrə parçalayır və yerli əhalini öz milli mədəniyyətindən uzaqlaşdırırdı.

Demokratik yazıçılar isə göstərirdilər ki, ancaq mədəniyyəti xalq arasında yaymaqla onu yüksəltmək olar. Onlar feodal-patriarxal quruluşu, bəylərin təzyiqini və qadın hüquqsuzluğunu tənqid etməklə xalqa siyasi və mədəni geriliklərini anlatmaq, dolayı yolla isə mədəni geriliyi aradan qaldırmaq üçün mübarizə aparmaq ideyasını çatdırırdılar.

Bəs demokratik yazıçıların arqumentləri nə idi?

Tarixi ədəbiyyatda demokratik yazıçıların əsərlərində qazax feodal-patriarxal həyatının realistcəsinə əks etdirilməsi qeyd olunur. Buna misal olaraq Spandiar Kobeyevin «Kalın-mal» romanı göstərilir. Romanda feodal-patriarxal quruluşa qarşı mübarizə verilir. Belə ki, əsərin qəhrəmanı olan adamlar köhnə həyata, əhəmiyyətini itirmiş adət-ənənələrə qarşı çıxaraq ona tabe olmaq istəmir və öz səadətləri uğrunda mübarizə aparıb ona çatırlar.

Belə bir konsepsiya irəli sürülürdü ki, guya xoşbəxtliyin yolu öz xalqının əslinə-kökünə qarşı çıxmaq hesab edilirdi. Əlbəttə, bəzən dövrünü keçirmiş, əhəmiyyətini itirmiş adət-ənənələr ola bilər, lakin burada söhbət onun daha yenisi və mütərəqqisi ilə əvəz edilməsi və ya təkmilləşdirilməsindən getməlidir. Çünki xalqın adət-ənənəsi onun keçmişi, gələcəyi və bütövlükdə həm də onun varlığı deməkdir.

Sultan Mahmud Torayqırov «Kamar Sulu» /«Gözəl Kamar»/, «Kim ayıptı?» /«Kimdir günahkar»/ romanlarında qazax xalqının həyatının ümdə məsələləri olan kəskin sosial problemlər qaldırmışdır. O, xalqı maarifləndirməyə çağırır, həqiqi maarifçiliyin mahiyyətini açır, molla və işanların fəaliyyətini tənqid edirdi. Eləcə də qeyd edilir ki, yazıçı feodal-patriarxal görüşlərdən azad olub qazax cəmiyyətindəki ziddiyyətləri görə bilməmişdir. Bu da onu fevral burjua-demokratik inqilabının baş verdiyi dövrdə burjua millətçilə-

rinin cəbhəsinə gətirib çıxarmışdı. Zənnimizcə, bu ədəbi gediş yazıçını sövqi-təbii yolla daha düzgün istiqamətləndirmişdir.

Digər tərəfdən isə molla və işanlara qarşı mübarizə, dinin gerilik, sxolastika kimi göstərilməsinə Mərkəzi Asiya və Qazaxıstan xalqlarının tarixində və ədəbi-mədəni həyatında xeyli yer verilmişdir.

Əlbəttə, ayrı-ayrı molla və din xadimləri istər tədris prosesində, istərsə də ictimai həyatda müəyyən qüsur və nöqsanlara yol verə bilər. Buna bəlkə də haqq qazandırmaq mümkündür. Amma ümumilikdə islam dininə qarşı çıxmaq düşünülmüş şəkildə yürüdülən dövlət siyasətinin real nəticəsi idi. Sözsüz ki, bu da ədəbi-mədəni mühitdə öz əksini tapmışdı.

Qazax yazılı ədəbiyyatından əvvəl meydana çıxmış şifahi ədəbiyyatı onlarla akın, xalq şairi yaratmışdı. XX əsrin əvvəllərində qazax xalqının şifahi xalq yaradıcılığında müəyyən dəyişikliklər olmuşdu. Mövcud dövrün xarakterik hadisələri xalq akınlarının yaradıcılığında özünü göstərirdi. Bir sıra hallarda tərkibi əsasən ruslardan ibarət olan sosial-demokrat qruplarının əhali arasında yaydıqları vərəqələrin məzmunu nəzmə çəkilir, doğma qazax dilində nəğmə kimi aullarda ifa edilirdi. Daha beləri bilmirdilər ki, onlar bir rus imperiyasının əsarətindən qurtarıb digər rus imperiyasının zülmü ilə qarşılaşacaqlar.

Cambul Cabayev, Nurpeis Bayqanin və b. öz şifahi-poetik yaradıcılıqlarında sosial ziddiyyətləri obrazlı şəkildə tərənnüm edirdilər. Cambul qazax xalq poeziyasına yaradıcılıq üsulu olan tənqidi realizm prinsiplərini gətirmişdir. Onun «Kasıbın qisməti» şerində ac insanların çıxılmaz vəziyyəti təsvir edilmişdi. Lakin akın Cambulun yaradıcılığının o dövrdəki keçmiş feodallar üçün göz yaşı axıdan və əski babaların adətlərini saxlamağa can atan «mürtəce» adlanan akınlardan fərqləndiyi göstərilir. Onun «Mambet» şerində köhnə evinin Mambet bəyin zəngin malikanəsi ilə müqayisə edilməsi və xalqla bağlı olduğu bildirilirdi. Amma Cambul yaradıcılığının xalqın adət-ənənələrini qoruyub saxlamağa çalışan «mürtəce» adlanan akınlara qarşı qoyulması sual və təəssüf doğurur.

1916-cı ilin iyununda çarın fərmanı ilə müsəlmanların, o cümlədən qazaxların arxa cəbhədə işləmək üçün hərbi səfərbərliyə alınmasından sonra xalqın sosial vəziyyəti daha da pisləşmişdi.

Mövcud vəziyyəti təsvir edən akın Cambul Cabayev xalqı mübarizəyə çağırırdı.

Xalq akınları 1916-cı il üsyanı, onun qəhrəmanı Amangəldi İmanov və başqalarının həyatından bəhs edən poema yazmış və mahnı qoşmuşdular.

Omar Şipinin «Batır Amangəldi» poeması dörd hissədən ibarətdir. Akın əsərin əvvəlində Amangəldinin mənşəyinə müraciət edir, tarixi analogiya apararaq onun xan Kenesar Qasımovla ümumi cəhətlərini tapmağa çalışmışdı. Üçüncü və dördüncü hissələrdə isə 1916-cı ilin konkret hadisələri, Qazaxıstanda Oktyabr çevrilişi və Amangəldi İmanovun öldürülməsi verilir.

**İncəsənət.** Türküstan diyarının siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyişikliklər incəsənət sahəsindən də yan keçməmişdi. Burada özbək xalq teatrı, professional və həvəskar rus, həmçinin özbək və tatar dillərində həvəskar teatrlar fəaliyyət göstərmişdi. Özbək xalq məzhəkə /kızıkçı/ teatrında bir çox aktyorların arasında komik və hekayəçi, rəqqas və dəfçalan, yumorlu hekayələrin müəllifi məzhəkəçi Yusupcan Şəkərcanov xüsusilə fərqlənirdi. Rafiq Qaibov, İrka Karı Kərimov, Arifcan Daşmətov da aparıcı və görkəmli aktyorlar idilər. Özbək xalq məzhəkə teatrı dövlət milli teatrının inkişafında mühüm rol oynamışdı.

Türküstanda onlarla sirk fəaliyyət göstərirdi. Burada rus-özbək truppaları birlikdə çıxış edirdilər. 1902-ci ildə özbək artistləri Şabarat bəyin başçılığı altında özlərinin xüsusi truppalarını təşkil edərək sirk açmışdılar. Bu kollektivə Yusupcan Şəkərcanov, Rafiq Qaibov və Kərim Zaripov daxil idilər. Ayrı-ayrı nömrələrdə rus aktyorları da çıxış edirdilər. Bununla belə Həmzə Həkimzadə Niyazi 1915-ci ildə Kokandda həvəskar teatr yaratmışdı.

Türkmənistanın iri sənaye-ticarət və mədəni mərkəzi olan şəhərlərində rus mədəniyyətini təbliğ etmək məqsədilə yerli əhali arasında teatr-tamaşa tədbirləri, attraksion, sirk nömrələri və cıdır təşkil olunurdu. Bununla əlaqədar olaraq, həm də bədii özfəaliyyət, konsert, ədəbi-musiqili gecələr, xalq qiraəti və s. tədbirlərdən də istifadə edilirdi. Bəzən də bu tədbirlərdə çar üsul-idarəsinə qarşı geniş təbliğat işi görülür, inqilabi himnlər ifa olunurdu. Məsələn,

1905-ci il 17 oktyabr manifesti mətbuatda çap edildikdən sonra Aşqabad bolşevikləri haqsız olaraq onu təkzib etmək üçün sirkdə və velosiped klubunda böyük təbliğat işi aparmışdılar. Əlbəttə, bir növ mədəni və siyasi təbliğat meydanına çevrilən Türkmənistanda milli mədəniyyətin inkişafı kölgədə qalırdı.

Bu dövrdə Aşqabad, Mərv və Krasnovodska Rusiyadan dram, opera, operetta, sirk, estrada kollektivləri də gəlirdi. Rus səhnəsinin ustalarından M.Dalski, L.Yavorskaya, V.L.Durov və F.İ.Şalyapin həmin şəhərlərdə çıxış etmişdilər. N.V.Qoqol, A.N.Ostrovski, L.N.Tolstoy, V.Şekspir və başqalarının əsərləri tamaşaçılara göstərilmişdi.

Qədim tarixi olan özbək musiqisi xalq yaradıcılığı və şifahi ənənəyə malik professional musiqi ilə təmsil olunmuşdu. Özbək xalq musiqisi əhalinin etnik tərkibinin ümumiliyi və sosial-iqtisadi şəraitin oxşarlığı ilə əlaqədar 4 əsas musiqi üslubuna ayrılırdı: Xarəzm, Buxara-Səmərqənd, Fərqanə-Daşkənd, Surxandərya-Qaşqadərya. Xalq musiqi yaradıcılığında epik dastanlar /«Alpamış», «Şahsənəm və Qərib», «Koroğlu»/ xüsusi yer tuturdu. Xalq mahnıları qısa melodiyalardan ibarət idi. Satirik-yumoristik səpgili kupletlər söyləmək dəbdən düşmürdü. Bir sıra xalq mahnıları meydana çıxmışdı ki, onlarda sosial etiraz motivləri əsas götürülmüşdü. 1917-ci ilə kimi Türküstan diyarında musiqi tədris müəssisələrinin olmaması bu sahədə xeyli çətinliklər yaratmışdı. Ona görə də musiqi ifaçılarının hamısı milli professional sənətin şifahi ənənələrinin nümayəndələri idi.

Özbək xalq mahnılarının mahir ifaçılarından Daşkənd müğənnisi Molla Tuyçi Taşmuhəmədov güclü səsə malik olub, yeni üslubda əski mahnıları ifa edirdi. 1905-ci ildə onun ifasında bir çox özbək mahnıları /«Qulyer», «Şahnaz» və s./ qrammafon vallarına yazılmışdı. Digər görkəmli ifaçılardan buxaralı Xalim İbadov, xarəzmli M.Xudayberqanov, daşkəndli müğənni Şoraxim Şoumarov, musiqi alətlərində çalan Abdusoat Vahabov, Alim Kamilov, Abdukadır İsmayılov və Əhmədcan Umurzakovu göstərmək olar. Bu musiqiçilər milli professional sənətin şifahi ənənələrinin nümayəndələri idilər.

Bu dövrdə bir sıra ölkələrdən Özbəkistana musiqiçilər qastrola gəlirdilər. Azərbaycan da həmin ölkələr sırasında idi. Üzeyir Hacıbəyovun rəhbərlik etdiyi Azərbaycan operasının tamaşaları özbək

musiqisinin inkişafında mühüm rol oynamışdı. Çünki türk dilləri ailəsinə daxil olan özbək və Azərbaycan dilləri bu xalqların qarşılıqlı surətdə anladığı qohum dillər idi. Bu tamaşalar /«Arşın mal alan» və s./ özbək dinləyicilərini Azərbaycan musiqiçilərinin ilk təcrübələri ilə tanış edir və onları da öz milli opera sənətini yaratmağa istiqamətləndirirdi.

Nəsildən-nəslə keçib gələn, öz koloritliyi və ideya məzmununa görə zənginləşən türkmən xalq musiqisi dərin təsirə malik olub mühüm ictimai rol oynamışdır. Türkmən xalqının tanınmış, professional musiqiçisi və xanəndəsi olan baxşıların repertuarında vətənpərvərlik, qəhrəmanlıq, məhəbbət, dövrün xüsusiyyətlərini özündə əks etdirən və sosial problemlərlə bağlı nəğmələr əsas yer tuturdu. Xalq arasında Sarı baxşı, Xallı baxşı, Çoudur baxşı, Durdı baxşı, Ağacan baxşı, Annaxal baxşı, Tacməmməd baxşı və başqa müğənni və musiqiçilər böyük hörmət və nüfuza malik idilər. Türkmən musiqisinin kütləviliyinə baxmayaraq musiqi yaradıcılığında orkestr üsulu inkişaf etməmiş və xor sənətinin zəif olması ilə əlaqədar olaraq yeganə «Lalə» qızlar ansamblı fəaliyyət göstərirdi.

Qırğız musiqisinin əsas xüsusiyyəti bədii obrazların yığcamlığı, sosial şərait, köçəri həyat tərzi ilə bağlı olmasındadır. İfaçılıqda xor sənəti geniş yayılmamış, əsas yeri oyun motivləri və müxtəlif ritmik melodiyalar tuturdu. Janr əlamətinə görə qırğız musiqisi instrumental və vokal sahələrdən ibarət idi. Müğənnilərin /ırçı/ ifa etdiyi mahnı yaradıcılığı geniş yayılmışdı.

Mahnılar adətən toylarda, yas mərasimlərində, uşağın dünyaya gəlməsi zamanı, hərbçilərin yürüşə getdiyi vaxtlarda, bayramlarda və başqa tədbirlərdə səslənirdi.

XIX əsrin axırı – XX əsrin əvvəllərində görkəmli müğənni və musiqiçilərdən Niyazalı, Aydaralı, Burulça, Jantakbay, Toktoqul, Muratalı, Qaramoldo, Joloy, Aktan və b. göstərmək olar.

Musiqiçilər nəslindən olan xalq bəstəkarı Muratalı Qurenkeyev ensiklopedik hafizəyə malik olub ən çətin musiqi ənənələrinin və mövzularının bilicisi idi. Onun xidməti nəticəsində bir çox qədim mahnıların qiymətli nümunələri qorunub saxlanılmışdı. Onlardan «Uraan» /«Çağırış»/, «Koşok» / «Ağı»/, «Şırıldan» / «İlxıçının mahnısı»/ və s. qeyd etmək olar.

Qırğız musiqi tarixində bəstəkar və ifaçı Qaramoldo Orozovun özünəməxsus yeri vardır. Müəllifin epik əsərləri – «Tunquç Qambarkan» /«Birinci Qambarkan»/, «Botoy» və b. ona böyük şöhrət gətirmişdi. Onun qırğız musiqi folkloru əsasında yaratdığı musiqi əsərləri ifaçının yaşadığı dövrlə əlaqələndirilir və həm də burada milli koloritlik saxlanılır və yeni məzmunla daha da zənginləşdirilirdi.

Qonşu xalqlarla sıx bağlı olan qırğız xalq musiqiçiləri onların mədəniyyətini, musiqisini, məişətini, adət və ənənələrini öyrənirdilər. Akın və müğənni Toktoqul, Eşmambet, Jenijok və Kalık qazax xalq şairləri Cambul və Kənanla birlikdə xalqlar dostluğunu tərənnüm edirdilər.

Qazaxıstanda musiqi sənəti özünün əsrlərlə sabitləşdiyi əski ənənəvi formalarından-köçəri həyat tərzi, əhalinin savadsızlığı və yazılı musiqi sənətinin olmaması üzündən qazax xalqının incəsənətinin hərtərəfli inkişaf etməməsindən kənara çıxa bilməmişdi. Əvvəllərdə olduğu kimi, musiqi mədəniyyətini ancaq şairlər /akın/, müğənnilər /anşi/, musiqiçilər /kyuşi/ yaradır, ifa edir və qoruyurdular.

Musiqi sənətinin təhlil və təqdimi üzrə araşdırmalar aparmış mütəxəssislər qeyd edirlər ki, mürtəce istiqamətdə fəaliyyət göstərən musiqi xadimləri feodal-bəy ideologiyasına və çarizmin müstəmləkə siyasətinə əsaslanırdısa, musiqi sənəti sahəsinin mütərəqqi nümayəndələri qabaqcıl rus mədəniyyətinin təsiri altında inkişaf etmişdi. Həm də xalqın həmişə şairi, müğənnisi və musiqiçisi tapılırdı ki, onlar da mənsub olduqları zümrələrin tərənnümçü və müdafiəçiləri idilər. Bu isə əslində xalqın yaradıcı ziyalıları arasında ziddiyyət yaratmaq, onların sənətini cılızlaşdırmaq və təsirə məruz qoymaq demək idi.

XX əsrin əvvəllərində qazax xalq musiqi yaradıcılığının görkəmli nümayəndələrindən olan müğənni və musiqiçilərdən Yestay Berkimbayev, Mayra Şamsutdinova, Qabbas Aytpayev, Dina Nurpeisova, Muhit Meraliyev, Kənan Azərbayev, Temirbulat Arqınbayev, Kasımjan Babakov və b. göstərmək olar.

Qazax peşəkar müğənnilərindən Mayra Şamsutdinova və Kənan Azərbayev öz yaradıcılıq fəaliyyətləri ilə fərqlənirdilər. İlk professional qazax müğənnisi olan M.Şamsutdinova qazax, rus və

tatar mahnılarını ifa edirdi. K.Azərbayev ifaçılıq sənəti ilə yanaşı, həm də mahnı bəstələyirdi. Onun «Boz-torqay» /«Torağay»/, «Kok-şolak» /«Quyruğukəsik boz at»/ mahnıları xalq arasında geniş yayılmışdı. K.Azərbayev qazax, özbək və qırğız xalq mahnılarının bacarıqlı ifaçılarından biri idi.

Türküstan diyarında tətbiqi incəsənət spesifik xüsusiyyətə və milli koloritə malik olan bir sahədir. XX əsrin əvvəllərində bədii sənətkarlıq əsas forma olaraq qalırdı. Özbəkistanda ən çox diqqəti cəlb edən toxuculuq, zərgərlik, həkkaklıq, dulusçuluq və s. idi.

Bu dövrdə Riştan, Daşkənd, Səmərqənd və Vardanzidə əvvəlkilərə nisbətən sadə və kobud olsa da saxsı qablar istehsal olunurdu. Lakin Kuznetsov və Qardnerin zavodlarında çini qablar istehsalı saxsı qablara tələbatı azaltmışdı. Bu səbəbdən pambıq və zərif yundan toxunan parçalar maşın və dəzgahlarda qabalaşmış, əvvəlki keyfiyyətini itirmişdi. Fabrik-zavod məhsulları artdıqca əl işləri getdikcə məhdudlaşdırılırdı. Eyni zamanda fabrik-zavod sahibləri kustar sənətkarlardan yerli naxışları, geyim formalarını və s. götürüb fabrik məhsullarının çeşidlərini artırır və zənginləşdirirdilər. Burada «ruslaşdırma və qərbləşmə» deyil, «özbəkləşmə, şərqləşmə» prosesi gedirdi. Məhz bunun nəticəsidir ki, bütün Mərkəzi Asiya xalqları bu günə qədər öz milli, ənənəvi geyimlərini, çeşidli parçalarını və ornamentlərini qoruyub saxlaya bilmişlər.

Kustar emalatxanalarda xalq sənətkarları yüksək bədii şəkildə mis qablar, səhəng dəsti və məcməyilər düzəldirdilər. Bəzən də Rusiyada hazırlanan məhsulların üzərini yerli sənətkarlar öz milli naxışları ilə bəzəyirdilər. Məsələn, Tulada istehsal olunmuş samovar Mərkəzi Asiyaya məxsus ornamentlərlə bəzədilmişdi. Kokandlı sənətkar mis məcməyiyə Xudoyar xanın sarayının memarlıq peyzajını həkk etmişdi.

Dekorativ bəzək vuran sənətkarlar Mərkəzi Asiya üslubunda general-qubernatorun iqamətgahı olan «Ağ ev»i, knyaz Romanovun sarayını, məmur Polovtsevin evini özbək bədii yaradıcılığının qeyri-adi nümunələri ilə işləmişdilər.

1910-cu ildə usta Qurban Niyaz Xivədə yüksək minarəli İslam Xoca mədrəsəsini tikmişdi. 1917-ci ildə tikilib başa çatmış Buxara yaxınlığındakı Sitorai Moxi-xossa sarayı bir neçə memarlıq abidə-

sindən ibarət olub, ənənəvi üsluba yeni elementlərin əlavə edilməsi ilə xarakterikdir. Bu iş usta Şirin Muradovun başçılığı altında bir qrup özbək sənətkarı tərəfindən icra olunmuşdu. Buxarada Ş.Muradovdan əlavə memar və ustalardan Abdulsalam, Xoca Qurban, Məcid, Səmərqənddə usta Abduqadir Bakiyev, Fərqanədə usta Musayev və bir çoxları mahir sənət ustaları kimi tanınırdılar.

Türküstan diyarında tətbiqi sənət nümunəsi olan xalçaçılıq xüsusi yer tutur. Türkmən xalçaları dünyada ən çox bəyənilən və seçilən sənət nümunələridir. Türkmənistanda məşhur xalça ustalarından rəssam Baba Niyaz, Mehri Gözəl, Oqul Taq və b. göstərmək olar.

Mərkəzi Asiya və Qazaxıstanın milli mədəniyyətlərində oxşarlıq, yaxınlıq və bir də doğmalıq vardır. Onlar bir-birinə təsir edir, qarşılıqlı faydalanır və ayrı-ayrı əlamətlərinə görə fərqlənirdilər.

## § 2. VOLQABOYU, SİBİR VƏ KRIM XALQLARININ MƏDƏNİYYƏTİ

**Maarif.** Rusiya xalq təhsili sahəsində Avropada geridə qalmış ölkə idi.1897-ci ildə Rusiyanın Avropa hissəsindəki 50 quberniya arasında Orenburq quberniyası savadlılıq üzrə 25, Ufa quberniyası isə 40-cı yerdə dururdu. Orenburq quberniyasında əhalinin 20 faizi, Ufa quberniyasında isə 17 faizi savadlı idi.

Başqırdıstanın Ufa quberniyasında savadlılar tatarlarda 20 faiz, başqırdlarda 18, ruslarda 16, çuvaşlarda 6, marilərdə 3 və udmurdlarda 2 faiz təşkil edirdilər. Bu quberniyada yaşayan 900 min başqırddan 166 min nəfəri savadlı idi. Onlardan 5484 nəfəri rus dilini bilirdi.

Oktyabr çevrilişi ərəfəsində Başqırdıstanda təhsil almaq üçün müxtəlif tip ibtidai məktəblər, varlılar üçün orta məktəb, aşağı və orta peşə məktəbləri və dini məktəblər mövcud idi. 1911-ci ildə Orenburq tədris dairəsində əhalinin hər bir nəfərinə 54 qəpik, Ufa quberniyasında 39 qəpik, başqırd və tatarlara isə 19 qəpik xərclənmişdi. Orenburq quberniyasında bir məktəbdə orta hesabla 1478, Ufa quberniyasında isə 2060 şagird təhsil alırdı. Əgər XIX əsrin

sonunda Ufa quberniyasında 396 rus məktəbi var idisə, 1915-ci ildə onların sayı 1068 olmuşdu. Həmin dövrdə rus-başqırd və rus-tatar məktəblərinin sayı 96-dan 337-yə çatmışdı.

Əsrin əvvəllərində dünyəvi məktəblərə tələbat artdığına görə dini məktəblərin sayı azalmışdı. 1915-ci ilin məlumatına əsasən bütün ibtidai məktəblərdə şagirdlərin ümumi sayı 101,5 min nəfər olmuşdu. 1899-cu ildən 1915-ci ilə kimi keçən dövrdə kilsə-prixod məktəblərinə verilmiş yerlər 37 faizdən 19 faizə enmişdi.

XX əsrin əvvəllərində Başqırdıstanda xalq təhsili ilə əlaqədar kəskin mübarizə başlanmışdı. Mübarizə iki istiqamətdə ana dilində təhsil verən milli məktəblərin yaradılması ilə çarizmin ruslaşdırma siyasəti əleyhinə və köhnə metodla işləyən məktəblərə qarşı dünyəvi məktəblər şəbəkəsinin genişləndirilməsi sahəsində aparılırdı. Mübarizədə başqırd və tatar xalqlarının geniş təbəqələri iştirak edirdilər. Bu işdə cədidçilər xüsusilə fərqlənmişdilər. Maarif nazirliyinin 1906-cı il martın 31-i və 1907-ci il noyabrın 5-də nəşr edilmiş «Əsasnamələri»ndə çarizmin qeyri-rus məktəblərində apardığı ruslaşdırma-missioner təzyiqi xeyli yumşaldılmışdı. Lakin bu müvəqqəti idi. 1912-ci ilin iyununda Orenburq tədris dairəsi xalq məktəblərinin direktor və inspektorlarının qurultayında yenə də İlminskinin ruslaşdırma proqramını həyata keçirmək vəzifəsi qarşıya qoyulurdu.

IV Dövlət dumasında Orenburq quberniyasından olan deputat Q.X.Yenikeyev çarizmin ruslaşdırma-müstəmləkə siyasətini xarakterizə edərək məktəblərin bağlanması, heç bir əsas olmadan müəllimlərin işdən azad edilməsi, yerlilərin hüquqlarının məhdudlaşdırılması, onların maddi və mənəvi cəhətdən zəiflədilməsi, torpaqsızlaşdırılması, doğma dil və ədəbiyyatının açıq-açığına məhv edildiyini bildirmişdi. Bu vəziyyət digər türk xalqlarının iqtisadi, siyasi və mədəni həyatında da özünü göstərirdi.

1912-1913-cü illərdə Başqırdıstanın Ufa quberniyasında 91 min nəfərin təhsil aldığı 1579 məktəb var idi. Bütün çatışmamazlıqlarına baxmayaraq, müsəlman məktəbləri adi savad almaqda müsbət rol oynamışdı. 1913-cü ildə Ufa və Orenburq quberniyalarında 4 kişi gimnaziyası, 16 qadın gimnaziya və progimnaziyası mövcud idi. Başqırdıstanda yeni tipli təhsil müəssisəsi - 9 realnı məktəb

açılmışdı. Hər iki quberniyada 11 min nəfərin təhsil aldığı 34 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bundan əlavə, texniki-peşə, kənd təsərrüfatı məktəbləri də var idi. Eyni zamanda dini məktəb və seminariya fəaliyyət göstərirdi.

Ufa quberniyasında 323, Orenburq quberniyasında isə 26 mədrəsə var idi. Onlardan ən məşhuru Ufadakı «Qaliyyə», «Usmaniyyə», Orenburqdakı «Hüseyniyyə» və Troitskdəki «Rəsuliyyə» mədrəsələri idi.

Bu dövrdə pedaqoji kadrların hazırlanmasında çatışmamazlıqlar özünü göstərirdi. 1911-ci ildə Orenburq və Ufa quberniyalarındakı 2844 ibtidai məktəb üçün kadr hazırlayan 3 müəllim seminariyası, 1 məktəb, 6 pedaqoji kurs var idi. Bu da müəllimlərə olan tələbatın yalnız 15 faizini ödəyirdi. Başqırdıstanda ibtidai məktəblərin 57 faizinin öz binası yox idi. 1909-cu ildə Ufada Müəllimlər institutu açılmışdı. Mövcud olduğu 10 il ərzində institut ali və ibtidai məktəblər üçün 150 müəllim hazırlamışdı.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Kazan quberniyası Rusiyanın Avropa hissəsinin 50 quberniyası arasında savadlılıq üzrə 44-cü yerdə gedirdi. 1897-ci il Ümumrusiya əhali sayımına görə, tatarların 17 faizə qədəri, çuvaş və udmurdların 7-8 faizi savadlı idi. Tam olmayan məlumata görə, 1912-ci ildə Kazan quberniyasında 84 min şagirdi olan 24 mədrəsə və 1067 məktəb olmuşdu. Mütərəqqi görüşlü ziyalılar xalq təhsilinin köklü şəkildə yenidən qurulmasını tələb edirdilər. Onlar ümumi ibtidai təhsilin ana dilində olması, qız məktəblərinin açılması, dünyəvi məktəblərin sayca çoxaldılması, bütün milli məktəblərin vahid tədris planı ilə təmin olunması, əsas fənlər üzrə dərsliklərin yazılması və müəllim hazırlamaq üçün pedaqoji texnikumların açılmasını tələb edirdilər. Təkcə onu demək kifayətdir ki, XIX əsrin sonunda Kazan quberniyasında dövlət və zemstvo idarəsi hesabına ancaq 35 məktəb fəaliyyət göstərirdi. Ona görə də tatar əhalisi öz hesabına məktəb və mədrəsələr açırdılar ki, burada da dinin tədrisi ilə yanaşı hesab, coğrafiya və başqa fənlər keçilirdi. Nəhayət, demokratik qüvvələr milli məktəblərin Xalq Maarif Nazirliyinə tabe edilməsi və dövlətin vəsaiti hesabına saxlanılmasına nail ola bilmişdilər.

Çuvaşiyada Oktyabr çevrilişi ərəfəsində savadlılıq səviyyəsi kişilər arasında 18, qadınlarda isə 4 faizdən artıq olmamışdı.

On gimnaziya, realnı məktəb, meşə və kustar peşələr üzrə olan məktəblərdə 1400-ə qədər şagird təhsil alırdı.

Çuvaşiyada 1876-cı ildən müəllimlər hazırlayan məktəb, 1903-cü ildən isə pedaqoji kurslar fəaliyyət göstərirdi. Oktyabr çevrilişinə qədər ibtidai məktəblər üçün 1000 nəfər müəllim hazırlanmışdı.

Çar Rusiyası Sibir xalqlarının ana dilində təhsil almasına mane olurdu. 1905-ci ildə Yakutiyanın qubernatoru yazırdı ki, tədrisi yakut dilində olan məktəblərin sayca çoxalması, mədəni-maarif müəssisələrinin yaradılması maarif işinə xeyirdən çox ziyan gətirər. 1917-ciilədək yakutların 2 faizi savadlı olmuşdu. Yakutiya vilayətində evenklərin 0,1 faizi və 11795 nəfər çukçadan isə ancaq 4-nün savadlı olması qeydə alınmışdı. 1917-ci ildə Yakutiya vilayətində 254 müəllimin işlədiyi və 4660 şagirdin təhsil aldığı 173 məktəb var idi. Realnı məktəblərdə, qadın gimnaziyalarında və dini seminariyalarda təhsil alan 660 nəfərin 10 faizini yakutlar təşkil edirdilər. Bundan əlavə, feldşer məktəbi /1906/ və pedaqoji kurs /1912/ təşkil edilmişdi. 1913-cü ildə Altay ölkəsindəki məktəblərdə 2000 nəfərdən bir qədər çox şagird təhsil alırdı. 1917-ci ildə altaylıların 6 faizi savadlı idi.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Krımda yerli ziyalıların maarifçilik fəaliyyəti genişlənmişdi. Əsrin əvvəllərində əhalinin 900 nəfərindən biri məktəbə gedirdi. Üçillik aşağı dərəcəli məktəb şəbəkəsi üstünlük təşkil edirdi. Krımda gimnaziya, realnı məktəblər, dini seminariya və Nəcib qızlar institutu açılmışdı. 1904-cü ildə Krımda 21 orta məktəb var idi. Dini məktəblər də fəaliyyət göstərirdi.

**Mədəni-maarif müəssisələri.** Mədəniyyətin zəif inkişaf etmiş sahələrindən biri kitabxana, muzey və klubların yaradılması idi. 1916-cı ildə Başqırdıstanda 357 kitabxana olmasına baxmayaraq, tatar və başqırd kəndlərində kitabxanaya az rast gəlinirdi. 1914-cü ilin əvvəlində 16 başqırd və tatar kəndində kitabxana var idi. Kitabxanaların kitab fondu,ələlxüsus kəndlərdə çox az idi.

1916-1917-ci tədris ilində quberniyaların /Birsk qəzasından başqa/ bütün zemstvo idarələrinin kitabxanalarında 214 min nüsxə kitab var idi. 1913-cü ildə Ufa quberniyasının 30 kəndinin hər birində kitabxana var idi. Orta hesabla 3 adama bir kitab düşürdü. Ən

çox kitab fondu olan Ufa şəhər kitabxanası, eləcə də Ufa quberniya statistika komitəsi, kişi və qadın gimnaziyaları, «Qaliyyə», «Usmaniyyə» mədrəsələri və başqa məktəblərin kitabxanaları oxuculara xidmət edirdilər. Kazan quberniyasında xalq kitabxanalarının çoxu 1895-1914-cü illər ərzində açılmışdı. 1913-cü ildə dövlət hesabına fəaliyyət göstərən bir kütləvi kitabxana var idi. Çuvaşiyada 10 min cild kitab fondu olan 5 kitabxana fəaliyyət göstərirdi.

1917-ci ildə Yakutiyada fəaliyyət göstərən muzeyin /1891/ 21 min eksponatı olmuşdu. Hər il muzeyə gələnlərin sayı 9-11 minə çatırdı. Krımın Sevastopol və b. şəhərlərində təbiət-tarix, hərbi-tarix, «1854-1855-ci illərdə Sevastopolun müdafiəsi»nin mənzərəsi kimi muzeylər mövcud idi.

Əhaliyə tibbi xidmət əvvəlki kimi pis olaraq qalırdı. 1909-cu ildə Ufa şəhər idarəsi öz büdcəsindən səhiyyəyə 5,2 faiz vəsait ayırmışdı. Ufada 22 çarpayılıq xəstəxana və 3 həkimi olan bir müalicəxana var idi. Ən böyük tibbi müəssisə 114 çarpayısı olan quberniya zemstvo xəstəxanası idi. 1913-cü ildə Çuvaşiyada bir həkimə demək olar 40 min adam düşürdü. Həmin ildə əhalinin bir nəfərinə səhiyyə xərci 46 qəpik təşkil etmişdi. Yakutiya əhalisinin 90 faizindən çoxu həkim köməyindən məhrum idi. 1914-cü ildə 75 çarpayılıq 10 həkim məntəqəsi fəaliyyət göstərirdi. 1917-ci ilə kimi 3 nəfər yakut ali tibbi təhsil almışdı. Birinci dünya müharibəsi illərində əhaliyə göstərilən səhiyyə xidmətinin daha da zəifləməsi yoluxucu xəstəliklərin artmasına səbəb olmuşdu.

1913-cü ildə Krımda cəmi 47 həkim var idi. Orta hesabla bir həkimə 11 min nəfər adam düşürdü. Lakin bununla yanaşı Krımın kurortları-Yalta, Alupka, Aluşta, Yevpatoriya sahillərində Sudak, Feodosiya və hətta Kerç özünə geniş şöhrət qazanmışdı. Burada isə zadəganlar, tacirlər, tanınmış hərbçilər, kapitalistlər yaşayır və istirahət edirdilər.

**Elm.** Ölkədə kapitalizmin inkişafı və sənayenin artımı yeni xammal mənbəyi və yanacaq tələb edirdi. Bu baxımdan Cənubi Uralın zəngin rayonu olan Başqırdıstan alimlərin diqqətini özünə cəlb etməyə bilməzdi. Apardığı geoloji iş əsasında A.N.Zamyatin «Cənubi Uralın qərb yamacında geoloji tədqiqatlar haqqında hesabat» /1917/ əsərini yazmışdı. Uraldan geoloq F.İ.Kandıkin 1905-1907-ci illərdə

Başqırdıstanın İşimbay rayonunda neft ehtiyatlarının olması haqqında nəticəyə gəlmişdi. O, «Ufa quberniyasının Sterlitamaksk qəzasının Nijne-Buraçinsk neft yatağı» /1907/ əsərinin müəllifidir. A.N.Zavaritski və b. «Cənubi Uralın şərq və qərb yamaclarında mis və digər faydalı qazıntı yataqları haqqında» /1916/ dəyərli əsər nəşr etdirmişdilər. Görkəmli coğrafiyaşünas P.P.Semyonov-Tyanşanskinin redaktorluğu altında çap olunmuş «Rusiya» adlı çoxcildli əsərin V cildində Başqırdıstanın coğrafiyası haqqında daha ətraflı məlumat verilmişdi. 1908-ci ildə Ufada V.İ.Filonenkonun rəhbərliyi altında «Yerli diyarı öyrənən cəmiyyət» yaradılmışdı. Buraya qabaqcıl ziyalılar-müəllimlər, həkimlər, zemstvo idarəsinin işçiləri və b. daxil idilər. V.İ.Filonenko «Başqırdlar» adlı monoqrafiyasında xalqın tarixinin ta qədimdən XIX əsrə kimi olan dövrünü tədqiq etmişdi. Rus alimi S.İ.Rudenkonun iki cildlik «Başqırdlar» əsəri xalqın etnoqrafiyasına aid çox mühüm dəyərli məxəzdir.

Ölkənin iki ali təhsil müəssisəsinin – Kazan Dövlət Universiteti və Baytarlıq institutunun bazası əsasında Tatarıstanda elmin inkişafı sahəsində müəyyən nailiyyətlər əldə edilmişdi. XX əsrin əvvəlində Kazan Universiteti təhsil, elmi kadrların hazırlanması və ictimai-siyasi fikrin inkişafında mühüm rol oynayan elmi mərkəzlərdən biri idi.

«Çuvaş sintaksisinin tədqiqinin təcrübəsi» /1903/, 17 cildlik «Çuvaş dilinin lüğəti» /1896-1933/ və başqa əsərlər görkəmli alim, SSRİ EA-nın müxbir üzvü N.İ.Aşmarini dünyada tanıtmışdı. Tarix elmləri doktoru, prof. N.V.Nikolski «Çuvaşların xalq maarifi» /1906/, «Çuvaşların etnoqrafiyasının qısa xülasəsi», «Rus-çuvaş lüğəti» /1909/, «XVI-XVIII əsrlərdə Orta Volqaboyu çuvaşları arasında xristianlıq. Tarixi oçerk» /1912/ əsərlərinin müəllifidir. 1909-1911-ci illərdə Kolıma çayı vasitəsilə ticarət əlaqələri yaratmaq məqsədilə görkəmli rus qütb tədqiqatçısı Q.Y.Sedovun apardığı ekspedisiyada 7 nəfər fəhlə-yakut da iştirak etmişdi. Ekspedisiya qarşıya qoyulan məqsədin öhdəsindən müvəffəqiyyətlə gəlmişdi. 1911-ci ildə Kolımada ticarət gəmiləri üzürdü.

Krımda tibbi-əczaçılıq cəmiyyəti və Rusiya bağçılıq cəmiyyətinin yerli şöbəsi fəaliyyət göstərirdi. 1908-ci ildə Krım astrofizika rəsədxanası açılmış, dəniz bioloji stansiyası yaradılmışdı.

**Mətbuat.** Kapitalizmin inkişafı, 1905-1907-ci illərin rus inqilabı və milli-azadlıq hərəkatının yüksəlişi dövründə müxtəlif ictimai-siyasi qüvvələr və partiyalar arasında fikir ayrılığı öz əksini ən çox mətbuat səhifələrində tapırdı. Xalq maarifi, milli məsələ, aqrar problem və s. digər həlli zəruri olan məsələlər mətbuatda geniş işıqlandırılırdı.

Volqaboyu, Sibir və Krımda əsasən bolşevik, sosial-demokrat və milli burjua mətbuatı fəaliyyət göstərirdi. 1905-ci ildə RSDFP-nin Ufa komitəsi yaratdığı gizli mətbəədə bəyannamə və vərəqələr çap edirdi. Bir ildən sonra qeyri-leqal «Ufa fəhləsi» qəzetinin nəşrinə başlanmışdı. Bu mətbəədə RSDFP-nin Ural komitəsinin «Əsgər qəzeti» və «Kəndli qəzeti» /1907/ nəşr olunmuşdu.

1907-ci ildə Orenburqda tatar dilində leqal olaraq sosial-demokrat istiqamətli «Ural» qəzeti çap olundu. Qəzetin ideya rəhbəri tatar inqilabçısı Xusain Yamaşev idi. Qəzetə əlavə olaraq 5 broşyura nəşr edilmişdi. Onlardan «Müxtəlif millətləri əsarət altına almaq kimə lazımdır», «Ümumi seçki hüququ» və b. göstərmək olar. Başqırd və tatar xalqlarının inqilabi hərəkat tarixində ilk sosial-demokrat mətbu orqanı olan «Ural» qəzeti tatar dilində nəşr edilirdi. Bolşevik «Ural» qəzeti xalq kütlələrini çar mütləqiyyəti, milli burjuaziya və müsəlman ruhanilərinə qarşı mübarizəyə çağırırdı. Gündəlik burjua-monarxist qəzetləri-«Ufa quberniyasının xəbərləri», «Orenburq quberniyasının xəbərləri», «Ufa diyarı», «Orenburq diyarı» çıxırdı. Eyni zamanda iri burjuaziyaya məxsus «Ufa xəbərləri», «Ufanın həyatı», «Orenburq qəzeti» və liberal milli burjuaziyanın «Vaxt», «Həyat» qəzetləri nəşr olunurdu. Bundan əlavə Başqırdıstanda demokratik yönlü milli jurnallar da dərc edilirdi. 1906-cı ildə Orenburqda satirik «Qırğı», «Çəkic» və 1914-1917-ci illərdə isə «Tilov» jurnalları çap edilmişdi.

Orenburqda geniş yayılmış burjuaziyanın ictimai-siyasi və ədəbi orqanı olan «Şura» jurnalı buraxılırdı. Müsəlman ruhaniləri 1907-1917-ci illərdə Orenburqda «Din və həyat», Ufada isə «Dini məclislərin xəbəri» jurnallarını çap etdirmişdilər.

Tataristanda 1905-1906-cı illərdə «Fikir», «Azad», «Azad xalq» qəzeti və «Ox» jurnalı çıxmışdı. Ümumiyyətlə, 1906-1907-ci illərdə tatar dilində 19 qəzet və 12 jurnal buraxılmışdı.

Sibirdə sürgündə olan siyasi məhbuslar Tomskda «Sibirin həyatı» və İrkutskda «Şərq icmalı»nda yakut xalqının həyatına aid publisistik və elmi məqalələrlə çıxış edirdilər. Bu məqalələrdə yakutları istismar edənlər ara-sıra tənqid olunurdular. 1907-1909-cu illərdə ictimai-siyasi və bədii qəzet olan «Yakutiya diyarı» nəşr edilmişdi. Qəzetdə çar idarələrinin fəaliyyəti tənqid olunur, Yakutiyada torpaq məsələsi haqqında yazılar verilirdi. Burjuaziyanın nümayəndəsi, təsisçi-redaktor V.V.Nikiforov 1916-cı ildə «Yakutiya məsələləri» qəzetinin nəşrinə başlamışdı. Qəzetdə yakut dilində xüsusi şöbə fəaliyyət göstərirdi.

1912-ci ildən başlayaraq yakut dilində aylıq «Yakutun səsi» jurnalı çıxmağa başlamışdı.

**Ədəbiyyat.** XX əsrin əvvəllərində türk xalqlarının ədəbiyyatında maarifçilik və sosial-demokrat ideologiyaları ədəbi-tənqidi prosesdə özünü aydın şəkildə büruzə verirdi. Realist tatar ədəbiyyatı, o cümlədən satiranın inkişafında mühüm xidməti olan şair və jurnalist Qabdulla Tukay /1886-1913/ öz yaradıcılığında xalqın azadlığını tərənnüm edirdi. O, «Öz xalqıma», «Azadlıq haqqında», «Dövlət duması», «Getməyəcəyik» və s. şerlərində tatar xalqının həyatını əks etdirmiş və zəhmət adamlarını azadlıq uğrunda mübarizəyə səsləmişdi. Maarif və mədəniyyətin inkişafı, doğma ədəbi-bədii dilin saflığı və qadın azadlığı kimi məsələlər onun yaradıcılığında əsas yer tuturdu. Q.Tukay Azərbaycan ədəbi mühitinə böyük maraq göstərirdi. O, M.Ə.Sabirdən misallar gətirər, «Molla Nəsrəddin» jurnalını təbliğ edərdi.

Məcid Qafuri /1880-1934/ «O kimdir» şerində iri dövlətlərin apardıqları müharibəyə qarşı çıxmışdı. O, öz vətəninə məhəbbət, xalqın arzu və amallarını tərənnüm edirdi.

Qaliəsgər Kamal /1879-1933/ şerlərində, publisistik məqalə və dram əsərlərində əhalinin zəhmətkeş zümrəsinin ağır vəziyyətini təsvir edir və onları köhnə quruluşu dağıtmağa çağırırdı. «Birinci tamaşa», «Bədbəxt gənc oğlan», «Müflis», «Bizim şəhərin sirri» onun ən yaxşı əsərləridir. Əlimcan İbrahimov /1887-1938/ tatar xalqının görkəmli yazıçısıdır. O, «Tatar qadının taleyi», «Gənc ürəklər», «Dənizdə», «Təbiətin övladları» kimi əsərlərin müəllifidir. Yaradıcılığının ilk mərhələsində romantik yazıçı kimi diqqəti cəlb etsə də, sonradan realizmə daha çox meyl göstərmişdir. O,

qadın əsarəti, mühafizəkarlıq və məişət geriliyini tənqid etmiş, özünün gənc qəhrəmanlarını ideallaşdırmışdır.

Tənqidi realizm ədəbi cərəyanının nümayəndələrindən tatar dilində yazan başqırd nasir və şairi Fateh Əmirxan /1886-1926/, Şərif Kamal /1884-1942/, Qafur Güləhmədov /1881-1918/ və başqalarını göstərmək olar.

Başqırd maarifçisi Zakir Hadi «Bədbəxt qız», «Ofisiant» və b. hekayələrində dünyəvi təhsil sisteminə üstünlük verirdi. Yazıçı müsəlman qadınlarının hüquq bərabərliyi ideyasını irəli sürürdü. Bu ideyaları şair Səfuan Yaxşiqulov da /1871-1931/ öz əsərlərində davam etdirmişdi.

Çuvaşiyanın ədəbi mühitində T.S.Semyonov /Tayr/, N.İ.Polorussov /Şelebi/, M.F.Akimov, D.A.Demidov, Y.V.Turxan, K.V.İvanov, N.V.Vasilyev və b. öz əsərləri ilə seçilirdilər. N.İ.Polorussov-Şelebi /1881-1945/ «İlan» şerində tezliklə azadlığın qələbə çalacağını göstərirdi. Mixail Fyodoroviç Akimov /1884-1914/ «Zarafat», «Qəribə» /1906/, «Kənd həyatı» /1907/ felyeton, oçerk və satirik novellasında kəndliləri mütəşəkkil mübarizəyə çağırırdı. Konstantin Vasilyeviç İvanov /1890-1915/ sosial ədalətsizlik və xalqın öz həyatının sahibi kimi mənəvi hüquqa sahib olmaq uğrunda mübarizəsini əks etdirmişdi. «Narspi» poemasında iki gənc insan şəxsiyyətinin hüquqsuzluğuna qarşı mübarizə aparan qüvvə kimi verilmişdi.

Sibirdə bədii ədəbiyyatın inkişafında və yazıçıların həyatında ən mühüm tarixi hadisə bəzi türk xalqlarının ana dilində ədəbi əsərlərinin meydana gəlməsi olmuşdu. Məsələn, yakut dilində bir sıra maraqlı əsərlər yaradılmışdı. Şair P.N.Çernıx-Yakutski /1882-1933/ 1909-cu ildə «Sakit simli» adlı şerlər kitabını çap etdirmişdi. Bu əsər yerli-milli ədəbiyyatın yaranmasında ilk addımlardan biri idi. Onun şerləri oxucular tərəfindən mübarizəyə çağırış kimi başa düşülmüşdü.

1908-ci ildə məşhur burjua xadimi V.V.Nikiforov xalq əfsanələri əsasında yazdığı «Mançarı» dramını nəşr etdirmişdi. Yazıçı A.N.Sofronov /1886-1935/ «Doğma diyar» /1912/ şerində yoxsul yakutların həyatının təsvirini vermişdi. O, «Kasıb Yakov», «Məhəbbət» və s. dram əsərlərində Yakutiyada olan mövcud sosial-iqtisadi və mədəni həyat tərzini əks etdirir və gələcəyə ümidlə baxmağı aşılayırdı.

Sibir yazıçıları tərcümə ədəbiyyatına da diqqət yetirmişdilər. M.Y.Lermontov, L.N.Tolstoy, İ.A.Krılov və b. əsərləri yakut dilinə tərcümə edilərək çap olunmuşdu.

**İncəsənət.** XX əsrin əvvəllərində Volqaboyunda yaşayan türk xalqlarının ilk milli teatr truppaları yaranmağa başlamışdı. 1906-cı il dekabrın 22-də Kazanda ilk dəfə tatar dilində açıq tamaşa göstərilmişdi. «Zavallı uşaq» və «Məhəbbət bəlası» pyesləri tamaşaya qoyulmuşdu. 1908-ci ilin payızında Kazanda ilk tatar «Səyyar» teatr truppası yaradılmışdı. Onun tərkibinə istedadlı artistlərdən İ.Kudaşev, Q.Kareyev, S.Qizatullina, N.Sakayev və b. daxil idilər. Teatrın yaradılmasında görkəmli dramaturq Q.Kamal fəal iştirak etmişdi. 1912-ci ildə Ufada «Nur» tatar truppası yaradılmışdı. 1914-cü ildə Orenburqda «Şirkət» truppası fəaliyyətə başlamışdı.

Q.Sayfullin tatar xalq mahnılarını vala köçürmək üçün səsyazma aparatı ixtira etmişdi. Həvəskar bəstəkar Z.Yarullin Kazandakı «Şərq klubu»nda ilk dəfə tatar simli orkestrini yaratmışdı. O, 1914-cü ildə tatarlar arasında məşhur olan «Tukay marşı»nı yazmışdı. F.Tuişev xalq mahnılarının qarmonda bacarıqlı ifaçısı idi. F.Latıpov, F.Qumerova, K.Mutqi və başqa peşəkar müğənnilər yetişmişdi.

Çuvaşiyada istedadlı musiqiçi və bəstəkarlar V.İ.Kolpakov, R.N.İdobayev, S.M.Maksimov, P.V.Pazuxi və b. məhdud şəkildə olsa da şifahi xalq poeziyasını musiqi ilə işləmişdilər. «Çuvaş xalq mahnılarının nümunələri və onun motivləri» /1908-1914/ adlı iki çox da böyük olmayan məcmuə nəşr olunmuşdu.

Yakut xalqının ictimai-iqtisadi həyatı və məişətində baş verən yeniliklər mahnı yaradıcılığında öz əksini tapırdı. Xalqın dünyagörüşü atalar sözü, zərbi-məsəllər və tapmacalarda təcəssüm olunurdu.

XIX əsrin ikinci yarısında yakutların demək olar ki, xristianlaşdırılmasına baxmayaraq, onlar öz adət-ənənələrini saxlaya bilmişdilər. Bununla yanaşı həm də şamanlıq rusların arasında yayılmışdı. XX əsrin əvvəllərində kənd kilsələri üçün ikonalar düzəldən rəssam yakut Belleskiya böyük şöhrət qazanmışdı. İ.V.Popovun «Şaman» əsəri mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdi.

Başqırdıstanın həvəskar rəssamları «Ufa bədii dərnəyi»ndə birləşmişdilər. 1917-ci ildə Ufada ancaq yerli rəssamların əsərlərinin sərgisi açılmışdı. Ufada Şəkil qalereyasının açılması görkəmli rəssam M.V.Nesterovun adı ilə bağlıdır.

# NƏTİCƏ

Dünya sivilizasiyasında özünəməxsus yeri və rolu olan türk xalqları bəşər cəmiyyətinə əvəzsiz töhfələr vermişdir. Öz tarixi keçmişi ilə bağlı olan türk məmləkətləri ayrı-ayrı dövrlərdə iri dövlətlərdən asılı olmuş və yaxud onların müstəmləkələrinə çevrilmişdilər. Son iki əsrdə türk ölkələrinin çoxu bəzi dövlətlərin xammal bazası və satış bazarını təşkil edirdilər.

Zəngin təbii sərvətləri və əlverişli coğrafi mövqeyi olan Volqaboyu, Sibir, Krım, Mərkəzi Asiya və Qazaxıstanın əraziləri tarixən çar Rusiyasının diqqət mərkəzində olmuşdu. Çarizm müxtəlif dövrlərdə iqtisadi və siyasi cəhətdən bu regionları özündən asılı vəziyyətə salmağa çalışmışdı. Uzun illər həyata keçirilən ekspansiya planı türk xalqları ərazilərinin çar Rusiyası tərəfindən zəbt olunması ilə nəticələnmişdi.

Rusiya imperiyası bu regionları işğal etdikdən sonra həmin ərazilərdə Rusiya inzibati idarəetmə sistemini müəyyən dəyişikliklərlə tətbiq edirdi. Əsas məqsəd bu regionların vahid idarəetmə sisteminə tabe edilməsi olmuşdu.

Rusiyasının müstəmləkəsinə çevrilmiş Volqaboyu, Sibir, Krım, Mərkəzi Asiya və Qazaxıstanın türk xalqları tarixi inkişafın müxtəlif mərhələlərində yaşamışlar. Çar Rusiyasının işğal etdiyi türk ölkələri sosial-iqtisadi inkişafa görə eyni səviyyədə olmamışlar. Artıq XIX əsrin ikinci yarısından etibarən bu regionlarda kapitalist münasibətlərinin inkişaf etməyə başlamasına baxmayaraq, Volqaboyu, Sibir, Krım, Mərkəzi Asiya və Qazaxıstanın iqtisadiyyatında meydana gəlmiş ciddi dəyişikliklər eyni vaxta təsadüf etmir.

Bu regionların əsl yerli türk xalqları XIX əsrdə də hazırda məskunlaşdığı ərazilərdə yaşamışlar. İşğaldan sonrakı dövrdə buradakı idarəetmə sistemi və iqtisadi həyat Rusiya ilə sıx bağlı olmuşdur.

Çar Rusiyasının əsas xammal bazası və satış bazarına çevrilmiş Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu, Sibir və Krıma rus əhalisinin köçürülməsi ilə bağlı olaraq yerli əhalinin sosial tərkibi

getdikcə dəyişmişdi. İqtisadi cəhətdən Rusiyadan asılı olan türk xalqları öz milli sərvətlərinin tam sahibi olmamışlar.

Rusiyanın ictimai-siyasi və iqtisadi həyatında baş verən hadisələr türk xalqlarından da yan keçməmişdi. 1905-1907-ci illər inqilabı, Dövlət duması, Stolıpin aqrar islahatı, Birinci dünya müharibəsi, fevral inqilabı və s. onların həyatında müəyyən izlər qoymuşdur.

Öz zəngin mədəniyyəti ilə fərqlənən türk xalqları bu dövrdə də maarif, ali təhsil, elm, ədəbiyyat və incəsənətin inkişafı sahəsində müəyyən nailiyyətlər əldə edə bilmişdilər. Lakin bu yolda çoxlu çətinliklər də olmuşdur. Mədəniyyətin inkişafı çarizmin maraq dairəsindən demək olar ki, kənarda qalmışdı. Məktəb, mədrəsə və yeni üsullu /üsuli-cədid/ maarif ocaqlarının fəaliyyəti məhdudlaşdırılmışdı. Maarif sahəsində ruslaşdırma siyasətinə üstünlük verilmişdi.

Türküstan diyarında elmi mərkəzlərin olmaması üzündən elmi işlər həvəskarlar, ayrı-ayrı təşəbbüskar alimlər və müxtəlif cəmiyyətlər tərəfindən görülürdü. Fundamental elmlərin əsas sahələri-riyaziyyat, mexanika, fizika və kimya üzrə tədqiqat işləri aparılmırdı. Milli kadrlar azlıq təşkil edirdi. Dövlət tərəfindən mədəniyyət sahəsinə vəsait ayrılması minimuma endirilmişdi. Buna baxmayaraq, elmi araşdırmalar və elmin inkişafı sahəsində yerli və rus alimlərinin fəaliyyəti danılmazdır.

Öz milli xüsusiyyətlərini və özünəməxsusluğunu, adət və ənənələrini qoruyub saxlamağa çalışan türk xalqları ədəbiyyat və incəsənətin inkişafı sahəsində böyük nailiyyətlər əldə etmişdilər.

Türk xalqları mədəni irslərini hifz etməklə yanaşı, həm də dünya mədəniyyətindən bəhrələnmiş və onun zənginləşməsində fəal iştirak etmişlər.

## XRONOLOGİYA

| | |
|---|---|
| 1718 | Semipalatinskin özülünün qoyulması |
| 1720 | Ust-Kamenoqorskin əsasının qoyulması |
| 1731 | Kiçik juzun Rusiya təbəəliyini qəbul etməsi |
| 1740 | Orta juzun Rusiya təbəəliyini qəbul etməsi |
| 1755-1758 | Cunqar-Çin müharibəsi |
| 1756-1836 | Qabderəhim Utız İməni |
| 1758 | Kazanda tatar, ərəb, türk və şərq dillərinin öyrənildiyi ilk gimnaziyanın açılması |
| 1767-1837 | Tacəddin Yalsıqulov |
| 1776-1818 | Qabdənnasir Kursəvi |
| 1777-1853 | İ.Y.Biçurin |
| 1778-1829 | İ.Xalfin |
| 1780-1781 | Orta Volqaboyunda inzibati-ərazi dəyişiklikləri |
| 1780 | Simbirsk quberniyasının yaradılması |
| 1783 | Krım xanlığının Rusiya tərəfindən işğalı |
| 1784, 2 fevral | Krım xanlığının əvəzinə Tavriya vilayətinin yaradılması |
| 1794-1867 | İbadulla Salihov |
| 1796 | Çuvaşiyada dünyəvi məktəblərin açılması |
| 1797-1860 | Qabdulzəbbar Kandalı |
| 1798, aprel | Kanton idarəetmə sistemi |
| 1800 | Mərvdə türkmənlərin üsyanı |
| 1800 | Ufada ruhani seminariyasının işə başlaması |
| 1800 | Kazanda Asiya mətbəəsində kitab nəşri |
| 1800-1826 | Əmir Haydar |
| 1801 | Sultan Bukeyin rus vətəndaşlığını qəbul etməsi ilə bağlı Pavelə müraciəti |
| 1801 | Ufada mətbəənin açılması |
| 1801-1845 | Bukey Ordası |
| 1802 | Tavriya vilayətinin quberniyaya çevrilməsi |
| 1802-1870 | Mirzə Kazım bəy |
| 1803-1804 | Məktəb islahatına görə Rusiyada universitetlər tərəfindən idarə olunan 6 tədris dairəsinin yaradılması |
| 1804 | Xivə xanı İltuzarın Buxaranın hüdudlarına hücumu |
| 1804 | Kazan Universitetinin yaradılması |

| | |
|---|---|
| **1804** | Kazan Universiteti mətbəəsində kitab nəşri |
| **1804** | İrkutskda «Ağ ev»in tikilməsi |
| **1804-1805** | Orenburq quberniyasında inzibati dəyişiklik |
| **1804-1806** | İltuzar xan |
| **1805-1806** | M.İ.Adamsın başçılığı altında Yakutiyaya ekspedisiya təşkili |
| **1806** | Palvandarvaza qapısı tikintisi |
| **1806** | Tatarıstanda yazıçıların rus dilində dərnəyinin yaradılması |
| **1806-1807** | Fransa ilə müharibə zamanı başqırd polklarının təşkili |
| **1806-1825** | Məhəmməd Rahim xan |
| **1807** | Tsivil qəzasının Burtası kəndində prixod məktəblərinin açılması |
| **1808** | Alim xanın Daşkəndi alması |
| **1808-1809** | Xivə xanı Məhəmməd Rahimin türkmənlərlə mübarizəsi |
| **1808-1809** | Alim xanın Çimkənd və Sayrama qoşun göndərməsi |
| **1811** | Aral torpaqlarının Xivə xanlığına birləşdirilməsi |
| **1811** | Kazan Universitetinin orqanı olan «Kazan xəbərləri»nin nəşri |
| **1812** | Krımda X.Stevenin rəhbərlik etdiyi Dövlət Botanika bağının salınması |
| **1812** | Bukey Ordasının Kiçik juzdan ayrılması və Bukey Nuraliyevin xan təyin edilməsi |
| **1812-1813** | Şimali Xorasan və Astrabadda yerli feodalların üsyanı |
| **1813, may-sentyabr** | Yusif Xocanın başçılığı ilə türkmənlərin İran hakimiyyətinə qarşı üsyanı |
| **1815** | Ömər xanın Türküstan şəhərini alması |
| **1815** | Klıç-Niyazbəy kanalının çəkilişi |
| **1815-1853** | Tatarıstan yazıçıları Həvəskar Cəmiyyətinin kitab nəşri |
| **1816, 4 may** | Krımda torpaqların satılmasının dayandırılması haqqında qərar |
| **1817-1826** | Sibirdə qəza məktəblərinin açılması |

| | |
|---|---|
| 1818 | «Sibir xəbərləri» jurnalı |
| 1818-1889 | Şəhabəddin Mərcani |
| 1818-1896 | İ.N.Berezin |
| 1819 | M.M.Speranskinin Sibirin general-qubernatoru təyin edilməsi |
| 1819 | Çar hökumətinin gəlmələrə torpaq sahəsi ayrılması haqqında qərarı |
| 1821 | Kokand antologiyası - «Şairlərin külliyyatı»nın /«Məcmuai-şuara»/ tərtibi |
| 1821 | «Kazan məcmuəsi» |
| 1821 | Talas vadisində qırğızlarla qazaxların Kokand xanlığına qarşı birgə çıxışları |
| 1821 | Sibir komitəsinin yaradılması |
| 1821-1825 | Miankal tayfalarının üsyanı |
| 1822 | M.M.Speranskinin islahatı |
| 1822 | Orta juzda xanlıq hakimiyyətinin ləğvi |
| 1824 | Kiçik juzda xanlıq hakimiyyətinin ləğvi |
| 1825 | Mərvin Xivə xanlığı tərəfindən zəbt edilməsi |
| 1825 | İngilis casusu Murkroft və Trebekin Buxaraya gəlməsi |
| 1825 | Aralı öyrənən Berq ekspedisiyasının təşkili |
| 1825-1827 | «Sibir xəbərləri» jurnalının «Asiya xəbərləri» adlandırılması |
| 1825-1865 | Şəmsəddin Zəki |
| 1825-1902 | Kayum Nasiri |
| 1826 | Derpt Universitetinin professoru Meyerin Altay bölgəsinə ekspedisiyası |
| 1826 | General Veriginin çar I Nikolaya məktubu |
| 1826-1889 | Qali Sokrı |
| 1827-1914 | P.P.Semyonov-Tyanşanski |
| 1829 | İ.Y.Biçurinin Rusiya İmperator Elmlər Akademiyasının müxbir üzvü və Parisdə Asiya Cəmiyyətinin üzvü seçilməsi |
| 1830 | Krımda ilk dəfə «Tavriya quberniya xəbərləri»nin nəşri |
| 1830 | Orenburqda ingilis casus təşkilatının aşkar edilməsi |

| | |
|---|---|
| **1831-1895** | Miftahəddin Akmulla |
| **1832, 7 aprel** | Başqırdların oturaq həyata və əkinçiliyə keçməsinin qanunla təsbit edilməsi |
| **1832** | Allakulu xanın Taş-Xauli sarayını tikdirməsi |
| **1832** | Başqırdıstanda zadəgan, tacir və hərbçilərin uşaqları üçün qızlar məktəbinin açılması |
| **1832, 1834, 1836** | Q.Karelinin Aral-Xəzər üzrə səyahətləri |
| **1833** | Vest-Hind kompaniyasının casusu leytenant Berns Mərkəzi Asiyada |
| **1834** | Polkovnik T.S.Tsiolkovskinin komandanlığı altında başqırd-mişar qoşununun təşkili |
| **1834** | Kazanda «Universitetin elmi əsərləri»nin nəşri |
| **1835** | Allakulu xanın karvansara və bazar tikililəri |
| **1835** | Kazanda ikinci gimnaziyanın açılması |
| **1835-1865** | Çokan Vəlixanov |
| **1836** | İngilis casusları Berns, Vud və Liçin Amudərya ətrafında fəaliyyəti |
| **1836** | Rusiyada xivəli tacirlərin həbs edilməsi |
| **1836-1838** | İsatay Taymanovun rəhbərliyi altında üsyan |
| **1837-1847** | Kenesar Kasımovun rəhbərliyi altında rus müstəmləkəçiləri və yerli sultan-hakimlərə qarşı mübarizə |
| **1837-1918** | V.V.Radlov |
| **1838** | «Kazan quberniyasının xəbərləri»nin nəşri |
| **1838** | Ufada «Orenburq quberniya xəbərləri»nin çapı |
| **1838-1839** | İngilislərin Herat və Kabili tutmaları |
| **1838, 1844** | P.A.Slovtsovun ikicildlik «Sibir tarixinin icmalı» əsərinin nəşri |
| **1839** | Kazan İqtisadi Cəmiyyətinin yaradılması |
| **1839** | Ural ətrafında «kartof» üsyanları |
| **1839-1840** | Orenburq hərbi qubernatoru general V.A.Perovskinin Xivəyə yürüşü |
| **1840** | Rus Coğrafiya Cəmiyyətinin yaradılması |
| **1840** | Başqırdıstanda qızlar məktəbinin Nəcib qızlar institutuna çevrilməsi |
| **1840-1841** | Lenada ilk qızıl filizi mədənlərinin istifadəyə verilməsi |

| | |
|---|---|
| **1840,1850, 1866** | E.A.Eversmanın «Orenburq diyarının təbiətşünaslığının tarixi» əsərinin çap olunması |
| **1841-1842-ci illərin qışı** | İngilis qoşunlarının Əfqanıstanda məğlubiyyəti |
| **1841-1842** | Rusiya diplomatik heyətlərinin Xivəyə göndərilməsi |
| **1841-1843** | Ufada N.A.Sokolovun rəhbərliyi ilə ilk peşəkar teatr truppasının fəaliyyəti |
| **1841-1907** | Muhamed Salim Umetbayev |
| **1842** | İssıkkul üsyanı |
| **1842** | Kazan quberniyasında çuvaş və marı kəndlilərinin çıxışları |
| **1842** | «Akramovsk müharibəsi» /«Şurça varsi»/ |
| **1843-1844** | A.F.Middendorfun Yakutiyaya elmi ekspedisiyası |
| **1843-1855** | Xivə ilə Buxara arasında Mərv uğrunda mübarizə |
| **1844-1873** | A.P.Fedçenko |
| **1845** | Alay qırğızlarının Oş ətrafında üsyanı |
| **1845-1904** | Abay Kunanbayev |
| **1846** | Böyük juzun Rusiyaya qatılması |
| **1846** | Omskda Sibir kazax qoşunları hərbi məktəblərinin kadet korpusuna çevrilməsi |
| **1847** | Ryazonov, Balandin və Kazantsevin mədənlərində fəhlə çıxışları |
| **1847** | Raim istehkamının /1851-ci ildən Aral adlandırılıb/ inşası |
| **1848** | Qazalı qalasının əsasının qoyulması |
| **1848-1849** | A.İ.Butakovun Aral dənizini öyrənən elmi ekspedisiyası |
| **XIX əsrin ikinci yarısı** | Yakutların xristianlaşdırılması |
| **1850** | Lena qızıl mədənlərində tətil |
| **1850-1854** | Çar qoşunlarının Zailiysk diyarını tutması |
| **1850-1902** | İ.V.Muşketov |
| **1851** | General V.A.Perovskinin Orenburq və Samara general-qubernatoru təyin edilməsi |
| **1851** | Kazan diyarında ilk kapitalist müəssisələrinin təşkili |

| | |
|---|---|
| **1851,1862** | Altaylıların qiymətli daşlardan düzəltdikləri məmulatların Londonda keçirilən sərgidə nümayiş etdirilməsi |
| **1851-1914** | İsmayıl bəy Qaspirali |
| **1853** | Ağ məscidin işğalı |
| **1854** | «Kazan İqtisadi Cəmiyyətinin Qeydləri» jurnalının çapı |
| **1854** | Alma-Ata kəndində Vernı istehkamının inşa edilməsi |
| **1855** | Kazan Universiteti Şərq şöbəsinin Peterburq Universitetinə köçürülməsi |
| **1855** | Akademik O.N.Byotlinqkin «Yakut dili haqqında» əsərinin nəşri |
| **1855-1860** | Kazan quberniyasında kəndlilərin çıxışları |
| **1856** | İssıkkul ekspedisiyası |
| **1856-1895** | Qabdrəhman İlyasi |
| **1857** | Çokan Vəlixanovun Rus Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçilməsi |
| **1858** | Buxara və Xivəyə İqnatyevin başçılığı ilə diplomatik heyətin göndərilməsi |
| **1859** | V.M.Çeremşanskinin «Orenburq quberniyasının təsərrüfat-statistik, etnoqrafiya və sənaye sahələrinin təsviri» əsərinin qızıl medala layiq görülməsi |
| **1860, oktyabr** | Rusların Uzun-Ağacı zəbt etməsi |
| **1861** | Tokmak və Bişkekin kokandlılar tərəfindən geri alınması |
| **1861** | General İqnatyevin Xarici İşlər Nazirliyi Asiya departamentinin başçısı təyin edilməsi |
| **1861-1863** | Simferopol və Feodosiya qəzalarında kəndli çıxışları |
| **1862-ci ilin payızı** | Rus qoşunlarının Bişkek və Tokmakı işğal etməsi |
| **1863** | Polkovnik Çernyayevin Suzak qalasını zəbt etməsi |
| **1863** | Perovsk qızlar məktəbi |
| **1864** | Ufa quberniya muzeyinin açılışı |
| **1864,12 iyun** | Polkovnik Veryovkinin Türküstan şəhərini alması |

| | |
|---|---|
| **1864, 22 sentyabr** | Çimkənd şəhərinin ruslar tərəfindən alınması |
| **1864** | İssıkkul ətrafında Aksuysk istehkamının tikilməsi və çar Rusiyası hərbi qüvvələrinin burada yerləşdirilməsi |
| **1865** | Qazalıda qızlar məktəbi |
| **1865** | Türküstan vilayətinin yaradılması |
| **1865-ci ilin yazı** | Niyazbəy qalasının alınması |
| **1865, 17 may** | Daşkənd şəhərinin tutulması |
| **1866, 24 may** | Rus qoşunlarının Xocənti alması |
| **1866, avqust** | Daşkənd, Xocənt və Çirçikin Rusiyanın tərkibinə qatılması |
| **1866** | Daşkənddə rus məktəbi |
| **1867** | Türküstan general-qubernatorluğunun yaradılması |
| **1867,11 iyul** | «Semireçye və Sırdərya vilayətlərinin idarə edilməsinə aid müvəqqəti əsasnamə»nin təsdiq olunması |
| **1867** | Daşkənddə meteoroloji stansiyanın yaradılması |
| **1867,1877, 1880,1883, 1891-1892, 1897-1898** | Çuvaşiya üçün kütləvi aclıq illəri |
| **1868** | Türküstan Statistika Komitəsinin təşkili |
| **1868** | Daşkənddə ilk mətbəənin açılması |
| **1868** | Rus Coğrafiya Cəmiyyəti Orenburq şöbəsinin yaradılması |
| **1868-ci ilin yazı** | Buxara əmirinin rus qoşunlarına qarşı «müqəddəs» müharibə elan etməsi |
| **1868, aprel-may** | Çar hökumətinin Rusiyanın mərkəzi quberniyalarından aztorpaqlı kəndlilərin Başqırdıstana köçürülməsi haqqında sərəncamları |
| **1868, 1 may** | Səmərqənd ətrafında Buxara qoşunlarının məğlubiyyətə uğradılması |
| **1868, 2 may** | Rus qoşunlarının Səmərqəndə daxil olması |
| **1868, 2 iyun** | Buxara əmirliyi qoşunlarının Zerabulaq yüksəkliyində məğlubiyyəti |
| **1868, 23 iyun** | Buxara ilə Rusiya arasında sülh müqaviləsinin imzalanması |

| | |
|---|---|
| **1868, 21 oktyabr** | «Vilayətlərin idarə edilməsi haqqında müvəqqəti əsasnamə»nin təsdiqi |
| **1869** | Rus qoşunlarının Krasnovodsk körfəzinə çıxarılması və Krasnovodskun əsasının qoyulması |
| **1869** | Akmolinsk vilayətinin tərkibində Sarısu qəzasının yaradılması |
| **1869, 10 fevral** | Başqırd torpaqlarının azad satışına icazə verilməsi |
| **1869** | Daşkənddə Hərbi Topoqrafiya şöbəsinin təşkili |
| **1869-1930** | V.V.Bartold |
| **1870** | Səmərqənddə rus-yerli məktəbin açılması |
| **1870** | Təbiətşünaslıq, Antropologiya və Etnoqrafiya Həvəskarları Cəmiyyətinin Türküstan şöbəsinin yaradılması |
| **1870** | «Türküstan xəbərləri» qəzetinin nəşri |
| **1870** | Daşkənddə ümumi kitabxana və Tokmakdakı qəza kitabxanasının təşkili |
| **1870-1902** | Zakir Bigeyev |
| **1870-1933** | M.İ.Aşmarin |
| **1871** | Mərkəzi Asiya Elmi Cəmiyyətinin yaradılması |
| **1871** | Kayum Nasiri tərəfindən təqvimin nəşr olunması |
| **1871-1874** | «Türküstan diyarı statistikasının öyrənilməsi üçün materiallar»ın nəşri |
| **1871-1931** | Səfuan Yaxşiqulov |
| **1872** | Kazanda «Kama-Volqa qəzeti»nin dərc edilməsi |
| **1873** | Daşkənddə üçillik xalq məktəbinin açılması |
| **1873** | Mərkəzi Asiya xalqlarının musiqi alətləri kolleksiyasının Vyanadakı Ümumdünya sərgisində nümayiş etdirilməsi |
| **1873** | Türküstan general-qubernatoru K.P.Kaufmanın başçılığı altında Xivə ekspedisiyasının işə başlaması |
| **1873** | Xivə xanlığının Rusiyanın protektoratlığını qəbul etməsi |
| **1873, 18 sentyabr** | Buxaranın Rusiyanın protektoratlığını qəbul etməsi |
| **1873, 28 sentyabr** | Rusiya ilə Buxara arasında Şəhrisəbzdə «dostluq haqqında müqavilə»nin imzalanması |

| | |
|---|---|
| **1874** | Zakaspi hərbi şöbəsinin yaradılması |
| **1874** | Daşkənd rəsədxanasının istifadəyə verilməsi |
| **1874** | Müstəqil Orenburq Təhsil dairəsinin təşkili |
| **1875** | Lozova-Sevastopol dəmiryol xəttinin çəkilişi |
| **1875, iyul** | Pulat xanın başçılığı altında üsyan |
| **1875, 22 iyul** | Xudoyar xanın rus səfirliyindən sığınacaq istəməsi |
| **1875, 29 avqust** | Çar qoşunlarının Kokandı alması |
| **1875, 22 sentyabr** | Nəsrəddin xanın Türküstan general-qubernatoru ilə müqavilə imzalaması |
| **1875, sentyabr** | Əndican üsyanı |
| **1876, 9 yanvar** | Əndican üsyanının yatırılması |
| **1876, 19 fevral** | Kokand xanlığının ləğvi |
| **1876** | Fərqanə vilayətinin təşkili |
| **1876** | Samara-Orenburq dəmiryol xəttinin işə düşməsi |
| **1976** | Türküstan tədris müəssisələri idarəsinin yaradılması |
| **1876** | Daşkənddə qadın və kişi gimnaziyalarının açılması |
| **1876** | «Orenburq səhifələri» qəzeti |
| **1879** | Bişkekdə rus-yerli məktəblərin açılması |
| **1879** | Daşkənddə Türküstan müəllimlər seminariyasının təşkili |
| **1879** | General Lomakinin Axaltəkəyə hərbi yürüşü |
| **1879, 28 avqust** | General Lomakinin qoşun hissələrinin Göytəpə qalasına hücumu |
| **1879** | «Qırğız müntəxəbatı»nın nəşri |
| **1879** | «Rus Coğrafiya Cəmiyyəti Orenburq şöbəsinin Xəbərləri»nin nəşri |
| **1879-1933** | Qaliəsgər Kamal |
| **1880, fevral** | General M.Skobelevin Zakaspi vilayəti qoşunlarının baş komandanı təyin edilməsi |
| **1880, 28 may** | Xocaqalanın rus qoşunları tərəfindən alınması |
| **1880, iyun** | Rus qoşunlarının Karrıqala və Bamı tutması |
| **1880** | İkinci Axaltəkə ekspedisiyasına general M.Skobelevin komandan təyin edilməsi |
| **XIX əsrin 80-ci illəri** | Başqırdıstanda Kəndli Torpaq bankının yaranması |

| | |
|---|---|
| **XIX əsrin 80-ci illəri** | Daşkənd məscidinin inşası |
| **XIX əsrin 80-ci illəri** | Xivəli musiqiçi P.N.Mirzaboşi Kamil tərəfindən səsyazma sisteminin ixtira edilməsi |
| **XIX əsrin 80-ci illəri** | Barnaulda səyyar sərgi salonlarının təşkili |
| **XIX əsrin 80-ci illəri** | Məhəmməd Salihin XVIII-XIX əsrlər üzrə Daşkəndin tarixi xrononikasını tərtib etməsi |
| **XIX əsrin 80-90-cı illəri** | Orenburq, Ufa və Mənzəlidə şəhər kitabxanalarının fəaliyyətə başlaması |
| **1880-1934** | Məcid Qafuri |
| **1881, 12 yanvar** | Göytəpə qalasının zəbt edilməsi |
| **1881, 18 yanvar** | Aşqabadın alınması |
| **1881, may** | Zakaspi vilayətinin yaradılması |
| **1881** | Rusiyadan kəndlilərin Qırğızıstana köçürülməsinə aid müvəqqəti qayda |
| **1881-1888** | Zakaspi dəmiryol xəttinin tikintisi |
| **1881-1918** | Qafur Güləhmədov |
| **1882** | Başqırdların torpaqlarının dövlət və kəndli cəmiyyətlərinə satılmasına icazə verilməsi |
| **1882** | Ufada zemstvo həkimlərini birləşdirən Tibb Cəmiyyətinin yaradılması |
| **1882-1883** | Müşavir Girsin Türküstan general-qubernatorluğunda birinci senat yoxlaması aparması |
| **1882-1933** | P.N.Çernıx-Yakutski |
| **1883** | Kəndli Torpaq bankının Ufa şöbəsinin təşkili |
| **1883** | «Türküstan xəbərləri»nin əlavəsinin «Türküstan vilayəti qəzeti»nə çevrilməsi |
| **1884** | Daşkənddə rus-yerli məktəblərin açılması |
| **1884** | Türküstan diyarı Xalq Təhsili şöbəsi yanında rus dili və tarixini öyrədən axşam kurslarının təşkili |
| **1884** | Daşkənd müəllimlər seminariyasında özbək dilinin tədrisinə başlanılması |
| **1884** | Mərv şəhərinin rus qoşunları tərəfindən alınması |
| **1884-1926** | Şərif Kamal |
| **1885** | Kəndli Torpaq bankının Orenburq şöbəsinin təsisi |
| **1885, 18 mart** | Çar qoşunlarının Pənc vahəsində əfqan dəstələrini darmadağın etməsi |

| | |
|---|---|
| **1885** | Kayum Nasirinin Kazan Universiteti nəzdindəki Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinin həqiqi üzvü seçilməsi |
| **1885** | Fərqanə üsyanı |
| **1886** | Sırdərya vilayətində rus-yerli məktəbin açılması |
| **1886** | Türküstan general-qubernatorluğunun Türküstan diyarına çevrilməsi |
| **1886** | Türküstan diyarının idarə olunmasına aid əsasnamə |
| **1886-1913** | Qabdulla Tukay |
| **1886-1926** | Fateh Əmirxan |
| **1887** | Sırdərya,Səmərqənd və Fərqanə statistika komitələrinin təşkili |
| **1887** | Rusiya Musiqi Cəmiyyətinin Kazan şöbəsinin açılması |
| **1887** | Mürğab malikanəsinin yaradılması |
| **1887 –1890** | Mürğabda Sultanbəndin salınması |
| **1887-1938** | Əlimcan İbrahimov |
| **1888** | «Türküstan məcmuəsi...»nin 416-cı cildinin çapdan çıxması |
| **1888** | Samara-Zlatoustovsk dəmiryolu Ufa xəttinin tikilməsi |
| **1888** | Krasnovodsk dəmiryol xəttinin Səmərqəndə çatdırılması |
| **1889** | Barnaulda Etnoqrafiya muzeyinin fəaliyyətə başlaması |
| **1889** | Rus kəndlilərinin Qazaxıstana köçürülməsi qayda və şərtləri haqqında yeni qanun |
| **1889-1890** | Ufada Quberniya xəstəxanasının tikilməsi |
| **1890** | Zakaspi vilayətinin Qafqaz hərbi dairəsinin ixtiyarından çıxarılaraq Hərbi Nazirliyin sərəncamına verilməsi |
| **1890** | Türküstan gömrük dairəsinin təşkili |
| **1891** | Yakutiya muzeyinin açılışı |
| **1891-1895** | Mürğabda Hindiquş bəndinin salınması |
| **1892** | Altayda ilk su-elektrik stansiyası |
| **1893** | İsmayıl bəy Qaspiralının ilk yeni üsullu məktəblərə məsləhətlər vermək üşün Səmərqəndə gəlməsi |

| | |
|---|---|
| **1894** | Daşkənddə peşə məktəblərinin açılması |
| **1894** | V.A.Jukovskinin «Zakaspi diyarının uzaq keçmişi. Qədim Mərvin xarabalıqları» əsərinin çap olunması |
| **1894** | Kazanda muzeyin açılışı |
| **1894** | Rusiya ticarət-sənaye bankının Orenburq şöbəsinin təsisi |
| **1895** | Ufada sosial-demokrat dərnəyinin təşkili |
| **1895** | Mərkəzi Asiyanın Rusiyaya qatılmasının başa çatması |
| **1895** | Türküstan Həvəskar Arxeoloqlar dərnəyi |
| **1895** | Teymurun mavzoleyi Quri-Əmirin memarlıq cəhətdən öyrənilməsi üçün ekspedisiya təşkil edilməsi |
| **1895** | «Orta Asiya» jurnalının nəşri |
| **1895** | Kazanda rəssamlıq məktəbinin açılması |
| **1895** | Şerbinin başçılığı ilə Qazaxıstana ekspedisiya göndərilməsi |
| **1895** | Rusiya Dövlət bankının Aşqabad şöbəsinin təsisi |
| **1895** | Daşkənddə Dövlət, Volqa-Kama, Rus-Çin və Mərkəzi Asiya bankları şöbələrinin və Daşkənd qarşılıqlı kredit cəmiyyətinin təşkili |
| **1895-1913** | Türkmənistanda «Zakaspi icmalı» qəzetinin nəşri |
| **1896** | «Orta Asiya xəbərləri» jurnalının çapı |
| **1896-1933** | N.A.Aşmarinin 17 cildlik «Çuvaş dilinin lüğəti» əsərinin nəşri |
| **1897** | Rus Coğrafiya Cəmiyyəti Türküstan şöbəsinin yaradılması |
| **1897** | Orenburqda muzeyin təşkili |
| **1897** | Kazan sosial-demokrat qrupunun təsis edilməsi |
| **1897-1917** | Rus Coğrafiya Cəmiyyəti Türküstan şöbəsinin fəaliyyətinə aid 12 cildlik əsərin nəşri |
| **1898** | Yakutiyada xalq kitabxanası-oxu zalının yaradılması |
| **1898** | Daşkənddə «Rus Türküstanı» qəzetinin nəşri |
| **1898** | Əndican üsyanı |

| | |
|---|---|
| **1898, fevral** | Kokand inşaatçılarının tətili |
| **1899** | Orenburq-Daşkənd dəmiryol xəttinin tikintisi |
| **1899** | «Aşqabad» qəzetinin çapı |
| **1899** | Aşqabadda İran hesab-borc bankının şöbələrinin açılması |
| **XIX əsrin sonu** | Barnaulda «Altayın zoologiyası» və «Altayın etnoqrafiyası» kitablarının nəşri |
| **1899-1903** | Aral dənizi və Balxaş gölünün tədqiqi |
| **1901-1902** | Bişkek,Tokmak və Prjevalskdə ilk yeni üsullu məktəblərin təşkili |
| **1902** | Yakutiyada qeyri-leqal siyasi dərnəyin yaradılması |
| **1902** | Özbəkistanda ilk sirk tamaşası |
| **1902** | Prjevalskdə ilk xalq qiraət-kitabxanasının açılması |
| **1903** | Türküstanda ilk rus-yerli qadın məktəbinin açılışı |
| **1903** | Aşqabadda Arxeologiya Həvəskarları Cəmiyyətinin yaradılması |
| **1903** | Çuvaşiyada pedaqoji kursların təşkili |
| **1903** | N.A.Aşmarinin «Çuvaş sintaksisinin tədqiqinin təcrübəsi» əsərinin nəşri |
| **1903, 16 dekabr** | Krasnovodsk depo fəhlələrinin iqtisadi xarakterli çıxışları |
| **1903 -1904** | Daşkənd, Aşqabad və Qızıl Arvadda gizli sosial-demokrat qruplarının yaradılması |
| **1904** | Səmərqənddə bağçılıq və şərabçılıq məktəblərinin açılması |
| **1904** | Səmərqənddə «Səmərqənd» qəzetinin nəşri |
| **1904** | Daşkənddə dəmiryol texniki məktəbinin açılması |
| **1904** | Türküstanda müxtəlif sosial-demokrat dərnəklərinin vahid qrupda birləşməsi |
| **1904** | Köçürmə idarəsinin yaradılması |
| **1904, 1 may** | Türküstan fəhlələrinin ilk siyasi çıxışları |
| **1904, 6 iyun** | Köçürmə icbari qaydası barədə qanun |
| **1904-1910** | Köçürmənin ilkin mərhələsi |
| **1905** | Özbək mahnıları yazılmış ilk qrammafon valları |
| **1905** | N.İ.Andrusovun «Zakaspi vilayətinin geologiyasına aid materiallar» əsərinin nəşri |

| | |
|---|---|
| **1905** | Semipalatinsk, Turqay, Ural və Sırdərya vilayətlərində kəndli çıxışları |
| **1905** | Səmərqənddə gizli sosial-demokrat təşkilatının yaradılması |
| **1905, 19 yanvar** | Səmərqənddə Demurovun mətbəə fəhlələrinin tətili |
| **1905, 20 yanvar** | Tatarıstanda Alafuzovun fabriklərində fəhlə tətilləri |
| **1905, 24 yanvar** | Kazan Universiteti və Baytarlıq institutu tələbələrinin tətili |
| **1905, fevral** | Çuvaşiyada Alatır teleqraf stansiyası və paravoz təmiri zavodu fəhlələrinin tətilləri |
| **1905, 18 fevral** | Daşkənd dəmiryol fəhlələrinin tətili |
| **1905, 1 may** | Aşqabad, Krasnovodsk və başqa şəhərlərdə tətillər |
| **1905, 14 iyun** | Krımda «Potyomkin» zirehli gəmisində üsyan |
| **1905, 15 avqust** | Ümumrusiya müsəlmanlarının I qurultayı |
| **1905, oktyabr** | Mərkəzi Asiya və Orenburq-Daşkənd dəmiryolçularının tətili |
| **1905, 7 oktyabr** | Tatarıstan fəhlələrinin Moskva-Kazan dəmiryol fəhlələrinin Ümumrusiya siyasi tətilinə qoşulması |
| **1905, 30 oktyabr** | Yakutiyada ilk nümayiş |
| **1905, 16 noyabr** | Yakutskda poçt-teleqraf idarəsi işçilərinin tətili |
| **1905-1906** | Tatarıstanda «Fikir», «Azad», «Azad xalq» qəzetləri və «Ox» jurnalının nəşri |
| **1905-1907** | Daşkənd və Vernıda gizli mətbəələrin fəaliyyətə başlaması |
| **1906** | Daşkənddə «Tərəqqi» və «Günəş» qəzetlərinin çap olunması |
| **1906** | Yakutiyada feldşer məktəbinin açılışı |
| **1906** | N.V.Nikolskinin «Çuvaşların xalq maarifi» əsərinin çapı |
| **1906** | Orenburqda «Qırğı» və «Çəkic» satirik jurnallarının çapı |
| **1906** | Orenburq-Daşkənd dəmiryol xəttinin işə düşməsi |
| **1906, 4 yanvar** | «Yakut fəhlə ittifaqı» təşkilatının yaradılması |

| | |
|---|---|
| **1906, 15-23 yanvar** | Ümumrusiya müsəlmanlarının II qurultayı |
| **1906, fevral** | Daşkənddə «RSDFP-nin Türküstan təşkilatı ittifaqı»nın yaradılması |
| **1906, mart** | I Dövlət dumasına seçkilər |
| **1906, 21 iyun** | I Dövlət dumasında Müsəlman fraksiyasının təşkili |
| **1906, iyul** | Zakaspi atıcı batalyonu əsgərlərinin çıxışları |
| **1906, 16-23 avqust** | Ümumrusiya müsəlmanlarının III qurultayı |
| **1906, 9 noyabr** | Stolıpinin torpaq islahatı |
| **1906, 22 dekabr** | Kazanda tatar dilində ilk teatr tamaşası |
| **1906-1908** | Turqay əyalətində çarizmin köçürmə siyasətinə qarşı üsyan |
| **1907** | Orenburqda tatar dilində «Ural» qəzetinin nəşri |
| **1907** | II Dövlət dumasına seçkilər |
| **1907, fevral** | Çuvaşiyanın Çemeyev və Yadrin qəzalarında kəndli üsyanları |
| **1907** | III Dövlət duması |
| **1907, 30 iyul** | Türküstan diyarının idarə olunmasına dair qərar |
| **1907-1909** | «Yakutiya diyarı» qəzetinin nəşri |
| **1907-1917** | Orenburqda «Din və həyat», Ufada «Dini məclislərin xəbəri» jurnallarının çap olunması |
| **1908** | V.L.Vyatkinin arxeoloji qazıntılar nəticəsində Səmərqənddə Uluqbəy rəsədxanasının qalıqlarını tapması |
| **1908** | Daşkənddə «Asiya» və «Tacir» qəzetlərinin nəşri |
| **1908** | L.S.Berqin «Aral dənizi» adlı monoqrafiyasının nəşri |
| **1908** | Ufada V.İ.Filonenkonun rəhbərliyi ilə Yerli diyarı öyrənən cəmiyyətin yaradılması |
| **1908** | Krım astrofizika rəsədxanasının açılışı |
| **1908-ci ilin payızı** | Kazanda ilk tatar «Səyyar» teatr truppasının yaradılması |

| | |
|---|---|
| **1908** | N.V.Nikolskinin «Çuvaşların etnoqrafiyasının qısa xülasəsi» və «Rus-çuvaş lüğəti» əsərlərinin nəşri |
| **1909** | P.N.Çernıx-Yakutskinin «Sakit simli» şerlər kitabının çapı |
| **1910** | Xivədə İslam Xoca mədrəsəsinin inşası |
| **1910** | Stolıpinin Kazana səfəri |
| **1910, 14 iyun** | «Kəndli torpaq sahibliyinə dair» qanun |
| **1910-cu ilin payızı** | Stolıpinin Sibir və Volqaboyu ərazilərə səfəri |
| **1910-1914** | Köçürmənin ikinci mərhələsi |
| **1911** | Macar alimi Q.Almaşin «Manas»dan bir parçanı çap etdirməsi |
| **1911-1915** | «Aykap» jurnalının nəşri |
| **1912, 4 aprel** | Sibirdə Lena qızıl mədənlərində tətil |
| **1912, 1 iyun** | Daşkənd yaxınlığında Troitsk hərbi hissəsində üsyan |
| **1912** | IV Dövlət duması |
| **1912** | Buxarada «Turan» qəzetinin nəşr edilməsi |
| **1912** | F.İ.Levçenkonun «Suvarma məsələsi ilə əlaqədar Qaraqum səhrasının torpağı, yeri və yeraltı suları» əsərinin çapı |
| **1912** | Ufada «Nur» tatar truppasının yaradılması |
| **1912** | Yakut dilində aylıq «Yakutun səsi» jurnalının çapı |
| **1913** | Səmərqənddə rus-özbək-tacikcə «Səmərqənd» qəzeti və «Ayna» jurnalının nəşri |
| **1913-1914** | E.Arabayevin ərəb qrafikasında qırğız dilinin əlifbası, O.Sıdıkovun «Qırğızıstanın tarixinin qısa kursu» kitablarının nəşri |
| **1914** | Daşkənddə «Türküstanın səsi» və Kokandda «Fərqanənin səsi» qəzetlərinin nəşri |
| **1914** | B.V.Smirnovun «Türküstan çöllərində» adlı kitabının nəşri |

| | |
|---|---|
| **1914** | Z.Yarullinin «Tukay marşı» |
| **1914** | Tuvanın Uryanxaysk diyarı adı altında Rusiyaya birləşdirilməsi |
| **1914** | Yakutiyada elektrik stansiyasının istifadəyə verilməsi |
| **1914** | Orenburqda «Şirkət» truppasının fəaliyyətə başlaması |
| **1914-1916** | Türküstan diyarında fövqəladə vəziyyət |
| **1914-1917** | Orenburqda satirik «Tilov» jurnalının nəşr olunması |
| **1914-1917** | Aşqabadda türkmən dilində «Zakaspi yerli qəzeti»nin çapı |
| **1915, 1 yanvar** | «Hərbi vergi haqqında əsasnamə» |
| **1915** | Daşkənddə din xadimlərinin «İslahat» jurnalının nəşri |
| **1915** | Həmzə Həkimzadənin Kokanddakı həvəskar teatrı |
| **1915** | Kazan hərbi-sənaye komitəsinin yaradılması |
| **1915, avqust** | Türküstan diyarında hərbi-sənaye komitələrinin təşkil edilməsi |
| **1915** | Başqırdıstanın dağ-mədən və metallurgiya sənayesinin hərbi məhsul istehsalına başlaması |
| **1916** | Başqırdıstanda ərzaq məhsullarının kartoçka ilə verilməsi |
| **1916** | Kazan tələbələri, Çuvaşiya fəhlə, əsgər və kəndlilərinin müharibə əleyhinə çıxışları |
| **1916** | Həmzə Həkimzadənin «Milli mahnılar» məcmuəsinin çapı |
| **1916** | Bişkekdə «Teleqraf xəbərləri»nin nəşri |
| **1916** | Bişkek şəhər ümumi qiraət-kitabxanasının yaradılması |
| **1916** | V.V.Nikiforovun «Yakutiya məsələləri» qəzetinin nəşri |
| **1916, aprel** | Fərqanə dəmiryol xəttinin istifadəyə verilməsi |

| | |
|---|---|
| **1916, 25 iyun** | Çar II Nikolayın «Döyüşən ordu rayonunda hərbi nəqliyyat və müdafiə tikintisi quruculuğu,onlara bərabər, dövlətin müdafiəsindən ötrü vacib işlər üçün imperiya əhalisinin özgə xalqdan olan kişilərini cəlb etmək haqqında» qərar imzalaması |
| **1916, 28 iyun** | Amangəldi İmanovun başçılığı ilə üsyan |
| **1916, iyul-avqust** | Orduya səfərbərliyə qarşı Mərkəzi Asiya və Qazaxıstanda üsyan |
| **1916, 18 sentyabr** | Türküstanda arxa cəbhə işlərinə səfərbərliyə alınmış ilk fəhlə eşalonunun yola salınması |
| **1916, sentyabr-oktyabr** | Səfərbərlik əleyhinə üsyanın Qazaxıstan, Qırğızıstan və Türkmənistanın əksər bölgələrini bürüməsi |
| **1917** | Oşda xalq qiraət-kitabxanasının təşkili |
| **1917** | Buxara yaxınlığında Sitorai Moxi-xossa sarayı tikintisinin başa çatması |
| **1917** | Ufada yerli rəssamların əsərlərinin sərgisi |
| **1917, 1-2 mart** | Kazanda siyasi nümayişlərin başlanması |
| **1917, 2 mart** | Kazanda və quberniyalarda fəhlə deputatları Sovetlərinin yaranması |
| **1917, 2-5 mart** | Başqırdıstanda Quberniya ictimai təşkilat və təhlükəsizlik komitələri, fəhlə və əsgər deputatları Sovetlərinin yaradılması |
| **1917, 3 mart** | Daşkənddə ilk fəhlə deputatları Sovetinin təşkili |
| **1917, 3-4 mart** | Biysk və Barnaulda İctimai idarə üsulu komitəsinin təşkili |
| **1917, 4 mart** | Yakutiya İctimai təhlükəsizlik komitəsinin yaradılması |
| **1917, 5 mart** | Daşkənd əsgər deputatları Sovetinə seçkilər |
| **1917, 5 mart** | Aşqabadda Müvəqqəti icra komitəsinin təşkili |
| **1917, 5 mart** | Kazanda Quberniya ictimai təhlükəsizlik komitəsinin yaradılması |
| **1917, 6 mart** | Daşkənd Müvəqqəti icraiyyə komitəsinin yaradılması |

| | |
|---|---|
| **1917, 7 mart** | Aşqabadda fəhlə deputatları Sovetinin yaradılması |
| **1917, 7 mart** | Kazanda Müsəlman komitəsinin təşkili |
| **1917, 7-8 mart** | Daşkənd fəhlələrinin birləşmiş həmkarlar ittifaqının yaradılması |
| **1917, 10 mart** | Kazanda əsgər deputatları Sovetinin təşkili |
| **1917, 12 mart** | Yeni Buxara icra komitəsinin seçilməsi |
| **1917, 17 mart** | Çuvaşiyada vətəndaş deputatları Soveti /sonra fəhlə və əsgər deputatları Soveti/ və İctimai təhlükəsizlik komitəsinin yaradılması |
| **1917, 25 mart** | Krım Müsəlman komitəsinin müsəlmanların I qurultayını çağırması və Müsəlman İcraiyyə Komitəsinin təşkili |
| **1917, 28 mart** | Daşkənddə fəhlə və əsgər deputatları Sovetlərinin vahid bir Sovetdə birləşməsi |
| **1917, 31 mart** | Daşkənd şəhərində fəaliyyət göstərən Sovetlərin Türküstan general-qubernatorluğu rəhbərliyinin dəyişdirilməsinə tərəfdar olması haqqında bəyanatı |
| **1917, mart** | Tuvada rusların yaşadıqları qəsəbələrdə İctimai təhlükəsizlik komitələrinin təşkili |
| **1917, mart** | Biysk və Barnaulda fəhlə və əsgər deputatları Sovetlərinin yaradılması |
| **1917, aprel** | Xivədə «Gənc xivəlilər» adlı cədidçilər qrupunun yaradılması |
| **1917, 7 aprel** | Türküstan general-qubernatoru A.N.Kuropatkinin vəzifəsindən azad edilməsi və Türküstan komitəsinin yaradılması |
| **1917, 7 aprel** | Buxara əmirliyində islahat keçirilməsi |
| **1917, 7-15 aprel** | Türküstan diyar Sovetlərinin qurultayı |
| **1917, 15-20 aprel** | Bakıda Qafqaz müsəlmanlarının qurultayı |
| **1917, 16-23 aprel** | «Şurayi-islam» təşkilatının I qurultayı |

| | |
|---|---|
| **1917, 23-24 aprel** | Kazan qubemiyası müsəlmanlarının I qurultayı |
| **1917, 1-11 may** | Moskvada Ümumrusiya müsəlmanlarının qurultayı |
| **1917, 14 may** | Yakutiyada ikihakimiyyətlik |
| **1917, 1-6 iyul** | Biysk şəhərində Dağlıq Altay dumasının yaradılması |
| **1917, 21-26 iyul** | Orenburqda I Ümumrusiya qırğızları qurultayında qırğız-qazax milli muxtariyyəti tələbi |
| **1917, 26 iyul-2 avqust** | Kazanda Ümumrusiya müsəlmanlarının ikinci qurultayının Mərkəzi Rusiya və Sibir müsəlmanlarının mədəni-milli muxtariyyətini elan etməsi |
| **1917, sentyabr** | Daşkənddə Türküstan müsəlman ictimai təşkilatlarının qurultayı |
| **1917, 24-25 oktyabr** | Kazanda Sovetlərin hakimiyyəti ələ alması |
| **1917, 28-31 oktyabr** | Daşkənddə bolşeviklərin Müvəqqəti hökumətin Türküstan komitəsinin üzvlərini həbs etməsi |
| **1917, 29 noyabr** | Volqa-Ural Respublikasının yaradılması |
| **1917, dekabr** | A.Bukeyxanovun başçılığı altında Alaş-Orda Muxtar qazax hökumətinin təşki |
| **1917** | "Türküstan məcmuəsi..."nin 594-cü cildinin çapdan çıxması |

# ƏDƏBİYYAT

## Mənbələr

Восстание 1916 года в Киргизстане. Документы и материалы. М., 1937

Восстание 1916 года в Средней Азии и Казахстане. Сборник документов. М., 1960

Кавказские депутаты в III Государственной Думе. Баку, 1912

Материалы по истории Башкирской АССР. М., 1960

Материалы по истории и культуре уйгурского народа. Алма-Ата, 1978

Рабочее и аграрное движение в Казахстане в 1905-1914 годах. Сборник документов и материалов. Алма-Ата, 1972

Революционное движение в Татарии в 1905-1907 гг. Документы и материалы. Казань, 1957

Революционные события на Алтае в 1905-1907 гг. Сборник документов. Барнаул, 1967

Состав трудовой группы в I и II Государственных думах. М., 1988

Столыпин П.А. Думские речи. М., 1990

Третья Государственная Дума. Часть I . СПб., 1911

Члены Второй Государственной Думы. СПб., 1907

## Ümumiləşdirici əsərlər

История Алтая. Учебное пособие. Ч.I. Барнаул, 1983

История Алтая в документах и материалах (конец XVII-начало XX в.). Барнаул, 1991

История Бухары с древнейших времен до наших дней. Ташкент, 1976

История искусства народов СССР в 9-ти томах /вторая половина XIX-начала XX вв./. Т.6. М., 1971

История Казахской ССР с древнейших времен до ВОСР. Алма-Ата, 1951

История Казахской ССР. Т. I. Алма-Ата, 1952

История Казахской ССР. Т. I. Алма-Ата, 1957
История Казахской ССР. Т.2. Алма-Ата, 1977
История Казахской ССР с древнейших времен до наших дней. Т.II. Алма-Ата, 1979
История Киргизской ССР. Т. I. Фрунзе, 1963
История Киргизской ССР. Т. I. Фрунзе, 1968
История Киргизской ССР с древнейших времен до наших дней. Т.1-2. Фрунзе, 1984-1986
История и культура народов Средней Азии. М., 1976
История и культура Чувашской АССР. Чебоксары, 1974
История искусств Узбекистана с древнейших времен до середины XIX века. М., 1965
История Молдавской ССР . Т. I. Кишинев, 1965
История и современность. Фрунзе, 1982
История Сибири с древнейших времен до наших дней. В 5-ти тт. Т.3. Л., 1968
История Средней Азии и Узбекистана. Ташкент, 1956
История Сибири. Томск, 1987
История Татарской АССР. Казань, 1951
История Татарской АССР. Т. I. Казань, 1955
История Татарской АССР. Казань, 1980
История Татарской АССР с древнейших времен до наших дней. Казань, 1968
История Татарской АССР с древнейших времен до наших дней. Казань, 1986
История Ташкента. Ташкент, 1988
История Тувы. Т. I. М., 1964
История Туркменской ССР. Т. I. Кн.2. Ашхабад, 1957
История Узбекистана в источниках. Ташкент, 1984
История Узбекистана в источниках. Узбекистан в сообщениях путешественников и ученых /20-80-е годы XIX в./. Ташкент, 1990
История народов Узбекистана. Т.2. Ташкент, 1947
История Узбекской ССР. Т.I. Кн.2. Ташкент, 1956
История Узбекской ССР. Т.2. Ташкент, 1968

История Узбекстана с древнейших времен до ВОСР. Ч.I. Ташкент, 1968
История Хорезма с древнейших времен до наших дней. Ташкент, 1976
История Чувашской АССР с древнейших времен до ВОСР. Т. I. Чебоксары, 1966
История Чувашской АССР . Т.1-2. Чебоксары, 1967
История Чувашской АССР. Чебоксары, 1976
История Якутской АССР. Т.2. М., 1957

**Azərbaycan dilində**

Azərbaycan tarixi. Yeddi clddə. V cild (1900-1920-ci illər). B., 2001
Xəlilov P.İ.Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı. Birinci kitab. B., 1994
Quliyev V. Mirzə Kazımbəy. B., 1987
Mehdiyeva N.C. Türk xalqlarının tarixinə dair materiallar. B., 1994
Mehdiyeva N.C. Türküstanda maarif (XIX-XX əsrin əvvəllərində). Türk və Qafqaz xalqları tarixinin bəzi məsələləri (Məqalələr toplusu). B., 1997
Mehdiyeva N.C. Çar Rusiyasının Türküstanda maarif siyasətində ruslaşdırma xətti (XIX əsrin sonu-XX əsrin əvvəllərində).-Azərbaycan Elmlər Akademiyası, «Təfəkkür» Universiteti, Azərbaycan İqtisadçılar İttifaqı.-«Azərbaysan XXI əsrin astanasında» ikinci respublika elmi praktiki konfransının materialları. B., 1998
Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Mərkəzi Asiya və Qazaxıstanın fəthi uğrunda İngiltərə ilə Rusiya arasında mübarizə.- Elm və Təhsil Mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. IV buraxılış. B., 1998
Mehdiyeva N.C. XX əsrin əvvəllərində Türküstanda elmin inkişafı. - Elm və Təhsil Mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. V buraxılış. Bakı, 1999
Mehdiyeva N.C. Stolıpinin aqrar islahatı Türküstanda.-Elm və Təhsil mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. V buraxılış. B., 1999

Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Volqaboyu bölgəsində elmin nailiyyətləri.- Bakı Dövlət Universiteti - 80 illiyi. Elmi konfransın materialları. B., BDU, 1999
Mehdiyeva N.C. Rusiya tərkibindəki türk xalqları fevral inqilabından sonra.-Azərbaycan tarixinin çağdaş problemləri. B., Xəzər Universiteti, 2000
Mehdiyeva N.C. Türküstan fevral inqilabından sonra.-Birinci beynəlxalq Türkoloji qurultayın 75-ci ildönümünə həsr olunmuş elmi konfransın materialları /6-7 mart 2001-ci il/. Azərbaycan Dövlət Pedaqoji Universitetinin 80 illiyinə həsr olunur. B., ADPU, 2001
Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Krım. Azərbaycan Beynəlxalq Universiteti. Elmi konfransın materialları. 9-10 aprel 2002-ci il. B., 2002
Mehdiyeva N.C. XIX əsrin ikinci yarısında Rusiyanın Türküstanın idarəetmə sistemində etdiyi dəyişikliklər. Elm və Təhsil Mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. VI buraxılış, B., 2003
Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Kokand, Xivə və Buxara xanlıqlarının inzibati quruluşu. Pedaqoji tədqiqatlar (Elmi məqalələr məcmuəsi). B., ADPU, 2005
Mehdiyeva N.C. XIX əsrdə Türküstan xalqlarının mədəniyyəti. Birinci Türkoloji qurultay - 80. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, № 2, B., BUN, 2006
Mehdiyeva N.C. XIX əsrin ikinci yarısında Türküstanda elmi cəmiyyət və təşkilatlar. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. № 3, B., ADPU, 2007
Mehdiyeva N.C. XX əsrin əvvəllərində Türküstanda dövri mətbuat və mədəni-maarif müəssisələri. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. II buraxılış. B., 2007
Mehdiyeva N.C. XIX əsrin ikinci yarısında Qırğızıstanda elmin inkişafı. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, № 1, B., ADPU, 2008
Mehdiyeva N.C. XX əsrin əvvəllərində Türküstanda incəsənətin nailiyyətləri. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. № 2 , B., BUN, 2008

Mehdiyeva N.C. XX əsrin əvvəllərində Özbəkistanın mədəniyyəti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. I buraxılış. B., 2008
Mehdiyeva N.C. Kazan Universiteti. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın materialları. Humanitar elmlər seriyası. B., BUN, 2009
Mehdiyeva N.C. Özbəkistanda məktəb və mədrəsələr, dünyəvi təhsil (XIX-XX əsrin əvvəlləri). Tarix və onun problemləri. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış. B., 2009
Mehdiyeva N.C. Mərkəzi Asiya və Qazaxıstanda 1916-cı il üsyanı. Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. B., BUN, 2009
Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Sibir türkləri. Pedaqoji Universitetin Xəbərləri, № 2. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. B., ADPU, 2010
Mehdiyeva N.C. XIX əsrdə Özbəkistanda elmin inkişafı. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. III buraxılış. B., 2010
Rzayev A.Q. Dərbənddən başlanan əzablı yol. B., 1989
Vəliyev T.T. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. B., 1987
Yaqub Mahmudlu, Cu Honq Conq, Nuşirəvan Məhərrəmli, Kərəm Məmmədli. Altay xalqları. B., 1996

**Türk dilində**

Ahmet Caferoğlu. Türk Kavımleri. Ankara, 1983
Baharli N.S. Türk Edebiyati Tarihi. XYI c. Ankara, 1971
Birleşik Türkmenistan Tarihi. Ankara, 1995
Devlet Nadir. Rusiya Türkler'inin Milli Mücadele Tarihi (1905-1917). Ankara, 1985
Edip Yavuz. Tarih Türk Kavimleri. Ankara, 1968
Gürzel Haluk. Tarih Boyunca Türk-Rus İlişkileri. Ankara, 1968

Hans Kohn. Panislamizm ve Rus Milliyetçiliği. Paris, 1963
Karatnsky A. Rus Orta Asiyası`nı Birleştiren İslamiyet Değildir. Türk kültürü aylık dergisi. Ankara, 1989
Kazak ve Tatar Türkleri. İstanbul, 1976
Mert Özcan. Rusların Orta Asiyayı Ele Geçirmelerine Dair. Edebiyat Fakültesi dergisi. C.2. Ankara, 1984
Tamas A.B. Kazan türkleri. Ankara, 1966
Türk dünyası il kitabı. I c., 2 bas., Ankara, 1992
Türk kültürünü Araştırma Enstitüsü yayınları: sayı 14. Ankara, 1985
Zeki Velidi Toqan. Bugünkü Türkistan ve Yakın Tarihi. İstanbul, 1981
Zenovsky S. Rusiya'da Pantürkizm ve Müslümanlık. Ankara, 1983

**Mərkəzi Asiya xalqlarının dilində**

Зияев Х.З. Урта Осиё ва Сибир /XVI-XIX асрлар/. Тошкент, 1962
Түркмен эдебиятынын тарыхы. Тт. II-III. Ашгабат, 1975-1977

**İngilis dilində**

Adye J. Russia in Central Asia. Gibraltar, 1885
Boulger D. Central Asian Questions. London, 1885
Vambery A. Central Asia and Anqlo-Russian Question. London, 1874
Skrine F.N., Ross E.D. The heart of Asia: A History of Russian Turkestan and Central Asian Khanates from the Earliest Times. London, 1899

**Rus dilində**

Абдуллин Г. Татарская просветительская мысль. Казань, 1976
Абдураимов М.А. Очерки аграрных отношений в Бухарском ханстве в XVI- первой половине XIX века. Тт. I-II. Ташкент, 1966-1970
Абумавлянов А.А., Бабаханов А.А. История Узбекской литературы. Ташкент, 1966
Абрамзон С.М. Очерк культуры киргизского народа. Фрунзе, 1946

Абрамзон С.М. Киргизы и их этногенетические и историко-культурные связи. Фрунзе, 1990
Аврех А.Я. Столыпин и судьбы реформ в России. М., 1991
Аврех А.Я. Царизм и IV дума /1912-1914 гг./. М., 1981
Авшарова М.П. История Узбекистана. Ташкент, 1968
Агаев X. Взаимоотношения прикаспийских туркмен с Россией в XIX веке. Ашхабад, 1965
Аграрная политика царизма в Сибири в эпоху капитализма. Омск, 1987
Азадаев Ф. Очерки из истории Ташкента (социально-экономическая история города во второй половине XIX века). Ташкент, 1960
Азербайджанско-казахские литературные связи. Баку, 1990
Айтбаев М.Т. Историко-культурные связи киргизского и русского народов. Фрунзе, 1957
Айтбаев М.Т. Социально-экономические отношения в киргизском ауле в XIX - начале XX веков. Фрунзе, 1962
Айтмамбетов Д.О. Дореволюционные школы в Киргизии. Фрунзе, 1961
Айтмамбетов Д.О. Культура киргизского народа во второй половине XIX и начале XX века. Фрунзе, 1967
Акрамов В.А. Социально-экономическая и культурная жизнь города Коканда (вторая половина XIX-начало XX вв.). Автореф. дисс….канд.истор.наук. Ташкент, 1973
Актуальные проблемы теории и истории культуры. Ташкент, 1980
Алимов А. Развитие торговых отношений в Туркестане (конец XIX-начало XX вв.). Автореф. дисс…. канд. истор. наук. Ташкент, 1971
Алтай в эпоху капитализма. Барнаул, 1986
Аминов А.М. Экономическое развитие Средней Азии. Ташкент, 1959
Аминов А.М., Бабаходжаев А.Х. Экономические и политические последствия присоединения Средней Азии к России. Ташкент, 1966

Аннанепесов М. Участие солдатских масс в революции 1905-1907 годов в Туркестане. Ашхабад, 1966
Антипин В.П. История Якутской АССР. Т.3. М., 1963
Апаев Т.Н. Просвещение и культура Сибири во второй половине XVIII-начале XX вв. М., 1990
Аполлова Н.Г. Присоединение Казахстана к России в 30-х годах XVIII в. Алма-Ата, 1948
Асалханов И.А. Социально-экономическое развитие юго-восточной Сибири во второй половине XIX века. Улан-Уде, 1963
Атишев А. Социальные и государственно-правовые взгляды Ч.Ч.Валиханова. Фрунзе, 1965
Ахмеджанов З.К. К истории строительства железных дорог в Средней Азии (1880-1917 гг.). Ташкент, 1965
Ахметова М.М. Традиции казахской песенной культуры. Алма-Ата, 1984
Байбулатов Б.Б. Социально-экономический строй Киргизии до Великой Октябрьской Социалистической Революции. Фрунзе, 1958
Бартольд В.В. История Туркестана. Ташкент, 1922
Бартольд В.В. История культурной жизни Туркестана. Соч., т. II. Ч.I. М., 1963
Бартольд В.В. Очерк истории туркменского народа. Соч.,т. II. Ч.I. М., 1963
Бартольд В.В. Коканд. Фергана. Соч., т. III. М., 1965
Башкирия в революции 1905-1907 гг. Уфа, 1987
Бейсембиев К. Из истории общественной мысли Казахстана второй половины XIX века. Алма-Ата, 1957
Бекмеханов Е.Б. Очерки истории Казахстана. Алма-Ата, 1956
Бекмеханов Е.Б. Очерки истории Казахстана XIX в. Алма-Ата, 1966
Бекмеханов Е.Б. Присоединение Казахстана к России. М., 1957
Бекмеханова Н.Е. Многонациональное население Казахстана и Киргизии в эпоху капитализма (60-е годы XIX в.-1917 г.). М., 1986

Бендриков К.Е. Очерки по истории народного образования в Туркестане (1865-1924 гг.). М., 1960
Бердыев Т.Б. Очерки по истории школы Туркменской ССР. Ашхабад, 1960
Бобровников Н.А. Русско-туземные училища, мектебы и медресе Средней Азии. М., 1913
Валиханов Ч.Ч. Собрание сочинений. В 5-ти томах. Алма-Ата, 1961-1968
Васильев Л.С. История Востока. В 2 т. Т. 2. Учебник. М., 2001
Василевский Е.Г. Идейная борьба вокруг столыпинской аграрной реформы. М., 1960
Ветошкин М.К. Революция 1905-1907 гг. в Сибири и на Дальнем Востоке. Чита, 1955
Вессель Н.Х. Очерки об общем образовании в системе народного образования в России. М., 1959
Взаимодействие литератур народов Сибири и Дальнего Востока. Новосибирск, 1983
Власова Э.Н. Зарождение горной промышленности в Туркестанском крае. Ташкент, 1963
Возникновение и деятельность социал-демократических организаций в Туркестане. Летопись событий /1903-февраль 1917 гг./. Ч.I. Ташкент, 1971
Виноградов В.С. Киргизская народная музыка. Фрунзе, 1958
Вопросы истории Башкирии. Уфа, 1972
Вопросы истории дореволюционной Сибири. Томск, 1983
Вопросы истории Казахстана XIX-начале XX вв. Алма-Ата, 1961
Вопросы истории Казахстана. Алма-Ата, 1962
Вопросы истории Казахстана и Восточного Туркестана. Алма-Ата, 1962
Вопросы истории Татарии. Казань, 1962
Вопросы истории Чувашии. Чебоксары, 1977
Вопросы истории Чувашии XIX-начала XX вв. Чебоксары, 1988
Вопросы социально-экономической истории дореволюционного Казахстана. Алма-Ата, 1978

Вопросы экономики и истории Чувашской АССР. Чебоксары, 1963
Воробьев Н.И. Татары Среднего Поволжья и Приуралья. М., 1967
Гаффаров Ф. Экономические и политические связи России с Кокандским ханством в первой половине и 60-70-годах XIX в. Автореф. дисс…. канд. истор. наук. Ташкент, 1970
Горюшкин Л.М. Аграрные отношения в Сибири периода империализма (1900-1917 гг.). Новосибирск, 1976
Григорьевич Г.П. Из истории аграрных отношений дореволюционного Семиречья /XIX-XX вв./. М., 1962
Григорьевич Г.П. Аграрные отношения на юге Казахстана в 1867-1914 гг. Алма-Ата, 1965
Губенко Г.Н. Революционное движение в Таврической губернии в 1905-1907 гг. Симферополь, 1955
Давлетов Дж. Туркменский аул в конце XIX-начале XX века. Ашхабад, 1977
Давлетбаев В.С. Крестьянская реформа 1861 г. в Башкирии. М., 1983
Дамешек М.И. Студенты в революционном движении. Томск, 1966
Дамешек Л.М. Внутренняя политика царизма и народы Сибири /XIX-начала XX вв./. Иркутск, 1986
Джамгерчинов Б.Д. Очерк политической истории Киргизии XIX века (первая половина). Фрунзе, 1966
Джумагулов К.Т. Ибрай Алтынсарин и развитие культуры казахского народа. Алма-Ата, 1984
Джуманазаров У. Жанровые разнообразия и идейно-художественные особенности узбекского исторического фольклора. Автореф. дисс. … докт. филол. наук. Ташкент, 1991
Денике Б.П. Искусства Средней Азии. М., 1967
Денисов П.В. Религиозные верования чуваш. Чебоксары, 1959
Деревянко А. П., Шабельникова Н.А. История России с древнейших времен до конца XX века. М., 2001

Димитриев В.Д. Чувашия в эпоху феодализма: XVI-XIX вв. Чебоксары, 1986
Дубровский С.М. Столыпинская земельная реформа. М., 1963
Дулов В.И., Кудрявцев Ф.А. Революционное движение в Восточной Сибири в 1905-1907 гг. Иркутск, 1955
Дулов В.И. Социально-экономическая история Тувы XIX-начало XX в. М., 1956
Житов К.Е. Февральская революция в Узбекистане. Ташкент, 1957
Зиманов С.З. Общественный строй казахов первой половины XIX в. Алма-Ата, 1958
Зиманов С.З. Политический строй Казахстана в конце XVIII и первой половине XIX веков. Алма-Ата, 1960
Зиманов С.З. Россия и Букеевское ханство. Алма-Ата, 1982
Зольников Д.М. Крестьянство Сибири в эпоху капитализма. Новосибирск, 1982
Зурабов А. Вторая Государственная Дума. СПб., 1908
Иванова С.И. Чокан Валиханов. М., 1983
Из истории Башкирии. Уфа, 1963
Из истории Башкирии. Уфа, 1968
Из истории Средней Азии. Ташкент, 1965
Из истории Средней Азии и Восточного Туркестана (XV-XIX вв.). Ташкент, 1987
Из истории Татарии. Казань, 1968
Из истории Татарии. Казань, 1970
Из истории Узбекистана XIX-XX вв. (Сборник статей). Ташкент, 1975
Из истории феодализма и капитализма в Башкирии. Сборник статей. Уфа, 1971
Искандаров Б.И. Восточная Бухара и Памир в период присоединения Средней Азии к России. Душанбе, 1960
Искандаров Б.И. Из истории Бухарского эмирата. М., 1958
Исмаил Гаспринский и Туркестан. Ташкент, 2005
Исторические места и памятники Крыма. Симферополь, 1960
Исследования по истории Башкирии XVIII-XIX вв. Уфа, 1973

Кабытов П.С. Поволжская деревня накануне февральской буржуазной демократической революции. Куйбышев, 1977
Казахская ССР. 4-томная краткая энциклопедия. Т.I. Алма-Ата, 1985
Казахстан в эпоху феодализма. Алма-Ата, 1981
Камбалов Н. Исследования Алтая. Новосибирск, 1991
Кары-Ниязов Т.Н. Очерки истории культуры Советского Узбекистана. М., 1955
Кары-Ниязов Т.Н. О культурном наследии узбекского народа. Ташкент, 1960
Кары-Ниязов Т.Н. Избранные труды. В 8-ми т. Т.5-6. Ташкент, 1967
Кары-Ниязов Т.Н. Размышление о пройденном пути. М., 1970
Каррыев А., Росляков А. Краткий очерк истории Туркменистана (1868-1917). Ашхабад, 1956
Касымбаев Ж.К. Города Восточного Казахстана в 1861-1917 гг. Алма-Ата, 1990
Керенский Н.А. Медресе Туркестанского края. СПб., 1892
К истории социально-экономических укладов Киргизстана. Фрунзе, 1972
Ковалев П.А. Тыловые рабочие Туркестане в годы первой мировой войны. Ташкент, 1953
Козлов Н.В. Петр Петрович Семенов-Тян-Шанский. М., 1983
Кочаров В.Т. Из истории организации и развития народного образования в Туркестанском крае. Ташкент, 1959
Краткий очерк истории Туркменистана. Ашхабад, 1956
Крестьянство Сибири периода разложения феодализма и развития капилизма. Новосибирск, 1980
Крестьянство Сибири в эпоху капитализма. Новосибирск, 1982
Кричинский Арслан. Очерки русской политики на окраинах. Ч.I. Баку, 1919
Крым революционный. Симферополь, 1968
Крым многонациональный. Симферополь, 1988
Крым: прошлое и настоящее. М., 1988

Кузембаев Н.К. О культуре в быту населениях аула и села. Алма- Ата, 1957
Кузнецов И.Д. Крестьянство Чувашии в период капитализма. Чебоксары, 1963
Кузнецов И.Д. Очерки по истории чувашского крестьянства. Чебоксары, 1969
Культура, искусство татарского народа. Казань, 1993
Лившитса С. Казань в годы первой революции 1905-1907 гг. Казань, 1955
Любимов В.И. Чувашия в годы Столыпинской аграрной политики. Чебоксары, 1948
Максименко М.М. Крестьянское движение в Таврической губернии накануне и после отмены крепостного права. Симферополь, 1957
Маликов Ф. Февральская буржуазно-демократическая революция в Казахстане. Алма-Ата, 1972
Масанов Н.Э. Проблемы социально-экономической истории Казахстана на рубеже XVIII-XIX веков. Алма-Ата, 1984
Миллер Г.Ф. История Сибири. М., 1991
Михайлов С.М. Казанский Университет и просвещение народов Поволжья и Приуралья. М., 1965
Мошкова В.Г. Ковры народов Средней Азии конца XIX-начала XX вв. Ташкент, 1970
Муканов М.С. Казахская юрта. Алма-Ата, 1981
Муминов И.М. Из истории развития общественно-философской школы в Узбекистане в конце XIX-начала XX вв. Ташкент, 1955
Надинский П.Н. Очерки по истории Крыма. Ч.І. Симферополь, 1951
Назарова Б. История Узбекистана. Ташкент, 1960
Наливкин В.П. Туземцы раньше и теперь. М., 1913
Народы Поволжья и Приуралья. М., 1985
Народы Средней Азии и Казахстана. Тт. I-II. М., 1962-1963
Народы Сибири. М.-Л., 1956

Невяровская Е.В. Россия в период столыпинской реакции (1908-1912 гг.). М., 1951
Николаев П.Н. Революционное движение в Чувашии в 1905-1907 гг. Чебоксары, 1956
Нурмухаммедов М.Н. Из истории русско-каракалпакских культурных связей. Ташкент, 1974
Нусов В.Е. Архитектура Киргизии с древнейших времен до наших дней. Фрунзе, 1971
Нусунбеков А.Н. Вопросы истории Казахстана. Алма-Ата, 1989
Образ жизни сибирского крестьянства периода разложения феодализма и развития капитализма. Новосибирск, 1983
Орлов А.С. и др. История России. Учебник. М., 2006
Очерки истории культуры до революционной Чувашии. Чебоксары, 1985
Очерки искусства Средней Азии. М., 1982
Очерки истории сельского хозяйства и крестьянства Чувашии. Чебоксары, 1989
Очерки по истории Башкирской АССР. Т.1. Ч.2. Уфа, 1959
Очерки по истории Горно-Алтайской автономной области. Горно-Алтайск, 1973
Очерки по истории Крыма. Ч. 3-4. Симферополь, 1964-1967
Ошская область. Энциклопедия. Фрунзе, 1987
Перепилицына Л.А. Влияние и роль русской культуры в развитии культур народов Средней Азии. М., 1966
Плоских В.М. Киргизы и Кокандское ханство. Фрунзе, 1977
Плоских В.М. Очерк земельных отношений в Южной Киргизии накануне вхождения в состав России. Фрунзе, 1965
Погорельский И.В. Очерки экономической и политической истории Хивинского ханства конца XIX-начала XX вв (1873-1917). Л., 1968
Потапов Л.П. Очерки по истории алтайцев. М.-Л., 1953
Потапов Л.П. История Тувы. Т.I. М., 1964
Проблемы истории русско-казахских взаимосвязей (XVIII-начале XX в.). М., 1980

Промышленность и рабочие Сибири в период капитализма. Новосибирск, 1980
Пугаченкова Г.А. Выдающиеся памятники изобразительного искусства Узбекистана. Ташкент, 1960
Пугаченкова Г.А. Искусство Туркменистана. Очерк с древнейших времен до 1917 г. М., 1967
Пугаченкова Г.А., Ремпель М.М. История искусства Узбекистана с древнейших времен до середины девятнадцатого века. М., 1965
Пясковский А.В. Революция 1905-1907 годах в Туркестане. М., 1958
Пясковский А.В. Восстание 1916 года в Средней Азии и Казахстане. М., 1960
Рабинович Г.Х. Крупная буржуазия и монополистический капитал в экономике Сибири конца XIX начала XX вв. Томск, 1975
Радлов В.В. Из Сибири. Страницы дневника. М., 1989
Радноев Б.Э. Развитие культуры Забайкалья и Сибири в XVIII-начала XX вв. Омск, 1973
Развитие культуры Татарии в дооктябрьский период. Казань, 1988
Раимов Р.М. 1905 год в Башкирии. М.-Л., 1941
Рахимов М.У. История Ферганы. Ташкент, 1984
Революционное движение в Казахстане в 1905-1907 годах. Алма-Ата, 1955
Революция 1905-1907 гг. в Средней Азии и Казахстане. Ташкент, 1985
Реформа 1861 г. на Алтае. Тюмень, 1972
Рогозин Н.Е. Влияние сибирской железной дороги на экономическое развитие Сибири в начале XX в. Минск, 1953
Росляков А. Краткий очерк истории Туркменистана. Ашхабад, 1956
Сабитов Н. Мектебы и медресе у казахов. Алма-Ата, 1950
Савицкий А.П. Поземельный вопрос в Туркестане. /В проектах и законе 1867-1886 гг./. Ташкент, 1963

Савокин А.М., Ханзаров К.Х. Рабочее движение и деятельность социал-демократических организаций в Туркестане. Ташкент, 1957
Садыков А.С. Россия и Хива в конце XIX-начале XX века. Ташкент, 1972
Садыков Х.Д. Политико-административное устройство Туркестанского генерал-губернаторства (1867-1917 гг.). Ташкент, 1973
Саидкулов Т.С. Самарканд во второй половине XIX-начале XX веков. Самарканд, 1970
Сапаргалиев Г.С. Карательная политика царизма в Казахстане /1905-1917 гг./. Алма-Ата, 1966
Сапелькин А.А. К истории феодализма в Киргизии в конце XIX-начале XX вв. Фрунзе, 1968
Сафронов Ф.Г. Русские крестьяне в Якутии (XVII-начало XX вв.). Якутск, 1961
Сваровская М.И. и др. История Сибири. Тюмень, 1987
Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991
Сидельников С.М. Образование и деятельность первой Государственной думы. М., 1962
Сидельников С.М. Аграрная реформа Столыпина. М., 1973
Сидоренко С.А. Февральская буржуазно-демократическая революция и начало перехода к революции социалистической в Сибири. Челябинск, 1970
Сидоров П.А. Численность, состав и динамика населения Чувашии в капиталистический период. Чебоксары, 1963
Сильченко М.С. Казахская литература XIX в.-начала XX в. Алма-Ата, 1959
Скляров Л.Ф. Переселения и землеустройство в Сибири в годы столыпинской аграрной реформы. Л., 1962
Скотова С.Г. Из истории Юго-Восточной Сибири. М., 1989
Смыков Ю.И. Крестьяне Среднего Поволжья в борьбе за землю и волю 60-90-е годы XIX века. Казань, 1973
Соловьев Е.И. Крестьянская промышленность Сибири во второй половине XIX в. Новосибирск, 1975

Социальная организация и культура народов Сибири. М., 1974
Социально-экономическое и политическое положение Узбекистана накануне Октября. Ташкент, 1973
Социально-экономические отношения в городе и деревне Казахстана. Алма- Ата, 1988
Страницы истории Башкирии. Уфа, 1974
Страницы истории и материальной культуры Киргизстана (досоветский период). Фрунзе, 1975
Суворов В.А. Историко-экономический очерк развития Туркестана. Ташкент, 1962
Сулейменов Б.С. Аграрный вопрос в Казахстане последней трети XIX-начала XX вв. /1867-1907 гг./. Алма-Ата, 1963
Сулейменов Б.С. Восстание 1916 года в Казахстане. Алма-Ата, 1977
Сулейменов Б.С. Революционное движение в Казахстане 1905-1907 годах. Алма-Ата, 1977
Сулейменов Б.С. Казахстан в составе России в XVIII-начале XX века. Алма-Ата, 1981
Сухерева О.А. Бухара XIX-начала XX в. М., 1966
Тажибаев Т.Т. Просвещение и школы Казахстана во второй половине XIX века. Алма-Ата, 1962
Тажибаев Т.Т. Развитие просвещения и педагогической мысли в Казахстане во второй половине XIX века. Ч. I. Алма-Ата, 1958
Толыбеков С.Е. Общественно-экономический строй казахов в XVII-XIX веках. Алма-Ата, 1959
Татары Среднего Поволжья и Приуралья. М., 1940
Токарев С.А. Очерк истории якутского народа. М., 1940
Топчий А.П. Крестьянская реформа в Сибири. Томск, 1979
Троицкая А.Л. Материалы по истории Кокандского ханства XIX в. М., 1969
Туркменская Советская Социалистическая Республика. Энциклопедический справочник. Ашхабад, 1984
Турсунбаев А.Б. Из истории крестьянского переселения в Казахстан. Алма-Ата, 1950

Турсунбаев А.Б. Казахстан в революции 1905-1907 годов. Алма-Ата, 1987

Турсунов Х.Т. Восстание 1916 года в Средней Азии и Казахстане. Ташкент, 1962

Тухтаметов Т.Г. Россия и Хива в конце XIX-начале XX в.М., 1969

Тюкавкин В.Г. Социально-экономические предпосылки переселения крестьян в Сибирь в начале XX века. Иркутск, 1961

Убайдуллаев С. Революционное движение народов Средней Азии в период реакции 1907-1910 гг. Ташкент, 1967

Узбекская Советская Социалистическая Республика. Энциклопедия в одном томе. Ташкент, 1981

Уманский А. Памятники культуры Алтая. Барнаул, 1959

Усенбаев К.У. Присоединение Южной Киргизии к России. Фрунзе, 1960

Усенбаев К.У. Общественно экономические отношения киргизов /вторая половина XIX-начало XX вв./. Фрунзе, 1980

Усманов А.Н. Присоединение Башкирии к русскому народу. Уфа, 1960

Усманова Д.М. Мусульманские депутаты в Государственной Думе Российской империи. 1906-1917. Автореф. дисс. …докт. истор. наук. Казань, 2004

Усманов Х.Ф. Столыпинская аграрная реформа в Башкирии. Уфа, 1958

Усманов Х.Ф. Развитие капитализма в сельском хозяйстве Башкирии в пореформенный период 60-90-е годы XIX в. М., 1981

Участие солдатских масс в революции 1905-1907 годов в Туркменистане. Ашхабад, 1966

Фасеев К.В. Из истории татарской передовой общественной мысли. Казань, 1955

Фирсова П.Н. Казань в 1905 году. Казань, 1963

Фомченко А.П. Русские поселения в Бухарском эмирате. Ташкент, 1958

Фомченко А.П. Русские поселения в Туркестанском крае в конце XIX-начале XX вв. Ташкент, 1983
Фридман Ц.Л. Иностранный капитал в дореволюционном Казахстане. Алма-Ата, 1960
Хакимов З. Культура Узбекистана: традиции и современность. Ташкент, 1986
Халиков Н.А. Земледелие татар Среднего Поволжья и Приуралья XIX-начала XX вв. М., 1981
Халфин Н.А. Политика России в Средней Азии (1857-1868). М., 1960
Халфин Н.А. Присоединение Средней Азии к России. М., 1965
Халфин Н.А. Россия и ханства Средней Азии (первая половина XIX в.). М., 1974
Хасанов Х.Х. Революция 1905-1907 гг. в Татарии. М., 1965
Хозяйство и культура башкир в XIX и начале XX в. М., 1979
Хотамов Н.Б. Роль банковского капитала в социально-экономическом развитии Средней Азии / нач. 90-х гг. XIX в.-1917 г./. Душанбе, 1990
Худоятов Г.А. Британская экспансия в Средней Азии. Ташкент, 1981
Черменский Е.Д. IV Государственная Дума и свержение царизма в России. М., 1976
Чокан Валиханов и современность. Алма-Ата, 1988
Шамурадов А. Аграрные отношения в Закаспийской области в конце XIX- начале XX вв. Ашхабад, 1990
Шаниязов К.Ш. К этнической истории узбекского народа. Ташкент, 1974
Экономическая политика царизма в Сибири в XIX - начале XX века. Иркутск, 1984
Экономические связи России со Средней Азией. 40-60 годы XIX века. М., 1963
Эргис Г.У. Очерки по якутскому фольклору. М., 1974
Юлдашбаев Б.Х. Проблема нации и политическое положение башкир в составе царской России. Уфа, 1979

Юлдашев А.М. Аграрные отношения в Туркестане (конец XIX-начало XX вв./. Ташкент, 1969

Юнусходжаева М. Из истории землевладения в дореволюционном Туркестане. Ташкент, 1970

Юсуров Х. Переселение дунган на территорию Киргизии и Казахстана. Фрунзе, 1961

Язлыев Ч. История и хозяйственное развитие населения среднего Мургаба (XIX-начало XX). Ашхабад, 1985

Якубовский Я.Ю. Очерки из истории туркменского народа и Туркменистана (XVIII-XX вв.). Ашхабад, 1954

Якунин А.Ф. Народы Средней Азии и Казахстана во второй половине 19 века. Присоединение Средней Азии к России. М., 1954

Янгузин Р.З. Хозяйство башкир дореволюционной России. Уфа, 1989

# XƏRİTƏLƏR
# VƏ
# İLLÜSTRASİYALAR




*Sibir XIX əsrin sonlarında*




*XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Mərkəzi Asiyanın siyasi xəritəsi*




*Sibir və Uzaq Şərq xalqları*



***V.V.Bartold***



***V.V.Radlov***



*P.P.Semyonov-Tyanşanski*



*A.P.Fedçenko*



*İ.V.Muşketov*



*N.Y.Biçurin*



*N.İ.Aşmarin*



*N.İ.Lobaçevski*



Abay Kunanbayev



Çokan Vəlixanov



*Mirzə Kazım bəy*



*İsmayıl bəy Qaspiralı*



*Furkat*



*Mukimi*



*Kəminə*



*İbray Altınsarin*



*Toqolok Moldo*



*Kayum Nasiri*



*H.Feyzxanov*



*Ş.Mərcani*



Q.Tukay



H.Həkimzadə



*Q. İbrahimov*



*F. Şalyapin*



*XIX əsrin ikinci yarısında Özbəkistanda məktəb*



*Məktəbdə dərs. Özbəkistan*



*Simbirsk çuvaş məktəbi qadın bölməsinin bir qrupu, 1896*



*Kazan Universiteti*



*Krım. Sevastopol, Mərkəzi kitabxana, 1901*



*Krım, Koreiz, Dilbər sarayı, 1895-1897*



*Taş-Xauli sarayı, 1832*



*İslam Xoca minarəsi, 1910*



*Kokandlı sənətkarın mis məcməyiyə Xudoyar xanın sarayının memarlıq peyzajını həkk etməsi*



*Ağac üzərində oyma. Xivə, XIX əsr*



*Simferopol, XIX əsrin əvvəli*



*Qırğız ovçusu şahinlə*



*Kenesar Kasimov*



*Amangəldi İmanov*



*Kokandda pambıqtəmizləmə zavodu, XX əsrin əvvəli*

**Нисбет Джанмамед кызы Мехтиева**

# История
# тюркских народов
## Новое время
## (XIX и начало XX веков)

**Учебник для вузов**

**Баку, Адильоглы, 2010**

**Nisbət Mehdiyeva**
**(Nisbət Canməmməd qızı Mehdiyeva)**

# TÜRK XALQLARININ TARİXİ

**Tərtibatçı:** Mehdi İsgəndərov

| | |
|---|---|
| **Çapa imzalanmışdır:** | 04.09.2010 |
| **Kağız formatı:** | 60x90 1/16 |
| **H/n həcmi:** | 22 ç.v. |
| **Sifariş:** | 211 |
| **Sayı:** | 500 |

Kitab «ADİLOĞLU» nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Şərifzadə küç., 202*
*Tel.: 498-68-25; 418-68-25; 433-00-43*
*faks: 498-08-14;*
*Web: www.adiloglu.az;*
*E-mail: adiloglu2000@gmale.com*


NORVEÇ
İSVEÇ
FİNLANDİYA
ŞİMAL
BELÇİKA
HOLLANDİYA
FRANSA
ALMANİYA
Berlin
BALTİK DƏNİZİ
ESTONİYA
LATVİYA
LİTVA
POLŞA
Münhen
ÇEXİYA
AVSTRİYA
Vyana
SLOVAKİYA
Krakov
MİNSK
BUDAPEŞT
MACARİSTAN
Belorusiya
SARAYEVO BOSNİYA
RUSİYA
MOSKVA
FEDERASI
UKRAYNA
SANCAK
RUMINIYA
KİYEV
KOSOVO
BOLQARİSTAN
MOLDAVİYA
ÇEBOKSARI
ÇUVASİYA M.R.
KAZAN
ÜSKÜP
KOMRAT
YUNANISTAN
Dnepr
TATARISTAN M.R.
UFA
AZOV D.
Don
VOLQA
BAŞQIRDİSTAN M.R.
QARA DƏNİZ
Kuban
TÜRKİYƏ
ANKARA
URAL
QAZAXISTAN
AĞ DƏNİZ
K.K.T.C.
XƏZƏR DƏNİZİ
ARAL GÖLÜ
Sirdərya
AZƏRBAYCAN
Naxçıvan
BAKI
SURİYA
Fərat
Erbil
Kərkük
TÜRKMƏNİSTAN
ÖZBƏKİSTAN
Amudərya
İORDANİYA
İRAQ
Dəclə
AŞQABAT
QIRĞIZISTAN
TACİKİSTAN
İRAN
QIRMIZI DƏNİZ
SƏUDİYYƏ ƏRƏBİSTANI
BƏSRƏ KÖRFƏZİ
Şiraz
HERAT
ƏFQANISTAN
Məkkə
Ciddə
PAKISTAN

# TÜRK DÜNYA




ASI XƏRİTƏSİ